MANİSA CELAL BAYAR ÜNİVERSİTESİ

# Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası

# I Beynəlxalq Sosial Elmlər Konfransı

## Sosial-İqtisadi və Tarixi-Mədəni Əlaqələrin Strateji Prioritetləri




**28-29 SENTYABR 2022**

www.sosialelmler.aesma.edu.az

ISSN 2410-4108

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası

Manisa Celal Bayar Universiteti

# I Beynəlxalq Sosial Elmlər Konfransı

## Sosial-İqtisadi və Tarixi-Mədəni Əlaqələrin Strateji Prioritetləri

# MATERİALLAR

**28-29 sentyabr 2022-ci il,**

**Bakı, Azərbaycan**

# TƏŞKİLAT KOMİTƏSİ

## FƏXRİ SƏDRLƏR

**Prof. Dr. Hüseyn QARAŞOV** (Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Rektoru)
**Prof. Dr. Ahmet ATAÇ** (Manisa Celal Bayar Universitetinin Rektoru)

**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**
Prof. Dr. Fəhrad MÖHBALIYEV (Tədris və Elmi İşlər üzrə Prorektor)
Dos. Hicran MİRZƏYEVA (Maliyyə - İqtisad fakültəsinin dekanı)
Sədaqət MƏMMƏDOVA (Sosial İş fakültəsinin dekanı)
Prof. Dr. Vilayət İSMAYILOV (İqtisadiyyat və idarəetmə kafedrasının müdiri)
Dos. Zeynəddin ŞABANOV (HİH və sosial fənlər kafedrasının müdiri)
Dos. Nurəngiz MİKAYILOVA (Maliyyə və mühasibat uçotu kafedrasının müdiri)
Tex.ü.f.d. Niyar UMAROVA (Riyaziyyat və İnormasiya texnologiyaları kafedrasının müdiri)
Siy.e.ü.f.d. Orxan VƏLİYEV (HİH və sosial fənlər kafedrasının müəllimi)
Riy.ü.f.d. Firanə MƏMMƏDOVA (Magistratura, qiyabi və əlavə təhsil şöbəsinin müdiri)

## ELMİ HEYƏT

Prof. Dr. Fəhrad MÖHBALIYEV
**(Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası)**
Prof.Dr.Cüneyit Yenal KESBİÇ
**(Manisa Celal Bayar Universiteti )**
Prof. Dr. Vilayət İSMAYILOV
**(Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası)**
Prof.Dr. Ali ASKER
**(Karabük Universiteti)**
Prof. Dr. Vəkil HƏSƏNOV
**(Azərbaycan Dövlət İqtisad Universiteti - UNEC)**
Prof.Dr.Yalçın SARIKAYA
**(Giresun Universiteti)**
Prof. Dr. Rəfail HƏSƏNOV
**(Bakı Dövlət Universiteti)**
Prof.Dr. Deri Gülenaz SELCUK
**(Manisa Celal Bayar Universiteti)**
Prof.Dr. Tərlan ABDULLAYEV
**(Odlar Yurdu Universiteti)**
Prof.Dr.Tuncar ÖZDİL
**(Manisa Celal Bayar Universiteti)**
Prof.Dr.Qənimət SƏFƏROV
**(Azərbaycan Dövlət Neft və Sənaye Universiteti)**
Prof.Dr.Melih ÖZÇALIK
**(Manisa Celal Bayar Universiteti)**
Doç. Dr. Ülviyye SANILI AYDIN
**(Manisa Celal Bayar Universiteti)**
Dos. Hicran MİRZƏYEVA
**(Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası)**
Dos. Sevda SƏRDAROVA
**(Azərbaycan Dövlət İqtisad Universiteti - UNEC)**
Dos. Raziyyə MANİYEVA

**(Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası)**
Doç. Dr. Alpay Bizbirlik
**(Manisa Celal Bayar Universiteti)**
Dos. Zeynəddin ŞABANOV
**(Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası)**
Dr. Ahmet Nazmi ÜSTE
**(Dokuz Eylül Universitesi)**
B.m.u.f.d. Eşqin TANRİVERDİ
**(Sos Uşaq Kəndləri Azərbaycan Assosiasiyası)**
Dos. Nurəngiz MİKAYILOVA
**(Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası)**
Dos. Ramil ƏLİYEV
**(Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu - AMEA)**
Dos. Ələsgər ƏLİYEV
**(Azərbaycan Dövlət Memarlıq və İnşaat Universiteti)**
Dos. Əsgər ƏLİYEV
**(Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası)**
Dos. Zakir ƏLİZADƏ
**(Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası)**
Tex.ü.f.d. Niyar UMAROVA
**(Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası)**
Siy.e.ü.f.d. Orxan VƏLİYEV
**(Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası)**
Riy.ü.f.d. Firanə MƏMMƏDOVA
**(Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası)**

**İştirakçı ölkələr: Azərbaycan, Türkiyə, Kanada, İran, Qazaxıstan**

**Konfransda 39 ölkə daxili, 29 xarici ölkə olmaqla 68 ədəd məqalə Azərbaycan, Türk, İngilis, Rus dillərində məruzə edilmişdir.**

**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, 28-29 sentyabr, 2022**

## KONFRANSDA İŞTİRAK EDƏN ÖLKƏ VƏ TƏŞKİLATLAR

1. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası
2. Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası
3. Azərbaycan Dövlət İqtisad Universiteti
4. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası
5. Azərbaycan Dövlət Pedaqoji Universiteti
6. Azərbaycan Dövlət Aqrar Universiteti
7. Azərbaycan Universiteti
8. Azərbaycan Kooperasiya Universiteti
9. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi tabeliyində Aqrar Tədqiqatlar Mərkəzi
10. Azərbaycan Elmi-Tədqiqat və Layihə Axtarış Energetika İnstitutu
11. Azərbaycan Dövlət Memarlıq və İnşaat Universiteti
12. Azərbaycan Dillər Universiteti
13. AMEA İqtisadiyyat İnstitutu
14. AMEA Fizuli adına Əlyazmalar İnstitutu
15. AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
16. AMEA, Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu İstanbul Universitesi
17. ADPU-nun Şəki filialı
18. Bakı Dövlət Universiteti
19. Bakı Avrasiya Universiteti
20. Bakı Biznes Universiteti
21. Communication sciences PHD, public relations Specialist at Power Distribution company of Tabriz
22. Ege Üniversitesi Türk Dünyası Araştırmaları Enstitüsü, Türkiyə
23. Giresun Universiteti, Türkiyə
24. High School Research Assistant, İran
25. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi
26. İqtisadiyyat Nazirliyi, İqtisadi Elmi -Tədqiqat İnstitutu
27. İstanbul Universitesi, Türkiyə
28. İzmir Katip Çelebi Üniversitesi, Türkiyə
29. Karamanoğlu Mehmetbey Üniversitesi, İzmir, Türkiyə
30. Manisa Celal Bayar Universiteti, Türkiyə
31. Niaqara Universiteti, Toronto, Kanada
32. Mingəçevir Dövlət Universiteti
33. Orta Doğu Texnik Universiteti, Ankara, Türkiyə
34. Principal of Social Sciences High School, İran
35. Social sciences school teacher, İran
36. SOS Uşaq Kəndləri Azərbaycan Assosasiyası
37. Qazaxıstan Qızlar Universiteti
38. Recep Tayyib Erdoğan Universiteti, Rizə, Türkiyə
39. 305 №-li tam orta məktəb, Bakı

# MÜNDƏRİCAT

## PLENAR HİSSƏ

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, professor Səttar **MÖHBALIYEVİN** konfrans iştirakçılarına müraciəti ........ 10
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru, professor Hüseyn **QARAŞOVUN** açılış nitqi ........ 12
Manisa Celal Bayar Universitetinin rektoru prof. dr. Ahmet **ATAÇIN** konfrasda çıxışı........15
Vüsal **QASIMLI** (İtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi icraçı direktoru i.e.d., prof. ) / Beyin mərkəzlərinin sosial-iqtisadi inkişafda rolu........16
**DR.** Eşqin **TANRIVERDİ** (SOS Uşaq Kəndləri Azərbaycan Assosiasiyası**)**
Tədqiqat layihəsi təqdimatı ........ 23

## İQTİSADİYYAT VƏ İDARƏETMƏ ELMLƏRİ BÖLMƏSİ
## EKONOMİ VE YÖNETİM BİLİMLERİ BÖLÜMÜ

Tuncer **ÖZDİL**, Anıl İlkem **ASLAN**
Azerbaycan ve Türkiye ekonomilerinin karşılaştırmalı etkinlik analizi ........ 28
Fəhrad **MÖHBALIYEV**
Azərbaycan-Türkiyə əlaqələri iqtisadi münasibətlər sistemində ........ 36
Vilayət **İSMAYILOV**
Turizmin əhali məşğulluğunun təmin edilməsində rolu........ 40
Hicran **MİRZƏYEVA**, Rəşid **YELMARLI**
Aqrar sahədə marketinq tədqiqatlarının informasiya problemləri ........45
Özlem **ZEYBEK TEKİN**, Cüneyt **Yenal KESBİÇ**
Dış ticaretin döviz kuru değişmelerine duyarlılığının marshall-lerner koşulu çerçevesinde analizi: gelişmekte olan ülkeler üzerine bir inceleme ........ 50
İbrahim **ATTİLA ACAR**
Faiz yarışının sonuna doğru ........ 64
Ələsgər **ƏLİYEV**, Şaban **MƏMMƏDOV**
Azərbaycanda tikinti şirkətlərinin idarə edilməsi sisteminin təkmilləşdirilməsində beynəlxalq təcrübədən istifadə imkanlarının tədqiqi və dəyərləndirilməsi........ 73
Mirələm **HƏSƏNLİ**, **MƏMMƏDHƏSƏNOV** / Regionların maliyyə təminatında büdcələrarası münasibətlərin rolu ........ 76
Əlirza **MƏMMƏDOV**, Qəhraman **BAYRAMOV,** Şəhriyar **ŞAHKƏRƏMLİ**
Dövlət müəssisələrində kadr siyasətinin formalaşdırılması amilləri........ 79
Taleh **ƏKBƏROV**, Ə. **İBRAHİMLİ** / Müasir şəraitdə innovativ sahibkarlığın inkişaf qanunauyğunluqları ........ 85
Nizami **QAFAROV/** İstehlak bazarında kiçik innovativ biznesin logistika zənciri ........ 91
Ofeliya **SƏMƏDOVA**, Pünhan **MUSAYEV** / İqtisadi artımda bərpa olunan enerjinin əhəmiyyəti ........ 97
Pərvin **MƏMMƏDOVA/** Covid-19 -un azərbaycanda çay plantasiyalarının və çay istehsalının dinamikasına təsirləri........101
Bağış **ƏHMƏDOV/** Azərbaycanda ev təsərrüfatlarının qənaətinin həcminə pensiya sisteminin təsirinin qiymətləndirilməsi ........107
Ağa-Kərim **HACIYEV** / Azərbaycanda dövlət maliyyəsinin idarə olunması və iqtisadi artım........113
Ülkər **MƏMMƏDOVA** / Kənd təsərrüfatı istehsalçılarının kredit qaytarma qabiliyyətinin yüksəldilməsi ........120

Lalə **CABBARLI** / Ölkələrarası münaqişələrin ərzaq təhlükəsizliyinə təsirinin qiymətləndirilməsi ........ 126
Mina **NAZARİ,** Nasrin **NAZARİ**, Roya **NAZARİ,** Solmaz **NAZARİ** / Role of socıal networks ın customer decısıon journey in tourısm ........ 134
Fəxri **MƏMMƏDOV** / Yüksək əmtəə qiymətlərinin dünya iqtisadiyyatına təsiri ........ 143
Fərid **MƏMMƏDHƏSƏNOV** / Regionun sosial-iqtisadi inkişafında müəssisələrin maliyyə resurslarının rolu ........ 146
Pərviz **ƏLİYEV** / Azərbaycanda aqrar sahəyə dövlət dəstəyinin effektivliyinin ekonometrik qiymətləndirilməsi ........ 150
Doktorant Səfər **HÜSEYNOV** / Ölkə iqtisadiyyatının inkişafında universitet-sənaye-dövlət əməkdaşlığı ........ 154
Rafael **HÜSEYNOV** / Müasir dövrdə aqrobizesin formalaşması və inkişafının əsas istiqamətləri ........ 157
Cavid **MƏMMƏDOV**, Elgiz **SEYIDOV** / Müasir vergi sistemi göstəricilərinin tədqiqinə nəzəri-konseptual yanaşma ........ 162
Ruslan **ŞÜKÜR /** Enflasyon oranını etkileyen faktörler ve bir tahminleme modeli geliştirme: azerbaycan örneği ........ 167

## SOSİO-MƏDƏNİ ELMLƏR BÖLMƏSİ
## SOSYO-KÜLTÜREL BİLİMLER BÖLÜMÜ

Əli **ƏLİRZAYEV**, Fəridə **QURBANOVA** / Müharibədən sonrakı dövrdə sosial işçinin təlim istiqamətləri ........ 172
Hasan **HÜSEYİN AKKAŞ** / İnsan hakları kavramının batı ve islam düşüncesinde Karşılaştırılması ........ 176
Nesrin **DEMİR**, Canan **Uğur RİZZİ** / Human rıghts of syrıac mınorıty ın turkey: ımprovements and challenges ........ 185
Faiq **ƏLƏKBƏRLİ** / XIX əsrdə azərbaycanda şərq-islam-türk fəlsəfəsi və qərb-avropa fəlsəfəsinin sintezi problemi ........ 192
Ö. Hakan **ÇAVUŞ** / Türkiye-Azerbaycan sosyal güvenlik sözleşmesi hakkında Değerlendirmeler ........ 202
Nailə **SÜLEYMANOVA** / Qarabağın elm və mədəniyyət tarixində nəvvabın əlyazmaları ........ 209
Əlvan **SÜLEYMANOVA,** Elnur **ƏLƏKBƏROV** / Dövlətin sosial siyasəti: modernləşmə və innovasiyalar fonunda ........ 213
Aysel **MAMMADLİ**, Şehnaz **DEMİRKOL** / Gezgin rehberlerin kişilik özellikleri ile destinasyon tercihleri arasındaki ilişkinin değerlendirilmesi ........ 219
Zeynəddin **ŞABANOV** / Fəlsəfənin tədrisi və yeni standartlar ........ 228
Əhmədli **LEYLA** / Osmanlı imperiyasının cənub slavyan ölkələrində daxili siyasəti (xv-xvı əsrlərdə) ........ 239
Fəridə **MÖVSÜMOVA** / Müasir dünyada insan hüquqları ........ 244
Günay **AĞAYEVA** / Müharibədən zərər çəkən şəxslərin emosional və psixi sağlamlığı ........ 247
Jalə **ƏLİYEVA** / Əlilliklə bağlı həyata keçirilən sosial siyasətlər ........ 250
Məmmədova Aygün **KAMANDARİ** / Azərbaycan multikulturalizmində mövcud dini müxtəliflik ........ 255
Mahrux **ABBAS /** Aristoteli fərqli oxu ........ 259
Məhsəti **CƏFƏROVA** / Mədəniyyətdə ünsiyyət amili və milli özünüdərkə sosial işçi münasibəti ........ 266
Nəzakət **SƏLİMOVA** / İdarəetmə prosesində qəbul edilmiş qərarların icrasının sosial-

psixoloji aspektləri ............ 275
Pakizə **ƏLİYEVA** / Arif abdullazadənin şuşa mövzulu əsərləri ............ 282
Sahibə **MUSAYEVA** / Saxurlarda nişan mərasiminin spesifik xüsusiyyətləri ............ 290
Şəfa **ƏBDÜRRƏHİMOVA** / Fransada gender siyasətinin tarixi və hüquqi əsasları ............ 294

## TƏHSİL VƏ HUMANİTAR ELMLƏR
## EĞİTİM VE BEŞERİBİLİMLER

Üyesi Osman **TEKİR** / Sömürge mantığında “dil”in araç olarak kullanılması: fransa örneği ............ 301
Merve **İŞSEVEN**, Aynur **İNCEKIRIK** / Starbucks müşterilerinin memnuniyetini etkileyen faktörlerin belirlenmesi ............ 308
**Nurəngiz MİKAYILOVA, Hikmət MİRZƏYEV** / Qarabağın yenidən qurulmasında Marşal planının tətbiqi imkanları ............ 320
Gülşən **XALIQOVA** / Azərbaycan neftinin müxtəlif istiqamətdə ixrac edilməsinin mühüm xətti ............ 329
Leyla **NAĞIYEVA** / Yaxın və orta şərqin geostrateji və geoiqtisadi önəmi ............ 332
Elmira **AZERETBERGENOVA** / Serali lapin: and activities ............ 338
Arzu **NADİRZADƏ** / Müasir informasiya cəmiyyətində gənclərin ünsiyyət problemləri ............ 342
Matanat **HASANOVA** / Development perspectıves of sports tourısm ın azerbaıjan ............ 348
Səba **HÜSEYNOVA** / Azərbaycanın maddi- mədəniyyət abidələrinin qorunmasında və təbliğində heydər əliyev fondunun rolu ............ 354
Nihad **GARİBOV** / Azerbaijan’s wind energy contract and its effect on energy security ............ 358
Ruhiyya **HACIYEVA** / Azerbaycan'ın kurtarılmış topraklarının ekonomik potansiyelinin stratejik öncelikleri ............ 366
Sirac **MƏMMƏDOV,** Cahan **MƏMMƏDOVA** / Böyük Qafqaz təbii vilayətinin landşaft differensiyası ............ 372
Güldeniz **METİN HASANOV** / Sosyal-medenı alanda insan ılışkılerının psıkolojıde rolu ve kültürel faktörler ............ 380
Fateh **SANSAR /** hedıye dıplomasısı: sultan ıı. abdülhamıt’ın romanya kralı ı. carol’a gönderdığı bır hedıye’nın takdımı ve kabulü ............ 384

## İKT və TEXNİKİ ELMLƏR /BİT VE TEKNİK BİLİMLER

Köçərli **YALÇIN,** Köçərli **LEYLA** / Sosial işin təşkilində rəqəmsal texnologiyalar: problemlər və perspektivlər ............ 383
Behice Banu Çiçek **BOŞKUT**, Cemal Erdem **HEPAKTAN**, Hayatı **BOŞKUT**, Mehrac **SARIXANLI** / Siber ekonomide siberuzay güvenliği ............ 390
Firanə **MƏMMƏDOVA** / Mədəniyyət beşiyi Şuşa şəhəri statistik göstəricilərdə ............ 398
Niyar **UMAROVA** / Azərbaycan mədəniyyətinin tanınmasında İKT-nin rolu ............ 402
Təranə **VƏLİYEVA** / E- İDARƏETMƏ DÖVRÜN TƏLƏBİDİR ............ 411
Махир **ДЖАЛАЛОВ** / Сущность метода математического моделирования в Эконометрике ............ 419
Əli **ABBASOV** / Qiymət əyrisi üzrə elektrik qiymətinin proqnoz modeli ............ 424
Rüfat **HASANOV** / Cyberattack and defence ways ............ 428

# AÇILIŞ

## AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASININ SƏDRİ, PROFESSOR SƏTTAR MÖHBALIYEVİN NİTQİ

**Hörmətli qonaqlar və konfrans iştirakçıları!**

Sizi AHİK-in çoxsaylı kollektivi adından salamlayıram, konfrans iştirakçılarına uğurlar arzulayıram!

Konfrans "Sosial-iqtisadi və tarixi-mədəni əlaqələrin strateji prioritetləri" mövzusuna həsr olunmuşdur.

Mən Azərbaycan-Türkiyə arasındakı əlaqələri və onun genişləndirilməsi istiqamətində bəzi fikirlərimi qeyd etmək istəyirəm. Azərbaycan Türkiyə arasında tarixi qardaşlıq və dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan münasibətlər daima möhkəmlənməkdədir. Siyasi, iqtisadi və sosial sahələrdə bir çox əməkdaşlıqlar qurulmuş və hər iki ölkədə bu əməkdaşlıq çərçivəsində diplomatik əlaqələr davamlı inkişaf etməkdədir.

Azərbaycan-Türkiyə iqtisadi əlaqələri Ulu Öndər Heydər Əliyevin vurğuladığı "Bir millət, iki dövlət" devizinə və tarixi-mədəni qardaşlıq prinsipinə əsaslanan, strateji tərəfdaşlığa söykənən münasibətlər sistemini əhatə edir. Türkiyə Cumhuriyyəti ilə iqtisadi əlaqələrimiz dərin tarixi köklərə dayansa da, bu münasibətlərin geniş vüsət alması müstəqilliyimizin qazanılmasından sonrakı dövrə təsadüf edir.

Müstəqillik əldə edildikdən sonra Azərbaycan Respublikası ilə Türkiyə Cumhuriyyəti arasında əlaqələrin inkişafında yeni dövrün əsası qoyuldu. Türkiyə ilk dəfə olaraq Azərbaycanı suveren dövlət kimi tanımış və ona maddi, mənəvi və siyasi dəstək vermişdir. Bununla da Türkiyə dünya xəritəsində daha bir demokratik, müstəqil türk dövlətinin təşəkkül tapması üçün yardımçı olmuşdur.

Türkiyə ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığın əsas məqsədi ilk növbədə onların malik olduqları təbii, maddi və intellektual potensialdan səmərəli istifadə etmək, hər iki ölkənin iqtisadi müstəqilliyini təmin edə biləcək bütün zəruri istehsal və həyati əhəmiyyət kəsb edən sahələrini genişləndirmək, başqa dövlətlərdən asılı olmayan inkişafını təmin etmək, öz daxili ehtiyaclarını ödəmək və dünya bazarına yüksək keyfiyyətli məhsul çıxarmaqdan ibarətir.

İqtisadi münasibətlərin reallaşması baxımından, xam neftin Azərbaycan Respublikası, Gürcüstan Respublikası və Türkiyə Cumhuriyyəti əraziləri ilə "Bakı-Tbilisi-Ceyhan" Əsas İxrac Boru Kəməri vasitəsilə nəql edilməsinə dair "Sazişə" imza atılması mühüm rol oynadı və 13 iyul 2016-cı il tarixində Türkiyənin Ceyhan limanında Bakı-Tbilisi-Ceyhan(BTC) əsas ixrac neft boru kəmərinin rəsmi açılış mərasimi keçirildi. Bakı-Tbilisi-Ceyhan kimi Bakı-Tbilisi-Ərzurum(BTƏ) qaz kəməri də iki ölkə arasındakı regional xarakterli ən mühüm layihələrdən biri oldu və 2007-ci ildən etibarən bu xətt ilə Türkiyəyə qaz nəqli həyata keçirilir. Türkiyə ilə Yunanıstan arasında qaz boru sisteminin birləşdirilməsindən sonra isə, Azərbaycan üçün bu kəmər vasitəsilə Avropa İttifaqı ölkələrinə qaz ixracı mümkün oldu. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin fəaliyyətə başlaması, Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərinin istismara verilməsi və bununla da, Azərbaycanın dünya bazarına neft və qaz ixrac etmək imkanı əldə etməsi ölkəmizin imkanlarını daha da genişləndirdi.

İqtisadi əlaqələrin sürətlənməsi üçün nəqliyyat infrastrukturunun diversifikasiyası beynəlxalq yük və sərnişin daşıyıcılarının ölkəmizin ərazisindən tranzitinin daha da artırılması, regional əməkdaşlığın inkişaf etdirilməsi baxımından Azərbaycan və Türkiyə üçün xüsusi əhəmiyyət kəsb edən hadisələrdən biri ölkələrimizin rəhbərlərinin təşəbbüsü və iradəsi ilə "Bakı-Tbilisi-Qars" yeni dəmir yolu xəttinin reallaşdırılması olduqca önəmli məsələlərdən biri hesab edilir.

Bir neçə kəlmə də AHİK-lə Türkiyənin KOOP-İŞ Həmkarlar İttifaqı arasındakı qarşılıqlı münasibətləri qeyd etmək istərdim. Belə ki, Azərbaycan-Türkiyə Həmkarlar İttifaqının qarşılıqlı əlaqələrinin genişləndirilməsi çərçivəsində 2022-ci ilin iyul ayının 2-də Türkiyənin Ankara şəhərində bu ölkənin KOOP-İŞ Həmkarlar İttifaqının 20-ci Qurultayında AHİK-in sədr müavini və digər rəsmi nümayəndələr iştirak etdilər.

2022-ci il sentyabr ayının 22-də Türkiyənin KAMU-SEN Konfederasiya-sının nümayəndə heyəti Azərbaycana səfərə gəlmişlər. Konfederasiyanın sədri Önder Kahveci nümayəndə heyətləri ilə birlikdə

Fəxri Xiyabana gələrək xalqımızın Ümumilli Lideri, Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə gül dəstələri düzdülər.

Azərbaycan-Türkiyə əməkdaşlığı möhkəm təməl üzərində qurulub. Bu gün mən çox xoşbəxtəm ki, sizinlə, türk qardaşlarımla bir elmi konfransda iştirak edirəm. Bizim mənəvi yaxınlığımız xalqlarımızın qarşılıqlı şəkildə gələcəyə ümumi inamını dahada möhkəmləndirir. Elə buna görə də hər iki qardaş ölkənin həmkarlar ittifaqı təşkilatları həmkarlar ittifaqına xas olan fəaliyyət metodlarından və imkanlarından istifadə edərək xalqlarımızın və ölkələrimizin çiçəklənməsi naminə əllərindən gələni edirlər.

Bütün dünyaya nümunə olan və daim güclənən Azərbaycan-Türkiyə arasında münasibətlərin inkişafı türk dünyasını daha sıx şəkildə bir araya gətirir. 44-günlük Azərbaycan-Ermənistan müharibəsində qələbə çalan müzəffər ordumuza qardaş Türkiyə bütün imkanları ilə döyüşənlərin ilk günündən etibarən Azərbaycanın ədalətli mübarizəsinə  dəstək verdi. Türkiyə Prezidenti, Türkiyə Millət Məclisi, Xarici İşlər Nazirliyi, Müdafiyə Nazirliyi və mərbuat nümayəndələri də daxil olmaqla, bütün türk xalqından böyük həmrəylik gördük.

Hörmətli Receb Tayyib Erdoğan Azərbaycanın bu müharibədə yalnız olmadığını, Türkiyənin hər zaman qardaş Azərbaycanın yanında olduğunu dünyaya bəyan etdi. Hər iki Prezidentin birlikdə Zəfər Paradını qəbul etməsi bütün dünyaya ölkələrimizin birliyini, xalqlarımızın qardaşlığını bir daha göstərdi.

AHİK 20 ilə yaxındır ki, Türkiyəli həmkarları ilə dostluq və tərəfdaşlıq edir. İki qardaş ölkənin həmkarlar ittifaqları arasında əməkdaşlıq və təcrübə mübadiləsinin davam etirilməsinin vacibdir. Azərbaycanın münaqişəni sülh yolu ilə həll etmək səyləri heç bir nəticə vermədi. Növbəti erməni hərbi təxribatına cavab olaraq əks-hücum əməliyyatlarına başlayan yenilməz Azərbaycan Ordusu cəmi 44 günə işğalçı ordunu məhv etdi. Belə ki, torpaqlarımızın erməni qəsbkarlarından azad edilməsi zamanı Türkiyə dövlətinin və onun Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın ölkəmizə göstərdiyi mənəvi və diplomatik dəstək sözün həqiqi mənasında təmənnasız qardaşlığın təntənəsi hesab edilir. Türkiyənin dövlət strukturları Azərbaycanın qələbəsi üçün bütün sferalarda böyük əzmkarlıq göstərdilər. Nə qədər beynəlxalq təzyiqlər olsa da, Türkiyə qardaşlıq dəstəyi mövqeyindən geri çəkilmədi. Buna görə qardaş ölkəmizə sonsuz təşəkkürlərimizi ifadə edirik".

Həmçinin müttəfiqlik haqqında imzalanmış Şuşa Bəyannaməsi iki ölkə arasında əlaqələri ən yüksək səviyyəyə qaldırır: "Bəyannamədə göstərilən bütün müddəalar keyfiyyətcə daha yüksək işbirliyinin təminatıdır. Burada xalqlarımızın böyük liderləri, öndərləri Mustafa Kamal Atatürkün və Heydər Əliyevin kəlamları öz əksini tapıb. XX əsrin əvvəllərində Mustafa Kamal Atatürk demişdir: "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir". XX əsrin sonlarında isə Ulu Öndər Heydər Əliyev demişdir ki, "Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir". XXI əsrdə azad edilmiş Şuşada müttəfiqlik Bəyannaməsinin imzalanması bu cür yanaşma və fəlsəfənin əbədiləşdirilməsinin təcəssümüdür. Bəyannamədə müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələləri öz əksini tapır. Bu, tarixi nailiyyətdir. Bu, bir daha göstərir ki, biz bundan sonra da hər zaman bir yerdə olacağıq. Bundan sonra da bir-birimizin təhlükəsizliyini təmin edəcəyik. Necə ki, bu günə qədər Türkiyə və Azərbaycan bütün məsələlərdə bir yerdədir, bundan sonra da bu, belə olacaq.

Son olaraq qeyd edim ki, universitetlərində qarşılıqlı fəaliyyət göstərməsi təqdirəlayiqdir. Arzu edirəm ki, davamlı olsun.

**Bir daha hər birinizə konfransın işində uğurlar arzulayıram!**

## AZƏRBAYCAN ƏMƏK VƏ SOSİAL MÜNASİBƏTLƏR AKADEMİYASININ REKTORU, PROFESSOR HÜSEYN QARAŞOVUN AÇILIŞ NİTQİ

**Hörmətli konfrans iştirakçıları! Dəyərli qonaqlar!**

**Sizi salamlamaqdan çox məmnunam. Xoş gəlmisiniz!**

"Sosial-iqtisadi və tarixi-mədəni əlaqələrin strateji prioritetləri" adlı bu konfransın keçirilməsini Cəlal-Bayar Universiteti ilə birlikdə qərarlaşmışıq.

Cəlal-Bayar Universiteti ilə Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası arasında əməkdaşlıq protokolu 2016-cı ildə imzalanmışdı. Bu müddət ərzində əlaqələrimiz xeyli genişlənmişdir.

Ümumiyyətlə məqsədimiz qardaş Türkiyənin Universitetləri ilə sıx əlaqə yaratmaqdır.

Çox xoşdur ki, bu gün İzmir Katip Çelebi Universitetindən Professor, Dr. İbrahim Atilla Acar, Professor, Dr. Nesrin Demir, Doktor Osman Tekir, Canan Uğur Rizzi, Ege Universitetindən Mehmet Fatih Sansar və Karamanoğlu Mehmetbey Universitetindən Hasan Hüseyn Akkaş burada bizimlədir.

Konfransın keçirilməsində əsas məqsəd sosial-iqtisadi, tarixi-mədəni əlaqələrin inkişafında yeni çağırışları müzakirə etmək və kreativ yanaşmaları geniş təbliğ etməkdən ibarətdir.

Türkiyə ilə Azərbaycan arasında dostluq-qardaşlıq münasibətləri Azərbaycan müstəqilliyini elan etdikdən sonra arzu olunan səviyyədə mövcud olmağa başlamışdır.

18 oktyabr 1991-ci ildə müstəqillik aktı qəbul edən Azərbaycan respublikasını Türkiyə bir ay keçmədən – 9 noyabrda tanıyan ilk ölkə oldu. Diplomatik əlaqələrimiz rəsmi olaraq 14 yanvar 1992-ci ildə başladı.

Azərbaycanın Türkiyədə səfirliyi 1992-ci ilin avqust ayında açılmışdır. 1993-cü ilin yanvar ayında İstanbul şəhərində, 12 aprel 2004-cü ildə isə Qars şəhərində Azərbaycanın Baş Konsulluqları təsis edilmişdir. Türkiyənin isə Bakıda səfirliyi, Naxçıvan və Gəncə Şəhərlərində Baş konsulluqları fəaliyyət göstərir.

Artıq bu gün görürük ki, Azərbaycanla Türkiyə arasında əlaqələr siyasi, iqtisadi, humanitar, hərbi və başqa bütün sahələrdə uğurla inkişaf edir.

15 sentyabr 2010-cu ildə İstanbulda imzalanmış Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının (YSSƏŞ) yaradılmasına dair Birgə Bəyannamə ilə təsbit olunmuş Şuranın keçirilən iclasları iki ölkə arasında bütün sahələrdə əlaqələrin daha da genişlənməsi və dərinləşməsinə öz töhvəsini vermişdir. Şuranın 25 oktyabr 2011-ci ildə İzmir şəhərində ilk iclası keçirilmiş, 11-12 centyabr 2012-ci ildə Qəbələ şəhərində 2-ci, 2013-cü ilin 12-13 noyabrında Ankarada 3-cü, 2015-ci ilin 14-15 yanvarında Ankarada 4-cü, 15 mart 2016-cı ildə Ankarada 5-ci və 31 oktyabr 2017-ci ildə isə Bakıda 6-cı iclası keçirilmiş, iclasların yekununda bütün sahələrdə əlaqələr müntəzəm nəzərdən keçirilmiş və bir çox sahələr üzrə mühüm sənədlər imzalanmışdır.

Azərbaycan Respublikasının yerləşdiyi Cənubi Qafqaz regionu həm qonşu, həm də digər ölkələrlə dostluq və hərtərəfli əməkdaşlıq ruhlu regional və beynəlxalq tərəfdaşlarla birlikdə inkişaf üçün səmərəli istifadə oluna biləcək geniş potensiala və imkanlara malikdir. Belə ki, Azərbaycan Respublikasının zəngin təbii ehtiyatları, o cümlədən müasir dövr üçün önəmli olan neft və qaz ehtiyatları ölkənin çiçəklənməsi və milli rifahın təmin olunması üçün perspektivlər açır, onu beynəlxalq əhəmiyyətli enerji mənbəyi və beynəlxalq enerji təchizatı şəbəkəsinin mühüm tərkib hissəsinə çevirir.

Azərbaycan Respublikasının və tərəfdaş ölkələrin iqtisadiyyatının inkişafına artıq töhfə verən beynəlxalq əhəmiyyətli nəqliyyat və kommunikasiya dəhlizlərinin inkişaf etdirilməsi, neft və qaz boru kəmərlərinin inşası region ölkələri ilə birgə əməkdaşlığın danılmaz və bariz nümunəsidir.

Bu tərəfdaşlıq çərçivəsində Azərbaycan-Türkiyə arasında iqtisadi əlaqələr mühüm yer tutur. Türkiyə ilə iqtisadi əlaqələrimizin vüsət alması yuxarıda qeyd etdiyim kimi Azərbaycanın müstəqilliyindən sonrakı dövrə təsadüf edir. Azərbaycan-Türkiyə arasında iqtisadi əlaqələrin əsas məqsədi təbii, maddi və intellektual potensiallardan maksimum səmərəli istifadə edilməsindən, ölkələrin iqtisadi müstəqilliyini təmin edən zəruri istehsal və həyati əhəmiyyətli sahələrin genişləndirilməsindən, xaricdən asılı olmadan öz daxili ehtiyaclarını ödəməklə bərabər dünya bazarlarına dövlət standartlarına cavab verən məhsulların çıxarılmasının təmin edilməsindən ibarətdir.

Bu baxımdan Azərbaycan-Türkiyə arasında siyasi əlaqələri yüksək səviyyədə olan tərəfdaşlıq mövcuddur ki, bunun bariz nümunəsi kimi II Qarabağ müharibəsində ölkəmizə Türkiyənin hərtərəfli yüksək səviyyədə göstərdiyi dəstək hesab edilə bilər.

1994-cü il sentyabrın 20-də Azərbaycan Respublikasının Xəzər dənizindəki sektorunda olan neft yataqlarının müştərək istifadə edilməsi üçün dünyanın böyük neft şirkətləri ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında məlum müqavilə imzalanmışdır.

Azərbaycan neft və qazının dünya bazarlarına nəqli bir neçə xəttlərdən istifadə edilməklə həyata keçirilir:

- Bakı-Qroznı-Novorossiysk neft kəməri (Şimal marşrutu);
- Bakı-Supsa neft kəməri (Qərb İxrac Boru Kəməri);
- Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri;
- Bakı-Tbilisi-Ərzurum boru xətti (Qaz kəməri);
- Cənub Qaz Dəhlizi: TANAP (Trans-Anadolu Qaz Boru Kəməri),
- TAP (Trans Adriatik Boru Xətti).

Hazırda Rusiya və Ukrayna arasında davam edən müharibə ölkələrdə ərzaq qıtlığının yaranmasına və neft-qaz təminatının pisləşməsinə səbəb olmuşdur. Bu baxımdan son dövrdə Azərbaycana Aİ ölkələri və digər ölkələrdən qazla təmin edilmə istiqamətində müraciətlər edilir və bu məsələnin müsbət həlli istiqamətində dövlət müvafiq tədbirlərin görülməsində maksimum imkanlardan istifadə etməyə çalışır.

Azərbaycanın Şərqlə Qərbin qovşağı olması ona mühüm üstünlüklər verməklə yanaşı, eyni zamanda, onun bir sıra problemlərlə üzləşməsinə gətirib çıxarır ki, bu da ölkədə müvafiq tədbirlərın görülməsini tələb edir. Azərbaycan Respublikasının milli maraqları ölkədə yaşayan xalqların fundamental dəyər və məqsədlərini, eyni zamanda insan, cəmiyyət və dövlətin tərəqqisini və dayanıqlı inkişafını təmin edə biləcək siyasi, iqtisadi, sosial və digər tələbatların birgə təmin edilməsindən ibarətdir.

Azərbaycan dövləti ölkədə əhalinin rifahının daha da artırılması üçün sosialyönümlü bazar iqtisadiyyatının inkişaf etdirilməsi yolunu seçmişdir.

Azərbaycan Respublikasının Konstitusiyasının 16-cı maddəsində deyilir: “Azərbaycan Dövləti bazar münasibətləri əsasında sosialyönümlü iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız raqabətə yol vermir”.

Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli sərəncamı ilə “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” proqramı tasdiq edilmişdir.

Bu dövlət proqramının qəbul edilməsi ölkəmizin idarə olunmasında strateji planlaşmanın təcəssümüdür. Dövlətin davamlı inkişafını təmin etmək üçün bütün zəruri amillər mövcuddur. Sosial-iqtisadi və mədəni həyatında böyük təkamül yolunu inamla keçərək Azərbaycan sabit təhlükəsiz və müasir həyatsəviyyəsini təmin etmiş ölkə kimi dünyada tanınır.

“Milli Prioritetlər”də dövlətimizin növbəti 5 prioritetləri müəyyən edilib:

1. Dayanıqlı artan raqabətqabiliyyətli iqtisadiyyat;
2. Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
3. Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
4. İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
5. Təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi.

“Milli Prioritetlər” eyni zamanda Birləşmiş Millətlər Təşkilatının “Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik”dən irəli gələn öhdəliklərin icrası istiqamətində də xüsusi əhəmiyyətə malikdir.

Müasir dövrümüzdə İnformasiya Kommunikasiya Texnologiyaları (İKT) cəmiyyətin inkişafına təsir göstərən əsas amillərdən birinə çevrilib**.** Bu gün Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları (İKT) sahəsindəki fəaliyyət ümummilli lider Heydər Əliyevin 2003-cü ildə təsdiq etdiyi “Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya” nın həyata keçirilməsi ölkəmizin bu istiqamətdə inkişafını təmin edən əsas rəsmi sənəd olmuşdur. Ölkəmizdə «Poçt rabitəsi haqqında», «Elektron imza və elektron sənəd haqqında», «Telekommunikasiya haqqında», «Elektron ticarət haqqında» və s. Azərbaycan Respublikasının Qanunlarının qəbul olunması bu sahənin sürətli inkişafında əhəmiyyətli rol oynayır.

Hazırda Azərbaycanın sosial-iqtisadi həyatında mühüm rol oynayan informasiya-kommunikasiya texnologiyaları sahəsi inkişaf səviyyəsinə görə fərqlənir. Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının cəmiyyətin inkişafına təsir göstərən əsas amillərdən birinə çevrildiyini inkar etmək olmaz. Onun əhatə dairəsi dövlət strukturlarını və vətəndaş cəmiyyəti institutlarını, sosial-iqtisadi sahələri, elm və təhsili, mədəniyyəti, bütövlükdə, insanların həyat tərzini təşkil edir. Bu baxımdan ölkəmizdə bu sahə üzrə innovasiya yönümlü fəaliyyətin inkişaf etdirilməsi və gücləndirilməsi istiqamətində davamlı tədbirlər həyata keçirilir.

Hazırda informasiya sahəsində Azərbaycanın əsas məqsədi ölkənin informasiya potensialının artırılması, informasiya texnologiyalarından geniş istifadə, informasiya cəmiyyətinin qurulması istiqamətində əsaslı irəliləyişə nail olmaqdır. Yaradılan imkanların əsas məqsədi sosial xidmət təminatında dövlət qulluqçuları və vətəndaşlar arasında olan "məsafəni" azaltmaq, həmçinin, bu münasibətləri sadələşdirmək və şəffaflaşdırmaqdır. Dövlət orqanları tərəfindən elektron xidmətlərin geniş tətbiqi, onların sayının və keyfiyyətinin artırılması, vətəndaşların xidmətlərdən məmnunluğunun yüksəldilməsi bu məqsədə çatmağın vasitələridir. "Elektron Hökumət" virtual məkanın, müasir texnologiyaların imkanlarından, dövlət orqanlarında informasiyalaşdırmanın yüksək səviyyəsindən istifadə edərək ölkə vətəndaşlarına göstərilən xidmətlərin keyfiyyətcə yeni formada təqdim edilməsinə xidmət edir.

Ümumilikdə müasir dövrdə baş verən hərbi toqquşmalar və müharibələr qarşı tərəf üzərində üstünlük əldə etmək üçün təkcə silah gücünə deyil, həm də informasiyanın, texnoloji üstünlüklərin əhəmiyyətli olduğunu göstərir. 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan xalqı cəbhə ilə yanaşı, İKT-nin imkanlarından istifadə edərək informasiya müharibəsində də öz sözünü dedi. Zəfərlə başa çatan İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad edilmiş torpaqlarımızda texnoloji əsaslarla şəhərsalmanın həyata keçirilməsi istiqamətində artıq bir çox işlər görülmuş və davam etdirilir.

Telekommunikasiya peykinin orbitə çıxarılması bu istiqamətdə dövlətimizin ən böyük uğurlarından hesab edilməlidir. Bununla əlaqədar olaraq prezident İlham Əliyev bildirir: "Müstəqillik dövründə doğrudanda, elə böyük uğurlara imza atmışıq ki, hər bir Azərbaycan vətəndaşı bununla fəxr edə bilər. Onların içərisində peykin buraxılması xüsusi yer tutur. Əminəm ki, bu hadisə gələcəkdə müasirliyə, inkişafa doğru atılan addımlarımızı artıracaqdır".

Beynəlxalq mədəni əlaqələrin ikitərəfli və çoxtərəfli əməkdaşlıq istiqamətində inkişaf dinamikası artmaqdadır. İkitərəfli mədəni əlaqələrin davam etdirilməsində bir çox ölkələrlə – Çin, Böyük Britaniya, Türkiyə, İsrail, Polşa, Rumıniya, Yunanıstan, İtaliya, Bolqarıstan , eyni zamanda, keçmiş SSR-i respublikaları ilə mədəni əməkdaşlıq haqqında hökumətlərarası sazişlər bağlanmışdır. Bu əməkdaşlığın əsas prioritetlərinə iqtisadi, siyasi əlaqələrlə yanaşı incəsənətin musiqi, təsviri sənət, memarlıq sahələri üzrə qarşılıqlı əlaqələrin yaradılması daxildir.

Ölkəmiz hazırda beynəlxalq mədəni proseslərin fəal subyekti olaraq dünyada uğurla gerçəkləşdirilən bir çox mədəni proqram və layihələrin nəinki fəal iştirakçısı, həm də onların təşəbbüskarı və təşkilatçısı rolunda çıxış edir. Dünya mədəni proseslərinə fəal qoşulmaqla Azərbaycan həm özünün milli mədəniyyətini mütərəqqi, ümumbəşəri ideya və dəyərlərlə zənginləşdirir, həm də dünya mədəniyyətinin inkişafına öz layiqli töhfələrini verir.

Mədəniyyət haqqında Azərbaycanın milli qanunvericilik sistemi beynəlxalq mədəni əlaqələrin inkişafını, milli mədəniyyətin xaricdə yayılması və təbliğini, mədəni sərvətlərin qorunması sahəsində beynəlxalq əməkdaşlığın inkişafını, xaricdə yaşayan azərbaycanlılarla əlaqələrin yaradılmasını, onların mədəni və mənəvi ehtiyaclarının ödənilməsini, ümumiyyətlə beynəlxalq mədəni əməkdaşlığın əsas istiqamətlərini müəyyənləşdirir.

Mən çıxışımı yekunlaşdırıram və inanıram ki, konfransda iştirak edən "Sosial-iqtisadi" və "Tarixi-mədəni" yöndə çalışan gənc tədqiqatçılar maraqlı fikir, məntiqli təkliflər irəli sürəcəklər.

**Konfransın işində hər birinizə uğurlar arzu edirəm!**

**MANİSA CELAL BAYAR ÜNİVERSİTESİ REKTÖRÜ**
**PROF. DR. AHMET ATAÇ**

Türkiye ve Azerbaycan Avrasya bölgesinin iki önemli ülkesidir. Aralarındaki etnik, dini ve kültürel bağlar nedeniyle bu ülkeler birbirini ―kardeş devlet‖ olarak tanımlamaktadır. Tarihi olaylar yirminci yüzyılın başlarında Türkiye ve Azerbaycan'ı farklı yönlere sürüklemiştir. Osmanlı İmparatorluğu'nun parçalanması ile Anadolu'da Türkiye Cumhuriyeti kurulmuştur. Rus İmparatorluğu'nun dağılması sonrasında bağımsızlık ilan eden Azerbaycan ise Bolşevik işgaline maruz kalmış, Azerbaycan Sovyet Sosyalist Cumhuriyeti olarak Sovyetler Birliği'nin bir parçasını oluşturmuştur. Azerbaycan 1991 yılında yeniden bağımsızlığını kazanmış, onu ilk tanıyan ülke Türkiye olmuştur. Özellikle son on yılda iki ülke arasındaki ilişkiler duygusal zeminden çıkarak yerel, bölgesel ve küresel gelişmeler ışığında stratejik işbirliğine dönüşmüştür. Tarihi İpek Yolu'nun canlandırılması girişimleri, özellikle enerjide dışa bağımlı Avrupa Birliği ülkelerinin alternatif kaynak arayışı bağlamında Hazar havzası petrol ve doğalgazını Batı'ya taşıyacak boru hattı projelerinin başarılı bir şekilde faaliyete başlaması Türkiye-Azerbaycan ilişkilerine yeni bir ivme kazandırmıştır. COVID-19 salgını ile birlikte dünya ülkeleri alışık olmadığımız bir tehditle karşı karşıya kalmıştır. Ülkeler arası her türlü hareketlilik durma noktasına gelirken, Bakü-Tiflis-Kars demiryolu pandemi koşullarında en güvenli taşıma aracı olarak bölgesel ticaretin devam etmesini sağlamıştır. İki ülke arasındaki stratejik işbirliği Karabağ Zaferi ile taçlanmış, devletlerimiz arasında imzalanan Şuşa Beyannamesi ile ikili ilişkilerde yeni bir dönem başlamıştır.

Bugün her alanda olduğu gibi, Türkiye ve Azerbaycan arasında eğitim işbirliği de son hızı ile devam etmektedir. Biz de Manisa Celal Bayar Üniversitesi olarak ülkelerimiz arası eğitim ve bilimsel işbirliğinin geliştirilmesini önemsemekteyiz. Bu işbirliğinin daha da ileriye taşınması için, bilimsel ve teknolojik alanda somut çıktılar olarak ülkelerimizin ortak milli çıkarlarına hizmet etmesi için çalışmaktayız. Üniversitemiz her yıl Azerbaycan'dan öğrenci kabul etmektedir. Azerbaycanlı öğrenciler üniversitemizde eğitim gören yabancı uyruklu talebeler arasındaki en kalabalık gruptur. Şuanda üniversitemizde önlisans, lisans, yüksek lisans ve doktora programları düzeyinde toplamda 273 Azerbaycan uyruklu öğrenci (236 lisans, 28 tezli yüksek lisans ve 9 tezsiz yüksek lisans programı olmak üzere – Eylül 2022 itibariyle) aktif olarak eğitim görmektedir. Bu öğrencilerin okudukları alan ne olur ise olsun, gelecek yıllarda ülkelerimiz arasındaki işbirliğinin daha üst seviyelere taşınmasına hizmet edeceklerine olan inancım tamdır.

Günümüz dünyasında başarının en önemli anahtarı iletişimdir – ünsiyettir. Bu anlamda iki gün yapılacak olan konferansımızın bilim insanlarımız, öğrencilerimiz arasında iletişimin güçlendirilmesi, bilgi alış verişinin, tecrübe değişiminin gerçekleştirilmesi için gerekli olduğunu düşünüyorum.

Konferansa emeği geçen tüm arkadaşlarımıza, Rektör Sayın Prof. Dr. Hüseyin Garaşov'a, Dekan Hicran Mirzeyeva'ya teşekkür ediyorum. Emeklerinize sağlık. Geçtiğimiz aylarda TEKNOFEST için Bakü'ye geldiğimde üniversitenizi ziyaret etme fırsatım oldu. Çok mutlu oldum. Tekrar teşekkür ediyorum. Bu vesile ile şehitlerimize de Allahtan rahmet diliyorum.

İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ,
İCRAÇI DİREKTORU İ.E.D., PROF. VÜSAL QASIMLI

# BEYİN MƏRKƏZLƏRİNİN SOSİAL-İQTİSADİ İNKİŞAFDA ROLU

**Xülasə**

Beyin mərkəzlərinin inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin sosial-iqtisadi inkişafında rolu son dövrlər nəzərə çarpacaq dərəcədə artmaqdadır. Bunun isə əsas səbəbi Böyük Verilənlərin (Big Data) toplanması, saxlanması və analitikasının aparılması üçün yeni texnoloji yeniliklərin dinamik şəkildə inkişaf etməsidir. Bu gün beyin mərkəzləri, iqtisadi və sosial siyasətlərin qəbul edilməsi prosesini təkmilləşdirir, eyni zamanda regional və beynəlxalq şəbəkələr yaradır ki, bu da sosial-iqtisadi inkişafa öz töhfəsini verir. Dünyanın beyin mərkəzləri qloballaşma və idarəetmə, beynəlxalq iqtisadiyyat, ətraf mühit problemləri, beynəlxalq sülh və təhlükəsizlik, yoxsulluğun azaldılması, səhiyyə və qlobal sağlamlıq, informasiya və cəmiyyət kimi mühüm siyasət sahələrində bilik və siyasət arasında körpü yaratmağa kömək edir və bu istiqamətdə qlobal təşəbbüslər hazırlayırlar. Azərbaycanda fəaliyyət göstərən beyin mərkəzlərinin bir sıra əsas istiqamət üzrə apardıqları fəaliyyətlər data əsaslı strateji idarəetmədə önəmli rol oynayır ki, bu istiqamətlərə müxtəlif növ sorğuların aparılması və onların analizləri, elektron hökumətin yaratdığı Böyük Verilənlər və buna əsaslanan təhlillər, sosial medianın izlənməsi və aparılan araşdırmalar, eləcə də sosial və iqtisadi islahatların monitorinqi və qiymətləndirilməsi ilə bağlı yaranan dataların təhlili aiddir.

***Açar sözlər:*** *Beyin mərkəzləri, Böyük Verilənlər (Big Data), Data əsaslı qərar vermə, Kommunikasiya, Sosial-iqtisadi inkişaf*

**Summary**

The role of brain centers in the socio-economic development of developed and developing countries has been growing noticeably in recent times. The main reason for this is the dynamic development of new technological innovations for the collection, storage and analysis of Big Data. Today, brain centers improve the process of adopting economic and social policies, and at the same time create regional and international networks, which contribute to socio-economic development. The world's brain centers help bridge knowledge and policy in important policy areas such as globalization and governance, international economics, environmental issues, international peace and security, poverty reduction, health and global health, information and society, anddevelop global initiatives in this direction. The activities of brain centers operating in Azerbaijan in a number of main directions play an important role in data-based strategicmanagement, such as conducting various types of surveys and their analysis, Big Data created by electronic government and analyzes based on it, social media monitoring andresearch, as well as refers to the analysis of data generated in connection with the monitoring and evaluation of social and economic reforms.

***Keywords****: Brain centers, Big Data, Data-based decision-making, Communication, Socio-economic development*

*UOT(JEL):004.4,007.33,681.5Ə,*

## Giriş

Qlobal miqyasda beyin mərkəzlərinin rolu informasiya və texnoloji inqilab, həmçinin siyasət problemlərinin artan mürəkkəbliyi fonunda getdikcə güclənir. Beyin mərkəzləri həm strateji qərarları qəbul edənlərə, həm də bütövlükdə ictimaiyyətə data əsaslı qərarlar qəbul etməyə imkan verən daxili və beynəlxalq məsələlər üzrə fundamental tədqiqat, təhlil və analizlər aparan institutlar sayılırlar.

“Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” Prezident Fərmanı elm və təhsilin qarşılıqlı əlaqəsinin möhkəmləndirilməsi və bu sahələrdə idarəetmənin təkmilləşdirilməsi baxımından əhəmiyyətlidir. Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasına əsasən elmin müxtəlif sahələri üzrə tədqiqatlar genişləndiriləcəkdir. Müasir təfəkkürlü və kreativ düşüncəli gənclər erkən vaxtlardan elmi araşdırmalara cəlb ediləcəkdir. Elmi tədqiqatların rəqabətli və məqsədli maliyyələşdirilməsi mexanizmi yaradılacaqdır. Eyni zamanda elmi tədqiqat, texniki konstruktor işlərinin (ETTKİ) kommersiyalaşdırılmasına dəstək veriləcəkdir. Bu məqsədlə həyata keçirilən tədqiqatlar maliyyələşdiriləcək, ETTKİ infrastrukturu inkişaf etdiriləcəkdir. Müasir dövrdə texnologiyaların kommersiyalaşdırılması innovativ inkişafda prioritet olduğundan, tədqiqat nəticələrinin məhsula çevrilməsi təmin olunacaq və elmi tədqiqatlarda mövcud maneələr müəyyən edilərək aradan qaldırılacaqdır. Nəticədə, innovasiyaların bazara çatdırılması asanlaşdırılacaq, ETTKİ üzrə xərclərin ÜDM-dəki payı isə 0,1% səviyyəsinə çatdırılacaqdır. Eyni zamanda strategiyada 2026-cı ilə qədər, ölkədə tədqiqat potensialı yüksək olan iki universitetin bazasında iki tədqiqat universitetinin yaradılması da nəzərdə tutulur.

Beyin mərkəzlərinin kommunikasiyası digər bütün növ kommunikasiyalardan fərqlənir. Amerikalı iqtisadçı Tomas Stüart “Fortuna Magazine”-ə verdiyi müsahibədə bildirib ki, intellektual kapital menecerlərinin ən böyük vəzifəsi “biliyi paylaşa bilən təşkilatlar yaratmaq”dır. O, paylaşılmayan intellektual kapitalı faydasız otaqda tək oturan müdrik adama bənzədib. Amerikalı iqtisadçı beyin mərkəzlərində informasiyaların ötürülməsi üçün şəbəkələrin qurulmasını olduqca əhəmiyyətli hesab edib. O bildirib ki, bu şəbəkələr auditoriya, dinləyicilər, təchizatçılar və bütün maraqlı tərəflər arasında körpü rolunu oynayır. Hazırda dünyada 5500-dən artıq beyin mərkəzi fəaliyyət göstərir və bu mərkəzlərin bir çoxu hələ də effektiv kommunikasiyanın qurulması, təsir imkanlarının artırılması və nəticənin əldə edilməsində ölçü meyarları barədə standartlar müəyyən edilməsi üçün araşdırmalar aparırlar.

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Kommisiyasının saytında yerləşdirilən məlumata əsasən Azərbaycanda fəaliyyət göstərən elmi müəssisələrin sayı 103-dür. Elmi araşdırmalar aparan Qeyri – Hökumət Təşkilatlarının sayı isə 50 ətrafındadır. Qeyd edilən elmi müəssisələr elmin demək olar ki, bütün sahələri üzrə fəaliyyət göstərirlər.

## 1. Beyin Mərkəzləri Beynəlxalq Təcrübədə

Dünyanın beyin mərkəzləri son 30 il ərzində qloballaşma və idarəetmə, beynəlxalq iqtisadiyyat, ətraf mühit problemləri, beynəlxalq sülh və təhlükəsizlik, yoxsulluğun azaldılması, səhiyyə və qlobal sağlamlıq, informasiya və cəmiyyət kimi mühüm sahələrində bilik və strateji qərarların verilməsi arasında körpü yaratmağa kömək edən bir sıra qlobal təşəbbüslər hazırlayırlar. Bu gün beyin mərkəzləri, beynəlxalq əməkdaşlıq səylərini artırmaqla bütün dünyada vətəndaş cəmiyyətlərini gücləndirir, siyasətlərin qəbul edilməsi prosesini təkmilləşdirir, regional və beynəlxalq şəbəkələr yaradırlar. Vətəndaş cəmiyyətində iqtisadi siyasəti təhlil edən tədqiqat mərkəzləri önəmli rola malikdir. Fəaliyyət göstərən beyin mərkəzlərinin böyüməsinə təsir göstərən amilləri aşağıdakı kimi qruplaşdırmaq olar:

- İnformasiya və texnoloji inqilab
- Hökumətlərin informasiya üzərində monopoliyasının itməsi
- Siyasət problemlərinin artan mürəkkəbliyi və texniki xarakteri
- Hökumətin fəaliyyət miqyasının artması
- Qloballaşma
- Dövlət və qeyri-dövlət qurumlarının rolunun artması
- “Lazım olan vaxtda, lazım olan yerdə və lazım olan formada” yığcam məlumata və təhlilə ehtiyacın artması

Beyin mərkəzlərində dünyanın aparıcı alimləri və mütəxəssisləri çalışır və həlli vacib məsələlər üzrə siyasət sənədləri hazırlayırlar. Bir sıra beynəlxalq təşkilatların hazırladığı layihələri bura misal göstərmək olar. Məsələn, Think-20 tərəfindən G20 ölkələri üçün hazırlanan elmi tövsiyələr (https://www.t20indonesia.org/), Dayanıqlı İnkişaf Məqsədləri (DİM) üzrə Tərəfdaşlıq Platforması (https://sdgs.un.org/partnerships), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı Qlobal forumu (https://www.oecd.org/development/globalforum).

Pensilvaniya Universiteti müxtəlif kateqoriyalar üzrə dünyanın aparıcı beyin mərkəzlərini sıralayan illik “Global Go To Think Tank” İndeksi hazırlayır. İndeksin hazırlanması dünyanın çap və elektron media, akademik, dövlət və özəl donor institutları və hökumətlərdən ibarət olan 1796-dan çox qurum və ekspertlərdən ibarət bir panel tərəfindən həyata keçirilir. Hər il hazırlanan İllik Beyin Mərkəzləri İndeksi akademiklər, jurnalistlər, donorlar və ictimaiyyət tərəfindən dünyanın aparıcı araşdırma mərkəzlərini tapmaq və onlarla əlaqə yaratmaq üçün istifadə olunur. Burada əsas məqsəd beyin mərkəzlərinin profilini və fəaliyyətini artırmaq və beyin mərkəzlərinin dünya miqyasında hökumətlərdə və vətəndaş cəmiyyətlərində oynadığı mühüm rol haqqında ictimaiyyəti məlumatlandırmaqdır.

Bu günə qədər Beyin Mərkəzləri və Vətəndaş Cəmiyyətləri Proqramı (TTCSP) 85 ölkədə texniki yardım və potensialın gücləndirilməsi proqramlarını təqdim edib. Hazırda beyin mərkəzlərinin regional və qlobal şəbəkələrinin daha da gücləndirilməsi üzərində işlənilir. Əsas məqsəd yüksək keyfiyyətli və strateji qərarların verilməsinə ciddi şəkildə təsir göstərəcək araşdırmaları hazırlamaq və ictimai rifah naminə fəaliyyətləri formalaşdırmaq qabiliyyətini nümayiş etdirən beyin mərkəzlərini səfərbər etməklə davamlı institusional və dövlət səviyyəsində tərəfdaşlıq yaratmaqdır.

Beyin mərkəzləri və akademik institutlar sistemli, sektorlararası, qlobal miqyasda bir-birindən asılı olan və hər bir ölkənin həll etmək imkanlarından kənar olan məsələlərə üstünlük verməlidirlər. İnkişafın determinantları olan yoxsulluq, ətraf mühitin dəyişməsi, miqrasiya, qida təhlükəsizliyi kimi problemlər buna misaldır. Bunun üçün strateji qərarvermədə nüfuza malik yerli qurumlar və vətəndaş cəmiyyətinin nümayəndələri, eləcə də qlobal maraqlı tərəflərlə əlaqəyə ehtiyac vardır.

İqtisadi inkişafa fokuslanan beyin mərkəzləri və akademik institutlar universallığa dəstək verməlidirlər. Bilik "qlobal ictimai məhsul" hesab edilməlidir və beyin mərkəzləri və digər bilik institutları milli, regional və qlobal səviyyələrdə öyrənmə və həll yollarını paylaşmalıdırlar. Məqsədlərə çatmaqda hər bir ölkə özünəməxsus çətinliklərlə üzləşə bilsə də, "universallıq" beyin mərkəzlərinin qlobal əməkdaşlıq tələb edən problemlərin həlli üçün çərçivəni təmin edir.

Hazırda beyin mərkəzlərinin çoxu Şimali Amerikada fəaliyyət göstərir (39,3%), Asiya və Qərbu Avropada fəaliyyət göstərən beyin mərkəzləri dünya üzrə fəaliyyət göstərən mərkəzlərin 18% və 16.4%-ni təşkil edir.




**Şəkil 1**:Beyin mərkəzlərinin regional bölgüsü (mənbə: "Global Go To Think Tank Index" Hesabatı, 2021)

## 2. Azərbaycanda Beyin Mərkəzlərinin Data Əsaslı Strateji İdarəetmədə Rolu

Azərbaycanda fəaliyyət göstərən beyin mərkəzlərinin 4 istiqamət üzrə apardıqları fəaliyyətlər data əsaslı strateji idarəetmədə önəmli rol oynayır. Bu istiqamətlərə müxtəlif növ sorğuların aparılması və onların analizləri, elektron hökumətin yaratdığı Big Data (böyük verilənlər) və buna əsaslanan təhlillər, sosial medianın izlənməsi və aparılan araşdırmalar, eləcə də sosial və iqtisadi islahatların monitorinqi və qiymətləndirilməsi ilə bağlı yaranan dataların təhlili aiddir. Aşağıda qeyd edilmiş istiqamətlər üzrə ətraflı məlumat və araşdırma verilmişdir:

*Sorğular*

- İctimai fikrin öyrənilməsi üçün vətəndaşlar arasında sosioloji sorğuların keçirilməsi siyasi və sosial trendləri, cəmiyyət üçün əhəmiyyət kəsb edən məsələləri müəyyən etməyə və bu barədə aidiyyəti dövlət orqanlarını və qurumlarını məlumatlandırmağa xidmət edir. Məsələn, Sosial Araşdırmalar Mərkəzinin apardığı anket sorğuları, fokus qrup müzakirələri, intervyular ölkədə aparılan sosial siyasətin vətəndaşlar tərəfindən necə qiymətləndirildiyini müəyyən etməyə xidmət edir. Bununla yanaşı sorğuların təhlil edilməsi aidiyyatı dövlət qurumları üçün qərarların verilməsində önəmli rol oynaya bilir.
- Biznes mühitinin yaxşılaşdırılması və iqtisadi islahatlara dəstək məqsədi ilə sahibkarlar arasında aparılan sorğular müvafiq olaraq təhlil edilir və bunların əsasında görüləcək tədbirlər müəyyən edilir. Məsələn, Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə yaradılan Komissiyanın bəzi işçi qrupları mütamadi olaraq sahibkarlar arasında sorğular keçirirlər (tikintiyə icazələrin verilməsi sahəsində, vergi islahatları sahəsində, elektrik təchizatı şəbəkəsinə qoşulma sahəsində və s.) bu sorğuların nəticəsində isə növbəti ildə ölkədə biznes mühitinin yaxşılaşdırılması istiqamətində görüləcək işlər müəyyən edilir.
- Dövlət orqanlarının (qurumlarının) vətəndaşlara və sahibkarlara göstərdiyi xidmətlərin səviyyəsini ölçmək üçün mütamadi olaraq xüsusi sorğulardan istifadə edilir ki, bu da xidmətlərin göstərilməsində yaranan çətinlikləri görməyə və onları aradan qaldırmağa dəstək olur. Məsələn, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi "ASAN indeksi" üzrə illik olaraq dövlət orqanlarının vətəndaşlara göstərdiyi

xidmətləri qiymətləndirir. Bununla yanaşı, hazırda icra prossesində olan "KOB indeksi" dövlət xidmətlərinin mikro, kiçik və orta sahibkarlıq subyektlərinə təsirlərini qiymətləndirilməsində istifadə ediləcəkdir.

*Sosial medianın monitorinqi*

- Sosial media vasitələrinə internet üzərindən yayımlanan informasiya saytları, sosial şəbəkələr, bloqlar, ani ünsiyyət proqramları, forumlar daxildir. Sosial şəbəkələrin – əsasən də orada yer alan mətnlərin, rəylərin, həştəqlərin, açar sözlərin və s. monitorinqləri aparılır ki, bu da sosial şəbəkələrdə aktiv olan müxtəlif auditoriyaların maraqlarını müəyyən etməyə, ümumilikdə vətəndaşların istək və arzularını dəqiqliklə izləməyə və müvafiq olaraq lazımi strateji qərarların verilməsinə və tədbirlərin görülməsinə xidmət edir.
- Sosial şəbəkələrdə istifadəçi davranışlarının xarakterizə olunması və əlaqələrin qiymətləndirilməsi məqsədi ilə monitorinqlər aparılır. İnsanların bu günlərdə internetdə paylaşa biləcəkləri məlumatlara demək olar ki, məhdudiyyət yoxdur və sosial mediada məlumatların geniş və tez yayıldığını nəzərə alsaq, şəbəkələrin monitorinq edilməsi ölkəni mümkün təhlükələrdən qoruya bilir.
- Eyni zamanda, sosial media monitorinqləri vətəndaşlarla interaktiv əlaqə yaratmaqla auditoriyanın tələbatı olan məlumatları sosial media vasitəsilə yaymağa da öz töhfəsini verir. Hal-hazırda monitorinqlərin aparılmasında Big Data analitika texnologiyalarından (data mining, text mining və s.) istifadə olunur.

*Elektron hökumət (e-government)*

- Elektron hökumət – dövlət, vətəndaşlar və biznes sektoru arasında qarşılıqlı əlaqələrin qurulmasında mühüm əhəmiyyət kəsb edir və bununla da Böyük Verilənləri formalaşdırır ki, bu verilənlərdən istifadə etməklə strateji qərarların verilməsində yeni mərhələ açılır. Məsələn, Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminin yaratdığı Böyük Verilənlərdən (Big Data) istifadə etməklə kənd təsərrüfatı sahəsində optimal strateji qərarlar verilir ki, bu da aparılan aqrar siyasətin daha səmərəli olması deməkdir.
- Elektron hökumətin yaratdığı Böyük Verilənlər həm sosial həm də iqtisadi siyasətdə qərarların çevik və sürətli verilməsinə gətirib çıxarır, eyni zamanda xərclərin azalmasına töhfə verir.
- Yeni nəsil elektron hökumət (e-government 3.0) bu sahədə süni intellektin (artificial intelligence) və maşın öyrənməsinin (machine learning) geniş tətbiqini nəzərdə tutur ki, bu da xammal sayılan informasiyanın biliyə çevrilməsində mühüm əhəmiyyət kəsb edir.

*İslahatların monitorinqi və qiymətləndirilməsi*

- Sosial və iqtisadi sahədə dövlət strategiyalarının, proqramların, tədbirlər planlarının monitorinqi və qiymətləndirilməsi nəticəsində Böyük Verilənlər (Big Data) bazası yaranır. Xüsusən yeni islahatların hazırlanmasında monitorinq və qiymətləndirmə nəticəsində əldə olunan datalardan istifadə etmək olur. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) monitorinq və qiymətləndirmə institutu kimi ölkədə icra edilən strateji sənədlərin monitorinqini və qiymətləndirilməsini aparır. Bu prosses rəqəmsal platforma olan monitoring.az portalı vasitəsi ilə yerinə yetirilir. Monitoring.az portalı dövlət strategiyalarının, proqramların, tədbirlər planlarının monitorinqi və qiymətləndirilməsi nəticəsində Böyük Verilənlər bazası yaratmağa imkan yaradır.
- Digər tərəfdən Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın internet portalı olan azranking.az portalı Verilənlər Bazasından istifadə etməklə islahatların generasiyasını təmin edir və islahatlar da yenidən monitorinq olunur.
- Beləliklə, monitorinq.az və azranking.az portalları arasında funksional əlaqə - "müdrik çevrə" – yaranır ki, bu da data əsaslı qərarvermə prossessinə əhəmiyyətli dərəcədə töhfə verir. Eyni zamanda strateji qərarların qiymətləndirmə, koordinasiya və kommunikasiya imkanlarını artırmaqla bərabər ölkədəki islahat proseslərinin də sürətlənməsinə müsbət təsir göstərir. İİTKM-in təqdim etdiyi Azranking.az və Monitoring.az platformaları funksional əlaqələndirilməklə islahatlar və monitorinqin iş axınlarını rəqəmsal olaraq bir-birinə bağlayır: yeni islahat yeni monitorinq və yeni monitorinq yeni islahat təşəbbüslərini yaradır. İİTKM-də islahatların "həyat tsikli"nə aid olan bütün mərhələlər tam rəqəmsallaşdırılıb. Bu isə prosesin səmərəliliyini, şəffaflığını, inklüzivliyini və hesabatlılığını təmin edir.

**3. Beyin Mərkəzlərinin Kommunikasiyası**

Beyin mərkəzlərinin kommunikasiyası digər bütün növ kommunikasiya metodlarından fərqlənir. Yəni beyin məhsulunu yaratmaq və satmaq, elmi fəaliyyət ilə məşğul olmaq, iqtisadiyyat sahəsində yeni modelləşdirmə yaratmaq, innovativ həllərlə məşğul olmaq, paralel olaraq bu informasiyanı cəmiyyətə düzgün formada ötürmək – bütün bunları cəmiyyətə təqdim etmək heç də həmişə ənənəvi kommunikasiya vasitələri ilə mümkün olmur. Bu sahədə də daima yenilikçi olmaq lazımdır. Amerikalı iqtisadçı Tomas Stüart (1991) "Fortuna Magazine"-ə verdiyi müsahibədə bildiirb ki, intellektual kapital menecerlərinin ən böyük vəzifəsi "biliyi paylaşa bilən təşkilatlar yaratmaq"dır. O, paylaşılmayan intellektual kapitalı faydasız otaqda tək oturan müdrik adama bənzədib. Amerikalı iqtisadçı beyin mərkəzlərində informasiyaların ötürülməsi üçün şəbəkələrin qurulmasını olduqca əhəmiyyətli hesab edib. Bildirib ki, bu şəbəkələr auditoriya, dinləyicilər, təchizatçılar və bütün maraqlı tərəflər arasında körpü rolunu oynayır.

Hazırda dünyada 5500-dən artıq beyin mərkəzi fəaliyyət göstərir və bu mərkəzlərin bir çoxu hələ də effektiv kommunikasiyanın qurulması, təsir imkanlarının artırılması və nəticənin əldə edilməsində ölçü meyarları barədə standartlar müəyyən edilməsi üçün araşdırmalar aparırlar. Media və kommunikasiya üzrə amerikalı mütəxəssis Fred Kuntz (2013) Çində "Beyin Mərkəzləri – dəyişən dünya ilə üz-üzə" beynəlxalq konfransda bildirib ki, beyin mərkəzləri üçün düzgün kommunikasiyanın qurulması doğru strategiyanın hazırlanması ilə başlayır. Yəni doğru hədəflər, aydın missiya və bəlli məqsədləri olan beyin mərkəzlərinin uğur qazanma ehtimalı daha yüksəkdir.

İnkişaf etməkdə olan dövlətlərdə isə beyin mərkəzləri həm də icra qurumu kimi ("Think and Do Tanks") fəaliyyət göstərdiyi üçün bu sistem bir qədər də mürəkkəbləşir. Lakin beyin mərkəzləri üçün vahid missiya mövcuddur ki, bu tələblər də təhlillərin aparılması, yeni ideya və strategiyaların formalaşdırılması, həmçinin fəaliyyətdən yaranan tezislərin cəmiyyətə birbaşa və dolayı yolla çatdırılmasını tələb edir. Burada ilk növbədə aşağıdakılar çox önəmlidir:

- Düzgün auditoriyanın formalaşdırılması,
- Hədəflərə uyğun tezislərin (nərrativlərin) yaradılması,
- Tezislərin (nərrativlərin) auditoriyaya çatdırılması üçün doğru zamanlamanın aparılması
- Düzgün və uyğun alətlərin və kanalların müəyyən edilməsi vacibdir.

**3.1. Düzgün Auditoriyanın Formalaşdırılması və ya Auditoriyanın Düzgün Formalaşdırılması**

Beyin mərkəzləri öz missiyalarını yerinə yetirmək üçün ilk növbədə doğru auditoriyanın müəyyən edilməsinə ehtiyac duyurlar. Yəni hər bir beyin mərkəzi öz missiya və məqsədlərini aydın müəyyən edə bilsə onun uğur qazanma ehtimalı da yüksəlir. Beyin mərkəzi fəaliyyəti zamanı hansı auditoriyaya təsir etmək istədiyini dəqiq müəyyənləşdirməlidir. Doğru auditoriyanı necə müəyyən etmək olar? Bura hədəf auditoriyaya müəyyən suallar ünvanlamalaqla cavablar almaq mümkündür (Məsələn: Yenilikləri hansı yolla əldə etmək istəyirsiniz, beyin mərkəzləri sizinlə kommunikasiyanı necə daha effektiv edə bilər və s.). Beyin mərkəzləri mütəmadi əməkdaşlıq etdiyi auditoriyadan yaxşı və pis nümunələrə dair monitorinq aparılmasını da xahiş edə bilər. Bu qiymətləndirmə tərəflər arasında auditoriya ilə əməkdaşlığı təkmilləşdirir. Britaniyalı kommunikasiya mütəxəssisi Clair Grant-Salmon auditoriya ilə işi belə təsvir edir: "Hədəf auditoriyanın inkişafı təkcə mövcud sayı artırmaqdan ibarət deyil, mövcud və yeni auditoriyalarla kommunikasiyanı təkmilləşdirməkdən ibarətdir. Mövcud və potensial auditoriyaları dinləmək, təklifləri qəbul etmək və mesajları daha sadə formada təqdim etməklə kommunikasiyanı gücləndirmək mümkündür. Biz izləyicilərimizin etibarını onları dinləmək və başa düşməklə qazana bilərik".

**3.2. Hədəflərə Uyğun Tezislərin (Nərrativlərin) Yaradılması**

Miçiqan Universitetinin tədqiqatçıları Priscilla Rogers və Gail Thomas (1997) beynəlxalq tədbir öncəsi 22 beyin mərkəzinin təmsilçisi arasında araşdırma təşkil etmək üçün iki məqalə təqdim edir. Təmsilçilər məqaləni oxuduqdan sonra bir neçə qruplara bölünürlər. Onlardan bir qrupu beynəlxalq kommunikasiya üzrə fokuslansa da, digər qrup kommunikasiya texnologiyaları ilə bağlı istiqamətin müzakirəsini daha vacib hesab edib. Hər iki qrupun müzakirəsini yekunlaşdıqdan sonra onlar bir araya gətirilir və fikirlər ümumiləşdirilir, əlaqələr müəyyənləşdirlir və yekun nəticəyə gəlinir. Bu araşdırmadan bu qənaətə gəlmək olar ki, kommunikasiya zamanı beyin mərkəzlərinin mesajları (nərrətivləri) hədəf auditoriyalarına doğru formada çatdırması çox vacibdir. Məsələn, hər hansı bir beyin mərkəzinin innovativ bir həll yaxud yeni iqtisadi model ilə bağlı formalaşdırdığı mesaj maliyyəçi və jurnalistə eyni üslübla çatdırıla bilməz. Bu mesajlar mütləq auditoriyaya uyğun dilə uyğunlaşdırılmalıdır. Yəni akademik üslubda hazırlanan bir layihə rəsmi və elmi dairələr üçün konfrans yaxud dairəvi masa tipli toplantılara daha uzun müzakirələrə çıxarıla

bilər. Amma kütləvi informasiya vasitələrinə mesajlar daha qısa, başadüşülən dildə və vaxtında çatdırılmalıdır.

**3.3. Tezislərin (Nərrativlərin) Auditoriyaya Çatdırılması Üçün Doğru Zamanlamanın Aparılması**

Christina Bacalso (2018) "Yeni beyin mərkəzi liderləri üçün ictimai hekayə" adlı yazısında belə bir fikir irəli sürür: "Auditoriyanız niyyətinizin nə olduğunu və nə üçün sizin arxanızca gəlməli olduğunu başa düşmürsə, onlardan sizi izləmələrini xahiş edə bilməzsiniz". Bu fikir isə öz növbəsində Harvard Universiteti professorunun (Marshall Ganz) fikirləri əsasında formalaşmışdır. Beyin mərkəzi cəmiyyətə ötürməli olduğu mesajı düzgün olduğu qədər həm də vaxtında formalaşdırmalıdır. Çünki beyin mərkəzinin formalaşdırdığı mesaj zamanın nəbzinə uyğun və qismən də gələcəyin formalaşdırılmasına istiqamətlənmiş olmalıdır.

**Doğru Kanalların və Uyğun Alətlərin Müəyyən Edilməsi**

Kommunikasiya zamanı beyin mərkəzlərinin doğru insanlara düzgün mesajla, düzgün metoddan istifadə edərək çatması vacibdir. Etibarlı kanallar həm də institutsional yaddaş və təcrübə ilə formalaşır. Bu kanal və alətləri iki hissəyə ayırmaq olar:

- Ənənəvi kanal və alətlər,
- Müasir texnologiyaların imkanlarından yaranan kanal və alətlər.

*Ənənəvi kanal və alətlər*. Beyin mərkəzləri üçün daima etibarlı kanallar vətəndaş cəmiyyəti institutları, mütəxəssislər və kütləvi informasiya vasitələri hesab olunub. Mesajların bu kanallar vasitəsi ilə ötürülməsi beyin mərkəzləri üçün demək olar ki, bir çox zamanlarda effektiv nəticə ilə yekunlaşıb. Həmçinin yerli və xarici beyin mərkəzlərinin əməkdaşlığı da kommunikasiya aləti kimi uğurludur. Bu alətlər arasında seçim etmək artıq beyin mərkəzinin həyata keçirdiyi strategiyanın istiqamətinə görə dəyişə bilir.

*Müasir texnologiyaların imkanlarından yaranan kanal və alətlər*. Uzun illər elmi və akademik fəaliyyətlə məşğul olan beyin mərkəzləri məlumatların yayılması üçün "klassik" modeldən istifadə edirdi. Araşdırmanı aparan mütəxəssis bir neçə səhifəlik ciddi bir hesabat və yazılı təqdimat hazırlayırdı. Tədbir təşkil olunurdu, press-reliz paylaşılırdı. Müasir zamanda isə infoqrafikalar hazırlanır, vizual təsvirlər əks olunan materiallar və videolar sosial şəbəkələrdə paylaşılır. Rəqəmsal kommunikasiyalar üzrə mütəxəssis Tom Ascot özünün "Yeni texnologiyalar və "köhnə" beyin mərkəzləri" adlı yazısında göstərir ki, bu modellər hədəf auditoriyaları üçün artıq o qədər də maraqlı, eyni zamanda sərfəli deyil. Beyin mərkəzləri artıq yeni onlayn məzmun yaradıcıları ilə rəqabət aparmalı və müasir rəqəmsal mediadan faydalanmalı və tədqiqat işlərini multimedium məhsullara çevirməlidirlər.

Təbii ki, beyin mərkəzlərinin hazırladığı bütün məhsullar üzrə qaydaları eyniləşdirmək mümkün deyil. Çünki spesifik sahələr üzrə fəaliyyət göstərən beyin mərkəzləri daima oxşar auditoriyaya müraciət edirsə, burada çoxşaxəli kanallardan istifadə etməyə ehtiyac yaranmır. Amma beyin mərkəzi bir neçə istiqamət üzrə eyni zamanda, icra qurumu kimi də fəaliyyət göstərirsə alət və kanalların rəngarəngliyi daha zəruridir (Helen Dempster, 2019).

Qlobal İnkişaf Mərkəzi (CFGD) araşdırmasında informasiyanın təqdim edilməsi üçün hədəf auditoriyasını 4 istiqamətə bölüb. Onların izahına görə daha əvvəl auditoriyaya siyasi kanallar və siyasətə təsir edən media qurumları ilə birbaşa danışaraq təsir edə bilirdilər. Lakin son illər sosial medianın yüksəlişi ictimaiyyətin mövqeyinin artmasına səbəb olub. Bu yenilik beyin mərkəzlərinin də fəaliyyətinə təsir edib. Ona görə də beyin mərkəzləri böyük ideyalar və hədəflərin hər birini əhatə etməlidir.

- ***Akademik auditoriya üçün əsas məqsədlər***- Akademik araşdırmanın reytinqli jurnallarda dərc olunması, kitabdan, məqalədən və ya müəllifdən, xüsusən də elmi əsərdən sitat və ya istinadların əldə edilməsi, araşdırmalara uyğun akademik debatların yenilənməsi (müasirləşməsi).
- ***Siyasi auditoriya üçün əsas məqsədlər*** – Araşdırmaların, məlumatın siyasi inkişafda müsbət təsirə malik olması, siyasətçilərlə birgə tələb əsasında işin təşkil edilməsi, siyasi debatların yenilənməsi.
- ***İctimai auditoriya üçün əsas məqsədlər*** – Məlumatların daha anlaşılan və sadə dildə ötürülməsi, məlumatlara əlçatanlığın təmin olunması və ictimai debatların quruluşunun yenilənməsi.
- ***Media auditoriya üçün əsas məqsədlər*** – Mövzuyla əlaqədar rəsmi və məlumatlı şəxslərin dəvət olunması və çıxışları, müxbirlərlə münasibətlərin daimi inkişaf etdirilməsi, məlumatların kontekstinə uyğun açar sözlərdən istifadə edilməsi.

**Nəticə**

Beyin mərkəzlərinin sosial-iqtisadi inkişafında rolu ilə bağlı aparılan araşdırmadan belə nəticəyə gəlmək olar ki, beyin mərkəzləri bilik və strateji qərarların verilməsi arasında körpü yaratmaqla sosial-

iqtisadi inkişafa ciddi şəkildə töhfə verirlər. Data əsaslı strateji idarəetmədə beyin mərkəzlərinin rolu ildən ilə artır və bu da həm siyasətçilərə, həm də bütövlükdə ictimaiyyətə qərarlar qəbul edilməsində mühüm təsir göstərir.

Eyni zamanda, yuxarıda qeyd edildiyi kimi Azərbaycanda fəaliyyət göstərən beyin mərkəzlərinin apardıqları araşdırmalar əsasən 4 istiqaməti özündə ehtiva edir ki, bu araşdırmaların nəticəsi də strateji idarəetmədə qərarların verilməsində önəmli rol oynayır. Qeyd edilmiş istiqamətlərə müxtəlif növ sorğuların aparılması və onların analizləri, elektron hökumətin yaratdığı Big Data (böyük verilənlər) və buna əsaslanan təhlillər, sosial medianın izlənməsi və aparılan araşdırmalar, eləcə də sosial və iqtisadi islahatların monitorinqi və qiymətləndirilməsi ilə bağlı yaranan dataların təhlili aiddir.

Aparılan araşdırmalar və onların nəticəsində hazırlanan strateji sənədlər ilə yanaşı, nəticələrin kommunikasiyası da önəmli məsələ kimi beyin mərkəzlərinin qarşısında durur. Belə ki, beyin mərkəzləri apardıqları araşdırmalar və onların nəticələri barəsində doğru insanlara düzgün mesajla, düzgün metoddan istifadə edərək çatması vacibdir. Etibarlı kanallar həm də institutsional yaddaş və təcrübə ilə formalaşır.

Onu da qeyd etmək yerinə düşər ki, Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasına əsasən elmin müxtəlif sahələri üzrə tədqiqatlar növbəti illərdə genişlənəcəkdir ki, bu da öz növbəsində strateji qərarların verilməsində beyin mərkəzlərinin və eyni zamanda tədqiqat müəssisələrinin rolunun artacağına gətirib çıxaracaqdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası, 2022 (https://president.az/az/articles/view/56725)
2. Clair Grant-Salmon. Driving digital engagement for policy impact, 2020 (https://onthinktanks.org/wp-content/uploads/2020/11/OTT20-Secrets-of-digital-engagement.pdf)
3. Christina Bacalso. Public narrative for new think tank leaders, 2018 (https://onthinktanks.org/articles/public-narrative-for-new-think-tank-leaders/)
4. Thomas A. Stewart. Brainpower: How Intellectual Capital is Becoming America’s Most Important Asset, 1991 (https://archive.fortune.com/magazines/fortune/fortune_archive/1991/06/03/75096/index.htm)
5. Pensilvaniya Universiteti, Global Go To Think Tank Index Report (https://repository.upenn.edu/think_tanks/18/)
6. Fred Kuntz. Communications and Impact Metrics for Think Tanks, 2013 (https://www.cigionline.org/articles/communications-and-impact-metrics-think-tanks/#:~:text=In%20communications,%20it%20is%20important%20for%20think%20tanks,channels%20may%20be%20more%20effective%20with%20certain%20audiences)
7. Priscilla Rogers və Gail Thomas. Research Think Tank: "Complexifying" International Communication and Communication Technology, 1997 (https://www.researchgate.net/publication/43116750_Research_Think_Tank_Complexifying_International_Communication_and_Communication_Technology)
8. Tom Ascott. New technology and ‘old’ think tanks, 2019 (https://onthinktanks.org/articles/new-technology-and-old-think-tanks/)
9. Helen Dempster. The Evolution of Think Tank Research Communications: Here’s What I’ve Learned, 2019 (https://www.cgdev.org/blog/evolution-think-tank-research-communications-heres-what-ive-learned)



**SOS UŞAQ KƏNDLƏRİ AZƏRBAYCAN ASSOSİASİYASI**

**LAYİHƏ RƏHBƏRİ: DR. EŞQİN TANRIVERDİ**

## *Tədqiqat Layihəsinin təqdimatı*

**Azərbaycanda Uşaqların Uşaq Evlərinə Yenidən İnteqrasiya Edilməsinin Qarşısının Alınması İlə Bağlı Yanaşmaların Optimallaşdırılması**

**TƏDQİQAT İŞİNİN QISA TƏSVİRİ VƏ ƏSAS MƏQSƏDİ:**

“Azərbaycanda Uşaqların Uşaq Evlərinə Yenidən İnteqrasiya Edilməsinin Qarşısının Alınması İlə Bağlı Ysanaşmaların Optimallaşdırılması”, qısaca “Bütöv Ailə və Dayanıqlı Büdcə” adlı tədqiqat işi, dünyanın ən nüfuzlu 10 universiteti sırasında yer alan Çikaqo Universitetinin Tac Ailə Sosial İş, Siyasət və Təcrübə Məktəbi tərəfindən hazırlanıb və Eunce Kennedi Şrayver Milli Uşaq Sağlamlığı və İnsan İnkişafı İnstitutu (NICHD) və Foqarti Beynəlxalq Mərkəzi (FIC) tərəfindən maliyyələşdirilib.

Tədqiqat işinin əsas məqsədi, Azərbaycanda uşaq evlərindən öz bioloji ailələrinə və qəyyumlarına qovuşmuş 7-12 yaşlarında uşaqların ailə bağlarının möhkəmləndirilməsi və maddi azadlıqlarının əldə olunması üçün sübuta əsaslanan üç müdaxilə yanaşmasını təkmilləşdirməklə sınaqdan keçirtməkdir. Bu müdaxilələr çətin uşaqlıq dönəmi keçirtmiş uşaqların psixi sağlamlıq problemlərinin qarşısnın alınmasını hədəfləyir və eyni zamanda dolayısı ilə ailə institutunun möhkəmlənməsinə xidmət edir. Tədqiqat işi öz məqsədlərini həyata keçirtmək üçün üç müdaxilə komponenti əsasında fəaliyyətlərini SOS Uşaq Kəndləri Azərbaycan Assosiasiyası və Milli Psixi Sağlamlıq Mərkəzi ilə əməkdaşlığını davam etdirir.

a) **Ailənin möhkəmləndirilməsinə müdaxilə;**

Sübut əsaslı müdaxilə, Çikaqo Universitetinin pofessoru Dr. Gorman-Smith tərəfindən inkişaf etdirilərək yerli reallığa uyğunlaşdırılmışdır. Tədqiqat işi bu komponent əsasında, SOS Uşaq Kəndləri Azerbaycan Assosiasiyasında təlimlənmiş sosial və ailə dəstəyi göstərən çalışanlar cəlb olunaraq 12 sessiyalıq çoxailəli qrup modellərini təşkil edərək, güc əsaslı yanaşmanın göstərilməsi, emosiyaların tənzimlənməsi, valideyn stressinin idarə edilməsi və əlavə edilmiş gender normaları istiqamətində təlim modlunun tədris edilməsini nəzərdə tutulur.

b) **Psixi sağlamlığın yoxlanılması və müalicəyə yönəldilməsi;**

Bu komponent, Harvard Universiteti professoru Dr. Kerim Munir tərəfindən yaradılmış və inkişaf etdirilərək uyğunlaşdırılmışdır. Psixi sağlamlıq komponenti Azərbaycan Respublikası Psixi Sağlamlıq Mərkəzi tərəfindən icra olunur. Sorğularda iştirak edən uşaqlar PSM-nin əməkdaşları tərəfindən Koqnitiv inkişafı ölçmək üçün (məlumatların ötürülməsi, emosiyaların tanınması, diqqət, planlaşdırma və koqnitiv çeviklik) Avtomatlaşdırılmış Kembric Neyropsixoloji Testindən istifadə etməkdədir.



c) **Uşaq Əmanət Hesabları çərçivəsində iqtisadi səlahiyyətləndirmə**

Tədqiqat işinin önəm verdiyi bu komponent, Çorc Vaşinqton Universitetinin professoru Dr. Fred Ssewamala tərəfindən yaradılıb və uyğunlaşdırılılan, Uşaq Əmanət Hesabı əsaslı iqtisadi gücləndirmə

komponentidir. Uşaq Əmanət Hesabları, qarşılaşdırılmış hesab, 1:2 formatında fəaliyyət göstərir. Eyni zamanda bu istiqamətdə təlimlənmiş SOS Uşaq Kəndləri Azərbaycan Assosiasiyası tərəfindən cəlb olunmuş təlimçilər tərəfindən valideynlər və uşaqlar üçün 8 sessiyalıq maliyyə savadlılığı təlimi tədris edilməklə, uşaqlar üçün 8 sessiyalıq «Puldan Daha Artıq» maliyyə savadlılığı təlim proqramı tədris olunur. Uşaq Əmanət Hesabının icrası üçün Bank Respublika ilə SOS Uşaq Kəndləri Azerbaycan Assosiasiyası arasında üç illik memorandum imzalanaraq, ‘Sosial Yığım’ adlı əmanət xidmətinin icrası 2022-ci il 15 Aprel tarixindən başlamışdır.




Bu komponent ailələri banka birləşdirərək və onlara kiçik məbləğlərə qənaət etmək yollarını öyrədəcək. Bu addımlar tədqiqat işinin verdiyi töhvələrlə uyğunlaşdırılacaq. Uyğun olan əmanətlər ayrıca hesaba yatırılacaq və yalnız uşağın təhsili üçün (birbaşa məktəblə bağlı xərcləri ödəmək üçün) və ya yaşayış şəraitinin yaxşılaşdırılması üçün (məsələn, mənzil kirayələmək üçün) istifadə edilə bilər. Bu investisya birləşən ailələr üçün əhəmiyyətli investisyadır.

UƏH uğurlu bir iş kimi Kanada, Sinqapur, Amerika, və Yaponiya kimi ölkələrdə dövlət tərəfindən həyata keçirilir.




## TƏDQİQAT İŞİNİN GƏTİRƏCƏYİ ƏSAS YENİLİK:

Tədqiqat işlərində sınaqdan keçirilən müdaxilə strategiyaları bir çox hallarda doğru nəticəni əldə etmə yolunda əsas məqsədən bizi yayındırır. Beləki, çoxkomponentli müdaxilələr tez-tez ‘bağlamalar’ kimi sınaqdan keçirilir və bu, ayrı-ayrı komponentlərin töhfələrini ayırmağı çətinləşdirir. Bu səbəblə, ‘Bütöv Ailə və Dayanıqlı Büdcə’ tədqiqat işinin dizaynını təşkil edərkən, uyğunlaşdırılmış müdaxilələr müxtəlif müdaxilə komponentlərini müqayisə etmək və ən optimal kombinasiyanı müəyyən etmək üçün Dr. Linda Collins tərəfindən təklif olunan Çoxfazalı Optimallaşdırma Strategiyasından (MOST), istifadə ediləcəkdir.

Tədqiqat işi, hər bir komponentin uşağın psixi sağlamlığa təsirini yoxlayaraq, depressiya simptomları, narahatlıq; pozucu davranışlar; travma sonrası simptomlar; və bağlılıq pozğunluqlarını aşkar etməyi hədəfləyir.

## NƏZƏRDƏ TUTULAN MÜDAXİLƏ ÜÇÜN TÖVSİYƏLƏR:

Yoxsulluqdan əziyyət çəkən ailələr üçün ailə əsaslı psixo-sosial müdaxilələr və iqtisadi səaliyyətləndirmə strategiyaları çox vacibdir. Bu məqsədlər tədqiqat işi aşağıdakı müdaxilələri tövsiyə edir.

- Ailə sabitliyinin təşviqi
- Yoxsulluğun səbəb olduğu valideyn stresinin azaldıması
- Ailə yerləşdirməsinin davamlılığının artırılması
- Uşaq-valideyn münasibətlərinin gücləndirilməsinə və problemlərin həllinə diqqət yetirən bağlılığın və inamın bərpası
- Valideynlər və uşaqlar arasında emosional sıxıntıları aradan qaldırılması
- Sosial dəstəyi artırmaq üçün qrup əsaslı yanaşmaların istifadəsi
- Boşanmış və təcrid olunmuş qadın stiqmasını azaltmaq üçün qadınlara səlahiyyətlərin verilməsi.

**TƏDQİQAT İŞİNİN İCRASINDA MƏŞVƏRƏT ŞURASININ ROLU:**

Tədqiqat layihəsinin icrası zamanı ölkə daxilində əhəmiyyətli və əlaqəli dövlət qurumları ilə məşvərət şura üzvlüyü çərçivəsində əlaqələr qurulur və onların töhvələri əsasında tədqiqat layihəsinin icrası yerli şəraitə uyğunlaşdırılaraq davam etdirilir.

Layihənin yenilənən illik fəaliyyəti ərzində 4 və ya 5 dəfə görüşlərdə iştirak etməklə şura üzvləri, işçi qrupuna aşağıdakılarla bağlı tövsiyələr və təkliflər verməkdədir;

- ❑ Tədqiqatdan faydalana biləcək ailələrin necə tapılacağını və cəlb olunacağını anlamağa kömək etmək;
- ❑ Müdaxilələr haqqında rəy vermək (yəni yerli şərtlər və mədəniyyət nəzərə alınmaqla hər bir müdaxilənin Azərbaycan şəraitində uyğunlaşdırılmasını təklif etmək);
- ❑ Sorğu suallarına və tədqiqat nəticələrinə, mədəni uyğunlaşma barədə məsləhət vermək;
- ❑ Ailələrin seçilməsi, məlumatların toplanması, müdaxilələrin çatdırılması və iştirakdan yayınma yollarını azaltmaq (məsələn, ailələrin 12 iclasın hamısını qaçırılmadan iştirakına nə kömək edə bilər; ailələri bir il sonra ikinci görüşə qayıtmağa necə təşviq etmək olar) barədə təkliflər vermək.
- ❑ Bu sahədəki siyasəti dəstəkləyəcək, nəticələrin və dərslərin yayılmasına dəstək vermək və gələcək planların hazırlanmasına kömək etmək.

Üzvlərimiz doqquz nəfərdən və ibarətdir aşağıdakı dövlət qurumlarının təmsilçiləridirlər;

1. Azərbaycan Respublikası Təhsil Nazirliyi – Cəmilə Tağıyeva
2. Bakı şəhər İcra Hakimiyyəti – Zülfiyyə Həsənova
3. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi – Nurlana Qaraxanova
4. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiısi Nazirliyi – Sara Ağayeva
5. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiısi Nazirliyi – Cavid Şahmalıyev
6. Azərbaycan Respublikası Tibb Universiteti – Dr. Nərmin Quliyeva
7. Azərbaycan Respublikası Mərkəzi Bankı – Lamiyə Qaralova
8. Azərbaycan Respublikasının Bakı Təhsil İnstitutu – Dr. Ülkər Babayeva
9. Ümidli Gələcək Gənclər Təşkilatı – Kəmalə Aşumova

**TƏDQİQAT İŞİNDƏN GÖZLƏNİLƏN NƏTİCƏ:**

Tədqiqat işi müvəffəqiyyətli olarsa, tədqiqat nəticələrinin öyrənilməsi UNICEF və digər təşkilatlar tərəfindən Azərbaycanda və keçmiş Sovet Sosialist Respublikaları ərazisində həyata keçirilən genişmiqyaslı de-institulaşma təşəbbüslərini yeniləyə bilər.

Tədqiqat iki əsas problemin həllinə yönəlib:

1) Uşaqlıq dövründə zorakılığı aradan qaldırmaq və uşaqların müdafiəsini gücləndirmək üçün müvafiq yerli strategiyalar hazırlamaq.

2) Erkən uşaqlıq dövründə sosial-iqtisadi vəziyyətin psixi sağlamlığa uzunmüddətli mənfi təsirini azaltmaq üçün müdaxilələr hazırlamaq.

Tədqiqat işi eyni zamanda təlim və birgə araşdırma yolu ilə yerli tədqiqat təcrübəsini gücləndirməyi və aşağıdakı məsələlər üzrə bilik və bacarıqları artırmağı hədəfləyir;

1. Travma, istismar və məhrumiyyət yaşamış uşaqların zehni sağlamlığı üçün nəzərdə tutulan profilaktik müdaxilələrdə əsas komponentlər və dəyişiklik mexanizmlərinin hazırlanması.

2. Çox şaxəli dəlillərə əsaslanan müdaxilələrin və ölçü vasitələrinin keçmiş Sovet İttifaqı ölkəsinin yeni sosial-mədəni kontekstinə uyğunlaşdırılması.

3. Bir neçə komponentdən ibarət kompleks müdaxilələrin qiymətləndirilməsi üçün metodoloji və statistik metodlarının hazırlanması.

Bu istiqamətdə görüləcək işləri nəzərə alaraq, institutlaşmanın (müəssisələşmə) uşaqlara zərərli təsirini azaltmaq üçün Azərbaycan hökuməti, UNICEF ilə birgə uşaqların ailə yönümlü qayğıya verilməsi üçün milli de-institutlaşma proqramını (De-I) həyata keçirir.




**28-29 sentyabr, 2022**

# *BÖLMƏLƏR*

***İQTİSADİYYAT VƏ İDARƏETMƏ ELMLƏRİ***

***SOSİO-MƏDƏNİ ELMLƏR***

***TƏHSİL VƏ HUMANİTAR ELMLƏR***

***İKT və TEXNİKİ ELMLƏR***

# İQTİSADİYYAT VƏ İDARƏETMƏ ELMLƏRİ BÖLMƏSİ/ EKONOMİ VE YÖNETİM BİLİMLERİ BÖLÜMÜ

---

## AZERBAYCAN VE TÜRKİYE EKONOMİLERİNİN KARŞILAŞTIRMALI ETKİNLİK ANALİZİ

**Prof. Dr. Tuncer ÖZDİL[1]**
**Öğr. Gör. Anıl İlkem ASLAN**

**Özet**

1991 yılında bağımsızlığına kavuşan Azerbaycan, petrol ve doğal gaz rezervleri konusunda zengin bir ülke olup serbest piyasa ekonomisini benimsemiştir. 1992 yılında ekonomik açıdan gelişmek amacıyla Dünya Bankası ve Uluslararası Kalkınma Örgütüne üye olmuştur. 2005 yılından itibaren petrol rezervlerinin değerlendirilerek gelire dönüşmesi konusunda önemli adımlar atmıştır. Yaşadığı savaşlar toprak kaybetmesine ve halkın göç etmesine neden olmuştur. Bu çalışmada, Orta Asya Türk Cumhuriyetlerinden Azerbaycan'ın ekonomik bağımsızlığını geç elde etmesine karşın büyüme potansiyelini ölçerek Türkiye ile karşılaştırma yapmak amaçlanmıştır. Bu amaçla, 2016-2021 yılları arasında hem Azerbaycan'ın hem de Türkiye'nin verimlilikleri Malmquist Toplam Faktör verimliliği yöntemi ile ölçülmektedir. Ekonomik açıdan karşılaştırmanın yapılabilmesi için analize girdi değişkenleri olarak nüfus, toplam ithalat, petrol üretimi ve toplam harcamalar dahil edilmiştir. Çıktı değişkenleri olarak da kişi başı gayri safi yurt içi hasıla, gayri safi yurt içi hasılanın büyüme oranı ve toplam ihracat ele alınmıştır.

***Anahtar Kelimeler***: *Etkinlik, Verimlilik, Ekonomi, Veri Zarflama Analizi, Malmquist Toplam Faktör Verimliliği*

### Comparatıve Effıcıency Analysıs Of Azerbaıjan And Turkıye Economıes

**Summary**

Having gained its independence in 1991, Azerbaijan is a rich country in oil and natural gas reserves and has adopted a free market economy. In 1992, it became a member of the World Bank and the International Development Organization in order to develop economically. Since 2005, it has taken important steps to evaluate oil reserves and turn them into income. The wars she lived caused the loss of land and the migration of the people. In this study, it is aimed to compare with Türkiye by measuring its growth potential, despite the fact that Azerbaijan achieved its economic independence late due to being among the Turkic Republics. For this purpose, the productivity of both Azerbaijan and Türkiye between the years 2016-2021 is measured with the Malmquist Total Factor efficiency method. Population, total imports, oil production and total expenditures were included as input variables in the analysis in order to make economic comparisons. As output variables, gross domestic product per capita, growth rate of gross domestic product and total exports are considered.

***Keywords:*** *Efficiency, Efficiency, Economics, Data Envelopment Analysis, Malmquist Total Factor Efficienc*

*UOT(JEL): C14, O11, O47, R11*

### Giriş

1991 yılında bağımsızlığını kazanan Azerbaycan, büyük doğalgaz ve petrol rezervlerine sahip bir ülkedir. Bağımsızlığını kazanmasının ardından serbest piyasa ekonomisine giriş yapan ülke, Dünya Bankası ile Uluslararası Kalkınma Örgütüne üye olmuştur. Ekonomik gelişme ve büyümenin sağlanması için petrol yatırımını arttıran ülkenin, enflasyonu ve işsizliği önlemek, rekabeti arttırmak, petrol harici kaynak ve sektörleri geliştirmek gibi hedefleri mevcuttur.

1923 yılında kurulan Türkiye Cumhuriyeti ise, gelişmekte olan piyasa ekonomisine sahiptir. Tarım, tekstil, ulaşım araçları, savunma sanayi, bankacılık, iletişim, inşaat ve beyaz eşya gibi sektörlerde ciddi ilerlemeler kaydetmiştir. Bor, kömür, demir, altın ve mermer gibi doğal kaynaklar bakımından zengin olan ülkede yaklaşık altmış farklı maden çıkarılıp, işlenmektedir. Bunun yanı sıra birbiriyle dost ve kardeş ülkeler olan Azerbaycan ve Türkiye'nin arasındaki ekonomik, sosyal, siyasal, kültürel ilişkiler ve kader

---

[1] **İzmir Katıp Çelebi Universiteti, tuncer.ozdil@cbu.edu**

birliğinin getirdiği ortaklaşa hareket ve birlikteliğin sonucu aynı köklerden gelen kültürel yakınlığın yanı sıra ekonomik yapıdaki benzerlikler ve yakınlaşmalar da dikkat çekicidir. Bu ve benzer düşüncelerle iki ülke ekonomisinin karşılaştırmalı nicel analizi politika yapıcıları ve karar mercilerine ilginç, faydalı bilgiler sunabilecektir.

Bu çalışmanın amacı, Türkiye ve Azerbaycan'ın 2016-2021 yılları arası ekonomik verimliliklerinin Malmquist Toplam Faktör Verimliliği Endeksi (TFVE) ile ortaya konmasıdır. Etkinlik ve verimlilik ölçümü konusunda Veri Zarflama Analizinden (VZA) de destek alan TFVE yöntemi, yıllar itibariyle verimlilik değişimlerini izleyebilme konusunda önemli katkı sağlamaktadır.

Çalışma dört bölümden oluşmakta olup, birinci bölümde Azerbaycan, Veri Zarflama Analizi ve TFVE merkezli yayınlanmış olan makalelerden örnekler verilmiştir. İkinci bölümde ise Veri Zarflama Analizinin doğuşu ve özellikleri kısaca ele alınmıştır. Üçüncü bölümde, Malmquist TFVE'nin doğuşu, bileşenleri ve özellikleri açıklanmıştır. Son bölüm olan dördüncü bölümde ise 2016-2021 yılları arası çeşitli veriler dikkate alınarak, dönemler itibariyle Azerbaycan ve Türkiye'nin verimlilikleri ölçülmeye çalışılmıştır.

## 1.Literatür İncelemesi

Literatür incelendiğinde Veri Zarflama Analizi ve Malmquist Toplam Faktör Verimliliği Endeksine (MTFVE) ilişkin farklı alanlarda çeşitli çalışmalar söz konusudur. Bu yöntemler, ortak değişkenlere (girdi ve çıktı veri seti) sahip olan karar verme birimleri için (ülkeler, işletmeler, dernekler, hastaneler, bankalar vb.) kullanılabilen yöntemlerdir. Yayınlanan çeşitli makaleler incelendiğinde özellikle Azerbaycan'ın çeşitli birimlerini konu almış VZA ve MTFVE'ne ilişkin uygulamaların yer aldığı yayınlara rastlanmıştır. Bu yayınlardan bazıları aşağıda verilmiştir.

Kutlar ve Salamov'un 2018 yılında yazmış oldukları makalede, 2013 yılı verileri baz alınarak Azerbaycan'ın 11 bölgesine ait hastanelerin etkinlikleri ölçülmüştür. CCR yöntemine göre 11 bölge hastanesinden 6'sının, BCC yöntemine göre de 8 bölge hastanesinin etkin çıktığı bulunmuştur.

2019 yılında Hajihassaniasl'ın yazmış olduğu makalede, İran'ın Batı Azerbaycan eyaletinde yapılan ayçiçeği üretiminin etkinliği VZA ve Tobit yöntemi ile ölçülmeye çalışılmıştır. Analiz sonucunda üreticilerin teknik verimsizliklerinin %26,2 ve ölçek verimsizliklerinin ise sırasıyla %26,2 ve %7,5 olarak gerçekleşti tespit edilmiştir.

İbrahimov vd.'nin 2021 yılında yayınlamış oldukları makalede Azerbaycan'da faaliyet gösteren 14 bankanın 2017-2019 yılları arası finansal performansları VZA ile ölçülmeye çalışılmıştır. Analiz sonucunda 5 bankanın her üç yılda da etkin çıktığı tespit edilmiştir.

2021 yılında Makhdut'un yazmış olduğu makalede 2015-2021 yılları arası Azerbaycan'da faaliyet gösteren 5 bankanın etkinlikleri VZA ile ölçülmeye çalışılmıştır. Analiz sonucunda sadece bir bankanın yedi yıl boyunca etkin olduğu ve 2021 yılında üç bankanın etkinliğe sahip olduğu tespit edilmiştir.

Selamzade ve Yüksel'in 2021 yılında yayınlamış oldukları makalede Azerbaycan'ın sağlık sistemi il bazında (56 il) analiz edilmeye çalışılmıştır. Analiz 2015-2019 yılları arasını kapsamakta olup, Malmquist Toplam Faktör Verimliliği yöntemi kullanılmıştır. Analiz sonucunda 56 ilin 36'sında ilerleme, 19'un da ise gerileme olduğu tespit edilmiştir.

2021 yılında Yüksel'in yayınlamış olduğu makalesinde, 2017-2019 yılları arasında Azerbaycan'ın 61 ilinin sağlık sistemi VZA ile analiz edilmeye çalışılmıştır. Her üç yılda da sağlık sisteminin en verimli çıktığı il sayısının 10 olduğu tespit edilmiştir.

2022 yılında Selamzade ve Baghirov'un yayınlamış oldukları makalede, 2015-2019 yılları arası Azerbaycan'da faaliyet gösteren 25 bankanın verimlilikleri VZA ile ölçülmeye çalışılmıştır. Analiz sonucunda sadece 3 bankanın tüm yıllarda da etkin çıktığı tespit edilmiştir.

## 2.Veri Zarflama Analizi

VZA, gözlemlenen girdi-çıktı vektörlerini dikkate alarak doğrusal programlama tekniklerini kullanan karar verme birimlerinin verimliliğini ölçmek için kullanılan bir yöntemdir. VZA, veri dağıtımında herhangi bir varsayım olmaksızın birden fazla girdi-çıktıların aynı anda dikkate alınmasına izin verir. Temel amacı, girdileri minimum çıktıları maksimum seviyelere ulaştırabilmektir. VZA, girdi ve çıktı odaklı olarak iki farklı şekilde ölçülebilmekle birlikte ölçeğe göre sabit ve değişken ölçüm modelleri söz konusudur. Girdi odaklı ölçümde, belli bir çıktı bileşiminde minimum girdilerin elde edilmesi; çıktı odaklı ölçümde ise belli bir girdi düzeyine karşılık maksimum çıktı seviyesinin belirlenmesi amaçlanmaktadır. Ölçeğe göre sabit değişken ölçüm modeli CCR olarak adlandırılmakta olup analize konu olan karar verme birimlerinin etkinliklerinin ölçülmesini sağlamaktadır. Ölçeğe göre değişken getiri ise BCC model olarak

adlandırılmaktadır ve karar verme birimlerinin teknik ve ölçek etkinliklerinin ölçülmesini sağlamaktadır (Ji & Lee, 2010: 268; Cook, Tone & Zhu, 2014: 2).

İlk geliştirilen VZA modeli CCR'dır. Charnes ve arkadaşları tarafında geliştirilen bu modelde karar verme birimlerinin performansları rakiplerininki ile değerlendirilip teknik etkinlikleri belirlenmektedir. Model aşağıdaki gibi formüle edilmektedir (Mahmoudi vd., 2020: 3; Kuah & Wong, 2011: 500).

Max

$$\sum_{k=1}^{s} v_k y_{ko}$$

Kısıtlar,

(1)

$$\sum_{j=1}^{m} u_j x_{jo} = 1$$

$$\sum_{k=1}^{s} v_k y_{ki} - \sum_{j=1}^{m} u_j x_{ji} \leq 0 \qquad \forall_i$$

$$v_k, u_j > 0 \qquad \forall_{k,j}$$

$x_{ji}$, (j=1,….,m)'e kadar olan girdi değişkenlerini; $y_{ki}$, (k=1,….,s)'e kadar olan çıktı değişkenlerini göstermektedir. Bu model ölçeğe göre sabit getiri varsayımına dayanmaktadır.

Modele dışbükeylik kısıtlanmasının eklenmesi ile birlikte ölçeğe göre değişken getiri varsayımını benimseyen BCC modeli, Banker ve arkadaşları tarafından geliştirilmiştir. BCC modelinin formülü aşağıdaki gibidir (Mahmoudi vd., 2020: 3);

Max

$$\sum_{k=1}^{s} v_k y_{ko} - v_o$$

Kısıtlar, (2)

$$\sum_{k=1}^{s} v_k y_{kj} - v_o - \sum_{j=1}^{m} u_j x_{ij} \leq 0$$

$$\sum_{j=1}^{m} u_j x_{jo} = 1$$

k=1,….,s j=1,…,m

$v_o$'nun işaret sınırı yoktur,

$v_k, u_j > 0$

**3.Malmquist Toplam Faktör Verimliliği Endeksi**

Malmquist verimlilik endeksi (TFVD), üretkenliğin ölçümünde iki farklı uzaklık fonksiyonunun oranını kullanarak ilk olarak Caves ve diğerleri tarafından 1982' yılında geliştirilmiştir. Fare vd. (1994), etkinlik ölçümündeki teknik verimsizliği dikkate alarak parametrik olmayan bir çerçeve içinde malmquist faktör verimliliği endeksini hesaplamışladır. Tek dönemi dikkate alan VZA modelleri, KVB'lerinin göreli

etkinliklerini analiz etmesine karşın, Malmquist verimlilik endeksi, t ve t +1 dönemleri arasındaki verimlilik değişimini incelemektedir. Bu endeks, etkinlik ve verimlilikleri ölçmek için iki uzaklık fonksiyonunun birbirine oranını kullanmaktadır. Malmquist verimlilik endeksi iki bileşene ayrılmaktadır, bunlar; teknik etkinlikteki değişim (TED) ve teknolojik değişimdir (TD).

$$M_t^{t+1} = \left[ \frac{D_1^t(y^{t+1}, x^{t+1})}{D_1^t(y^t, x^t)} \bullet \frac{D_1^{t+1}(y^{t+1}, x^{t+1})}{D_1^{t+1}(y^t, x^t)} \right]^{1/2}$$

(1)

Teknik Etkinlikteki Değişme (TED) : $\dfrac{D_1^{t+1}(y^{t+1}, x^{t+1})}{D_1^t(y^t, x^t)}$

(2)

Teknolojik değişme (TD) : $\left[ \dfrac{D_1^t(y^{t+1}, x^{t+1})}{D_1^{t+1}(y^{t+1}, x^{t+1})} \bullet \dfrac{D_1^t(y^t, x^t)}{D_1^{t+1}(y^t, x^t)} \right]^{1/2}$ (3)

$M_t^{t+1}$, t ve t+1 dönemleri arasındaki indekstir ve $D_1^t(x^t, y^t)$ ve $D_1^{t+1}(x^t, y^t)$ sırasıyla t ve t+1 dönemleri arasındaki girdi ve çıktıların uzaklık fonksiyonlarını göstermektedir.

$M_t^{t+1} = 1$ olduğunda verimlilik aynı düzeyde kaldığı ve gelişmiş ülkeleri takip ettiği, $M_t^{t+1} < 1$ ise verimliliğin azalış gösterdiği, $M_t^{t+1} > 1$ olduğunda ise verimliliğin artış gösterdiği anlamına gelir (Woo vd., 2015: 370; Zhu, Zhu & Yu, 2020: 39730; Zhou, Ang & Poh, 2008: 5-6).

VZA yalnızca belirli bir süre boyunca statik koşulları değerlendirmektedir. TFVD, performans iyileştirmelerinin karmaşık bir değerlendirmesine izin veren belirli bir üretim endeksi varsayımı olmadan girdi-çıktı oranını analiz edebilir. TFVD, TED ve TD'nin çarpılmasıyla hesaplanır. TED, çalışma alanından üretim sınırına zamanın geçişini ifade ederken, TD, gelişen teknolojinin zaman zaman üretkenliği nasıl etkilediğini açıklar. TED, belirli bir politikanın amacını gerçekleştirmek için araçların ne kadar etkili kullanıldığını gösterirken, TD yeni bir girişimin veya yeni bir politikanın uygulanması gibi belirli bir politikanın ötesinde meydana gelen değişiklikleri göstermektedir (Chachuli vd., 2021: 6).

## 4.Uygulama

Veri zarflama analizi, aynı girdi ve çıktı veri setini ürettiği varsayılan karar verme birimlerinin tek dönem bazında etkinlik ve verimlilik sonuçlarını elde etmek için kullanılan bir yöntemdir. Malmquist toplam faktör verimliliği endeksi yöntemi ise, karar verme birimlerinin birden fazla dönemsel etkinlik sonuçlarının karşılaştırılması için kullanılan bir yöntemdir.

Bu çalışmada, 2016-2021 yılları arası Türkiye ve Azerbaycan ülkelerinin verimlilikleri Malmquist toplam faktör verimliliği ile ölçülmeye çalışılmıştır. Verimlilik ölçümünü gerçekleştirebilmek için analize dahil edilen girdi ve çıktı değişkenleri ile değerleri tablo 1'de verilmiştir. Girdi değişkenleri; toplam nüfus, toplam ithalat, petrol üretimi ve ülkelerin yapmış olduğu toplam harcamalardır. Çıktı değişkenleri olarak; kişi başı gayri safi yurt içi hasıla, gayri safi yurt içi hasılanın büyüme oranı ve gerçekleştirilen toplam ihracat rakamları ele alınmıştır.

| Yıllar | Ülkeler | Kişibaşı GSYİH | GSYİH'nın Büyüme Oranı | İhracat | Nüfus | İthalat | Petrol Üretimi | Toplam Harcamalar |
|---|---|---|---|---|---|---|---|---|
| 2016 | Azerbaycan | 3898 | 1,3 | 13107,5 | 9809981 | 8489,1 | 834 | 13394,7 |
| | Türkiye | 10891 | 7,7 | 169247 | 79814871 | 202189,2 | 49 | 302884,1 |
| 2017 | Azerbaycan | 4218 | 4,6 | 15480,5 | 9898085 | 8783,3 | 789 | 14703,4 |
| | Türkiye | 10629 | 11,9 | 164494,6 | 80810525 | 238715,1 | 49 | 286414,8 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 2<br>018 | Azer<br>baycan | 47<br>60 | 5,9 | 20<br>316,8 | 998<br>1457 | 11<br>465,9 | 7<br>89 | 15<br>584,1 |
| | Türk<br>iye | 95<br>08 | 7,4 | 17<br>7168,8 | 820<br>03882 | 23<br>1152,5 | 5<br>5 | 26<br>9442,9 |
| 2<br>019 | Azer<br>baycan | 48<br>26 | 6,9 | 19<br>635,6 | 100<br>67108 | 13<br>667,5 | 7<br>67 | 15<br>591,7 |
| | Türk<br>iye | 91<br>46 | 5,2 | 18<br>0832,7 | 831<br>54997 | 21<br>0345,2 | 5<br>8 | 27<br>1258,9 |
| 2<br>020 | Azer<br>baycan | 42<br>41 | 0,1 | 13<br>470,4 | 101<br>19133 | 10<br>730,7 | 6<br>95 | 17<br>180,6 |
| | Türk<br>iye | 86<br>10 | 6,3 | 16<br>9637,8 | 836<br>14362 | 21<br>9516,8 | 6<br>2 | 24<br>4496,6 |
| 2<br>021 | Azer<br>baycan | 53<br>98 | 10 | 21<br>696,7 | 101<br>56366 | 11<br>556,4 | 7<br>11 | 17<br>572,2 |
| | Türk<br>iye | 95<br>28 | 15,8 | 22<br>5291,4 | 846<br>80273 | 27<br>1424,5 | 6<br>6 | 25<br>4522,9 |

**Tablo 1: Ülkelere Ait Girdi - Çıktı Değişkenleri ve Değerleri**

DeAP-Xp1 paket programı yardımı ile analiz gerçekleştirilmiştir. Gerçekleştirilen Malmquist toplam faktör verimliliği analizi sonuçları tablo 2, tablo 3 ve tablo 4'de gösterilmiştir. Analiz sonucunda toplam beş değer elde edilmektedir. Bu değerlerden ilki TED (teknik etkinlik) olarak adlandırılan ve analize konu olan karar verme birimlerinin VZA ile elde edilen etkinlik ve verimlilik sonucunu göstermektedir. TD (teknolojik değişim), karar verme birimlerinin üretim sınırı veya işlem hacminde ortaya çıkan değişimi ifade eder. SED (saf teknik etkinlik) ve OED (ölçek etkinliği) ise etkinsizliğin olması durumunda, nedenlerin neler olabileceği konusunda yol göstermektedir. TFVE (malmquist toplam faktör verimliliği endeksi) ise, dönemsel karşılaştırmalar yapılarak verimlilik karşılaştırmasının yapılabilmesini sağlar.

| **Dönemler** | **Etkinlik Türleri** | **Azerbaycan** | **Türkiye** | **Ortalama** |
|---|---|---|---|---|
| **2016-2017** | TED | 1.000 | 1.000 | 1.000 |
| | TD | 1.898 | 1.160 | 1.484 |
| | SED | 1.000 | 1.000 | 1.000 |
| | OED | 1.000 | 1.000 | 1.000 |
| | TFVE | 1.898 | 1.160 | 1.484 |
| **2017-2018** | TED | 1.000 | 1.000 | 1.000 |
| | TD | 1.057 | 0.796 | 0.917 |
| | SED | 1.000 | 1.000 | 1.000 |
| | OED | 1.000 | 1.000 | 1.000 |
| | TFVE | 1.057 | 0.796 | 0.917 |
| **2018-2019** | TED | 1.000 | 1.000 | 1.000 |
| | TD | 0.987 | 0.864 | 0.923 |
| | SED | 1.000 | 1.000 | 1.000 |
| | OED | 1.000 | 1.000 | 1.000 |

| | | | | |
|---|---|---|---|---|
| | TFVE | 0.987 | 0.864 | 0.923 |
| **2019-2020** | TED | 1.000 | 1.000 | 1.000 |
| | TD | 0.252 | 1.076 | 0.521 |
| | SED | 1.000 | 1.000 | 1.000 |
| | OED | 1.000 | 1.000 | 1.000 |
| | TFVE | 0.252 | 1.076 | 0.521 |
| **2020-2021** | TED | 1.000 | 1.000 | 1.000 |
| | TD | 5.969 | 1.495 | 2.987 |
| | SED | 1.000 | 1.000 | 1.000 |
| | OED | 1.000 | 1.000 | 1.000 |
| | TFVE | 5.969 | 1.495 | 2.987 |

**Tablo 2: Dönemler Bazında Ülkelerin Etkinlik Değişimleri**

Dönemsel bazda ülkelerin toplam faktör verimlilik sonuçları incelendiğinde (tablo 2), Azerbaycan ve Türkiye'nin VZA sonucunda teknik etkinlikleri ile teknik etkinliği etkileyen saf teknik etkinlik ile ölçek etkinlik sonuçlarının "1" çıktığı görülmektedir. Bu durumda hem Azerbaycan hem de Türkiye'nin yönetsel olarak etkin ve uygun ölçekte üretim yaptıklarını bize göstermektedir. Ancak ülkelerin toplam faktör verimlilik endeksleri ve teknolojik değişim değerlerinde farklılıklar olduğu tespit edilmiştir. 2016-2017 yılları arasında, Azerbaycan'ın TD ve TFVE sonucu 1,898, Türkiye'nin ise 1,160 çıkmıştır. Her iki ülkenin de TFVE'nin 1'den büyük çıkmasının nedeni teknolojik değişim (TD)'dir ki bu durum teknolojik açıdan ülkelerin gelişme gösterdiğini ve böylece yüksek ekonomik performansa sahip olduklarını gösterir. 2017-2018 yılları arasında Azerbaycan'ın TD ve TFVE sonucu 1,057 çıkarak teknolojik performansa ilerleme olmasına karşın bir önceki döneme kıyasla düşüş olduğu söylenebilir. Türkiye'nin ise TD ve TFVE sonucu 0,796 çıkarak teknolojik açıdan ve ekonomik performans açısından gerileme yaşadığını söyleyebiliriz. 2018-2019 yılları arası incelendiğinde; hem Azerbaycan'ın hem de Türkiye'nin TD ve TFVE sonuçları 1'den küçük çıkmıştır. 2019-2020 yılları incelendiğinde; Azerbaycan'ın TFVE değeri en düşük değerdedir (0,252). Türkiye'nin ise TD ve TFVE değeri 1,076 çıkarak teknolojik ve ekonomik açıdan ilerleme göstermeye başladığını söyleyebiliriz. 2020-2021 yılları arasında ise, Azerbaycan'nın ciddi boyutta teknolojik ilerleme sergilediği çıkan sonuçtan (TD=5,969) anlaşılmaktadır ki bu durum ülkenin TFVE'nin de yüksek çıkmasına neden olmuştur. Türkiye'nin TD ve TFVE sonuçları 1,495 çıkmış ve bir önceki döneme kıyasla teknolojik ve ekonomik performans açısından ilerleme göstermeye devam ettiği söylenebilir.

Tablo 3'de dönemler dikkate alınarak Türkiye ve Azerbaycan'ın analiz sonucu genel ortalamaları hesaplanmıştır.

| **Yıllar** | **Teknik Etkinlik (TED)** | **Teknolojik Etkinlik (TD)** | **Saf Teknik Etkinlik (STED)** | **Ölçek Etkinliği (OED)** | **Toplam Faktör Verimliliği (TFVE)** |
|---|---|---|---|---|---|
| 2016-2017 | 1.000 | **1.484** | 1.000 | 1.000 | **1.484** |
| 2017-2018 | 1.000 | 0.917 | 1.000 | 1.000 | 0.917 |
| 2018-2019 | 1.000 | 0.923 | 1.000 | 1.000 | 0.923 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 2019-2020 | 1.000 | 0.521 | 1.000 | 1.000 | 0.521 |
| 2020-2021 | 1.000 | **2.987** | 1.000 | 1.000 | **2.987** |
| **Ortalama** | **1.000** | **1.144** | **1.000** | **1.000** | **1.144** |

**Tablo 3.Dönemlere Göre Ülkelerin Genel Analiz Sonuçları**

Burada ülkeler dönemler itibariyle bir bütün olarak ele alınmıştır. Ülkelerde yaşanan ilerlemenin 2016-2017 ve 2020-2021 yıllarında; gerilemenin ise 2017-2018, 2018-2019 ve 2019-2020 yılları aralığında gerçekleştiği söylenebilir. İlerleme ve gerilemenin nedeni teknolojik değişimden kaynaklanmaktadır. İlerlemenin yaşandığı 2016-2017 ve 2020-2021 yıllarında ülkelerin teknolojik ve ekonomik performanslarının geliştiği ve böylece işlem hacimlerinin arttığı söylenebilir.

Tablo 4'de ülkelerin TFVE'nin karşılaştırılması gerçekleştirilmiştir. Tablo 4 incelendiğinde her iki ülkenin de TFVE 1'den büyük çıkmış ve bunun nedeninin teknolojik değişimden kaynaklandığı görülmektedir.

| **Ülkeler** | **Teknik Etkinlik (TED)** | **Teknolojik Etkinlik (TD)** | **Saf Teknik Etkinlik (STED)** | **Ölçek Etkinliği (OED)** | **Toplam Faktör Verimliliği (TFVE)** |
|---|---|---|---|---|---|
| Azerbaycan | 1.000 | 1.244 | 1.000 | 1.000 | 1.244 |
| Türkiye | 1.000 | 1.051 | 1.000 | 1.000 | 1.051 |
| **Ortalama** | **1.000** | **1.144** | **1.000** | **1.000** | **1.144** |

**Tablo 4. Ülkelerin TFVE Sonucu Karşılaştırılması**

Genel olarak tablo 4 incelendiğinde, en fazla ilerlemenin Azerbaycan'da gerçekleştiği anlaşılmaktadır. Çünkü Azerbaycan'ın TFVE 1,244 çıkarken Türkiye'nin TFVE sonucu 1,051 çıkmıştır. Böylece Azerbaycan'ın Türkiye'ye kıyasla teknolojik gelişme ve ilerlemeye daha açık, üretim sınırı ve işlem hacminin daha yüksek olduğu anlaşılmaktadır.

## Sonuç Ve Öneriler

Çalışmada, 2016-2021 yılları arası Türkiye ve Azerbaycan ülkelerinin verimlilik ve etkinlik değerleri Malmquist Toplam Faktör Verimliliği Endeksi ile ölçülmüştür. MTFVE'nin kullanılmasında temel neden dönemsel kıyaslama yapılmasının sağlanması ve verimlilik sonucunu hangi etkinlik değişimlerinin etkilediğinin belirlenmesidir. Genel olarak sonuçlar incelendiğinde ülkelerin TFVE'lerin de değişimler olduğu ve bu değişimlerin tek nedeninin Teknolojik Değişimden (TD) kaynaklandığı görülmüştür. Teknolojik değişim, ülkelerin teknolojik açıdan nerede oldukları, ekonomik performansları, üretim sınırları ve işlem hacimleri konusunda bize bilgi vermektedir ki Azerbaycan'ın TD'de daha büyük ilerleme sergilediği tespit edilmiştir.

Sonuçların geçerlilik ve güvenilirliğinin arttırılması açısından benzer özelliklere sahip farklı ülkelerinde analize dahil edilmesi, daha geniş zaman aralığının incelenmesi ve/veya girdi-çıktı veri setlerinde değişiklik yapılması önerilmektedir.

## KAYNAKÇA

Cahchuli, F.S.M., Ludin, N.A., Jedi, M.A.M. & Hamid, N.H. (2021). Transition of Renewable Energy Policies in Malaysia: Benchmarking With Data Envelopment Analysis. Renewable and Sustainable Energy Reviews 150 (2021) 111456, pp: 1-16. https://doi.org/10.1016/j.rser.2021.111456

Cook, W.D., Tone, K. & Zhu, J. (2014). Data Envelopment Analysis: Prior to Choosing a Model. Omega 44 (2014), pp. 1–42. http://dx.doi.org/10.1016/j.omega.2013.09.004

Hajihassaniasl, S. (2019). Efficiency Analysis in the Agricultural Sector in Iran: The Case of West Azerbaijan Sunflower Producers. International Journal of Management, Accounting and Economics, Vol. 6, No. 5, May, 2019, pp. 389-399. ISSN 2383-2126 (Online)

İbrahimov, Z., Hajiyeva, S., Nazarov, V., Qasimova, L. & Ahadov, V. (2021). Bank Efficiency Analysis Of Financial Innovations: Dea Model Application For The Institutional Concept. Marketing and Management of Innovations, Issue 1, 2021, pp. 290-303. ISSN 2227-6718 (on-line). https://doi.org/10.21272/mmi.2021.1-22

Ji, Y. & Lee, C. (2010). Data Envelopment Analysis. The Stata Journal (2010) 10, Number 2, pp. 267–280. https://journals.sagepub.com/doi/pdf/10.1177/1536867X1001000207

Kuah, C.T. & Wong, K.Y. (2011). Efficiency Assessment of Universities Through Data Envelopment Analysis. Procedia Computer Science 3 (2011), pp: 499–506. doi:10.1016/j.procs.2010.12.084

Kutlar, A. & Salamov, F. (2018). Azerbaycan Bölge Kamu Hastanelerinin Veri Zarflama Analizi ile Etkinliklerinin Değerlendirilmesi. Balkan and Near Eastern Journal of Social Sciences, 2018: 04 (02), pp. 65-75

Mahmoudi, R., Emrouznejad, A., Shetab-Boushehri, S.N. & Hejazi, S.R. (2020). The Origins, Development and Future Directions of Data Envelopment Analysis Approach in Transportation Systems. Socio-Economic Planning Sciences 69 (2020) 100672, pp: 1-15. https://doi.org/10.1016/j.seps.2018.11.009

Makhdut, U.Y. (2021). Development And Efficiency Of Banking Sector: Evidence From Azerbaijan. Journal Of Baku Engıneering University- Economics And Administration, 2021. Volume 5, Number 1, pp. 49-57. ISSN 2521-6341.

Selamzade, F. & Baghirov, A. (2022). Measuring the Efficiency of the Azerbaijan Banking System with Data Envelopment Analysis (2015-2019). Anemon Muş Alparslan Üniversitesi Sosyal Bilimler Dergisi 2022 10(1), pp. 119-137

Selamzade, F. & Yüksel, O. (2021). Examination of Efficiency Change of Provincial Hospitals in Azerbaijan with Malmquist Index. Journal of International Health Sciences and Management. JİHSAM 2021; 7(14), pp. 53-61. DOI: https://10.48121/jihsam.911044

Woo, C., Chung, Y., Chun, D., Seo, H. & Hong, S. (2015). The Static and Dynamic Environmental Efficiency of Renewable Energy: A Malmquist Index Analysis of OECD Countries. Renewable and Sustainable Energy Reviews 47 (2015), pp: 367–376. http://dx.doi.org/10.1016/j.rser.2015.03.070

Zhou, P., Ang, B.W., Poh, K.L. (2008). A Survey of Data Envelopment Analysis in Energy and Environmental Studies. European Journal of Operational Research 189 (2008), pp: 1–18. doi:10.1016/j.ejor.2007.04.042

Zhu, W., Zhu, Y. & Yu Y. (2020). China's Regional Environmental Efficiency Evaluation: A Dynamic Analysis With Biennial Malmquist Productivity Index Based On Common Weights. Environmental Science and Pollution Research (2020) 27, pp: 39726–39741. https://doi.org/10.1007/s11356-019-06966-2

## AZƏRBAYCAN-TÜRKİYƏ ƏLAQƏLƏRİ İQTİSADİ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ

**Prof. Fərhad MÖHBALIYEV[2]**

**Xülasə**

Məqalədə Azərbaycan-Türkiyə iqtisadi əlaqələri, Ulu Öndər Heydər Əliyevin vurğuladığı " Bir millət iki dövlət" sözlərinə əsaslanaraq, tarixi-mədəni qardaşlıq prinsipinə əsaslanan və strateji tərəfdaşlığa söykənən münasibətlər sistemini əhatə edir. Azərbaycan-Türkiyə iqtisadi əlaqələri tarixi köklərə dayansa da, bu iqtisadi münasibətlərin yaranması və inkişafi müstəqilliyimizi bərpa etdikdən sonrakı dövrü əhatə edir.

Azərbaycan-Türkiyə iqtisadi əlaqələri sürətlə yüksələn xətt üzrə inkişaf edir, Qafqaz məkanında və Mərkəzi Asiya ölkələrində öz müsbət təsirlərini yaxın prespektivdə də göstərməkdə davam edəcəkdir.

***Açar sözlər:*** *Azərbaycan, Türkiyə, iqtisadi, ticarət, əlaqə, münasibət, məkan, investisiya*

### Azerbaijan-Turkey Relations In The System Of Economic Relations

**Summary**

In the article, Azerbaijan-Turkey economic relations include a system of relations based on strategic partnership, based on the principle of historical-cultural brotherhood, based on the words of Great Leader Heydar Aliyev, "One nation, two states". Although Azerbaijan-Turkey economic relations are based on historical roots, the emergence and development of these economic relations covers the period after the restoration of our independence.

Azerbaijan-Turkey economic relations are developing on a rapidly rising line and will continue to show their positive effects in the Caucasus region and Central Asian countries in the near future.

***Keywords:*** *Azerbaijan, Turkey, economic, trade, relationship, space, investment*

*UOT(JEL):33,327,338*

### Giriş

Azərbaycan-Türkiyə arasında tarixi qardaşlıq və dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan münasibətlər daima möhkəmlənməkdədir. Siyasi, iqtisadi və sosial sahələrdə bir çox əməkdaşlıqar qurulmuş və hər iki respublikada bu əlaqələr işığında diplomatik əlaqələr davamlı inkişaf etməkdədir.

Azərbaycan-Türkiyə iqtisadi əlaqələri Ulu Öndər Heydər Əliyevin vurğuladığı "Bir millət, iki dövlət" devizinə(deyiminə) və tarixi-mədəni qardaşlıq prinsipinə əsaslanan, strateji tərəfdaşlığa söykənən münasibətlər sistemini əhatə edir. Türkiyə Cumhuriyyəti ilə iqtisadi əlaqələrimiz dərin tarixi köklərə dayansa da, bu münasibətlərin geniş vüsət alması müstəqilliyimizin qazanılmasından sonrakı dövrə təsadüf edir.

Dünya iqtisadiyyatının hazırkı inkişaf mərhələsində, ölkələr arasında qarşılıqlı asılılığın aydın təzahür etdiyi bir zamanda hər bir ölkənin və regionun iqtisadi uğuru onun xarici ölkələrlə iqtisadi əlaqələrinin vəziyyətindən çox asılıdır.

Müstəqillik əldə edildikdən sonra Azərbaycan Respublikası ilə Türkiyə Cumhuriyyəti arasında əlaqələrin inkişafında yeni dövrün əsası qoyuldu. Türkiyə ilk dəfə olaraq Azərbaycanı suveren dövlət kimi tanımış və ona maddi, mənəvi və siyasi dəstək vermişdir. Bununla da Türkiyə dünya xəritəsində daha bir demokratik, müstəqil türk dövlətinin təşəkkül tapması üçün yardımçı olmuşdur.

Türkiyə ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığın əsas məqsədi ilk növbədə onların malik olduqları təbii, maddi və intellektual potensialdan səmərəli istifadə etmək, hər iki ölkənin iqtisadi müstəqilliyini təmin edə biləcək bütün zəruri istehsal və həyati əhəmiyyət kəsb edən sahələrini genişləndirmək, başqa dövlətlərdən asılı olmayan inkişafını təmin etmək, öz daxili ehtiyaclarını ödəmək və dünya bazarına yüksək keyfiyyətli məhsul çıxarmaqdan ibarətir.

Azərbaycan-Türkiyə iqtisadi əlaqələrinin əsasında, hər iki ölkə üçün faydalı olan dərin iqtisadi inteqrasiyaya qovuşmaq, onların istehsal imkanlarını mühüm sosial-iqtisadi vəzifələrin həllinə yönəltmək

[2] **Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, prorektor, ferhad.mehbaliyev@mail.ru**

məqsədi durur. Azərbaycan Respublikası da özünün yaxın qonşusu Türkiyə ilə iqtisadi əlaqələrin genişlənməsinə çox böyük əhəmiyyət verərək bu istiqamətdə konkret işlər görməyə nail olmuşdur.

Hal-hazırda Azərbaycanla Türkiyə arasında investisiya qoyuluşlarına gəlincə, Türkiyə Azərbaycanda daha çox qeyri-neft sektoruna, Azərbaycan isə Türkiyədə əsasən, energetika və kimya sahələrinə investisiya yatırımları edir. Türkiyənin Azərbaycana investisiya qoyuluşları, 12milyard dollar, Azərbaycandan Türkiyəyə kapital sərmayə yatırımları isə, 19.5 milyard dollar təşkil edir. Hazırda Türkiyədə 2000 yaxın Azərbaycan şirkətləri, Azərbaycanda isə 4100-dən artıq Türkiyə şirkətləri fəaliyyət göstərir. Türkiyədəki həm şirkət sayı, həmdə investisiya həcminə görə Azərbaycan Mərkəzi Asiya və Qafqaz ölkələri arasında ilk yerlərdən birini tutur. İki ölkə arasında birgə investisiya fondunun təşis edilməsi dövlət-özəl tərəfdaşlığı çərçivəsində həyata keçirilə bilən iri müəssisə və layihələrin, birgə texnologiyaların transferini və birgə istehsalını nəzərdə tutan investisiya hədəflərinə nail olmaq üçün imkanlarının maksimum dəyərləndirilməsi istiqamətində qarşıya qoyan vəzifələrin icrasının sürətləndirilməsinə imkan yaradacaqdır.

Türkiyə-Azərbaycan arasında ticarət həcmi 1993-cü ildən etibarən davamlı artım meyli göstərmişdir. Türkiyə, Azərbaycan iqtisadiyyatına ən çox investisiya qoyan ölkələrdən biridir. Azərbaycanda fəliyyət göstərən 4 mindən artıq türk şirkətlərinin indiyədək iqtisadiyyatımıza yatırdığı investisiyaların həcmi 12milyard dollardan çox olmuşdur. Türk şirkətləri əsasən enerji, sənaye, telekomunikasiya, bank və sığorta, inşaat, nəqliyyat, qida, tekstil, səhiyyə kimi sahələrdə fəaliyyət göstərməkdədir. Son illərdə isə Azərbaycandan Türkiyəyə investisiya qoyuluşlarının dinamikası artması müşahidə olunur. Belə ki, hazırda Türkiyədə Azərbaycan sərmayəli 2 mindən yuxarı şirkət fəaliyyət göstərməkdədir. Təkcə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin(SOCAR) Türkiyədəki investisiyalarının həcmi 2022-ci ildə 19.5 milyard dollara çatmışdır. Bununla da, Türkiyədə sərmayə qoyan Azərbaycanlı iş adamları həm firma, həm də investisiya həcmi baxımından Mərkəzi Asiya və Qafqaz ölkələri arasında ilk yerdədir. Son illər Azərbaycan yalnız beynəlxalq arenada, diplomatiya, ümumilikdə daxili və xarici siyasətdə deyil, iqtisadi sferada da Pandemiyadan sonra nəzərəçarpacaq həcmdə uğurlar əldə edib. 2020-ci ilin ən yadda qalan siyasi hadisəsi olan ikinci Qarabağ müharibəsi Azərbaycanın yalnız hərbi-siyasi gücünü, iradəsini deyil, iqtisadi qüdrətini də nümayiş etdirmiş oldu. Azərbaycan iqtisadiyyatı çoxfunksiyalı, şaxələnmiş şəkildə inkişaf edir ki, bu da çətin sınaq olan 44 günlük müharibədə qələbəmizi təmin edən əsas amillərdən biri oldu. İqtisadi qüdrət, siyasi və hərbi gücü tamamlayan mühüm amildir. Müharibədən sonra da ölkəmiz iqtisadi qüdrətini artırmaqda davam edir.

Azərbaycan iqtisadiyyatının inkişaf tempindən danışan zaman təkcə daxili iqtisadi amillər deyil, bir sıra xarici iqtisadi amilləri də nəzərə almaq çox vacibdir. Belə ki, hər bir ölkənin siyasi əlaqələrinin yüksək səviyyədə olduğu dostu, qardaşı, əsas strateji müttəfiqi olduğu kimi onun sıx iqtisadi əlaqələri olduğu yaxın tərəfdaşı da olmalıdır. Azərbaycan üçün belə dövlət qardaş Türkiyədir. Təməlində qırılmaz dostluq və qardaşlıq telləri dayanan Azərbaycan və Türkiyə əlaqələri hər zaman bütün istiqamətlərdə strateji önəm daşıyır. Ümumiyyətlə, Azərbaycan və Türkiyə arasındakı iqtisadi münasibətlər tükənməz potensiala malikdir. Rəsmi Ankara 30 il ərzində olduğu kimi Azərbaycanın Vətən müharibəsi zamanında Azərbaycana öz maddi, hərbi və siyasi dəstəyini ən yüksək səviyyədə göstərdi.

İqtisadi münasibətlərin reallaşması baxımından, xam neftin Azərbaycan Respublikası, Gürcüstan Respublikası və Türkiyə Cumhuriyyəti əraziləri ilə "Bakı-Tbilisi-Ceyhan" Əsas İxrac Boru Kəməri vasitəsilə nəql edilməsinə dair "Sazişə" imza atılması mühüm rol oynadı [4. 172].

13 iyul 2016-cı il tarixində Türkiyənin Ceyhan limanında Bakı-Tbilisi-Ceyhan(BTC) əsas ixrac neft boru kəmərinin rəsmi açılış mərasimi keçirildi. BTC kimi Bakı-Tbilisi-Ərzurum(BTƏ) qaz kəməri də iki ölkə arasındakı regional xarakterli ən mühüm layihələrdən biri oldu və 2007-ci ildən etibarən bu xətt ilə Türkiyəyə qaz nəqlinə başlanıldı. Türkiyə ilə Yunanıstan arasında qaz boru sisteminin birləşdirilməsindən sonra isə, Azərbaycan üçün bu kəmər vasitəsilə Avropa İttifaqı ölkələrinə qaz ixracı mümükün oldu. BTC əsas ixrac boru kəmərinin fəaliyyətə başlaması, BTƏ qaz boru kəmərinin istismara verilməsi və bununla

da, Azərbaycanın dünya bazarına neft və qaz ixrac etmək imkanı əldə etməsi ölkəmizin imkanlarını daha da genişləndirdi.

İqtisadi əlaqələrin sürətlənməsi üçün nəqliyyat infrastrukturunun(altyapı) diversifikasiyası beynəlxalq yük və sərnişin daşıyıcılarının ölkəmizin ərazisindən tranzitinin daha da artırılması, regional əməkdaşlığın inkişaf etriliməsi baxımından Azərbaycan və Türkiyə üçün xüsusi əhəmiyyət kəsb edən hadisələrdən biri ölkələrimizin rəhbərlərinin təşəbbüsü və iradəsi ilə "Bakı-Tbilisi-Qars" yeni dəmir yolu xətti layihəsinin reallaşdırılması oldu. İki ölkənin təşəbbüsü ilə həyata keçirilən digər beynəlxalq əhəmiyyətli layihə- "TANAP" Türkiyə və Avropa birliyi ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsi və təchizatın diversifikasiyası baxımından böyük önəm daşıdı. TANAP çərçivəsində Türkiyəyə ilk qaz nəqlinə 2018-ci ildən başladı və başlanğıcda illik 16 milyard kubmetr təşkil edilərək nəql həcminin mərhələli olaraq əvvəlcə 24 milyard kubmetrə, sonra 31 milyard kubmetrə yüksəldilməsi nəzərdə tutuldu və 1850 metirlik TANAP xətti 2020-ci ilin əvvəlindən etibarən TRANS-Adratik Təbii Qaz Boru Xəttinə(TAB) bağlanaraq, Cənubi Qafqaz Boru Xətti vasitəsilə alacağı təbii qazı Yunanıstan, Albaniya və İtaliya üzərindən Avropaya çatdırılması qərara alındı. Həmçinin iki ölkənin təşəbbüsü ilə həyata keçirilən digər beynəlxalq əhəmiyyətli layihə 2018-ci ilin sentyabr ayında SOCAR-ın 6.3 milyard dollar kapitalla Türkiyənin İzmir şəhərinin Əliağa rayonunda "Petkim" neft-kimya kompleksinin ərazisində inşası başa çatmış "Star" neft emalı zavodunun açılış mərasiminin keçirilməsi oldu.

Beləliklə, iqtisadi əlaqələrin iki qardaş ölkə arasında inkişaf etdirilməsi baxımından, Azərbaycan müstəqillik əldə etdikdən sonra Azərbaycan-Türkiyə münasibətləri sahəsində çox iş görüldü. Türk Respublikaları ilə bağlı fəaliyyətlərin koordinasiya edilməsi məqsədilə TİKA, TÜRKSOY kimi təşkilatlar quruldu. Habelə, Türkiyədə sivil toplum səviyyəsində müxtəlif tədqiqat mərkəzləri və strateji tədqiqatlar aparan qurumlar açıldı. Yüksək səviyyəli münasibətlərdə də əhəmiyyətli adımmlar atıldı. Hər il Türkiyədə keçirilən Türk xalqları qurultayları dünyanın hər tərəfindən türk xalqları nümayəndələrinin bir yerə toplanaraq müxtəlif məsələlərlə bağlı fikir mübadiləsi aparmalarına zəmin hazırladı. 1992-ci ildə İstanbuldakı Qara dəniz İqtisadi Əməkdaşlıq zirvəsi, Yaltada 1998-ci ildə Qara dəniz İqtisadi Əməkdaşlıq şərtinin imzalanması, 1998-ci ildə Bakıda İpək Yolu zirvəsi, "Üç dənizin (Xəzər, Qara dəniz və Aralıq dənizi) hekayəsi" mövzusunda beynəlxalq toplantılar keçirilməsi, tərəflərin iqtisadi potensiallarını artırmaq istiqamətində xeyli işlərin görülməsinə nail olundu. Bundan başqa, tarixi İpək yolunun bərpası, kosmik rabitə sayəsində yeni telekommunikasiya şəbəkələrinin qurulması, Varnadan Durresə uzanan Şərq-Qərb nəqliyyat dəhlizi, Bakı-Tbilisi-Ceyhan və Transxəzər Şərq-Qərb enerji dəhlizi, Kars-Tbilisi dəmiryolu kimi layihələr həyata keçirilən nəhəng layihələr oldu...

İqtisadi əlaqələrin dərinləşməsi istiqamətində Azərbaycan neftinin daşınması ilə bağlı üç əhəmiyyətli layihə irəli sürülmüşdür ki, bunlardan birincisi, Şimal xətti adlanan Azərbaycan-Dağıstan-Çeçenistan-Rusiya (Novorossiysk) marşrutu, ikincisi, qərb xətti adlandırılan, Gürcüstandan Qara dənizə qədər uzanan marşrut və son yol isə Azərbaycan-Gürcüstan-Türkiyə xətti oldu. Xəzər neftinin daşınması ilə bağlı başqa marşrutlarda müzakirə mövzusu olmuşdur [1, 223-224].

Neft boru xətti marşrutunun müəyyənləşdirilməsi Türkiyə ilə Rusiya arasında rəqabətə səbəb olmuşdu ki, bu rəqabətə ABŞ, regiondakı digər ölkələr və neft şirkətləri də qoşulmuşdular [2, 155-207]. Boru xəttinin siyasi əhəmiyyəti iqtisadi əhəmiyyətindən irəli gəlmişdir. Tərəflər bütün fürsətlərdən istifadə etdilər. Rusiya Bakı-Novorossiysk xəttinin hər cəhətdən əlverişli olduğunu, təkcə təmir edilərək istismara başlanıla biləcəyini ifadə edirdi [3, 36].

1999-cu il noyabrın 18-də ATƏT-in İSTANBUL ZİRVƏ TOPLANTISI gedişində Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev, Gürcüstan prezidenti Eduard Şevarnadze və Türkiyə Cumhuriyyətinin prezidenti Süleyman Dəmirəl tərəfindən Bakı-Tbilisi-Ceyhan əsas neft boru xətti ilə bağlı həmin tarixdə imzalanan digər sənəd İstanbul bəyannaməsi oldu. İstanbul bəyannaməsi ilə tərəflər Xəzər hövzəsi və Orta Asiya nefti üçün Şərq-Qərb koridorunun əhəmiyyətini qeyd edərək, Bakı-Tbilisi-Ceyhan əsas neft boru xəttinin dəstəklənməsinin vacibliyini vurğuladılar. Bəyannamədə boğazlardakı nəqliyyat probleminə də toxunularaq bu marşrut üzrə keçəcək neft və təbii qazın yarada biləcəyi risklər ifadə edildi.

Eyni zamanda Qazaxıstan da boru xətti vasitəsi ilə neftini dünya bazarına çıxarmaq arzusunu bildirdi [5, 239-240].

Türkiyənin geostrateji əhəmiyyətini artıran başqa bir hadisə də Türkmənistandan başlayaraq Azərbaycan və Gürcüstan üzərindən Türkiyəyə və oradan da Avropaya uzanacaq boru xətti haqqında bəyannamə oldu. Türkmənistan, Azərbaycan, Gürcüstan və Türkiyə prezidentlərinin imzaladıqları "Təbii qazın nəqli ilə bağlı tranzit Xəzər boru xəttinin həyata keçirilməsinə dair prinsipləri əhatə edən hökumətlərarası bəyannamə"ni də ABŞ prezidenti müşahidəçi kimi imzaladı.

1994-cü il sentyabrın 20-də enerji layihəsi olan "Əsrin müqaviləsi" nin imzalanması ilə başlayan neft strategiyasının həyata keçirilməsin də ən təntənəli, dünya əhəmiyyətli hadisələrdən biri oldu. XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına BTC əsas ixrac boru kəmərinin təntənəli açılışına, Azərbaycanın Xəzər dənizindəki sektorundan çıxarılacaq neftin Gürcüstan və Türkiyə vasitəsilə dünya bazarlarına nəqlini nəzərdə tutan bu layihənin baş tutacağına inanmayanlar, onun həyata keçirilməsinə mane olan qüvvələrdə az deyildi. Lakin Azərbaycan Prezidenti Heydər Əliyevin qətiyyəti və siyasi cəsarəti, habelə Gürcüstan və Türkiyə rəhbərlərinin iradəsi, ABŞ hökumətinin yaxından dəstəyi, beynəlxalq maliyyə qurumlarının köməyi sayəsində layihənin həyata keçirilməsi mümkün oldu.

Bakı-Tbilisi-Ərzurum Cənubi qafqaz Boru kəmərinin istismara verilməsi və bununla da Azərbaycan dünya bazarına neft və qaz ixrac etmək imkanı qazanması Avropa qonşuluq siyasəti çərçivəsində səmərəli əməkdaşlığını daha da genişləndirməklə, dövlət müstəqilliyimizi və suverenliyimizin möhkəmlənməsini təmin etdi. Bu qlobal layihələrin tarixi baxımdan qısa zaman ərzində uğurla gerçəkləşdirilməsi ölkəmizin regionda böyük nüfuz qazanması, dünyada baş verən siyasi və iqtisadi proseslərdə söz sahibi olmasına gətirib çıxarmışdır. Bu layihələr, Azərbaycan, Gürcüstan və Türkiyəni, xalqlarımızı bir-birinə daha da yaxınlaşdırmaqla, bölgəyə sülh və sabitlik gətirməklə təhlükəsizliyimizi və ölkələrimizin dünyada mövqeyini möhkəmləndirməkdə davam edir.

Azərbaycan-Türkiyə iqtisadi münasibətləri həm ümumi əməkdaşlıq baxımından, həm də konkret sahələr üzrə inkişaf edir və genişlənir. Bu gün iki qardaş ölkənin strateji tərəfdaşlığı bütövlükdə Cənubi Qafqaz regionunda sülh və sabitlik, habelə iqtisadi tərəqqi üçün əsaslı zəmin rolunu oynayır. Azərbaycanın beynəlxalq əməkdaşlığında Türkiyə daim aparıcı mövqeyə malikdir. Xarici iqtisadi siyasətdə qardaş dövlətlə əlaqələrimizin genişləndirilməsi üstün prioritet istiqamət olaraq qalacaqdır. Türkiyə Azərbaycanın qeyri-neft sektorunda ən çox kapitalı olan əbədi qardaş ölkədir.

## ƏDƏBİYYAT


1. Abdullayev.M. Azərbaycan-Türkiyə əlaqələri. Bakı: 1998.112s.
2. Alıyev.H. Dünya siyasətində Azərbaycan Petrolo İstanbul: sabah kitabları, 1998.233s.
3. Bağırzadə.E. "Azərbaycan-Türkiye Ortaq Ekonomik Projeləri və Bölgesel Yansımaları" 2014, 7/26
4. Bağırzadə.E. "İqtisadi yazılar" Bakı 2020
5. Süleymanov.E. Araz.O.N "Azərbaycan İqtisadiyyatı" Bakı, 2016. 5369
6. Hacıyeva.Ş.S. Türkiyə-Azərbaycan iqtisadi əlaqələri, Bakı Dövlət Universitetinin xəbərləri 2012 №2s 119-125
7. Bakü-Tiflis-Ceyhan Petrol Boru Hattı-nın Türkiye ve Azerbaycan Üzerine Etkisi, Amirova.N Master Tesisi, Bursa, 2019

8.https://president.az/articles/35961
9.https://president.az/articles/35963
10.https://president.az/articles/25217

# TURİZMİN ƏHALİ MƏŞĞULLUĞUNUN TƏMİN EDİLMƏSİNDƏ ROLU

**i.e.d., p.v.i.e Vilayət İSMAYILOV**[3]

**Xülasə**

Məqalədə turizmin iqtisadiyyata verdiyi birbaşa və dolayı töhfələri açıqlanmış, beynəlxalq turist axınlarını yaradan əsas turist bazarları qeyd edilmiş, turizm və səyahətlər sferasının əhalinin məşğulluğunun təmin edilməsində rolu vurğulanır. Bu da dünyanın müxtəlif regionunda turizmin inkişaf etdirilməsi üçün əlverişli turizm mənbələri və yeni turməhsulun aşkar edilməsinə, həmçinin turizmin inkişaf strategiyasının beynəlxalq standatrlar səviyyəsində tərtib edilməsinə imkan yaradır.Tədqiqatın **əhəmiyyəti** ondan ibarətdir ki, əldə edilən məlumatlar və nəticələr tədqiq edilən məsələnin əhəmiyyətini və onun öyrənilməsinin zəruriliyini dərk etməyə imkan verir.

***Açar sözlər:*** *turizm, regionlar, əhali, məşğulluq, təmin edilmə*

## The Role Of Tourısm In Provıdıng Employment

**Abstract**

The article reveals the direct and indirect contribution of tourism to the economy, highlights the main tourist markets that form international tourist flows, emphasizes the role of tourism and travel in providing employment. This makes it possible to identify favorable tourist resources and new products for the development of tourism in various regions of the world, as well as to develop a tourism development strategy at the level of international standards. The significance of the study lies in the fact that the data and results obtained make it possible to realize the significance of the issue under study and the need to study it.

***Keywords:*** *tourism, regions, population, employment, provision*

*UOT 331.5*
*JEL: L8: L83*

## Giriş

Hazırda dünyanın hər 7-ci iş yeri turizm biznesi ilə məşğul olan təşkilatların payına düşür. ÜTT-nin proqnozlarına görə, 2025-ci ilə qədər beynəlxalq turizm səfərlərinin sayı təqribən 1,7 milyard nəfər təşkil edəcəkdir. Hesablamalar göstərir ki, aviadaşımalar istisna olmaqla turistlərin gündəlik xərcləri gündə 5 milyard dollara qədər artacaqdır [6].

Hazırda turizmdə iki tendensiya mövcuddur:

- xarici iqtisadi və siyasi amillərin təsirinə məruz qalma;
- turizm sferası həcmlərinin əlverişsiz şəraitdə sürətlə bərpa edilməsi qabiliyyəti [Kazıbaykızı, 2015: 265-269].

Azərbaycanda turizm inkişaf edən bir kompleks olmaqla bazarda yeni iş formaları və sənayedə qarşıya çıxan problemlərin həlli yollarının daim axtarılıb tapılmasına əlverişli imkan yaradır. Son illərdə turizm sferasının sürətli inkişaf tempi almış, hazırda bu sferanın ölkə ÜDM-nin təkibində xüsusi çəkisi 5,5-6,9% təşkil etmişdir. Həmin illər ərzində bu sfera çox da yüksək kəmiyyət göstəricisinə malik olmamışdır [7].

Məqalənin əsas **məqsədi** turizm sferasının əhali məşğulluğunun səviyyəsinə təsirinin aydınlaşdırılmasından ibarətdir.

Tədqiqatın **nəzəri və praktiki əhəmiyyəti** ondan ibarətdir ki, tədqiqat nəticəsində əldə edilən məlumatlar və nəticələr tədqiq edilən məsələnin əhəmiyyətini və onun öyrənilməsinin zəruriliyini dərk etməyə imkan verir.

## 1.Materiallar Və Metodlar

Azərbaycanda turizm sektorunun fəaliyyəti və inkişafı nöqteyi nəzərindən hərtərəfli imkanlar olduğu üçün turizm sferası inkişaf etmiş bir sıra ölkələrdən fərqli olaraq bu sahənin tələb edilən səviyyədə inkişafına dəstək məqsədi ilə dövlət xüsusi siyasət yürüdür. Dövlətin bu istiqamətdə siyasətində turizmin inkişaf strategiyası və onun mərhələlərlə həlli öz əksini tapmışdır [1]. Qeyd edək ki, Azərbaycan dünya

[3] Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, ismaylov1953@mail.ru

üzrə beynəlxalq turist axınının yalnız 0,02-0,03%-ni qəbul edir, halbuki, ölkəmizdə təxmini hesablamalara görə il ərzində 10 milyon turist qəbul etmək üçün imkan vardır. Qeyd edək ki, Azərbaycanda da turizmin inkişafına dünyada baş verən fövqəladə vəziyyət (COVİD-19 pandemiyası) mənfi təsirini göstərmiş, bu da pandemiyadan əvvəlki ildə (2019-cu il) qəbul edilmiş turistlərin sayından 3,15 dəfə çoxdur [2, s.21-25].

Turizm, COVİD-19 pandemiyasının baş verməsi fonunda səhiyyə, sosial və iqtisadi vəziyyətdəki görünməmiş fövqəladə vəziyyətdən sonra 2020-ci ildə müşahidə tarixinin ən ciddi böhranını yaşadı. Bu böhran 2020-ci ildə beynəlxalq turistlərin (gecələmə ilə gələn qonaqların) sayının əvvəlki 2019-cu ilə nisbətən 74% azalması ilə nəticələndi ki, bu da beynəlxalq turistlərin səfərlərə çıxmasına mənfi təsirini göstərdi və dünya üzrə turizm sferası 1,3 trilyon ABŞ dolları məbləğində ixracdan əldə edilən gəlirlərin itirilməsi ilə qarşılaşdı. Qeyd edək ki, bu fövqəladə vəziyyət zamanı turizm sferası 2009-cu ilin qlobal iqtisadi böhranı zamanı qeydə alınmış ümumi itkilərdən 11 dəfə çoxdur.

Dünya İqtisadi Forumunun 2021-ci il üzrə turizm və səyahət sahəsində illik məruzəsinə görə Azərbaycan xarici turistlər üçün cəlbediciliyinə görə dünyada 194 ölkə işərisində ortadan bir neçə pillə yuxarıda (72-ci) yer tutmuşdur. Beynəlxalq səviyyədə turist axınlarını yaradan əsas turist bazarları aşağıdakılardır:

- Avropada: Mərkəzi Avropa və Şimali Avropa bazarları (Almaniya, Benilüks ölkələri, Böyük Britaniya, Fransa, Skandinaviya yarımadası ölkələri);
- Amerikada: Kanada və ABŞ;
- Asiyada: Yaponiya.

Turistləri qəbul edən əsas beynəlxalq bazarlara isə aşağıdakılar aiddir:

- Avropada: Aralıq dənizi ölkələri Avropa, Asiya və Afrika ölkələri; xüsusilə Avropa İttifaqı ölkələri arasında Avropadaxili mübadilə mühüm rol oynayır;
-Asiyada: Yaxın Şərq (İsrail, Misir, Türkiyə, İordaniya, Suriya); Indostan yarım adaları: Hindistan, Nepal; Cənub-Şərqi Asiya ölkələri: Tailand, Filippin, İndoneziya və s.;
- Amerikada: ABŞ, Meksika, Karib ölkələri, Peru və Braziliya;
- Afrikada: Məğrib ölkələri, Misir, Keniya, Hind okeanının adaları (Seyşel, Maldiv və Mavriki).

**Nəticələr və müzakirə**

**2.Turizmin Iqtisadiyyata Verdiyi Töhfələr**

Ümumdünya turizm və səyahətlər təşkilatı turizm təşkilatlarının struktur xüsusiyyətlərini aşkar etmək üçün Ümumdünya Turizm Təşkilatı, Dünya Turizm və Səyahət Şurasının metodologiyası əsasında turizm sektorunun iqtisadiyyata verdiyi töhfələr: birbaşa, dolayı və fərdi təsir xarakterlərinə görə sistemləşdirilir.

Turizmin iqtisadiyyata verdiyi birbaşa töhfələr birbaşa xidmət sferasında qeyd edilir ki, bu da turistlərə göstərilən xidmətin kəmiyyət və keyfiyyət göstəriciləri ilə əlaqəlidir. Turizmin ölkə iqtisadiyyatına verdiyi dolayı təsir isə bilavasitə geniş aspektli turizm və onunla əlaqəli müəssisələri əhatə edir ki, bunlar da ixtisaslaşdırılmış turizm müəssisələrinin fəaliyyətini və onlarda çalışan işçi personalı təmin edir. Qeyd edək ki, turizm sənayesi ölkənin ÜDM-da və xidmət sektorunda əlavə dəyərin yaradılmasını formalaşdırılmasına birbaşa töhfəsini verir. Əlavə müəssisələr və onunla əlaqəli müəssisələr nəzərə alındıqda isə bütün "turizm təsərrüfatı" kompleksinin dolayı və induksiya edilmiş gəlirlərini artırır.

Turizm sferasının ölkə iqtisadiyyatına verdiyi töhfəni daha geniş aydınlaşdırmaq üçün onun ümumdünya ÜDM-də xüsusi çəkisinə nəzər yetirək (şəkil 1).




**Şəkil 1.ÜDM-də turizm və səyahətlərin xüsusi çəkisi**

Mənbə:[7] əsasında müəllif tərtib etmişdir

Bir sıra tədqiqatlarda turizm və mehmanxana biznesinin mənzil, iaşə və içki müəssisələri, nəqliyyat xidmətləri, turizm agentlikləri, turizm şirkətləri, təbii və mədəni turistik kimi sektorlarda müxtəlif iş imkanları yaratdığı qənaətinə gəlimişsidir [Sintayehn and etc.: 2016, 7-9].

Belə ki, turistlərin yerləşdirilməsi (yaşaması) və ictimai iaşə (qidalanma) sahələrində müvafiq olaraq nəhəng mehmanxana və restoran zəncirlərini formalaşdırmışdır. Təhlil göstərir ki, dünyanın ən nəhəng aparıcı mehmanxana şirkətləri içərisində ilk beşlikdə Wyndham Otel və Kurortları (8941 daşınmaz əmlak obyekti), Beynəlxalq Marriott (7662 daşınmaz əmlak obyekti), Dünya Hotellər (7111 daşınmaz əmlak obyekti), Hilton (6619 daşınmaz əmlak obyekti) və İCH Otel və Kurortları (5959 daşınmaz əmlak obyekti) yer alır. Bu 15 aparıcı mehmanxana şirkətləri içərisində sonuncu beşlikdə (11-15 yerlərdə) yerləşmiş Westmont Hospitality Group -736 daşınmaz əmlak obyekti, Red Roff -668 daşınmaz əmlak obyekti, Extended Stey Mnenca -653 daşınmaz əmlak obyekti, Highdate -366 daşınmaz əmlak obyekti və Apple Hospitality RPT -232 daşınmaz əmlak obyektlərinə malikdir. Onu da qeyd edək ki, aparıcı mehmanxana şirkətləri üzrə sonda yerləşən Apple Hospitality RPT-nin daşınmaz əmlak obyektlərinin sayı Wyndham Otel və Kurortları ilə müqayisədə 38,5 dəfə və ya 8709 vahid çoxdur.

**3.Turizmin Əhali Məşğulluğuna Təsiri Aspektləri**

Beynəlxalq turizm bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr üçün valyuta daxilolmalarının mühüm mənbəyinə çevrilmişdir. Turizmin getdikcə daha çox ölkənin iqtisadi inkişafında artan əhəmiyyəti beynəlxalq turizmdən gələn daxilolmaların getdikcə artacağı ehtimalını təsdiqləyir. Ümumdünya turizm və səyahətlər Şurasının məlumatına görə, 2021-ci ildə dünya turizmində məşğul olanlar bütün iqtisadiyyat sahələrində məşğul olanların 9,9%-ni təşkil edir. Proqnozlar göstərir ki, 2022-ci ildə turizmdə işləyənlərin sayı dünyada məşğul olan əhalinin 10,2% - ni təşkil edəcəkdir.

2018-2019-cu illərdə ilk onluqda yer almış dünya ölkələri və Azərbaycanda turizm üçün xarakterik sahələrdə məşğul olanların sayının təhlili göstərir ki, yalnız Anqolada bu istiqamətdə məşğul olanların sayında 363 min nəfər artım olmuşdur. Lakin bu artımın olmasına baxmayaraq 2018-cu ildə həmin ölkənin reytinq sırası əvvəlki ilə nisbətən bir pillə geriləmiş və 11-ci sırada yer almışdır. Qeyd edək ki, müqayisə edilən ölkələr içərisində turizm üçün xarakterik sahələrdə məşğul olanların sayında ən az azalma Belorusda (1000 nəfər), Çilidə (4000 nəfər) və Azərbaycanda (6000 nəfər) təşkil etmişdir.

Bu göstərici üzrə ən çox azalma reytinq sırasında ikinci yerdə duran Filippində -349 min nəfər, İspaniyada-69 min nəfər, Yunanıstanda-27 min nəfər, Türkiyədə-21 min nəfər, Morokkoda-17 min nəfər və Əlcəzairdə-12 min nəfər olmuşdur. Həmçinin müqayisə edilən ölkələr içərisində 2018-ci ilə nisbətən məğşul olanların sayında azalma faizi Yunanıstanda 7,8%; Filippində-6,1%; Əlcəzairdə-3,8%; Morokkoda-3% və İspaniyada-2,6% təşkil etmişdir. Müqayisə edilən ölkələr sırasında ən az azalma faizi Belorusda-0%; Çilidə-0,9% və Türkiyədə-1,9% olmuşdur. Reytinq sırasında ən çox geriləmə Azərbaycanda olmuş və 2018-ci ildə olan reytindən (20-ci sıra) 2019-cu ildə 26-cı sıra aşağı enərək 46-cı sıraya düşmüş, Belorusda isə bu göstəricidə 14 sıra geriləmə olmuşdur.

Fikrimizcə, 2018-ci illə müqayisədə turizm üçün xarakterik sahələrdə məşğul olanların sayında 2019-cu ildə baş vermis azalmanı artıq həmin ölkələrdə başlamış pandemiya vəziyyəti ilə əlqaləndirmək olar (cədvəl 1).

| Ölkələr | İllər | | | | 2018-ci ilə nisbətən 2019-cu ildə artım (+) və ya azalma (-) |
|---|---|---|---|---|---|
| | 2018 | Reytinq sırası | 2019 | Reytinq sırası | |
| Filippin | 5714 | 1 | 5365 | 2 | -6,1% |
| İspaniya | 2674 | 2 | 2605 | 4 | -2,6% |
| Türkiyə | 1600 | 3 | 1569 | 7 | -1,9% |
| Morokko | 565 | 4 | 548 | 13 | -3,0% |
| Çili | 442 | 5 | 438 | 15 | -0,9% |
| İndoneziya | 409 | 6 | 400 | 17 | -2,2% |
| Yunanıstan | 347 | 7 | 320 | 20 | -7,8% |
| Əlcəzair | 320 | 8 | 308 | 21 | -3,8% |
| Belorus | 243 | 9 | 242 | 23 | -0,4% |

| | | | | | |
|---|---|---|---|---|---|
| Anqola | 216 | 10 | 579 | 11 | +1,68 dəfə |
| … | … | | … | | … |
| Azərbaycan | 59 | 20 | 53 | 46 | -10,1% |

**Cədvəl 1. Turizm üçün xarakterik sahələrdə məşğul olanların sayı, min nəfər**
Mənbə: [19] əsasında müəllif tərtib etmişdir

Azərbaycanda turizm üçün xarakterik sahələrdə məşğul olanların sayının müqayisəli təhlilinə əsasən qeyd edə bilərik ki, 2015-ci ilə nisbətən 2016-cı ildə 12,1%; 2017-ci ildə 5,3% və 2020-ci ildə 0,9% azalma olmuş, yalnız 2018-ci ildə 7,6% və 2019-cu ildə 19,2% artım olmuşdur. Fikrimizcə, 2015-ci ilə nisbətən 2018-2019-cu illərdə turizm üçün xarakterik sahələrdə məşğul olanların sayında bu artımın olması həmin illərdə ölkəyə səyahət edən beynəlxalq turistlərin sayının artımı və onlara xidmət edən personal tərkibinin artması ilə əlaqələndirilə bilər.

Dünya üzrə 2019-2021-ci illərdə turizm və səyahətlər sferasında yaradılmış iş yerlərinin sayının təhlili göstərir ki, 2019-cu ilin sonunda başlayan fövqəladə pandemiya şəraitinin təsirindən növbəti illərdə bu sferada iş yerlərinin sayında 2020-ci ildə 62 milyon və ya 18,6%; 2021-ci ildə isə 44 milyon və ya 13,2% azalma olmuşdur [8].

Tədqiqat göstərir ki, turizm sferası əhalinin məşğulluğunun təmin edilməsində əhəmiyyətli yerlərdən birini tutur. Bu da imkan verir ki, istənilən regionda turizmin inkişaf etdirilməsi üçün əlverişli turizm mənbələri aşkar edilsin, yeni turməhsullar yaradılsın, turizm ehtiyatları dəqiq müəyyən edilsin və bu istiqamətdə hər bir regionun özünün inkişaf strategiyası əvvəlcədən tərtib edilə bilsin.

Dünya üzrə turizm və səyahətlər sferasında iş yerlərinin azalma tendensiyasının approksimasiya tənliyi (1) şəklində yazılır:

$$Y=-45.371\ln(x)+324.76 \quad (1)$$

(1) tənliyi turizm və səyahətlər sferasında yaradılan iş yerlərinin ədədi xüsusiyyətlərini və keyfiyyət xüsusiyyətlərini araşdırmağa imkan verir, tədqiq edilən məsələni daha sadə və ya daha rahat obyektlərin öyrənilməsinə istiqamətləndirir. Bu tənlik onu göstərir ki, dünya üzrə turizm və səyahətlər sferasının yaratdığı iş yerlərinin sayının nəzəri qiymətləri təcrübi qiymətlərə nisbətən yaxındır. Bu da həmin modelin adekvatlığını əks etdirir. Bundan əlavə, tədqiqatın nəticələri turizm və səyahətlər sferasının məşğulluğa təsiri arasında uzunmüddətli asimmetrik qarşılıqlı əlaqəni nəzərdə tutur.

**Nəticə**

Beynəlxalq turizm ölkələr üçün valyuta daxilolmalarının mühüm mənbəyinə çevrilməklə getdikcə daha çox ölkənin iqtisadi inkişafında əhəmiyyətini artırır və beynəlxalq turizmdən gələn daxilolmaların getdikcə artacağı ehtimalını təsdiqləyir. Fikrimizcə, 2018-ci illə müqayisədə turizm üçün xarakterik sahələrdə məşğul olanların sayında 2019-2021-ci illərdə baş vermis azalmanı artıq həmin ölkələrdə başlamış və hal-hazırda da müxtəlif dalğaları ilə davam edən pandemiya şəraiti ilə əlqaləndirmək olar.

Turizm və səyahətlər sferası əhalinin məşğulluğunun təmin edilməsində çox əhəmiyyətlidir. Bu da dünyanın müxtəlif regionunda turizmin inkişaf etdirilməsi üçün əlverişli turizm mənbələri və yeni turməhsulun aşkar edilməsi və turizm ehtiyatlarının dəqiq müəyyən edilməsinə, həmçinin bu istiqamətdə onların inkişaf strategiyasının düzgün tərtib edilməsinə imkan yaradır.

## ƏDƏBİYAT


1. “Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Stlrateji Yol Xəritəsi”. Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı. –Bakı, -2016, -98 s.
2. Azərbaycanda turizm. Statistik məcmuə. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.- Bakı, -2021, -99 s.
3. Казыбайкызы А., Муханова А.Е., Смагулова Ж.Б. Особенности и перспективы развития туризма в мире // Успехи современного естествознания. – 2015. – № 1-2. – с. 265-269;
4. Employment in Tourism İndustries. 2018-2019
5. Sintayehn A., Berhani F., Tesfaye S. Employment Opportunities and Challenges in Tourism and Hospitality Sektors. Journal of Tourism & Hospitality.-2016, -vol.05 (06), -12p.

6. World tourism organization (unwto) statistics
https://az.wikipedia.org/wiki/Azrbaycanda_qeydiyyata_al1nmış_dünya_əhəmiyytli_memarlıq_abidlərinin_siyahısı
7.https://gtmarket.ru/ratings/global-competitiveness-index/info
8. https://www.statista.com/statistics/1268465/number-of-travel-and-tourism-jobs-worldwide/

# AQRAR SAHƏDƏ MARKETİNQ TƏDQİQATLARININ İNFORMASİYA PROBLEMLƏRİ

**Dosent Hicran MİRZƏYEVA,[4]**
**Rəşid YELMARLI[5]**

**Xülasə**

Məqalədə marketinqin informasiya təminatının cari vəziyyəti araşdırılmış, onun təkmilləşdirilməsi prosesində qarşıya çıxan problemlər konkretləşdirilmişdir. Həmin problemlərin həlli yolları tədqiq olunmuşdur. Aqrar sahədə marketinq tədqiqatları zamanı qarşıya çıxan informasiya problemlərinin tədqiqi, onları şərtləndirən əsas amillərin aşkar edilməsi, müvafiq informasiya təminatı problemlərinin aradan qaldırılması istiqamətlərinin əsaslandırılmasıdır. Məqalədə elmi abstraksiya, müqayisəli təhlil, sintez və məntiqi ümumiləşdirmə üsullarından istifadə olunmuşdur. Aqrar sahədə marketinq tədqiqatlarının informasiya problemlərinin araşdırılması zamanı əldə edilən nəticələr, əsaslandırılan müddəalar aqrar sahədə marketinq tədqiqatlarının informasiya bazasının yaxşılaşdırılması zamanı istifadə oluna bilər. Məqalədə aqrar marketinq tədqiqatlarının verilənlər bazasının tamamlanması və yenilənməsi prosesləri, ümumiyyətlə marketinqin informasiya təminatının yaxşılaşdırılması tədbirlərinin icrqsı mühiti səciyyələndirilmiş, müvafiq informasiya problemlərinin həlli imkanları aşkar edilmiş, onların həlli istiqamətləri göstərilmişdir. Aqrar sahədə marketinq tədqqatlarının informasiya təminatında, o cümlədən verilənlər bazasının yenilənməsi prosesində qarşıya çıxan əsas problemlər aşkar edilmiş, onların aradan qaldırılması istiqamətləri əsaslandırılmışdır.
*Açar sözlər: marketinq, informasiya təminatı, aqrar sahə, aqromarketinq*

## İnformation Problems Of Marketing Research İn The Agricultural Field

**Summary**

The article examines the current state of marketing information and points out the problems encountered in the improvement process. Ways to solve these problems were explored. It is the examination of the justification of the directives to reveal the information problems encountered during marketing research in the agricultural field, the main factors determining them, and the elimination of the related information supply problems. Scientific abstraction, comparative analysis, synthesis and logical generalization methods are used in the article. The results obtained during the investigation of the knowledge problems of marketing research in the field of agriculture, the proven judgments can be used during the improvement of the knowledge base of marketing research in the field of agriculture. The article characterizes the processes of completing and updating the database of agricultural marketing research, the general environment of measures to improve the information supply of marketing, the possibilities of solving the relevant information problems and the directions of their solutions are described. stated. The main problems encountered in the provision of information for marketing activities in the field of agriculture, including the process of updating the database, were identified and instructions for their elimination were verified.
***Keywords:*** *marketing, information provision, agrarian field, agromarketing*

***UOT : 33.63***

## Giriş

Sivil bazar münasibətlərinin təşəkkülü və inkişafı kompleks marketinq tədqiqatlarının əhatə dairəsinin genişləndirilməsini və əldə edilən nəticələrin etibarlığının artırılmasını tələb edir. Bu məqsədlə, müvafiq informasiya təminatı təkmilləşdirilməli, zəriri informasiya axınlarının əsas xarakteristikaları səciyyələndirilməli, onların idarə edilməsi sistemi yaxşılaşdırılmalıdır. Bununla belə, qeyd etmək lazımdır ki, göstərilən məsələlərin həlli, xüsusilə aqrar sahədə marketinq tədqiqatlarının informasiya təminatı şəraitində ciddi problemlərlə üzləşir. Odur ki, hazırda aqrar sahədə marketinq tədqiqatlarının informasiya problemlərinin tədqiqi xüsusi aktuallıq kəsb edir.

## 1. Sahədə Marketinq Tədqiqatlarının İnformasiya Bazası: İmkanlar Və Problemlər

Rəqəmsal mühitin intensiv surətdə təşəkkülü və inkişafı informasiya münasibətlərində ciddi dəyişikliklərlə müşayiət olunur. İnformasiyanın assimmetriyasının bazar tədqiqatlarında əhəmiyyətli amilə

---

[4] **Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, dekan, akademiya_sm@mail.ru**
[5] **Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, tyutor**

çevrilməsi, kompüter şəbəkələrinin təhlükəsizliyinə təhdidlərin artması və bu kimi bir sıra digər amillər marketinqin informasiya problemlərini daim gündəlikdə saxlayır.

Ənənəvi marketinq metodlarına əlavə olaraq, rəqəmsal marketinq yeni texnologiya sayəsində daha təsirli nəticələr verir. Rəqəmsal marketinq marketinqin ən çox istifadə olunan növlərindən biridir. Radio, qəzet və televiziyadan fərqli olaraq daha effektiv nəticələr verəcək marketinqin rəqəmsal formalarında təsirli və əlamətdar variantlardan keçməklə müsbət nəticələr əldə edilir. Yenilənən və inkişaf edən sistemlər sayəsində rəqəmsal marketinq ilə təsirli olacaq nəticələr əldə edilir. Rəqəmsal marketinqin müxtəlif yolları var. Bu şəkildə şirkətlər və ya markalar, istədikləri üstünlükləri etməklə rəqəmsal mediada hazırladıqları reklam və ya kampaniyaları yayımlamaqla nəticə əldə edə bilərlər. İnternet üzərindən ediləcək kampaniyaları və ya reklamları tanıtmaq üçün istədiyiniz kanallardan istifadə edərək bu potensialı olan müştərilərə asanlıqla daxil olmağa imkan verir. Müştərilərə internet vasitəsi ilə ediləcək marketinq üsulları ilə çatdırılmaq istənən hər cür məlumat bu şəkildə daha sürətli və asanlıqla çatdırıla və nəticələr əldə edilə bilər.

Əslində rəqəmsal marketinq inkişaf etməkdə olan sistemlərdə tez-tez rastlaşdığınız marketinq formasıdır. Fərqli yollarla edilsə də, rəqəmsal marketinq internet üzərindən marketinq formasıdır. Bu məqsədlə, internet üzərindən ediləcək kampaniyaları və ya reklamları tanıtmaq üçün istədiyiniz kanallardan istifadə etməklə potensialı olan müştərilərə asanlıqla çatmaq mümkündür. İnternet alətləri vasitəsi ilə həyata keçiriləcək marketinq üsulları ilə müştərilərə çatdırılacaq hər cür məlumat bu şəkildə daha sürətli və asanlıqla çatdırıla bilər və daha çox insanın məlumat almasına imkan yaradaraq daha çox nəticə əldə edilə bilər. Rəqəmsal marketinqlə şirkətlər və ya markalar müştərilərinə məhsul tanıtımı və ya xidmət təqdimatı ilə çata bilərlər. Marketinqin effektiv olması üçün bu mövzuda peşəkar əməliyyatlar aparılmalıdır. Bu məqsədlə rəqəmsal marketinq sahəsində xidmətlər göstərən şirkətlərlə razılaşma əldə edilə bilər. Bu şəkildə daha təsirli nəticələr əldə etmək üçün reklam və ya kampaniyalarla daha çox insana çatmaq olar. Rəqəmsal media mütəxəssisləri tərəfindən hazırlanan reklam və ya promosyonlarla rəqəmsal marketinqdə təsirli nəticələr əldə etmək olar. Bu məqsədlə ediləcək araşdırmalarla diqqətli bir araşdırma ilə səmərəli nəticələr əldə edilə bilər. Bu gün inkişaf edən texnologiya sayəsində rəqəmsal sahədəki işlər diqqət mərkəzindədir. Rəqəmsal marketinq sayəsində rəqəmsal platformalardan istifadə edərək daha çox insanla səmərəli şəkildə əlaqə yaratmaq olur.

Müasir anlamda, marketinq fəaliyyəti idarəetmə və tədqiqatların birgəliyini nəzərdə tutur. Hazırda müəssisələrin idarə edilməsi prosesinin mühüm tərkib hissəsi olan marketinqin menecment funksiyası kimi nəzərdən keçirilməsi nadir hal deyildir. Bununla belə marketinqin idarə edilməsi, klassiklərdən bəri indiyə qədər diqqət mərkəzindədir. Marketinqin idarə edilməsi aşağıdakı tədbirlərinin həyata keçirilməsini nəzərdə tutur “bazar imkanlarının təhlili, məqsədli bazarların seçilməsi, marketinq kompleksinin işlənib hazırlanması, marketinq tədbirlərinin həyata keçirilməsi (4, s. 38).

Rəqəmsal iqtisadiyyatın formalaşması və inkişafı şəraitində müəyyən dəyişikliklər baş versə də marketinqin idarə edilməsi sistemində klassik yanaşma elementlərinin tamamilə yox olduğunu söyləmək olmaz (5).

Aqrar sahədə marketinqin idarə edilməsi prosesinin məqsədlərinə, məlum olduğu kimi, ilk növbədə satışın artırılması, bazarın müvafiq sektorunda mövqenin möhkəmləndirilməsi, əldə edilən mənfəətin artırılması aid edilə bilər aiddir. Həmin məqsədlərə nail olunması sahədə marketinqin (aqromarketinqin) informasiya təminatından və ilk növbədə verilənlər bazasının vəziyyəti ilə əlaqədardır.

Aqrar sahədə marketinqin idarə edilməsi sisteminin informasiya bazasında bazarın müvafiq seqmentində alıcıların davranışına təsir edən amillərin xaraktyeristikaları mühüm əhəmiyyətə malikdir. Haqqında danışılan informasiya, o cümlədən reklam alıcıya inandırma və hissiyata təsir vasitəsi ilə istehlakçı tələbinin formalaşmasında iştirak etməklə satışı stimullaşdırmağa yönəldilməlidir. O cümlədən, alıcını həvəsləndirmək üçün görülən işlərin informasiya təminatında reklam, güzəştlər sistemi, alıcı üçün əlverişli olan məkan və iş rejimi seçimi və s. əhəmiyyətli rola malikdir.

Aqrar sahədə marketinqin idarə edilməsi prosesində əsaslandırılan qərarların informasiya təminatı istehsalçı mənafeyi ilə bazarın tələblərini əlaqələndirməyə imkan verməlidir. Bu baxımdan rəqəmsal mühitin üstünlüklərindən yararlanmaq perspektivli hesab edilir (6).

İstehsalçı mənafeyi ilə bazarın tələblərinin əlaqələndirilməsi geniş spektrli, kifayət qədər mürəkkəb məsələlərin həllini nəzərdə tutur. Tədqiatımızın predmeti baxımından istehsal-emal-satış şəbəkəsinin bütün iştirakçılarının fəaliyyətinin üzvü surətdə əlaqələndirilməsini təmin edən informasiya bazasının yaradılmasını və operativ istifadəsi xüsusilə aktualdır.

Sahədə marketinqin idarə edilməsinin informasiya bazası, sözügedən idarəetmənin konsepsiyasına əsaslanır. Bu baxımdan aşağıdakı fikirlə razılaşmaq məqsədəuyğundur ki, “müxtəlif təyinatlı marketinq

konsepsiyaları bu və ya digər şəkildə marketimnqə şamil edilən prinsiplərə və normalara əsaslanmalıdır» (1, s. 47)

Marketinqin istehsalın təkmilləşdirilməsi konsepsiyası, ilk növbdə iqtisadi səmərəlilik göstəricilərinin informasiya bazasında təmsil olunmasını və mütəmadi yenilənməsini nəzərdə tutur. Bu baxımdan əmək məhsuldarlığı və onun artırılması imkanlarının qiymətləndirilməsi üçün torpaq, əmək, maddi və maliyyə resurslarından istifadə vəziyyətini səciyyələndirən göstəricilər müvafiq verilənlər bazasına daxil edilməlidir. Bununla belə, zəruri detallaşdırma səviyyəsində haqqında danışılan göstəricilər dəqiqlik və dürüstlük baxımından təhriflər gözləniləndir. Onların aradan qaldırılması aqrar sahədə marketinq tədqiqatlarının informasiya təminatı problemləri qismində diqqət mərkəzində olmalıdır.

Məsələ ondadır ki, marketinqin əmtəənin təkmilləşdirilməsi konsepsiyası informasiya bazasına əsaslandırılmış yanaşma tələb edir. Belə vəziyyət əsas etibarı ilə ölçü meyarları və keyfiyyəti əks etdirən göstəricilərin kəmiyyətcə müəyyənləşdirilməsindəki əhəmiyyətli metodoloji fərqləri üzə çıxarır.

Sahədə istehsal edilən məhsulların keyfiyyətcə qiymətləndirməsi məqsədi ilə əsasən ölçü, qeydiyyat, hesablama və hiss üzvləri üsullarından istifadə edilir. Elmi mənbələrdə kifayət qədər geniş şərh olunan bu üsullar məhsulun müxtəlif xassələrinin kəmiyyətcə ifadəsinə xidmət edir. Odur ki, məhsulun keyfiyyətini təyin etmə üsullarının aqromarketinqin informasiya bazasının formalaşmasında oynadığı rola artan diqqət təbiidir. Rəqəmsal mühitin və müvafiq texnologiyaların tətbiqi arealının genişlənməsi qeyd olunan müstəvidə yeni imkanlar açır. Əlbəttə, insan amili bu və ya digər aspektdə daim ön planda olmalıdır (14).

Aqrar sahədə marketinqin informasiya problemləri qismində keyfiyyət göstəricilərinin verilənlər bazasında tutduğu yerin qənaətbəxş olmaması qeyd edilməlidir. Belə bir mövqe maraq doğurur ki, keyfiyyətin planlaşdırılması və uçotu müasir tələblərə cavab vermədiyindən, məhsul istehsalının artırmaq üçün belə bir potensial ehtiyatdan səmərəli istifadə olunmur, keyfiyyətə nəzarət etmək üçün müvafiq təhlil aparmaq və vaxtında konkret tədbirlər görmək mümkün olmur" (2, s 35-36).

Marketinqin ictimai konsepsiyası alıcı tələbatının ödənilməsində rəqibləri üstələməyin yollarına yanaşmalar fərqli olsa da, ilkin yanaşmada onların sistem əmələ gətirmə qabiliyyətinə malik olacağı ehtimalı yüksəkdir. Həmin konsepsiyada verilənlər bazasını aşağıdakı seqmentlərə bölmək məqsədəuyğundur: bazarın məqsədli seqmentlərində tələbi xarakterizə edən göstəricilər, maraqları və tələbatı əks etdirən xarakteristikalar. Sahədə istehlakçı mənafeyini ifadə edən və ictimai meyarlarla səsləşən göstəricilər sistemi də bu baxımdan xüsusi qeyd edilməlidir. Ətraf mühit və insan ekologiyası problemlərinin həlli üçün istifadə edilən innovasiyalı, o cümlədən rəqəmsal texnologiyalar informasiya problemlərinin həllində, artıq ciddi rol oynamaqdadır (7).

## 2.Marketinq Tədqiqatlarının İnformasiya Problemləri Və Aqrar Sahədə Onların Təzahür Formaları

Ararşdırmalar göstərir ki, marketinqin idarə edilməsinin, xüsusilə aqrar sahədə səmərəliliyi, verilənlər bazasını formalaşdıran göstəricilərin zəruri tələblərə cavab verməsi səviyyəsindən xeyli dərəcədə asılıdır(8). Həmin tələblərə uyğunlaşma vəziyyəti müvafiq_verilənlər bazasını formalaşdıran göstəricilərin detallaşdırılması və dezaqreqasiya imkanlarının reallaşdırılması ilə bilavasitə əlaqədardır.

Səmərəlilik və keyfiyyət ayrılmaz anlayışlar kimi bir-birini tamamlayan verilənlər fəzası əmələ gətirməli, zəruri tələblərə cavab verməlidir. Zəruri tələblər dedikdə, konkret halda idarəetmə baxımından informasiyanın keyfiyyətinə qoyulan tələblər nəzərə alınmalıdır (10). Rəqəmsal mühitdə informasiyanın kəmiyyət və keyfiyyət xarakteristikaları arasında qarşılıqlı əlaqələr və onların əyaniləşdirilməsi üçün yaranan yeni texnoloji imkanlardan istifadə, aqrar sahədə marketinq tədqiqatlarının informasiya problemlərinin həlli baxımından perspektivli istiqamətlərdən biri sayılmalıdır.

İnformasiyanın keyfiyyətinə qoyulan tələblərin dəqiqləşdirilməsi, müvafiq problemlərin həll baxımın mühüm əhəmiyyət kəsb edir. Aqrar sahədə marketinqin informasiya sisteminin bazarın müvafiq seqmentlərə bölünməsi, rəqabət mühitinin xarakteristikası, tələb-təklif nisbətinin müəyyənləşdirilməsi və bir sıra digər məsələlərin həllində keyfiyyət amili öndə olmalıdır (10, s. 236-263).

Aqrar sahədə marketinq araşdırmalarının ən vacib meyllərindən biri bazarın özünün təhlilidir. Aqrar bazarın araşdırılmasında təşkilatın gələcəkdəki fəallığını təyin etmək məqsədilə bazar vəziyyəti barəsində vacib informasiyalar əldə edilir və sözügedən informasiyalar istehsal-satış fəallığına aid olan qərarların qəbul olunmasında istifadə edilir. Aqrar bazarın, eləcə də onun iri hissələrindən biri kimi kənd təsərrüfatı və ərzaq məhsulları bazarını araşdırmadan təşkilatların üstünlüyük bazarının fərqləndirilməsinə, satışın gələcək üçün mümkün olan tutumunun təyin olunmasına və əvvəlcədən deyilməsinə görə qərarları qəbul etmək qeyri-mümkündür.

Lahiyənin funksiyalarının vaxtında icrası onun qarşıya qoyduğu məqsədlərə nail olunmasına köməklik edir. Tikinti işlərinin keyfiyyətinin yüksəldilməsi, xərclərin səmərəli istifadə edilməsi, müddətin azaldılması layihənin idarə edilməsinin əsasını təşkil edir. Layihəni idarə edən onun reallaşdırılması dövründə layihənin texniki-iqtisadi əsaslandırılması və qiymətləndirilməsi, sazişin imzalanması və maliyyələşdirmənin təşkilindən podratçı şirkətlərin seçilməsi,sonrakı mərhələlərin icrasından obyektin təhvil verilməsinə qədər bütün işləri koordinasiya edir. Azərbaycanda layihənin idarə edilməsi metodunun geniş yayılmamasının səbəbi bu sahədə mütəxəssislərin çatışmazlığı, investorların maliyyələrinin məhdud olması nəticəsində peşəkar idarə edən rəhbərlərin dəvət edilməməsi, sazişlərin bağlanmasının standart formalarının olmamasıdır.

İdarəetmənin müasir təşkilati formalarında investisiya-tikinti prosesi iştirakçılarının funksiyalarının bölüşdürülməsi tikinti bazarının seqmentlərindən asılıdır. Sənaye, inzibati, mülki və kommersiya obyektlərinin tikintisində sifarişçinin, podratçının, investorun funksiyaları bölünəndə vəziyyət səmərəli olur. Belə halda qərb ölkələrinin təcrübəsinə əsasən idarə edən ayrıca şəxs və ya ixtisaslaşdırılmış firma kimi investisiya – tikinti layihəsinə rəhbərlik edə bilər. İdarə edən layihənin həyata keçirilməsinə məsuliyyət daşıyır və layihə iştirakçılarının işlərini koordinasiya edir.

İdarəetmə sisteminin təkmilləşdirilməsi nəticəsində yaradılan layihənin idarə edilməsi çevik olmalıdır. Bir şirkətdə sifarişçi, investor, podratçı vəzifələrinin birləşdirilməsi həm şirkətin özünün , həm də bazarın inkişafına mane olur, çünki sifarişçi, investor, podratçı və digər icraçı funksiyaların bölünməsi onların maraqlarında ziddiyyətlər əmələ gətirir.

Yuxarıda dediklərimizə əsasən belə bir nəticəyə gəlmək olar ki, tikintinin idarə edilməsinin yeni təşkilati formalarının yaradılması və inkişafı onların rəqabət qabiliyyətini yüksəldir və tikinti bazarına güclü təsir göstərirlər.

**Nəticə**

Amerikanın tikinti şirkətləri Avropadakılardan fərqlənirlər, çünki Amerikanın tikintisində ən çox diqqət etibarlılığa verilir. Amerikada tender bazarlıqları (torqları) geniş yayılmayıb. Bununla bağlı amerikanın tikinti şirkətlərində (firmalarında) podrat işlərinin yerinə yetirilməsinə çox diqqət verirlər.Tikinti şirkətlərinin bölmələrinin funksiyalarının müqayisəsi aşağıdakı qənaətə gəlməyə imkan verir:

Birincisi, qərbin menecmentinə və marketinqinə uyğun funksiyaları Azərbaycanın şirkətlərinə seçmək çox çətindir, çünki bizim şirkətlərdə onlar ya yoxdur və ya da təşəkkül prosesindədir.

İkincisi, Azərbaycanın müxtəlif şirkətlərində müxtəlif şöbələr və bölmələr mövcuddur (məsələn, istehsalat, istehsalat-texniki, plan, plan-iqtisadi və s.)

Üçüncüsü, Azərbaycanın tikinti şirkətlərində funksiyaların təşkili və yerinə yetirilməsi müxtəlifdir.

Dördüncüsü, Azərbaycanın tikinti şirkətlərinə məxsus olan mənzil-kommunal təsərrüfatı mülkiyyətinin, məişət xidmətlərinin və s. idarə edilməsinə qərbin şirkətlərində çox az rast gəlinir.

## ƏDƏBİYYAT

1.Azərbaycanda tikinti. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi,Bakı-2021

2. Şirəliyev V.M. “Tikinti müəssisələrinin təsərrüfat fəaliyyətinin təhlili” Dərslik / V.M.Şirəliyev, N.N.Məmmədova. Bakı, “Nurlan” – 2006 - 466s.

3. Казанский Ю.Н. Строительство в США и России: экономика, организация и управление / науч. Центр корпорации «Двадцамый трей» / Ю.Н.Казанский, А.М.Немчин, С.Н.Никитин – СПБ: Два, 2015 – с.321.

4. Кочетков А.И. Управление проектами (зарубежный опыт) / А.И. Кочетков – Санкт-Петербург: «Два-Три» 2015 – 443с.

5. . Ковальский М.И. «Управления строительством: опыт США, Японии, Великобритании ФРГ. Канады» / М.И. Ковальский – М: «Стройиздат» 2014 – 675с.

# REGİONLARIN MALİYYƏ TƏMİNATINDA BÜDCƏLƏRARASI MÜNASİBƏTLƏRİN ROLU

**Prof. Mirələm HƏSƏNLİ[11],**
**doktorant Fərid MƏMMƏDHƏSƏNOV**

**Xülasə**

Ölkənin rəqabətə davamlılığı ayrı-ayrılıqda hər bir regionun inkişafının rəqabətə davamlılıq və effektivliyini artıran göstərici kimi formalaşır.Büdcələrarası münasibətlərin region və maliyyə mexanizmi dövlətin, əhalinin və sahibkarlığın maraqlarının əldə olunmasına əsaslanmışdır. Bu razılaşma yalnız regionların iqtisadi inkişafının təmin olunması şəraitində əldə oluna bilər. Ölkənin iqtisadi potensialı yalnız mərkəzi hakimiyyət səviyyəsində formalaşmır, o, bütün ölkə ərazisində yarandığı üçün bu olduqca mühüm əhəmiyyət kəsb edən bir məsələdir.

**Açar sözlər:** *region, büdcə sistemi, sosial-iqtisadi inkişaf, büdcələrarası münasibətlər, tənzimləmə*

**The Role Of Intergovermental Relatıons In The Fınancıal Support Of Regıons**

**Summary**

Modernization of the intergovemmental system determines the need and feasibility of thc transformation of a number of fundamental principles of the formation and implementation ol' the fmancial policy of the State is functionally oriented towards providing the conditions of ex- panded reproduction, development of regional economies. This complex process involves, first of all, the conceptual alignment of the theoretical and methodological principles and algoritmically tuned circuits of the modernization of the mechanism of intergovemmental relations.

**Keywords:** *region, budget system, socio-economic development, budgets, regulation*

## Giriş

Müasir mərhələdə inkişafi müxtəlif səviyyəli büdcələr arasındakı münasibətlərin, bütün səviyyədə idarəçilik büdcələrinə vəsaitlərin səfərbər olunmasının təsirli üsullarının işlənməsinin optimal mexanizmlərinin axtarış vəzifəsini ortaya qoyan büdcə sistemi islahatının yeni mərhələsi ilə əlaqədar olaraq yerli büdcələrin maliyyə stabilliyinin və təhlükəsizliyinin təmin olunması problemləri xüsusi aktuallıq kəsb edir. Büdcə qanunvericiliyinin təhlili göstərir ki, yeni büdcə məcəlləsində büdcələrarası münasibətlər üzrə mövcud sistem bəzi əlavələr edilməklə bütövlükdə saxlanmış, idarəçilik səviyyələri arasında xərclərin səlahiyyət bölgüsündə bəzi dəyişikliklər edilmişdir.

## 1. Büdcələrarası Münasibətlərin İnkişafına Dair Nəzəri Yanaşmalar

Professor E.Seiiqman 1908-ci ildə yazırdı: "İqtisadiyyatın başlıca vəzifəsi - mövcud olanları bizə izah etməkdir. Əgər bütün cəmiyyət təkamülün nəticəsidirsə, onda biz əvvəl mövcud olanları bilməklə indi onları anlaya bilərik. Sosial tendensiyaların araşdırılması nə olmalıdır sualam ortaya çıxarır".

Əksər iqtisadçılar büdcələrarası münasibətlərin təşəkkülü və inkişafına və onların tənzimlənməsinə öz töhfələrini vermişlər. Onların nəzəri təsvirlərində daima büdcənin sosial-iqtisadi sistemdəki yeri və rolunun dəyişməsi müşahidə olunur. Qeyd etmək lazımdır ki, uzun müddət büdcə sisteminin səviyyələrinin ayrılması və müxtəlif idarəetmə səviyyələrinin səlahiyyətlərinin bölünməsi haqqında məsələ tarixi ölçülərə görə nisbətən yaxın zamanlarda qoyulmuşdur. Büdcə haqqında elm iqtisadi nəzəriyyəyə paralel olaraq inkişaf edir. Maliyyələr haqqında elm isə onun bir hissəsini təşkil edir.

İqtisadçı alimlər uzun müddət büdcələrarası münasibətlərin təşkilinə dair məsələlərlə bağlı elə də böyük problemlər yaratmayıb. Buna baxmayaraq, biz maliyyə elminin inkişafı məsələsini və büdcələrarası münasibətləri diqqətdən kənarda saxlaya bilmərik. Bütövlükdə büdcənin məzmunu və əhəmiyyətinə diqqəti yönəltməklə onun əsas mərhələlərini nəzərdən keçirək.

İqtisadiyyat fəaliyyətin daxili və xarici amil şnrtlnrinin knyfiyynt dəyişiklikləri, iqtisadi islahatların sonrakı dərinləşməsi, hədəf alətlərinin dəyişdirilməsi, onların reallasdırdmasınm strategiya və taktikasının hazırlanması zəruriliyini öncədən müəyyən edir.Büdcə siyasətinin təkmilləşdirilməsi üzrə kompleks tədbirlərin hazırlanması və reallaşdırılması üçün respublikanın maliyyə sferasında baş verən proseslərin təhlili zərmidir.

[11] Azərbaycan Dövlət İqtisad Universiteti, fmammadhasanov@gamail.com

**2. Büdcələrarası Transfertlərin Mühüm Parametrləri**

Maliyyə orqanlarının məsuliyyətini artırmaq üçün məqsədli transfertlərin nəticələrinə dair sazişin bağlanması haqqında norma daxil edilmişdir. Bu razılaşma əsasında yuxarı səviyyəli büdcələrin səlahiyyətli nümayəndələri məqsədli transfertlər köçürəcəklər. İnkişafa ayrılan transfertlərin köçüıülmu üçün sazişlərdən əlavə icra ulunaıı işlərin aktlarnnrr da tələb olunması məqsədəmüvafiqdir.

Büdcələrarası münasibətlərin həm də bir neçə il üçün təsdiqlənmiş ümumi xarakterli transfertlərin təsir müddəti ərzində dövlət idarəçiliyinin səviyyələri arasında funksiyaların ötürülməsi ilə əlaqədar olaraq, xərclərin artmasına gətirib çıxaran qanunvericilik aktları qəbul edildiyi hallarda yuxarı səviyyəli büdcələrin maliyyə itkilərinin müəyyən edilməsi üçün daha aşağı büdcədən yuxarı büdcəyə transfertlərin köçürülməsi (əks transfertlər) imkanı haqqında da düşünmək olar.

Texnogen xarakterli fövqəladə vəziyyətlərin yarandığı hallarda region səviyyəli büdcələr, respublika əhəmiyyətli şəhər büdcələri, paytaxtın büdcə səviyyələri arasında münasibətlərə yol verən norma da nəzərdə tutulmuşdur.

Respublika büdcəsində məqsədli transfertlər üçün ayrılan vəsaitlərin investisiya layihələrinin yerli büdcədən birgə maliyyələşdirilməsinə icazə verilməsi məsələsi də təqdirəlayiqdir.

Aşağıdakı büdcə administratorlarına Hökumətin və yerli icra orqanlarının qərarı ilə respublika büdcəsindən və ya yerli büdcələrdən məqsədli təyinatlara əməl etməklə ötən il ayrılan məqsədli transfertlərin istifadə olunmamış və ya tam olunmamış məbləğlərini cari ildə sonadək istifadə etmək hüququ verilir.

İnkişafa ayrılan məqsədli transfertlərdən istifadə zamanı qənaətin yarandığı hallarda yerli icra orqanları qənaət edilmiş müvafiq məbləği yerli investisiya layihələrinin reallaşdırıldığı büdcə proqramlarının nəticələri üzrə göstəricilərin yuxarı səviyyəli büdcələrdən inkişafa ayrılmış məqsədli transfertlər hesabına yaxmlaşdırması üçün istifadə etmək hüququna da malikdir.

Müasir şəraitdə büdcələrarası münasibətlərin elə bır modelini hazırlamaq lazımdır ki, o, həm mərkəzi hökuməti, həm də yerli hökuməti razı salsın. Bu halda əsas diqqət respublikanın bütün ərazisində əhalinin ehtiyaclarının maksimal təmin olunmasına yönəldilmiş tədbirlərədir.

Büdcələrarası münasibətlərin respublikada istifadə olunan tənzimləmə forması - büdcədən götürmələr - xarici praktikada nisbətən az istifadə olunur. Təhlil göstərdi ki, bu forma yerli icra orqanlarını öz gəlir bazalarını möhkəmləndirməyə stimullaşdırmır. Bizim fikrimizcə, respublikada yardımların həcmlərinin hesablanma mexanizmlərinin təkmilləşdirilməsinə ehtiyac var. Respublika büdcəsindən ayrılan ümumi xarakterli transfertlərin həcminin təyin olunması baxımından kifayət qədər dəqiq metodika hazırlanmışdır, büdcədən götürmələr üçün də belə mexanizmin olmasına ehtiyac vardır.

Büdcələrarası münasibətlərin iştirakçılarının bir-biri, əhali, müəssisə və təşkilatlar qarşısındakı məsuliyyətlərin artırılmasına xüsusi diqqət yetirilməlidir. Maliyyə yardımı regional büdcələrin və büdcə siyasətinin şəffaflığı, büdcə və vergi qanunvericiliyinə riayət olunmasına dövlət maliyyə nəzarətinin gücləndirilməsi şəraitində ayrılmalıdır.

Ümumi xarakterli transfertlərdən başqa məqsədli transfertlərdən də istifadə olunur. Məqsədli transfertlər isə məqsədli cari transfertlərə və məqsədli inkişaf transfertlərinə ayrılır. Məqsədli cari transfertlər yuxarı səviyyəli büdcələrdən aşağı səviyyəli büdcələrə, büdcə subvensiyaları hesab-lanarkən nəzərə alınmayan və ayn-ayn cari büdcə proqramlarının reallaşdırılması üçün respublika və ya yerli büdcədə təsdiqlənmiş məbləğ hüdudlarında ötürülən rəsmi transfertlərdir.

Məqsədli cari transfertlər yalmz dövlət, sahə və ya regional proqramlar üzrə tədbirlərin həyata keçirilməsi üçün, həmçinin hakimlərin vəsatəti üzrə maliyyə ili ərzində hökumət və ya yerli icra orqanı ehtiyatından maliyyələşdirilən tədbirlər üçün təqdim olunur. Məqsədli inkişaf transfertləri aşağıdakı rəsmi transfertlərdir:

- yerli büdcənin dövlət və sahə proqramları ilə nəzərdə tutulan investisiya proqramlarının re-allaşdırılması üçün respublika büdcəsində təsdiqlənmiş məbləğ hüdudlarında respublika büdcəsindən vilayət büdcəsinə, respublika əhəmiyyətli şəhər paytaxt büdcəsinə ötürülən;

-yerli büdcələrin regional proqramlarla nəzərdə tutulan investisiya layihələrinin reallaşdırılması üçün yerli büdcəsində təsdiqlənmiş məbləğ hüdudlarında rayon büdcəsinə ötürülən vəsaitlər.

Büdcə kreditləri büdcə investisiya proqramlarının reallaşdırılması üçün və büdcələrin kassa kəsirlərinin ödənməsi üçün yerli büdcələrə verilə bilər.

İnvestisiya subvensiyaları ərazilərin onlara qoyulan investisiya yerləşdirmələrinin maliyyə-ləşdirilməsi üzrə büdcə imkanlarının bərabərləşdirilməsi üçün nəzərdə tutulmuşdur. Onlara sosial infrastrukturun inkişafı, ətraf mühitin mühafizəsi və ərazilərin kompleks inkişafı üçün qoyulan investisiyalar daxldir. Məqsədli transfertlər və büdcə kreditləri ciddi surətdə müvafiq büdcə

proqramlarından müəyyənləşdirilən məqsədli toyinatlar üzrə verildiyindən onlara məqsədli tə-yinatların pul vəsaitlərinin fondu kimi baxmaq olar. Mövcud qanunvericiliyə uyğun olaraq məq-sədli transfertlərdən və büdcə kreditlərindən istifadə zamanı onların məqsəd təyinatlarının po-zulması nəzərdə tutulmuş qaydada nəzarət aktının imzalanmasından sonra bir ay ərzində onların müvafiq yuxarı səviyyəli büdcəyə qaytarılmasına gətirir.

Bu zaman hökumətin (və ya ycili iuıa uıqaulaıınm) qərarı ilə respublika büdcəsindən ayrılan məqsədli transfertlərin istifadə olunmamış və ya tam həcmdə istifadə olunmamış məbləğləri onların məqsədli təyinatlarını nəzərə almaqla, gələn maliyyə ilində istifadə oluna bilər. İnkişaf üçün ayrılan məqsədli transfertlərin istifadəsi zamanı qənaət yarandığı hallarda yerli icra orqanları qənaət olunmuş müvafiq məbləği büdcə proqramlarının nəticələri üzrə göstəricilərin yaxşı-laşdırılması üçün istifadə etmək hüququna malikdir [1]. İnkişaf üçün ayrılmış məqsədli transfertlər hesabına reallaşdırılan yerli investisiya layihələri həmin proqramlar üzrə həyata keçirilir. Belə praktika yerli hökumətlərin dövlət vəsaitindən səmərəli istifadədə məsuliyyət və marağının gücləndirilməsinə yardım edir.

Müəyyənləşdirməllər belə nəticələr çıxarmağa imkan verir kı, respublika büdcəsindən ayrılan büdcə subsidiyalarının həcmləri bu və ya digər sahə inkişaf etdikcə azaldılmalıdır [2]. Lakin praktika göstərir ki, respublika büdcəsindən ayrılan büdcə subsidiyalarının həcmləri sahələrin inkişaf səviyyələrinə baxmayaraq hər il artır, bu da subsidiya alanların öhdədə olma əhvalına gətirib çıxarır, belə ki, sahələrə dəstəyin maliyyələşdirilməsinin başqa yollarının lazımi təhlili və axtarışı yoxdur. Bununla əlaqədar, ayrılan büdcə subsidiyalarının xüsusiyyətlərini və onların iqtisadiyyat sahələrinin gələcək inkişafına təsiri nəzərə alınmaqla həcmli büdcə subsidiyalarının planlaşdırılması məsələlərinə yenidən baxmaq lazımdır. Subsidiya vermənin dünya praktikasının təhlili göstərir ki, kənd təsərrüfatıma inkişaf səviyyələri və dövlət tərəfindən həyata keçirilən subsidiya, güzəşt və s. şəklində dəstək tədbirləri arasında birbaşa əlaqə var. İnkişaf etmiş höku-mətlər öz kənd təsərrüfatı istehsalçılarını subsidiyaların kifayət qədər yüksək səviyyəsi ilə müdafiə edirlər [4]. Bu ölkələr - aqrar məhsulların ən böyük ixracatçıları isə - öz aqrarçılarma onların amerikalı və avropalı rəqiblərinin aldığı ilə müqayisədə dəfələrlə az yardım göstərirlər.

Zənnimcə, büdcələrarası münasibətlərə dair islahatları regional təcrübəni nəzərə alaraq aparmaq lazımdır. Bu münasibətlərin ümumi vəziyyəti milli modelin spesifikası, mahiyyəti, həmçinin onun gələcək inkişafının perspektivləri haqqında aydın təsəvvürün olunmaması ilə xarakterizə olunur.

Beləliklə, büdcələrarası münasibətlərin subvensiyalar və büdcədən götürmələr mexanizmi vasitəsilə tənzimlənməsi təcrübəsi yerlərdə təşəbbüsün inkişafına, yerli maliyyələrin möhkəm-ləndirilməsinə nəinki kömək etmir, hətta mərkəzi səviyyədə sosial - iqtisadi proqramların inkişafını ləngidir, çünki respublika büdcəsi vəsaitlərinin regional problemlərin həlli üçün yayındırılması mərkəzi hakimiyyət səviyyəsində büdcə kəsirinin yaranmasına imkan verir.

**Nəticə**

Fikrimizcə, yerli büdcələrin möhkəmləndirilməsi məsələsinin respublika büdcəsinin xərc-lənməsi hesabına deyil, aşağıdakılar hesabına həll edilməsi məqsədəmüvafiqdir:

- büdcə sisteminin səviyyələri arasında vergilərin bölünməsinin mövcud təcrübəsinin islahatları;
- yerli icra orqanların yerli büdnnlnrin vmnitlərinin fnrmnlnşmnsı vc> xerclonme-sindeki sə-lahiyyətlərinin vergi - büdcə sahəsində gedən proseslərə nəzarətin gücləndirilməsi şərti ilə ge-nişləndirilməsinə nail olmaq.

**ƏDƏBİYYAT**


1. Лапушинская Г.К. Метод анализа территориальных бюджетов / Финансы. 2001, №9.
2. Лебединская Е. Повышение эффективности – основная задача бюджетной политики // Экономист. 2011. №2
3. Максимов А.В. Бюджетно-финансовое равновесие муниципального образования. М.: Книжная редакция «Финансы». 2003
4. Муниципальная экономика: тенденция и перспективы развития. Екатеринбург. 2000.

# DÖVLƏT MÜƏSSİSƏLƏRİNDƏ KADR SİYASƏTİNİN FORMALAŞDIRILMASI AMİLLƏRİ

**Dosent Əlirza MƏMMƏDOV,[12].**
**Dosent Qəhraman BAYRAMOV**
**Doktorant Şəhriyar ŞAHKƏRƏMLİ**

**Xülasə**

Məqalə dövlət müəssisələrində kadr siyasətinin formalaşdırılması amillərinin tədqiqinə həsr edilmişdir. Məqalənin məqsədi – Azərbaycanın dövlət müəssisələrində kadr siyasətinin formalaşdırılması amillərinin tədqiqi əsasında bütövlükdə ölkədə kadr siyasətinin təkmilləşdirilməsi istiqamətləri ilə bağlı müvafiq təklif və tövsiyələr hazırlamaqdır. Tədqiqat obyekti kimi dövlət müəssisələrinin timsalında SOCAR seçilmişdir. Məqalədə müasir şəraitdə heyətin idarə edilməsinə konseptual yanaşma nəzərdən keçirilmiş, kadr siyasətinin formalaşmasının konseptual əsaslarına aydınlıq gətirilmişdir. Müəssisədə kadrların qiymətləndirilməsi məqsədləri və vəzifələri dəqiqləşdirilmiş, kadr siyasətinin əsas növləri və onların səciyyəvi cəhətləri şərh edilmişdir. Məqalədə SOCAR-da kadr siyasətının aparılması xüsusiyyətləri öyrənilmiş və işçilərin qiymətləndirməsi təşkilatın kadr siyasətinin zəruri elementi kimi müəyyənləşdirilmişdir. Belə nəticəyə gəlinmişdir ki, kadr siyasəti müəssisənin iqtisadi fəaliyyətinin xüsusiyyətlərinə, idarəetmənin təşkilati quruluşuna, ünsiyyət sisteminə, təşkilati mədəniyyətinə, motivasiya və stimullaşdırma sisteminə uyğun olaraq formalaşır. Bundan əlavə, təşkilatın kadr siyasəti işçilərin heyətin idarəetmə texnologiyalarının tətbiqi sahəsindəki səlahiyyətlərinin qiymətləndirilməsinə əsaslanır. Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, burada müəssisənin əsas xarakterinin reallaşdırılmasında onun işçilərinin əsas olduğu dəqiqləşdirilmiş, bu hədəflərin reallaşma dərəcəsinin şirkətin səmərəliliyinə, yəni mövcud resurslardan səriştəli istifadəyə bariz nümunə olduğu əsaslandırılmışdır. Hesab edilmişdir ki, şirkətdə kadr qiymətləndirməsi müəssisənin səmərəliliyinə birbaşa təsir edən əsas prosedura çevrilməlidir.

***Açar sözlər:*** *kadr siyasəti, müəssisə, insan resurslarının idarə edilməsi, SOCAR*

## Factors For The Formation Of Personnel Policy In Public Institutions

**Summary**

The article is devoted to the study of the factors of personnel policy formation in state enterprises. The purpose of the article is to prepare relevant proposals and recommendations regarding the directions for improving the personnel policy in the country as a whole, based on the study of the factors of personnel policy formation in the state enterprises of Azerbaijan. SOCAR was selected as the research object in the example of state enterprises. In the article, the conceptual approach to personnel management in modern conditions was considered, and the conceptual basis of personnel policy formation was clarified. The goals and tasks of personnel evaluation in the enterprise were specified, the main types of personnel policy and their characteristics were explained. In the article, the characteristics of personnel policy in SOCAR were studied and employee evaluation was defined as a necessary element of the organization's personnel policy. It was concluded that the personnel policy is formed according to the characteristics of the enterprise's economic activity, organizational structure of management, communication system, organizational culture, motivation and stimulation system. In addition, the personnel policy of the organization is based on the assessment of employees' competencies in the field of application of personnel management technologies. The scientific innovation of the research is that it is clarified that its employees are the main factor in the realization of the main character of the enterprise, and it is justified that the degree of realization of these goals is a clear example of the efficiency of the company, that is, the competent use of available resources. It was considered that personnel evaluation in the company should become the main procedure that directly affects the efficiency of the enterprise.

**Keywords:** personnel policy, enterprise, human resources management, SOCAR.

*UOT 331.586*

## Giriş

Müasir şəraitdə heyətin idarəetməsi üzrə səmərəli fəaliyyətin əsasında təşkilatın kadr siyasəti durur. Əvvəlcə "siyasət" termini dövlət səviyyəsindəki fəaliyyətlə (idarəetmə) - "dövlət siyasəti" ilə bağlı olmuşdur. 20-ci əsrin əvvəllərində bu konsepsiya ictimai fəaliyyətə keçdi. Bu tendensiya, sosial-iqtisadi yanaşmalar nəzərə alınmaqla idarəetmə fəaliyyətinin səmərəliliyinin artırılması, təşkilati məqsədlərin müəyyənləşdirilməsi, habelə qarşıya qoyulan hədəflərə çatmaq üçün metodların işlənib hazırlanması zərurətinin başa düşülməsi ilə şərtlənmişdir.

---

[12] **Azərbaycan Dövlət İqtisad Universiteti**

**1. Müasir şəraitdə kadr siyasətinin formalaşmasının konseptual əsasları**

J.-M.Le Gall, fransız sosioloqu və idarəetmə sahəsi üzrə mütəxəssis kadr siyasətini "muzdlu işçilərin mövcudluğu və onlara olan ehtiyacları arasında say və ixtisas baxımından səmərəli və davamlı balansı təmin etməyə yönəlmiş funksiya" olaraq təyin edir. İdarəetmənin vəzifəsi kadr səlahiyyətlərini təşkilatın strategiyasının maraqlarına uyğunlaşdırmaqdır." Buna görə kadr siyasəti müasir idarəetmə texnologiyalarına əsaslanır, müasir menecmentin tələblərinə cavab verir, təşkilatın kadr potensialından səmərəli istifadə edilməsinə yönəldilmişdir.

A.Y. Kibanov kadr siyasətini heyətin işinin ümumi istiqaməti, prinsiplərin, metodların, formaların məcmusu, kadr potensialının qorunub saxlanılması, gücləndirilməsi və inkişaf etdirilməsi, təşkilatın inkişaf strategiyası nəzərə alınmaqla daim dəyişən bazar tələblərinə vaxtında cavab verə bilən ixtisaslı və yüksək məhsuldar, vahid komanda yaratmaq məqsədi və vəzifələrinin inkişaf etdirilməsi üzrə təşkilati mexanizm kimi müəyyənləşdirir(Кибанов, 2014: 447).

M.Y. Veprikova vurğulayır: "Müasir bazar şəraitində müəssisənin kadr siyasətinin əhəmiyyəti xeyli artmışdır, çünki əmək resursları müəssisənin səmərəli fəaliyyətinə kömək edən əsas elementdir. Belə ki, müəssisələrin əhəmiyyətli hissəsi təcrübəsiz və səriştəsiz menecerlərin məhz daxili və xarici mühit amillərinin təsirini və dəyişməsini nəzərə ala bilməmələri səbəbindən iflasa uğrayır"( Веприкова, 2016: 1234).

O hesab edir ki, "kadr siyasəti müəssisənin fəaliyyətinə və inkişafına təsir edən bütün şərtlərin, yəni maliyyə, texniki, kommersiya və innovativ fəaliyyətlərin qarşılıqlı əlaqəsini özündə birləşdirməlidir" (Веприкова, 2011 :1008).

Tədqiqatçı alim A.P. Egorşin qeyd edir ki, insanları idarə etmək hər bir istehsal prosesinin ən mürəkkəb və zəruri alt sistemlərindən biridir. Kadrlar istehsalın əsas amilidir, cəmiyyətin ilk məhsuldar qüvvəsidir. Həqiqətən istehsalın səmərəliliyi işçilərin ixtisaslaşmasından, onların işgüzar keyfiyyətlərindən və peşə hazırlığından asılıdır (Егоршин, 2016 : 560).

E. Parximçik kadr siyasətini müəssisə daxilində nəzəri biliklərin, baxışların, prinsiplərin, ideyaların, münasibətlərin və təşkilati xarakter daşıyan əməli tədbirlərin qarşılıqlı əlaqəsi kimi təqdim edir (Пархимчик, 2016 : 56).

Tədqiqatçı V.I. Maslovun fikrincə, kadr siyasəti qaydalar və normalar, təqdimatlar və məqsədlər sistemidir. Məhz onlar kadrlar ilə işin istiqamətini və məzmununu formalaşdırırlar (Маслов, 2015 : 130).

Kadrlar üzrə mütəxəssis O.E. Alexina kadr siyasətini müəssisədə işçilərin idarə edilməsinin əsası kimi izah edir. Öz növbəsində şirkət işçilərin seçilməsini, operativ uyğunlaşma üçün şəraitin təmin edilməsi bir sıra prinsip və qaydalara əsaslanaraq əmək məhsuldarlığının obyektiv qiymətləndirilməsini həyata keçirir (Алехина, 2015).

Bu elementlər qarşılıqlı əlaqədə kadr siyasətini təşkil edir. Bu baxımdan Y.G. Odegov iddia edir ki, müəssisənin kadr siyasəti yalnız ali təhsilli insanları işə qəbul etmək qərarını müəyyənləşdirir. Bu, konkret kadr məsələsinin həllində müəyyən dəlil kimi istifadə edilə bilər.

**2. Müəssisədə kadr siyasətinin məqsəd və formalaşdırılması şərtləri**

Kadr siyasətinin aşağıdakı məqsədləri vurğulanır:

1) insan resurslarının inkişafı və qorunması;
2) effektiv komandanın formalaşdırılması;
3) əmək şəraitinin formalaşması;
4) kadrlar şöbəsinin əsas iş sahələrində müəssisənin mövqeyinin təsdiqlənməsi (Одегов, 2016: 230].

Azərbaycanlı professor R.Ə.İsgəndərovun fikrincə, kadr siyasətində başlıca məqsəd işə qəbuletmənin prisiplərini müəyyən etmək, işçilərin vəzifə borclarına uyğun olaraq daha mütərəqqi idarəetmə üsullarını keyfiyyətlə tətbiq etmək, şəxslərin peşəkarlıq inkişafını möhkəmləndirməkdir. Alim hesab edir ki, kadr seçimi idarəetmənin alt funksiyası olub, müəssisə fəaliyyətində şəxsə münasibətdə reallaşdırılır(İsgəndərov, 2003: 89]

M.Əliyev və H.Həmidov 2013-cü ildə birgə ərsəyə gətirdikləri dərslikdə kadr siyasətini müəssisədə məhsuldar, vahid və yüksək məhsuldarlığa malik işçi kollektivinin formalaşmasına yönəlik iş sistemi kimi təqdim edirlər (Əliyev və Həmidov, 2013:102). Alimlərin fikrincə, müəssisədə kadr siyasətini formalaşdırmaq üçün zəruri olan əsas şərtlərin aşağıdakılardan ibarət olduğunu vurğulayırlar:

- kadr siyasəti dövlətin sosial-iqtisadi siyasəti, hüquqi və ictimai normalar ilə uyğunlaşdırılmalıdır;
- kadr siyasətində strateji və cari məqsədlər nəzərə alınaraq, onların reallaşdırılma vasitələri düzgün əlaqələndirilməlidir;
- kadr siyasətində demokratiklik, aşkarlıq və dinamiklik təmin edilməlidir;

• kadr siyasətində işçilərin karyerası və məsuliyyəti yönümündə stimulun formalaşması üzrə tarazlıq gözlənilməlidir (Əliyev və Həmidov, 2013:102-103).

**3. Kadrların qiymətləndirilməsi məqsədləri və vəzifələri**

Kadrların qiymətləndirilməsində aşağıdakı məqsədlər var:

- motivasiya (qiymətləndirmə işçinin həvəsləndirilməsi üsuludur, çünki düzgün qiymətləndirilmiş işçilərin özü gələcəkdə əmək məhsuldarlığının artımını təmin edəcəklər);

- inzibati (vəzifəyə keçməsi, başqa bir şöbəyə köçürülməsi, qabaqcıl təlimə və ya yenidən hazırlanmaya yönləndirmə və s.);

- məlumatlı (heyətin şirkətin fəaliyyəti haqqında məlumat almaq imkanı var, bu daha da yaxşılaşdırılması və ya qərar qəbul etməsi üçün vacib ola bilər).

Təşkilatın kadr qiymətləndirməsi hansı vəzifələri həll edir?

- İşçilərin auditi, bu, təşkilatın işçilərinin idarə edilməsi və sosial-əmək münasibətlərinin tənzimlənməsi üzrə fəaliyyət effektivliyinin məsləhətçi dəstəyi, analitik qiymətləndirmə və müstəqil ekspertizası sistemidir (Əliyev və Həmidov, 2013: 3).

Dövri aparılmalı olan bu təhlil, təşkilat işçilərinin kəmiyyət və keyfiyyət tərkibində nizamın bərpasına yönəldilmişdir. Bununla yanaşı, təşkilatın kadr potensialının məqsədlərinə və inkişaf strategiyalarına uyğunluğunu, işçilərin idarəetmə sisteminin effektivliyini qiymətləndirməyə, əmək haqqının verilməsini nəzərdən keçirməyə, kadr dəyişikliyini keçirməyə və qabaqcıl təlim kurslarına, yenidən hazırlığa və s. keçməli olan kadrları müəyyən etməyə imkan verir.

- Heyətin motivasiyası. İşçilərin cəlb edilməsi, onun motivasiyası şirkətin fəaliyyətinin son nəticələrinə birbaşa təsir göstərir. Ancaq çox vaxt işçilər özlərinə diqqət yetirmirlər, məlumatlandırılmır, əks əlaqə almırlar və bəziləri bu qurumda karyera perspektivlərini görə bilmirlər. Buna görə təşkilat rəhbərliyi öz bütün istəklərini nəzərə alaraq işçilərin motivasiya sistemini səriştəli şəkildə təşkil etməlidir.

- Kadrlar ehtiyatının yaradılması və inkişafı. Bildiyimizə görə, hazırda Azərbaycan əmək bazarında kadr çatışmazlığı var. Buna görə təşkilat rəhbərliyi öz kadrlarında potensialı müəyyən etməli və onları yan tərəfdən axtarmamalıdır - xarici mühitdə mütəxəssis axtarmaqdan daha çox öz işçinizi böyütmək daha səmərəli və daha az məsrəfli olacaq.

- İşçilərin təlim ehtiyaclarının müəyyənləşdirilməsi. İnformasiya və istehsal texnologiyaları əsrində şirkətlər getdikcə ixtisaslı, asanlıqla hazırlanan və əsasən gənc mütəxəssislərə ehtiyac duyurlar. Bacarıqlı kadrlar varsa, menecerlər müxtəlif təlim kursları vasitəsilə onların ixtisaslarını artırmaqda maraqlıdırlar. Bu vəziyyətdə qarşıda duran vəzifə işçilərin dəyişikliklərə, yeni biliklərin, texnologiyaların mənimsənilməsinə, verilən şərtlərdə yeni problemləri həll etməyə nə qədər hazır olduqlarını qiymətləndirməkdir.

- Şirkət heyətinin ixtisarı. Təşkilat zaman-zaman "əlavə" işçilərdən azad edilməlidir. Çox vaxt bu, böhran, rəhbərliyin dəyişdirilməsi və ya müəssisədə dəyişiklik səbəbindən olur. Buna əsaslanaraq işçilərin işdən çıxarılmasının əsas meyarı seçimdə səhv etməməkdir. Heç də həmişə şirkətlər yalnız "pis" və səmərəsiz işçiləri işdən azad etmirlər.

**4. Kadr siyasətinin əsas növləri və onların səciyyəvi cəhətləri**

Kadr siyasətinin əsas növlərini də öyrənmək lazımdır, bunlar müəssisədəki vəziyyətdən asılı olaraq iş planını kadrlarla tənzimləməyə imkan verəcəkdir. N.I. Makovskaya, kadr siyasətinin aşağıdakı növlərini müəyyənləşdirir: passiv, reaktiv, profilaktik və aktiv. Təşkilatın rəhbərliyində işçilərlə işləmək üçün müfəssəl fəaliyyət proqramı olmadıqda, kadrlarla iş, kadr vəziyyətini müayinə etmək və bütövlükdə işçi heyətini qiymətləndirməklə mənfi nəticələrin aradan qaldırılması üçün passiv kadr siyasəti həyata keçirilir(Маковская, 2011: 84).

Reaktiv kadr siyasəti təşkilat rəhbərliyi işçilərlə işləməkdə mənfi halın simptomları, münaqişə vəziyyətlərinin elementləri üzərində nəzarətin həyata keçirildiyi, yüksək səmərəli iş üçün motivasiyanın olmadığı və böhranın inkişafı vəziyyətinə sahib olduğu hallarda həyata keçirilir (Митрофанова, 2013: 83).

Profilaktik kadr siyasəti rəhbərliyin vəziyyətin inkişafı ilə bağlı proqnozları olduqda həyata keçirilir. Bu proqnozlar mütləq əsaslandırılmalı və statistik məlumatlarla təsdiqlənməlidir.

Fəal kadr siyasətinin həyata keçirilməsində rəhbərliyin nəinki proqnozu, həm də vəziyyətə təsir edən vasitəsi var. Qeyd etmək lazımdır ki, bu vəziyyətdə heyətin xidmətinə dair məqsədli antiböhran proqramlar hazırlamaq, habelə vəziyyətə operativ nəzarət etmək və xarici və daxili mühit amillərinin təsirini nəzərə alaraq proqramların icrasında dəyişikliklər etmək tövsiyə olunur.

Beləliklə, təşkilatın kadr siyasəti, təşkilatın "həyat dövrü" mərhələlərini nəzərə alaraq hazırlanmış strategiyaya uyğun idarəetmə prosedurlarını müəyyən edir. Kadr siyasətinə dövlət siyasətində dəyişiklik, təşkilatın fəaliyyətində yeni istehsal texnologiyalarının tətbiqi və s. təsir göstərir.

Təşkilatın kadr siyasəti təşkilatın ümumi inkişaf strategiyasına əsaslanan, kadrların idarə edilməsi sahəsində qarşılıqlı əlaqəli məqsədlər sistemi olmalıdır. Həm də təşkilatın funksional alt sistemlərinə uyğun olaraq nəticələrin əldə edilməsini qiymətləndirmək üçün prinsiplər, metodlar daxildir. Kadr siyasəti, təşkilatın mövcud fəaliyyətlərini xarici və daxili mühitdəki dəyişikliklərə uyğun olaraq ümumi inkişaf strategiyası ilə uyğunlaşdırır.

Kadrlar siyasətinə aşağıdakılar daxildir:

- səlahiyyətli işçilərin cəlb edilməsi;
- heyətin sədaqətinin inkişafı və artırılması üçün şəraitin yaradılması;
- heyətin idarəetmə sisteminin təkmilləşdirilməsi.

**5. SOCAR-da kadr siyasətinin əsas fəaliyyət istiqamətləri**

Kadr siyasətinin məqsədi hüquqi, marketinq və digər amillərə uyğun olaraq mövcud təşkilat strategiyası əsasında kadr potensialının formalaşdırılması və istifadəsidir. Kadr siyasətinin vəzifəsi, təşkilatın strateji hədəflərinə çatmaq üçün işçinin və işəgötürənin maraqları balansını yaratmaqdır.

2013-cü ilin 22 aprelində SOCAR tərəfindən təsdiqlənmiş 57 saylı əmrə əsasən şirkətin kadr siyasəti kadrların ehtiyat bazasını formalaşdırmaq, kadr potensialını müəyyənləşdirmək, əmək məhsuldarlığının yüksəldiməsi məqsədilə tələb edilən ixtisas və peşələr üzrə peşəkar kadrları mütərəqqi üsullarla işə cəlb etmək, kadrların inkişafı üçün lazımi şərait yaratmaq və insan resurslarını daha səmərəli idarə etmək məqsədilə reallaşdırılması nəzərdə tutulan kompleks tədbirlər toplusundan ibarətdir.

Kadr siyasətinin *"İnsan resurslarının seçilməsi"* istiqaməti üzrə 2011-ci ildən etibarən SOCAR-da 11 minə yaxın vakansiya elan olunmuş, həmin vakansiyalar üzrə 500 mindən artıq vətəndaş iştirak etmişdir. İlkin seçimdən sonra müraciətçilərin təqribən 44%-i vakansiyalar üzrə göstərilən təhsil, iş stajı və s. bu kimi tələblərə uyğun gəldikləri üçün növbəti müsabiqə prosesində iştirak etmişlər. 2011-2019-cu illər ərzində 6,6 mindən çox vakansiya üzrə 178,3 min nəfərə yaxın iddiaçı arasında test imtahanı aparılmışdır. Ötən 9 il ərzində SOCAR-da keçirilmiş yekun müsahibə və peşə sınaq imtahanlarının nəticəsində müsabiqə yolu ilə 9 minə yaxın insan işlə təmin olunmuşdur. Təkcə 2019-cu il ərzində keçirilən müsabiqə prosesləri nəticəsində işə qəbul olunan vətəndaşların sayı 1500 nəfərə yaxın olmuşdur (https://www.socar.az).

Bir qayda olaraq SOCAR üzrə təşkil olunan bütün test imtahanları mərkəzləşdirilmiş qaydada kompyuterlərdən istifadə etməklə aparılır. 2011-2020-ci illər ərzində şirkətdə müxtəlif istiqamətlər üzrə aparılmış test imtahanlarının əhatə olunduğu iddiaçıların sayı baxımından "İşə qəbul" üzrə istiqamət öndədir.

Kadr siyasətinin *"Davamlı inkişaf" istiqamətinə gəlincə, demək lazımdır ki,* SOCAR-ın qarşısında duran əsas hədəflərdən biri təlim-tədrisin beynəlxalq standartların tələbləri səviyyəsində qurmaqdır. 2012-ci ildən indiyə qədər SOCAR-ın müvafiq mərkəzlərində 85 mindən çox dinləyici şirkətdə aparılmış daxili təlimlərin iştirakçısı olmuşdur. Bütövlükdə, 2019-cu il ərzində 7,4 minə yaxın iştirakçı təlim almışdır. Elə istiqamətlər də olub ki, SOCAR daxilində müvafiq peşəkar mütəxəssislər olmadığından işçilər üçün zəruri olan bilik və bacarıqlar şirkət xaricindəki təlimlərdə alınır. SOCAR-dan kənarda təşkil edilən təlim provayderləri tərəfindən müxtəlif növ təlimlərə cəlb olunmuş dinləyicilərin sayı 2012-2019-cu illər ərzində 5 minə yaxın olmuşdur (https://www.socar.az).

Son illər ərzində SOCAR-dan kənardakı təlimlərdə iştirak edən işçilərin sayı xeyli artmışdır. Belə ki, 2012-2018-ci illərdə orta statistik göstərici 420 nəfər, maksimal hədd isə 824 nəfər (2018-ci il) olmuşsa, təkcə 2019-cu ildə 2335 nəfər, yəni 2018-ci ilin göstəricisinə nisbətən 2,8 dəfədən çox işçi kənar təlimlərə cəlb olunmuşdur (https://www.socar.az).

Kadr siyasətinin ən vacib fəaliyyət istiqamətlərindən biri də *karyera yüksəlişinin planlaşdırılması* və işçilərin inkişafının təmin olunmasıdır. Bu istiqamətdə mühüm olan fəaliyyət sahələrindən biri də işçilərin əməyin ödənilməsi dərəcələrinin (ƏÖD-nin) artırılmasıdır. 2011-2019-cu illər ərzində SOCAR-ın müəssisələrində bütövlükdə keçirilmiş Tarif-İxtisas Komissiyalarının 610-dan çox iclaslarında İRD-nin nümayəndəsinin iştirakı ilə 11,2 min nəfərdən artıq işçinin ƏÖD-nin artırılması məsələsinə baxılmış, onlardan 8,9 min nəfərinin (80%) iddiası qarşılanmışdır. Bununla yanaşı, SOCAR-ın birbaşa tabeliyində olan struktur bölmələrində reallaşdırılan 108 mindən artıq yenidən işə qəbul, başqa işə keçirmə və müvəqqəti əvəzetmə əməliyyatları icra edilmişdir. Kadr axıcılığına təsir edən amilləri aşkarlamaq məqsədilə SOCAR-ın struktur bölmələrində çalışmış və öz təşəbbüsü ilə işdən uzaqlaşmış işçilər arasında 2016-cı ildən başlayaraq sorğu aparılmışdır. 1000 nəfərə yaxın sabiq işçi arasında telefon vasitəsilə

aparılmış sorğu iştirakçılarının cavablarına istinadən müvafiq statistik məlumatlar işlənmiş və əldə olunmuş cavablar müqayisə edilərək təhlil olunmuşdur (https://www.socar.az).

*Motivasiyanın idarə edilməsi* kadr siyasətinin ən vacib fəaliyyət istiqamətlərindəndir. Mövcud işçilərin tanınması, əməyinin qiymətləndirilməsi onların motivasiya növlərindən biri kimi çıxş edir. Bununla əlaqədar olaraq 2011-2019-cu illər ərzində 1485 işçi "Əmək veteranı" adına layiq görülmüşdür. 20 sentyabr neftçilərin peşə bayramı, "Əsrin müqaviləsi"nin 20, 25 illiyi, "Neft Daşları"nın 65, 70 illikləri ilə bağlı ölkənin neft sənayesinin inkişafındakı xidmətlərinə görə 18 nəfər "Şöhrət" ordeni, 528 nəfər "Tərəqqi" medalı ilə təltif olunmuş, 60 nəfər "Əməkdar mühəndis", 2 nəfər "Əməkdar müəllim", 3 nəfər "Əməkdar hüquqşunas" fəxri adına, 6 nəfərə "Dostluq" ordeni və 34 nəfər qocaman neftçiyə ölkə Prezidentinin fərdi təqaüdü təqdim edilmişdir. Təhlil edilən dövrdə SOCAR üzrə 1346 nəfər işçi Şirkətin Fəxri fərmanına və 264 nəfər isə Fəxri Döş nişanına layiq görülüb (https://www.socar.az).

**Nəticə**

Elmi tədqiqatların nəticələrini yekunlaşdıraraq qeyd edək ki, kadr siyasətinin elementlərinin öyrənilməsinə sistemli yanaşma kadr dəyişikliyinin və qarşıdurmaların azaldılmasına, mənəvi-psixoloji iqlimin yaxşılaşdırılmasına kömək edəcək tədbirlər toplusunu müəyyənləşdirməyə kömək edir. Onu da qeyd etmək lazımdır ki, tədqiq olunan nəzəri-metodoloji aspektlər əsasında aşağıdakılar aşkar edildi: kadr siyasətinin təkmilləşdirilməsi müəssisələrin rəqabət qabiliyyətinə təsir edən aşağıdakı amilləri əhatə edir ki, bu da fəaliyyət səmərəliliyini əhəmiyyətli dərəcədə artırır:

1) istehsalda fasiləsiz işin təmin edilməsi üçün işçilər ştatının formalaşdırılması;

2) müəssisə kollektivinin müəyyən əmək potensialının yaradılması xərclərinin minimuma endirilməsi;

3) işçilərin maraqlarının nəzərə alınması, korporativ güzəştlərin əldə edilməsi və peşəkarlığın artması - komandanın bu sabitləşməsi səbəbindən;

4) motivasiya sisteminin yaradılması;

5) müəssisənin uzunmüddətli planlarının həyata keçirilməsində işçilərin bilik və təcrübələrindən tam istifadə.

Beləliklə, kadr siyasəti təşkilat tərəfindən iqtisadi fəaliyyətin xüsusiyyətlərinə, idarəetmənin təşkilati quruluşuna, ünsiyyət sisteminə, təşkilati mədəniyyətə, motivasiya və stimullaşdırma sisteminə, dəyişən şərtlərə uyğunlaşma və s. uyğun olaraq formalaşır.

Bundan əlavə, təşkilatın kadr siyasəti işçilərin heyətin idarəetmə texnologiyalarının tətbiqi sahəsindəki səlahiyyətlərinin qiymətləndirilməsinə əsaslanır:

- kadr seçimində vəzifəyə görə iddiaçının qiymətləndirməsi daha qənaətcil işçi əldə etməyə imkan verir;
- kadrların qiymətləndirilməsi effektiv kadr inkişafı sisteminin hazırlanmasında, təlim proqramlarının tərtib olunması və kadrların ixtisasının artırılmasında əvvəldir;
- qiymətləndirmə əsasında təşkilatın işçiləri üçün motivasiya və stimullaşdırma sistemləri formalaşır və s.

Yuxarıda göstərilənlərə əsasən belə bir nəticəyə gələ bilərik ki, müəyyən məqsədlərə çatmaq üçün təşkilatlar mövcuddur, onların əsas xarakterinin həyata keçirilməsində isə təşkilatın işçiləri əsasdır. Bu hədəflərin həyata keçirilmə dərəcəsi şirkətin səmərəliliyini, yəni mövcud resurslardan səriştəli istifadəsini göstərir. Beləliklə, şirkətdə kadr qiymətləndirməsi müəssisənin səmərəliliyinə birbaşa təsir edən əsas prosedur olmalıdır, çünki bu, təkcə işçinin vəzifəyə uyğunluğunu aşkar etmir, həm də onun potensialını və karyera artımının perspektivlərini qiymətləndirməyə imkan verir.

**ƏDƏBİYYAT**

1. Əliyev M., Həmidov H. Biznesdə insan resurslarının idarə edilməsi (dərslik). Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2013. - 532 s.
2. İsgəndərov R. Ə. «Heyətin idarə edilməsi». Bakı: - 2003,- 404 s.
3. Алехина О.Е. Индикаторы эффективности кадровой политики [Электронный ресурс] // Справочник кадровика-01 мая 2015.- Режим доступа: http: //www.pro-personal (дата обращения 25.12.2019)
4. Веприкова М. Я. Исследование внутренней среды организации в период нестабильной экономической ситуации // Научно-методический электронный журнал «Концепт». - 2016. - Т. 15. - С. 1231-1235. - URL: http: //e-koncept.ru/2016/96163. htm.

5. Веприкова М.Я. Кадровая политика, как инструмент повышения эффективности муниципальной службы // Экономика и предпринимательство. - № 9 (ч.1), 2017 г., С. 1008-1013.

6. Егоршин А. П. Управление персоналом: учеб. пособие / А. П. Егоршин. - Н. Новгород: Нижегор. ин-т менеджмента и бизнеса.- 2016. - 624 с.

7. Кибанов А.Я. Основы управления персоналом: учебник для высших учебных заведений / Москва: ИНФРА-М, 2014. - 447 с.

8. Маковская, Н. Анализ человеческих ресурсов в системе управления персоналом // Управление персоналом. - 2011. - № 3. - С. 82-86.

9. Маслов В.И. Стратегическое управление персоналом в условиях эффективной организационной культуры: Учебное пособие - М.:Издательство «Финпресс».-2015 .- 288с.

10. Митрофанова, Е. А. Управление персоналом: теория и практика. Аудит, контроллинг и оценка расходов на персонал: учебно-практическое пособие — М.: Проспект, 2013. — 77 с.

11. Одегов, Ю. Г. Управление персоналом в структурно-логических схемах: Учебник — М.: Академический Проект, 2016. - С.352.

12. Пархимчик Е.П. Кадровая политика организации: учеб. пособие / Е.П. Пархимчик. - Минск:, ГИУСТ БГУ,2016.-128 с

13. https://www.socar.az

# MÜASİR ŞƏRAİTDƏ İNNOVATİV SAHİBKARLIĞIN İNKİŞAF QANUNAUYĞUNLUQLARI

**Dosent Taleh ƏKBƏROV [13]**
**doktorant Ə. İBRAHİMLİ[14]**

**Xülasə**

**Məqalə** innovativ sahibkarlığın müasir inkişaf qanunauyğunluqlarının müəyyən olunmasına həsr edilmişdir. Tədqiqatın məqsədi – ölkədə innovativ sahibkarlığın müasir inkişaf qanunauyğunluqlarını aşkara çıxarmaqla, onun əsas inkişaf istiqamətlərini müəyyən etməkdir. Məqalədə əvvəlcə, Azərbaycanda innovativ iqtisadiyyata keçidin konseptual məsələləri nəzərdən keçirilmiş, innovativ sahibkarlığın mahiyyəti, məzmunu və funksiyaları dəqiqləşdirilmiş, innovasiya sisteminin fəaliyyət blokları və onların səciyyəvi əlamətləri, eləcə də Azərbaycanda innovativ sahibkarlığın inkişaf meylləri nəzəri cəhətdən tədqiq edilmiş, milli innovasiya sisteminin fəaliyyət bloklarının qurulmasına müəllif yanaşması əsaslandırılmışdır. Müəlliflər tərəfindən innovativ sahibkarlıq strukturunun təşkili, onun əsas prinsipləri və formalaşması mərhələləri müəyyən edilmiş, vençur investisiya və onun müasir xüsusiyyətləri elmi-nəzəri cəhətdən şərh edilmişdir. Tədqiqatın sonunda belə qənaətə gəlinir ki, kiçik müəssisə öz təbiəti baxımından innovativ olsa da, bilik iqtisadiyyatının formalaşması şəraitində bu keyfiyyət daha da artır və bu, Azərbaycan üçün xüsusilə vacib olan iqtisadiyyatın transformasiya dəyişikliklərində və struktur cəhətdən yenidən qurulmasında əsas amilə çevrilməkdədir. Məhz bu aspektdən yanaşdıqda görmək olar ki, tədqiqatın əhəmiyyəti vençur kapitalın potensial olaraq innovativ fəaliyyətlərin ən effektiv maliyyələşmə mənbələrindən biri kimi əsaslandırılmasında, eləcə də bu istiqamətdə dövlət stimullarının məqsədi olaraq ölkə daxilində innovativ fəaliyyətlərin vençur maliyyələşdirilməsi prosesinin inkişafına optimal şəraitin yaradılmasındadır.

***Açar sözlər:*** *innovasiya fəaliyyəti, innovativ sahibkarlıq, milli innovasiya sistemi, vençur investisiya.*

## Innovative entrepreneurship in modern conditions Development regulations

**Summary**

The article is dedicated to determining the modern development regularities of innovative entrepreneurship. The purpose of the research is to identify the main development directions of innovative entrepreneurship in the country by revealing the regularities of its modern development. First, in the article, the conceptual issues of the transition to an innovative economy in Azerbaijan were reviewed, the essence, content and functions of innovative entrepreneurship were clarified, the activity blocks of the innovation system and their characteristic features, as well as the development trends of innovative entrepreneurship in Azerbaijan were theoretically studied, the author's approach to the establishment of the activity blocks of the national innovation system justified. The authors defined the organization of the innovative entrepreneurial structure, its main principles and stages of formation, venture investment and its modern features were scientifically and theoretically interpreted. At the end of the study, it is concluded that although the small enterprise is innovative in terms of its nature, this quality increases even more in the conditions of the formation of the knowledge economy, and it becomes the main factor in the transformational changes and structural restructuring of the economy, which is especially important for Azerbaijan. From this aspect, it can be seen that the importance of the research lies in the justification of venture capital as potentially one of the most effective sources of financing innovative activities, as well as in the creation of optimal conditions for the development of the process of venture financing of innovative activities in the country as the goal of state incentives in this direction.

***Keywords:*** *innovation activity, innovative entrepreneurship, national innovation system, venture investment*

***UOT: 334.722.1***

## Giriş

Müasir şəraitdə iqtisadi artımın əsas amillərindən biri də innovasiya fəaliyyətidir. İqtisadiyyatın innovativ inkişaf yoluna keçməsi əhalinin həyat səviyyəsinin daha da artmasın;n müəyyənedici amilidir (Буров, 2011: 309).

İnnovativ fəaliyyət, mahiyyətcə sahibkara xas olduğu üçün, öz spesifik xüsusiyyətlərinə malik olduğundan tənzimləmə və dəstəyin xüsusi inzibati və hüquqi rejiminə ehtiyac duyur. Bunlara aşağıdakılar daxildir: artan risklər, məhsulların yüksək elmi intensivliyi, sahibkarların və işçilərin peşə keyfiyyətlərinə dair xüsusi tələblər, onların motivasiyası, innovasiya mühitinin infrastruktur və məlumat tənzimlənməsi, innovasiya prosesinin bütün mərhələlərində sistematik yanaşma ehtiyacı. İlk növbədə kiçik və orta ölçülü

[13] **Bakı Dövlət Universiterı**
[14] **Azərbaycan Dövlət İqtisad Universiteti**

innovativ sahibkarlıq subyektlərinin formalaşması və fəaliyyətində ardıcıllığın təmin edilməsi müvafiq qanunvericilik və normativ hüquqi aktlarda təsbit edilmiş dövlət modernləşdirmə siyasətinin hazırlanmasını və həyata keçirilməsini tələb edir.

**1. Azərbaycanda innovativ iqtisadiyyata keçidin konseptual məsələri**

J. Şumpeter, innovasiya problemini sahibkarlıq nöqteyi-nəzərindən çox fəal şəkildə araşdırdı, burada istehsal amillərinin yeni elmi və təşkilati birləşmələrinin beş tipik variantını təyin etdi: yeni texnologiyanın və ya yeni texnoloji proseslərin istifadəsi; yeni xüsusiyyətlərə malik məhsulların yaradılması; yeni xammaldan istifadə; istehsalın təşkilində və maddi-texniki təminatında dəyişikliklər; yeni satış bazarlarının açılması (Шумпетер, 2007: 157–169)/

E.J. Dolan və D.E. Lindsay'ın iddia etdikləri kimi, "... innovasiya prosesinin məqsədi ... qazanc əldə etməkdir"( Долан, 1994: 328).

Elmi biliklərin iqtisadi fəaliyyətdə tətbiqi nəticəsində yaranan innovasiyalar kökündən yeni və təkmilləşdirilmiş məhsullarda və texnoloji proseslərdə, yeni təşkilati strukturlarda və idarəetmə metodlarında təcəssüm olunur.

İnkişaf etmiş iqtisadiyyatların formalaşmasının dünya təcrübəsi inandırıcı şəkildə dövlətin fəal iştirakı olmadan innovativ iqtisadiyyatın yaradılmasının mümkünsüzlüyünü göstərir. Buna baxmayaraq, bu iştirakın formaları məsələsi geniş müzakirəyə səbəb olur. Əslində, müzakirə iki əsas mövqeyə qayıdır:

1) dövlət özü innovativ iqtisadiyyat qurmalıdır;

2) dövlət onun sakinlərinin müstəqil şəkildə innovativ iqtisadiyyat qurması üçün əlverişli şərait yaratmaqla məhdudlaşmalıdır (https://president.az).

Əslində, bu seçimlər arasında uzlaşma, daha doğrusu, onun sərhədləri hər zaman müzakirə olunur - bunlar birinciyə və ya ikinci yola daha yaxın yerləşəcəkdir. Uzun müddətdir formalaşmış və inkişaf etmiş bazar münasibətlərinə sahib olan cəmiyyətlərdə tarazlıq bir qayda olaraq ikinci varianta doğru dəyişdirilir. Bazar ənənələrinin o qədər də güclü olmadığı cəmiyyətlərdə, məsələn, Azərbaycanda balans, əksinə, ilk varianta meyl edir.

Azərbaycanda innovativ iqtisadiyyata keçid yalnız 21-ci əsrin ilk onilliyində milli şüar kimi səsləndirildi, Qərbin inkişaf etmiş ölkələrində və yeni sənayeləşmiş ölkələrdə bu termin son iyirmi ildir istifadə edilmişdir. ABŞ, Avropa ölkələri, Cənubi Koreya və Yaponiyanın innovativ sistemləri səmərəli işləyir və hər il bu ölkələrin milli gəlirlərinə öz paylarını verirlər.

Azərbaycan Respublikasının 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər 2021-ci ilin 2 fevralında qəbul edilmiş, ölkənin inkişafının innovativ sosial yönümlü iqtisadi tipinə keçidin əsas istiqamətlərini müəyyənləşdirmişdir. Milli Prioritetlərdə bildirilir ki, Azərbaycan iqtisadiyyatının innovativ inkişaf tipinə keçməsi, qlobal səviyyədə rəqabətədavamlı milli innovasiya sistemi və təhsil, elmi, sahibkarlıq və iqtisadiyyatın və ictimai həyatın bütün sahələrində qeyri-kommersiya təşkilatları və strukturlarının qarşılıqlı təsirini təmin edən hüquqi, maliyyə və sosial xarakterli qurumlar kompleksi formalaşdırılmadan mümkün deyildir (https://president.az).

Effektiv milli innovasiya sistemi yaratmaq üçün aşağıdakılar lazımdır:

- iqtisadiyyat sahələrinin böyük bir hissəsi tərəfindən innovasiyalara tələbatı artırmaq;

- bilik yaratmaq sektorunun (fundamental və tətbiqi elm) səmərəliliyinin artırılması, belə ki, əvvəlki illərdə yaradılan zəminin tədricən itkisi, kadrların qocalması, tədqiqat səviyyəsinin azalması, dünya elminə və dünya innovasiyaları bazarına zəif inteqrasiya olduğu üçün, iqtisadiyyatın ehtiyaclarına da diqqət yetirilmir.

- innovativ infrastrukturun parçalanmasını aradan qaldırmaq, çünki onun bir çox elementi yaradılmışdır, lakin innovasiyaların yaranması, kommersiyalaşdırılması və tətbiqi prosesi boyunca innovasiya prosesini dəstəkləmir.

12. https://mpra.ub.uni-muenchen.de/49310/1/MPRA_paper_49310.pdf
13. https://stats.oecd.org/viewhtml.aspx?datasetcode=NAAG&lang=en#

# AZƏRBAYCANDA DÖVLƏT MALİYYƏSİNİN İDARƏ OLUNMASI VƏ İQTİSADİ ARTIM

**i.e.d, Ağa-Kərim HACIYEV**[19]

**Xülasə**

Hal-hazırda Azərbaycanda müəyyənləşən makroiqtisadi şərait ölkədə reallaşdırılan tənzimləmənin təkmilləşdirilməsi üzrə alternativ istiqamətlərdə tədqiqatların aparılmasını zəruri edir. Belə vəziyyət ilk növbədə dövlət maliyyəsinin idarə olunması sektoruna aiddir. Neft ixracı ölkələrinin təcrübəsində dövlət maliyyəsinin idarə olunması üzrə tətbiq olunan modellərin əsas xüsusiyyətləri ölkənin neft gəlirlərinin istifadəsi sxemləri ilə müəyyənləşir və aparılan təhlillərin nəticələri göstərir ki, neft ixracı ölkələrində dövlət maliyyəsinin idarə olunması modellərində səmərəlilik göstəriciləri ölkələr üzrə köklü surətdə fərqlənir. Qeyd olunan səbəblər Azərbaycanda dövlət və icmal büdcələrinin idarə olunmasının keyfiyyət və səmərəlilik göstəricilərinin təhlili, qiymətləndirilməsi və təkmilləşdirilməsi imkanlarının müəyyənləşdirilməsi üzrə tədqiqatları mühüm əhəmiyyətli edir. Məqalədə xarici təzyiqlərin güclənməsi şəraitində ölkədə dövlət və icmal büdcələrinin formalaşması xüsusiyyətləri və dövlət maliyyəsinin idarə olunmasının iqtisadi artıma təsirləriinin təkmilləşdirilməsi imkanlarının təhlili və qiymətləndirilməsi aparılır.

***Açar sözlər:*** *dövlət maliyyəsi, idarəetmə, iqtisadi artım*

## Public Financial Management and Economic Growth in Azerbaijan

**Summary**

The current macroeconomic situation in Azerbaijan makes it necessary to conduct research in alternative directions in order to make appropriate decisions to improve regulation. This situation primarily concerns the management of public finances. The main features of public financial management models in the practice of oil exporting countries are determined by the patterns of use of the country's oil revenues, and the results of the analysis show that the performance indicators in public financial management models in oil exporting countries are fundamentally different. In this regard, the above reasons make it important to analyze, evaluate and identify opportunities to improve the quality and efficiency of public budget management in Azerbaijan. The article analyzes and evaluates the features of the formation of the state budget in the country in the face of increasing external pressure and the possibility of improving the impact of public financial management on economic growth.

***Key words****: public finances, management, economic growth.*

*UOT: 338.242; JEL: H 540*

## Giriş

2022-ci il üzrə dövlət və icmal büdcələrinin əsas parametrləri və bu parametrlər üzrə ilin ortası müəyyənləşən dəyişikliklər aydın göstərir ki, hal-hazırda ölkə iqtisadiyyatı kifayət qədər ciddi neqativ təzyiqlər altındadır və bu təzyiqlər iqtisadiyyatın idarə olunmasında adekvat dəyişikliklərin edilməsini zəruriləşdirir. İlk növbədə, iqtisadiyyatın qeyri-neft sektoruna yönəli dövlət investisiyalarının səviyyəsi, strukturu, səmərəlilik göstəricilərinin yüksəldilməsi; uzun müddətli dövrə dayanıqlı iqtisadi artım və makro maliyyə sabitliyinin təmin olunması dövlət maliyyəsinin idarə olunmasına yeni yanaşmaların hazırlanmasını tələb edir.

Məlumdur ki, son illər ölkə iqtisadiyyatında müşahidə olunan gərginliklərin əsas amili kimi xarici təsirlər çıxış edir. Beləki:

- 2020-ci ilin əvvəllərindən etibarən ölkə iqtisadiyyatında müşahidə olunan böhranın səbəbləri kimi: **1**.neftin dünya bazar qiymətlərinin ilkin mərhələdə kəskin ucuzlaşması, sonrakı mərhələdə isə bazarda qiymətlərin stabilləşdirilməsi məqsədi ilə OPEC+ ölkələrində kartel razılaşması əsasında, kvotalar üzrə, istehsalın səviyyəsinin azaldılması və nəticə etibarı ilə ölkədə neft gəlirlərinin kəskin azalması; **2** karantin rejimi ilə əlaqədar olaraq istehsal və istehlak olunan ÜDM-in səviyyəsinin azalması çıxış edirdi. Bu böhran 2008-2009-cu və 2015-2016-cı illər də müşahidə olunan böhranlardan bir sıra cəhətləri ilə fərqlənirdi: (**a**) iqtisadiyyatda məcmu tələb və məcmu təklifin eyni zamanda sıxılması; (**b**) ölkəyə daxil olan valyuta kütləsi səviyyəsində kəskin azalmalarla, ev təsərrüfatları və biznes strukturlarında gəlirlərin eyni zamanda və əsaslı surətdə azalması; (**c**) ümumi makroiqtisadi şəraitdə bir sıra fundamental problemlərin kəskinləşməsi - dövlət büdcəsinin dayanıqlığı, bank sektoru və ümumilikdə maliyyə sisteminin sabitliyi, manatın

[19] **AMEA İqtisadiyyat institutu,i.ü.f.d , a.h.haciyev@gmail.com**

məzənnəsində sabitliyinin təmin olunması, əhalinin ümumi alıcılıq qabiliyyəti və sosial cəhətdən zəif müdafiə olunan təbəqənin problemlərinin kəskinləşməsi, işsizliyin sürətli artımı və s.;

- 2021-ci və 2022-ci illər üzrə ölkə iqtisadiyyatında inflyasiyanın yüksələn səviyyəsi artıq bu ilin əvvəlində Azərbaycan Respublikası Maliyyə Nazirliyi və Beynəlxalq Valyuta Fondu (İMF) tərəfindən ortamüddətli dövr üçün inflyasiya təzyiqləri ilə bağlı müzakirələrə zərurət yaratmışdı; Azərbaycan Respublikası Nazirlər Kabineti müvafiq Sərəncamı ilə reallaşdırılması zəruri olan tədbirlərin əsas istiqamətlərini müəyyənləşdirmiş və bu istiqamətdə ilkin tədbirlərin reallaşdırılmasına başlanmışdır (https://nk.gov.az/az/document/5943/).

Lakin aparılan təhlillər göstərir ki, iqtisadi tənzimləmənin təkmilləşdirilməsi fərqli istiqamətlərdə və fərqli sosial-iqtisadi nəticələrlə reallaşdırıla bilər. Yaranmış vəziyyətdə, təbii ki, ilk növbədə dövlət maliyyəsinin idarə olunması üzrə mövcud olan problemlərin araşdırılması zəruridir. Neft ixracı ölkələrinin təcrübəsində dövlət maliyyəsinin idarə olunması üzrə tətbiq olunan modellərin əsas xüsusiyyəti ölkənin neft gəlirlərinin istifadəsi sxemlərindəki fərqlər ilə müəyyənləşir. Bu baxımdan neft ixracı ölkələrində dövlət maliyyəsinin idarə olunması modellərində səmərəlilik göstəriciləri ölkələr üzrə köklü surətdə fərqlənir. Qeyd olunan səbəblər Azərbaycanda dövlət və icmal büdcələrinin idarə olunmasının keyfiyyət və səmərəlilik göstəriciləri baxımından təhlili, qiymətləndirilməsi və təkmilləşdirilməsi imkanlarının müəyyənləşdirilməsi üzrə tədqiqatları mühüm əhəmiyyətli edir.

## 1.Dövlət maliyyəsinin idarə olunmasının nəzəri-empirik əsasları

İstər iqtisadi nəzəriyyədə, istərsədə empirik tədqiqatlarda büdcə xərcləri səviyyəsinin iqtisadi artım və makroiqtisadi sabitliyin davamlılığına təsiri baxımından qiymətləndirilməsinə köklü surətdə fərqli yanaşmalar mövcuddur:

- *iqtisadi nəzəriyyədə* baza müddəalardan olan "*Vaqner qanunu*"-na müvafiq olaraq istənilən ölkədə iqtisadi artım nəticə etibarı ilə büdcə xərclərinin artımını, iqtisadi artımın sürətlənməsi dövlətin ölçülərinin artmasını şərtləndirir. Qanunauyğunluq hal-hazırda bir sıra ölkələrin statistik göstəriciləri ilə təsdiqlənir. Mövcud statistik məlumatlar üzrə aparılmış təhlillərə əsasən zəif inkişaf etmiş ölkələrdə dövlət gəlirlərinin ÜDM-də xüsusi çəkisi, orta hesabla, 21,8%; orta inkişaf səviyyəsinə çatmış ölkələrdə, 29,8%; yüksək inkişaf səviyyəsinə malik ölkələrdə isə 38,7% təşkil edir (müvafiq olaraq, dövlət xərclərinin ÜDM-də pay çəkisi 27,3%; 33,0% və 40,3%).

Digər qrup tədqiqatlarda qanunun reallığı tam əks etdirmədiyi göstərilir. Beləki, hazırda, iqtisadi baxımdan yüksək inkişaf səviyyəsinə malik ölkələrdə belə qanununauyğunluq müşahidə olunmur və qanun yalnız inkişaf etməkdə olan ölkələrdə öz doğruluğunu saxlayır. Bu tədqiqatlarda əsaslandırılır ki, həqiqətdə iqtisadi artım templəri ilə büdcə xərclərinin ÜDM-də payının artımı arasında parobalik (əks çevrilmiş U şəkilli) asılılıq mövcuddur və müəyyən "təpə" nöqtəsindən sonra dövlət xərclərinin artımı iqtisadi artıma mənfi təsir göstərir (**Tanzi V., 1997: 164; Carling R., 2009: 36**)

- *empirik tədqiqatlarda* müxtəlif ölkələrin statistik məlumatları əsasında dövlət xərclərinin iqtisadi artıma təsirinin səmərəli səviyyəsinin müəyyyənləşdirilməsi tədqiqat predmeti kimi çıxış edir və belə səviyyə kimi dövlət xərclərinin ÜDM-də pay çəkisinin 23% həddi müəyyənləşir. Bu nöqtə elmi ədəbiyyatda, hal-hazırda *Skalli* nöqtəsi adlanır. Hesab edilir ki, bu həddən sonra dövlət xərclərinin artımı iqtisadiyyata bir sıra istiqamətlər üzrə neqativ təsirlər müəyyənləşdirir – vergi yükünün artımı, xarici və daxili borcların artımı, sosial öhdəliklərin maliyyə əsası olmayan yüksək səviyyəsi və s. Belə qisim tədqiqatlarda inkişaf etməkdə olan ölkələr üçün dövlət xərcləri səviyyəsinin optimal həddinin ÜDM-in 30% səviyyəsi müəyyənləşir **( Балуев, 2018: 25).**

Son dövr araşdırmalar da isə qəbul edilir ki, hər bir ölkədə yalnız yaranmış konkret iqtisadi şərait və perspektiv inkişaf meylləri ÜDM-də dövlət xərclərinin payının optimal səviyyəsini müəyyənləşdirə bilər. Çünki, dövlət büdcəsi üzrə xərclərin istər qənaətli (minimum) səviyyəsi, istərsə də iqtisadiyyatda gəlirlərin artımına müvafiq olaraq artımı – prinsip etibarı ilə makroiqtisadi tənzimləmənin fərqli modelləridir: birinci halda, iqtisadiyyatda vergi yükünün daha kiçik səviyyəsinin təmin olunması ilə iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəlməsi hədəflənir, ikinci halda isə, daxili tələbin genişlənməsi ilə iqtisadi subyektlərin, biznes sferasının fəaliyyəti stimullaşdırılması. Ölkədə, istər mövcud maliyyə imkanlarından çıxış etməyərək dövlət xərclərinin yüksəlməsi, istərsə də mövcud maliyyə resurslarına qənaət edilərək iqtisadi inkişafda xüsusi əhəmiyyətli istiqamətlərin tələb olunan səviyyədən az maliyyələşdirilməsi, orta müddətli perspektivdə iqtisadi artıma neqativ təsirlər müəyyənləşdirir **(Гурвич, 2020:27; Гаджиев, 2014:36).**

**2.Azərbaycanda dövlət maliyyəsinin idarə olunması və iqtisadi artım**

Azərbaycanda 2000-ci illərin əvvəllərindən etibarən reallaşdırılan büdcə xərcləri siyasətində mövcud olan bir sıra xarakterik meyllər reallaşdırılan siyasətin ümumiləşdirilmiş qiymətləndirilməsinə imkan verir:

- əvvəla, 2000-ci illərin əvvəllərindən etibarən ölkədə müşahidə olunan sürətli iqtisadi artım, "*Vaqner qanunu*"-na müvafiq olaraq, dövlət büdcəsi üzrə xərclərin sürətli artımını şərtləndirdi (**şək.1**), faktiki olaraq 2010-cü ilə qədər ölkədə pro-tsiklik büdcə siyasəti reallaşdırıldı (2008-2009-ci illər büdcə xərcləri səviyyəsində orta trendən müşahidə olunan kəskin kənarlaşmalar dünya maliyyə böhranı ilə əlaqədar olaraq iqtisadiyyatda ölkə hökuməti tərəfindən tsiklə-əks dəstək proqramlarının reallaşdırılması ilə əlaqədar idi);

- 2011-2014-cü illər ərzində dövlət büdcəsi üzrə xərclərinin müşahidə olunmuş yüksək səviyyəsi (ÜDM-də 31-34% pay çəkisi) istər nəzəri, istərsədə empirik tədqiqatların nəticələri üzrə iqtisadi artımın, makroiqtisadi və makro-maliyyə sabitliyinin təmin olunması üçün tövsiyyə olunan həddən yuxarı idi. Nəticə etibarı ilə bu illər ərzində iqtisadiyyatda dövlətin maliyyə vəsaitlərinin istifadəsi üzrə *Skalli nöqtəsi* keçilmişdi. Beləki, 2011-2014-cü illər ərzində iqtisadiyyatda Dövlət büdcəsi üzrə xərclərin və müvafiq olaraq, dövlət bank sektoru vasitəsi ilə iqtisadiyyatın kreditləşməsinin sürətli genişlənməsinə baxmayaraq ölkədə iqtisadi artım templərinin kəskin azalması, ayrı-ayrı illərdə isə staqnasiya və artım templərinin statistik xəta səviyyəsində müşahidə olundu (**şək.2**).

- 2017-2019-cu illər ərzində neftin dünya bazarlarında yüksək qiymtətləri, ölkədə strateji valyuta ehtiyatlarının əhəmiyyətli artımı strateji valyuta ehtiyatlarını ÜDM-in 110%-i səviyyəsində, dövlətin xarici borcunun aşağı, ÜDM-in 17-18%-i səviyyəsində formalaşması ilə nəticələndi.Bu səbəbdən də 2020-ci ilin əvvəli başlana böhran şəraiti ölkə makromaliyyə sabitliyinin qorunmasına imkan verdi




**Şək.1. Dövlət büdcəsi xərcləri, ÜDM-də faizlə**

**Şəkil 1.** Dövlət büdcəsinin xərcləri, %-lə

Məlumdur ki, 2015-2016-ci illər maliyyə böhranı illəri ölkədə müşahidə olunan yüksək, iki rəqəmli inflyasiya, iqtisadiyyatda qiymətlərin yeni səviyyəyə yüksəlişini, məcmu tələb və məcmu təklifin bu səviyyədə tarazlaşmasını müəyyənləşdirmişdi. Bu illər ərzində əhalinin real gəlirlərinin və müvafiq olaraq alıcılıq qabiliyyətinin azalması; müəssisələrin milli valyutada olan vəsaitlərinin dəyər itirməsi ilə onların ödəniş qabiliyyəti və investisiya imkanlarının azalması; bankların məcmu kapitalı və kreditləşmə imkanları səviyyəsində müəyyənləşən dəyişikliklər formalaşmış makroiqtisadi tarazlığın əsas xarakteristikalarını yenilədi. Beləki: (a) Dövlət büdcəsi üzrə gəlir və xərclər üzrə tarazlığı təmin edən Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) transfertlərinin ABŞ dollarında yeni səviyyəyə endirildi; (b) ARDNF-in gəlirlər və xərcləri üzrə mövcud olmuş mənfi saldonun müsbət saldo ilə əvəzləndi; (c) tədiyyə balansı cari əməliyyatlar üzrə müsbət saldo və valyuta bazarında tarazlıq, manatın məzənnəsi siyasətində sabit məzənnə siyasəti reallaşdırılmağa başlanıldı; (d) iqtisadiyyatda faiz dərəcəsinin iki rəqəmli inflyasiya illəri müəyyənləşmiş yüksək səviyyəsi endirildi.

Lakin yeni tarazlıq səviyyəsində iqtisadi artım modelinin yenilənməməsi, yeni tənzimləmə mexanizmlərinə keçidin tam təmin edilməməsi, təbii ki, neft ixracı ölkələrinin əksəriyyətində olduğu kimi Azərbaycanda da büdcə xərcləri siyasətinin formalaşmasında, makroiqtisadi tənzimləmə baxımından, bir sıra əsaslı problemlərin mövcudluğunu saxlayırdı. Bunların sırasında ən mühümü – *uzun müddətli dövrə*

*Dövlət büdcəsinin dayanıqlığının təmin olunmasıdır.* Əgər son illər Dövlət büdcəsinin əsas parametrlərini təhlil etsək görərik ki:

- *Gəlirlər üzrə* daxilolmaların: (a)56%-i neft sektorundan daxilolmalar (ADRNF-in transfertləri, ABƏŞ və ARDNŞ-in vergi ödənişləri); (b) 15%-i DGK–i üzrə daxilolmalar; (c) 4%-i sair ödəmələrdir. Başqa sözlə, büdcə daxilolmalarının 75%-i iqtisadiyyatın daxili tənzimləmə tədbirlərindən az asılıdır; dövlət büdcəsi üzrə daxil olmaların yalnız 25%-i Vergilər Nazirliyi tərəfindən təmin olunur. Əgər qeyri-neft sektoru üzrə təmin olunan daxil olmaların sahə strukturuna baxsaq bu daxilolmaların da 90%-i tikinti; nəqliyyat (dəmiryolu, hava və su nəqliyyatı, avtomobil yük və sərnişin daşımaları); rabitə (bütün növləri); topdan və pərakəndə ticarət, anbar təsərrüfatı; turizm; infrastruktur sahələr (elektrik, su təchizatı); sair sahələr (təhsil, səhiyyə, mədəniyyət və s.) sahələri üzrə təmin olunur. Başqa sözlə, büdcə daxil olmaları həlledici dərəcədə infrastruktur və xidmət sahələri üzrə təmin edilir ki, bu daxilolmalarında səviyyəsi dövlət büdcəsi üzrə həyata keçirilən investisiya xərcləri ilə müəyyənləşir;

- *Xərclər üzrə*: iqtisadi təyinatına görə müdafiə olunan xərclər (sosial ödənişlər, dövlət borcuna xidmət xərcləri və s.) ümumi büdcə xərclərinin təqribi 60%-i, başqa sözlə, neft sektoru üzrə təmin olunan gəlirlər səviyyəsindədir; dövlət büdcəsi üzrə həyata keçirilən investisiya xərcləri (ümumi büdcə xərclərinin təqribi 25%-i), multiplikasiya effekti nəzərə alınmaqla, bir başa olaraq dövlət büdcəsinin xidmət və infrastruktur sahələri üzrə gəlirlər səviyyəsini müəyyənləşdirir. Başqa sözlə, hal-hazırda dövlət büdcəsi üzrə ölkə hökumətinin manevr imkanları kifayət qədər məhduddur.




**Şəkil 2:** İqtisadi artım tempi

Yaranmış vəziyyətdə uzun müddətli perspektivə dövlət büdcəsi üzrə daynıqlığın təmin edilməsi büdcə xərcləri üzrə ilk növbədə aşağıdakı məsələlərin həlli ilə bağlıdır: (a) səmərəli büdcə qaydalarının formalaşması; (b) dövlət büdcəsi üzrə xərclərinin səviyyəsi və strukturunda səmərəliliyinin artırılması; (c) beynəlxalq təcrübəyə müvafiq olaraq büdcə vəsaitlərinin idarə olunmasının optimallaşdırılması ilə əlavə büdcə gəlirlərinin əldə edilməsi və s.

Dövlət maliyyəsinin idarə olunmasının digər mühüm aspekti ölkədə reallaşdırılan vergi siyasəti və formalaşmış vergi sistemidir. Neft ixracı ölkələrinin əksəriyyətində formalaşmış vergi sistemlərinin mühüm xüsusiyyətlərindən biri dövlət büdcəsi üzrə vergi daxilolmalarında dayanıqlığın təmin olunması, mövcud olan vergi sistemi vasitəsi ilə davamlı iqtisadi artım və makroiqtisadi sabitliyin təmin olunmasına təsir imkanlarının məhdud olması, başqa sözlə, vergi-gömrük siyasəti və iqtisadi artım arasında bir mənalı asılılığın olmaması (müəyyənləşməməsidir)r. Bu səbəbdən göstərilən istiqamətlərin təmin olunması üzrə vergi sistemində dəyişikliklərinin aparılması neft ixracı ölkələrində makroiqtisadi tənzimləmənin əsas problemlərindəndir (**Гаджиев, 2012:27**).

Azərbaycanda da fəaliyyət göstərən vergi sisteminin makroiqtisadi tənzimləmə baxımından ən mühüm xüsusiyyəti onun iqtisadi artım və makroiqtisadi stabilləşmənin təmin olunması proseslərində aləti

kimi istifadə imkanlarının zəifliyidir. Bu səbəbdən ölkədə optimal vergi sisteminin formalaşması və bu sistemin strukturunun təkmilləşdirilməsi hazırda iqtisadi siyasətin aktual olan məsələlərindəndir.

Hazırki mərhələdə ölkə iqtisadiyyatının stabilləşməsi və iqtisadi tənəzzülün qarşısının alınmasında mühüm əhəmiyyətli problem zəifləyən investisiya aktivliyinin artırılması, onun strukturunda qeyri-neft investisiyalarının pay çəkisinin yüksəlməsi çıxış edir. Bu amil ölkə iqtisadiyyatının dayanıqlı artımının təmin olunmasında həlledici əhəmiyyətə malikdir.

Ölkədə iqtisadi artımın mənbəyi kimi iki amil çıxış edə bilər: 1. Dövlət büdcəsi üzrə xərclərin və iqtisadiyyatda istehlak səviyyəsinin artımı (o şərtlə ki, əhalinin artan istehlak və biznesin artan investisiya tələbatının ödənilməsi əsasən idxal hesabına deyil - bu halda istehsal olunan ÜDM-in səviyyəsi azalacaq; əsasən daxili istehsal hesabına, iqtisadiyyatda özəl investisiyaların artımı hesabına təmin olunsun); 2. artımın mənbəyi kimi birbaşa olaraq qeyri-neft sektoru üzrə özəl daxili və özəl xarici investisiyalar çıxış etsin .Hər iki ssenari ölkə iqtisadiyyatında makroiqtisadi şəraitin – iqtisadiyyatda vergi yükü, inflyasiya, real faiz dərəcəsi, manatın real mübadilə məzənnəsi kimi əsas makroiqtisadi parametrlərdə müvafiq, qeyri-neft sektoru istehsal və xidmət sferalarının inkişafını təmin edə biləcək səviyyələrin əldə olunmasını tələb edir.

Ölkədə formalaşmış vergi sisteminin və reallaşdırılan vergi siyasətinin həlli zəruri olan məsələləri qismində aşağıdakılar çıxış edir:

- *iqtisadiyyatda vergi yükünün səviyyəsi*. Beynəlxalq maliyyə qurumlarının məlumatları üzrə son onillikdə, Azərbaycan iqtisadiyyatında vergi yükünün səviyyəsi 18-20% aralığında olub. Bu səviyyə beynəlxalq maliyyə qurumları tərəfindən inkişaf etməkdə olan ölkələr üçün iqtisadiyyatın rəqabətqabiliyyətliyini təmin edə biləcək səviyyə hesab olunur. Lakin dünya təcrübəsində uzun illər ərzində formalaşan konkret meyl ondan ibarətdir ki, ölkələr üzrə maddi rifah halı yaxşılaşdırqca dövlət büdcəsinə vergi daxilolmaları artır, eyni zamanda bu artım bines sferasında istehsal xərclərinin artımı hesabına baş vermir və müvafiq olaraq, iqtisadiyyatın vergi yükü bu amil hesabına artmır

Hal-hazırda dünya təcrübəsində vergi yükünün istifadə olunan hesablanma qaydası ilə (ödənilən vergilərin ÜDM-də pay çəkisi əsasında) Azərbaycan iqtisadiyyatı üçün hesablanan vergi yükünün səviyyəsi real vəziyyətini əks etdirmir, yəni, ölkədə beynəlxalq hesablamalar üzrə müəyyənləşən vergi yükünün səviyyəsi yüksək olmaya bilər, lakin, eyni zamanda özəl sektor üçün bu vergilər şəraitində rentabelli istehsalın təşkili və inkişaf etdirilməsi mümkünsüzdür.

Azərbaycan iqtisadiyyatında vergi yükü yeni, konkret metodika üzrə müəyyənləşdirilməli və vergi siyasətinin formalaşması, reallaşdırılması zamanı vergi yükünün bu səviyyəsi konkret qiymətləndirilməli və tənzimləmənin əsas istiqamətinin müəyyənləşdirməlidir. Bu baxımdan Rusiya nümunəsi olduqca səciyyəvidir. Bu ölkədə iki qurum - Rusiya Maliyyə nazirliyi və Federal Vergi xidməti tərəfindən vergi yükünün səviyyəsi fərqli metodikalar üzrə aparılır. Hər bir qurum özünün reallaşdırdığı hədəflərə müvafiq olaraq istifadə etdiyi mexanizmləri əsaslandırır. Qeyri-neft sektorunun (özəl biznesin) inkişafı iqtisadiyyatın real sektoruna vergi yükünün azaldılması, bu məqsədlə isə vergi sistemində aşağıdakı istiqamətlər üzrə təkmilləşdirilmələrin aparılması tələb olunur:

- *büdcə daxilolmalarında hüquqi və fiziki şəxslərin vergilərinin pay çəkisi*. Bu istiqamət üzrə vergi yükünün yenidən bölünməsi və əsas vergi ağırlığının tədricən hüquqi şəxslərdən, proqressiv vergi sisteminin tətbiqi ilə, fiziki şəxslərə ötürülməsi tələb olunur.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, fiziki şəxslərin gəlir vergiləri dövlət büdcəsi daxilolmalarında əsas pay çəkisinə malikdir, hüquqi şəxslərin (biznesin) ödədiyi vergilərin pay çəkisi isə ilbəil azalır. Hal-hazırda da Qərb iqtisadçılarının fikirlərinə görə mal və xidmətlərin dəyərinin artımına ən az təsir göstərən fiziki şəxslərin *əmək haqqı olmayan gəlirlərinə* tətbiq olunan proqressiv vergi tutulmaları – büdcə daxil olmalarında əsas mənbə kimi çıxış etməlidir. Belə siyasətin səmərəsi ondan ibarətdir ki: (a) əsas vergi ödəyiciləri kimi əhalinin aşağı gəlirli təbəqələri yox, yuxarı gəlirli təbəqələri çıxış edir; (b) belə vergilər nə məhsul istehsalçılarının istehsal xərcləri üzrə, nə də istehsal olunmuş məhsulun istehlakçıları tərəfindən ödənilmir.

2005-2015-ci və 2017-2019-cu illər ərzində ölkədə əhalisinin rifah halının sürətlə yüksəldiyi dövrdə, mal və xidmətlər istehsalında xərcləri artırmayan vergilərin artımı vergi siyasətində büdcə dailolmalarının artırılmasının əsas amili kimi nəzərə alınmalı idi – bunun olmaması göstərilən illər ərzində reallaşdırılan maliyyə siyasətində yol verilən əsas qüsurlardandır və hal-hazırda bu qüsur aradan qaldırılmalıdır. Məlumdur ki, əmək haqqı maya dəyərinin tərkibinə daxil olduğundan əmək haqqı və ona müvafiq ayırmalar istehsal xərclərini artırır. Lakin, əhalinin ümumi gəlirlərinin digər komponentləri - əmanətlər üzrə faiz gəlirləri, arenda gəlirləri, əmlak alqı-satqısı üzrə gəlirlər, xarici ölkələrdən daxilolmalar (köçürmələr) və sairə üzrə tətbiq olunan vergilərin iqtisadiyyata belə neqativ təsirləri yoxdur (**Гаджиев, 2013:45**).

Bundan başqa, mövcud vergi sistemində iqtisadiyyatın əmək tutumlu və fond tutumlu sahələri üzrə vergi dərəcələrinin eyni olması da bu baxımdan qeyri qənaət-bəxş təcrübədir və dürüstləşdirilməsinə zərurət var - əmək tutumlu sahələrdə, istehsalın rentabelliyinin artırılması üçün, vergi dərəcələri aşağı olmalıdır.

- *büdcə daxilolmalarında birbaşa və dolayı vergilərin pay çəkisi* - iqtisadi konyukturaya həsaslığı baxımından birbaşa və dolayı vergilər əhəmiyyətli dərəcədə fərqli imkanlara malikdir - birbaşa vergilərin iqtisadi konyukturaya həssaslığı yüksək (bu amil Azərbaycan üçün, xüsusi əhəmiyyətə malikdir – dünya bazarlarında enerjidaşıyıcıların qiymət və tariflərindəki kəskin dəyişikliklərlər, bu vergilər üzrə büdcə daxilolmalarında əhəmiyyətli dəyişikliklər müəyyənləşdirir); dolayı vergilərin iqtisadi konyukturaya həssaslığı azdır. Büdcə daxilolmalarında stabilliyinin təmin olunması baxımından bu, əhəmiyyətli amildir.

Başqa sözlə, büdcə daxil olmaları baxımından vergi siyasətində orta müddətli dövrə nəzərə alınması zəruri olan əsas amillərdən biri də dolayı vergilər olduqca münasib və əlverişli olmasıdır. Ölkədə əhalinin sayının, gəlirləri səviyyəsinin artması, istehlakın yüksəlməsi ilə əlaqədar olaraq dolayı vergilər üzrə vergi dərəcələri dəyişmədiyi halda belə, dövlət büdcəsi üzrə vergi daxilolmalarını artırır (bundan başqa bu vergilər əsas vergi ödəyiciləri tərəfindən psixoloji olaraq da "sakit qavranır").

Büdcə daxilolmalarında birbaşa və dolayı vergilərin pay çəkisi – makroiqtisadi tənzimləmə və makro maliyyə sabitliyin təmin olunması baxımından da fərqli imkanlara malikdir. Beləki:

- inflyasiyaya həssaslıq baxımından dolayı vergilər üzrə büdcə daxilolmaları, inflyasiya templərinə müvafiq olaraq, bir mənalı olaraq artırsa, birbaşa vergilər üzrə daxil olmaların inflyasiya tempindən asılılığı bir mənalı olmur – biznes qurumlarının fəaliyyət sahəsindən asılı olaraq inflyasiyanın sürətlənməsi gəlirlərə fərqli istiqamətlər üzrə təsir göstərə bilər;

- makroiqtisadi tarazlığın qorunması baxımından, birbaşa vergilər iqtisadi aktivliyə və istehsalın səviyysinə; dolayı vergilər isə, istehlak xərclərinin səviyyəsinə təsir aləti kimi çıxış edir. Bu zaman dolayı vergilər istehlak xərcləri səviyyəsinə birbaşa təsir edirsə, birbaşa vergilərin investisiya və istehsaln artımı proseslərinə təsiri dolayı xarakter daşıyır. Başqa sözlə, makroiqtisadi tənzimləmədə dolayı vergilərin əsas çatışmazlığı – əhalinin vergi yükünün artımı çıxış edir.

Bunlardan başqa, ölkədə mövcud olan vergi sistemi üçün bir sıra strukrur disproporsiyaları xarakterikdir. Beləki, mövcud vergi sistemində iqtisadi artıma neqativ təsir göstərən vergilər üzrə dərəcələrin səviyyəsi (birbaşa vergilər üzrə - mənfəət və gəlir vergi dərəcələri, dolayı vergilər üzrə - əlavə dəyər vergisinin səviyyəsi); iqtisadi artıma neytral xarakter daşıyan vergilər üzrə (əmlak vergisi, təbii resursların istehsalı ilə bağlı tətbiq olunan vergilər və s.) - vergi dərəcələri, vegi siyasətinin təkmilləşdirilməsinin, vergi sistemində struktur dəyişikliklərinin müəyyənləşdirilməsinin əsas istiqaməti kimi çıxış etməlidir.

**Nəticə**

Azərbaycanda hazırlanan maliyyə siyasətində neft gəlirlərindən asılılığın ardıcıl olaraq azaldılması prioritet kimi müəyyənləşməli və bu istiqamətin reallaşması üzrə konkret səmərə verə biləcək mexanizmlər müəyyənləşməlidir. Başqa sözlə, makroiqtisadi tənzimləmədə müəyyənləşmiş hədəflərin reallaşma mexanizmləri dövlət büdcəsinə ARDNF-dən edilən transfertlərdən asılılığının azaldılması imkanları konkret olaraq müəyyənləşdirilmməlidir.

İqtisadi artımın davamlılığının dəstəklənməsi son 15-20 il ərzində daimi olaraq büdcə siyasətinin prioritet hədəfi olub (yalnız 2015-2016-cı böhran illəri istisnadır, bu illər prioritet olaraq makromaliyyə sabitliyinin bərpa olunması çıxış edib). Lakin bütün bu illər ərzində dövlət büdcəsindən iqtisadiyyata yönəlmiş maliyyə resurslarının sürətli artımına (yəni, iqtisadiyyatda daxili tələbin, istər birbaşa investisiyaların artımı, istərsə də əhalinin sosial rifah halının yüksəldilməsi üzrə istiqamətlərlərin reallaşdırılmasına) baxmayaraq iqtisadiyyatda yüksək iqtisadi artım templəri müşahidə olunmur, 2011-ci, 2015-2016-cı və 2020-ci illər isə hətta iqtisadi tənəzzül dövrü olub. Yüksək iqtisadi artım templərinin müşahidə olunduğu ayrı-ayrı dövrlərdə isə bu artımın səbəbləri kimi əsasən dünya bazarlarında enerji daşıyıcıların yüksək qiymətləri, ölkədən neft-qaz ixracının artımı və ölkəyə daxil olan valyuta kütləsinin sosial-infrastruktur sahələrə investisiyalar şəklində yatırılması (başqa sözlə, neft gəlirlərindən asılılığın ardıcıl olaraq artırılması) çıxış edib. Əsas hədəf - iqtisadi artımın davamlılığının neft gəlirlərindən asılılığının aradan qaldırılması təmin edə biləcək mexanizmlər isə sona kimi formalaşmayıb.

Büdcə xərclərinin davamlı olaraq artımı vasitəsi ilə iqtisadiyyatın stimullaşdırılmasının əsas qüsuru isə, ilk növbədə, ölkə hökumətinin iqtisadiyyata yüksək müdaxiləsi, bu əsasda iqtisadisadi artımı sürətləndirmək cəhdləri ilə bağlıdır. Dünya təcrübəsi aydın göstərir ki, iqtisadi tənəzzül və dərin böhran illəri istisna olmaqla, ölkə hökumətinin iqtisadiyyata yüksək müdaxiləsi şəraitində: (a) iqtisadiyyata yatırılan maliyyə resurslarının istifadə səmərəliliyi, özəl investisiyalarla müqaisədə xeyli aşağı olur; (b)

bazar münasibətləri şəraitində iqtisadi inkişafın əsas faktoru - ədalətli rəqabət mühitinin formalaşması; rəqabət qabiliyyətli istehsal sahələrinin təşkili və inkişafı, rəqbətqabiliyyətli məhsul istehsalı mümkün olmur (ələlxüsus da əgər iqtisadiyyatda institusional inkişaf səviyyəsi yüksək deyilsə);

Qeyd olunanlar Azərbaycanda uzun müddətli dövrə davamlı iqtisadi artımı və dayanıqlı makroiqtisadi sabitliyi təmin edə biləcək yenilənmiş makroiqtisadi siyasətin formalaşması və reallaşdırılması zərurətini müəyyənləşdirir.

**ƏDƏBİYYAT:**

**1.** Tanzi V., Schuknecht L. (1997). Reconsidering the Fiscal Role of Government: The International Perspective // American Economic Review. Vol. 87. Pp. 164–168;

**2.** Carling R., Kirchner S. (2009). Fiscal Rules for Limited Government: Reforming Australia's Fiscal Responsibility Legislation // CIS Policy Monograph 98

**3.** А. Балуев. Влияние структуры бюджетных расходов на экономический рост в России // Экономическая политика, 2018, №6, с.8-35

**4.** Гаджиев А. Особенности макроэкономической стабилизации в странах с развивающимися финансовыми рынками // В кн.: «Глобальный мир: антикризисные императивы, модернизация, институты» - Москва, «Вузовская книга», 2012

**5.** Гаджиев А. Особенности политики экономического роста Азербайджана в пост кризисный период // «Вестник экономической науки Украины», №1,2013

**6.** Гаджиев А. Проблемы налогово-бюдженой политики и стабилизации экономики Азербайджана // М: "Финансы и Кредит", №34, 2014

**7.** Е. Гурвич, Н. Краснопеева Анализ взаимосвязи доходов и расходов российских региональных бюджетов // Вопросы экономики, 2020, №2

# KƏND TƏSƏRRÜFATI İSTEHSALÇILARININ KREDİT QAYTARMA QABİLİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ

**Doktorant Ülkər MƏMMƏDOVA**[20]

**Xülasə**

Məqalədə kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışının asanlaşdırılması kontekstində, onların kreditlə təminat səviyyəsinin yüksəldilməsi imkanları tədqiq olunmuşdur. Sahədə istehsalçıların kredit qaytarma qabiliyyətinin maliyyəyə çıxışının asanlaşdırılmasında mühüm rolu göstərilmiş, həmin qabiliyyətin artırılması istiqamətləri araşdırılmışdır. Həmin istiqamətlər qismində, o cümlədən kredit təşkilatları ilə münasibətlərinin daha da şəffaflaşdırılması zərurəti əsaslandırılmışdır. Kiçik və orta ölçülü kənd təsərrüfatı istehsal subyektlərinin kredit bazarında fəallığının təşviqi, ixrac yönümlü və innovasiyalı aqrar fəaliyyətin himayə edilməsi, innovativ və girovsuz kreditlərin tətbiqi mexanizmlərinin hazırlanmasının təşkilati və hüquqi təminatının təkmilləşdirilməsi prosesinin sürətləndirilməsinin vacibliyi göstərilmişdir. Kənd təsərrüfatında istehsal subyektlərinin kreditlə təminatının yaxşılaşdırılması üçün sahədə rəqəmsal texnologiyalardan istifadə, kreditləşdirmənin monitorinqinin təkmilləşdirilməsi, marketinq fəaliyyətinin yaxşılaşdırılması barədə təkliflər verilmişdir. Bankların aqrar sahəyə marağının artırılması məqsədi ilə kredit bazarının tənzimlənməsində dövlətin rolunun optimallaşdırılması, kənd təsərrüfatı kooperasiyasının təşviqi istiqamətində imkanlar araşdırılmışdır.

**Açar sözlər:** *kredit qabiliyyəti, kreditlə təminat, kənd təsərrüfatı, rəqəmsal texnologiyalar, maliyyəyə çıxış*

### Increasing The Credit Repayment Capacity Of Agricultural Producers

**Summary**

In the article were studied the context of facilitating access to finance for agricultural producers, the possibilities of increasing their level of credit provision. In the field, the important role of producers' credit repayment ability in facilitating access to finance was shown, directions for increasing that ability were investigated. As part of those directions, including the need to make relations with credit organizations more transparent, it is justified. The importance of promoting the activity of small and medium-sized agricultural production entities in the credit market, supporting export-oriented and innovative agricultural activity, and accelerating the process of improving the organizational and legal guarantee of the development of mechanisms for the application of innovative and collateral-free loans was shown. In order to improve the provision of loans to production subjects in agriculture, proposals were made on the use of digital technologies in the field, improvement of credit monitoring, and improvement of marketing activities. In order to increase the interest of the banks in the agricultural sector, the opportunities in the direction of optimizing the role of the state in the regulation of the credit market and promoting agricultural cooperation were investigated.

**Keywords:** *creditworthiness, credit provision, agriculture, digital technologies, access to finance*

## Giriş

Kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışının asanlaşdırılması Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsində 3-cü strateji hədəf kimi öz əksini tapmışdır. Bu strateji hədəfdə üç prioritet istiqamət seçilmişdir. Birinci prioritet aqrar sahədə maliyyələşmə mexanizminin təkmilləşdirilməsi üçün görüləcək tədbirləri özündə əks etdirir (1, s.82-84). Həmin tədbirlərə aşağıdakılar aid edilmişdir: kənd təsərrüfatının maliyyə resurslarına tələbatı üzrə hədəflərin müəyyənləşdirilməsi; kredit zəmanət fondunun yaradılması imkanlarına baxılması; kənd təsərrüfatında innovativ və girovsuz kreditlərin tətbiqi mexanizmlərinin hazırlanması; kreditlər üçün girov bazasının genişləndirilməsi; kənd təsərrüfatı məhsulları istehsalçılarının maliyyə savadlılığının artırılması; aqrar sektora təsir edən risklərin idarə olunması üzrə mexanizmlərin hazırlanması; kredit təşkilatlarının vəsaitlərinin kənd təsərrüfatı sektorunun kreditləşməsinə yönəldilməsinin stimullaşdırılması.

Son illər ölkədə kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışının asanlaşdırılması, o cümlədən onların kredit qaytarma qabiliyyətinin yüksəldilməsi və kreditlə təminatının yaxşılaşdırılması üçün zəruri institusional və infrastruktur təminatının formalaşdırılması üçün sistemli və davamlı tədbirlər həyata keçirilmişdir. Müvafiq istiqamətdə işlər hazırda da fəal surətdə davam etdirilir. Belə vəziyyət, kənd təsərrüfatı istehsalçılarının kredit qaytarma qabiliyyətinin yüksəldilməsi və kreditlə təminatının yaxşılaşdırılması istiqamətində elmi araşdırmaların nəticələrinin tətbiqi imkanlarını genişləndirir. Belə ki, Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol

[20] **Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, AKU, doktorant, ulker555@mail.ru**

Xəritəsinin Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlər nəzərdə tutulmuş qrafikə uyğun həyata keçirilir. O cümlədən, kənd təsərrüfatının maliyyə resurslarına tələbatı üzrə hədəflərin müəyyənləşdirilməsi məqsədilə Kənd Təsərrüfatı və İqtisadiyyat Nazirliyi tərəfindən kənd təsərrüfatının mühüm sahələri üzrə maliyyə resursları ilə təminat səviyyəsini araşdıraraq ehtiyacları müəyyən etmək məqsədi ilə təddqiqatlar aparılır. Sonda maliyyə resurslarına çıxışın asanlaşdırılması üçün hədəflər müəyyən olunacaqdır.

Müvafiq strateji yol xəritəsində nəzərdə tutulmuş tədbirlərin icrasına ciddi və sistemli nəzarət həyata keçirilir. Bu məqsədlə mütəmadi olaraq monitorinq və qiymətləndirmə aparılır. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən haqqında danışılan monitorinq və qiymətləndirmənin nəticələri şərh edilir (2).

Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsinin icrası nəzərdə tutulmuş müddət və keyfiyyət tələblərinə cavab verir. Bununla belə, kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışının asanlaşdırılması adlı 3-cü strateji hədəfin icrasında müəyyən ləngimələr olduğu göstərilir. Belə vəziyyət xüsusilə icra dövrünün əvvəlki illəri üçün xarakterik olmuşdur. Deyək ki, haqqında danışılan strateji yol xəritəsinin "Kənd təsərrüfatı sahəsi üzrə maliyyələşdirmə mexanizmlərinin təkmilləşdirilməsi" (Prioritet 3.1.) prioriteti üzrə 2017-ci ildə nəzərdə tutulmuş tədbirlərin 28 faizi tam icra olunmuşdur (3). "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nın monitorinq və qiymətləndirilməsinin əsas prinsiplərinə dair metodoloji çərçivədə (Bakı, 2018) nəzərdə tutulmuş müddəa və yanaşmalar bazasında aparılan monitorinq və qiymətləndirmənin nəticələrinin şərhində, zənnimizcə kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışının asanlaşdırılması istiqamətində görülən tədbirlərin, zənnimizcə daha geniş yer alması işin xeyrinə olardı.

"Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanının (4) tətbiqi ilə əlaqədar "Azərbaycan Respublikasında sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsinə dövlət dəstəyi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı (Bakı, 15 sentyabr 2017-ci il) (5) ilə "Azərbaycan Respublikasının Kredit Zəmanət Fondu" Açıq Səhmdar Cəmiyyəti yaradılmışdır. Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun yaradılması və fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı (Bakı şəhəri, 25 dekabr 2017-ci il, № 1760) (6) ilə "Azərbaycan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin və "Azərbaycan Respublikasının Kredit Zəmanət Fondu" Açıq Səhmdar Cəmiyyətinin birləşmə formasında yenidən təşkili yolu ilə "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu" qeyri-kommersiya hüquqi şəxsi yaradılmışdır.

Sürətlə formalaşan və inkişaf edən rəqəmsal mühitin tələblərinə uyğun olaraq kənd təsərrüfatı istehsalçılarının kreditlə təminat səviyyəsinin yüksəldilməsi məqsədilə normativ-hüquqi baza sistemli və çevik surətdə təkmilləşdirilir. Azərbaycan Respublikası Prezidenti sahibkarlara, o cümlədən aqrar sahədə kreditlərin verilməsi zamanı coğrafi yerləşmə amillərinin təsirinin minimuma endirilməsi, dövlət-sahibkar əlaqələrinin səmərəli idarə edilməsi məqsədilə, "Elektron ipoteka və kredit zəmanət" sistemi haqqında Əsasnamə" təsdiq edilməsi barədə 1 may 2018-ci il, 30 nömrəli Fərman imzalamışdır ( 7).

Hazırda kənd təsərrüfatı istehsalçılarının kredit qaytarma qabiliyyətinin və kreditlə təminat səviyyəsinin yüksəldilməsi istiqamətində ölkəmizdə həyata keçirilən tədbirlərin nəticəyönümlüyünün gücləndirilməsi baxımından rəqəmsal texnologiyaların fəal istifadəsi bir sıra yeni imkanlar açır. Həmin imkanlar sırasında dövlət-sahibkar əlaqələrinin intensivləşdirilməsi və bu subyektlər arasında əməkdaşlığın inkişafın yeni səviyyəsinin əldə edilməsi üçün yeni texnoloji bazada daha əlverişli mühitin yaradılması imkanları qeyd edilməlidir.

Dövlətin kənd təsərrüfatı istehsalçıları üçün əlverişli kreditləşdirmə mühiti yaratması üçün atdığı bütün addımlar onların kredit təşkilatları ilə münasibətlərinin daha da şəffaflaşdırılması ilə müşayiət olunmalıdır. Dövlət büdcəsi vəsaitləri hesabına subsidiyalaşdırılan kredit faizlərindən istifadə üzərində nəzarətin bütün məsuliyyəti müvafiq dövlət strukturlarının üzərində olmamalıdır. Onların, xüsusilə son illər həyata keçirdiyi səmərəli tədbirlərin mühüm müsbət nəticələrini qeyd etməklə nəzərə alınmalıdır ki, dövlət strukturlarının büdcə vəsaitləri hesabına subsidiyalaşdırılan kredit faizlərindən istifadə üzərində nəzarət imkanları qeyri-məhdud deyildir. Odur ki, hazırda subsidiyalaşdırılan kredit faizlərindən istifadə üzərində nəzarətin ictimailəşməsi üzrə genişlənən imkanlar diqqət mərkəzində olmalıdır. Həmin imkanlardan istifadə, aqrar sahədə aparılan islahatlar və ölkədə artıq təşəkkül tapmış şəffaflıq mühitinin tələbləri baxımından obyektiv zərurətə çevrilmişdir.

Kreditləşdirmə zamanı iri istehsal subyektlərinə üstünlük verilməsi halları, ilkin araşdırmalardan göründüyü kimi, son illər bir qədər azalsa da, hələ də ciddi və arzuolunmaz fakt olaraq qalır. Bu hallar, məlum

olduğu kimi, dayanıqlı inkişaf və milli ərzaq təhlükəsizliyi prinsiplərinə də ziddir. Odur ki, kiçik və orta ölçülü kənd təsərrüfatı istehsal subyektlərinin kredit bazarında fəallığı təşviq edilməli, bu halda, ixrac yönümlü və innovasiyalı aqrar fəaliyyət himayə edilməlidir. Mövcud sistemin təkmilləşdirilməsinə ehtiyac qalmaqdadır.

Hazırda innovasiyalı fəaliyyət göstərən kənd təsərrüfatı istehsalçılarının maliyyəyə çıxışının asanlaşdırılması, onların kredit təminatının yaxşılaşdırılması prioritet istiqamətdir. Odur ki, aqrar sahədə innovativ və girovsuz kreditlərin tətbiqi mexanizmlərinin hazırlanması məqsədilə, müvafiq maliyyə qurumu və Kənd Təsərrüfatı Nazirliyi normativ-hüquqi bazanın yaradılması və qabaqcıl xarici təcrübənin öyrənilməsi istiqamətində işlər həyata keçirirlər. Habelə kreditlər üçün girov bazasının genişləndirilməsi üçün daşınar girovların idarə edilməsi mexanizmi təkmilləşdirilir. Bununla belə, müvafiq istiqamətdə görüləsi işlər vaciblik dərəcəsinə görə sıralanmalı, onların həyata keçirilməsi üçün zəruri təşkilati-iqtisadi müxanizm birmənalı olaraq müəyyən edilməlidir. İnnovasiyalı inkişafın kredit təminatının yaxşılaşdırılması istiqamətində atılan addımların monitorinqi aparılmalı, əldə edilən nəticələr, kənd təsərrüfatı məhsulları bazarında baş verən proseslərin təhlili nəticələri ilə birgə qiymətləndirilməlidir. Əks halda, aqrar sahədə innovasiyalı fəaliyyət göstərən istehsal subyektlərinin kreditlə təmin edilməsi vəziyyətində baş verən dəyişiklikləri birmənalı qiymətləndirmək çətindir. Kənd təsərrüfatında innovasiyalı fəaliyyət subyektlərinin kreditə çıxışının asanlaşdırılması istiqamətində atılan addımların elmi təminatıın gücləndirilməsinə diqqət artırılmalıdır. Məsələ ondadır ki, son illər intensiv surətdə həyata keçirilən tədqiqatlar və təcrübi işləmələr, demək olar ki, real mühitdə tətbiq üçün qəbul edilmir.

Kənd təsərrüfatı məhsulları istehsalçılarının maliyyə savadlılığı onların maliyyəyə çıxışı vəziyyətini, istehsal subyektlərinin kreditlə təminat vəziyyətini şərtləndirən mühüm amildir. Odur ki, haqqında danışılan tədbirlər planına uyğun olaraq Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm və İnnovasiya Mərkəzinin regional qurumları tərəfindən təlim və seminarlar keçirilir. Aqrar sahədə risklərin idarə olunması üzrə mexanizmlərin hazırlanması məqsədi ilə Kənd Təsərrüfatı Nazirliyində yaradılmış müvafiq tərəfindən tədqiqat aparılır. Sonda tədqiqat əsasında əldə olunmuş informasiya verilənlər bazasında yerləşdiriləcəkdir.

Kənd təsərrüfatına informasiya məsləhət xidmətində dövlət-özəl bölmə tərəfdaşlığı imkanları reallaşdırılmalı, bu sahədə sağlam rəqabət mühiti formalaşdırılmalıdır. Eyni zamanda, unutmaq olmaz ki, xarici təcrübədən göründüyü kimi "informasiya-məsləhət xidməti göstərən təşkilatların inkişafına böyük məsrəflər və xərclərin ödənilməsi müddətinin uzun olması, məsləhətçilərə etmadın azlığı, işçi heyətin aşağı ixtisas səviyyəsi, elmin yeni nailiyyətləri, qabaqcıl texnologiyalar və yeni satış bazarları haqqında məlumatların çatışmaması mənfi təsir edir" (8).

Zənnimizcə, kənd təsərrüfatı məhsulları istehsalçılarının maliyyə savadlılığının artırılması məqsədilə hazırda fəaliyyət göstərən sistemdə aşağıdakı istiqamətlərdə təkmilləşdirmələr aparılmalıdır:

- Aqrar Elm və İnnovasiya Mərkəzinin regional qurumları tərəfindən təlim və seminarlar pilot təsərrüfatlarının bazalarında həyata keçirilməlidir. Həmin pilot təsərrüfatların fəaliyyətinin kredit təminatına xüsusi yanaşma olmalıdır. Belə ki, bu halda, aqrar istehsalçıların innovasiya fəallığı təşviq edilməli, dövlət özəl bölmə tərəfdaşlığı və innovasiya risklərinin qarşılanması imkanları nəzərə alınmalıdır;
- haqqında danışılan təlim və seminarlar sistemli xarakter daşımalı, onların əhatə dairəsi istehsalçıların innovasiyaya olan ehtiyacları nəzərə alınmaqla müəyyən edilməlidir;
- ölkə ərazisində kənd təsərrüfatına informasiya-məsləhət xidməti şəbəkəsinin yaradılması işi başa çatdırılmalıdır;
- kənd təsərrüfatına informasiya-məsləhət xidməti göstərən kadrların innovasiyalı fəaliyyət baxımından hazırlıq səviyyəsi daim yüksəldilməlidir;
- yeni texnologiyaların və innovasiya layihələrinin yayılması imkanları, aqrar istehsalçılarla bilavasitə təmasda qiymətləndirirlməli, bu qiymətləndirmənin nəticələri selektiv kreditləşdirmədə nəzərə alınması üçün təqdim olunmalıdır;
- vahid informasiya məkanının yaradılması və Böyük Verilənlərin formalaşdırılması prosesində kənd təsərrüfatına informasiya-məsləhət xidməti, və innovasiya ehtiyacları xüsusi olaraq nəzərə alınmalıdır və s.

Kənd təsərrüfatı istehsalçılarının kreditlə təminat səviyyəsi və milli ərzaq təhlükəsizliyi üzrə kompleks tədbirlərin maliyyələşdirilməsi sisteminin xarakteristikaları arasında kifayət qədər sıx əlaqə vardır. Belə ki, sahədə istehsalçıların kredit qaytarma qabiliyyəti yüksəldikcə ərzaq təhlükəsizliyinin təminatı tədbirlərinin maliyyələşdirilməsinə ayrılan dövlət büdcəsi vəsaitlərinin miqdarı azala bilər və əksinə. Qeyd olunan baxımdan digər əlaqə kənd təsərrüfatı istehsalçılarının maliyyə xidmətlərinin istifadə səviyyəsinin dinamikasında özünü göstərir. Qabaqcıl təcrübə göstərir ki, aqrar istehsal subyektlərinin maliyyə bazarında fəallığının artması, ərzaq təhlüksəizliyinin təminatına dövlətin birbaşa müdaxiləsini

azalda bilər. Əlbəttə, bütün hallarda kənd təsərrüfatına dövlət himayəsi məsələsi aktualdır. Kənd əhalisinin iqtisadi fəallığı səviyyəsi və maliyyə imkanları dəyişdikcə, aqrar sahəyə dövlət himayəsinin xarakterində mütərəqqi meyillərin daha da güclənməsi arzu edilir.

Kənd təsərrüfatı istehsalçılarının kreditlə təminatının yaxşılaşdırılması istiqamətində BMT Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) tövsiyələri, ilk növbədə kənd rayonlarında gənclərə, qadınlara və əhalinin kasıb hissəsinə maliyyə xidmətlərinin inkişaf etdirilməsini, qarşıya çıxan çətinliklərin aradan qaldırılmasını nəzərdə tutur. Bəzi digər beynəlxalq təşkilatlar aqrar sahənin innovasiyalı inkişafını dəstəkləməyi tövsiyə edirlər (əlbəttə, FAO-nun da belə tövsiyyəsi vardır) və s. Bir sözlə, beynəlxalq təşkilatların milli aqrar sahəyə münasibətdə mövqeyi, onların prioritetləri ilə şərtlənir. Azərbaycanda kənd təsərrüfatının inkişafı üzrə strateji kurs həm iqtisadi, həm sosial, həmdə ekoloji meyarlara əsaslanır. Odur ki, kənd təsərrüfatı istehsalçılarının kredit qaytarma qabiliyyətinin və kreditlə təminat səviyyəsinin yüksəldilməsi üçün göstəriləcək birgə səyləri məhdudlaşdıracaq ziddiyyət doğuran ciddi məqamlar mövcud deyildir.

Artıq qeyd edildiyi kimi, Kənd təsərrüfatı kooperasiyası haqqında Azərbaycan Respublikasının Qanununda (14 iyun 2016) Kənd təsərrüfatı kooperasiyasının inkişafına dövlət dəstəyinin əsas istiqamətləri müəyyən edilmişdir. Burada, kənd təsərrüfatı kooperativlərinin güzəştli şərtlərlə kreditləşməsinin təmin edilməsi, onların istehsal vasitələrinə olan tələbatının güzəştli lizinq şərtləri hesabına təmin edilməsi və kooperativlər üçün kredit zəmanəti fondunun yaradılması nəzərdə tutulur (9, maddə 13).

Aqrar istehsalçıların maliyyəyə çıxışının asanlaşdırılması istiqaməti kimi, onların kreditqaytarma qabiliyyətinin yüksəldilməsi üçün aşağıdakı tədbirlərin görülməsi məqsədəuyğundur:

- maliyyə dayanıqlığı vəziyyətinin dolğun səciyyələndirilməsi və həmin dayanıqlığın təmin edilməsi üçün həyata keçirilməli tədbirlərin əsaslandırılması. Bu baxımdan, belə bir fikirlə razılaşmağı lazım bilirik ki, "borcalan haqqında obyektiv rəy yaratmaq və tam təsəvvür əldə etmək üçün onun kredit qaytarma qabiliyyətinin təhlili və qiymətləndirilməsi üçün bir neçə model və metodikadan istifadə edilməlidir. Belə ki, bir metodikadan istifadə natamam və düzgün olmayan nəticə verə bilər. Bundan başqa, verilmiş kreditin qaytarılmasını və nəticə etibarı ilə bankların maliyyə dayanıqlığını təmin etmək üçün daimi olaraq borcalanların antiböhran monitorinqinin aparılması zəruridir" (10). Doğrudan da, kənd təsərrüfatı istehsalçılarının kredit qaytarma qabiliyyətinin qiymətləndirilməsində ekonometrik üsullardan tutmuş, ekspert texnologiyalarına qədər çoxsaylı və müxtəlif vasitə və üsullardan birgə istifadə edilməsi, daha doğrusu onların vahid metodiki bazada bir-birini tamamlaması reallığı obyektiv surətdə əks etdirmək baxımından müsbət nəticələr verə bilir. Kredit götürənlərin antiböhran monitorinqinin aparılmasına gəldikdə isə xüsusilə pandemiya dövründə, həmin proseslərin kəsilməz xarakterli olmasının zəruriliyini qeyd etməliyik.

**Sahədə istehsalçıların kreditlə təminat səviyyəsinin yaxşılaşdırılması**

Hazırda kənd təsərrüfatı məhsulları istehsalçılarının kreditlə təminatının yaxşılaşdırılmasında yeni konsepsiyalara ehtiyac vardır. Bunlardan biri tələbin idarə edilməsinin istehlakçıların idarə edilməsi ilə əvəzlənməsi konsepsiyasıdır. Məlum olduğu kimi, fəaliyyət inteqrasiyası kredit təşkilatlarının müştərilərlə əlaqələrinin idarə edilməsi baxımınfan mühit yaradan amildir. Daimi əməkdaşlıq əlaqələrinin qurulması bank-maliyyə qurumlarına etimad amilindən asılı olmaqla, habelə innovativ layihələrdə iştirak imkanları ilə şərtlənir. Kənd təsərrüfatı məhsulları istehsalçılarının kreditlə təminatının yaxşılaşdırılması istiqamətlərindən biri müvafiq məqsədli koalisiya proqramlarında (eyniməqsədli çoxsaylı subyektlərlə rəqabət aparmadan işləyən qurumları bir araya gətirən proqramlarda) iştirakdır. Müştərilərlə əlaqələrin idarə edilməsinə yeni, rəqəmsal yanaşma hesab edilən CRM (Customer relationship management) sistemi vasitəsilə müştərilərin vahid bazasını yaratmaq, onlarla işi innovativ əsasda təşkil etmək üçün real imkanlar təqdim edir. Müştərilərlə əlaqələrin idarə edilməsi (CRM) sisteminin növləri (analitik, əməliyyat, əlaqəli tədbirlərdə müştərinin iştirakının təmin olunması və s.) arasında seçim edərkən, zənnimizcə onların bir-birini tamamlaması xasssələri və bu əsasda birgə istifadəsi imkanları diqqət mərkəzində olmalıdır.

Kənd təsərrüfatında istehsal subyektlərinin kreditlə təminatının yaxşılaşdırılması və, onların kreditqaytarma qabiliyyətinin yüksəldilməsi istiqaməti kimi, habelə aşağıdakı tədbirlərin görülməsinin məqsədəuyğun olduğunu qeyd edirik:

- sahədə kreditləşdirmənin monitorinqinin təkmilləşdirilməsi;
- işçilərin əmək haqqının istehsal subyektinin istehsal – maliyyə fəaliyyətinin nəticələri ilə əlaqələrinin gücləndirilməsi;
- idarəetmə uçotunun tətbiqi dairəsinin optimallaşdırılması;

- proqram- texniki təminatın optimallaşdırılması. Xarici təcrübədə Banklar tərəfindən proqram təminatı almaq üçün istehsalçılara (o cümlədən, aqrar sahədə) biznesin ölçüsündən, təşkilat-hüquqi formasından asılı olmayaraq faizsiz və ya çox aşağı faizlə kreditlər verilir. Artıq postsovet məkanında da sınaqdan çıxmış belə bir təcrübənin istifadəsi məqsədəuyğundur (11).

- marketinq fəaliyyətinin yaxşılaşdırılması. Bu və ya digər ərazidə daha yaxşı yretişən kənd təsərrüfatı maəhsulu istehsalına üstünlük verən subyektlərin kütləviliyi, yerli bazarda təklifin artmasını şərtləndirir. Odur ki, marketinq fəaliyyətinin əhatə dairəsinin genişləndirilməsi onun müxtəlif aspektlərdə təkmilləşdirilməsi proseslərinin tərkib hissəsi kimi nəzərdən keçirilməlidir;

- əməyin və məhsulun keyfiyyətinin yüksəldilməsi. Mahiyyət etibarı ilə əmək məhsuldarlığı kənd təsərrüfatı istehsalçılarının kreditqaytarma qabiliyyətini müəyyən edən baza göstəricilərindəndir. Məhsulun son istehlakçıya kəmiyyət və keyfiyyət baxımından itkisiz çatdırılması, mürəkkəb iqtisadi və loqistik tələblərə riayət edildiyi şəraitdə mümkün olur və onun istehsalçısının kreditqaytarma qabiliyyətinin dayanıqlı təminatına şərait yaradır. Odur ki, kənd ərazilərində layiqli əməyin təminatı səviyyəsinin və məhsulun keyfiyyətinin yüksəldilməsi sahədə istehsal subyektlərinin kreditqaytarma qabiliyyətinin yüksəldilməsi istiqaməti kimi diqqət mərkəzində olmalıdır;

- öz vəsaitləri hesabına alınmış dövriyyə fondlarının artırılması. Bu istiqamətdə atılan addımlar ehtiyatları optimallaşdırmağa, məhsul satışından pul daxilolmalarını artırmağa, satılan məhsulun maya dəyərini azaltmağa, nəticə etibarı ilə istehsal subyektinin maliyyə vəziyyətini yaxşılaşdırmağa imkan verir;

- debitor və kreditor borclarının səmərəli idarə olunması. Gələcək xərclərin proqnozlaşdırılması, debitor və kreditor borclarının optimal nisbətinin gözlənilməsi, müştərilərlə əlaqələrin mütərəqqi sistemlərinin tətbiqi və bu kimi digər məsələlərin həllində üstünlük verilən meyarlar seçilərkən, cari fəaliyyət üçün əlavə vəsait cəlb edilməsinin minimumlaşdırılması şərtinin diqqət mərkəzində olması tövsiyə olunur. Belə ki, müvafiq yanaşma, innovasiyalı intensiv fəaliyyətə əlavə vəsaitlərin cəlb edilməsi imkanlarını genişləndirə bilir;

- debitor borclarının idarə edilməsində məqsəd kimi alıcılarla vəsaitlərin vaxtında və tam həcmdə daxil olmasını təmin edən müqavilə münasibətlərinin qurulması;

- malgöndərənlərlə alıcılardan vəsait daxilolmalarının vaxtını nəzərə alan müqavilə münasibətlərinin qurulması;

- borcalan kimi nüfuzun və iqtisadi dayanıqlığın təmin olunması.

Kənd təsərrüfatı istehsalçılarının kreditlə təminat səviyyəsinin yüksəldilməsi üçün aşağıdakı istiqamətdə tədbirlərin həyata keçirilməsi təklif olunur:

- bankların aqrar sahəyə marağının artırılması üçün kredit bazarının tənzimlənməsində dövlətin rolunun artırılması, kənd təsərrüfatı kooperasiyasının təşviqi və s.;

- güzəştli kreditləşdirmə sisteminin, xüsusilə ərzaq təhlükəsizliyi, dayanıqlı innovasiyalı inkişaf meyarları bazasında təkmilləşdirilməsi;

- məqsədli kreditləşdirmə fondlarının yaradılması və dəstəklənməsi. Ölkəmizdə bu istiqamətdə həyata keçirilən tədbirlər sistemli xarakterə malik olub, nəticə yönümlüdür. Bununla belə, həmin tədbirlərin dövlət-özəl bölmə tərəfdaşlığı şəraitində maliyyələşdirilməsi, qabaqcıl xarici təcrübədən göründüyü kimi dövlət büdcəsinə düşən və təəssüf ki, get-gedə artan yükü əhəmiyyətli dərəcədə azalda bilər;

- kredit birliklərinin yaradılması və fəaliyyətinin təşviqi;

- kənd təsərrüfatı istehsalı subyektlərinin maliyyə sağlamlaşdırılması üzrə proqramların hazırlanması və həyata keçirilməsi;

- dövlət-özəl bölmə tərəfdaşlığı şəraitində kənd təsərrüfatı istehsalçılarının maliyyə resurslarına, o cümlədən kreditə çıxışı imkanlarının genişləndirilməsi;

- aqrar innovasiyaların təşviqi üçün xüsusi innovasiya fondlarının yaradılması;

- aqrar lizinq bazarında rəqabətin təşviqi. Buməqsədlə, ilk növbdə müvafiq normativ-hüquqi baza təkmilləşdirilməli, özəl lizinq şirkətlərinin fəaliyyəti üçün əlverişli hüquqi-iqtisadi mühit formalaşdırılmalıdır;

- kredit alınması ilə əlaqədar transaksiya məsrəflərinin azaldılması;

- kənd təsərrüfatı müəssisələri ilə davamlı və müsbət iş təcrübəsinə malik banklara dövlət tərəfindən resurs dəstəyinin verilməsi. Yeri gəlmişkən qeyd edək ki, beynəlxalq təcrübədə ciddi və şəffaf nəzarətin təmin olunduğu şəraitdə (12) belə dəstəyin real səmərə verdiyinə dair dəlillər vardır;

- ölkədə zəruri institusional və infrastruktur təminatının (o, cümlədən, İpoteka və Kredit Zəmanət Fondunun, müvafiq sığorta fondunun) yaradıldığını nəzərə alaraq torpaq-ipoteka kreditləşdirilməsinin tətbiqi;

-kənd təsərrüfatı kredit kooperasiyasının inkişaf etdirilməsi.

**Nəticə**

İqtisadi islahatların dərinləşdirilməsi prosesində Azərbaycanda kənd təsərrüfatı istehsalçılarının kreditləşdirilməsinin ilkin mexanizmi formalaşdırılmışdır. Bura kreditlər üzrə faizlərin subsidiyalaşdırılması, güzəştli kreditlər, kooperativlərin kreditləşdirilməsi, kreditlərə çıxışn asanlaşdırılması üçün institusional təminat komponentləri və bir sıra digər elementlər aid edilə bilər. Eyni zamanda, onu da qeyd edək ki, kənd təsərrüfatı istehsalçılarının kredit qaytarma qabiliyyətinin və kreditlə təminat səviyyəsinin yüksəldilməsi istiqamətində haqqında danışılan mexanizmin tam işlək vəziyyətə gətirilməsi üçün davamlı tədbirlər kompleksi həyata keçirilməlidir. Bura xüsusi qayda və normaların işlənib hazırlanmasından tutmuş, istehsalçıların təşkilatlanmasının təşviqi mexanizminin yaradılmasına qədər geniş diapazonlu tədbirlər aid edilməlidir.

**ƏDƏBİYYAT**

1.Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 6 dekabr 2016, 177 s.

2. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi illik hesabat verdi.// http://www.iqtisadiislahat.org/news 14 Yanvar 2021

3. "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nin icra vəziyyəti// https:// monitoring. az/assets/upload/files/9_Kend_teserrufati_opt

4. "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı. Bakı, 6 dekabr 2016, №1138

5. "Azərbaycan Respublikasında sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsinə dövlət dəstəyi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı, 15 sentyabr 2017-ci il.

6. Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun yaradılması və fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında Azərbaycan Respublikasi Prezidentinin Fərmanı. Bakı, 25 dekabr 2017-ci il, № 1760.

7. "Elektron ipoteka və kredit zəmanət" sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 1 may 2018-ci il, № 30

8. Антошин К. А. Формирование рынка консультационных услуг для инновационного развития сельского хозяйства // Образование, наука и производство. 2013. №4 (5). URL: https://cyberleninka.ru/ article/n/formirovanie-rynka-konsultatsionnyh-uslug-dlya-innovatsionnogo-razvitiya-selskogo-hozyaystva (дата обращения: 28.11.2020).

9. Kənd təsərrüfatı kooperasiyası haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 14 iyun 2016-cı il, № 270-VQ, maddə 13

10. Алферов В.Н., Худякова В.В. Мониторинг кредитоспособности заемщиков как механизм антикризисного управления//Стратегии бизнеса: анализ, прогноз, управление.электронный научно-экономический журнал. 2017. №4 (36).

11. https://softline.ru/ credit

12. https://www.fitchratings.com/research/banks

# ÖLKƏLƏRARASI MÜNAQİŞƏLƏRİN ƏRZAQ TƏHLÜKƏSİZLİYİNƏ TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Doktorant Lalə CABBARLI[21]**

**Xülasə**

Dünyada mövcud olan əsas qlobal problemlərdən biri ərzaq təhlükəsizliyidir. Baş verən təbii fəlakətlər, müharibələr, iqtisadi böhranlar, demoqrafik "partlayış" və digər amillər ərzaq təhlükəszililiyi probleminin yaranmasına və daha da dərinləşməsinə gətirib çıxarmışdır. Keçən əsrdə baş verən müharibələr və demoqrafik "partlayış" ərzaq təhlükəsizliyi probleminin yaranmasında ən vacib amillərdən olmuşdur. Maltus nəzəriyyəsində əhali artıqlığından bəhs olunur ki, burda da ərzaq çatışmazlığının əsas səbəbi kimi əhali sayının həndəsi silsilə ilə, istehlak şeylərinin isə ədədi silsilə artımı göstərilmişdir. Bu günki günümüzdə də əhali sayının artımı və baş verən müharibələr ərzaq təhlükəsizliyinə əsaslı şəkildə öz təsirini göstərmişdir. Bildiyimiz kimi, Ukrayna və Rusiya bir sıra ölkələri illərdir ki taxıl ehtiyatı ilə təmin edirdi. Lakin son zamanlar iki ölkə arasında yaranan münaqişə regional miqyasda ölkələrin taxıl qıtlığı ilə üzləşməsinə gətirib çıxarmışdır. Ümumiyyətlə məqalədə ölkələrarası münaqişələrin ərzaq çatışmazlığına yaratdığı təhlükədən və ərzaq təhlükəsizliyinə təsirindən bəhs olunmuşdur.

***Açar sözlər:*** *ərzaq təhlükəsizliyi, ərzaq çatışmazlığı, taxıl, iqtisadi böhran*

## Evaluating The İmpact Of İnter-Country Conflicts On Food Securi

**Summary**

One of the main global problems in the world is food security.Natural disasters, wars, economic crises, demographic "explosion" and other factors have led to the emergence and deepening of the food security problem. The wars and the demographic "explosion" of the last century have been the most important factors in the emergence of the food security problem. In Malthus's theory, population surplus is mentioned, and here, as the main reason for food shortage, population growth is indicated by a geometric series, and consumption items by a numerical series. At present population growth and ongoing wars have fundamentally affected food security. As we know, Ukraine and Russia have been supplying a number of countries with grain reserves for years. However, the recent conflict between the two countries has led countries to face grain shortages on a regional scale. In general, the article talked about the threat posed by inter-country conflicts to food shortages and the impact on food security.

***Key words:*** *food safety, lack of food, grain, economic crisis*

*UOT: 33;338*

## Giriş

Dünyada baş verən qloballaşma, ölkələr arasında mövcud olan siyasi, iqtisadi və digər əlaqələr dövlətləri bir-birindən asılı vəziyyətə gətirib çıxarmışıdr. Bu asılılıq özünü xarici iqtisadi əlaqələrdə özünü daha qabarıq göstərir. Ölkələr arasında baş verən münaqişələr nəinki təkcə həmin ölkələrin, eyni zamanda qonşu ölkələrin, regionların iqtisadiyyatına və rifahına öz mənfi təsirini göstərir. Ölkələrarası münaqişələrin yaratdığı mənfi təsirlər özünü daha çox ərzaq təhlükəsizliyində biruzə verir. Münaqişə nəticəsində formalaşan ərzaq təhlükəsizliyi həm xüsusi (firmalar, şəxslər) miqyasda, həm milli (lokal) miqyasda, həmçinin də beynəlxalq (regional) miqyasda qlobal problem kimi öz təsirini göstərmişdir. Ölkələr öz əhalisinin ərzaq təhlükəsizliyini təmin edə bilmədikdə digər ölkələrdən asılı vəziyyətə düşməyə başlayır.

Dövlətin ərzaq təhlükəsizliyinin hansı səviyyədə olmasını qiymətləndirmək məqsədi ilə aşağıdakı göstəricilər sistemindən istifadə edilir:

a) dövlət ərzaq təhlükəsizliyinin əsasını təşkil edən ərzaq, kənd təsərrüfatı və yeyinti məhsullarının istehsalını və onların səmərəliliyini xarakterizə edən göstəricilər;

b) ərzaq məhsullarının istehlakını xarakterizə edən göstəricilər;

c) əhalinin ərzaq məhsulları əldə etmək imkanlarını səciyyələndirən gəlirlərin səviyyəsini xarakterizə edən göstəricilər;

d) ərzaq təhlükəsizliyini təmin etmək məqsədilə dövlətin ərzaq kompleksinə, ərzaq bazarına və bütövlükdə iqtisadiyyatın aqrar sektoruna səmərəli müdaxiləsini xarakterizə edən göstəricilər [5, s. 69]

Ərzaq çatışmazlığı ərzaq təhlükəsizliyinin ən ciddi və həssas problemlərindəndir. Ümumiyyətlə ərzaq çatışmazlığı bir neçə amillər nəticəsində meydana gəlmişdir ki, bunlara misal olaraq, müharibələri, iqtisadi böhranı, təbii fəlakətləri, demoqrafik partlayışı və s. göstərə bilərik. İngilis iqtisadçısı Tomas Robert Maltus 1798-ci ildə "Əhali qanunu haqqında təcrübə" adlı əsərində qeyd etmişdir ki, hər 25 ildən bir

[21] **Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, lalacabbarli.aesma@gmail.com**

əhalinin sayı həndəsi silsilə ilə, istehlak şeyləri isə ədədi silsilə şəklində çoxalır. Bu nəzəriyyə bir daha onu sübut edir ki, zaman keçdikcə ölkələr insanların istehlak şeylərinə olan tələbatını ödəməkdə çətinliklərlə üzləşəcəkdir.

Ərzaq təhlükəsizliyi bütün dövrlərdə mühüm əhəmiyyət kəsb edən problemlərdən biri olmuşdur. Ancaq bu problem özünü daha çox XIX əsrin sonu və XX əsrin əvvəllərində daha qabarıq şəkildə göstərmişdir. XX əsrdə baş verən müharibələr, xüsusən də birinci və ikinci dünya müharibələri, ardınca isə yaranan demoqrafik partlayış ərzaq təhlükəsizliyini qlobal problemə çevirmişdir. Ərzaq təhlükəsizliyi probleminin araşdırılmasında, təhlil edilməsində və aradan qaldırılmasında BMT-nin FAO (Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı) və digər qurumları mühüm rol oynayır. [1,s.63-64]

FAO mütəxəssislərinin fikrincə, yaxın 20-30 il ərzində dünya miqyasında ərzaq təchizatının etibarlı sabitliyinə təhlükə yarada biləcək dörd amil mövcuddur: iqlim şəraitinin pisləşməsi, su və enerji ehtiyatlarının tükənməsi, münbit torpaqların məhv olması, iqtisadi liberalizm. [2, s.93] Yenə də FAO-nun hesablamalarına görə, ərzaq məhsulları ilə etibarlı təchizatın minimum səviyyəsi məcmu dünya istehsalının 17%-ə bərabər olan iki aylıq “ərzaq” ilə müəyyən edilir. Məsələn, 1980-ci illərə qədər dünya taxıl ehtiyatı qeyd edilən minimum səviyyədə olmuşdur. Yalnız 1990-cı illərdə dünya taxıl ehtiyatı məcmu dünya istehsalının 14% səviyyəsinə düşmüş, nəticədə beynəlxalq ticarətdə qiymətin yüksəlişi müşahidə olunmuşdur. [3, s. 41]

Müşahidələr və tarixi araşdırmalar göstərir ki, ölkələrarası və ölkədaxili münaqişələr və aclıq bir-biri ilə sıx bağlıdır. Biri daha da şiddətləndikcə digərinə öz təsirini göstərir. İstənilən böhranda olduğu kimi ən çox zərərçəkən şəxslər məhz ən yoxsul təbəqələrdir. Son illərdə dünyada yaşanan siyasi gərginlik və münaqişələrin təsiri müəyyən zamandan sonra bütün qitələrdə biruzə verəcəkdir.

Hazırda dünyada hər on insandan biri yetərincə qidalanmır və COVİD-19 pandemiyasının təsiri nəticəsində milyonlarla insan yoxsulluq və aclığa sürüklənib. COVİD-19 pandemiyası ilə yanaşı yaranan münaqişələrin də davam etməsi bütün dünya üçün, xüsusən də yoxsulluqdan əziyyət çəkən insanlar üçün daha da fəlakətli nəticələr verəcəkdir. 2019-2020-ci illər arasında qeyri-kafi qidalanmanın (PoU) yayılmasının qlobal səviyyəsi kəskin şəkildə artmışdır. 2019-cu ildə dünya əhalisinin təxminən 8,4%-i aclıqdan əziyyət çəkirdisə, 2020-ci ildə bu rəqəm 10% idi. [4, səh 27]

## 1. RusiyaUkrayna münaqişəsinin qlobal ərzaq təhlükəsizliyinə təsiri

Dünya bazarında taxıl və onun emalı, bitki yağları, xüsusən zeytun yağı, meyvə, tərəvəz, şəkər, çay, qəhvə, kakao,ət, süd məhsulları, balıq, dəniz məhsulları və s. xüsusi çəkiyə sahibdirlər. Ukrayna və Rusiya Federasiyası ən çox ərzaq və kənd təsərrüfatı məhsullarının qlobal ticarətində əsas rol oynayır. 2021-ci ildə dünya bazarında buğda ixracının təxminən 30%-ini Ukrayna və Rusiya təşkil etmişdir. Hər iki ölkənin birlikdə günəbaxan yağı ixracı qlobal tədarükün 78%-ni təşkil edirdi. Həmin ildə Ukraynanın qarğıdalı ixracat payı orta hesabla 16% təşkil edərək dünyanın 4-cü ən böyük qarğıdalı ixracatçısı olub.

Rusiya və Ukrayna dünyada kənd təsərrüfatı məhsullarının ən mühüm istehsalçılarından biridir. Taxıl sektorunda onların dünya istehsalına verdiyi töhfə arpa, buğda və qarğıdalı üçün xüsusilə əhəmiyyətlidir. Bu iki ölkə birlikdə 2016/17 və 2020/21-ci illər arasında bu bitkilərin qlobal istehsalının orta hesabla müvafiq olaraq 19%, 14% və 4%-ni təşkil edib. Yağlı bitkilər kompleksində günəbaxan yağı üçün xüsusi əhəmiyyət kəsb edirdi və və bu dövrdə dünya məhsulunun yarısından bir qədər çoxu orta hesabla iki ölkənin payına düşür. Qlobal kolza və soya istehsalında onların orta payları nisbətən daha məhduddur və müvafiq olaraq 6% və 2% təşkil edir.




**Şəkil 1:** Seçilmiş məhsulların qlobal istehsalda payı

Mənbə: FAO XCBS system [14]

50-yə yaxın ölkənin buğda idxal ehtiyaclarının ən azı 30%-i Rusiya Federasiyası və Ukraynadan asılıdır. Bunlardan 26 ölkə buğda idxalının 50%-dən çoxunu bu iki ölkədən alır. Ona görə də yaranan münaqişənin qlobal bazarlara və ərzaq tədarükünə böyük təsiri olacaq ki, bu da bir çox ölkələrin, xüsusən də ərzaq idxalından asılı olan ölkələrin ərzaq təhlükəsizliyi üçün problem yaradacaq. Müharibə limanların bağlanmasına, yağlı toxumların əzilməsi əməliyyatlarının dayandırılmasına, bəzi bitkilər və ərzaq məhsulları üçün ixrac lisenziyasına məhdudiyyətlərin və qadağaların tətbiqinə gətirib çıxardı.




**Şəkil 2.** Buğda idxalından asılılıq, 2021 (%)

Mənbə: Trade Data Monitor (TDM), FAO calculations [13]

Rusiya-Ukrayna münqaişəsinin üzanması buğda, qarğıdalı və günəbaxan yağı kimi əsas məhsulların dünya tədarükünü məhdudlaşdıra, ərzaq qiymətlərinin kəskin artmasına və aclığa səbəb ola bilər. Bu, qlobal ərzaq təhlükəsizliyini təhlükə altına qoya və geosiyasi gərginliyi artıra bilər. İFAD (İnternational Fund for Agricultural Development) dünyanın ən yoxsul ölkələrinin qida ilə özünü təmin etməsini və dayanıqlığını artırmaq üçün öz işini davam etdirmək öhdəliyinə sadiqdir, lakin qısa müddətdə bu böhranın qlobal təsirlərini yumşaltmaq çətin olacaq. İndi münaqişənin dayandırılması yeganə həll yoludur.

Qara dənizin bu bölgəsi qlobal qida sistemində mühüm rol oynayır və dünyada satılan qida kalorisinin ən azı 12%-ni ixrac edir. Ukraynadan buğda və qarğıdalı ixracının 40%-i aclıq problemi ilə mübarizə aparan Yaxın Şərq və Afrikaya gedir. Buna görə də ərzaq qıtlığı və ya qiymət artımı sosial narazılığa səbəb ola bilər. [6]

2022-ci ilin fevral ayında başlayan müharibə Ukraynanın böyük şəhərlərində dağıntılara və insan tələfatına səbəb oldu, getdikcə kənd ərazilərinə yayılmağa başladı və əhalinin kütləvi şəkildə köçürülməsinə səbəb oldu. Təbiidir ki, baş verən müharibə kütləvi şəkildə getdikcə pisləşən ərzaq təhlükəsizliyinə gətirib çıxardı. Ukraynadakı müharibədən əvvəl də beynəlxalq ərzaq məhsullarının qiymətləri bütün zamanların ən yüksək həddinə çatmışdı. Bu, daha çox bazar şəraiti, eyni zamanda enerji, gübrə və bütün digər kənd təsərrüfatı xidmətlərinin yüksək qiymətləri ilə bağlı idi. Yaranan münaqişə isə vəziyyəti daha da gərginləşdirdi. 2022-ci ilin mart ayında FAO-nun Ərzaq Qiymətləri İndeksi fevral ayına nisbətən 12,6% və ötən ilə nisbətən 33,6% artaraq 1990-cı illərdən bəri ən yüksək göstəriciyə malik olmuşdur.

Rusiya və Ukrayna arpa, günəbaxan və qarğıdalı ixrac edən ilk beş ölkə arasındadır və dünya buğda ixracının təxminən 1/3 -ni təşkil edirlər. Rusiya və Ukrayna arasında baş verən münaqişə nəticəsində ərzaq ixracında yaranan fasilələr qlobal ərzaq bazarlarında qıtlığın artmasına və qlobal ərzaq qiymətlərinin artması risklərinə məruz qoyur.

Dünyanın dördüncü ən böyük buğda idxalçısı olan Nigeriya idxalının 1/4–ni, Kamerun, Tanzaniya, Uqanda və Sudan isə buğda idxalının 40%-dən çoxunu Rusiya və Ukraynadan edir. BMT-nin Ümumdünya Ərzaq Proqramı (ÜƏP) dünya üzrə payladığı buğdanın yarısını Ukraynadan alır. Müharibə səbəbindən tədarüklər azalır və yanacaq da daxil olmaqla qiymətlər yüksəlir, bu da bölgəyə və bölgədən ərzaq daşınması xərclərini artırır. ÜƏP xəbərdarlıq edib ki, müharibə aprel ayından sonra da davam edərsə, kəskin aclıq qlobal miqyasda 17% arta bilər və ən kəskin artım Şərqi, Qərbi və Cənubi Afrika ölkələrində gözlənilir. Ərzaq inflyasiyası yoxsul əhaliyə daha çox təsir edir və insanlar gəlirlərinin çoxunu ərzaq məhsullarına xərcləyirlər. [7]

| **Ölkələr** | **Buğda idxalının asılılıq nisbəti, 2021** | **Buğda idxalı** | **Ukrayna və Rusiyadan buğda idxalının payı, 2020** |
|---|---|---|---|
| **Nigeriya** | 109 | $2.15 milyard | 26 % |
| **Kamerun** | 100 | $183 milyon | 45 % |
| **Uqanda** | 95,2 | $119 milyon | 48 % |
| **Tanzaniya** | 91,7 | $219 milyon | 74 % |
| **Kenya** | 85,1 | $400 milyon | 36 % |
| **Sudan** | 73,5 | $530 milyon | 58 % |
| **Cənubi Afrika** | 47,5 | $494 milyon | 26 % |
| **Zimbabve** | 41,7 | $94.8 milyon | 15 % |

**Cədvəl 1. Afrika ölkələrində buğda idxalının asılılıq nisbəti**
*Mənbə: USDA and Observatory for Economic Complexity* [8]

Martın 21-də Kamerun hökuməti çörəyin qiymətinin 40% artmasına səbəb kimi Rusiya və Ukrayna arasında olan münaqişəni göstərmişdir. Kamerun buğdanı əsasən Rusiyadan (81,8 milyon ABŞ dolları), Fransadan (56,6 milyon ABŞ dolları), Kanadadan (42,1 milyon ABŞ dolları) və Litvadan (2,48 milyon ABŞ dolları) idxal edir. Hökumət gündəlik olaraq çörək istehlak edən 26 milyon vətəndaşın təxminən yarısının artıq müntəzəm təchizatı olmadığını və hökumətin adətən Rusiya və Ukraynadan gətirilən buğdanı əvəz etmək üçün manok və yams kimi yerli əvəzediciləri təşviq etdiyini

bildirmişdir. 50 kq-lıq bir kisə unun qiyməti Douala və Yaoundenin böyük şəhərlərində 19.000 CFA-dan (32.97 ABŞ dolları) demək olar ki, 16% artaraq 22.000 CFA-ya (38.18 ABŞ dolları) çatıb və ölkənin digər yerlərində daha da yüksək olub. FAO-nun məlumatlarına görə, Kamerunda yaşayan insanların yarısından çoxu (55,8%) ərzaq təhlükəsizliyindən, 26,7%-i isə ciddi şəkildə ərzaq təhlükəsizliyindən əziyyət çəkir [9].

Ümumdünya Ərzaq Proqramının məlumatına əsasən, Nigeriya əhalisi ərzaq təhlükəsizliyindən ən çox əziyyət çəkən insanlar arasındadır. Təşkilat qarşıdakı aylarda münaqişənin təsir etdiyi bölgələrdə əhalinin bir hissəsinin ac qalacağını proqnozlaşdırır. Rusiya və Ukrayna münaqişəsi nəticəsində qlobal ərzaq və yanacaq tədarük zəncirinin pozulması vəziyyəti daha da ağırlaşdıracağı gözlənilir. Ərzaq inflyasiyası 2022-ci ilin mart ayında illik müqayisədə 17,2% təşkil edib ki, buna da dənli bitkilər, yam, ət ,balıq və meyvə kimi mallar üzrə geniş qiymət artımı səbəb olub. Milli Statistika Bürosunun 2022-ci ilin fevral ayı üçün Seçilmiş Ərzaq Qiymətinə Nəzarət göstərir ki, çörəyin orta qiyməti 34,11% artıb.

2021-ci ildə Nigeriyaya idxal olunan buğdanın 31%-i Rusiya və Ukraynanın payına düşüb. ABŞ Kənd Təsərrüfatı Departamentinin məlumatına görə, münaqişə milyonlarla insanın istehlak etdiyi çörək kimi əlavə məhsulların qiymətlərinin də artmasına səbəb olacaq.

Keniya Milli Statistika Bürosu tərəfindən ölçülən illik inflyasiya 2022-ci ilin mart ayında 5,56% təşkil etmişdir. Ümumi inflyasiya artımı əsasən ərzaq məhsullarının və alkoqolsuz içkilərin (9,92%) bahalaşması hesabına baş verib. Ən çox qiymət artımı olan ərzaq məhsulları isə buğda (17,68%) və yağ (35,15%) olmuşdur. 2020-ci ildə Keniya 405 min ton buğda istehsal edib, 1,9 milyon ton idxal edib. Keniya Kənd Təsərrüfatı və Qida İdarəsi ölkədə istehlak edilən buğdanın 90%-nin Rusiya və Ukraynadan gətirildiyini bildirib. Oxfam və digər beynəlxalq humanitar təşkilatlar 2022-ci ilin martında məlumat veriblər ki, Keniyada məhsul istehsalı 70% azalıb və kəskin aclıqdan əziyyət çəkən insanların sayı 3,1 milyon nəfərə çatmışdır.

FAO-nun davam edən 2021/22 mövsümü (iyul-iyun) üçün müharibədən əvvəl verdiyi proqnozlara və fevral ayına qədər qeydə alınan ixrac sürətinə əsasən, Ukraynanın 2022-ci ilin mart və iyun ayları arasında təxminən 6 milyon ton buğda ixrac edəcəyi gözlənilirdi. Rusiya Federasiyasının bu müddət ərzində daha 8 milyon ton neft göndərəcəyi gözlənilirdi. Bununla belə, Ukraynadakı limanların bağlanması və təchizat zəncirlərinin kəsilməsi və maliyyə sanksiyaları səbəbindən Rusiya Federasiyasında gözlənilən satış çətinlikləri bu ixracın reallaşdırılıb-gerçəkləşdirilməyəcəyini sual altına qoyur.




**Şəkil 3. Buğda və qarğıdalı qiymətlərinin ev təsərrüfatlarının real gəlirinə təsiri. Real gəlirlərin azalması: ən çox təsirlənən ölkələr**
Mənbə: https://unctad.org/news/impact-cost-living-crisis-people [12]

Ukraynadakı müharibə ev təsərrüfatlarının büdcəsini sürətlə məhdudlaşdıran qlobal yaşayış xərcləri böhranına gətirib çıxardı. Ərzaq bahalaşdıqca insanların ev təsərrüfatlarının gəlirləri azalır.

Ərzaq və enerji qiymətlərinin yüksək olması cəmiyyətin ən həssas təbəqələrinə, xüsusən də ən yoxsul ailələrin gəlirinin 50%-dən çoxunun ərzağa xərcləndiyi inkişaf etməkdə olan ölkələrə təsir edəcək. Ərzaq qiymətlərinin 10% artması bu ev təsərrüfatlarının alıcılıq qabiliyyətini 5%-dən çox azaldır.

## 2. Azərbaycanda ərzaq təhlükəsizliyi problemi

Azərbaycan hökuməti Avropa Komissiyası Ərzaq təhlükəsizliyi Proqramına qoşulmaq üçün 2000-ci ilin iyununda Memorandum imzalanmışdır. Milli Ərzaq Təhlükəsizliyi Proqramı hazırlanmış və ölkə prezidenti Heydər Əliyev cənabları tərəfindən 2001-ci il 2 mart tarixli 640 saylı sərəncam ilə təsdiq edilmişdir.

Dövlət başçısının tapşırığına uyğun olaraq respublikada ilk özəl pilot taxılçılıq təsərrüfatı olan “Qarabağ Taxıl” MMC Ağcabədi və Beyləqan rayonlarının ərazisində müasir suvarma sistemlərinin tətbiqi ilə 4800 hektar sahədə yaradılıb. “Qarabağ Taxıl” təsərrüfatı Azərbaycanda ilk pilot layihədir. Bir neçə il bundan əvvəl təsərrüfat yaradılıb və onun yaxşı göstəriciləri var. Bu gün artıq Azərbaycanda 30-dan çox iri fermer təsərrüfatı var və ölkəmizin ərzaq təhlükəsizliyinin təmin edilməsində bu təsərrüfatlar çox böyük rol oynayır. Qarğıdalı və ondan alınan məhsullar üzrə respublikanın illik tələbatı təxminən 600 min ton, soyada isə 160 min ton təşkil edir. Bu məhsulların idxalının əvəzlənməsi üçün əlavə olaraq 50 min hektar qarğıdalı, 40 min hektar soya əkilməsinə ehtiyac var. əhalinin ərzaq təminatını yerli istehsal hesabına daha da yaxşılaşdırmaq məqsədilə artıq respublikanın 20 rayonunda 44 min hektardan çox sahədə 22 sahibkarlıq subyekti tərəfindən 32 iri fermer təsərrüfatı yaradılıb. Ümumi dəyəri 181 milyon manat olan bu təsərrüfatların yaradılmasına 72,4 milyon manat dövlət güzəştli kreditləri verilib. təsərrüfatın yarandığı ilk illərdə 2250 hektar sahədə ərzaq buğdası əkilib və hər hektardan 5,5 ton olmaqla 12,4 min ton məhsul götürülüb. 2000 hektar sahədə isə qarğıdalı əkilib və hər hektardan 12 ton olmaqla 24 min ton yüksək keyfiyyətli məhsul istehsal edilib. Bu il növbəli əkinlə əlaqədar 250 hektar sahədə taxıl biçini aparılıb və hər hektardan 5,7 ton olmaqla 1,4 min ton taxıl götürülüb [10].

1980-ci illərdə regionda bitkiçilik məhsullarından taxıl əsas yer tuturdu. Həmin dövrdə Qarabağ və ətraf rayonlar ölkə üzrə taxıl istehsalının 13,9%-nə malik idi. Həmin illərdə 100,1 min ton taxıl istehsal edilmişdir [11].

Qarabağ ərazisi 90-cı illərdə Ermənistan ordusu tərəfindən işğal edildikdən sonra ölkənin taxıl istehsalında azalma qeydə alındı. Torpaqlarımızı işğal edən Ermənistan dövləti bu ərazilərdə taxıl və digər kənd təsərrüfatı məhsulları istehsal etməyə başladılar. Ermənistanın Statistika Komitəsinin məlumatına əsasən, 2019-cu ildə əkin sahələrinin 121 min hektarında taxıl bitkiləri əkilmişdir.

2013-2017-ci illərdə ermənilər Azərbaycanın işğal olunmuş ərazilərinin orta hesabla 60 min hektarında taxıl bitkiləri əkilmişdir. 2016-cı ildən sonra Ermənistanda taxıl istehsalında ciddi azalma baş versə də, Azərbaycanın işğal edilmiş ərazilərindən yığılan taxılın həcmində artım qeydə alınmışdır. Ermənistan və Azərbaycanın işğal altında olan ərazilərindən 2019-cu ildə ümumilikdə 292 min ton taxıl yığılmışdır ki, bunun 180 min tonu (62 %-i) Ermənistan ərazisində, 112 min tonu (38 %-i) isə Qarabağda becərilən taxılın payına düşüb.




**Şəkil 4: Azərbaycanın işğal olunmuş ərazilərində taxıl istehsalı (ton)**

Mənbə: Toplanmış məlumatlar əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Rayonlarımız işğaldan əvvəlki dövrlərdə ölkə taxılının əhəmiyyətli hissəsini yetişdirə bilirdilər. Xüsusilə də Füzuli, Ağdam və digər işğaldan azad edilmiş rayonlarımız taxıl istehsalında öndə gedən rayonlardan olub, taxıl fondunun formalaşmasına töhfə veriblər. Nəzərə alsaq ki, artıq buğda yetişdirilməsi yeni texnologiya əsasında həyata keçirilir, həmin ərazilərimizdə daha yüksək məhsuldarlıqla taxıl istehsalının təşkil edilməsi mümkündür.

Aqrar tədqiqatlar mərkəzinin apardığı araşdırmağa əsasən proqnoz edilir ki, Qarabağda 155,7 min ton taxıl istehsal oluna bilər. *(Ağdam və Füzuli rayonlarının işğala məruz qalmayan ərazilərindəki faktiki sahələr nəzərə alınmaqla)*

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatı təyinatlı torpaqların idarə edilməsi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 27 aprel tarixli 1323 nömrəli Fərmanının icrası çərçivəsində aqrar sahədə fəaliyyət göstərən subyektlərlə ümumilikdə 55.9 min hektar olmaqla 2020-2021-ci təsərrüfat ilində 13.8 min hektar əkin, 720.0 hektar örüş, 2021-2022-ci təsərrüfat ilində isə 41.5 min hektar əkin torpaq sahəsi üzrə müqavilə bağlanmışdır. Həmin subyektlər tərəfindən 7 rayonda əkin işləri aparılmış, 2020-2021-ci təsərrüfat ili üzrə 9557.25 hektar əkin sahəsinə uyğun olaraq subsidiyalar ödənilmişdir. Əkinlər əsasən buğda və arpa, qismən isə şəkər çuğunduru, noxud və yonca bitkilərini əhatə etmişdir. İşğaldan azad olunmuş ərazilərdə müəyyən edilmiş 2.0 min hektar çoxillik əkmələr (bağlar) və bağ salınması üçün uyğun torpaq sahələrinə dair müqavilə bağlanılması prosesi hazırda davam etdirilir [15].

2021-ci ilin 18 mart tarixində Azərbaycan Respublikasının kənd təsərrüfatı nazirinin və Türkiyə Respublikasının kənd təsərrüfatı və meşə nazirinin rəhbərlik etdikləri nümayəndə heyəti Qarabağ bölgəsinin Zəngilan, Cəbrayıl və Qubadlı rayonlarına səfər etmişdir. Səfər çərçivəsində Zəngilan rayonunda 5 hektarda 2620 ədəd meyvə tingi (ərik, alma, armud, gilas, albalı) əkilərək Azərbaycan-Türkiyə Qardaşlıq bağı salınmışdır. Həmçinin 2021-ci ildə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Türkiyə Respublikasının Kənd Təsərrüfatı və Meşə Nazirliyi arasında kənd təsərrüfatında müasir texnologiyaların ötürülməsi və aqrar təlim sahəsində əməkdaşlıq haqqında Niyyət Bəyannaməsi imzalanmışdır. Həmçinin Zəngilan rayonunun Ağalı kəndində cari ilin 26 oktyabr tarixində "Dost Aqropark"ın təməlqoyma mərasimi keçirilmişdir. İşğaldan azad olunmuş ərazilərdə ən müasir texnologiyalar tətbiq edilməklə bitkiçilik və heyvandarlıq sahələrinin inkişaf etdirilməsi, eləcə də həmin ərazilərin bərpası və yenidən qurulmasının yaşıl enerji zonası, "Ağıllı kənd" (Smart Village) konsepsiyası əsasında Zəngilan rayonunun ikinci Ağalı kəndi ərazisində "Ağıllı kənd"in layihələndirilməsi və inşası həyata keçirilməkdədir.

## Nəticə

Aparılan araşdırmalar nəticəsində məlum olmuşdur ki, Ukrayna və Rusiya arasındakı münaqişə qlobal ərzaq təhlükəsizliyinə öz mənfi təsirini göstərmişdir. Xüsusilə Afrika ölkələrinin ərzaq təhlükəsizliyinin təmin olunmasında özünü daha çox biruzə vermişdir və bu ölkələrdə yaranan ərzaq çatışmazlığı yoxsul insanların aclıqdan əziyyət çəkməsinə səbəb olmuşdur. Əgər münaqişə uzun müddət davam edərsə, problemin həlli yollarından biri ərzaq təhlükəsizliyindən əziyyət çəkən ölkələrin öz iqtisadiyyatına mütləq şəkildə müdaxilə etməsidir. Digər ən əsas zəruri həll yolu isə iki ölkə arasında sülhün yaradılması və münaqişənin dayandırılmasıdır. Həmçinin aparılan tədqiqatdan belə nəticəyə gəldik ki, münaqişə baş verən ölkələrdə kənd təsərrüfatı ərazilərinin yenidən bərpası uzun zaman alacaq və bunun üçün dövlət xeyli vəsait sərf etməlidir. Ölkəmiz də bu istiqamətdə fəaliyyət göstərməkdədir, belə ki işğaldan azad olunan ərazilərdə kənd təsərrüfatının yenidən qurulması və inkişafı üçün fəaliyyət planı hazırlanmış, ərazilərdə monitorinqlər keçirilərək risklər qiymətləndirilmiş, dislokasiya olunacaq təsərrüfatların sahələri müəyyən olunaraq koordinatlaşdırılmışdır.

## ƏDƏBİYYAT

1. Economic Research Service, U.S.Department of Agriculture. Agricultural Policy Reform in the WTO: The Road Ahead. Washington, D.C.: U.S. Department of Agricultural, May 2001.Pp. 63-64

2. FAO-WECD, 1999. Food: 2000-2025: Global Policies for Sustainable Agricultures. London.1999.P,93.
3. Yusifzadə Şəhla Natiq qızı, Ərzaq təhlükəsizliyinin dövlət tənzimlənməsi problemləri, səh 41.
4. https://www.fao.org/documents/card/en/c/cb4477en/
5. Abbasov Anar 2010, səh 69-70
6. International Fund for Agricultural Development
7. https://www.hrw.org/news/2022/04/28/ukraine/russia-war-continues-africa-food-crisis-looms
8. USDA and Observatory for Economic Complexity
9. Cameroon's National Institute of Statistics
10. Prezident.az
11. Statistika Komitəsi
12. https://unctad.org/news/impact-cost-living-crisis-people
13. Trade Data Monitor (TDM), FAO calculations
14. FAO XCBS system
15. Kənd Təsərrüfatı Nazirliyi

# ROLE OF SOCIAL NETWORKS IN CUSTOMER DECISION JOURNEY IN TOURISM

**Mina NAZARİ[22],**
**Nasrin NAZARİ[23],**
**Roya NAZARİ[24],**
**Solmaz NAZARİ[25]**

**Abstract**

Several studies have shown the impact of social media on tourism and the role of digital influencers. However, the relationship between social media, digital influencers, and the customer decision journey has not been much studied. To help fill this gap, the present study examines the role of digital influencers during each phase of the customer decision journey using an online survey. The findings from 400 social media users show that the majority use social networks when planning a trip, however, sharing the experiences of other travelers is not a relevant aspect. While, overall, digital influencers have no significant impact, their followers tend to value their content, visit the sites they suggest, and share their own experiences, mostly through Instagram.

***Keywords:*** *Digital Influencers, User Generated Content, Customer Decision Journey, Ewom*

## Introduction

The World Wide Web was introduced in 1989 and during the same years Internet was also introduced which quickly become a global network for the people of the world (Hansel and Dyes, 2010). The introduction of Web 2.0 in 2004 was a transition from more static HTML to a more dynamic web which consists of such application software's that is users friendly and which facilitate open communication and information sharing with web based users. The essence of Web 2.0 is harnessing collective intelligence. That is Web 2.0 play an important role in collecting knowledge, insights, wisdom and expertise of diverse groups and then effectively using it for better and informed decision. Such type of collective intelligence generates new ideas, solve complicated and age-old problems and help in making the right decision about the future opportunities of the organization. Web 2.0 is a marketing buzzword and it facilitates business of an organization (Tim O'Reilly and John Battele 2009). Social media are "internet-based applications that build on the ideological and technological foundations of Web 2.0 and that allow the creation and exchange of usergenerated content" (Kaplan and Haenlen 2010). To get better sense of a product consumers access their groups online through social media to know and get their opinions regarding that particular product or service (Hensel & Deis, 2010). Social media is now getting greater importance in the field of marketing, advertising and communication and its users are growing exponentially every year (Constantinida and Stagnoa 2011). When the customers have strong relationship with the company then they share their experiences with other people through social media and recommend the brands to friends in the form of EWOM promotion. All these activities ultimately lead to greater growth and increase customer base (Gronroos, 2007). By the introduction of internet EWOM has far reaching effects due to its accessibility and spreading of messages to million people. It is an important marketing tool in the modern era of business world due to its credibility and the urge of people to interact through social media (Gummesson, 2008).

Regarding the purpose of the research, it was employed an online survey. To ensure the operationalization of the study, the snowball method was chosen. This data collection strategy was considered suitable given that the study population is users of social networks that use them as a source of inspiration to support travel decisions to Tabriz.

## 1.literature review

### 1.1 Electronic word of mouth and consumer reviews in tourism

Word-of-mouth (WoM) is a term dating back to sixty years ago that is still current and referred to in new studies (Sahelices-Pinto & Rodríguez-Santos, 2014; Chen, Nguyen, Klaus, & Wu, 2015) WoM refers to personal and non-commercial content, generated and shared by citizens regarding their own consumer

---

[22] **Communication sciences PHD , public relations Specialist at Power Distribution company of Tabriz**
[23] **High School Research Assistant**
[24] **Principal of Social Sciences High School**
[25] **Social sciences school teacher, mina nazari@yahoo.com**

experiences (Arndt, 1967). Such content must be informal, interpersonal, and spontaneous, occurring outside the business environment; it is selfless by nature and should not have compensation; it can be positive or negative depending on whether the reported experience was satisfactory (Dichter, 1996; SahelicesPinto & Rodríguez-Santos, 2014). The author of the message shared on social networks refers to a product, brand, or experience with their consumer group followers (Dichter, 1996). This is a widely known and recognized reality for tourism and hospitality professionals (Fine, Gironda, & Petrescu, 2017). The spread of the World Wide Web and the use of accessible communication technologies (like smartphones, and social networks) has enabled consumers—ordinary citizens—to share their opinions on products and services, positive and negative travel experiences, through online channels that allow them to reach significantly larger audiences (Liljander & Gummerus, 2015) and impact consumers' purchasing decisions (Chen et al., 2015). When shared over digital channels, word-of-mouth is called electronic word-of-mouth (eWoM) (Chen, et al., 2015). In this new reality, the concept of prosumer is born to refer to how consumers have become more influential thanks to their ability to share their consumer experiences quickly, easily, and openly with an increasing number of people (Fine et al., 2017).

### 1.2. Digital influencers and their roles

This evolution and prevalence of eWOM or eUGC through the active role of community members also raises another issue, which is the impact of different individuals on a given social network. In fact, influence is not equal across network members, and there is a very active primary group that collects and disseminates information, influencing all other levels of the social system (Sahelices-Pinto & Rodríguez-Santos, 2014

## 2. Methodology

### 2.1. Research question and study objectives

İn line with the research question, the main objective of this study is to investigate the role of social networks/digital influencers throughout the customer decision journey regarding the choice of holiday destination. Thus, the following specific objectives were defined:

• To characterize the use of social networks;

• To analyses the impact of social networks/digital influencers on travel behavior, according to the Customer Decision Journey model;

• To identify the socio-demographic profile of respondents.

### 2.2 Questionnaire design

The data collection instrument consists of four main sections, namely: (a) use of social networks, (b) travel; c) Customer Decision Journey; d) attributes and profile of digital influencers; e) socio-demographic.

Journal of Spatial and Organizational Dynamics, Vol. VII, Issue 3, (2019) 240-260 246 The first part of the questionnaire includes questions to characterize the use of social networks in terms of time spent, preferred social networks, and the main topics of interest. Next, we intend to know the behavior of the audience in terms of travel planning and its relationship with the use of social networks, content sharing in the context of travel and the preferred social networks for this purpose. The third part of the questionnaire covered the relationship of respondents with digital influencers in the process of travel inspiration and planning, their perceptions about shared content, and the role they play in travel decisions. Finally, a set of questions addressed sociodemographic information. Table 1 shows the variables, their items and authors used in the study.

**Table 1. Measurement scales and literature sources**

| Use of social networks | |
|---|---|
| Average time you spend on social media: Less than 1 hour; Between 1 and 3 hours; Between 3 and 5 hours; More than 5 hours. | (Magno, 2017) |
| Which social network you use the most: Facebook; Instagram; Twitter; Snapchat; Pinterest; Linkedin; Other | (Rinka & Pratt, 2018) |
| Which thematic do you frequently follow on social media? Travel & Destinations; Fashion & Beauty; Sports & Healthy Lifestyle; Culture & Art; Celebrities; Culinary; News; Other | (Magno, 2017) |

| customer decision Journey | |
|---|---|
| Pre-purchase | |
| I research on social media when I am planning a trip. | (Kang & Schuett, 2013) |
| I research online by reading about other traveller's experiences via social media. | (Kang & Schuett, 2013) |
| I am likely to visit the places reviewed by digital influencers. | (Magno & Cassia, 2018) |
| When I have to make travel-related decisions, I will take suggestions from digital influencers; | (Magno & Cassia, 2018) |
| I am likely to consider digital influencer's travel experiences when making my travel decisions. | (Magno & Cassia, 2018) |
| Most used social networks when searching for inspiration and information about travel and destinations: Facebook; Instagram; Twitter; Snapchat; Pinterest; Linkedin; Specialized Blogs; Other | (Rinka & Pratt, 2018) |
| Purchase decision | |
| I am likely to visit the places reviewed by digital influencers; | (Magno & Cassia, 2018) |
| Post-purchase | |
| Do you share travel experiences from your most recent trip on online social networking websites, photo sharing websites, travel review websites, personal blogs, and/or websites? | (Kang & Schuett, 2013) |
| In which social networks do you share your travel experiences? Facebook; Instagram; Twitter; Snapchat; Pinterest; Personal; Blog; Other | (Rinka & Pratt, 2018) |
| attributes and profile of digital influencers | |
| My perception of the digital influencer is that he/she should…be trustworthy; be sincere; inspires trust | (Magno & Cassia, 2018) |
| Content quality: I am likely to follow digital influencers who provide accurate information; Updated information; High quality content. | (Magno & Cassia, 2018) |
| sociodemographic profile | |
| Age; Gender; Marital Status; Complete Education Degree; Professional Situation; City. | (Magno, 2017) (SanMiguel & Sádaba, 2017) |

**Table 1. Measurement scales and literature sources**

### 2.3. Pre-test and questionnaire administration

The questionnaire pre-test was applied to social network users that turn to social networking web sites for inspiration and to support their consumption decisions. The pre-test of the questionnaire took place on August 7 and 8, 2020. A link to access the data collection instrument was sent via Messenger and WhatsApp to a selected group of 7 people with different profiles and who had made at least one trip the previous year. As a result, the wording and sequence of some questions has been changed. The final version of the questionnaire, designed on the Google forms platform, was published on Facebook, LinkedIn, and Instagram. This research makes use of the voluntary selection method and the freedom for users to share with their contacts. The publication was disseminated through a link to facilitate its access and sharing.

### 2.4. Population and sample

Given the stated objectives, this study is based on a quantitative survey using a questionnaire as a data collection strategy aimed at social network users that turn to social networking web sites for inspiration and to support their consumption decisions. A non-probabilistic method was chosen and snowball sampling techniques were used (Esteban-Santos et al., 2018), which consist of identifying members of the study population and asking them to share the questionnaire thus growing the sample (Saunders, Lewis, & Thornhill, 2009). According to the authors, this method is recommended when it is difficult to identify the

desired population. It is generally possible to obtain a significant number of responses thanks to the action of the respondents themselves. Data collection took place from August 8 to August 29, 2020. 244 responses were collected.

### 2.5. Data analysis methods

Google forms makes it possible to automatically transfer respondents' responses to the Microsoft Office Excel program and then transfer the data directly to the IBM SPSS Statistics version 25 (Statistical Package for Social Sciences). However, this transfer entails some problems, as regards the qualitative variables, requiring some recoding work. Once the database was organized, descriptive statistics techniques were used, such as constructing frequency distributions, contingency tables and calculating measures of location (mean, median, and mode) and dispersion (standard deviation). In addition to the descriptive procedures, some statistical tests were performed (t tests for dependent and independent samples, Chi-square test), all of them performed at a significance level of 5%.

## 3. Results

### 3.1. Sociodemographic profile

The sociodemographic profile of the 244 respondents is shown in Table 2. The average age is 35 years, being 27 the most frequent age. Regarding gender, the participants were mostly female (74,6%). Most respondents have completed university education (70.5%) and work for others (68%). Regarding marital status, 54.9% of respondents are single and 42.6% are married. The cities most indicated by the respondents as their city of residence were Tabriz between East Azerbaijan cities.

Table 2. Sociodemographic profile

| Age | Minimum | Maximum | Mode | Median | Mean | Stand-deviation |
|---|---|---|---|---|---|---|
| | 17 | 76 | 27 | 32 | 34,63 | 11,303 |

| **Gender** | **Frequency** | **%** |
|---|---|---|
| Female | 182 | 74,6% |
| Male | 62 | 25,4% |
| **Marital status** | **Frequency** | **%** |
| Married | 104 | 42,6% |
| Divorced | 6 | 2,5% |
| Not Married | 134 | 54,9% |
| **Complete education degree** | **Frequency** | **%** |
| Basic School | 8 | 3,3% |
| Secondary School | 56 | 23% |
| University Degree | 172 | 70,5% |
| Professional qualification | 8 | 3,3% |
| **Employment status** | **Frequency** | **%** |
| Student | 21 | 8,6% |
| Retired | 6 | 2,5% |
| Employee | 166 | 68% |
| Self-employed | 42 | 17,2 |
| Searching for a job | 9 | 3,7% |

4.2 use of social networks Most respondents report spending less than 1 hour daily on social networking (61.1%), researching topics related to Travel and Tourist Destinations (57.8%), Fashion and Beauty (40.6%), Sports and Healthy Living (36.9%) and Culture and Art (33.6%), and mostly using Instagram (57.0%), specialized blogs (49.2%) and Facebook (37.3%) (Tables 3 and 4).

**Table 3. Time spent on social networking sites per day**

| | Frequency | % |
|---|---|---|
| For less than 1 hour | 150 | 61,5 |
| 1 to 3 hours | 46 | 18,9 |
| 3 to 5 hours | 7 | 2,9 |
| More than 5 hours | 41 | 16,8 |
| **Total** | 244 | 100,0 |

Source: Own Elaboration

**Table 4. Main topics in social networks**

| | | Responses | | Cases % |
|---|---|---|---|---|
| | | N | % | |
| **Main topics** | | | | |
| | Travel and Tourist Destinations | 141 | 25.0 | 57.8 |
| | Fashion and Beauty | 99 | 17.5 | 40.6 |
| | Sports and Healthy Living | 90 | 15.9 | 36.9 |
| | Culture and Art | 82 | 14.5 | 33.6 |
| | Celebrities | 28 | 5.0 | 11.5 |
| | Food | 43 | 7.6 | 17.6 |
| | News | 62 | 11.0 | 25.4 |
| | Other | 20 | 3.5 | 8.2 |
| Total (n=244) | | 565 | 100.0 | 231.6 |
| **Social media networks** | | | | |
| | Facebook | 91 | 22.2 | 37.3 |
| | Instagram | 139 | 34.0 | 57.0 |
| | Twitter | 3 | 0.7 | 1.2 |
| | Snapchat | 2 | 0.5 | 0.8 |
| | Pinterest | 27 | 6.6 | 11.1 |
| | LinkedIn | 2 | 0.5 | 0,8 |
| | Specialized Blogs | 120 | 29.3 | 49,2 |
| | Other | 25 | 6.1 | 10,2 |
| Total (n=244) | | 409 | 100,0 | 167.6 |

Source: Own Elaboration

4.3 Impact of social networks/digital influencers on customer decision Journey As mentioned above, this section intends to analyses the behavior of users throughout the travel choice process—according to the stages of the Customer Decision Journey—to identify the impact of social networks and digital influencers on the Awareness of existing products or services (awareness), evaluation, purchase decision, and post-purchase experience Journal of Spatial and Organizational Dynamics, Vol. VII, Issue 3, (2019) 240-260 250 Stage 1: Pre-Purchase Awareness of existing products or services (awareness) To identify the role of social networks in this early stage of the process, the statements regarding travel planning (variables Q6 and Q7) were analyzed. The percentage of respondents searching social networks (60.3%) and those who base their search on experiences shared by other travelers (60%) is similar. Although the first statement has a slightly higher mean level of agreement, the Student t-test for dependent samples indicates that this difference is not statistically significant ($t = 0.33$; $p = 0.74$). This suggests that experiences shared by other travelers are not a major factor in travel planning research (Table 5).

**Table 5. Use of social networks in travel planning**

| To what extent do you agree with the following statements about how often you use social media to help you plan your travels? | | Totally disagree | Disagree | Neither agree/ disagree | Agree | Totally agree | Mean | Standard deviation |
|---|---|---|---|---|---|---|---|---|
| I do social media research when I'm planning a trip | % | 9.6 | 13.8 | 16.3 | 35.6 | 24.7 | 3.52 | 1.266 |
| I do social media research based on other travellers' experiences shared on social media | % | 7.0 | 13.0 | 20.0 | 45.5 | 14.5 | 3.48 | 1.107 |

Source: Own Elaboration

To identify significant differences in travel planning as a function of time spent on social networking, respondents were grouped into soft (less than 3 hours daily) and hard (3 hours daily or more) users. Significant differences were only found for the first statement, indicating that users who spend less time daily on social networks are, however, the ones who use them the most when it comes to planning a trip. Table 6 shows the Student's t-test results for independent samples.

**Table 6. Travel Planning/Use of Social Media Networks**

| Using social media networks | < 3h per day | | ≥ 3 h per day | | t Student | p value |
|---|---|---|---|---|---|---|
| | Mean | Standard deviation | Mean | Standard deviation | | |
| I do social media research when I'm planning a trip | 3.63 | 1.267 | 3.06 | 1.169 | 2.787 | .006 |

Source: Own Elaboration

The same analysis, performed according to gender, also indicates that it is women who most resort to this type of research (Table 7).

**Table 7. Travel Planning/Gender**

| Gender | Female | | Male | | t Student | p value |
|---|---|---|---|---|---|---|
| | Mean | Standard deviation | Mean | Standard deviation | | |
| I do social media research when I'm planning a trip | 3.66 | 1.240 | 3.11 | 1.266 | 2.934 | .004 |

Source: Own Elaboration

The analysis of the trip planning according to the most used social networks allows us to conclude that it is only for Instagram that there are significant differences (Table 8), suggesting that users of this network tend to do more research in the preparation of their trips than those who do not use it.

**Table 8. Travel Planning/Social Media Networks**

| Instagram | Users | | Non-Users | | t Student | p value |
|---|---|---|---|---|---|---|
| | Mean | Standard deviation | Mean | Standard deviation | | |
| I do social media research when I'm planning a trip | 3.82 | 1.224 | 3.13 | 1.218 | -4.323 | .000 |

Source: Own Elaboration

By comparing the mean values between those who do not closely follow a digital expert/ celebrity on travel topics and those who do (Table 9), the latter are more likely to refer to the digital influencers' suggestions, as well as to value their shared travel experiences

**Table 9. Influencers' social media/ digital influencers' followers**

| Digital Influencer/Celebrity | Follow (49,2%) | | Don't follow (50,8%) | | t Student | p value |
|---|---|---|---|---|---|---|
| | Mean | Standard deviation | Mean | Stand deviation | | |
| I search digital influencers posts when I must make travel decisions | 3.24 | .947 | 2.19 | 1.047 | -8.252 | **.000** |
| I tend to consider the travel experiences of digital influencers when I make my travel decisions | 3.31 | .951 | 2.16 | .999 | -9.181 | **.000** |

Source: Own Elaboration

As for the relationship between posts and the most used social networks (Table 10), we identified that posting is most prevalent in Instagram, with most respondents referring they post about their travel experiences using this social network.

**Table 10. Posts * Instagram**

| | | | Instagram | | Total |
|---|---|---|---|---|---|
| | | | No | Yes | |
| Do you post about travel experiences from your most recent trip on online social networking websites, photo sharing websites, travel review websites, personal blogs, and/or websites? | No | Frequency | 48 | 28 | 76 |
| | | % | 63.2% | 36.8% | 100.0% |
| | Yes | Frequency | 57 | 111 | 168 |
| | | % | 33.9% | **66.1%** | 100.0% |

($\chi^2$=18.237; p= .000)

Source: Own Elaboration

## 4. Conclusion

Social media is now an integral part of every individual's life from President of a country to a common man. The most important effect of social media is that it has empowered individuals to share their experiences, opinions and feelings with others. Such sites establish groups which frequently interact with each other and consequently affect the purchasing behaviors. The research work of this study is directed towards social media, and its impact on consumers' behaviors. The finding of this thesis provides a strong base for marketing managers to focus and direct their communication towards such communities. As such groups strongly affect each other purchasing behaviors so organizations and companies must focus on them through social media. Organizations can increase their revenues by influencing such groups to increase their brand awareness and brand loyalty. It is the first study in Pakistan that provides the overall impact of social media on consumers' preferences

This study sought to understand the informal relationships of influence that social networks provide, namely regarding the impact on the various stages of Customer Decision Journey from awareness or desire to post-purchase experience in holiday destination choice contexts (Hudson & Thal, 2013; Lemon & Verhoef, 2016). the results of this research regarding the evaluation, show that the opinion of digital influencers has no significant impact on respondents' assessment of travel options and that, as in the early planning phase, their shared experiences are not a decisive factor in choosing between alternatives. However, users who indicate that they are following a digital influencer/celebrity closely regarding travel and tourist destinations bloggers are more likely to look at digital influencers' pages and to value their reported travel experiences. These results confirm the relevance of followers' loyalty to digital influencer reported by Alic et al. (2017). Although, overall, the opinion shared by digital influencers does not prove to have a major impact on the purchase decision phase, it appears that those who follow them closely tend to visit the places they suggest and they value their qualities in terms of credibility, sincerity, and trust. Consistent with Kang and Schuett's (2013) findings, in the post purchase experience, the results showed that most respondents (68.9%) use social networks to share their travel experiences, most of which follow

a digital influencer and uses Instagram for content sharing. This result contrasts with the data collected by Kang and Schuett (2013), where Facebook (65%) and Myspace (59%) were the preferred social networks for this purpose. In line with Alic et al. (2017) the results of this work support the role of digital influencers, as followers tend to be loyal to them and are impacted on their consumption choices by generated and shared content. Although there is no significant impact of digital influencers, respondents who admitted relating to digital influencers tend to value their content, visit the sites they suggest, and share their own experiences, mostly through Instagram. These users are more involved with digital influencers throughout the Customer Decision Journey, which makes it possible to answer the research question initially posed affirmatively.

**REFERENCES**


1. Akrimi, Y., & Khemakhem, R. (2012). What Drive Consumers to Spread the Word in Social Media? Journal of Marketing Research & Case Studies, 2012, 1-14.
2. Al Kailani, M., & Kumar, R. (2011). Investigating Uncertainty Avoidance and Perceived Risk for Impacting
3. Alic, A., Pestek, A., & Sadinlija, A. (2017). Use of Social Media Influencers in Tourism. Trade Perspectives 2017 Specialization and Customer Centered Retailing, 177-189.
4. Belagatti, P. (2017). The importance and Impact of Influencer Marketing in 2017. Retrieved from http://www.influencive.com/the-importance-and-impact-of-influencer-marketing/ Boykin, J. (2015).
5. Cantallops, A. & Salvi, F. (2014). New consumer behaviour: a review of research on eWOM and hotels. International Journal of Hospitality Management, 36, 41-51.
6. Carusona, B. P., Chernaik, T., DePolo, S., Deutch, E., Dudukovich, J., & Wilburn, J. (2017). The Womma Guide to Influencer Marketing. Word of Mouth Marketing Association.
7. Chevalier, J. and Mayzlin, D. (2006) "The Effect of Word of Mouth on Sales: Online Book Reviews,"Journal of Marketing Research, 43, 345-354. Clemons, E.K., and Gao, G. Consumer informedness and diverse consumer purchasing Davidsson, B., & Patel R. (2003). Forskningsmetodikens grunder: Att planera, genomföra och rapportera en undersökning. Lund: Studentlitteratur.
8. Chen, C.-H., Nguyen, B., Klaus, P., & Wu, M.-S. (2015). Exploring Electronic Word-ofMouth (eWOM) in The Consumer Purchase Decision-Making Process: The Case of Online Holidays - Evidence from United Kingdom (UK) Consumers. Journal of Travel & Tourism Marketing, 32(8), 953-970.
9. Chu, S.-C. & Kim, Y. (2011). Determinants of consumer engagement in electronic word-ofmouth (Ewom) in social networking sites. International Journal of Advertising, 30(1), 47-75.
10. Fine, M. B., Gironda, J., & Petrescu, M. (2017). Prosumer motivations for electronic wordof-mouth communication behaviors. Emerald Insight, 8, 280-295.
11. Gohil, N. (2015). Role and Impact of Social Media in Tourism: A Case Study on the Initiatives of Madhya Pradesh State Tourism. International Journal of Research in Economics and Social Sciences, 5(4), 8-15.
12. Gretzel, U. & Yoo, H. K. (2008). Use and impact of online travel reviews. Information and communication technologies in tourism, 35-46.
13. Halvorsen, K., Hoffman, J., Coste-Manière, I., & Stankeviciute, R. (2013). Can fashion blogs function as a marketing toll to influence consumer behavior? Evidence from Norway. Journal of Global Fashion Marketing, 4, 211-224.
14. Howison, S., Finger, G., & Hauschka, C. (2014). Insights into the Web presence, online marketing, and the use of social media by tourism operators in Dunedin, New Zealand. Anatolia, 6(1), 1-16.
15. Guerreiro, C., Viegas, M., Guerreiro, M. (2019). JSOD, VII(3), 240-260 259 .
16. Nandagiri, V. & Philip, L. (2018). Impact of Influencers from Instagram and Youtube on their followers. International Journal of Multidisciplinary Research and Modern Education, 4(1), 61-65.
17. Parasuraman, A., Zeithaml, V. and Berry, L.L. (1991). Refinement and reassessment of the SERVQUAL scale. Journal of Retailing. 67(4). 420-50.
18. Pietro, L., Virgilio, F., & Pantano, F. (2012). Social network for the choice of tourist destination: attitude and behavioural intention. Journal of Hospitality and Tourism Technology, 3(1), 60- 76.
19. Primetag. (2017). A social influence report by Primetag. Aveiro. Rieh, S. Y. & Danielson, D. R. (2007). Credibility: a multidisciplinary framework. Annual Review of Information Science and Technology, Information Today, 41, 307-364.
20. SanMiguel, P. & Sádaba, T. (2017). Nice to be a fashion blogger, hard to be influencial: An analysis based on personal characteristics, knowledge criteria, and social factors. Journal of Global Fashion Marketing, 9(1), 41-58.
21. Saunders, M., Lewis, P., & Thornhill, A. (2009). Selecting Samples. In M. Saunders, P. Lewis, & A. Thornhill (Eds.), Research methods for business students. Harlow: Pearson Education Limited.
22. Shiau, W.-L. & Luo, M. M. (2013). Continuance intention of blog users: The impact of perceived enjoyment, habit, user involvement and blogging time. Behaviour & Information Technology, 32(6), 570-583.

23. Soderlund, V. L. (2016). Young consumer's responses to suspected covert and overt blog marketing. Emerald Insight. 25(4), 610-632.
24. Tussyadiah, I. & Fesenmaier, D. R. (2009). Mediating tourist experiences: Access to places via shared videos. Annals of Tourism Research, 36, 24-40.

# YÜKSƏK ƏMTƏƏ QİYMƏTLƏRİNİN DÜNYA İQTİSADİYYATINA TƏSİRİ

**Fəxri MƏMMƏDOV**[26]

**Xülasə**

Müxtəlif istiqamətlərdə tətbiq olunacaq təşviq paketlərinin iqtisadiyyatı hərəkətə gətirəcəyi proqnozu və dünya bazarında müşahidə olunan xammal qıtlığı son nəticədə əmtəə qiymətlərinin 2012-ci ildən indiyə kimi özünün ən yüksək səviyyəyə çatmasına səbəb oldu. Qeyd olunan bu faktı Bloomberg Əmtəələr İndeksindən də əldə etmək mümkündür. Belə ki, Bloomberg Əmtəələr Birjası 2012-ci ildən hal-hazırki günədək olan periodda ən yüksək əmtəə qiymətlərini təqdim etmişdir.

Mütəxəssislərin proqnozlarına əsasən, dünyamiqyaslı mərkəzi bankların COVİD-19 pandemiyasının mənfi təsirlərini azaltmaq üçün təklif etdiyi irimiqyaslı təşviq paketləri əmtəələrə olan tələbi artırmaqla iqtisadiyyatı canlandıracaqdır. Dünya bazarında xammal ehtiyatlarının kifayət qədər olmaması təklifin həcmində müəyyən qədər problemlərin yaranmasına səbəb olur. Bu da son 15 ildə əmtəə qiymətlərinin yüksək sürətlə artacağı proqnozunu ortaya qoyur.

Məqalənin əsas məqsədi əmtəə qiymətlərinin yüksək olmasının dünya iqtisadiyyatına təsiri istiqamətlərini araşdırmaqdır. Məqələnin predmeti kimi əmtəə qiymətlərinin yüksək səviyyəsinin ÜDM həcminə təsiri çıxış edir. Məqalənin obyekti isə yüksək əmtəə qiymətləridir. Məqalənin əsas məhdudiyyəti kimi Azərbaycan Respublikasına aid yerli statistik məlumatların azlığı çıxış edir.

*Açar sözlər: qiymət, əmtəə, tələb, təklif, ÜDM*

## The Impact of High Commodity Prices to the World Economy

**Abstract**

The forecast that stimulus packages to be applied in various directions will move the economy and the shortage of raw materials observed in the world market ultimately caused commodity prices to reach their highest level since 2012. This mentioned fact can also be obtained from the Bloomberg Commodity Index. Thus, Bloomberg Commodity Exchange presented the highest commodity prices in the period from 2012 to the present day.

According to experts' forecasts, large-scale stimulus packages proposed by global central banks to reduce the negative effects of the COVID-19 pandemic will revive the economy by increasing the demand for commodities. The lack of raw material reserves in the world market causes some problems in terms of supply. This also reveals the forecast that commodity prices will increase rapidly in the last 15 years.

The main goal of the article is to examine the ways in which high commodity prices affect the world economy. The subject of the article is the effect of the high level of commodity prices on the volume of GDP. The object of the article is high commodity prices. The main limitation of the article is the lack of local statistical data for the Republic of Azerbaijan.

***Keywords:*** *price, commodity, demand, supply, GDP*

*UOT: 33;327;338*

## Giriş

Müasir beynəlxalq ticarətdə qiymət artımının (dinamikasının) proqnozlaşdırılması bu artıma təsir edə biləcək bütün iqtisadi faktorlar nəzərə alınmaqla, konkret əmtəə növlərinin və yaxud da qruplarının real qiymət dinamikasını tədqiq etməklə mümkündür. Əmtəə qiymətləri üzrə dəyişən dinamikanı əvvəlcədən müəyyənləşdirmək və istiqamətdə proqnozlar vermək son dərəcə mürəkkəb proseslərdəndir. Əmtəə qiymətləri üzrə proqnozların verilməsi isə ehtimal xarakteri daşıyır. Belə ki, 70-ci illərə dair verilmiş proqnozların heç biri mineral xammal, xüsusən də neft üzrə 70-ci illərin ortalarında baş vermiş sıçrayışlı qiymət artımını öncədən müəyyən etməyə dair fikirləri ortaya qoya bilmədi. Məhz bu səbəbdən də yüksək əmtəə qiymətlərinin proqnozlaşdırılması dünya iqtisadiyyatı qarşısında elmi cəhətdən əsaslandırılmış güclü bir vəzifə olaraq qalmaqdadır.

2020-ci ilin əvvəlində pandemiyanın yaratdığı qlobal tənəzzül əmtəə qiymətlərinin geniş şəkildə çökməsinə səbəb oldu. Çöküşün ardınca qiymətlərdə sinxron kəskin yüksəliş müşahidə edildi. Son onilliklərdə əmtəə qiymətlərində belə sinxron bumlar və enişlər adi hal hesab olunsa da, qarşıdakı illərdə

[26] **Azərbaycan Dövlət İqtisad Universiteti, mammadov.fakhri@gmail.com**

mədən yanacaqlarından aşağı karbonlu texnologiyalara keçid əmtəələrə tələb və təklif modelində dərin, genişmiqyaslı dəyişikliklərə səbəb olacaq ki, bu da böyük makroiqtisadi nəticələr yaratmış olacaq.

### 1. Əmtəə qiymətlərinin cari vəziyyəti və qiymətlərə təsir edən amillər

Qiymətdə başverən dəyişikliklərin aşkara çıxarılması və dərk edilməsi üçün təkcə qiymətləri təhlil edilən konkret bazarda vəziyyət deyil, eləcə də qarışıq bazarların və ümumtəsərrüfat konyukturunun inkişaf meyllərini bilmək çox vacibdir. Bu məlumatlar qiymətlərdə inflyasiyanın, rəqabətin, istehsal gücünün yüklənməsi dərəcəsinin, tədiyyə şərtlərindəki dəyişikliklərin və digər amillərin təsirini nəzərə almaq imkan verir (Allahverdiyev və d., 2007, s.42).

Qiymətlərin təhlili həm dəəmtəənin keyfiyyətini və onun dəgər texniki-iqtisadi parametrlərini xarakterizə edən göstəricilərin nəzərdən keçirilməsini tələb edir.

Beləliklə, qiymətlərin təhlilində baş verən dəyişikliklərinin kəmiyyət qiymətləndirilməsindən başlayaraq qiymət səviyyəsində bu və ya digər dəyişikliyi doğuran amillərin aşkara çıxarılması və nəzərdən keçirilməsi kimi kompleks məsələlər daxildir (Əliyev, 2018, s.33).

Qərb ölkələrinin Rusiya iqtisadiyyatını zəiflətmək üçün tətbiq etdiyi sanksiyalar, Rusiyanın əhəmiyyətli paya sahib olduğu bir çox əmtəə məhsullarında qiymətləri tarixin ən yüksək həddinə çatdırıb. Avropada xüsusi paya malik olan Hollandiyada son 1 ildə təbii qazın qiymətinin 10 dəfəyə qədər bahalaşması müharibənin başlaması ilə rekord həddə çatdı. Brent markalı neftin bir barelinin qiyməti isə bu dövrdə 35,3 faiz artaraq 96,6 dollardan 130,7 dollara yüksəlib. Beləliklə, neftin qiyməti 2008-ci ildən bəri ən yüksək həddə çatıb. API2 Rotterdam bazarında bir ton kömürün qiyməti fevralın 23-dəki 200 dollarla müqayisədə 142,5 faiz artaraq 485 dollara çatıb (www.bloomberg.com) .




**Şəkil1. Əmtəə qiymətlərinin dinamikası**

Əmtəələrin qiymətlərinin son dövrlərdə belə sürətlə artmasında Qərb ölkələrinin Rusiyanın neft və təbii qaz ixracına embarqo tətbiq etmə ehtimalı təsirli olub.

Rusiya-Ukrayna müharibəsinin başlaması ilə bəzi əmtəə növlərinin, xüsusən də Rusiyanın dünya bazarında dominantlıq etdiyi əmtəələrin qiymətlərində kəskin fərqlərin yaranmasına səbəb olub. Belə ki, Rusiya gündəlik gündəlik ümumi xam neft hasilatı 10 milyon barellə dünyanın üçüncü ən böyük neft istehsalçısıdır. Rusiya qlobal təbii qaz ticarətinin 26 faizini və mayeləşdirilmiş təbii qaz ticarətinin isə 8 faizini həyata keçirir. Qlobal kömür ixracatında 15 faiz paya sahib olan Rusiya, İndoneziya və Avstraliyadan sonra dünyanın üçüncü ən böyük kömür ixracatçısıdır. Bütün bu statistik rəqəmlər onu deməyə imkan verir ki, Rusiya dünya iqtisadiyyatından asılı olduğu kimi, dünya iqtisadiyyatı da Rusiyanın xarici ticarətindən bir o qədər asılıdır. Rusiya iqtisadiyyatını çökdürməyə yönəlmiş Qərb strategiyası eyni zamanda dünya bazarında əmtəələrin qiymətlərinin dəyişməsinə, eləcə də onların kəskin sürətləı artmasına səbəb olur.

Rusiya-Ukrayna müharibəsi ölkə iqtisadiyyatlarına getdikcə daha çox təsir edərək qlobal metal bazarlarında da qiymət rekordlarının qırılmasına səbəb olur. Martın 7-də mis qiymətləri ton başına 10 min dolları keçərək, 23 fevralla müqayisədə 10 faiz artımla rekord qırarkən, alüminiumun qiyməti 20 faiz artaraq 3388 dollardan 4073 dollara yüksəlib. Sözügedən dövrdə palladiumun qiyməti bir unsiya üçün 25,6 faiz artaraq 2484 dollardan 3120 dollara, nikelin ton qiyməti isə 88 faiz artaraq 24900 dollardan 46800 dollara yüksələrək 2007-ci ilin iyun ayından bu yana ən yüksək səviyyəyə çatıb.

Baş ofisi İngiltərədə yerləşən Milli İqtisadi və Sosial Tədqiqatlar İnstitutunun (NIESR) proqnozuna görə, müharibənin təsiri ilə qlobal ÜDM-in bu il 0,5 faiz, gələn il isə 1 faiz azalacağı proqnozlaşdırılır. Bu temp qlobal ÜDM-in təxminən 1 trilyon dollar azalması deməkdir.

Artımın azalmasının bu il qlobal inflyasiyanı 3 faiz artıracağı və xərclərə təzyiq göstərəcəyi proqnozlaşdırılır.

Müharibənin Rusiyadan sonra vurduğu iqtisadi ziyanın ən böyük təsirinin Avropada hiss olunduğu və Rusiyanın enerji ixracına tətbiq edilən sanksiyaların Avropada tənəzzül yaratma riskini artırdığı proqnozlaşdırılır.

Beynəlxalq Valyuta Fondu (BVF) 6 mart 2022-ci il tarixində dərc etdirdiyi hesabatında qiymət şoklarının bütün dünyaya təsir edəcəyinə və iqtisadi zərərin dağıdıcı olacağına diqqət çəkib.

Tamamlanmamış əmtəələr ümumiyyətlə inkişaf etməkdə olan ölkələrin ən mühüm ixrac maddələridir və onların satışından əldə olunan gəlirlər bu ölkələrə valyuta axınını təmin edir və iqtisadiyyata əhəmiyyətli dərəcədə müsbət təsir göstərir.

Bu xüsusiyyətləri ilə əmtəə qiymətlərindəki dalğalanmalar qlobal dünyanın inkişaf etməkdə olan iqtisadiyyatlarına da ciddi təsir edir. Bu dalğalanmalar nəticəsində yaranma ehtimalı yüksək olan qiymət qeyri-sabitliyi həm də iqtisadi artıma və gəlir bölgüsünə mənfi təsir göstərir. Bu, yoxsulluğun artmasına səbəb olur.

## Nəticə

Mövzunu nəzəri baxımdan təhlil etdikdə, aşağıdakı vəziyyətlə qarşılaşa bilərik. Gücləndirilmiş pul siyasəti və faiz dərəcələrinin yüksəldilməsi vəziyyətində meydana gələn pul daralmasının gözlənilən inflyasiyanın geri çəkilməsinə səbəb olacağı gözlənilir. Əmtəə qiymətlərinin daha da aşağı düşməsi gözlənilir. Yüksək faiz mühitində məhsul ehtiyatı xərcləri, risk dərəcəsi və nəqliyyat xərcləri artır. Lakin digər tərəfdən tələb artımı olmayacağından qiymətlərin ümumi səviyyəsi adlandıracağımız əmtəə qiymətləri və inflyasiya ilə real faiz dərəcəsi bir yerdə tarazlaşdırılır. Nəticədə pul kütləsi, real faiz dərəcəsi və əmtəə qiymətləri müəyyən səviyyədə tarazlığa çatır. Təbii ki, bu, yazdığımız qədər asan olmayan və uzun müddətdə baş verən ssenaridir.

Mövzunu bir az daha açsaq, sonrakı mərhələlərin yüksək faiz mühitində baş tutacağını gözləməyin təbii proses olduğunu anlayarıq. Yüksək faiz dərəcəsi saxlanıla bilən mallara tələbi azaldır. Müəssisələr saxlama xərclərini ödəmək istəmirlər. İstehsalçı tərəfdən məhsulu sabaha ləngitməkdənsə, bu gün tədarük etmək daha məqsədəuyğundur. Kapital bazarlarında investorlar real əmək müqavilələri ilə müqayisədə yüksək faizli istiqrazlara və veksellərə investisiya qoymağa meyllidirlər. Əks ssenariyə baxdığımızda real faiz dərəcəsinin azalması ehtiyat və nəqliyyat xərclərini azaldır və tələbin artmasının təsiri ilə əmtəə qiymətlərinin artmasına səbəb olur.

İstehsal texnologiyasında, əmtəənin istehlakı şəraitində, həmin əmtəələrlə beynəlxalq ticarətin həcm və istiqamətində, firmanın strukturunda və sairədə baş verən dəyişikliklərin öyrənilməsi qiymətlərin dəyişilməsi təmayüllünü daha aydın başa düşməyə imkan verir.

Buradan belə bir nəticə çıxır ki, qiymətlərin təhlilinin əsası, əmtəənin istehsal və reallaşması sferasında baş verən dəyişikliklərin öyrənilməsidir. İstehsal gücünün yüklənməsi dərəcəsinin və elmi-texniki tərəqqinin təsiri altında istehsal texnologiyasının yeniləşməsi proseslərinin tədqiqi çox vacibdir.

## ƏDƏBİYYAT


1. Allahverdiyev B.N., Qafarov S.K., Əhmədov M.A. “Milli İqtisadiyyatın Dövlət Tənzimlənməsi”. Bakı – 2007.
2. Əliyev E.Ə., Ağabəyov Ş.A. «Dünya və xarici ölkələrdə bazar qiymətləri», Bakı – 2018
3. Qarayev İ.Ş., Ağabəyov Ş.A., Bayramov Q.S., Quliyev İ.Q.. Əliyev Ə.R. «Dünya bazar qyimətləri». Dərs vəsaiti. Bakı – 2017
4. Герасименко В.В. Ценообразование: учебное пособие. М.: ИНФРА-М, 2020.
5. Такрарова Г.А. Ценообразование. Москва, Финансы и статистика, 2017.
6. www.boomberg.com

# REGİONUN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA MÜƏSSİSƏLƏRİN MALİYYƏ RESURSLARININ ROLU

**Doktorant Fərid MƏMMƏDHƏSƏNOV[27]**

**Xülasə**

Məqalənin əsas məqsədi müəssisələrin maliyyə resurslarının regionun sosial- iqtisadi sistemində rolunu açıqlamaq və regionun maliyyə resurslarının formalaşması və istifadəsi proseslərini tədqiq etməkdir. Tədqiqat işi elmi abstraksiya və sistemli təhlil, məntiqi ümumiləşdirmə kimi tədqiqat üsulları əsasında yerinə yetirilmişdir. Tədqiqatın nəticəsi: regionların ərazilərində yaranan maliyyə resurslarının böyük payını yerlərdə saxlamaq lazımdır, vəsaiti əvvəl yuxarı büdcələrə götürüb, sonradan onların yalnız kiçik bir hissəsinin müxtəlif transferlər şəklində regionlara qaytarmaq əvəzinə onların sərəncamında saxlamaq daha səmərəli ola bilər. Bu baxımdan, büdcə sistemində vəsaitlərin qeyri-mərkəzləşdirilməsi haqqında qərarın əsaslandırılması üçün maliyyə axınlarının ərazi strukturuna və intensivliyinə dair tam və düzgün informasiya tələb olunur. Tədqiqatın məhdudiyyətləri - daha geniş praktiki informasiya tələbidir. Tədqiqatın prakriki əhəmiyyəti: Resursların qeyri-mərkəzləşdirilməsi regionlara böyük səlahiyyətlərin ötürülməsi ilə də müşayiət oluna bilər. Belə halda, mərkəzin sırf regional və yerli problemlərin qayğısına qalmasına ehtiyac qalmayacaq və o, diqqətini, bütövlükdə ölkənin maraqlarında cəmləşdirə biləcək.

***Açar sözlər:*** *müəssisə, region, sosial-iqtisadi inkişaf, maliyyə resursları*

**The Role Of Financial Resources Of Enterprises In The Socio-Economic Development Of The Region**

**Abstract**

One of the key areas, giving impetrs to economic growth in the conditions of modernization is reformation of process in order to create favorable conditions for sustainable development of the national economy of the country and its regions, which in turn will enhance their competitive position. This process provides a solution to the complex institutional and economic problems of development of the various sectors of the regional economy, it infrastıuctuıc and Communications sııpport, the definitıon ot instructional lechniqucs and algorithmizatioıı pıocedures for inter-layer redistribution of budgetary finds, as well as the search for effective forms and process methods of regulation of inter-budgetary relations with the extension of the field and increase efficiency interactions with key actors the use of public funds, including the development, testing and improvement of relevant mechanisms.

***Keywords:*** *enterprise, region, socio-economic development and financial resources*

***UOT: 336; 338***

## Giriş

Maliyyə resursları və xərclərinin regional balansı ümumi əlavə dəyərin və deməli, həm də sosial- iqtisadi inkişafın əsas indikatorunun ümumi regional məhsulunun formalaşması prosesini əks etdirir. Ona görə də maliyyə resurslarından istifadənin yetərliliyi və effektivliyi iqtisadiyyatın stabil işləməsinin əsas amillərindən biri kimi qiymətləndirilir. Regionun maliyyə resurslarının formalaşması və istifadəsi proseslərinin öyrənilmə vasitəsi maliyyə resursları və xərclərinin regional balansı maliyyə resurslarının formalaşması, paylanması və istifadəsinin vəziyyətini, nisbətlərini və qanunauyğunluqlarını xarakterizə etməyə, sektorlar və təsərrüfat subyektləri arasındakı qarşılıqlı münasibətin xarakterini qiymətləndirməyə imkan verir. Bu da regionun yerli hökuməti tərəfindən idarəetmə qərarlarının qəbul edilməsi üçün zəruridir.

Maliyyə resurslarının yaranması, yenidən paylanması və istifadəsi prosesində iqtisadi əlaqələrin subyektləri arasında müvafiq münasibətlər formalaşır. Bu münasibətlər dövlət hakimiyyəti orqanları və ərazidə fəaliyyət göstərən təsərrüfat subyektləri olan müəssisələr arasında yaranır. Maliyyə resurslarının fəal istifadəsi vasitəsilə regionun iqtisadi inkişafının stimullaşdırılması baş verir. Regionun bütün maliyyə resurslarını şərti olaraq onların yaranma mənbələrinə görə təsnifləşdirmək olar.

- maliyyə infrastrukturu;
- təsərrüfat subyektinin maliyyə resursları;
- regional büdcə;
- büdcə fondları və büdcədənkənar fondlar.

Regionun maliyyə resurslarının xüsusi bir hissəsi daim fəaliyyətdə ola bilən və ya müəyyən zaman müddəti üçün yaradılan büdcə və büdcədənkənar fondlardır. Onların fəaliyyətinin qurulması və təşkili

[27] **Azərbaycan Dövlət İqtisad Universiteti, doktorant, fmammadhasanov@gamail.com**

qanunvericiliklə tənzimlənir. Subyektlərindən ümumi qanunverici aktlar kimi, konkret fondların yaradılması haqqında xüsusi qanunlar da qəbul olunur.

Büdcə fondları regional büdcənin tərkibində xüsusi büdcə vəsaitləri kimi yaradılır:

- regional sosial-iqtisadi, ekoloji, elmi-texniki və digər təyinatlı proqram və tədbirləri üçün;
- regional iqtisadiyyatın ən prioritetli sahələrinin məqsədli maliyyələşdirilməsi üçün;
- fövqəladə vəziyyətlərin arzuolunmaz nəticələrinin aradan qaldırması üçün.

**2.Maliyyə infrastrukturunun yaradılması**

Maliyyə infrastrukturunun qurulması infrastruktur subyektləri tərəfindən göstərilən xidmətlərin məzmunu ilə investisiyanın gcdişatında salıibkaılaım ehtiyacları arasındakı balansın əldə olunması vasitəsi ilə reallaşdırılır. Bu qanunun təsiri investisiya qoyuluşu prosesinə xidmətin vəziyyətinin kəmiyyət və keyfiyyət göstəriciləri vasitəsilə bu prosesdəki ziddiyyətlərin yaranması və aradan qaldırılması vasitəsilə özünü göstərir.

Maliyyə infrastrukturunun yaradılmasına öz iqtisadi funksiyalarını reallaşdırmaq qabiliyyətinin qazanılması və onun fəaliyyətinin təşkilati-iqtisadi mexanizminin yaradılması daxildir. Bu prosesin tərkib hissələri sosial-iqtisadi prosesə xidmət üzrə əlaqə və münasibətlərdən əhəmiyyətini itirənlərin aradan çıxması, daha dayanıqlı yenilərinin yaranması daxildir. Bu proses iki üsulla reallaşdırılır - ümumtəsərrüfat və regional: infrastrukturun təşkilati-iqtisadi mexanizmi formalarının seçilməsi və hazırlanması və investisiya qoyuluşu modelinin seçilməsi.

Büdcələrarası maliyyələşdirmənin miras qalmış bir çox qüsurları da vardır. Onların aradan qaldırılması üçün büdcələrarası münasibətlər regional siyasətin özəyidir. Hakimiyyətin müxtəlif səviyyəli büdcələrinin məhz gəlir və xərc hissələrinin bölgüləri regional, regiondaxili və mikroregional siyasətlərin formalaşmış təzahürüdür.

Dövlət idarəçiliyinin qcyri-mərkəzləşdirməsi dövlət funksiyalarının maliyyə təminatının əsasını təşkil edən yerli büdcələrin vəziyyəti ilə ayrılmaz bağlıdır. Bu çoxaspektli məsələ sahibkarlığın inkişafı, bütün səviyyələrin büdcələrinin vergi gəlirlərin yüksəldilməsi, büdcə vəsaitlərinin effektiv xərclənməsinə nəzarət üçün şəraitin yaradılmasını nəzərdə tutur.

Büdcə maliyyələşdirilməsi praktikası bır sıra maliyyə pozuntuları ilə müşayiət olunur. Bir çox hallarda bu pozuntular subsidiyalaşma prosesini tənzimləyən normativ-hüquqi aktların natamamlığı səbəbindən baş verir. Bu, ilk növbədə büdcə qanunvericiliyində jubhdiyalaşdıma proseslərinin müəyyən olunmuş tənzimlənən proac durlarının olmaması, həmçinin maliyyə dəstəyinin bu istiqamətinin reallaşdırılmasına vahid yanaşmanın bəzi hallarda subsidiyalaşdırma mexanizmlərinin hazırlanması məsələlərinin sahə üzrə nazirliklərin özləri tərəfindən təqdim olunması ilə bağlıdır.

Respublikada büdcələr arası münasibətlərin qanunvericiliklə tənzimlənməsi prosesində onların təşkili və tənzimlənməsi formaları daha da təkmilləşdirilir. Eyni zamanda büdcələr arası münasibətlərin tənzimlənməsi mexanizminin beynəlxalq təcrübəyə uyğun olaraq daha da təkmilləşdirilməsinə ehtiyacı var. Büdcələr arası münasibətlərin tənzimlənməsinin qiymətləndirilməsi aşağıdakıları göstərir:

• Yerli büdcələrə ötürülən transfertlərin həcmlərinin mövcud hesablanma metodikası obyektivdir;

• Respublikanın iqtisadi cəhətdən zəif regionlarına yardım zərurətindən həyata keçirildiyi üçün büdcə subvensiyaları vasitəsilə büdcələr arası tarazlaşdırma praktikası ümumilikdə özünü doğrultdu.

Büdcələrarası münasibətlərin forma və metodlarının inkişafı şəxsi təşəbbüsün inkişafı üçün şəraitin yaradıldığı istiqamətdən vergi sahəsində alternativ gəlir mənbələrinin inkişafı sahəsində yerli icra orqanlarının səlahiyyətlərinin genişləndirildiyi yerlərdə aparılmalıdır.

Büdcə sisteminin səviyyələri arasındakı gəlir və xərclərin qeyri-rasional sistemi subvensiya və büdcədən götürmələrin mövcud praktikası büdcə vəsaitlərinin qarşılıqlı axınlarının böyüməsinə imkan yaradır.

Yerli maliyyələrin strukturu və istiqaməti yerli hakimiyyət, və idarəetmə or-qanlarında aparılan islahatlar yerli admisitrasiya və yerli özünüidarəetmə orqanlarının funksiyaları ilə müəyyən olunur.

Təcrübədə regionların iqtisadi müstəqilliyi tam ola bilməz. O, həmişə nisbidir. Region nə qədər kiçikdirsə, bu müstəqilliyin, yəni mərkəzdən asılı olmayan qərarlar almaqda sərbəstliyin ölçüsü də bir o qədər azdır. Eyni zamanda regionların sosial- iqtisadi inkişafının müasir səviyyəsi, büdcə münasibətlərinin mövcud xarakteri, bazar iqtisadiyyatına keçid dövrünün çətinlikləri respublikanın əksər yerli büdcələrinin real müstəqilliyi haqqında danışmada imkan vermir

Buna görə, infrastrukturun əhaliyə sosial rifahın zəmanətli minimumunu təmin edən ölçülərdə maliyyələşdirilməsi üçün vəsaitlərin kafiliyi prinsipi həyata keçirməlidir [2]. Hər bir inzibati-ərazi vahidinin müstəqilliyi müəyyən optimal səviyyəyə malik olmalıdır, hansının ki, meyarı bu regionun iqtisadi maraqlarının maksimal mümkün dərəcədə reallaşdırmasından ibarətdir.

**3.Reğional büdcələrin xüsusi maliyyə gəlirlərinin formalaşması mexanizmi**

Regional idarəçiliyin gələcək effektivliyini artırmaq zərurətindən irəli çixaraq, hakimiyyətin bütün səviyyələri arasında funksiyaların daha dəqiq ayrılması və isla-hatların keçirilməsi mərkəzinin yerli dövlət idarəçiliyinin aşağı səviyyələrinə qismən bir hissəsinin köçürülməsi prioritet məsələlərindir.

Əvvəlki büdcələrarası maliyyələşmə sistemindən miras qalmış bir çox nöqsanlar üzə çıxdı. Onların aradan qaldırılması üçün büdcələrarası münasibətlərin təkmil-ləşdirilməsi üzrə addımlar atildi. Büdcələr və büdcələrarası münasibətlər-regional siyasətin əsasıdır.Məhz hakimiyyətin müxtəlif səviyyələrinin büdcələrinin mədaxil və məxaric hissələrinin bölgüsü reğional rayondaxili və mikroregional siyasətlərin formalaşdırılan təzahürünü təşkil edir.

Ölkəmizdə hal hazırda yerli hakimiyyət orqanlarının fəaliyyət sahəsi genişlənir və onlar sosial,iqtisadi, ekoloji xarakterli ptoblemlərin həllində əhəmiyyətli dərəcədə müstəqillik əldə edirlər. Yerli idarəetmə orqanlarına dövlətin proqramlarının həyata keçirilməsi üzrə vəzifələr həvalə edilmişdir.

Reğional büdcələrin xüsusi maliyyə gəlirlərinin formalaşması mexanizmi dövlətin müəyyən etdiyi büdcə-vergi münasibətlərinin təşkili formaları, növləri və metodlarının sistemini təşkil edir, hansı ki,aşağıda iki qarşılıqlı əlaqəli aspektlə səciyyələnir :

• gəlirli mənbələrin büdcə sisteminin səviyyələri üzrə bölgüsü ;

• milli hökümətin öz gəlirlərini müəyyən edə biləcəyi səlahiyyət çərçivəsinin təyini.

Qeyd etdiyimiz kimi, yerli büdcələrin gəlirlərinin formalaşmasında vergilərin payının azaldılması amil ilə də bağlıdır.

Regional hakimiyyət orqanları regionların kompleks inkişafını, ərazilərdə istehsal və qeyri-istehsal sahələrinin mütənasib formalaşmasım təmin etməyə çağınlmiş- dır. İnkişafın regional konsepsiyaları və məqsədli proqramların hazırlanmasının, ərazilərin maliyyə bazasının genişləndirilməsi və möhkəmləndirilməsinin ərazinin maliyyə resurslarının formalaşdırılması və onlardan istifadə metodlarının təkmilləşdirilməsinin əhəmiyyətinin artması da bundan irəli gəlir [2]. Əgər dövlətin maliyyə resursları istehsalın inkişafının yüksək səviyyəsinin, ölkədə əhalinin layiqli yaşam səviyyəsinin və s. təmin edirsə, o zaman onlan səmərəli istifadə edilmiş kimi qiymətləndirmək olar.

Dövlətçiliyin güclənməsi, vətəndaşlann rifahının yüksəlməsi bizim fıkrimizcə, regionlara qarşı münasibətdə aktiv siyasətin həyata keçirilməsini nəzərdə tutur. Eyni zamanda idarəetmənin və məxaric səlahiyyətlərinin ötürülməsi qəbul edilən qərarların və maliyyə nəzarətinin təsirli tədbirlərinin nəticələrinə görə hər bir yerli hakimiyyət səviyyəsinin məsuliyyəti ilə müşayiət olunmalıdır, bu da qanunvericiliklə təsdiq olunmuş qaydada apanhnahdır.Ölkəmizdə vu sahədə görülən işlər təqdirəlayiqdir.

Dövlətin regional siyasətinin yen modelinin seçilməsi ilə əlaqədar yaranan əsas problem regional inkişafın təmin olunmasında mərkəzləşdirmə və qeyri- mərkəzləşdirmənin nisbəti məsələsidir.

Qurulan “hakimiyyət vertikah” müxtəlif səviyyəli hakimiyyət orqanları arasında mövcud olan daha əvvəldən adət edilmiş subordinasiya münasibətlərinin əlamətlərinə baxılmasını şərtləndirir.

Mərkəzləşdirilmənin faktiki gücləndirilməsinə səlahiyyətlərin və idarəetmə predmetlərinin dövlət və yerli orqanlar arasında bölünməsi səbəb olmuşdur [4]. Mərkəzin mövqelərinin gücləndirilməsi təbii resurslar üzərində mülkiyyət hüquqları sisteminə də toxunur. Dövlət büdcəsi həm də təbii resursların ilk növbədə neft və qazın hasilatından əldə olunan gəlirdən öz payını, həm də böyük (regional paydan xeyli üstün olan) payım götürür. Sonradan bu vəsaitlər regionlara transfer edilir.

Nəticə. Nəhayət, belə bir qənaətə gəlmək olar ki, regionların ərazilərində yaranan maliyyə resurslarının böyük payını yerlərdə saxlamaq lazımdır, vəsaiti əvvəl yuxarı büdcələrə götürüb, sonradan onların yalnız kiçik bir hissəsinin müxtəlif transferlər şəklində regionlara qaytarmaq əvəzinə onların sərəncamında saxlamaq daha səmərəli ola bilər [3]/ Resursların qeyri-mərkəzləşdirilməsi regionlara böyük səlahiyyətlərin ötürülməsi ilə də müşayiət oluna bilər. Belə halda, mərkəzin sırf regional və yerli problemlərin qayğısına qalmasına ehtiyac qalmayacaq və o, diqqətim, bütövlükdə ölkənin maraqlarında cəmləşdirə biləcək.

Bu baxımdan, büdcə sistemində vəsaitlərin qeyri-mərkəzləşdirilməsi haqqında qərarın əsaslandırılması üçün maliyyə axınlarının ərazi strukturuna və intensivliyinə dair tam və düzgün informasiya tələb olunur. Başqa sözlə desək, respublika və regional büdcələrin gəlir və xərcləmin ölkənin inzibati-ərazi sistemi səviyyələrinin iyerarxiyasında pul vəsaitlərinin artan və azalan axınlarının həcmlərinin qiymətləndirilməsinə imkan verən ərazi kəsiyi lazımdır. Belə məlumatlar hər bir konkret ərazidən, bələdiyyə qurumundan və ya subyektindən regional və yerli büdcəyə nə qədər vergi gəlirlərinin daxil olduğunu və əksinə, bu büdcələrdən həmin ərazilərdə nə qədər vəsaitin xərcləndiyini başa düşməyə imkan verəcək. Belə məlumatlar əsasında hər bir ərazinin maliyyə müstəqilliyi və onun öz inkişafını müstəqil şəkildə təmin etmək bacarığı haqqında fikir yürütmək mümkün ola bilər.

## ƏDƏBİYYAT


1. Лапушинская Г.К. Метод анализа территориальных бюджетов / Финансы. 2001, №9.
2. Лебединская Е. Повышение эффективности – основная задача бюджетной политики // Экономист. 2011. №2
3. Максимов А.В. Бюджетно-финансовое равновесие муниципального образования. М.: Книжная редакция «Финансы». 2003
4. Муниципальная экономика: тенденция и перспективы развития. Екатеринбург. 2000.

# AZƏRBAYCANDA AQRAR SAHƏYƏ DÖVLƏT DƏSTƏYİNİN EFFEKTİVLİYİNİN EKONOMETRİK QİYMƏTLƏNDİRİLMƏSİ

**Doktorant Pərviz ƏLİYEV**[28]

**Xülasə**

Məqalədə aqrar sahənin dövlət tənzimləməsinin əsas istiqamətlərindən biri olan aqrar sahəyə dövlət dəstəyi siyasətinin effektivliyi ekonometrik üsulla qiymətləndirilmişdir. Təhlil, aqrar sahəyə subsidiya verilməyə başlandığı 2007-ci ildən, 2021-ci ilə qədərki dövrü əhatə edir. Təhlildə Azərbaycanda aqrar sahəyə verilən subsidiyanın həcmi ilə bu sahədə yaradılan əlavə dəyər arasındakı reqressiya əlaqəsi qiymətləndirilmiş və bu əlaqənin statistik əhəmiyyətliliyini müəyyən etmək məqsədilə bir neçə testdən istifadə edilmişdir. Testlərin nəticələrinə əsasən, sərbəst dəyişənin əmsalı statistik əhəmiyyətlidir, habelə reqressiya tənliyinin qalıqları nisbətən normal paylanmışdır.

Təhlil nəticəsində əldə edilmiş nəticələrə görə, digər amillərin dəyişməz qalması şərtilə ölkədə aqrar sektora göstərilən dövlət dəstəyinin həcminin 1% artması bu sektorda yaradılan əlavə dəyərin 0.48% artmasına gətirib çıxaracaqdır. Beləliklə, təhlilin nəticəsinə əsasən deyə bilərik ki, Azərbaycanda kənd təsərrüfatı sahəsinə göstərilən dövlət dəstəyi kifayət qədər effektivdir.

***Açar sözlər:*** *aqrar sahənin dövlət tənzimləməsi, dövlət dəsəyinin effektivliyi, ekonometrik qiymətləndirmə, reqressiya, aqrar subsidiya*

## Econometric Assessment Of The Effectiveness Of State Support For The Agricultural Sector Of Azerbaijan

**Abstract**

The article econometrically assesses the effectiveness of the state support policy for the agricultural sector, which is one of the main directions of state regulation of this sector. The analysis covers the period from 2007, when subsidies to the agricultural sector began, to 2021. In this paper, the regression relationship between the amount of subsidy given to the agricultural sector in Azerbaijan and the added value created in this sector was evaluated and several tests were used to determine the statistical significance of this relationship. According to the results of the tests, the coefficient of the independent variable is statistically significant, as well as the residuals of the regression equation are relatively normally distributed.

According to the results obtained as a result of the analysis, provided that other factors remain unchanged, a 1% increase in the amount of state support given to the agricultural sector in the country will lead to an increase in value added created in this sector by 0.48%. Thus, based on the results of the analysis, it can be said that the state support provided to the agricultural sector in Azerbaijan is quite effective.

***Keywords***: *state regulation of the agricultural sector, efficiency of state support, econometric evaluation, regression, agricultural subsidy.*

*UOT: 338.23, 338.43*

## Giriş

Azərbaycan neft-qaz sənayesinin xüsusi çəkisinin böyük olduğu bir ölkə olmaqla yanaşı, həm də aqrar ölkədir. Əhalinin bu sahədə zəngin təcrübəsi var və ölkənin təbii-iqlim xüsusiyyətləri burada ən müxtəlif kənd təsərrüfatı məhsullarının istehsalı üçün şərait yaradır. Dövlət Statistika Komitəsinə əsasən hazırda ölkənin məşğul əhalisinin 36%-dən çoxu kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində çalışır. Bu isə kifayət qədər böyük rəqəmdir. Digər tərəfdən isə, kənd təsərrüfatı sahəsi ərzaq təhlükəsizliyinin təmin edilməsində oynadığı mühüm rola görə daima dövlətin diqqət mərkəzindədir və ölkə başxısı tərəfədinən qəbul edilən bir çox strateji sənədlərdə aqrar sahə iqtisadiyyatın prioritet sahələrindən biri kimi nəzərdən keçirilir. Eyni zamanda aqrar sahə hökumət tərəfindən hərtərəfli dəstəklənir. Aşağıdakı qrafikdə ölkədə kənd təsərrüfatı sahəsinə göstərilən dövlət dəstəyinin illər üzrə trendi təqdim edilmişdir.

Qrafikdən göründüyü kimi, nəzərdən keçirilən illər ərzində aqrar sektora göstərilən dövlət dəstəyi əsasən artma trendinə malik olmuş, orta illik artım tempi isə 14.7% təşkil etmişdir. Eyni zamanda kənd təsərrüfatı üzrə büdcə xərcləri artdıqca, kənd təsərrüfatı subsidiyalarının bu xərclərdəki payı daha çox

[28] **Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi tabeliyində Aqrar Tədqiqatlar Mərkəzi, dissertant**

artmışdır. Belə ki, 2010-2021-ci ildə kənd təsərrüfatı üzrə büdcə xərcləri ümumilikdə 2.6 dəfə artmışdırsa, kənd təsərrüfatı subsidiyaları 3.2 dəfə artmışdır.




**Şəkil 1. 2007-2021-ci illər ərzində Azərbaycanda kənd təsərrüfatına ayrılan subsidiyanın həcmi, milyon manatla (Kənd Təsərrüfatı Nazirliyi, Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi (EKTİS))**

2021-ci il üçün ölkədə aqrar subsidiyanın əsas hissəsi (214.1 milyon manat) əkin subsidiyasın, 21%-i (76.2 milyon manat) texnika satışına görə verilən güzəştlərin, 9%-i heyvandarlıq sahəsi üzrə subsidiyaların, 8%-i məhsul subsidiyasının və 2%-i isə toxum subsidiyasının payına düşür. Qeyd edək ki, əkin subsidiyası kənd təsərrüfatı bitkisinin əkin sahəsinə görə ödənilən subsidiyadır.

Kənd təsərrüfatı sahəsinə göstərilən dövlət dəstəyi özünü bir çox aspektlərdə göstərə bilər. Buraya dövlət dəstəyi tədbirləri nəticəsində ayrı-ayrı kənd təsərrüfatı bitkilərinin istehsalında və məhsuldarlığında, bu məhsulun idxal və ixracında, habelə aqrar sahədə yaradılan əlavə dəyərin həcmində, məşğulluq səviyyəsində, dayanıqlı fəaliyyət göstəricilərində və s. kimi göstəricilərdə baş verən dəyişikliklər aid edilə bilər. Gördüyümüz kimi, dövlət dəstəyinin effektivliyinin qiymətləndirilməsi üçün müxtəlif aspektlər mövcuddur. Bunlarla barəbər, konkret dövlət dəstəyi tədbirinin öz hədəf göstəricisinə nail olma dərəcəsi də bu tədbirin effektivliyini müəyyən edir.

Effektivliyin qiymətləndirilməsi baxımından digər bir məqam isə bu qiymətləndirmənin aparılması üçün statistik məlumatların mövcudluğudur. Statistik məlumatların mövcudluğu ilə yanaşı, onların nisbətən uzun dövrü əhatə etməsi də mühümdür. Bu məqalədə aqrar sahəyə dövlət dəstəyinin effektivliyi son 15 ilin statistik göstəriciləri əsasında aparılmışdır. Tədqiqatçılar tərəfindən qəbul olunmuş qaydaya əsasən, reqressiya təhlilinin aparılması üçün minimum 30 ilin məlumatlarından istifadə etmək daha arzuolunandır. Buna baxmayaraq, ölkədə aqrar sahəyə dövlət dəstəyinin göstərilməsindən bu günə qədər 30 il keçmədiyini nəzərə alsaq, bu dəstəyin effektivliyi ilə bağlı ilkin təsəvvürün formalaşması baxımından son 15 ilin məlumatlarından istifadə etmək məqsədəuyğun hesab etmək olar. Digər tərəfdən isə, Damodar Gucarati özünün "Ekonometrikanın Əsasları" kibatında qeyd edir ki, reqressiya təhlilində müşahidələrin sayı dəyişənlərin sayından çox olmalıdır (Gujarati Damodar N. 2004: 67). Bizim halda, bu şərt özünü ödəyir.

Beləliklə, Azərbaycan aqrar sahəyə göstərilən dövlət dəstəyinin effektivliyinin qiymətləndirilməsi məqsədilə 2007-2021-ci illər üzrə subsidiya və kənd təsərrüfatı sahəsində yaradılan əlavə dəyər göstəricilərindən istifadə edilmişdir. Aşağıdakı cədvəldə bu iki göstəricinin həcmi ilə bağlı məlumat təqdim edilmişdir. Dəyişənlər arasındakı əlaqəni daha rahat görmək və dəyişənlərin hamarlanması məqsədilə hər iki dəyişənin natural əsasdan loqarifmi götürülmüşdür.

Təhlildə sıfır səviyyəli fərziyyə (*null hypothesis*) kimi, aqrar sahəyə verilən subsidiya ilə kənd təsərrüfatında yaradılan əlavə dəyər arasında heç bir xətti əlaqənin olmaması qəbul olunmuşdur. Alternativ fərziyyə isə dəyişənlər arasında düz mütənasib əlaqənin olmasını ifadə edir.

Reqressiya tənliyi nəzəri olaraq aşağıdakı kimi göstərilə bilər:

$$\text{log_agro_value_added} = \beta_0 + \beta_1 \text{log_subsidy} + U$$

Burada, log_agro_value_added – kənd təsərrüfatında yaradılan əlavə dəyər (asılı dəyişən), log_subsidy – aqrar sahəyə dövlət dəstəyi, $\beta_0$ və $\beta_1$ – parametrlər, $U$ – xəta payıdır.

| İl | log_subsidy | log_agro_value_added |
|---|---|---|
| 2007 | 3.826554 | 7.550135 |
| 2008 | 4.443819 | 7.716906 |
| 2009 | 4.636630 | 7.686851 |
| 2010 | 4.711487 | 7.759870 |
| 2011 | 4.580784 | 7.879859 |
| 2012 | 4.789453 | 7.942256 |
| 2013 | 4.771101 | 8.046293 |
| 2014 | 4.726580 | 8.051723 |
| 2015 | 5.051746 | 8.119518 |
| 2016 | 5.214119 | 8.127641 |
| 2017 | 5.265489 | 8.279976 |
| 2018 | 5.825397 | 8.336822 |
| 2019 | 5.938655 | 8.447672 |
| 2020 | 5.920588 | 8.495152 |
| 2021 | 5.880159 | 8.604618 |

***Cədvəl 1***: Reqressiya təhlilində istifadə edilmiş məlumat bazası

(Dövlət Statistika Komitəsi və EKTİS məlumat bazaları)

Reqressiya təhlili Python proqramlaşdırma dilində aparılmış və təhlilin nəticəsi aşağıdakı şəkildə təqdim edilmişdir. Şəkildən göründüyü kimi, $\bar{R}^2$ (modelin dəqiqliyi) göstəricisi kifayət qədər yüksəkdir (0.892). Bu isə sərbəst dəyişənin asılı dəyişəndə baş verən variasiyaların təxminən 90%-ni izah edə bilməsini ifadə edir. Subsidiya dəyişəninin əmsalı müsbətdir. Deməli, alternativ fərziyyədə də göstərildiyi kimi, dəyişənlər arasında düz mütənasib əlaqə var.

Subsidiya dəyişənin əmsalının t-test nəticəsi kifayət qədər yüksəkdir, bu isə əmsalın statistik əhəmiyyətinin (*statistical significance*) yüksək olmasını ifadə edir.

İcmal nəticədə digər testlər də aparılmışdır. Onları nəzərdən keçirək. Omnibus testi tənliyin qalıqlarının normal paylandığını test edir, rəqəmin sıfra bərabər olması mükəmməl normal paylanmanı ifadə edir (Luca Massaron və Alberto Boschetti, 2016: 104). Bizim baxdığımız halda, rəqəm sıfra kifayət qədər yaxındır.

Skew testi məumatların simmetrikliyini test edir. Göstərici sıfra yaxındır, bu isə qalıqların nisbətən normal paylandığını göstərir.

Kurtosis testi zirvəlik (*peakiness*) testidir. Göstərici nisbətən böyükdür, bu isə o deməkdir ki, model az sayda kənar göstəriciləri (*outliers*) olan yaxşı modeldir.

```
                            OLS Regression Results
==============================================================================
Dep. Variable:               y_ag_gdp   R-squared:                       0.900
Model:                            OLS   Adj. R-squared:                  0.892
Method:                 Least Squares   F-statistic:                     116.8
Date:                Thu, 29 Sep 2022   Prob (F-statistic):           7.24e-08
Time:                        17:49:57   Log-Likelihood:                 13.649
No. Observations:                  15   AIC:                            -23.30
Df Residuals:                      13   BIC:                            -21.88
Df Model:                           1
Covariance Type:            nonrobust
==============================================================================
                 coef    std err          t      P>|t|      [0.025      0.975]
------------------------------------------------------------------------------
const          5.6461      0.226     25.002      0.000       5.158       6.134
x_subsidy      0.4810      0.044     10.810      0.000       0.385       0.577
==============================================================================
Omnibus:                        0.936   Durbin-Watson:                   1.257
Prob(Omnibus):                  0.626   Jarque-Bera (JB):                0.830
Skew:                          -0.367   Prob(JB):                        0.660
Kurtosis:                       2.111   Cond. No.                         44.0
==============================================================================
```

**Şəkil 1**. Python proqramlaşdırma dilində aparılmış reqressiya təhlilinin icmal nəticəsi

Durbin-Watson testi heteroskedastiklyi yoxlayır. Bu göstəricinin 1 və 2 arasında olması qəbul ediləndir, bizim halda göstərici normaldır.

Jarque-Bera testi Omnibus testi kimi simmetrikliyi və zirvəliyi yoxlayır, sıfırdan çox da böyük olmalı deyil. Bizim halda qəbul ediləndir.

Yekun olaraq, Condition Number kifayət qədər yüksəkdir, bu isə dəyişənlər arasında yüksək kollinearlığın olmasını ifadə edir.

**Nəticə**

Beləliklə, aparılan reqressiya təhlili nəticəsində müəyyən etdik ki, Azərbaycan aqrar sahəyə dövlət dəstəyinin 1% artırılması, aqrar sektorda yaradılan əlavə dəyərin 0.48% artmasına gətirib çıxaracaqdır. Əldə etdiyimiz nəticə ölkənin aqrar siyasətinin effektivliyi ilə bağlı müəyyən təsəvvür formalaşdırır. Belə ki, modelə əsasən 2021-ci il üçün 357.9 milyon həcmində aqrar subsidiya 2022-ci ildə 361.4 miyon manata qədər artırılsa (1%), bunun müqabilində kənd təsərrüfatı sahəsində yaradılan əlavə dəyər 26.2 milyon manat (0.48%) artaraq 5483.0 milyon manata çatacaqdır. Bu, aqrar sahədə dövlət tənzimləməsinin, o cümlədən aqrar siyasətin təkmilləşdirilməsi baxımından çox əhəmiyyətli nəticədir.

Ancaq nəzərə almaq lazımdır ki, əldə edilmiş nəticələr göstəricilər arasındakı əlaqənin digər təsiredici amillərin dəyişməz qalacağı təqdirdə (*ceteris paribus*) mövcud olduğunu göstərir. Başqa sözlə desək, aqrar sahənin inkişafı ilə bağlı gələcəkdə dövlət tərəfindən müəyyən tədbirlər görüldükdə və ya başqa dəyişikliklər baş verdikdə, məsələn, yeni emal müəssisələrinin yaranması, müasir suvarma üsullarından istifadənin genişlənməsi, çoxsaylı fermer kooperativlərinin formalaşması, yaxud iqlim dəyişikliklərinin kənd təsərrüfatına təsirinin kəskinləşməsi və ya yeni pandemiyanın yayılması kimi hadisələr nəzərdən keçirdiyimiz əlaqənin gücünün, habelə istiqamətinin belə dəyişməsinə gətirib çıxara bilər. Odur ki, uğurlu kənd təsərrüfatı siyasətinin təmin edilməsi üçün bu siyasətin effektivliyinin davamlıq olaraq qiymətləndirilməsi tələb olunur.

**ƏDƏBİYYAT**


1. Gujarati Damodar N. 2004. Basic Econometrics. 4Th ed. Tata McGraw-Hill ed. New Delhi: Tata McGraw-Hill.
2. Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq statistikası, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2021, https://stat.gov.az/source/agriculture/
3. Kənd Təsərrüfatı Nazirliyi, Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi (EKTİS)
4. Luca Massaron, Alberto Boschetti, 2016. Regression Analysis with Python, Packt Publishing

# ÖLKƏ İQTİSADİYYATININ İNKİŞAFINDA UNİVERSİTET-SƏNAYE-DÖVLƏT ƏMƏKDAŞLIĞI

**Doktorant Səfər HÜSEYNOV**[29]

**Xülasə**

Müasir dövrdə rəqabət qabiliyyətinin ən mühüm elementi, şübhəsiz ki, yeni texnologiyalar istehsal edə bilməkdir. Bu gün texnologiyanı inkişaf etdirməyin yolu universitetlərdə və şirkətlərdə aparılan araşdırmalarla bilik istehsal etmək, sonra isə istehsal olunan bilikləri praktikada tətbiq etmək olarsa texnologiyaya çevirməkdir. Bu əməkdaşlıq yalnız ictimai miqyasda bəzi interfeyslərin işlənib hazırlanması və lazımi təşviqedici hüquqi tənzimləmələrin yaradılması ilə səmərəli şəkildə təmin edilə bilər. Ona görə də dövlətin universitet-sənaye əməkdaşlığında asanlaşdırıcı və həvəsləndirici rol oynaması mühüm şərtdir.

***Açar sözlər:*** *iqtisadi inkişaf, sənaye, texnopark, əməkdaşlıq, innovasiya*

**Unıversıty-Industry-State Cooperatıon In The Development Of The Country's Economy**

**Abstract**

Undoubtedly, the most important element of competitiveness in modern times is the ability to produce new technologies. Today, the way to develop technology is to produce knowledge through research in universities and companies, and then to turn the knowledge produced into technology if it can be applied in practice. This cooperation can only be effectively ensured through the development of some interfaces at the public level and the creation of the necessary incentive legal arrangements. Therefore, it is important for the state to play a facilitating and encouraging role in university-industry cooperation.

***Keywords:*** *economic development, industry, technopark, collaboration, innovation*

*UOT: 338, 338.1, 338.22, 338.24, 338.36*
*JEL: M13, M20, O10, O14, O29, O33, O38, O43*

## Giriş

Son illərdə sənayeçilərin ən böyük problemlərindən biri də Uzaq Şərqin, xüsusilə Çin mallarının dünya bazarında yaratdığı haqsız rəqabətdir. İstehsalçılar haqsız rəqabət dedikdə Çin mallarının dünya bazarında keyfiyyəti aşağı olsa da ucuz qiymətə satışa çıxarılır. İstehsalçılar tərəfindən bu şəkildə ümumiləşdirilən problem əslində sənaye ölkələrinin rəqabət qabiliyyətinin müəyyənedicisi kimi qəbul edilməlidir. Açıqca qeyd etmək olar ki; Türkiyə, Rusiya, Azərbaycan və ya oxşar şərtləri olan heç bir ölkə idxal texnologiyası ilə əvvəllər istehsal edilmiş məhsul/xidmət istehsal etməklə dünya rəqabətqabiliyyətlilik indeksində yüksək yer tuta bilməyəcək. Belə olan halda heç bir ölkə nə inkişaf etməkdə olan ölkə kateqoriyasından inkişaf etmiş ölkə kateqoriyasına keçə, nə də adambaşına düşən ümumi milli məhsulunu müəyyən həddən yuxarı qaldıra bilməyəcəkdir.

Porter "cəmiyyətin rifahının yüksəldilməsi" çərçivəsində "rəqabət qabiliyyəti" anlayışını təhlil etmiş və konsepsiyanı məhsuldarlığı artırmaq qabiliyyəti kimi müəyyən etmişdir (PORTER, March – April 1990). Porter dünyada rəqabət yarışının tamamilə yenilikçi şirkətlər arasında olduğunu, bu şirkətlərdə texnoloji yenilik yaratmaq bacarığının səmərəliliyi artırdığını və beynəlxalq bazarda rəqabət üstünlüyü təmin etdiyini ifadə edir.

Buna görə də, yeni məhsullar və yeni texnologiyaların yaradılması və iqtisadi artıma töhfə vermənin ilk addımı elm adamları (tədqiqatçılar) və texnologiya adamları (mühəndislər) əməkdaşlığını təmin etmək, ikinci addım isə nəticəni iqtisadi dəyərə çevirəcək sahibkarlıq strukturunu həyata keçirməkdir.

Aydındır ki, milli miqyasda innovasiya və sahibkarlığın qurulması və təşviqi üçün üçlü sütun lazımdır. Biliyin istehsal olunduğu və cəmiyyətə yayıldığı qurumlar əsasən universitetlərdir. Cəmiyyətdə əlavə dəyər və zənginlik də şirkətlər vasitəsilə istehsal olunur. Universitet və iş dünyası arasında dialoq mühitini təmin edəcək və təşviq edəcək üst quruluş şübhəsiz ki, dövlətdir.

Bu üç elementin iqtisadi inkişafı təmin etmək üçün qurduqları əlaqələr bu məqalənin də mövzusu olan qruplaşmaya səbəb olmuşdur. Universitetlər, böyük şirkətlər, start-up texnologiya şirkətləri və onları birləşdirən ekosistem; Həvəsləndirici qanunvericilik, təchizatçılar, insan resursları infrastrukturu və

[29] **Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi Elmi Tədqiqat İnstitutu, e-mail: safarguseynov96@mail.ru**

maliyyələşdirmədən ibarət olan bu klaster modeli dünyada bir çox texnoloji yeniliklərə və sürətlə parlayan şirkətlərə ev sahibliyi etmişdir.

Texnoparklar universitetlərdə istehsal olunan elmin iqtisadiyyatda istifadə oluna biləcək texnologiyaya çevrilməsinə imkan yaradır, həmçinin inkubasiya, vençur kapitalı fondları və s. kimi alətlərlə sahibkarlığı dəstəkləyən strukturlardır.

Ənənəvi cəmiyyətlərdə kənd təsərrüfatının ön planda olduğu və iqtisadi rifahın fiziki gücə əsaslandığı quruluşdan torpağı daha yaxşı emal edə bilən, daha çox heyvan ovlaya bilən, daha çox meyvə-tərəvəz toplaya bilən cəmiyyətlərə keçid keçidin ilk mərhələsi kimi qəbul edilir. Bəşəriyyətin tarixi prosesdə inkişafı sənaye inqilabına səbəb oldu və əzələ gücü yerinə beyin gücünə əsaslanan iqtisadiyyata keçid prosesini başladı (BAYRAÇ, 2013). Bu illərdə daha çox maliyyə, daha az xərclə və yüksək keyfiyyətlə istehsal edə bilən cəmiyyətlər fabrik istehsalına keçərək digərlərindən üstünlük qazanmağa başladılar (MCNEIL, 1994).

İnkişaf etməkdə olan ölkələrin ən böyük problemi texnologiyanı inkişaf etdirə bilmədiklərinə görə almaq məcburiyyətində qalmalarıdır. Satınalma açar təslim obyektin alınması, know-how alışı, lisenziya müqaviləsi, məsləhət xidmətlərinin satın alınması kimi müxtəlif formalarda ola bilər. Burada problem ondan ibarətdir ki, ötürülən texnologiya bir sıra elementlərə daxil edilib və köçürən tərəfə bu texnologiyanı tam mənimsəməyə imkan vermir. Alıcının işi sadəcə düyməni basıb maşını işə salmaqdır. Bu kontekstdə satın alınan texnologiyanı daha da inkişaf etdirmək imkanı yoxdur. Buna görə də, daimi xarici asılılıq və texnologiya tərtibatçısının verməyə hazır olduqları ilə kifayətlənmək vəziyyəti var. Bu, bir addım geridə qalmaq və həmişə əlverişsiz vəziyyətdə olmaq deməkdir.

Buna görə də qlobal miqyasda rəqabət qabiliyyətinin birinci şərti yeni texnologiyaların inkişafıdır (BÜLBÜL, 2011). Yeni texnologiyaların inkişaf etdirilməsi üçün bu texnologiyanın əsasını təşkil edən məlumatları istehsal edən strukturlar və bu məlumatı texnologiyaya çevirəcək və bazara çıxaracaq strukturlar, yəni şirkətlər sağlam ünsiyyətdədirlər.

**Universitet Texnoparklarının Əməkdaşlıq Və Tətbiqləri İnterfeysləri:** Texnologiyanın inkişafı və bu inkişafdan asılı olaraq iqtisadi artım bir çox tədqiqatların mövzusu olmuşdur. Universitet - Sənaye - Dövlətin birgə yaşayışı və kəsişmə sahələri də Etzkowitz tərəfindən bir model kimi izah edilir. Triple Helix adlanan bu model sonradan Leydesdorff tərəfindən hazırlanmışdır (ETZKOWITZ, 2000). Bu model ven diaqramı ilə dövlət, özəl sektor və akademik dünya arasında innovasiya üçün institusional əlaqələri təmsil edir və sözügedən strukturun müxtəlif səviyyələrində bu əlaqələri qurmaqla biliyin kapital kimi istifadəsini izah etməyə çalışır. Təcrübədə bu model üçün uyğun olan bir çox proqramlar hazırlanmışdır (KİPER, 2010).




***Qrafik 1:*** Triple Helix modeli

***Mənbə:*** Etzkowitz, H. and Leydesdorff, L., "The Dynamics of Innovation From National Systemsand "Mode 2" To A Triple Helix Of University-Industry-Government Relations", Research Policy, Vol. 29 No. 2, 2000,

Texnoparkların əsas məqsədi universitetlərdə və tədqiqat mərkəzlərində akademik bilik və tədqiqat potensialını texnoloji məhsullara çevirərək kommersiyalaşdırmaqdır (ROERSEN, 2018). Beynəlxalq Elm Parkları Assossasiyasına (IASP) görə texnopark;

- Bir və ya bir neçə universitet və tədqiqat mərkəzi ilə əlaqəli olan,
- İnformasiya və qabaqcıl texnologiyaya əsaslanan şirkətlərin yaradılmasını və inkişafını təşviq etmək üçün nəzərdə tutulan,
- Texnologiya transferi və biznesin idarə edilməsində şirkətlərinə dəstək olmaq üçün idarəetmə funksiyasına malik həvəsləndirici və mülkiyyətə əsaslanan müəssisədir.

Texnologiyaya əsaslanan startapları dəstəkləmək üçün digər mühüm vasitələrdən biri də "biznes inkubatorları"dır. Bu mexanizm texnologiya yönümlü ideyaların kommersiyalaşdırılması istiqamətində yeni şirkətlərin inkişafı üçün uyğun mühit yaratmaq məqsədi daşıyır.

Biznes inkubatorları (Hüseynov, 2022);

- Çap aparatları, telefonlar, kompüterlər və internetə çıxış kimi avadanlıqların birgə istifadəsi
- Ortaq konfrans zalları və iclas otaqları və digər inkubatorlarla qeyri-rəsmi qarşılıqlı əlaqə
- Kargüzarlıq, mühasibatlıq, marketinq və hüquqi dəstək kimi yeni başlayanlar üçün ortaq xidmətlər
- Marketinq planı, biznes planı, maliyyə sistemi və mühasibat uçotunda texniki yardım
- Təchizatçılara birgə alış və dəyər zəncirində yuxarı və aşağı əməliyyat amillərinə nisbətən inkubasiya edilmiş startaplar arasında əlaqələr
- Başlanğıc mərhələsində maliyyə vəsaitinin əldə edilməsinə köməklik göstərilən birgə müəssisələrdir.

Texnoparklar və inkubasiya mərkəzləri birgə işləyir. İnkubasiya mərkəzləri startapları, texnoparklar isə inkişaf edən şirkətləri dəstəkləyən mühitlər yaradır. Yeni şirkətlər inkubasiya mərkəzi sayəsində inkişaf edə, texnopark daxilində özünü təmin edən şirkətə çevrilə bilər.

Universitet-Sənaye Əməkdaşlıq Mərkəzləri universitet-sənaye əməkdaşlığını təmin etmək və birgə səylərin müvəffəqiyyəti ilə effektivliyini nümayiş etdirmək üçün universitetlər daxilində yaradılmış strukturlardır (KAYMAZ, 2011). Bu mərkəzlər dövlət tərəfindən təşviq, insan resursları, təhsil - məsləhət xidmətləri, elmi tədqiqatlar, layihələrin idarə edilməsi və s. sahələrində özəl sektora və tələbələrə töhfə verməyi hədəfləyirlər.

Texnologiya Transfer Mərkəzləri universitet tədqiqatlarının nəticələrini kommersiyalaşdıran və bu prosesi peşəkar yanaşma ilə idarə edən bir və ya bir neçə universitet və tədqiqat institutu ilə birbaşa və ya dolayısı ilə əlaqəli olan institusional mexanizmlər kimi müəyyən edilir (WORLD INTELLECTUAL PROPERTY ORGANIZATION, 2007).

Dövlət həm ekosistemlərin formalaşmasında, həm də bu interfeyslərin maliyyələşdirilməsində mühüm rola malikdir. Bununla belə, müasir yanaşma dövlətə yalnız tənzimləyici və həvəsləndirici rol verir və maliyyələşdirmənin özəl sektor, xüsusilə də inkubasiya mərkəzləri tərəfindən təmin edilməli olduğunu müdafiə edir.

**Nəticə**

Ölkəmizin inkişaf etməkdə olan ölkələr kateqoriyasından inkişaf etmiş ölkə kateqoriyasına yüksəlməsi yalnız öz texnologiyasını inkişaf etdirmək, yüksək əlavə dəyərli məhsullar istehsal etmək və bütün dünyada satışa çıxarmaqla mümkün olacaq. Yuxarıda qeyd edildiyi kimi, bunun üçün edilməli olan, universitetlərdə istehsal olunan elmi texnologiyaya çevirəcək və bazara çıxaracaq ekosistemin qurulması və işlədilməsidir.

**ƏDƏBİYYAT**


1. BAYRAÇ, H. N. (2013). Yeni Ekonomi'nin Toplumsal. Ekonomik ve Teknolojik Boyutları. *Osmangazi Üniversitesi Sosyal Bilimler Dergisi, 4*(1), 41-62.
2. BÜLBÜL, Y. v. (2011). Teknoparklar Teknolojik Bilginin Ticarileşmesi. . *İTO.*
3. ETZKOWITZ, H. a. (2000). The Dynamics of Innovation From National Systemsand "Mode 2" To A Triple Helix Of University-Industry-Government Relations. *Research Policy, 29 №2.*
4. Hüseynov, S. M. (2022). Biznes İnkubatorlar və İqtisadi inkişaf. *Uluslararası Marmara Bilimsel Araştırmalar ve İnnovasyon Kongresi.*
5. KAYMAZ, K. K. (2011). Determining Factors Hindering University Industry CollaborationAn Analysis from the Perspective of Academicians in the Context of Entrepreneurial Science Paradigm. *International Journal of Social Inquiry, 4 № 1,* 185-213.
6. KİPER, M. (2010). Dünyada ve Türkiye'de Üniversite-Sanayi İşbirliği ve Bu Kapsamda Üniversiey-Ыanayi Ortak Araştırma Merkezleri Programı (ÜSAMP). *Türkiye Teknoloji Geliştirme Vakfı.*
7. MCNEIL, W. (1994). Dünya Tarihi. *İmge Kitabevi. Ankara.*
8. PORTER, M. E. (March – April 1990). The Competitive Advantage of Nations. *Harward Business Review*, 73-93.
9. ROERSEN, M. (2018). Internationalizing Technopark. *Universiteit Twente Y.L.*

# MÜASİR DÖVRDƏ AQROBİZESİN FORMALAŞMASI VƏ İNKİŞAFININ ƏSAS İSTİQAMƏTLƏRİ

**Doktorant Rafael HÜSEYNOV**[30]

**Xülasə**

Hər bir ölkənin milli aqrar siyasətində ərzaq təhlükəsizliyinin təmin edilməsi mərkəzi yer tutur. Bu vəzufənin reallaşdırılması bilavasitə aqrobiznesin inkişafına əsaslanır. Aqrobiznesin davamlı inkişafını təmin etmədən əhalinin ərzaqla özünütəminat səviyyəsinin yüksəldilməsinə nail olunması qeyri-mümkündür.Bu baxımdan aqrobiznesin formalaşmasının ilkin maddi-texniki, hüquqi və təşkilati bazası araşdırılır. Araşdırmalar müxtəlif ərzaq məhsullarının ostehsalı üçün lazımi təbii-iqlim şəraitinin və iqtisadi imkanların qiymətləndirilməsi istiqamətində davam etdirilir. Ona görə ki, ərzaq malları ilə xarici ticarətin tənzimlənməsində bu amil əhəmiyyətli hesab edilir.Digər vacib məsələ ölkədə istehsal vasitələrinin istehsalı və istehsal güclərinin cari vəziyyətidir.Əgər həmin vasitələr də xarici ölkələrdən idxal olunursa, onda demək olar ki, sahələrarası qiymət disparitetindən qaçmaq mümkün olmur.Nəticədə ərzaq mallarının istehsalına olan maraq azalır və əhalinin həyat səviyyəsi aşağı düşür. Bu problemlərlə üzləşməmək üçün aqrobiznesin inkişafı meyllərini izləmək və zəruri hallarda onların tənzimlənməsi lazım gələbilər. Həmin məsələlərin həlli kompleks elmi araşdırmalara və qabaqcıl təcrübədən məqsədyönlü istifadəyə əsaslanır.

Təqdim olunan məqalədə Azərbaycanın müstəqillik dövründən sonrakı dövrdə aqrobiznesin inkişafı meylləri araşdırılmış, cari inkişaf səviyyəsi təhlil edilmiş və münasib təklif və tövsiyyələr verilmişdir.

**Açar sözlər:** aqrobiznes, inkişaf, idxal, qiymət, rəqabət

## The main directions of formation and development of agribusiness in modern times

**Abstract**

Ensuring food security occupies a central place in the national agricultural policy of each country. The realization of this position is directly based on the development of agribusiness. It is impossible to achieve the level of food self-sufficiency of the population without ensuring the sustainable development of agribusiness. From this point of view, the initial material, technical, legal and organizational basis of the formation of agribusiness is investigated. Research is being continued in the direction of assessing the necessary natural-climatic conditions and economic opportunities for the production of various food products. Because this factor is considered important in the regulation of foreign trade with food products. Another important issue is the production of means of production and the current state of production capacity in the country. If those means are also imported from foreign countries, then it is almost impossible to avoid inter-sectoral price disparity. In order not to face these problems, it may be necessary to monitor the development trends of agribusiness and, if necessary, adjust them. The solution of these issues is based on complex scientific research and purposeful use of advanced experience.

In the presented article, trends in the development of agribusiness in the post-independence period of Azerbaijan were investigated, the current level of development was analyzed, and appropriate suggestions and recommendations were given.

**Keywords:** agribusiness, development, import, price, competition

*UOT: 338*

## Giriş

Əhalinin ərzaq maəhsillarına olan, artan və dəyişən tələbatının dolğun ödənilməsi hər bir dövlətin əsas vəzifələrindən biridir. Bu baxımdan kənd təsrrüfatının inkişaf etdirilməsi, inun iqtisadiyyatın digər sah\ləri ilə qarşılıqlı maliyyə-təsərrüfat əlaqələrinin tənzimlənməsi, xarici rəqabətdən müdafiə edilməsi kimi məsələlər vaxtında öz həllini tapmalıdır. Ərzaq təminatında məhdudiyyətlərlə və çətinliklərlə üzləşən ölkələr bəzən onun alınması məqədilə daha qiymətli və bərpa olunmayan resurslarını itirirlər. Bunu hazırkı dövrdə neftlə zəngon olan bəzi ölkələrin timsalında görmək olar. Onlar ərzaq idxal idxal etmək məcburiyyəti ilə üzləşən zaman karbohidrogen ehtiyatlarını daha ücüz qiymətə və sürətlə sərf etməyə başlayırlar. Bu proses “ərzaq əvəzinə karbohidrogen” zəncirinin inkişaf etmiş ölkələrin xeyrinə işləməsinə şərait yaradır. Nəticədə milli iqtisadiyyatın dayanıqlı inkişafı prinsipləri kökündən pozulur. Ona görə ki, gələcək nəsillərin ölkənin sərvətlərindən faydalanmaq, onlarıdan öz mənafeləri naminə istifadə etmək imkanları azalır. Bu baxımdan aqrobiznesin inkişafı amilləri və meylləri daim araşdırılmalı, lazım olan hallarda strateji və taktiki xarakterli tədbirlərin həyata keçirilməsinə başlamaq lazımdır. Bu məsələlər

[30] Azərbaycan Kooperasiya Universiteti, rafael.huseynov77@bk.ru

bütövlükdə ölkə səviyyəsində və regionlar səviyyəsində öyrənilməli koordinasiya olunmuş şəkildə həll olunmalıdır.

Ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi kimi əhəmiyyətli funksiyanın həyata keçirilməsi iqtisadiyyatının digər sahələri ilə qarşılıqlı fəaliyyət göstərən aqrobiznesin üzərinə düşür. Onun davamlı inkişafı ölkənin ərzaq ehtiyatının onun həcminin durmadan artırılmasında və keyfiyyət baxımından yeniləşməsində əhəmiyyətli rol oynauır.

Aparılan tədqiqatlarla sübut olunmuşdur ki, aqrobiznesin inkişafı əsasən ərzaq təhlükəsizliyinə təsir göstərən başlıca makroiqtisadi meyllərdən asılıdır. Onun inkişafdan geri qalması milli istehsalın həcminin azalmasına və nəticə etibarilə ölkənin xarici ölkələrdən iqtisadi asılılığına, daha dəqiq desək, idxaladan asılığına səbəb ola bilər.Məsələnin qoyuluşuna bir qədər tarixi aspektdən nəzər salsaq, demək olar ki, müstəqilliyin əldə olunmasından sonrakı iqtisadi sabitlik dövründə Azərbaycanda kənd təsərrüfatı və yeyinti sənayesinin inkişaf göstəricilərinin təhlili XX əsrin sonu və XXI əsrin əvvəli üçün müəyyən səciyyəvi meylləri üzə çıxardı. Birincisi, aqrobiznesin bütün sahələrində istehsal həcminin artması, yerli və xarici istehsalçılar arasında rəqabət mübarizəsinin güclənməsi, istehsalın yeniləşdirilməsi və elmi-texniki səviyyəsinin yüksəldilməsi, rəhbər kadrların ərzaq təhlükəsizliyinin təmin edilməsi üzrə qəbul etdiyi qərarlara görə məsuliyyətinin artırılması məsələləri reallaşdmağa başladı. İkinci tərəfdən, idxal olunan ərzaq məhsullarının keyfiyyətinin nisbətən aşağı düşməsi,eləcə də ölkədə istehsalı üçün gəlverişli imkanlar olan ərzaq məhsulları idxalının artırılması, istehsal təyinatlı maşın, avadanlıq, bina və qurğuların mənəvi köhnəlməsi, istehsal güclərindən istifadə səmərəliliyinin azalması, səriştəli və peşəkar kadrların çatışmazlığı diqqət çəkirdi. Vacib məqamlardan biri qeyd edilən dövrdə kənd təsərrüfatı məhsullarının və onların istehsalında istifadə resurs və vasitələrin qiymətləri atasında disparitetin yaranması və getdikcə dərinləşməsi idi.

Əvvəldə qeyd olunanlara istinadən aqrobiznesin inkişafının əsas meyylərini, o cümlədən pozitiv və neqativ meyllərini təsnifləşdirmək olar.Beləliklə, pozitiv meyllər sırasına aşağıdakıların aid edilməsi məqbul sayılır:

- İstehsalın həcminin artması;
- Məhsul çeşidinin genişlənməsi;
- İstehsalın yenilənməsi və innovasiyalı inkişafı;
- Dünya iqtisadiyyatına inteqrasiya və beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqələrin genişlənməsi;
- Təsrrüfatların idarə olunmasında müasir və səmərli metodların tətbiqinin genişlənməsi.

Ardıcıl olaraq, aqrobiznesin onkişafının neqativ meylləri kimi aşağıdakıları qeyd etmək olar:

- İdxalın, o cümlədən ərzaq idxalının həcminin artması;
- Məhsulun rəqabət qabliyyətinin aşağı düşməsi;
- İstehsalın investisiyalaşdırılması imkanlarının məhdudluğu;
- Ölkədə istehsal vasitələri istehsalının olmaması;
- İstehsal və emal sferasında istehsal güclərindən istifadə səviyyəsinin aşağı olması;
- Qeyri-ekvivalent mübadilə və qiymət disparitetinin yaranması.

Göründüyü kimi, aqrobiznesin inkişafı meylləri arasında müəyyən ziddiyətlər vardır.

Aparılan araşdırmalar göstərir ki, aqrobiznesdə xərclərin strukturunda sabit xərclər dəyişən xərclərdən daha çox olur. Başqa sözlə, məcmu xərclərdə istehsalın həcmindən asılı olmayan xərclərin, yəni sabit xərclərin payı məhsul buraxılışına mütənasib bölünən d\əyişən xərclərin payından yüksək olur. Göstərilə bilər ki, südə tələbatın azalması zamanı mal-qaranın sayı azaldılsa da zərurət yarandıqca tövləni qoruyub saxlamaq və onu mütəmadi olaraq təmir etmək vacibdir. Bundan əlavə, əkin sahəsini qısa müddətə dövriyyədən çıxaran fermer(sahibkar) istənilən halda həmin sahəni əkinə yararlı vəziyyətdə saxlamalıdır.

Ərzaq təhlükəsizliyi ilə əlaqədar anlayışların ümumiləşdirilməsi onların üç əlamət üzrə təsnifləşməsinə imkan verir. Birinci - əhalinin sağlam ərzaqla dolğun təminatının tələb olunan səviyyədə saxlanılması. Digər iki əlamət isə əsas diqqəti ölkənin idxaldan asılılığının aradan qaldırılması ilə bağlıdır. Baçqa sözlə, onlar kənd təsərrüfatı məhsulları ilə özünütəminata və məhsul istehsalçılarının iqtisadi maraqlarının müdafiəsinə istiqamətlənirlər.

Ərzaq təhlükəsizliyi sferasında kənd təsərrüfatında ərzaq məhsulları istehsalının inkişafı, milli ərzaq bazarının fəaliyyəti, sosial vəziyyət və istehlakçıların tədiyyə qabliyyətliliyindən aslılıq kimi bir sıra vacib problemlər toplanır. Ərzaq təhlükəsizliyinə nail olunma səviyyəsi üç dərəcə üzrə qiymətləndirilir:

- ✓ optimal (qənaətbəxş) – bu zaman daxili ərzaq bazarını öz şəxsi istehsalı hesabına təmin etmək üçün ehtiyatların səviyyəsi 80-85% arasında, ixrac və idxal isə hər biri ayrılıqda 15-20% arasında dəyişir;
- ✓ qeyri-qənaətbəxş - bu zaman ərzağaolan daxili tələbatın 60 -80%-i yerli istehsal hesabına təmin edilir;
- ✓ kritik - bu zaman milli istehsal hesabına daxili ərzaq bazarının tələbatı 60% həddində təmin edilir.

Beləliklə, aqrobiznes sferasının səmərəli inkişafı ölkədə ərzaq təhlükəsizliyi sisteminin formalaşdırılmasının prioritet istiqaməti olmalıdır. Əsaslandırılmış aqrar inkişaf strategiyasının əsasında aqrobiznes sisteminin modernləşdirilməsi aqrar istehsalın davamlı inkişafı üçün real zəmin yaradır. Bundan əlavə o, iqisadi artıma və ərzaq müstəqilliyinin həddinin yüksəlməsinə gətirib çıxarər.

Aqrobiznes mənfəətin əldə edilməsinə, tələb və təklıfin formalaşmasına, istehsalın intensivləşməsinə, yeni texnologiyaların tətbiqinə, m strateji menecmentin reallaşmasına əlverişli imkan yaradır. Son nəticədə aqrar sahədə sahibkarlığın əsas məsələsi olan yüksək rentabelli məhsul istehsalı probleminin həlli istiqamətində ciddi irəliləyoşlərə nail olunur (Quliyev, 2013: 97).

Digər istehsal sferalarından fərqli olaraq, aqrobiznesin spesifik xüsusiyyətləri vardır və onlar aşağıdakılardan ibarətdir:

- aqrobiznes sferasında torpaq əsas istehsal vasitəsi kimi çıxış edir;
- torpaq resurslarının məhdudluğu və bu səbəbdən də burada istehsalın inkişafı əsasən intensiv metodlarla aparılmalıdır;
- kənd təsərrüfatı istehsalı mövsümi xarakter daşıyır;
- aqrobiznes sferasının rentabelliyi aşağıdır.

Müasir dövrdə ərzaq məhsuları ilə özünütəminat milli təhlükəsizliyin vacib şərti kimi qiymətləndirilir. Ərzaqla özünütəminatın optimal səviyyəsinə nail olunması yalnız aqrobiznesin dayanıqlı inkişafı əsasında mümkündür ki, bu da mövcud resurslardan səmərəli istifadə əsasında həyata keçirilə bilər. Bu həmçinin başlıca vəzifə olaraq, əhalinin istehlak tələbatı ilə aqrobiznesin strukturunun uyğunlaşdırılmasını zəruri edir.

Ölkənin özünütəminat konsepsiyası mövcud istehsal ehtiyatlarından və bioiqlim potensialından səmərəli istifadə hesabına əhalinin ərzaq məhsulları ilə təminatı probleminin həllini nəzərdə tutur. Konsepsiya hərtərəfli əsaslandırılmış şəkildə daha optimal təsərrüfat qərarları qəbul etməyə, əsalandırılmış sahələarası və ərazi proporsiyalarını təyin etməyə imkan yaradır və ərazinin ərzaq təminatının təşkilinin səmərəliliyini müəyyənləşdirir(Alıyev,2008: 117).

Son illərdə Azərbaycanda əsas heyvandarlıq və bitkiçilik məhsulları ilə təminat sahəsində müsbət irəliləyişlər nəzərə şarpır. Bunu aşağıdakı cədvəldə verilən məlimatlardan da aydın şəkildə görmək olar.

| | **2015** | **2016** | **2017** | **2018** | **2019** | **2020** |
|---|---|---|---|---|---|---|
| Taxıl, cəmi: | 64,5 | 63,8 | 66,3 | 74,1 | 67,3 | 68,1 |
| Buğda | 54,8 | 52,9 | 58,1 | 64,8 | 57,2 | 57,1 |
| Qarğıdalı | 54,1 | 70,1 | 70,7 | 82,7 | 80,0 | 86,6 |
| Vələmir | 93,1 | 85,7 | 90,1 | 89,2 | 90,9 | 86,6 |
| Paxlalılar | 69,3 | 68,4 | 73,7 | 72,0 | 76,1 | 60,3 |
| Kartof | 89,1 | 85,5 | 89,2 | 90,8 | 87,8 | 90,6 |
| Bütün növ tərəvəzlər | 103,4 | 105,4 | 115,2 | 115,0 | 112,0 | 110,4 |
| Bostan məhsulları | 100,0 | 100,2 | 100,2 | 99,7 | 100,8 | 100.8 |
| Meyvə və giləmeyvələr | 113,7 | 116,4 | 122,4 | 123,2 | 123,1 | 116.8 |
| Üzüm | 93,1 | 89,2 | 93,4 | 92,5 | 94,3 | 95,8 |
| Pomidor | 113,7 | 119,0 | 130,9 | 138,0 | 132,5 | 131,0 |

**Cədvəl 1.Bitkiçilik məhsulları ilə özünütəminat səviyyəsi, faizlə**

**Mənbə:** Azərbaycanın ərzaq balansları. Bakı-2021; www.stat.gov.az – Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi saytı

Cədvəldə verilən statistik göstəricilərin təhlilindən məlum olur ki, ölkəmizdə ümumilikdə taxıl, daha dəqiq desək, buğda, qarğıdalı və paxılalılarla özünütəminat səviyyəsi 80 faizdən aşağıdır,yəni qeyri-qənaətbəxşdir.Bunun əsas səbəbləri kimi məhsuldarlığın az olmasını və təhlil dövrünün son illərində pandemiyanın yaratdığı problemləri göstərmək olar. Onu da qeyd etmək lazımdır ki, tərəvəz, bostan məhsulları, meyvə və giləmeyvə ilə özünütəminat səviyyəsinin son illərdə 100 faizdən yüksək olması bu sahəyə yüksək diqqətin olması və ixracyönümlülüklə izah edilə bilər. Əvvəldə göstərilənlərə qayıdaraq, taxılla özünütəminat və idxaldan asılılığın aradan qaldırılması üçün ölkədə taxıl istehsalının təxminən 1,5 dəfə artırılması lazımdır.

Ölkə əhalisinin bioloji tələbatlarını kəmiyyət və keyfiyyət baxımından nəzərə almaqla ərzaq məhsulları ilə real təminatlılığın müəyyənləşdirilməsi mümkündür. Araşdırmalar göstərir ki, ərzaq məhsullarına münasibətdə təklifin və tədiyyə qabliyyətli tələbin nisbəti bu sahədə vəziyyətin dəqiq sosial-iqtisadi meyarı kimi çıxış edir. Burada əsas göstəricilər olaraq, adətən mövcud tələbatlar, ölkədə adambaşına ərzaq istehsalı və istehlakının həcmi, ərzaq mallarının daxilolma mənbələri və s. göstəricilərlə əlaqəli olan əhalinin qidalanmasının strukturu və səviyyəsi göstəricisi seçilir. Bu göstəricilər mövcud vəziyyət və formalaşan yeni şəraitin təsiri altında dəyişirlər. Belə dəyilikliklər heyvandarlıq məhsulları ilə özünütəminat sahəsində də özünü büruzə verir.

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|
| Bütün növ iribuynuzlu mal-qara və quşlar üzrə | 94,7 | 87,9 | 84,7 | 82,7 | 82,5 | 84,5 |
| Mal əti və ət məhsulları | 91,8 | 93,5 | 86,3 | 85,1 | 86,1 | 87,4 |
| Qoyun əti (keçi əti) və ət məhsulları | 99,3 | 98,7 | 98,0 | 98,1 | 97,6 | 97,3 |
| Quş əti və ət məhsulları | 98,6 | 79,1 | 79,7 | 75,9 | 74,6 | 79,0 |
| Süd və süd məhsulları | 84,3 | 87,7 | 86,1 | 86,7 | 86,3 | 83,5 |
| Yumurta | 99,7 | 98,8 | 100,5 | 101,5 | 101,8 | 100,0 |
| Balıq və balıq məhsulları | 77,5 | 82,3 | 81,2 | 83,1 | 82,2 | 81,7 |

**Cədvəl 2. Heyvandarlıq məhsulları ilə özünütəminat səviyyəsi, faizlə Mənbə:** Azərbaycanın ərzaq balansları. Bakı-2021; www.stat.gov.az – Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi saytı

Cədvəl məlumatlarından göründüyü kimi, son illərdə Azətrbaycanda yalnız quş əti ilə özünütəminat səviyyəsinin 80 faizdən aşağı olması müşahidə edilir.Fikrimizcə bu, əsasən yemin və digər idxal olunan zəruri vasitələrin bahalaşması müstəvisində istehsalda baş verən tərəddüdlərlə bağlıdır.

Ölkənin ərzaq sisteminin inkişafı səviyyəsini qiymətləndirərkən daxili istehsal və idxal məhsulları arasında nisbət dəyişikliklərinin vaxtında və düzgün təhlili, yerli məhsullardan istifadə vəziyyətinin dəqiq öyrənilməsi, daxili istehlak üçün saxlanılan məhsulların xüsusi çəkisinin müəyyənləşdirilməsi və eləcə də bu göstəricinin ölkədən ixrac olunan məhsulların xüsusi çəkisi ilə müqayisəsi aparılmalıdır. Bütün bunlar tənzimləmə prosesində ərzaq təminatının coğrafi baxımdan diferensiallaşdırılması xüsusiyyətlərinin tam şəkildə uçota alınmasına imkan yarada bilər(Ataşov,2017: 236).

Daxili istehsal hesabına ölkə əhalisinin ərzaq məhsulları ilə təminatına dair proqramlar işlənərkən ilk növbədə bu proqramın reallaşdırılmasının zəruri resurs mənbələri müəyyən edilməli və qiymətləndirilməlidir.Milli aqrobiznes sferası kapital tutumlu olduğundan elə ixtisaslaşdırılmış olur ki, operativ şəkildə istehsalın strukturunu dəyişdirmək imkanına malik olsun. Qısa müddət ərzində ərzaq istehsalının həcminin artırılması və ondan stifadə səmərəliyinin yüksəldilməsi, özünütəminatın səviyyəsinin artırılması və ərzaq idxalının azaldılması, bütövlükdə ərzaq təhlükəsizliyi sistemini dayanıqlılığının möhkəmləndirilməsi olduqca mürəkkəb məsələdir.

Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün ölkənin əsas ərzaq məhsulları ilə təminatı səviyyəsinin sabitliyinin təmin edilməsi, aqrobiznesin inkişaf prioritetlərinin və qarşıya qoyulan real məqsədlərin dəqiq müəyyənləşdirilməsi vacib sayılır.Müasir şəraitdə milli iqtisadiyyatın sahələrinin təqribən 1/3 hissəsinin fəaliyyətinin vəziyyəti bilavasitə aqrobiznesin inkişafı ilə əlaqədardır. Ekspertlərin hesablamalarına görə, kənd təsərrüfatında bir istehsal yerinin fəaliyyəti iqtisadiyyatın digər sahələrində 5-6 insanı işlə təmin edə bilər. Ərzaq Siyasəti üzrə Beynəlxalq İnstitutun rəyinə görə kənd təsərrüfatında istehsalın 1% artması nəticəsində iqtisadiyyatın 2-3% artımı təmin edilir( 5: 361)..

Aqrobiznes sisteminin inkişafı əhalinin ərzaq məhsullarına tələbatının təmin edilmə imkanlarının genişlənməsinə istiqamətlənməlidir. Bu baxımdan aşağıdakı tədbirlərin reallaşdırılmasına xüsusi diqqət yetirilməlidir:

- ərzaq məhsulları istehsalçılarını zəruri dövriyyə kapitalı ilə təmin edəcək xüsusi kredit siyasətinin həyata keçirilməsi;
- investisiyalar üçün vergi güzəştlərinin müəyyənləşdirilməsi və daha cəlbedici investisiya mühütinin yaradılması;
- kənd təsərrüfatı və sənaye istehsalçıları arasında qiymət nisbətlərinin bərabərləşdirilməsi;
- aşağı alıcılıq qabliyyətli əhaliyə bilavasitə köməklik göstərilməsi.

Ölkədə aqrar siyasətin məqsədi aqrobiznesin ardıcıl inkişafı üçün şərait yaradılması, istehsalın səmərəliliyinin yüksəldilməsi və əmək məhsuldarlığının artırılması, şəhərdə və kənd yerlərində gəlirlərin differensasiyasının azaldılması vacib sayılır.

Əhalinin ərzaq məhsullarına tələbatının lazımi səviyyədə ödənilməsi üçün təsərrüfatdaxili imkan və ehtiyatlardan səmərəli istifadə etmək mühüm əhəmiyyət kəsb edir. Bu onunla izah olunur ki, respublikanın bir çox təsərrüfatları dağ və dağətəyi ərazilərdə yerləşib, mərkəzi ərazilərdə yerləşən əksər təsərrüfatların istifadəsində olan torpaqlar şoranlaşmışdır. Bona görə də həmin ərazilərdə əkinçilik və heyvandarlığın intensiv inkişaf etdirilməsi üçün torpaq erroziyasının qarşısı alınmalı, mərkəzi zonada torpaqların meliorasiyası və irriqasiyası işləri intensivləşdirilməlidir.

**Nəticə**

Fikrimizcə, aqrobiznesin inkişafı üçün azad bazar rəqabətinə əsaslanan sahibkarlığın inkişafını təmin etmək lazımdır. Dövlət kənd təsərrüfatı istehsalçılarına ilin həm əlverişli, həm də əlverişsiz hava şəraitində məhsulun ictimai maya dəyəri normasına uyğun gələn və optimal normada mənfəəti təmin edən qiymətlərlə müqavilələr üzrə mal alınmasına zəmanət verməlidir. Normal səviyyədə istehsalı olan aqrobiznes müəssisələri məhsulun belə qiymətlərlə reallaşdırılması zamanı həm əmək haqqının artırılmasına və həm də zəruri istehsal vasitələrinin alınmasına imkan verən kifayət qədər mənfəətə malik olacaqlar. Belə olan halda, subsidiyaların verilməsinə, gecikdirilmiş ssudaların silinməsinə və s. ehtiyac qalmayacaqdır.

Hesab edirik ki, ölkənin iqtisadi regionlarında aqrobiznesin dəstəklənməsini məhsullar üzrə diferensiallaşdırmaq lazımdır. Beynəlxalq bazarlarda rəqabət apara biləcək məhsulların ixracı stimullaşdırılmalıdır. Həmin məhsulların kütləvi istehsal edildiyi regionlara köməklik məqsədilə görülən tədbirlər ilk növbədə istehsalın səmərəliliyinin yüksəldilməsinə və məhsul satışının artırılmasına yönəldilməlidir.

## ƏDƏBİYYAT


1. Aqrobiznes və ərzaq təhlükəsizliyi / İ.Ş.Qarayevin redaktəsi ilə. Bakı 2015,
2. Alıyev İ.H. Qloballaşma şəraitində aqrar sahənin dayanıqlı inkişafının təmin olunmasının sosial-iqtisadi problemləri. Bakı 2008
3. Ataşov B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri, monoqrafiya. Bakı 2017, 536s.
4. Quliyev E.A. Etibarlı ərzaq təminatı sistemi: kooperasiya və inteqrasiya problemləri. Bakı, 2013.
5. Керимзаде М.В.Уровень самообеспеченности страны продовольствием на современном этапе развития. «Экономика и предпринимательство» №4 (ч.1), Москва - 2016, с.359-363
6. www.stat.gov.az – Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi saytı

# MÜASİR VERGİ SİSTEMİ GÖSTƏRİCİLƏRİNİN TƏDQİQİNƏ NƏZƏRİ-KONSEPTUAL YANAŞMA

**Doktorant Cavid MƏMMƏDOV**[31]
**Elgiz SEYIDOV**

**Xülasə**

Tədqiqatın əsas məqsədi müasir vergi sistemində istifadə edilən əsas konsepsiyaları araşdırmaqla vergi münasibətlərinin subyektləri arasındakı fərqi əsaslandırmaq, habelə sahibkarları daha çox maraqlandıran məsələlərə aydınlıq gətirmək və onlar üçün maksimal əlverişli şəraitin yaradılmasına şərait yaratmaqdır. Müqayisəli təhlil və dialektik sintez metodlarından istifadə yolu ilə vergi sisteminin ən mühüm terminoloji aparatları arasındakı fərqləri üzə çıxarmaqla vergi sistemində daha çox hansı elementlərin tətbiq edildiyini müəyyənləşdirdiririk.

Vergi sistemi ilə əlaqəli məsələlərin öyrənilməsi ilə məşğul olan bir sıra alimlər öz araşdırmalarında müəyyən terminlər və konsepsiyalar təqdim etmiş və istifadə etmişlər. Bu tədqiqatın məqsədləri üçün ən vacib anlayışlar aşağıdakıları əhatə edir: vergi yükü, vergi mühiti, vergi güzəştləri. Xüsusi terminologiyanın istifadəsi dövlət orqanları tərəfindən verilmiş vergi sisteminə aid bu və ya digər şəkildə rəsmi sənədlərdə də mövcuddur. Sözügedən tədqiqatın aparılması məqsədi ilə bu terminlərin təhlil edilməsi və ümumiləşdirilməsi tələb olunur.

Azərbaycanda iqtisadi cəhətdən müəyyən edilmiş vergi dərəcələrinə əsaslanan müəssisələrdəki vergi yükünün azaldılması yolu ilə vergi sistemində islahatların aparılmasının mümkünlüyü nəzəri cəhətdən sübut edilmişdir. Alınmış nəticələr vergi islahatları strategiyasının müəyyənləşdirilməsində, vergi gəlirlərinin planlaşdırılmasında və hökumətlərarası maliyyə münasibətlərinin yaxşılaşdırılmasında istifadə edilə bilər.

***Açar sözlər:*** *vergi sistemi, vergi yükü, vergi mühiti, vergi güzəştləri*

**Theoretical-conceptual approach To the study of modern tax system indicators**

**Summary**

The main purpose of the research is to justify the difference between the subjects of tax relations by examining the main concepts used in the modern tax system, as well as to clarify the issues that are of most interest to entrepreneurs and to create conditions for creating maximum favorable conditions for them. By using the methods of comparative analysis and dialectical synthesis, we reveal the differences between the most important terminological devices of the tax system and determine which elements are used more in the tax system. A number of scholars engaged in the study of issues related to the tax system have introduced and used certain terms and concepts in their research. For the purposes of this study, the most important concepts include: tax burden, tax environment, tax incentives. The use of special terminology is also present in one way or another official documents related to the tax system issued by state authorities. For the purpose of conducting the said research, it is required to analyze and generalize these terms.

The possibility of reforming the tax system by reducing the tax burden on enterprises based on economically determined tax rates in Azerbaijan has been theoretically proven. The obtained results can be used in determining the strategy of tax reforms, planning tax revenues and improving intergovernmental financial relations.

***Keywords:*** *tax system, tax burden, tax environment, tax benefits*

*UOT: 336.2*

## Giriş

Vergilər müəyyənləşdirilmiş qanunvericilik çərçivəsində iqtisadi subyektlərdən və əhalidən dövlətin aldığı icbari ödənişlər olmaqla dövlətin yarandığı vaxtdan etibarən cəmiyyətdəki mövcud iqtisadi münasibətlərin zəruri həlqəsini formalaşdırır (Mirzəliyev, 2015: 59-69).

Vergilərlə əlaqəli ən mühüm və ümumi məsələlərin bir qayda olaraq dövlətlərin ali qanunlarında əks olunduğunun şahidi oluruq. Azərbaycan Respublikasının Konstitusiyasında (73-cü maddə) qeyd edilir ki, qanunla müəyyənləşdirilmiş vergilərin və başqa dövlət ödənişlərinin tam həcmdə və vaxtında ödənilməsi hər kəsin borcu olaraq çıxış edir. Heç kəsi qanunda nəzərdə tutulan əsaslar olmadan və qanunla göstərilən məbləğdən əlavə vergiləri və digər bu kimi dövlət ödənişlərini ödəməyə məcbur etmək olmaz (Azərbaycan Respublikası Konstitusiyası, 2015: 15).

Bütövlükdə məcmu vergi sistemi üzrə müəyyənləşdirilən vergi yükü göstəricisi bəzi əhəmiyyətli nöqsanlara malikdir. Ən əsas ciddi nöqsan onunla bağlıdır ki, bu göstərici müəyyən vergi ödəyicisinin

[31] **Azərbaycan Dövlət İqtisad Universiteti**

özəlliklərini nəzərə almır. Lakin dövlət tərəfindən vergilər təyin edildiyinə görə bu göstəricinin hesablanması xeyli əhəmiyyətə malikdir.

Hamıya məlumdur ki, istənilən ölkədə fəaliyyət istiqamətlərinə və bəzi cəhətlərinə görə bir-biri ilə fərqlli çoxlu sayda iqtisadi subyektlər çalışır ki, bu fərqliliklər də onların vergitutma bazasını formalaşdırmağa və ödədikləri vergilərin kəmiyyətinə öz təsirini göstərir. Əlbəttə, vergi sistemini formalaşdırarkən bütünlüklə bunları nəzərə almaq mürəkkəb xarakter daşıyır. Lakin fikrimizcə, məhz bu parametrləri nəzərə almaqla hesablana biləcək yeni bir göstəricinin işlənib hazırlanmasına ehtiyac vardır.

## 1. Vergi sistemində vergi yükü konsepsiyasının əhəmiyyəti və müasir inkişaf xüsusiyyətləri

Vergi sistemində istifadə olunan ən vacib elementlərdən biri vergi yükü konsepsiyasıdır.

E.V. Çipurenkoya görə, təşkilatın vergi yükü vergi mühitinin təsirini nəzərə alaraq və təşkilati funksiyaların həyata keçirilməsinə vergiqoymanın təsirini və idarəetmə qərarlarının seçilməsinə nəzarəti həyata keçirmək üçün zəruri olan biznes fəaliyyətinin onun nəticələrinin vahid təsvirinə imkan verən təşkilatın vəziyyətinin universal əsas xüsusiyyətlər qrupudur (Чипуренко, 2015: 50).

T.V. Kulikova vergi münasibətlərinin subyektləri arasında qarşılıqlı təsirlərin nəticələrinin miqdarını kəmiyyətlə ölçməyə imkan verən göstərici kimi mikro səviyyədə vergi yükünü müəyyənləşdirir. Mütləq vergi yükü müəyyən dövr üzrə ödəniş üçün yığılmış təsərrüfat subyektinin vergi xərclərinin ümumi məbləğidir. Nisbi vergi yükü, müəyyən müddət ərzində müqayisə bazası ilə əlaqələndirilən təsərrüfat subyektinin vergi xərclərinin məbləğidir (Куликова, 2004: 185).

Mövcud tədqiqat mövzusu üzrə təhlil edilən bir çox işlərdə, "vergi yükü" terminində müəlliflər ədəbiyyatda istifadə olunan müxtəlif vergilərə, məsələn, "vergi yükü", "məcmu vergi yığımı" və s. bu kimi sinonimlərə müraciət edirlər. Bizim fikrimizcə, "vergi yükü" termini yaxşı qurulmuşdur, çünki Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəsmi saytlarında dərc edilmiş sənədlərdə istifadə edilir və daha çox xüsusi ədəbiyyatda rast gəlinir. İngilis dilli mənbələrdə «tax burden» (İngilis dili) termini – vergi yükü istifadə olunur.

Güzəştli vergitutmanın mövcudluğu, vergitutmanın tədricən sadələşdirilməsi, onun stabilliyi dövlət yığımının prioritet istiqamətləri arasındakı sahibkarların daha çox maraqlandığı məsələlərdəndir. Son vaxtlar respublikanın Vergi Məcəlləsində aparılan bir çox dəyişikliklər ölkədə kiçik sahibkarlıq subyektləri üzrə vergi yükünü yüngülləşdirməyə, uçot sisteminin sadələşdirilməsi hesabına respublikadakı kiçik biznesin inkişafına maksimum əlverişli mühitin yaradılmasına imkan verəcəkdir. Mütəxəssislər vurğulayırlar ki, xırda sahibkarlıq subyektləri üzrə vergi yükünü artırmaq vergi islahatlarının məntiqinə və kiçik biznesin stimullaşdırılması sahəsində dövlət siyasətinin prioritetlərinə ziddir (Musayev, 2004: 786).

Prof. S.V. Salahovun qeyd etdiyi kimi, makroiqtisadi baxımdan müəyyən edilən vergi yükü həqiqi mənzərəni bir qədər təhrif olunmuş şəkildə təsvir edir. Belə ki, ölkə səviyyəsində vergi tədiyəçilərinin ödədiyi vergilərin ÜDM-ə nisbəti olaraq müəyyən edilən vergi yükü tədiyəçilərin müxtəlif xüsusiyyətlərini, o cümlədən, onların gəlir əldə etməsi ilə bağlı istehsal və tədavül məsrəflərinin quruluşunu, istehsal üzrə elm və fond tutumlarının fərqliliyini, rentabellik dərəcəsini və s. bu kimi mühüm amilləri nəzərdə tutmur (Salahov, 2004: 504).

Keçən əsrin 80-ci illərin əvvəlinə olan dövrdə ABŞ-da tətbiq edilmiş və "Reyqan iqtisadiyyatı" adını almış metoda görə, dövlət sahibkarlara minimum səviyyədə vergi dərəcələrini təyin edərək vergi yükünün yumşalmasını və özünə aid xərcləri, hər şeydən əvvəl isə sosial proqramlara yönəlik xərclərin azaldılmasını təmin edir. Burada əsas məqsəd kapital üzrə prioritet inkişafı qarşılamaqdan və investisiya aktivliyini stimullaşdırmaqdan ibarətdir. Təbii haldır ki, effektiv iqtisadi inkişaf siyasətini ölkə iqtisadiyyatında staqnasiya hallarının iqtisadi böhran vəziyyətinə keçid təhlükəsinin başlandığı andan tətbiq edirlər.

İqtisadçıların qənaətinə görə, vergi yükü bütün vergi ödəyicilərinin qanun qarşısında məsuliyyətini əhatə etməlidir. Ona görə ki, mülkiyyət, habelə təşkilati-hüquqi formalarından asılı olmaqla sahibkarlıq fəaliyyətinə əlavə vergilərin qoyulması qanunla yolverilməzdir. Belə ki, vergilər səlahiyyətli orqanlar tərəfindən qəbul edilir. Odur ki, ödəyiciləri üzərinə vergi və rüsumların qoyulması dövlət tərəfindən müdafiə olunur (Əlirzayev, 2005: 538).

## 2. Vergi yükü göstəricisinin hesablanmasının dünya təcrübəsi

Amerika iqtisadçısı, prof. A. Laffer nəzəriyyəsinin tədqiqi göstərir ki, vergi dərəcələrini müəyyən səviyyəyə kimi yüksəltmək vergi daxilolmalarını artırmağa şəraiti təmin edir, həmin səviyyəyədə özünün maksimal kəmiyyətini alır. Bir qədər keçdikdə isə büdcə daxilolmalarının kəskin azalması müşahidə edilir.

Laffer belə qənaətə gəlir ki, vergi yükünü əsaslandırılmadan artırmaq gizli iqtisadiyyatın inkişafına səbəb olur. Lafferə görə, yalnız vergi yükünü azaltmaq sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasına və təşəbbüskarlığın inkişafına təminat verir. Aydındır ki, dövlət gəlirlərini artırmaqla məhsul (iş və xidmət) istehsalçılarının bir nəfərinə düşən vergi yükünü artırmaq sayəsində deyil, istehsalı artırmaq hesabına vergitutma bazasını genişləndirmək əsasında yaranır. Lakin mütəxəssislərin fikrincə, "Laffer əyrisi" təkcə qeyd edilən asılılığı ifadə etməklə dövlət büdcəsi üçün əldə edilən vergilərin qəbul edilən kəmiyyəti barədə dəqiq təsəvvürü formalaşdırmır (Kəlbiyev, 2005: 468).

Həmin kəmiyyətin səviyyəsi müəyyən bir ölkədə fəaliyyətdə olan vergi ödəyicilərinin maliyyə vəziyyətindən, habelə ölkədə mövcud olan iqtisadi durumdan asılıdır.

İnkişaf etmiş bazar iqtisadiyyatına malik ölkələrdə vergi sisteminin qurulması ilə bağlı müəyyən göstəricilər sistemi işlənib hazırlanmışdır. Həmin göstəricilərin mümkün son hədd qiymətini ötdüyü təqdirdə sahibkarlıq fəaliyyətindən danışmaq olmaz. Təcrübə sübut edir ki, vergi ödəyicilərinin gəlirlərinin 30-40%-ni aldığı təqdirdə yığımın azalması baş verir və ölkə iqtisadiyyatına sərmayələrin həlli azalır. Bir çox mütəxəssislərin qənaətinə görə, əgər vergitutma səviyyəsi vergi ödəyicilərinin gəlirlərinin yarıya qədərini almağa şərait yaratdığı təqdirdə sahibkarlıq subyektlərinin təşəbbüskarlıq fəaliyyətinə və istehsalın təşkilinin təkmilləşdirilməsinə olan maraq azalır (Kəlbiyev, 2005: 468).

Dünya təcrübəsində vergi yükünü müəyyən etməyə fərqli yanaşmalar arasında vergi potensialı, əhaliyə düşən vergi yükü səviyyəsi və ölkə iqtisadiyyatı üzrə əsas makroiqtisadi göstəricilər əsasında müəyyənləşdirilən, makrosəviyyədə vergi yükü səviyyəsinin və onun dinamikasını təyin edən vergilərin ÜDM-də payının hesablanması metodologiyaları mövcuddur. Lakin fikrimizcə, vergi yükünü hesablamağa belə yanaşmalar iqtisadiyyatın fərqli sahələrini təmsil edən fərqli təsərrüfat subyektlərinin iqtisadi nəticələrinin müqayisəsini istisna edir. Bundan əlavə, etiraf olunmalıdır ki, makrosəviyyədə vergi yükünü hesablayarkən bu metodologiyadan yararlanmaq məqbul sayılır.

Dünya ölkələri üzrə vergi təcrübəsində makrosəviyyə halında vergi yükü göstəricisini hesablamaq üçün vergini hansı səviyyədə büdcəyə və büdcədənkənar fondlara ödəməkdən asılı olmadan vergi ödəyicilərinin ödədiyi bütün vergi məbləğinin ÜDM-in həcmində faizlə nisbəti tapılır.

### 3. Azərbaycan Respublikasında vergi yükü göstəricisinin mövcud vəziyyətinin qiymətləndirilməsi

Aparılan tədqiqatların nəticəsindən görünür ki, respublikamızdakı iqtisadi subyektlərin faktiki vergi yükü ölkənin müvafiq ortalama göstəricisindən xeyli yuxarıdır. Odur ki, fikrimizcə, vergilərin sahibkarlığa təsiri zamanı ölkə iqtisadiyyatının xüsusiyyətləri nəzərə alınmalıdır. Məsələ burasındadır ki, respublikada vergi sistemini formalaşdırarkən mülkiyyətin formasından və inzibati-ərazicə yerləşməsindən asılı olmadan vergi ödəyicilərinin hamısına bərabər münasibət göstərilib. Təhlil isə sübut edir ki, verginin əsas ağırlığı müəyyən, tədricən də məhdudlaşan vergi ödəyicilərinin üzərinə düşür. Odur ki, mütəxəssislərin də təsdiq etdiyi kimi, ölkənin vergi sistemində vergi yükünü aşağı endirmək problemi iqtisadi agentlərin icra etdikləri bütöv maliyyə-təsərrüfat əməliyyatları dəstinin vergilərə cəlb olunmasının nəticəsi olaraq vergitutma bazasını genişləndirmək, iqtisadiyyatda ödəmələrlə problemini aradan qaldırmaq və maliyyə-vergi intizamını möhkəmləndirməklə sıx bağlıdır" (Kəlbiyev, 2005: 468).

Araşdırmalardan aydın olur ki, ÜDM-ə nisbətdə hesablanan vergi yükü göstəricisi fərqli istehsal sahələri və iqtisadiyyatın ayrı-ayrı sektorları üzrə müəssisələrin vergi öhdəliklərinin mövcud gərginliyini yetərli qədər tam əks etdirmir. Odur ki, iqtisadi agentlərin hər birinə düşən vergi ağırlığını göstərən nisbi göstəricinin tətbiqi məqsədəuyğun sayılır. Respublikamızda sahibkarlıq fəaliyyətində çalışan iqtisadi subyektlərin mövcud maliyyə durumu və onların inkişafının hazırkı təmayülü onu deməyə imkan verir ki, ölkədə yeni yaradılmış dəyərə əsasən müəyyən edilən məqbul nisbi vergi yükü göstəricisi 35-40%-dir. Unutmaq olmaz ki, iqtisadiyyatın aparıcı sahələri üçün daha yüksək vergi yükü göstəricisi nəinki sahibkarlıq fəaliyyətini zəiflədir, həm də onların maliyyə-təsərrüfat işini iflasa uğradır. Odur ki, istənilən təsərrüfatın vahidinə düşən maksimum nisbi vergi yükü səviyyəsinin 50%-dən artıq olmaması tövsiyə edilir.

Prof. Y. Kəlbiyevin fikrincə, vergitutmanın güzəştli rejimi özünü doğrultsa da, "...kiçik sahibkarlığın böyük əksəriyyəti üçün onun tətbiqinin motivi son dərəcə mənfidir-qanuni yolla vergitutmadan yayınmalıdır" (Kəlbiyev, 2005: 468). İqtisadçı alim hesab edir ki, xüsusi hesabların daxil edilməsi zamanı bu verginin ƏDV-dən yayınmanın rəsmi üsulu kimi mənfi rolu daha da arta bilər. Odur ki, kiçik sahibkarlıq üçün ənənəvi ƏDV çəriçvəsində əlverişli vergi mühitinin yaradılmasına ehtiyac vardır.

Vergi sisteminin mühüm vəzifəsi həm xarici, həm də daxili amillərin təsiri altındakı iqtisadi subyektin vergi şərtlərinə istinadən vergi vəziyyətinin qiymətləndirilməsidir. Xarici amillərin təsiri müxtəlif normativ-hüquqi aktların iqtisadi subyektin işləmə şərtlərini müəyyən edən fəaliyyətinə təsirlə müəyyən edilir. Daxili amillər - təşkilatın: mülkiyyət forması, təşkilati-hüquqi forması, növləri, xarakteri, fəaliyyət miqyası, qəbul edilmiş uçot siyasəti və s. kimi xüsusiyyətlərin məcmusudur.

**4. Vergi sisteminin müasir anlayışlarının konseptual tədqiqinin təkmilləşdirilməsi**

Bəzi alimlər öz tədqiqatlarında vergi mühiti anlayışından istifadə edirlər ki, bu da təsərrüfat subyektlərinin fəaliyyətinə birbaşa və dolayı təsir göstərən vergitutma sistemi ilə bağlı müxtəlif amillər kompleksidir.

There are also different interpretations about why the Syriacs could not benefit from the protection of non-Muslim minority that was regulated in the Treaty of Lausanne. Accordingly, İlyas Efendi, the leader of the Syriacs at that time and known for his contributions to the War of Independence renounced their rights with the establishment of the republic (Bayburt, 2010). However, the minority rights are given to the community, but the use of them is individual. The rights that are guaranteed by an international agreement, therefore, cannot be removed by the leader of a community. The following leaders of Syriac community also emphasised that the renunciation of Ilyas Efendi cannot be accepted by the community.

Syriacs have been deprived of some rights in education due to the narrow interpretation of the Treaty of Lausanne. These problems involving religious education and language education could be solved thanks to the Treaty of Lausanne, the European Convention on Human Rights and other international conventions, but Turkey interprets these treaties narrowly. As a result, Syriacs enrol for public schools, since they cannot have their own schools. They had to take compulsory religion lessons here. There are also legal problems in raising clergy. Although some limitations were introduced around 1980s, Syriacs continued to teach the language in their churches and monasteries (Çelik, 2010).

Another regulation accepted by international law but not implemented by Turkey is related to the use of foreign names. The Law on Surnames, accepted in 1934 stated that "surnames with the names of foreign races and nationalities cannot be taken". A Syriac went to the court to change his surname in 2019 and the court refused the application on the ground of the law on surnames. The case was proceeded in the European Court of Human Rights (ECtHR). The ECtHR decided that Turkey violates Article 8, which regulates right to respect for private and family life (European Commission, 2020).

Turkey lacks implementation of international protection mechanisms for minorities. The narrow interpretation of the Treaty of Lausanne and the avoidance of fulfilling the verdict of the ECtHR are examples of the reluctance of Turkey to implement international enforcement mechanisms. The historical troubles that Turkey stimulates the fear that a right-based approach would harm the unity of the nation. However, these mechanisms can offer a solution to some extent to the problems of minorities, including Syriacs.

4.2. Economic Problems of the Syriac Community after Immigration

As mentioned before, large part of Syriac community migrated from the South-eastern Turkey, especially Tur Abdin region, to Istanbul and abroad. Later, when Syriacs wanted to return to their

homelands, they realised that their properties are controlled by other ethnic groups as a result of the modernization in the land registry and cadastre system (Tozman, 2012, p. 145). The improvements of the land registry system carried out within the scope of the EU harmonization laws, but at this stage, these lands could not be distributed to the right holders as the Syriacs were not in the region and the Kurdish villagers were testifying in line with each other's interests. Lands belonging Syriacs were claimed by their Kurdish neighbours, registered in their own name or forcibly confiscated (Güsten, 2015, p. 11). that Syriacs returned to their hometowns saw Kurdish citizens in their homes and lands. The people refused to give the lands back to their previous owners. The Syriacs, who migrated from their lands due to some security threats, lost their territories when they returned. This situation discourages other Syriacs to return to their homelands.

The lands of those who are not in the region have passed not only to the third parties but also to the state (Hacaloglu, 2014). The reason for the expropriation here is the fact that the lands have not been cultivated and left unclaimed for twenty years. The state confiscated the land of the Syriac community because their land is perceived as a forest land. However, the State ignored the fact that people had to migrate from these lands not with their own will, but because of terrorism and security reasons. A Syriac lawyer stated that "these problems arise because the law does not ask why the people who migrated left their lands or why they had to leave the region". This situation affected not only Syriacs but also other minority groups, such as Yazidis and Kurds.

The expropriation problem becomes concrete in the example of Mor Gabriel Monastery. The land that belongs to Mor Gabriel Monastery Foundation was confiscated by the State. The non-Muslim foundations are established through a decree of Sultan during the Ottoman Empire. These foundations therefore did not have any deed on the contrary to the Muslim associations. After the republic is established in 1923, these non-Muslim associations are recognized. Later in 1936, the government accepted the 1912 Foundation Certificate (*Vakıfname)* as the founding documents for the non-Muslim foundations. The properties that were obtained between 1912 and 1935 were confiscated by the State. The land that belonged to the Mor Gabriel Monastery was therefore confiscated by the State. The Syriac minority took the case to the European Court of Human Rights (ECHR).

The democratization process has also positively affected the Assyrians' right to property, but it was a limited impact. The lands of the Mor Gabriel Monastery, which were transferred to the Treasury as a result of the decision of the Supreme Court of the Foundations Council on October 7, 2013, were returned (European Commission, 2013). Syriacs welcomed the decision. Whereas lands that were confiscated by the State could be returned, other properties that were transferred third parties are not given back. There are problems about individual properties and properties that belong to the minority.

The only way to solve the problem would be to amend the laws in accordance with the 'Pinheiro' Principles, which are also accepted by the United Nations, to take the lands back from the third parties who have legitimate rights after the expropriation process. The establishment of temporary institutions for the implementation of duties stemming from international law and follow-up of these principles is necessary. The implementation of international principles would help the Syriacs to solve their economic problems to some extent. Politicians have made some commitments to solve the property problems of Syriacs. Delegation of Syriacs in Sweden visited the President of the period in 2013. The President, who went to Sweden for official contacts in the same month, met with the Syriacs there again. In these meetings, the Deputy Prime Minister and the Minister of Culture and Tourism called on the minorities who had to leave their country or migrate due to "mistakes made in the past" to return to Turkey (European Commission, 2013, p. 62).

In addition to the property problems, Syriacs prefer to stay abroad because of various economic problems. The length of the legal processes and the high costs discourage the Syriacs to take further steps to protect their rights. The lack of employment and job opportunities, together with the lack of opportunities for investors decrease the will of Syriac to return to Turkey.

### 4.3. The Impact of Conflict

Syriacs have been affected by the nationalist movements and conflicts in the region, especially as the nationalist movement gained strength in the Middle East. For example, in the 1960s, Assyrians were under the influence of the secular Arab and Kurdish nationalist movements that spread in Iraq (Leezenberg, 2018, p. 246). Assyrians, defined by the Kurdish movement as Christian Kurds and by Arabs as Christian Arabs, were exposed to assimilationist policies in Iraq, and their speaking Syriac language was banned or restricted

(Leezenberg, 2018, p. 246). As a reaction to the repression policies in Iraq, the Syriac Democratic Movement was formed in 1979 (Leezenberg, 2018). Despite being a secular movement, this movement, which tried to be suppressed by the dominant Baathist movement, had to emigrate with the Iran-Iraq war and re-established the Eastern European Patriarchate in Chicago (Leezenberg, 2018). Sectarian differences still exist today, even these sectarian differences affect language-related factors, it took 1993 to achieve unity in language. (Leezenberg, 2018). The Assyrians, who were exposed to nationalist and assimilationist policies in all of the geographies they lived in, had to hide their identities in most cases or were exposed to assimilationist policies.

In Turkey, Syriacs were affected by the conflict in the Southeastern Anatolia region and started to migrate from the region on the grounds that they did not have the safety of their lives. The intensification of the migration wave from Turkey in the 1970s and 80s is a side effect of the conflicts in the region.

Today, the return of their lands is also creating a tension between Syriacs and Kurdish people. Whereas Kurdish people would like to keep the land that they cultivated for a long time, Syriacs rightly so demanded to take their lands back. In fact, the Syriac deputy Erol Dora stated that the main problem of the region is that "weapons, not law, are superior in the region". The disputes that will arise as a result of the division of land between the Kurds and the Syriacs who have returned to their lands will cause hostile feelings (Güsten, 2015, p. 12).

In the past, there are quite a lof cases in which the Syriac clergy are kidnapped, such as Head of Tur Abdin Mor Gabriel Foundation Kuryakos Ergün and Daniel Savcı are kidnapped in 2007, two Syriac metropolits similarly were kidnapped in 2013 (Yılmaz, 2015, p. 19). Erol Dora asked to the Parliament to create a parliamentary commission to investigate the murders of Syriacs since 1980 till today by unknown assailants. Similarly, the Syriac diaspora in Sweden shows that especially in 1987-88, many Syriacs are killed in the East and Southeast of Anatolia (Yılmaz, 2015, p. 19). The conflict in the region affected the Syriac community negatively. They were victims of the violations, therefore scared of returning back to their lands.

## Conclusion

Syriac society, which is a richness for the cultural heritage of Turkey have an incoherent access to rights. Their situation has ameliorated in 2000s thanks to the Europeanization process of that term. The cultural and economic situations are improved at that time by opening of the Syriac language institution in the Mardin Artuklu University, letting students exempt from compulsory religious classes, and returning some of the lands of non-Muslim foundations. However, the improvements of that time were not long-lasting.

On the other hand, Syriacs experience still ongoing violation of human rights. The exemption of the Syriacs from the Lausanne Treaty forces them not to benefit of the protection on the contrary to the Jewish, Armenian and Greek minority. Besides, the economic problems in Turkey, especially in the South-eastern Anatolia region force the Syriac to immigrate to Western countries. The protection of the culture, thus, becomes important and difficult for the Syriacs. Last but not the least, the conflict in the region make the Syriacs victim of violations. Their leaders are kidnapped for ransom, and they are victim of suspicious murders.

## REFERENCES


1. Bayburt, D. (2010). Milli Mücadele Dönemi'nde Süryaniler. *Gazi Akademik Bakış, 3*(6), 45–72.
2. Çelik, A. (2010). *Çokkültürlü gavur mahallesinden gettolaşan Hançepek'e bir mahallenin sosyal dönüşüm:Diyarbakır-Hasırlı Mahallesi örneği*. http://dspace.sozlutarih.org.tr/handle/20.500.11834/221
3. Erdem, F. H., & Öngüç, B. (2021). Süryanice Anadilinde Eğitim Hakkı: Sorunlar ve Çözüm Önerileri. *Dicle Üniversitesi Hukuk Fakültesi Dergisi*, *26*(44), 3–35.
4. European Commission. (2003). *2003 Regular Report on Turkey's progress towards accession {COM(2003) 676 final*. https://op.europa.eu/en/publication-detail/-/publication/deffe767-febd-4228-8c07-657380ffa3cf
5. European Commission. (2013). *2013 Progress Report on Turkey*. https://www.europarl.europa.eu/doceo/document/TA-7-2014-0235_EN.html

6. European Commission. (2020). *Turkey 2020 Progress Report*. https://ec.europa.eu/neighbourhood-enlargement/system/files/2020-10/turkey_report_2020.pdf
7. Grigoriadis, I. N. (2008). On the Europeanization of Minority Rights Protection: Comparing the Cases of Greece and Turkey. *Mediterranean Politics*, *13*(1), 23–41. https://doi.org/10.1080/13629390701862574
8. Güsten, S. (2015). *Turabdin'deki Süryani Taşınmazları Sorunu* (IPM-Mercator Politika Notu). Sabanci University. https://ipc.sabanciuniv.edu/Content/Images/CKeditorImages/20200323-14033161.pdf
9. Hacaloglu, H. (2014). Süryanilerin Bitmeyen Varlık Mücadelesi. *Amerikanın Sesi*. https://www.amerikaninsesi.com/a/s%C3%BCryanilerin-bitmeyen-varl%C4%B1k-m%C3%BCcadelesi/1897051.html
10. Hermez, M., & Al-Taji, B. (2022). *Home Away from Home: A comparative study on identity, collective memory and integration with first and second-generation Assyrians in Sweden*. http://urn.kb.se/resolve?urn=urn:nbn:se:hj:diva-57544
11. Istanbul-Ankara Suryani Ortodoks Metropolitligi. (n.d.). *Istanbul-Ankara Suryani Ortodoks Metropolitligi*. Istanbul-Ankara Suryani Ortodoks Metropolitligi. Retrieved 8 August 2022, from http://www.suryanikadim.org/tarihimiz.aspx
12. Koluman, A. (2001). *Ortadoğu'da Süryanilik*. Ankara: Asam Yayinlari.
13. *Lausanne Treaty*. (1923). Republic of Turkey Ministry of Foreign Affairs. http://www.mfa.gov.tr/lausanne-peace-treaty-part-i_-political-clauses.en.mfa
14. Leezenberg, M. (2018). Transformations in Minority Religious Leadership: The Yezidis, Shabak, and Assyrians in Northern Iraq. *Sociology of Islam*, *6*(2), 233–260. https://doi.org/10.1163/22131418-00602005
15. Oran, B. (2007). The Minority Concept and Rights in Turkey. In Z. F. K. Arat, *Human Rights in Turkey* (pp. 35–56). University of Pennsylvania Press.
16. Oran, B. (2008). *Türkiye'de Azınlıklar, Kavramlar, Teori, Lozan, İç Mevzuat, İçtihat, Uygulama*. İletişim Yayınları.
17. Law no: 4963, 4963, 4963 (2003). https://www.resmigazete.gov.tr/eskiler/2003/08/20030807.htm
18. Tasdemir, H., & Saracli, M. (2006). Avrupa Birligi ve Turkiye Perspektifinden Azinlik Haklari Sorunu. *Review of International Law and Politics*, *2*, 25.
19. Tozman, M. (2012). Cadastral Registration of Lands and Preservation Orders in Turkey's South-East: Subtle forms of Discrimination? In P. H. Omtzigt, Markus Tozman, & A. Tyndall, *The Slow Disappearance of the Syriacs from Turkey: And of the Grounds of the Mor Gabriel Monastery* (pp. 139–157). Lit Verlag.
20. Yalçinkaya, A. (2022). Uluslararası Hukuk Süjesi Olarak Türkiye'deki Süryani Toplumu. *FSM İlmi Araştırmalar İnsan ve Toplum Bilimleri Dergisi*, *19*, 89–116. https://doi.org/10.16947/fsmia.1136435

# XIX ƏSRDƏ AZƏRBAYCANDA ŞƏRQ-İSLAM-TÜRK FƏLSƏFƏSİ VƏ QƏRB-AVROPA FƏLSƏFƏSİNİN SİNTEZİ PROBLEMİ

**f.f.d., dos. Faiq ƏLƏKBƏRLİ**[37]


## Xülasə

Ümumilikdə, ilk növbədə, XIX əsrdə Azərbaycan Türk fəlsəfi və ictimai fikrində iki inkişaf xəttini: 1) milli-dini mədəniyyət (Şərq-İslam-Türk) və 2) Avropa-Qərb mədəniyyəti əsasında fəlsəfi fikrin inkişafı yollarını izləndiyini gördük. Ancaq bu bəzi Azərbaycan Türk mütəfəkkirləri üçün yetərli hesab olunmadığı üçün, XIX əsrin ikinci yarısında, xüsusilə də həmin əsrin sonların doğru yeni bir inkişaf yolu da meydana çıxmışdır. Üçüncü xəttin tərəfdarları hesab edirdilər ki, yalnız milli-dini mədəniyyət əsasında fəlsəfi fikri inkişaf etdirmək çətin olduğu qədər, eyni zamanda Avropa-Qərb mədəniyyətini ideallaşdıraraq bunu əvəzində milli-dini adət-ənənələri tamamilə gözardı etmək də doğru deyildir. Ona görə də, bu məsələdə ən məqbul variant milli-dini dəyərlərlə Avropa-Qərb dəyərləri arasındakı mənfi cəhətləri görməklə yanaşı, müsbət tərəfləri də ortaya çıxarıb uzlaşdırmaq zəruridir. Şübhəsiz, bununla bağlı bir tərəfdən fərqliliklərin antaqonist ya da qeyri-antaqonist dərəcələrinin müəyyənləşdirilməsi, digər tərəfdən Qərb mədəniyyətinə münasibətdə müsbət və mənfi cəhətlər dedikdə, nəyin nəzərdə tutulması məsələlərini ortaya çıxarmaq heç də asan olmamışdı.

Hesab edirik ki, bununla bağlı, yəni Şərq-İslam dəyərləri ilə Qərb-Xristian dəyərləri arasında hansı anlamda uzlaşmanın ortaya qoyulmasından daha çox Qərbin ortada olan elm və sənayesinin, texnologiyasının müsəlman-türk dövlətlərində (Qacarlar, Osmanlı və b.) tətbiqinin ön plana çıxması heç də doğru bir addım olmamışdır. Xüsusilə, Osmanlı və Qacarlar dövlətlərinin rəhbərlərinin daha çox sonuncu məsələdə israrlı olmaları onları inkişafa götürməmiş, hətta Avropa dövlətlərinin nüfuzunun daha da artmasına səbəb olmuşdur. Əslində burada başlıca məsələ, Qərb elminin, sənayesinin, fəlsəfəsinin, texnologiyasinin, bir sözlə mədəniyyətinin Qacarlar, Osmanlı kimi türk-müsəlman dövlətlərində kor-koranə tətbiqi deyil, milli-dini mədəniyyətlə oxşar və fərqli cəhətlərinin eninə-boyuna geniş şəkildə təhlil edilərək uzlaşdırılması anlamında həyata keçirilməsi daha məqsədə uyğun olardı. Ancaq biz bunun əvəzində görürük ki, Osmanlı "Tənzimat" qərarı, Qacarlar isə buna oxşar addımlarıyla daha çox Avropa-Qərb dövlətlərini təqlid yolunu tutmuş, bununla da öz süqutlarının təməl daşlarını atmışlar.


***Açar sözlər:*** *İslam dini, Müasirlik, Qərb mədəniyyəti, Şərq mədəniyyəti, Türk mədəniyyəti, Azərbaycan Türk maarifçiliyi*

## Eastern-Islamic-Turkish philosophy and The problem of the synthesis of Western-European philosophy


## Summary

In general, first of all, we saw two lines of development in Azerbaijan Turkish philosophical and social thought in the 19th century: 1) national-religious culture (Eastern-Islamic-Turkish) and 2) ways of developing philosophical thought based on European-Western culture. However, since this was not considered sufficient for some Azerbaijani Turkish thinkers, a new way of development appeared in the second half of the 19th century, especially towards the end of that century. Supporters of the third line believed that it is not only difficult to develop a philosophical idea based on the national-religious culture, but at the same time it is not correct to completely ignore the national-religious traditions by idealizing the European-Western culture. Therefore, the most acceptable option in this matter is to see the negative aspects between the national-religious values and the European-Western values, as well as bring out the positive aspects and reconcile them. Undoubtedly, on the one hand, it was not easy to determine the antagonistic or non-antagonistic degrees of differences, and on the other hand, to reveal the issues of what is meant by positive and negative aspects in relation to Western culture.

We believe that in this regard, i.e., the application of Western science, industry, and technology in the Muslim-Turkish states (Qajjars, Ottomans, etc.) is more important than the establishment of a reconciliation between Eastern-Islamic values and Western-Christian values. was not a right step. In particular, the insistence of the leaders of the Ottoman and Qajar states on the latter issue did not lead to their development, but even led to an increase in the influence of the European states. In fact, the main issue here is not the blind application of Western science, industry, philosophy, technology, in short, culture in Turkish-Muslim states such as the Gajars and the Ottomans, but in the sense of comprehensively analyzing and reconciling their similarities and differences with the national-religious culture. would be more appropriate. However, we see instead that the Ottoman "Tanzimat" decision, and the Gajars, with their similar steps, followed the path of imitating more European-Western states, thereby laying the foundation stones of their downfall.


***Keywords:*** *Islamic religion, Modernity, Western culture, Eastern culture, Turkish culture, Azerbaijani Turkish enlightenment*

[37]**Azərbaycan Əmək Münasibətləri Akademiyası, faikalekperov@mail.ru**

***UOT 1(091***

**Giriş**

XIX əsrdə Azərbaycanda milli-dini mədəniyyətlə Avropa-Qərb mədəniyyəti arasında "sintez"in düzgün qurulması və üçüncü, ancaq doğru bir milli inkişaf yolunun müəyyənləşməsində əsasən C.Əfqani, H.Zərdabi və M.Ə.Talıbzadə, müəyyən qədər də S.Ə.Şirvani, M.T.Sidqi, Ə.Gorani və başqaları mühüm rol oynamışlar. Şübhəsiz, XIX əsrdə bu məsələnin həlli yolunda ən mühüm rolu Azərbaycan Türk filosofu Cəmaləddin Əfqani oynamışdır. Çünki Əfqani Qərb mədəniyyətinin inkişafının əsil mahiyyətini dərindən bilməklə yanaşı, eyni zamanda müsəlman ölkələrindəki geriliyin, cəhalətin, avamlığın, despotizmin həqiqi üzünü də yetərincə dərk edə bilmişdir. Bizcə, Əfqaninin əsas üstünlüyü bir tərəfdən milli-dini mədəniyyət, daha çox da İslam mədəniyyətinə əsaslanan xəttin nümayəndələrinin mütərəqqi cəhətləri ilə, Qərb dəyərlərinə həddən çox aludə olmuş yolun təmsilçilərinin də reallıqla uyğunlaşan mülahizələrini doğru dəyərləndirmək bacarığının olması idi. Başqa sözlə, aşağıda da görəcəyimiz kimi, Əfqani həm milli-dini dəyərlərdən imtina etmədən onun müsbət cəhətlərinin yenidən dirçəldilməsi məsələsində, həm də Qərb dəyərlərinin kor-koranə tətbiqi deyil də, onun Şərq-İslam mədəniyyəti ilə uzlaşa biləcək cəhətlərinin milli-dini dəyərlərə zərər vermədən, həyata keçirilməsinin mümkünlüyünü ortaya qoyması idi.

Bizcə, həmin dövrdə Əfqaninin doğru müəyyənləşdirdiyi bu inkişaf xəttinə ən çox yaxınlaşan Azərbaycan Türk mütəfəkkiri Zərdabi olmuşdur. Belə ki, Zərdabi də bəzi kiçik kənara çıxmaları nəzərə almasaq, həm milli-dini dəyərlər məsələsinə münasibətdə, həm də Qərb dəyərlərinin hansı şəkildə mənimsənilməsi və tətbiqində doğru yol tutmuşdu. Zərdabi ifrat Qərb mədəniyyəti tərəfdarlarından fərqli olaraq doğru hesab edirdi ki, bir millətin inkişafı üçün real olaraq əlimizdə olan milli-dini və Qərb dəyərlərinə aid istənilən vasitədən istifadə etmək lazımdır. Bu anlamda Zərdabinin millətdaşlarının və dindaşlarının yenidən oyanışı üçün milli teatrın, mili mətbuatın əsasını qoyması, əslində Azərbaycanda İslam-Şərq mədəniyyəti ilə Avropa-Qərb mədəniyyətinin müsbət anlamda uzlaşmasının bariz örnəyi idi. Çünki burada Zərdabi üçün önəmli olan teatr və qəzetin "kafir"in ixtirası olub olmaması deyil, məhz həmin vasitələrlə millətinə xidmət etməsi idi.

Həmin dövrdə yaşamış Mirzə Əbdürrəhim Talıbzadə də Əfqani və Zərdabi kimi, milli-dini dəyərlərlə Avropa-Qərb dəyərlərinin şüurlu və milli mənafeyə zərər verməyəcək yönündə uzlaşdırılmasının vacibliyini anlayan böyük mütəfəkkirlərmizdən biri olmuşdur. Talıbzadənin əsərlərində də («Kitabi-fizik ya hikməti-təbiiyyə», «Məsaili-həyat», «Əhmədin kitabı», «Məsalikül-möhsinin» və b.) başlıca məsələ bir tərəfdən milli-dini dəyərlərə kor-koranə deyil sözün həqiqi mənasında sahiblənməyin vacibliyi, digər tərəfdən isə tərəqqi yoluyla irəliləyən Qərb mədəniyyətinə yanaşmada ehtiyatkarlığın və bundan nəticə çıxarmağın əhəmiyyəti geniş şəkildə təhlil olunmuşdur.

**1.Cəmaləddin Əfqaninin Milli-Dini Və Qərbçilik Sintezi**

C.Əfqaninin yaradıcılığında din və millət məsələləri bir-birinə ziddiyyət yox, əksinə bərabərlik təşkil edir. İslam əsasında dini birliyi vacib saymaqla yanaşı Əfqani yazırdı ki, İslam dinində olan millətlər öz tərəqqilərinə nail olmaq istəyirlərsə, ilk növbədə özlərini tanımalı, soyuna, kökünə bağlanmalı, dilinə sarılmalıdırlar **(**Qurbanov,1997:19).

Bu baxımdan C.Əfqaninin «Milli vəhdət fəlsəfəsi və dil birliyinin həqiqi mahiyyəti» əsərində dil, din, millət, milliyyət, dövlət anlayışlarla bağlı fikirləri böyük əhəmiyyət kəsb edir. O, yazırdı: "Millətdən kənarda səadət yoxdur, dilsiz də millət ola bilməz. Əgər dil millətin bütün sənət və peşə sahiblərinin ünsiyyəti və istifadəsi üçün lazımi ehtiyacı təmin etmirsə, onu dil adlandırmaq olmaz". **(**Qurbanov,1997:187).

C.Əfqaninin fikrincə, dil birliyi olmasa, milli birliyin həqiqi mahiyyəti və həyat gücü ola bilməz. Dil birliyi insanlar arasında çox mühüm əhəmiyyət kəsb edən əsas əlaqə vasitəsidir: «O (dil birliyi – F.Ə.), müxtəlif məzhəbə qulluq edən tayfaları, müxtəlif arzularla yaşayan qəbilələri vahid bir millət bayrağı altına səsləyən, onların gücünü-qüvvəsini birləşdirib, bir məqsədə doğru yönəldən, ictimai qüsurları birlikdə dəf etməyə, milli çətinlikləri birlikdə aradan qaldırmağa çağıran, ümumxalq səadətinə nail olmaq, müsibət və bədbəxtliklərdən nicat yolları arayıb tapmaq üçün hamını yekdil, həmrəy olmağa dəvət edən gözəl yaşayışdan ibarət təzə həyata qovuşduran, vətəndaşlarının əyinlərinə istiqlal paltarı geyindirən əsas vasitədir» **(**Qurbanov,1997:187).

O, daha sonra dilin millətin həyatında önəmliliyi ilə bağlı yazırdı ki, bir millətin özünəməxsus dilinin olması onun varlığının ortada olması üçün ciddi əsas verir. Ancaq bu o zaman işə yarar ki, bir millətin tarixinə, ədəbiyyatına, fəlsəfəsinə aid məsələlər doğma dildə təzahür etsin. O yazır: "Alimlər millətin mahiyyətini və ariflər onun məziyyətlərini o zaman yaxşı aşikar və zahir edərlər ki, təhsil, təlim, tədris, milli təbəqlərin fənlərdən və sənətlərdən istifadəsi o millətin öz dilində olsun". Eyni zamanda, o, hesab edir ki, dil daim qüdrətli olmalıdır, çünki bir

millətin ayaq üstə durması dilin daim inkişafda olmasından da asılıdır. Başqa sözlə, bir dilin istilahları və ahəngdarlığı yetərli olmalıdır ki, milləti irəli apara bilsin. (Qurbanov,1997:188).

Əfqaniyə görə, milli birliyin ana sütununu təşkil edən dil birliyi, hətta dini birlikdən daha möhkəm və sabitdir. Bu isə o deməkdir ki, bir milləti sonsuza qədər var edən din deyil, məhz dildir. Çünki dindən fərqli olaraq dil az müddət ərzində dəyişməyi və ya başqası ilə əvəz olunmağı qəbul etmir. Halbuki din məsələsinə gəldikdə görürük ki, tarixdə bir neçə dəfə dinlərini dəyişən millətlər olub, ancaq dilləri sayəsində öz varlıqlarını bu günə qədər qoruyub saxlaya biliblər. O, yazırdı: "Tarix göstərir ki, eyni bir dildə danışan bir millət min il ərzində öz dilinə ciddi xələl gətirmədən dinini dəyişir, başqası ilə əvəz edir. Buna görə də dil birliyindən yaranan əlaqə və ittifaqın təsiri dini əlaqələrin təsirindən daha güclüdür». (Qurbanov,1997:187).

Deməli, C.Əfqani müxtəlif millətlərin bir araya gəlməsi üçün din birliyinin vacibliyini dərk etsə də, ancaq dinlə müqayisədə bir millətin öz varlığını dərk etməsi üçün dil birliyinin millətin həyatında daha mühüm rol oynadığını etiraf etmək məcburiyyətində qalmışdır.

Hər bir millətin taleyində dinlə yanaşı dilin mühüm əhəmiyyətindən bəhs etməklə yanaşı Əfqani hesab edirdi ki, cəmiyyətin inkişafı üçün hər bir millətin içərisində aşağıdakı milli-dini ruhlu alimlər, qanunşünaslar, siyasi xadimlər də olmalıdırlar: "Faydalı elmləri yayan ziyalılar, cəmiyyət üçün xeyirli fənləri təsis edən yaradıcı fazil və alimlər, insan hüququnu mühafizə edən siyasi xadimlər, fəzilətin və ədalətin keşikçiləri olan qanunşünaslar, xalqın əxlaqını saflaşdırmağa çalışan nəsihətçilər, lətif və şairanə kəlamlarla yatmış insanları oyadan və xalqın xarakterini qüvvətləndirən ədiblər və şairlər, öz sənətlərini elmi əsaslar üzrə inkişaf etdirən sənayeçilər, torpağını əkinçilik fənni əsasında əkib-becərən əkinçilər, iqtisadiyyat qanunları əsasında millətin ticarət yollarını arayıb tapan tacirlər" (Qurbanov,1997:188).

O, daha sonra qeyd edir ki, əgər bu təbəqələr hər hansı bir millətdə mövcud olmasa, o millətin fərdləri arasında məişət və həyati əhəmiyyətli əlaqələr get-gedə qırılar və millət məhv olar: «Nəticədə o millətin üzvləri digər millətlə birləşər və yeni milli libasda həyat səhnəsinə qədəm qoyar».Ona görə, milləti yaşatmaq istəyən alimlərin birinci vəzifəsi də odur ki, ana dilinin inkişafına laqyed olmasınlar, milli dilini qorusunlar: "... Elmlər, maarif, bütün sənət növləri hər millətin öz dilində tədris olunarsa və bu şərt həyata keçirilərsə, həmin millətin əsasları daha möhkəm, daha sabit olur və uzun müddət zavala uğramaz, hətta həmin millətin elmi və maarifi müəyyən bir dövrdə zavala uğramış olsa belə, bu millətin övladları və nəvələri öz sələflərinin kitablarından və əsərlərindən faydalanaraq dübarə özünün məhv olmuş millət və qövmünü dirildəcək, onu yeni şan-şöhrətə çatdıracaqdır". (Qurbanov,1997:188).

Hesab edirik ki, bir tərəfdən İslam birliyini müsəlman xalqlarını ən başlıca istiqaməti kimi görən Əfqaninin bütün bunlarla yanaşı, yalnız öz dininə, onun mükəmməlliyinə inanan xalqın həm də milli dəyərlərinə sahib çıxması kimi fikirləri, (Şükürov,2000:572) daha çox ziddiyyətlərə yol açmış, birmənalı qarşılanmamışdır. Çünki Əfqani üçün İslam birliyi ideyası eyni zamanda, əsas məqsədə - müsəlman xalqlarının ayrı-ayrılıqda milli azadlıqlarını əldə etməyə xidmət etməyə bərabər idi. Başqa sözlə, Əfqaninin hesab etməsi ki, İslam birliyi ideyası yalnız müsəlman xalqları arasında həmrəyliyə deyil, eyni zamanda ona inanan hər bir millətin milli azadlığını da əldə etməyə aparıb çıxaracaq, bu kimi mülahizələr problemlərə yol açmışdır.

Bəzi tədqiqatçılar hesab edirlər ki, Əfqaninin bu kimi fikirləri Osmanlıda ərəblərin, Qacarlarda farsların milli oyanışına səbəb olmuşdur. Hətta, bəzilərinin mülahizəsincə xüsusilə də, Qacarlarda farslar milli oyanış fikrinə düşmələrinə görə ilk növbədə, Əfqaniyə borcludurlar. Çünki Əfqani açıq şəkildə Qacarlar dövlətinin əleyhinə olmuş, hətta Nəsrəddin şah Qacarın öldürülməsinin əsas təşkilatçısı olmuşdur. Bununla da, Əfqaninin dolayısıyla Türk Qacarlar dövlətinin də əleyhdarı, eyni zamanda yəni bir hökumətin qurulmasının da tərəfdarı olduğu bildirilir. Bu mülahizələr irəli sürülərkən də, ömrünün axrıncı aylarını İstanbul həbsxanasında yaşamalı olan Əfqaninin Qacarlardakı məsləkdaşlarına yazdığı sonuncu məktub nümunə gösətərilir. O, bu məktubunda da yenilik selinin artıq Şərqə doğru axmaqda olduğunu və mütləqiyyət hakimiyyətinin bünövrəsinin məhvə məhkum olduğunu söyləyərək Qacarlar dövlətini məhv etməyə çağırmışdır: "Bacardığınız qədər bu hakimiyyəti bünövrədən dağıtmağa səy edin. Gücünüz çatdığı qədər İranın səadəti uğrunda çalışın. Gücünüzü başqa işlərə sərf etsəniz vaxtınız boşa gedər. Köhnə adətlərə alışmış adamları yolundan çəkindirməyə başlasanız, bu sizin işinizi ləngidər. Elə edin ki, sizinlə başqa xalqlar arasında mövcud olan maneələri aradan qaldıra biləsiniz. Mövhumatçılara uymayın"(Qurbanov, 1997:215).

Hesab edirik ki, Əfqaninin Qacarlar dövlətini istibdad kimi dəyərləndirib onun yenisi ilə (yenilikçi, hürriyyətçi, ədalətçi bir hökumətlə) əvəzlənməsi uğrunda çalışması bir həqiqət olsa da, ancaq yeni hökumətdə farsdilli qüvvənin ön planda ola bilməsi düşüncəsi doğru deyildir. Əlbəttə, Əfqaninin bu çağırışlarına farsdillilərin daha çox maraqlı olması, hətta Nəsirəddin şah Qacarın fars mənşəli irançı Ağa Kirmani tərəfindən

öldürülməsi də bir faktdır. Bizcə, ancaq Əfqaninin sonunda istədiyi Türk Qacarlar dövlətinin yıxılıb yerində fars bir hökumətin qurulması deyildi. Onu, daha çox düşündürən mütləqiyyətçi hesab etdiyi Qacarların devrilməsi və yerində yeni ədalətçi, qanunpərəst hökumətin yaranması idi. Ancaq Əfqaninin düşüncəsində Qacarlardan sonra onun yerinə farsdilli ya da türkdilli zümrədən hansının hakim olması məsələsi dəqiq deyildir. Sadəcə, bu bir həqiqətdir ki, Əfqaninin "İran" üçün arzuladığı yeni hökumət ideyasını türklərdən çox farsdillilər öz maraqlarına yönəldə bilmişdilər. Çünki hakimiyyətdə Türk Qacarlar oldğu üçün, Əfqaninin milli azadlıq ideyası, ya da mütləqiyyətin devrilməsi düşüncəsi türklərdən çox farsdillilərin işinə yaramışdır.

Digər tərəfdən, biz görürük ki, Osmanlıda da 2-ci Sultan Əbdülhəmid xan Əfqaninin İslam birliyi ideyasını ciddi şəkildə dəstəklədiyi halda, onunla razılşamadığı əsas məsələ müsəlman xalqlarını milli oyanışa, milli azadlığa səsləməsi olmuşdur. Çünki, Osmanlıda da Qacarlarda olduğu kimi, milli azadlıq düşüncəsi Türklərdən çox ərəblərin, kürdlərin, albanların və başqa qeyri-türk müsəlman və qeyri müsəlman millətlərin işinə yarayırdı. Bu anlamda 2-ci Sultan Əbdülhəmid xanın Əfqaninin müsəlman xalqları ilə bağlı milli azadlıq ideyasına müsbət baxmaması təbii idi. Ancaq bütün hallarda Əfqani yalnız qeyri-türk millətlərin deyil, eyni zamanda Osmanlı türklərinə də türkçülük hissinin aşılanmasında mühüm rol oynamışdır. Bununl bağlı, türkçülüyün ideoloqlarından olan Ziya Gökalp yazır: «Türk şairi Mehmet Emin bəyə türkçülüyü aşılayan, - özünün söylədiyinə görə, - Şeyx Cəmaləddin Əfqanidir. Misirdə Şeyx Məhəmməd Əbduhu, quzey-şimal türkləri arasında Fəxrəddin oğlu Ziyaəddini yetişdirən bu böyük islam devrimçisi-inqilabçısı Türkiyədə Mehmet Emin bəyi tapıb xalq dilində və heca vəznində millət sevgisiylə dolu şerlər yazmasını tövsiyə etmişdi».(Göyalp,1991:28)

Eləcə də bir sıra Azərbaycan Türk aydınları arasında da islamçılıqla, islam birliyi ideyası ilə yanaşı, türkçülük və türk birliyi düşüncəsinin formalaşmasında da Əfqaninin rolu danılmazdır. Məsələn, Mirzə Bala Məmmədzadə yazır ki, 20-ci əsrin əvvəllərində bir çox millətçilərin, o cümlədən, M.Ə.Rəsulzadənin ümmətçilikdən millətçiliyə, islamçılıqdan türkçülüyə keçməsində C.Əfqaninin böyük rolu olub. Xüsusilə də, Əfqaninin dil və dinlə bağlı fikirləri M.Ə.Rəsulzadəyə ciddi təsir göstərib (Məmmədzadə, 1992:50).

Doğrudan da, M.Ə.Rəsulzadə müsəlman dünyasının böyük ziyalısı, islam modernizminin banisi C.Əfqanidən islamçılıq, milliyyətçilik, müasirlik haqqında fikirlərini mənimsəyərək, onun «Milli birlik fəlsəfəsi» əsərini farscadan türk dilinə tərcümə edib «Türk yurdu» jurnalında nəşr etdirmişdir. Deməli, 20-ci əsr Azərbaycan Türk aydınlarının, o cümlədən Ə.Ağaoğlunun dünyagörüşündə "islam millətçiliyi"nin formalaşmasında, M.Ə.Rəsulzadənin isə ümmətçilikdən millətçiliyə, islamçılıqdan türkçülüyə keçməsində C.Əfqaninin rolu böyük olmuşdur.

Cəmaləddin Əfqaninin dünyagörüşünün özünəməxsusluğu odur ki, o, bir tərəfdən İslam dininin ilkin əsaslarına (Qurani-Kərimə və Sünnəyə) dəyişikliklərin edilməsinin əleyhinə olmaqla yanaşı, digər tərəfdən ona olunmuş əlavələrdən qurtulmağın və yeniləşmə ruhundan da geri qalmamağın yollarını göstərə bilmişdir. Əlbəttə, burada başlıca məsələ də İslamın ilkin əsaslarına toxunmadan zamanla necə ayaqlaşmağın yolunu göstərmək, eyni zamanda ona olunmuş əlavələrdən hansı formada qurtulmağın yollarını müəyyənləşdirməyi ortaya qoymaq idi. Əfqani İslam dininin ilkin əsaslarına toxunulmazlıq məsələsində yalnız bir müsəlman hissiyatından çıxış etməmiş, eyni zamanda Türk-İslam birliyi əleyhdarlarına qarşı mübarizədə bunun vacibliyini rasional şəkildə də idrak etmişdir. Başqa sözlə, həmin dövrdə hər cür əlavələrdən uzaq olan bir İslam dini, müsəlman ölkələrinə qarşı bütün sahələrdə səlib yürüşünə çıxmış antiislam, antitürk, antiinsani qüvvələrə qarşı (çar Rusiyası, Böyük Britaniya, Fransa və b.) əsas dayaq nöqtələrindən biri, hətta birincisi idi. Bu anlamda Əfqaninin də İslam birliyi fəlsəfəsindən möhkəm yapışaraq İslam dininin ilkin əsaslarını ortaya qoymağa çalışması və ona olunmuş əlavələrdən qurtulmaq üçün mücadiləsi müsəlman ölkələrinin əsas nicat yollarından biri idi.

Əfqaninin İslam birliyi fəlsəfəsi ilə yanaşı, müsəlman xalqları arasında milli oyanış, milli özünüdərk fəlsəfəsindən bəhs etməsinin isə bir neçə səbəbi olmuşdur. Birincisi, buna səbəb antiislam qüvvələrinin ideoloqlarının milliyyət, milli oyanış məsələsindən sui-istifadə etməsi idi. Çünki antiislami qüvvələr müsəlman xalqları arasında din və millliyyət məsələsini kəskin şəkildə qarşı-qarşıya qoyur, milli azadlığın ilk şərtlərindən biri kimi İslam dinindən birdəfəlik qurtulmağı irəli sürür, bu mümkün olmadığı halda mərhələli şəkildə həyata keçirilməsini təlqin edirdilər. Bizcə, Əfqani antiislami qüvvələrin bu ideyalarının qarşısını almaq üçün, onların planlarına uyğun deyil də, məhz İslam dinindən imtina etmədən də milli özünüdərkin vacibliyi məsələsini ortaya qoyurdu. Yəni Əfqaninin bu məsələdə də baxışı o idi ki, hər hansı müsəlman xalqının milli oyanışını İslam dininin təməl sütunlarına zidd şəkildə qələmə vermək düşmən işidir. Əslində isə İslam dini heç bir müsəlman xalqının dilini, mədəniyyətini, milli varlığını inkar etmir, sadəcə din ilə milli mədəniyyətin uzlaşmış şəkildə yaşamasının vacibliyini özündə ifadə edir. İkincisi, antiislami qüvvələr milli oyanış məsələsində yalnız Qərb

dəyərlərinin örnək alınmasını önə çəkərək, ümumilikdə Şərq dəyərlərini, o cümlədən də müsəlman xalqlarının hərəsinin özünəməxsus olan adət-ənənələrini aşağılamaq yolunu tutmuşdur ki, Əfqani haqlı olaraq bütün bunları qəbul olunmaz hesab etmişdir. Əfqani doğru hesab edirdi ki, hər hansı müsəlman xalqının milli özünüdərk məsələsini İslam dininə qarşı olaraq görməsi yanlış olduğu qədər də, bu yolda Qərb dəyərlərini təqlid yolunu tutması da müsəlman dövlətlərinin gələcəkdə bir arada olub birlik təşkil etməsinə əngəl olacaqdır.

Biz, bu gün İslam dünyasına aid olan ölkələrin dini birlik məsələsində ortaya qoyduqları əməlləri göz önündə tutaraq, Əfqanin bu məsələdə də nə qədər haqlı olmasını etiraf etməyə bilmərik. Çünki müsəlman xalqları din və millət məsələsində Əfqaninin irəli sürdüyü mülahizələrə uyğun olaraq əsasən, hərəkət etmədiyi üçün, bu gün İslam birliyi daha çox sözdə vardır, əslində isə müsəlman xalqlarının bir hissəsi faktiki olaraq Rusiya Federasiyasının, digər qismi ABŞ-ın yanında yer almaqdadırlar. Hesab edirik ki, hazırda buna səbəb kimi Rusiyanın və ABŞ-ın super dövlətlər olmasını göstərmək, vaxtilə doğru yol tuta bilməməyimizə bu gün bəsit şəkildə haqq qazandırmaqdan başqa ad vermək mümkün deyildir.

**2.Həsən Bəy Zərdabinin Milli-Dini Və Qərbçilik Görüşləri**

Zərdabinin ictimai-siyasi görüşlərində xüsusi yer tutan amillərdən biri Qərb mədəniyyəti və onun milli məsələyə təsiri olmuşdur. Bütövlükdə, Zərdabi də Axundzadə kimi milli ideyaları təbliğ edərkən, Qərb mədəniyyətinin müsbət ideyalarından yararlanmışdır. Belə ki, milli ideyaların tərənnümçüsü olan Zərdabi Qərb mədəniyyətinin səmərəli cəhətlərini vaxtında görərək soydaşları arasında yaymağa çalışmışdır. Buna, ən bariz nümunə «Əkinçi» qəzeti və bu qəzetdə təbliğ olunan milli-dini və yeniləşmə ideyalarıdır ki, bunlardan bəzilərini yuxarıda da qeyd etmişik. Bu məsələ ilə bağlı onu da qeyd etmək istərdik ki, Zərdabi millətin inkişafında əsas yeri milli-dini dəyərlərə verməklə, yeniləşmənin bir vasitəsi kimi Qərb mədəniyyətindən də yardımçı kimi istifadə etməyə çalışmışdır.

Bu baxımdan alman mütəfəkkiri Vamberin «İslam» kitabı ilə tanış olan Zərdabi, onun Şərq və Qərb cəmiyyəti ilə bağlı fikirlərini «Əkinçi»də təsadüfən verməmişdir. Vamber həmin kitabında yazır ki, Şərq və Qərbdə elm təhsil etmək müxtəlif cürdür. Belə ki, Qərb xalqları çalışırlar ki, elm xalqa bəyan olsun və hər bir kəs elm yolu tutub, xeyir görsün. Vamberə görə, Şərq xalqları elm yollarını xalqdan gizli saxlayır, ancaq islam yarananda Qərb ilə Şərq arasında bu baxımdan heç bir fərq olmayıb. Həttə islam xəlifələri məscid, məktəblər tikiblər ki, xalq elm öyrənsin və o dövrdə Şərqdə tanınmış filosoflar, alimlər olub. Ancaq xəlifədən sonrakı sultanlar, şahlar xalqı gözübağlı saxlamaq üçün yalnız şəriətə üstünlük verərək dünyəvi elmlərə diqqət vermədilər, həttə məktəbləri də mollaxanaya çevirdilər: «İndi Məşriq-zəmin (Şərq) qoca və xəstədir və ol şəxsə aqil deyirlər ki, o ibarət ilə danışdığı sözləri başa düşmək olmasın və bu aqil kəslər deyirlər elm cəvahiratı hər şeydir». (Zərdabi, 2005:189).

Zərdabi də Vamberin dediklərindəki həqiqəti görür, təqdir edir və milli mənəvi dəyərlərdən kənara çıxmadan Qərb mədəniyyəti ilə tanış olmağa üstünlük verirdi. Zərdabi yazır ki, artıq dəfələrlə Avropa tayfalarının, Qərb xalqlarının Şərq əhlindən artıq dərəcədə tərəqqi etmələri ilə bağlı yazılar yazıb, bunun səbəblərini izah ediblər. Ən əsas səbəb də ki, Qərb xalqların daha çox elm təhsil etmələri və bir də azadlıqlarıdır. O yazır: «Nə qədər Avropa əhli bizim təki azadlıqdan bixəbər olub, o vaxtacan bizdən də çox avam olub. Amma bu halda azadlıq cəhətindən Avropa əhli çox tərəqqi edib və bir işdə bizdən irəli düşüb. Əgərçi bizim şəriətimizə görə qulu azad etmək çox böyük savabdır, amma biz bu barədə işi gec qanmışıq. Satınalma qulu azad etməyi savab hesab edə-edə, biz öz xahişimiz ilə bir-birimizə qul olmuşuq. Rəiyyət padşaha, övrət kişiyə, uşaq ataya, nökər ağaya, şagird ustada və qeyrə məgər qul deyil!». (Zərdabi, 2005:189)

Deməli, qul azad etməyi savab iş sayan şəriətin bu müddəasına islam ölkələrinin başçıları, din rəhbərləri əməl etmək əvəzinə müsəlmanların bir-birlərinin quluna çevrilməsinə şərait yaradıblar. Bu baxımdan müsəlmanların əksəriyyətinin qul olmasında günahkar islam, yaxud da şəriət deyil, buna səbəb yeniləşmə ilə uzlaşmayan bəzi adətlər, o cümlədən mövhumat, xürafat və sairdir. Zərdabi yazır: «Xülasə, Məşriq-zəmində azadlıq olmadığına biz Avropa əhlindən geri qalmışıq və nə qədər belə olsa, biz tərəqqi etməyəcəyik və edə bilmərik». (Zərdabi, 2005:189).

Zərdabi həməsrləri arasında Qərb mədəniyyətini şişirtmədən və ideallaşdırmadan millətini gerilikdən, avamlıqdan, biliksizlikdən, millət təəssübsüzlüyündən qurtulmasına, inkişafına çalışan bir ziyalı olmuşdur. O, soydaşlarını başa salırdı ki, libaslarında, hərəkətlərində avropalıları təqlid etməklə heç nə düzəlməyəcək. Zərdabi Qərb mədəniyyətinin müsbət ideyalarını təbliğ etməklə, sadəcə millətinin gözünü açmağı qarşısına məqsəd kimi qoymuşdur. Onun fikrincə, millətin inkişafına səbəb ola biləcək istənilən müsbət bir ideyadan, yəni istər milli-dini adət-ənənələrində, istərsə də Qərb mədəniyyətində olsun, istifadə

etmək lazımdır. Əlbəttə, Zərdabi millətin inkişafına əngəl olan amilləri də, istər milli adət-ənənələrə, islam dininə olunmuş əlavələrdən irəli gəlsin, istərsə də Qərb mədəniyyətinin həddən artıq ideallaşdırılması ilə əlaqədar olsun, görmüş və yeri gəldikcə tənqid etmişdir.

Göründüyü kimi, milli-dini ideyaların, o cümlədən yeniləşmənin Azərbaycanda təbliğində H.Zərdabi və onun «Əkinçi» qəzeti mühüm rol oynamışdır. Zərdabi «Əkinçi» qəzeti bağlandıqdan sonra, məcburi şəkildə uzun müddət ictimai fəaliyyətdən uzaqlaşsa da, XIX əsrin sonlarına yaxın yenidən fəal şəkildə millətinə xidmət etməyə başlamış, xüsusilə XX əsrin əvvələrində «Kaspi», «Həyat» və başqa qəzetlərdə milli-dini ruhlu məqalələrlə çıxış etmişdir.

Fikrimizcə, türkçülük baxımından dildə və dində birlik ideyasını H.Zərdabi 1900-cu illərdə daha açıq və mükəmməl şəkildə ifadə etmişdir. Belə ki, XIX əsrin ikinci yarısında yeniləşmə uğrunda mübarizə apararaq türkçülüyü və islamçılığı canlı bir timsal kimi XX əsrin əvvəllərinə daşıyan Zərdabi bu dövrdə nəşr olunan «Kaspi», «Həyat» və b. qəzetlərdə dil birliyi, din birliyi, milli cəmiyyətlərin yaranması kimi məsələlərlə bağlı çıxış etmişdir. Zərdabi qeyd edirdi ki, hər bir millətin əsas dirəkləri, millət olmağına səbəb dil və din-məzhəbdir. Bunlardan birisi əldən getsə millətin beli sınar, ikisi də getsə millət başqa millətlərə qarışar və yox olar. O yazır: «Çünki dil və məzhəb tayfanın (millətin-F.Ə.) ruhu olan kimidir. Necə ki, ruh çıxanda bədəndən bircə nəş, yəni cəmdək mürür (yavaş-yavaş – F.Ə.) ilə çürüyüb yox olur, habelə dilsiz və məzhəbsiz tayfa da gərək mürür ilə yox olsun. Bəs hər tayfa elm təhsil edən vaxtda gərək öz dilində və öz din və məzhəbində tərəqqi eləsin ki, dünyada qala bilsin. Onlarsız tayfa olmaz».( Azərbaycan publisistikası antologiyası, 2007:22).

O, «Dil birliyi» məqaləsində isə qeyd edir ki, Rusiya dövlətinə tabe olan müsəlmanların çoxunun etnik mənşəyi türk, dilləri türk dilidir. Amma bu dil ayrı-ayrı yerlərdə müxtəlif şivələrə bölünüb ki, ilk növbədə Rusiya türklərinin dil birliyinə nail olmaq lazımıdır. Zərdabi yazır: «Ona görə də bizlərə vacibdir ki, indi vaxt keçməmişdən dil birliyi dalıncan olub bir ümumi dil bina edib, bu ümumi dildə yazıb-oxuyaq ki, gələcəkdə o dil hamının yazıb-oxumaq dili olsun. Belədə Rusiyada olan türk tayfaları getdikcən bir-birilərinə artıq yaxınlaşıb, birləşməkdən artıq da güclənib tərəqqi etməyə qadir olurlar və qardaşlıqları dəxi möhkəm olur».(Zərdabi, 2007:14).

Eyni zamanda, o, 1896-1907-ci illər arsında qələmə aldığı "Böyük sənəd", "Bürokratiya və siyasi etibarlılıq", "Kənd xeyirxahları", "Şərqi Zaqfqaziyanın geriliyi" və başqa məqalələrində çar Ruisyasının müstəmləkə siyasətini və onun yerlərdəki əlaltılarını tənqid etmişdir.

Deməli, XIX əsrin ikinci yarısında Qafqaz müsəlmanlarının milli oyanışına, yəni mədəni türkçülüyə və islamçılığa təkan verən H.Zərdabi bu işinin davamı olaraq 1900-cu illərdə Rusiya, o cümlədən Qafqaz türklərinin dil-millət və din-islam birliyi ətrafında birləşməsini vacib hesab etmişdir. Onun bu dövrdə, milli bir ideoloq kimi Azərbaycan türklərini maarifləndirmək yolu ilə ayrıca bir millət kimi varlığını isbat etməyə və milli birliyinə çalışması, xüsusilə diqqətəlayiqdir.

Bunu, H.Zərdabinin 1907-ci ildə dəfn mərasimi zamanı qəbirüstü nitqlərdə öz əksini tapmış fikirlərdən də görmək olar. Dəfn mərasimində işirak edən Azərbaycan türkçülüyünün ideoloqu, Azərbaycan Cümhuriyyətinin banisi və qurucusu Məhəmməd Əmin Rəsulzadə H.Zərdabinin qəbirüstü nitqində onun şəxsində böyük bir maarifçini, ustadı itirdiklərini demişdir: «İştə bu qoca ədib də həmin camaatın hər dərdinə dərman olan irfan toxumlarını səpmişdir. Həmin bu maarif mücahidi olan piri-rövşənzəmizə xitabən camaatın maarifmənd və mütərəqqi olduğunu özünə məslək tutan «Nicat» maarif cəmiyyəti tərəfindən deyirəm ki, yat, Allah sənə rəhmət eləsin!!!» (Rəsulzadə, 1992:151).

H.Zərdabini milli ideoloq kimi görmüş tanınmış ictimai-siyasi xadim, mütəfəkkir Əlimərdan Topçubaşov da doğru olaraq qeyd edir ki, «Əkinçi»nin yaradılması onun öz xalqına pioner xidmətinin ən uca zirvəsi olmuşdu. Bununla o, nişanverici və xilasedici bir mayak yaratmışdı: «Bu mayakın parlaq işığı ötən yarım əsrdə öləziməmişdir. Belə faydalı və ruhlandırıcı işıq mənbəyini ehtiramla yad etmək bütün Azərbaycanın, hər bir azərbaycanlının əxlaqi, vətənpərvərlik borcudur».(Azərbaycan mətbuat tarixi antologiyası, 2010:119). Türkoloq alim Əhməd Cəfəroğlunun fikrincə də, 19-cu əsr Azərbaycan maarifçilərindən milliyyətpərvər, istiqlalpərvər H.Zərdabi azəri türkləri arasında birinci olaraq çarizmin Güney Qafqazda ruslaşdırma siyasətini sezmiş, «Əkinçi» də milləti hüquq və haqq davasına cəlb etməyə çalışmış və uzun illər ağır mücadilələr apararaq buna nail olmuşdur (Cəfəroğlu, 2008:234).

Haşım bəy Vəzirovda qeyd edir ki, öz müqəddəs təriqəti və məsləki ilə türklər arasında («Əkinçi»si, milli teatrı və s. ilə) ilk cığır açan H.Zərdabi bizi düşündürən, bizi ağladan millətimiz içində ürəyi, dili, məsləki bir millət mücahididir. Əgər milli mütəfəkkir Firudin bəy Köçərliyə görə, Həsənbəyin əsas xidmətlərindən biri öz həmməzhəblərinin oyanmasına ilk təkan verməsidirsə, milli şair Mirzə Ələkbər

Sabirin fikrincə isə, Zərdabi bütün xalq üçün «mənəvi ata»dır. Siyasi türkçülüyün banisi Yusif Akçura da doğru olaraq qeyd edir ki, türkçülüyün təşəkkülündə H.Zərdabi və onun «Əkinçi» qəzeti mühüm rol oynamışdır: «Həsən bəyin əsil millət tarlasına əkmək istədiyi toxumlar irəliləmə və yenilik toxumlarıdır». H.Zərdabinin tədqiqatçılarından fəlsəfə elmləri doktoru, prof. İzzət Rüstəmovun o fikrilə razılaşırıq ki, «Zərdabi Azərbaycanda, o cümlədən bütöv Rusiyada, Şərqdə XIX əsr reallıqlarının doğurduğu titanlardan-nəhənglərdən biridir». Deməli, Zərdabi hələ Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə, Ə.Ağaoğlu, Ə.Topçubaşov və başqalarından öncə türkçü olmuş, ən azı mədəni türkçülüyə xidmət etmişdir.

**3. 19-Cu Əsrdə Yaşamış Digər Mütəfəkkirlərin Milli Dini Və Qərbçilik Görüşləri**

Azərbaycan Türk ziyalısı Əsgər ağa Adıgözəlov Gorani də (1857-1910) həm İslam dininə, həm də Qərb mədəniyyətinə münasibətdə milli, yenilikçi və uzlaşdırıcı mövqe tutmuşdur. O, «Əkinçi» qəzetinə yazdığı məqalələrində Qərbdən ya da Şərqdən ixrac olunmasından asılı olmayaraq millətin və dinin inkişafının başlıca meyarını milli maarifçilikdə görmüş, bu xətti ömrünün sonuna qədər davam etdirmişdir. Goraninin yaradıcılığının mahiyyəti ondan ibarət idi ki, artıq zəmanə dəyişilib, indi güc və igidlik zamanı deyil, elm və təhsil öyrənmək vaxtıdır. Elm və təhsil almaq isə yalnız zəmanənin ya da Qərb mədəniyyətinin təsiri deyil, milli dəyərlərmizin və İslam dininin də əsas müddəalarıdır.

Bu baxımdan Gorani «Əkinçi»yə göndərdiyi məqalələrində sübut etmyə çalışırdı ki, İslam dini elm və təhsilə həmişə böyük önəm vermişdir. O vurğulayırdı ki, hər hansı molla, yaxud axund bəyan edirsə ki, ancaq dini elmləri öyrənmək lazımdır, bu fikir doğru deyildir. Əgər İslamda yalnız dini elmlərin öyrənilməsi vacib hesab olunsaydı bu, Məhəmməd peyğəmbər (s) və onun davamçıları olan imamlar tərəfindən də qeyd edilərdi. Onun fikrincə, İslamın ilk dövrünə baxdıqda görürük ki, peyğəmbər və onun xələfləri həmişə elm və təhsil almağın tərəfdarı olmuş, bu yolda əməli işlər görmüşlər. Gorani yazırdı: «Keçmişdə bizim xəlifələrin vaxtında islam tayfası elm təhsil etməkdə laçın imiş. Dreper adlı ingilis hükəması ərəblərin elmi dost tutmağını sabit etməkdən ötrü onların bu məsəllərini gətirir: 1) Alimin mürəkkəbi şəhidin qanına bərabərdir. 2) Necə ki, şəhid əlində qılınc cənnətə gedəcək. 3) Dünya dörd şeyin üstə qərar tutub: alimin ağlının, qadirin aliliyinin, abidin duasının, igidin mərdliyinin üstə. Həzrət əl-Mənsur namdarın evi alimlə dolu olurmuş. Həzrət Harun ər-Rəşid yüz alimsiz evdən çölə çıxmaz imiş. Haman bu xəlifə hökm eləmişdi ki, məktəbxanasız məscid tikilməsin». (Əkinçi, 2005:354).

Azərbaycan müxtəlif məzmunlu və müxtəlif dövrləri əhatə edən qiymətli əlyazma əsərlər ilə zəngin elm və mədəniyyət mənbələrinə sahib olan ölkələrdən biridir. Bu mühim mənbələrin araşdırılması bir çox tarixi hadisələrin, eləcə də mədəniyyət və elm sahələrinə dair uğurlu fəaliyyətlərin şəxs və əsərlərinin ortaya çıxmasına səbəb olur. Azərbaycan əlyazma kitabları mövzu və məzmun baxımından zəngin oldugu kimi, onların yazılma tarixi də qədimdir. Orta əsrlərdən başlıyaraq, Azərbaycanın ayrı ayrı bölgələrində əlyazma kitab sənəti ilə məşğul olan çox sayda katib, xəttat, müzəhhib, rəssam və cildçilər fəaliyyət göstərmişlər. Onlar saray kitabxanalarında, mədrəsələrdə , müxtəlif telim ocaqlarında, məscidlərdə və evlərdə əlyazma kitap hazırlamaqla məşğul olmuşlardır. Müasir dövrd Fizuli adına Əlyazmalar İnstitutunda ister Azərbaycan, istərsə də digər Şərq ölkələrinini mədəniyyət tarixinin öyrənilməsi üçün son dərəcə əhəmiyyətli əlyazmalar mühafizə edilir. Azərbaycan əsrlər boyu ərəb və farslarla sıx dini, edebi və mədəni əlaqələrinin sayəsinde təbii haldır ki, türk dilində olduğu kimi, bu xalqların dilində yazılmış əlyazma əsər nüsxələri mövcuddur . Hal-hazırda Füzuli adına Əlyazmalar İnstitutunda türk, ərəb və farsdilləri başda olmaqla tibb, fəlsəfə, ədəbiyyat, dilçilik, astronomiya, məntiq, tarix, çoğrafiya, riyaziyyat və İslam ilahiyyatına dair əsərlərin əlyazma və əski çap kitabları, Azərbaycanda yaşamış bəzi məşhur şəxslərinin arxiv sənədləri ilə birlikde 40 minə yaxın material qorunmaqdadır. Bu materialların arasında elmin müxtəlif sahələrində böyük xidmət göstərmiş bir sıra məşhur Qarabağlı alimlərin əlyazmaları da mövcuddur. Elm tarixində şərəfli yer tutan bu alimlərin əsərləri həm mətn olaraq, həm də tərtibatı baxımından dünya kitab xəzinəsinin gözəl nümunələridir. Biz tədqiqata Qarabağın eləcə də Azərbaycanın elm və mədəniyyətinin inkişafında özünəməxsus payı olan Mir Möhsün Nəvvabın əlyazmalarını cəlb etmişik **.**

Mir Möhsün ibn Hacı Seyyid Əhməd Nəvvab Qarabaği Şuşa şəhərində 1833-cü ildə anadan olmuşdur. Təhsilini Şuşada alan Nəvvab türk, ərəb, fars dilləri ilə yanaşı riyaziyyat və həmçinin ədəbiyyat və müsiqi kimi sahələrdə də hərtərəfli biliyə yiyələnmişdir. Çoxşaxəli yaradıcılığa malik Nəvvab rəssam kimi ornamental divar rəsmləri də çəkmiş, gözəl xətlə yazdığı əlyazma əsər nüsxələrinin və şəxsi mətbəəsində daşbasma üsulu ilə çap etdiyi kitabların illüstrasiyalarını çəkmişdir. Çoxsaylı şeirlərin müəllifi olan Nəvvab, müxtəlif elm sahələrini əhatə edən türk və fars dillərində əsərlərdə yazmışdır. Bu əsərlərdən klassik Şərq musiqisi haqqında "Vüzuh əl-ərqam", ədəbiyyata aid "Təzkireyi Nəvvab", "Divani əşari türki" , "Kəşf əl- əl-həqiqeyi məsnəvi", tarixə dair "Bəhr əl-həzən, "Tarixi rəzmi ermeni və müsəlman" və digər elmi ədəbi-bədii əsərlərin də müəllifidir. Mir Möhsün Nəvvab 1918-ci ildə Şuşa şəhərində vəfat etmişdir [ASE,1983: 2:18]. Nəvvabın həyat və yaradıcılığı haqqında bu qısa məlumatla kifayətlənərək, bildirmək istərdik ki, hal-hazırda onun əsərlərinin otuzdan çox əlyazma nüsxəsi Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılır. Biz bu nüsxələrdən avtoqraf olanların bir neçəsini misal göstərmək istəyirik. Belə ki, Nəvvabın "Divani-əşari-farsi" adlı fars dilində iki avtoqraf divan nüsxəsi mühafizə edilir. Əlyazmalara fars dilində qəzəl, rübai, Hafiz Şirazi və Sədi Şirazinin şeirlərinə yazılmış təxmislər daxil edilmişdir. 1898-ci ildə yazılmış nüsxədə Nəvvabın bəzi şairlərin şeirlərinə cavab olaraq yazdığı nümunələrdə vardır. Bu nüsxədə Nəvvab görkəmli Qarabağlı şəxsiyyətlərin (Uğurlu bəy Qarabağinin oğlu Rəhim bəy , İbrahim xan Cavanşirin nəvəsi Cəfərqulu xan ,Şeyxülislam Axund Əhməd və s.) vəfat tarixlərini qeyd etmişdir. Əlyazmalar İnstitutunda Nəvvabın Həzrət Hüseynə həsr olunmuş 12 mərsiyədən ibarət "Dəvazdəh bənd" adlı avtoqraf əsəri də mühafizə edilir. 1897-ci ildə fars dilində yazdığı əsər məcmuəyə (261b-265a) daxil edilmişir. Müəllif tərəfindən əsərin sərlövhəsi qızılı, yaşıl və göy rənglərdən istifadə edilərək yazılmışdır. Bu əsərin avtoqraf olmayan daha üç nüsxəsi institutda qorunmaqdadır.

Nəvvabın diqqət çəkən avtoqraflarından biri də "Kəşf əl-həqiqeyi-məsnəvi" adlı əsərinin üç nüsxəsidir. Üç cilddən ibarət olan bu əsərə fars dilində mənzumə və təmsillər şəklində nəsihətlər daxil edilmişdir. Nəsihətlər müxtəlif məzmunlu olub, atalar sözlərindən istifadə edərək cəhalət, hiyləgərlik, tənbəllik kimi pis əməllərdən uzaq durmağı və təhsil almagın xeyirlərindən bəhs edir. Əlyazmanın sonunda müəllif musiqiyə, xüsusilə də muğama dair maraqlı məlumatlar yazılmışdır. Hər üç nüsxədə müxtəlif rənglərlə çiçək motivləri ilə təzhiblənən sərlövhə tərtib edilmişdir. Nəvvab müəllif, katib olmaqla yanaşı, xatırladaq ki, həmçinin bəzi əlyazmalarda çəkilmiş miniatürlərin də rəssamıdır. Əlyazmanın birinin ilk səhifəsində Nəvvab rəngli bir kəpənək rəsmi çəkmişdir. Digər əlyazmada isə iki rəngli miniatür çəkilmişdir. Bu miniatürlər klassik miniatür boyakarlığından daha çox müharibə və ov səhnələrini təsvir edən frizlərini xatırladır. Üçüncü əlyazmada Qacar dövrünün rəssamlıq məktəbinə aid edilən iki rəngli miniatür çəkilmişdir. Nəvvabın klassik Azərbaycan muğamatına dair 1884-cü ildə yazdığı "Risaleyi vuzuh əl-ərqam" adlı risaləsinin yeganə avtoqraf nüsxəsi də Əlyazmalar İnstitutunda saxlanılır. Əsərdə musiqinin yaranma tarixi ilə yanaşı muğamatın güşə və şöbələri cədvəllərdə izah etmişdir. Fars dilində

yazılmış nüsxənin mətni qırmızı mürəkkəblə çərçivəyə alınmışdır. Titul vərəqinin arxasında Nəvvabın dövrünün müctəhidi Fazil İravaniyə yazdığı məktubun məzmunu verilmişdir.

Dini məzmunlu əsərinə gəldikdə isə bu əsərlər həm fars və həm də türk dilində yazılmışdır. Bu əsərlərdən "Şəms əl-hidayə" adlı əsəri diqqət çəkir. Nüsxə müəllifin nəzarəti ilə 1887-ci ildə Şuşada Molla Əbdüləli Qaracadağı tərəfindən köçürülmüşdür. Əsərdə Nəvvab islam ilə xristyanlıq müqayisəli təhlilini vermişdir. Nəvvabın yaradıcılığında müəllifi olduğu əsərlərin avtoqraf nüsxələri arasında içində miniatürlər çəkilmiş və 1864-cü ildə fars dilində yazdığı "Bəhr əl-həzən və kənz əl-mühən" adlı iki hissəli əsəri gözəl nümunələrdən hesab edilir. Abidəni Nəvvab mətni böyük üstalıqla aralarını rəngarəng çiçək motivləri ilə bəzəyərək dörd sütünda yazılmışdır. Ortasında müəllifin və əsərin adı və tarixi yazılmış sərlövhə rəngli boyalarla çiçək motivləri ilə tərtib edilmişdir.Abidədə ayrı-ayrı kompozisiyada verilmiş Qacar dövrünün üslubuna aid edilən beş miniatür çəkilmişdir. Miniatürlərdə Kərbəlada baş vermiş müharibə səhnələri, İmam Hüseyn mücahidlərinin şücaətləri və s. təsvir olunmuşdur. Əsərin eyni tərtibatlı "Kənz əl-muhən" ikinci hissəsində isə on iki imam haqqında qəsidələr, türk və fars dillərində yazılmış şeirlər daxil edilmişdir. Nəvvabın istər müəllif, istər rəssam və istərsə də cildiçi kimi hazırladığı bu abidə Azərbaycan kitab sənətini öyrənmək baxımından xüsusi əhəmiyyətə malikdir. Nəvvabın fars dilində yazdığı avtoqraf əsərlərindən həmçinin "Pendnamə","Ziya əl-ənvar", "Nur əl-ənvar" əsərləri də Əlyazmalar İnstitutunda mühafizədədir.

Mir Möhsün Nəvvabın institutunda türkdilli əsərləri də saxlanılır. Onun türk dilində yazdığı avtoqraf əsərlədən biri "Təzkirə" olub, XIX əsr Azərbaycan şairlərinin həyat və yaradıcılığından bəhs edir. 1892-ci ildə yazdığı bu əsər üç hissədən ibarət olub, özündən əvvəl yaşamış məşhur şairlərdən, ikinci hissədə öz müasiri olan şairlərdən və son hissədə isə məşhur olmayan şairlədən bəhs edir. Nəvvabın türk dilində yazdığı əsərlərdən biri "Kifayət əl-ətfal" astrologiyadan bəhs edən əsər olub, 12 məqalədən ibarətdir. Əsərin üç avtoqraf nüsxəsi qorunmaqdadır. Hər üç nüsxə 1899-cu ildə yazılmışdır. Müəllif bu əsərdə rus, türk və fars dillərində ayların adlarından, günlərin saylarından, ulduzlardan və günün tutulmasından bəhs edir. Nəvvab bu nüsxələrdə günün tutulması səbəblərini və planetlərin vəziyyətinin izahlarını zərli və rəngli boyalarla vermişdir. 1906-cı ildə isə Nəvvabın türk dilində yazdığı "Tarixi-rəmzi şurişi taifeyi əramani ba müsəlmanani-Qafqaz" adlı avtoqraf əlyazma da institutda mühafizə edilir. 1b vərəqində sərlövhə qırmızı və yaşıl rənglərə tərtib edilmişdir.İlk iki vərəqdə mətn ikili qırmızı rəngli çərçivəyə alınmışdır.Əsər 1905-1906-cı illərdə baş vermiş erməni-müsəlman müharibələrinə həsr olunmuşdur. Mir Möhsün Nəvvab yuxarıda adı çəkilən bütün avtoqraf əsərlərini Şuşada yazmışdır.

Nəvvab riyaziyyat, kimya və astrologiya ilə maraqlanırdı. Onun evində iki teleskoplu kiçik bir rəsədxana və kimya laboratoriyası var idi. Nəvvab 1899-cu ildə türk dilində "Kifayətul-ətfal" adlı astrologiyadan bəhs edən əsər yazmışdır. Bu əsərdə rus, türk və fars dillərində ayların adlarından, günlərin saylarından, ulduzlardan və günün tutulmasından bəhs edir. Nəvvab bu günün tutulması səbəblərini və planetlərin vəziyyətinin izahları zərli və digər rəngli boyalarla vermişdir. Əsərin üç avtoqraf əlyazma nüsxəsi Füzuli adına Əlyazmalar İnstitutunda qorunmaqdadır. Çoxşaxəli yaradıcılığa malik Nəvvab mahir xəttat və rəssam da olmuşdur. Belə ki, Nəvvab ornamental divar rəsmləri çəkmiş, gözəl xətlə yazdığı əlyazma nüsxələrinin və şəxsi mətbəəsində daşbasma üsulu ilə çap etdiyi kitabların illüstrasiyalarını vermiş, gül və quş təsvirləri, portretlər çəkmişdir. Nəvvab iki mərtəbəli mülkünün otaqlarını öz əli müxtəlif nəqşlərlə gözəl bəzədiyi haqqında da məlumat vardır. Müəllif mətndə Nəvvabın yaradıcılığında müəllifi olduğu əsərlərin avtoqraf nüsxələri arasında 1864-cü ildə fars dilində yazdığı və miniatürlər çəkdiyi "Bəhrul-həzən və kənzul-mühən" adlı əsəri gözəl nümunələrdən hesab edilir. Miniatürlərdə Kərbəlada baş vermiş müsibətlər, müharibə səhnələri, İmam Hüseyn mücahidlərinin şücaətləri və s. təsvir olunmuşdur.

Sonda isə Nəvvabın Şuşadakı çapxanası və bu çapxanada nəşr edilən kitablardan bəhs etmək istiyirik. Onun çapxanası haqqında bir cümlə həcmində ilk məlumata Miklaşevskaya N.M. məqaləsində rast gəldik. Amma daha dolğun məlumatı isə Mirzə Xosrov Şaiq Axundzadə (v.1960) əsərində yazmışdır. Mirzə Xosrov 1906-cı ildən başlayaraq, 1956-cı ilədək Şuşanın müxtəlif məktəblərində müəllim olaraq işləmiş, Qarabağın tarixi və şəxsiyyətləri haqqında tədqiqatlar aparmışdır. Onun sovet dövrünün istehsalı olan 20 dəftərxana vərəqində əski əlifbada türk dilində yazdığı Şuşanın görkəmli şəxsiyyətlərindən və onların mülklərindən bəhs edən avtoqraf əlyazma nüsxəsi Əlyazmalar İnstitutunda mühafizə edilir. Bu əsərdə Mirzə Xosrov Nəvvabın Şuşada yerləşən çapxanası, çap üsulu və cildxanası haqqında məlumat vermişdir. [Axundzadə, 1959:13].Daha sonra isə müəllif Mir Möhsün Nəvvabın çap üsulundan yazmış və çap daşının Şuşada saxlandığını qeyd etmişdir. Əsərdən məlum olur ki, Şuşada həmçinin Nəvvabın açdığı cildxanada

fəaliyyət göstərirdi. Mirzə Xosrov cildxananın Gövhəriyyə məscidinin cənubunda olan mənzillərinin ikisində yerləşdiyini yazır. "Miriş" ləqəbiylə şeirlər yazmış Nəvvabın böyük oğlu Mir İbrahim Ağamirzadə (1871- 1948) cild sənətini öyrənmiş və sonralar isə cildxanada işləmişdir. Nəvvab "sonra belə bir elan verdi ki, cild işini öyrənmək arzusunda olan hər kəs Şuşada qeyd olunan ünvana müraciət etsin. Bu vasitə ilə gənclərdən bir çoxları cild sənətini öyrənməyə nail oldular" [ Axundzadə, 1959:20]. Füzuli adına Əlyazmalar İnstitutunda Nəvvabın əsərlərinin aftoqraf əlyazma nüsxələri ilə yanaşı, həmçinin onun öz çapxanasında nəşr edilən əsərlərinin də nüsxələri saxlanılır:

1."Divani-farsi" (iki nüsxə)

Nəvvabın fars dilində yazdığı müxtəlif məzmunlu şeirlərin (qəzəl, rübai və təxmislər) daxil olunmuş nüsxələri 1897 və 1898-ci illərdə nəşr edilmişdir.Hər iki nüsxənin sərlövhələri Nəvvab tərəfindən zərlə təzhiblənmişdir.

2. "Kitabi-Divani-farsi və türki"

Nüsxəyə fars və türk dillərində müxtəlif məzmunlu şeirlərin daxil olduğu əsərdir. 1897-cı ildə nəşr edilmiş nüsxənin də sərlövhəsi zərlə təzhiblənərək yazılmışdır. Son vərəqdə Nəvvab isə ağ-qara rəngli bülbül rəsmi çəkmişdir.

3. "Kəşful-həqiqeyi-məsnəvi" (üç nüsxə)

1905-ci ildə nəşr olunmuş əsərə Nəvvab fars dilində yazılmış mənzumə və təmsillər şəklində nəsihətlər daxil edilmişdir. Nəsihətlər müxtəlif məzmunlu olub, cəhalət, hiyləgərlik, tənbəllik kimi pis əməllərdən uzaq durmağı və təhsil almagın xeyirlərindən bəhs edir. Nəvvab nəsihətləri yazarkən, atalar sözlərindən istifadə etmişdir. Qeyd edək ki, nüsxədə təmsillərin yazıldığı səhifələrdə mətnə aid rəngli heyvan rəsimləri çəkilmişdir. Hər üç nüsxə müxtəlif rənglərlə çiçək motivləri ilə təzhiblənən sərlövhə tərtib edilmişdir. Əlyazmalar bədii tərtibatına görə zövqlə hazırlanmışdır.

Nəvvabın Şuşa çapxanasında həmçinin digər müəlliflərin də əsərləri nəşr edilmişdir. Hal-hazırda Əlyazmalar İnstitutunda Nəvvabın çapxanasında nəşr edilmiş Mir Mehdi Xəzani Haşımzadənin (v.1894) müsəlman dini ehkamına dair uşaqlar üçün fars və türk dillərində yazdığı "Şəriul- islam" adlı mənzum əsərdir. Hal-hazırda Əlyazmalar İnstitutunda mühafizə edilən çapxananın nəşrləri uzun illər keçməsinə baxmayaraq, öz ilkin vəziyyətini qoruyub saxlamışdır. Müxtəlif rəng çalarlarından istifadə edilərək tərtib edilən kitablarda rəng solğunluğu və mətnin pozulması hallarına rast gəlmədik. Bu isə əlbəttə ki, nəşrin keyfiyyətli olduğuna dəlalət edir

## ƏDƏBİYYAT


1. AxundzadəM.X. Şuşa şeherinin məşhur şexsiyyetlerin heyatı və mülkleri (S-496), Şuşa 1959. Əlyazma
2. ASE. Cild VII,Baki,1983
3. Baharlı. Ehvalati Qarabağ.(FS-455).(Əlyazmanın fotosureti)
4. Vəqfname (B-590). Şuşa qalası, 1848. Əlyazma
5. Vəsiyyetname (II, 5/482/27175). Şuşa qalası, 1864. Əlyazma (1/92). Əlyazma

5.Qarabağnamələrr. I cild, Bakı, "Yazıçı", 2006

7. Qarabağnamələrr. II ,cild, Bakı, "Yazıçı", 2006
8. Qarabağnameler. III ,cild, Bakı, "Yazıçı", 2006
9. İxfa H. Şuşa şəhərinin tarixi,(B-4556). Əlyazma
10. Mirze Camal. Qarabağnamə (B-1150). Şuşa qalası,1845. Əlyazma

# DÖVLƏTİN SOSİAL SİYASƏTİ: MODERNLƏŞMƏ VƏ İNNOVASİYALAR FONUNDA

**i.f.d. Əlvan SÜLEYMANOVA**[40]
**i.f.d. Elnur ƏLƏKBƏROV**[41]

**Xülasə**

Məqalədə insanların rifahının yaxşılaşdırılması üçün aparılan sosial siyasətin əhəmiyyəti, sosial siyasətə modernləşmə və innovasiyaların təsiri və insan inkişafı indeksində təzahürlər, o cümlədən Azərbaycanda sosial sferada aparılan sosial siyasət və sosial müdafiənin bəzi istiqamətləri, dayanıqlı inkişaf və innovativ çağırışlar fonunda sosial siyasətə dair tələblər, ölkədə sosial yönümlü xərclər və yeni iş yerlərinin yaranması ilə bağlı məsələlər işıqlandırılmışdır.

Bununla əlaqədar iqtisadi islahatların gedişi çərçivəsində yeni yaradılan iş yerlərinin sayının, yeni peşə və ixtisas tələblərinin, texnoloji inkişafla əlaqədar yaranan işsizlik səviyyəsinin, əmək bazarında tələb və təklifin formalaşması xüsusiyyətlərinin nəzərə alınması təklif edilmiş, həmçinin rəqəmsal iqtisadiyyat üzrə çağırışların, təşəbbüslərin, strategiyaların və layihələrin təhlili və koordinasiyası fəaliyyəti ilə əlaqədar sosial siyasətə innovasiyaların təsirinin perspektiv imkanlarının diqqətdə saxlanması vurğulanmışdır.

*Açar sözlər: sosial siyasət, sosial xərclər, innovasiya tipli məşğulluq, insan inkişafı indeksi, rəqəmsal iqtisadiyyat*

### Social Policy of the State: in the Light of Modernization and Innovations

**Abstract**

The article reveals the importance of social policy for enhancing people's well-being, the impact of modernization and innovation on social policy, and manifestations in the human development index, including some areas of social policy and social protection, carried out in the social sphere in Azerbaijan, requirements for social policy against the background of sustainable development and innovation challenges, and issues related to social spending and creation of new jobs in the country.

In this regard, it was proposed to take into account the number of newly created jobs, new professional and qualification requirements, the level of unemployment arising due to technological development, and the peculiarities of the formation of demand and supply in the labor market within the framework of economic reforms. It was also emphasized to keep in mind the prospective possibilities of the impact of innovations on social policy in connection with the analysis and coordination of challenges, initiatives, strategies and projects on the digital economy.

***Keywords:*** *social policy, social expenditure, innovation type employment, human development index, digital economy*

*UOT:   JEL:O 33, O 38*

## Giriş

Müxtəlif iqtisadi sistem modellərinin inkişafı şəraitində dövlətin siyasətinin istiqamətləri, təsir obyektləri və subyektləri, eləcə də təsirlərin miqyası, istifadə edilən siyasi həll mexanizmləri də dəyişir. Hazırda ölkələr yaranan müxtəlif transformasiya problemləri çərçivəsində dövlətin rolunun artan əhəmiyyətini, eləcə də yeni şəraitə uyğun mexanizmlərin çevikliyini və dəyişkənliyini, iqtisadi, sosial və ekoloji balansların qorunmasının vacibliyini vurğulayır. Bu baxımdan həm ölkədaxili, həm də beynəlxalq həll imkanları koordinasiya edilir. İqtisadi siyasətin balanslı təşkilinin fonunda isə sosial siyasətin, yəni son nəticədə yüksək rifahın təmin edilməsinin zəruri tələbləri formalaşır. Xüsusilə, iqtisadi artım, inflyasiya, işsizlik gəlir bərabərsizliyi, texnoloji inkişaf və bu kimi iqtisadi proseslərdə baş verən dəyişikliklər sosial siyasətin müdaxilə hədlərini müəyyən edən amillərə çevrilir.

### 1. Azərbaycanda Sosial Siyasət və Modernləşmənin Qarşılıqlı Əlaqəsi

Sosial siyasət sosial münasibət modellərini saxlamaq və ya dəyişmək məqsədilə dövlətin sosial xidmətlər dəsti ilə məqsədyönlü təsir mexanizmidir **(Spicker, 2014:1)**. Sosial siyasət insanların həyat keyfiyyətini yaxşılaşdırılmaqla əhalinin rifahının yaxşılaşdırılmasına xidmət edir. Tarixi məlumatlar göstərir ki, sosial-siyasi fəaliyyət bir təcrübə kimi qədim zamanlardan yaranmış və inkişaf etmişdir. İbtidai cəmiyyətlərdə elementar də olsa qoruyucu funksiyalar qurulmuş və bunlar insanların davranış və adətlərində özlərini göstərərək nəsildən-nəsilə keçmişdir. Bu qoruyucu funksiyalar əhalinin sosial cəhətdən zəif qrupları üçün xarakterik olmuş, bu fəaliyyətə elementar istehsal, aşağı əmək məhsuldarlığı, mövcud patriarxal münasibətlər, qəbilə parçalanması və s. əhəmiyyətli dərəcədə təsir göstərmişdir **(Terziev və**

[40] İqtisadiyyat Nazirliyi, İqtisadi Elmi Tədqiqat İnstitutu, alvan.suleymanova@gmail.com
[41] İqtisadiyyat Nazirliyi, İqtisadi Elmi Tədqiqat İnstitutu, elnur.alakbarov@gmail.com

**Dimitrova, 2017: 3)**. Bu gün isə müasir dövlətlər üçün sosial siyasətin prioriteti daha qabarıq özünü göstərməkdədir. Belə ki, bu gün əsas vəzifə dövlətin ərazi ölçüsü, ordunun gücü, istehsalın həcmi deyil, cəmiyyətin rifahıdır və bütün bunların əsasında sosial siyasət dayanır. XIX əsrdə baş verən iqtisadi və sosial inkişaf nəticəsində meydana çıxan sosial siyasət sənaye inqilabı ilə birlikdə əhəmiyyət kəsb etməyə başladı. Sənaye inqilabı ilə iqtisadi münasibətlərin dəyişməsi nəticəsində sosial dəyişikliklər qaçılmaz oldu **(Aravacik, 2018).** Ötən əsrin digər mühüm nailiyyətlərinə sosial siyasətin müxtəlif proqram və modellərinin geniş spektrinin formalaşdırılması daxildir. Bu modellər İsveç və Norveç, Almaniya və Fransa, İngiltərə və ABŞ, Sovet İttifaqı və keçmiş sosialist düşərgəsi ölkələrinin, Kanadanın modelləri, Latın Amerikası, Asiya ölkələrinin modelləridir. Sosial siyasət modellərinin praktikada reallaşdırılması ölkənin siyasi quruluşundan, iqtisadi inkişaf səviyyəsindən, mülkiyyət münasibətlərindən, idarəetmə strukturundan və s. asılıdır **(Доренко, 2011: 47)**.

Dövlətin sosial siyasətinin tərkib hissəsi və əsas elementi olaraq sosial xidmətlər cəmiyyətin hər bir fərdinin, qrupunun həyat keyfiyyətinin və potensial inkişafının yaxşılaşdırılmasına yönəlir. Spickerə görə sosial siyasətlə əlaqədar sosial xidmətlərin əsas məqsədi aşağıdakılardır **(Spicker, 2014:1)** :

- sosial təminat – gəlirlərin qorunması və sosial müdafiə
- səhiyyə xidmətləri – tibbi qayğının təmin edilməsi (bəzən sığortanın tərkibi olaraq)
- təhsil xidmətləri - əhalinin savadlılığının artırılmasında bərabər iştirak imkanlarının yaradılması
- mənzil təminatı – mənzili olmayan və sosial statusu nəzərə alınan şəxslərin mənzil ehtiyaclarının təmin edilməsi
- şəxsi sosial xidmətlər/sosial iş – şəxsin yaş, xəstəlik və digər məhdudiyyətlərlə əlaqədar səhiyyə, təhsil, hüquqi və s. bu kimi xidmətlərə olan tələblərinin ödənilməsində iştirak etmək

Azərbaycanda sosial siyasətlə əlaqədar sosial müdafiənin əsas istiqamətləri əmək münasibətləri, əhalinin məşğulluğu, işsizlikdən sığorta, demoqrafiya və əhalinin sosial müdafiəsi, o cümlədən əmək pensiyaları və sosial sığorta sahələrində, övladlığagötürmə, əmək miqrasiyası sahəsində dövlət siyasəti, tibbi-sosial ekspertizanın, əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların reabilitasiyasının və sosial müdafiəsinin təşkil edilməsi, öz səlahiyyətləri daxilində yetkinlik yaşına çatmayanların baxımsızlığının profilaktikasının, insan alveri qurbanlarının sosial reabilitasiyasının və penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyasının həyata keçirilməsi və sosial işlərin təqdim edilməsidir **(Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi).** Həmçinin, sosial təminatın əsasını təşkil edən sosial müdafiə ilə yanaşı səhiyyə, təhsil, mənzil təminatı və sosial işlə əlaqədar dövlətin uyğun siyasəti formalaşmış və müvafiq fəaliyyət istiqamətləri təsbit edilmişdir. Sosial siyasətdə investisiya hədlərini müəyyən etmək üçün ölkə üzrə qiymətləndirilən əsas göstəricilərdən biri əhalinin hər nəfərinə düşən gəlir məbləğidir. Bu amil ölkələrin rifah səviyyəsini qiymətləndirməyə imkan verən İnsan İnkişafı İndeksinin (İİİ) də tərkib hissəsidir.

BMT-nin İnkişaf Proqramı çərçivəsində ölkədə sosial siyasətin təsirlərini və ölkələrarası beynəlxalq müqayisəyə imkan verən İnsan İnkişaf İndeksi hesablanır. İİİ hər bir ölkədə doğulanda orta ömür uzunluğu, təhsil göstəriciləri və hər nəfərə düşən milli gəlir göstəricilərinin kompozit indeksi qiymətləndirilərək ölkələrin yeri 4 səviyyədə (Very high, High, Medium, Low human development) müəyyən edilir. Azərbaycan üçün İİİ-nin xüsusiyyətlərinə nəzər yetirək:

İİİ-nin 2019-cu il üçün təqdim olunan hesabatına əsasən Azərbaycan 185 ölkə üzrə müqayisədə 88-ci (İİİ - 0.756) yerdədir. Həmçinin gözlənilən orta ömür uzunluğu 73 yaş, gözlənilən təhsil ili 12.9 il, orta təhsil ili 10.6 il, hər nəfərə düşən milli gəlir 13784 ABŞ dolları (PPP $) olmuşdur **(Human Development Report 2020: 242).**

Hesabat məlumatlarına əsasən qeyd edə bilərik ki, İİİ 2000-2019-cu illərdə yüksəlmiş, lakin ölkənin mövqeyi digər ölkələrlə müqayisədə geriləmişdir. Bu isə ölkədə sosial siyasətə dair islahatların yenidən nəzərdən keçirilməsini zəruri edir.




**Şəkil 1:** Azərbaycanın İnsan İnkişafı İndeksi

Mənbə: İİİ-nin hesabat məlumatları əsasında tərtib olunmuşdur.

Dövlətin sosial siyasətinin və uyğun institusional islahatların nəticələrinin əks olunduğu digər yekun sənədlərindən biri də BMT-yə üzv dövlətlərin Dayanıqlı İnkişaf Sammitində təsdiqlənmiş "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dir. Bu sənədə əsasən 17 qlobal məqsəd və 169 hədəf (Birləşmiş Millətlər Təşkilatı) istiqamətində daha yaxşı nəticələrin əldə edilməsi nəzərdə tutulur. Dayanıqlı inkişaf məqsədləri (DİM) hazırda bir çox ölkədaxili proqram sənədlərinin, ölkələrarası layihələrin əsaslandırılmasında istinad sənədini təşkil edir. Həmçinin İİİ-nin də əsas göstəricilərinin əlaqələndirildiyi 3-cü məqsəd və 4.3., 4.4., 8.5-ci hədəflərdir. Bu məqsədlərin ölkə üzrə statistik əlyetərliyinə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən 3-cü məqsəd üzrə 57.1%, 4-cü məqsəd üzrə 50%, 8-ci məqsəd üzrə 50% göstəriciyə dair statistik məlumat mövcuddur **(DİM üzrə Milli Məlumatlandırma Portalı)**. Göründüyü kimi bir çox göstəricilərin qiymətləndirilməsi hazırda mümkün deyil və ya planlaşdırılır. Bu müxtəlif institusional mexanizmlərin hazırkı fəaliyyətində sosial siyasəti istiqamətləndirməyə xidmət edəcək yeni həllərin vacibliyini göstərir.

Hazırda icrası istiqamətində işləri davam etdirilən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində isə ölkədə sosial siyasəti dəstəkləyən iki əsas prioritet (2. Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət; 3. Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı) nəzərdə tutulmuşdur. Bu tədbirlər çərçivəsində modernləşmə və innovasiyaların inkişafının tələblərinə uyğun insan kapitalının formalaşmasına nail olmaq mümkündür. İnnovasiyaların inkişafını modernləşmənin əsas meyarlarından birinə çevrilməsini nəzərə alaraq ölkədə uyğun infrastrukturun olması iqtisadi siyasətlə yanaşı sosial və elm siyasətində koordinasiyanı şərtləndirir.

Modernləşmə tarixi iqtisadi və sosial aspektdə əhalinin məşğulluq sahələri, eləcə də əmək bölgüsü, gəlirlərin bölgüsü, texnoloji dəyişikliklər və sənayenin ardıcıl inkişafı ilə daha çox əlaqədar olmuşdur. Hazırda iqtisadi modernləşmə aqrar inkişaf modellərindən sənayeləşmiş şəhərlərin inkişafına keçidlə səciyyələnir. Belə ki, post-sənaye cəmiyyətinə keçid, texnika və texnologiyaların inkişafına uyğun yaranan innovasiya anlayışı iqtisadi artımı təmin edən amillər kimi təhlil obyektinə çevrilmişdir. İstehsal prosesində insan kapitalının artan əhəmiyyəti postsənaye (yeni sənaye) və neosənaye cəmiyyətinin və ardıcıl olaraq rəqəmsal iqtisadiyyatın yaranması ilə nəticələnmişdir. Postsənaye cəmiyyəti özünəməxsus xüsusiyyətləri ilə məşğulluğun sahələrarası bölgüsündə və tipində də dəyişikliklər yaratmışdır. Belə ki, məşğulluğun həcmi xidmət (xüsusilə, informasiyaların işlənməsi) sahəsində artmışdır **(İqtisadi nəzəriyyə. Mikroiqtisadiyyat-1,2).**

İqtisadi tsiklin bu transformasiyası bazar iqtisadiyyatına keçidlə əlaqədar Azərbaycanda da iqtisadi qanunauyğunluqların fəaliyyətində müəyyən dəyişikliklərlə nəticələnmişdir. Azərbaycan sənayesinin tarixi inkişafının əsasında neft-qaz hasilatının olması ölkə iqtisadiyyatının neft və qazın qiymətlərindən asılılığı azaltmaq məqsədilə yenidən sənayeləşmədə diversifikasiyanın tətbiqini tələb edir. Yenidən sənayeləşmə və diversifikasiya istiqamətlərinin düzgün müəyyən edilməsi və eyni zamanda əhalinin məşğulluğunun təmin edilməsi sənayenin və innovasiyaların inkişafında olan müasir meyllərin nəzərə alınmasını vacib edir.

Məşğulluğun iqtisadi fəaliyyət növlərinə əsasən bölgüsünü ifadə edən "üç sektor nəzəriyyəsi"nə uyğun olaraq ilkin sektor - kənd təsərrüfatı və mədənçıxarma sənayesi, ikinci sektor - emal sənayesi və tikinti, üçüncü sektor – digər xidmətlərdən ibarətdir **(Старостина, Прушковская, 2013: 60)**. Azərbaycan iqtisadiyyatında məşğulluğun strukturunun 1990-2020-ci illər üzrə təhlilindən məlum olur ki, ölkədə sənayeyə qədərki (və ya aqrar–sənaye) mərhələ müşahidə edilməkdədir.




**Şəkil 2:** Azərbaycan iqtisadiyyatında məşğulluğun strukturu, faiz

Mənbə: ARDSK məlumatları əsasında tərtib olunmuşdur.

Beynəlxalq iqtisadi inkişaf meylləri və innovasiyaların tətbiqinin stimullaşdırılmasına dair olan çağırışları nəzərə alaraq bu sektorlarda balanslaşdırılmış inkişafın təmin edilməsi zəruridir. Əks təqdirdə xarici, eləcə də daxili şokların təsiri ilə əhalinin məşğulluğu və gəlirlərinin formalaşması ilə əlaqədar çətinliklər yaranır. Həmçinin texnoloji innovasiyaların tətbiqi bir çox hallarda işçilərin ixtisarına səbəb olur (innovasiyaların növləri üzrə fərqli təsirlərlə).

Nümunə üçün sənayedə məşğul olanların sayına baxaq. Ölkə sənayesində muzdla çalışanların sənaye sahələrinin texnoloji inkişafı nəzərə alınmaqla bölgüsünə əsasən qeyd edə bilərik ki, bu sektorda baxılan dövrdə innovasiya tipli məşğulluq (innovativ sahələrdə məşğulluq) azalan meyllikdədir (həmçinin proqnoz məlumatları) **(Süleymanova, 2016; Süleymanova, 2017: 38)**.




**Şəkil 3:** Sənayedə muzdlu işçi sayının dinamikası, min nəfər

Mənbə: ARDSK məlumatları əsasında tərtib olunmuşdur.

Ölkə sənayesinin bu mənzərəsi deməyə imkan verir ki, innovativ inkişaf meylləri və ya modernləşmə əhalinin məşğulluq səviyyəsinə əhəmiyyətli təsir dərəcəsinə malik olmaqla sosial və iqtisadi siyasətdə bir sıra islahatları zəruri edir.

Qeyd etmək vacibdir ki, dövlətin məqsədyönlü siyasətinin nəticəsi olaraq 1991-2021-ci illər ərzində ölkənin neft-qaz resurslarının ixracından gəlirləri artmışdır. Eyni zamanda bu ölkədə dövlət büdcəsinin transfertlərlə maliyyələşmə imkanlarını da genişləndirmiş və həyata keçirilən bir sıra sosial və iqtisadi dövlət proqramlarının maliyyə mənbəyini təşkil etmişdir. Bununla bağlı statistikaya diqqət edək:




**Şəkil 4:** Dövlət büdcəsinin gəlirləri və xərc istiqamətləri (Sol şkala: milyon manat ; Sağ şkala: faiz)

Mənbə: ARDSK məlumatları əsasında tərtib olunmuşdur.

Statistikadan məlum olur ki, büdcənin sosial yönümlüyü saxlanmış, xüsusilə 2019-2020-ci illərdə pandemiya ilə əlaqədar xərclərin bu istiqamətdə artması müşahidə edilmişdir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli 1950 nömrəli "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncamı təsdiq edilmiş və bu sərəncamla əhalinin maddi vəziyyətinin dəstəklənməsi üçün 228 milyon manat, həmçinin sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsinə dəstək proqramı üçün 40 milyon manat vəsait ayrılmışdır **(Ələkbərov, 2020: 23).** Eyni zamanda bu dövrdə sahibkarlıq subyektlərinin qorunması, qapanmalar səbəbindən onların fəaliyyətinin məhdudlaşdırılması zamanı dəymiş ziyanın qarşılanması istiqamətində dövlət tərəfindən müvafiq tədbirlər görülmüşdür.

Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən 2021-ci ildə 69 min yeni iş yerləri açılmış və onların 88,8%-i qeyri-dövlət sektorundadır. Yeni iş yerlərinin 77,1 %-i Bakı şəhərinin, 0,6 %-i Naxçıvan Muxtar Respublikasının, 22,3 %-i digər regionların payına düşmüşdür. Açılmış yeni iş yerlərinin 10,1 %-i yeni yaradılmış müəssisələrdə, 87,2 %-i mövcud müəssisə və təşkilatlarda, 0,6 %-i fəaliyyətini bərpa etmiş müəssisə və təşkilatlarda, 2,1 %-i isə digər tədbirlər üzrə yaradılmışdır **(Dövlət Statistika Komitəsi).**

Yeni iş yerlərinin yaradılması istiqamətində hökumətin digər stimullaşdırıcı addımı müəyyən edilmiş prioritet iqtisadi sahələr və peşələr üzrə vakansiyası olan və ya yeni vakansiya yaradan özəl sektor işəgötürənlərinə əmək haqlarının bir hissəsinin İşsizlikdən sığorta fondunun vəsaiti hesabına maliyyələşdirilməsi proqramının icrasıdır. Proqram Nazirlər Kabinetinin 2020-ci il 8 iyul tarixli müvafiq Qərarı ilə təsdiq edilmiş və icra olunmaqdadır **(Dövlət Məşğulluq Agentliyi)**.

**Nəticə**

İqtisadi siyasət innovativ dəyişiklərlə əlaqədar dəstəkləyici tədbirlərlə çıxış edərkən sosial siyasət mövcud mexanizmləri ilə həm yaranmış sosial çətinlikləri aradan qaldırmağa, həm də innovativ dəyişiklərə uyğun kadrların formalaşdırılmasına xidmət edir. Həmçinin bu koordinasiyada davamlı və dayanıqlı inkişafa dair məsələlər də məqsədlərin ziddiyyətliliyi halında aktuallaşmağa başlayır. Bu mənada innovasiyaların inkişafının sosial siyasətə təsirlərinin beynəlxalq çağırışlar və ölkədaxili prioritetlər baxımından iqtisadi islahatların gedişi çərçivəsində yeni yaradılan iş yerlərinin, yeni peşə və ixtisas tələblərinin, texnoloji inkişafla əlaqədar yaranan işsizlik səviyyəsinin, əmək bazarında tələb və təklifin formalaşması xüsusiyyətlərinin diqqətdə saxlanması vacibdir. Eyni zamanda İN-nin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi Azərbaycan Respublikası ilə Dördüncü Sənaye İnqilabı sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əməkdaşlığı və bu sahədə əlaqələndirməni, habelə rəqəmsal iqtisadiyyat üzrə çağırışların, təşəbbüslərin, strategiyaların və layihələrin təhlili və koordinasiyası fəaliyyəti ilə əlaqədar bəhs etdiyimiz məsələlərdə perspektiv imkanlar mövcuddur.

## ƏDƏBİYYAT SİYAHISI


1. Aravacik E.D. Social Policy and the Welfare State / Public Economics and Finance, 2018.
2. Ələkbərov E. Koronavirus (COVID-19) pandemiyasının Azərbaycan iqtisadiyyatına təsirlərinin təhlili / Azərbaycanda İqtisadi İslahatların Həyata Keçirilməsi Xüsusiyyətləri və Problemləri Elmi Əsərlər Toplusu Xüsusi buraxılış (COVID-19), 2020. – s. 23-43
3. http://sdg.azstat.org:8484/az/home
4. https://dma.gov.az/
5. https://sdgs.un.org/goals
6. https://www.sosial.gov.az/sasnam
7. İqtisadi nəzəriyyə. Mikroiqtisadiyyat-1,2. Dərslik / Q.P.Juravlyovanın ümumi redaktəsilə. 4-cü nəşr. Bakı: Çaşıoğlu, - 2010. - 924 s.
8. Spicker P. Social Policy. Theory and practice. Third edition. 2014. 514 p.
9. Süleymanova Ə. Azərbaycan sənayesində innovasiya tipli məşğulluğun proqnozlaşdırılması / AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası 2017 (iyul-avqust), s. 31-40.
10. Süleymanova Ə. Sənayedə iş yerlərinin yaradılması xüsusiyyətləri: innovasiya tipli məşğulluq / AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası 2016 (may-iyun), s. 54-62.
11. UNDP (United Nations Development Programme). 2020. Human Development Report 2020: The Next Frontier: Human Development and the Anthropocene. New York.
12. Доренко К. История возникновения социальной политики в современных государствах / Право и управление. XXI век, 2011. №3(20), - с. 46-55.
13. Старостина А.А., Прушковская Э. В. Трехсекторная модель занятости в экономике Украины / Общество: политика, экономика, право, 2013. № 2, - с.59-62.
14. Терзиев В., Димитрова П. Социальная политика как инструмент общественного развития./ UNIVERSUM: Экономика и Юриспруденция, 2017. № 2(35), - с. 1-12.

# GEZGİN REHBERLERİN KİŞİLİK ÖZELLİKLERİ İLE DESTİNASYON TERCİHLERİ ARASINDAKİ İLİŞKİNİN DEĞERLENDİRİLMESİ

**Aysel MAMMADLİ**[42]
**Şehnaz DEMİRKOL**[43]

## Özet

Bir hizmet sektörü olarak turizmin soyut özelliğini gözönünde bulundurduğumuzda turistik ürünlerin tüketiciler tarafından benimsenmesinin üretim sektörüne göre daha zor olduğu görülmektedir. Bu nedenle turistik destinasyonların tanıtımında çeşitli pazarlama tanıtım türleri kullanılmaktadır.

Turistik ürünlerin tanıtılması türlerinden biri de etkileyici pazarlama (influencer marketing) turistik destinasyonlarının tanıtılmasında önemli role sahiptir.

Turizm sektöründe etkileyici kişiler, gezgin rehberleri veya gezgin olarak ifade edilmektedir. Araştırmada gezgin rehberlerinin kişilik özellikleri değerlendirilmiştir. Aynı zamanda gezgin rehberlerinin destinasyon tercihleri ile onların kişilik özellikleri arasında ilişki analiz edilmiştir.Günümüzde turistik destinasyonların kendilerini ve ürünlerini daha etkili, aynı zamanda hızlı pazarlayabilmek ve popülerleşmek adına en çok tercih ettikleri kanallardan biri de sosyal medyadır. Sosyal medya bireylere destinasyonlarla ilgili bilgilere ulaşabilmeyi, diğer bireylerle fikir alışverişinde bulunmayı, destinasyon ve ürünleri ile ilgili seçim yapabilmeyi sağlamaktadır. Destinasyon ve turistik ürünlerinin tanıtımı ve pazarlanması hedefe ulaşmakta, popürleşmekte ve marka algısı yaratmakta kolaylık sağlayacaktır. Destinasyon pazarlamacıları kendi turistik ürünlerinin tanıtılmasında gezgin rehberleri ile işbirliği yaparak daha çok tüketici kitlesine sahip olabilirler. Bu nedenle, gezgin rehberlerinin kişilik özelliklerinden kaynaklanan destinasyon seçimleri dikkate alınmalıdır.

Kişilik, yetenek ve özellikleriyle toplumsal yaşamda etkili olan insanı, kendine özgü ve benzersiz bir varlık olarak dile getiren kavramdır. Farklı kişilik özelliklerine sahip gezgin rehberlerinin seyahat destinasyonu tercihlerinde de farklılık görülmektedir.

***Anahtar kelimeler: gezi blogları, destinasyon, seyahat, gezgin, kişilik özellikleri***

## Evaluation of the Relationship Between The Personal Characteristics And The Preferences Of The Travel Guides

## Summary

Considering the intangible feature of tourism as a service sector, it is seen that the adoption of touristic products by consumers is more difficult than in the production sector. For this reason, various types of marketing promotion are used in the promotion of touristic destinations.

Influencer marketing, one of the types of promotion of touristic products, has an important role in promoting touristic destinations.

Influencers in the tourism sector are expressed as travel bloggers or travelers. In the study, the personality traits of travel bloggers were evaluated. At the same time, the relationship between travel bloggers' destination preferences and their personality traits was analyzed.

Today, social media is one of the most preferred channels by touristic destinations in order to market themselves and their products more effectively and at the same time, to become popular. Social media enables individuals to access information about destinations, exchange ideas with other individuals, and make choices about destinations and products. The promotion and marketing of destination and touristic products will make it easier to reach the target, become popular and create a brand perception. Destination marketers can have more consumer audiences by collaborating with travel bloggers in promoting their touristic products. For this reason, destination choices of travel bloggers due to their personality traits should be taken into account.

It is the concept that expresses the human being, who is effective in social life with his personality, talents and characteristics, as a unique and unique being. Travel bloggers with different personality traits also differ in their travel destination preferences.

***Keywords: travel blogs, destination, travel, traveler, personality traits***

**JEL code:** ***Z3, A1, Z32***

[42] **İktisat Fakültesi, Turizm İşletmeciliği Bölümü, Turizm İşletmeciliği Ana Bilim Dalı, Doktora Öğrencisi, ayselsiracqizi95@gmail.com**

[43] **İstanbul Üniversitesi, İktisat Fakültesi, Turizm İşletmeciliği Bölümü, Turizm İşletmeciliği Ana Bilim Dalı, Doktor Öğretim Üyesi, sdemirkol@istanbul.edu.tr**

**Giriş**

Küreselleşmenin ortaya çıkması bilginin ve teknolojinin kullanımını arttırarak yeniliklerin daha geniş kitlelere ulaşmasını sağlamıştır. Değişen ve gelişen teknoloji ile birlikte dünyadaki tüm dinamikler de gelişerek değişime uğramaktadır. Bu dinamiklerden biri olan turizm sektörü de bilgi ve teknolojinin hızla yayılması ile farklılıklara yönelen bir hale gelmiştir. Bu değişim turizmde yeni pazarlama yöntemlerinin uygulanmasını zorunlu hale getirmiştir. Sözkonusu pazarlama yöntemleri gerilla pazarlama, girişimsel pazarlama, toplumsal pazarlama, içerik pazarlaması olarak ele alınmaktadır.

İçerik pazarlamasının en etkili türlerinden biri gezgin rehberlerinin hazırladıkları bloglardır. Gezgin rehberlerin tüketicilere sunulacak faydalı içerik şeklinde turizm işletmelerinin kendi web siteleri dışında oluşturdukları mikro site ya da blog siteleriyle bulundukları bölgeye ait bilgi paylaşım yapmaktadırlar.

Turistik ürünlerin soyut özelliği gezgin rehberlerinin önemini daha da artırmaktadır.

Çalışmada destinasyonların farklı çeşitlilikte olduğunu gözönünde bulundurarak, gezgin rehberlerinin destinasyon tercihleri ile onların kişilik özellikleri arasında ilişki incelenmiştir. Çalışmanın esas amacı gezgin rehberler ile destinasyon arasındaki ilişkinin değerlendirilmesidir.

Çalışmamızda Carl Gustav Jung'un 8 kişilik tipi kullanılmıştır. Burada dört temel psikolojik işlev (sezgi, duygu, düşünme, hissetme) ve iki esas kişilik özellik tipi (içedönük, dışadönük) kullanılmıştır. Gezgin rehberlerinin kişilik özellikleri onların destinasyon tercihlerine etkisi turizm pazarlamacılarını destinasyon tanıtımında doğru gezgin rehberini seçmekte onlara fayda sağlayabilir.

Bireylerin birbirinden farklı özelliklere sahip olması gidecekleri destinasyon tercihlerini de etkilemektedir. Bu nedenle belirlenen hedef kitleye gereken bilgi akışını sağlamak adına doğru gezgin rehberini tercih etmek de çok önemli husustur. Bunu sağlamak hem turizm işletmelerinin destinasyon pazarlamasında etkin bir üstünlük kazanmasına, hem gezgin rehberlerinin kendi kişilik özelliklerine göre bir seyahat planlamasına ve bunun sonucu olarak seyahat etmeye daha fazla motive olmalarına, insanların farklı destinasyon türlerine özel bilgiler almasına olanak tanıyacaktır.

Gelişen teknoloji çağının dünyamıza hızlı bir şekilde entegre etmesini gözönünde bulundurursak, gezgin rehberlerinin turizm işletmeleri için sağladığı ve sağlayabileceği avantajları özellikle belirtmek gerekir. Bir turizm destinasyonunun gezgin rehberleri tarafından sosyal medya veya bloglar aracılığıyla topluma tanıtımı hem turistleri yönlendirmede, hem de turizm destinasyonuna turist çekmede önemli etkendir.

Turizm destinasyonları kapsamında bloglarla ilgili çalışmaların çoğunlukla destinasyon pazarlaması ile ilgili olduğu görülmüştür. Bunun nedeni bir destinasyon hakkında görüşe sahip olmak için blogların diğer veri tabanlarına göre daha etkili olmasıdır. Bloglar e-posta veya diğer internet veri tabanlarına göre daha fazla kişiye erişme özelliğine sahiptir. Dolayısıyla, gezgin rehberleri hem üretici, hem tüketici olarak turistlere kolaylıkla ulaşabilecekleri bilgi akışı sağlayacak kişilerdir.

**1. Kavramsal Çevre**

İnternet teknolojilerinin gelişimi, web site kullanımının pratik olmaması, blog okuryazarlığının artması, tüketicilerin bilinçlenmesi gibi nedenlerle blog kullanımı yaygınlaşmıştır. Blogların en popüler kullanım şekli, internet günlükleri olarak ifade edilebilecek kişisel bloglardır. Bunun yanı sıra, eğitim amaçlı bloglar, politik amaçlı bloglar, haber amaçlı bloglar, pazarlama amaçlı bloglar olmak üzere birçok türde blog mevcuttur (Akar, 2006: 43). Ayrıca kurumsal bloglar da giderek yaygınlaşmaktadır. Türkçe ağ günlüklerinde en fazla rastlanan tür kişisel bloglardır. Kişisel bloglar, tecrübeli kullanıcıların yanı sıra deneyimsiz kullanıcıların da rahatlıkla kullanabileceği bir yapıdadır. Bu tür blogların kullanıcı dostu olması kişilere blog yazarı olma konusunda cesaret vermektedir. Kişisel bloglar, kullanıcıların günlük yaşamda karşılaştıkları durumları ya da herhangi bir konu hakkındaki görüşlerini okurlarıyla paylaşmasını sağlamaktadır. Bu türdeki blogların birçoğu blog siteleri aracılığıyla oluşturulup hazırda bulunan blog temaları kullanılarak oluşturulmaktadır. Kişisel bloglar insanların paylaşma ve kendini ifade etme güdülerini desteklemektedir. Bir konu veya herhangi bir durumla ilgili detaylar verme, yeni fikirler paylaşma ya da güncel bilgileri kayıt altına alma gibi birçok sebeple bloglar yazılabilmektedir. Bununla birlikte kişisel bloglar, kullanıcılarının hobi olarak gördüğü birçok konunun iş potansiyeline dönüşmesini sağlamaktadır (Yamamato ve Şekeroğlu, 2014: 45).

Seyahat blogları ve vlog'lar, bir anlamda çok bilgilendiricidir, bir anlamda, alınacak ulaşım modları, ne kadar para getirileceği ve hangi en iyi yiyeceklerin deneneceği çok iyi ayrıntılıdır ve bu nedenle gezginler, seyahat etkileyicilerine güvenirler çünkü gerçek deneyim sağlarlar.

Bütünleşik bir deneyim sunan turizmin bir hizmet sektörü olması ve turizm ürününün kendine özgü yapısından kaynaklanan ayırt edici bazı özellikleri vardır (Kozak, 2014: 130-131). Bu özelliklerden biri de dokunulmazlıktır. Turizm ürününün dokunulmazlık unsuru sebebi ile, satınalma öncesi karar verme aşamasında tüketiciler, gidecekleri destinasyona ilişkin çok daha fazla bilgi edinme gereksinimi ile karşı karşıya kalmaktadırlar. Bu nedenle, tüketiciler daha önce seyahat deneyimlerine ilişkin bilgileri ve tavsiyeleri dikkate almakta ve seyahat kararı vermede bunlar etkili olmaktadır (Kunt ve Hassan, 2021:223). Bu noktada seyahat ve turizmde etkileyici pazarlama, seyahat bağlamında kulaktan kulağa iletişimin önemine dayanmaktadır (Litvin, Goldsmith ve Pan, 2008). Turizm pazarlamacıları, seyahat kararı vermede önemli bilgi kaynakları olan internet ortamında çeşitli konularda içerik üreten blog yazarları ile çalışmaya başlamışlardır (Lin ve Huang'dan aktaran, Kunt ve Hassan, 2021: 223). Sonrasında Instagram, seyahat ilhamı yaratmak, bir destinasyona ilgi uyandırmak ve elektronik ağızdan ağıza iletişim olarak hareket etmek için popüler bir kanal haline gelmiş bu da platformda seyahat etkileyicilerinin büyümesine ve Destinasyon Yönetim Kuruluşları tarafından etkileyici pazarlamanın benimsenmesine yol açmıştır (Barbe, Neuburger Pennington-Gray, 2019).

Seyahat ve turizmde etkileyici pazarlamaya ilişkin akademik çalışmalar incelendiğinde ise sosyal etkileyicilerin turistlerin davranış ve motivasyonlarında önemli etkilere sahip olduğu görülmektedir. Örneğin sosyal medya etkileyicilerin Taylandlı turistlerin davranışları ve seyahat motivasyonu üzerindeki etkilerine ilişkin yapılmış bir çalışmada (Cholprasertsuk, Lawanwisut ve Thongrin, 2020) katılımcıların büyük bir bölümünün (%92.30) seyahat kararı vermede sosyal medya etkileyicilerinden etkilendiği ortaya konulmuştur. Ayrıca, turistlerin davranışlarını ve seyahat motivasyonlarını etkileyen faktörler arasında deneyim ve uzmanlığa sahip turizm etkileyicilerinden ve inanılırlığı olanlardan seyahat bilgileri almak yer almaktadır. Başka bir çalışmada ise sosyal medya etkileyicilerinin kaynak güvenilirliği ile Y Kuşağı (Millennial) kullanıcılarının tutumları ve seyahat etme niyetleri arasındaki etkileşim incelenmiştir. Elde edilen bulgular, kaynak güvenilirliğinin kullanıcıların tutumları üzerinde önemli ölçüde olumlu bir etkiye sahip olduğunu ve bunun da seyahat niyetiyle olumlu bir şekilde ilişkili olduğunu göstermiştir (Han ve Chen, 2021). Yapılan başka bir çalışmada ise sosyal medya etkileyicilerinin, tüketicilerin destinasyon imajına ilişkin tutumu değiştirmede etkili olduğunu ve bunun sonucunda tüketicilerin seyahat niyetini ve ağızdan ağza pazarlama niyetini etkilediğini göstermiştir (Ong ve Ito, 2019). Son olarak seyahat ve turizmde etkileyici pazarlamaya ilişkin pratik uygulamalar incelendiğinde pek çok örnek ile karşılaşılmaktadır. Örneğin Yeni Zelanda'nın Dünya'ya bir turizm destinasyonu olarak pazarlanmasından sorumlu bir kuruluş olan Turizm Yeni Zelanda, ünlü Çinli mikro-blogger olan Yao Chen ile işbirliği yaparak turizmde etkileyici pazarlama konusunda öncü olmuştur. Yeni Zelanda'nın Çinli seyahatçilere tanıtılmasında Yao Chen'in etkisinden faydalanılmıştır (Gretzel, 2018). Bazı destinasyonlar da etkileyicileri düzenlenen etkinliklere davet etmektedir. Bu doğrultuda, Instameet (Instagram topluluğundaki insanların birbirleriyle buluşmalarının ve şehirlerinde birlikte fotoğraf çekmeleri) 'ler genellikle etkileyicileri içerik oluşturmaya ve paylaşmaya teşvik etmek için destinasyonlarda veya festivallerde kullanılmaktadır (Queensland, Avustralya, 2014). Ayrıca, her yıl çeşitli online platformlarda uluslararası alanda popüler olan seyahat etkileyicilerin listeleri paylaşılmaktadır (HypeAuditor, 2021). Aşağıda Tablo 1'de uluslararası alanda Ağustos 2021'de Instagram'daki en iyi 10 seyahat etkileyicisi yer almaktadır.

Seyahat etkileyicileri, yeni yerler keşfetmekte, yeni kültürleri deneyimlemekte ve yeni yiyecekler tadarak yeni anılar oluşturmaktadırlar.

**Tablo 1.** Uluslararası alanda Ağustos 2021'de instagram'daki en iyi 10 seyahat etkileyicisi

| Sıra | Etkileyici | Kategori | Takipçi sayısı | Takipçi ülkesi | Gönderi başına beğeni ve yorum sayısı | Etkileşim ortalaması |
|---|---|---|---|---|---|---|
| 1 | natgeotravel | doğa, manzara, fotoğraf, seyahat | 44.2M | Amerika Birleşik Devletleri | 68.2K | 80.4K |
| 2 | jessicathivenin | seyahat, aile | 6.3M | Fransa | 373.1K | 457.2K |
| 3 | beautifuldestinations | fotoğraf, seyahat | 20.9M | Amerika Birleşik Devletleri | 88.3K | 115.5K |
| 4 | wonderful_places | fotoğraf, seyahat | 15.8M | Amerika Birleşik Devletleri | 109.3K | 139.6K |
| 5 | raghavjuyal | seyahat, yaşam şekli | 8.8M | Hindistan | 191.1K | 224.2K |
| 6 | sanakhaan21 | seyahat | 4.3M | Hindistan | 240K | 297.4K |
| 7 | artem_chek | aile, yaşam şekli, seyahat | 4.6M | Rusya | 188.5K | 266.2K |
| 8 | bukayosaka87 | spor, seyahat | 2.4M | Birleşik Krallık | 261K | 446.3K |
| 9 | ppteamrafa | yaşam şekli, seyahat | 6.7M | Meksika | 92.9K | 103K |
| 10 | etihad | seyahat, makine ve teknoloji | 1.7M | Hindistan | 269.5K | 386.8K |

**M:** Milyon **K:** 1000'dir.
**Kaynak:** HypeAuditor (2021)'dan yazarlar tarafından derlenmiştir.

Çalışmada gezgin rehberlerinin kişilik özelliklerinin destinasyon tercihlerine etkisi analiz edilmiştir. Kişilik, bireyde zihinsel, ahlaki ve sosyal özellikleri dinamik bir bütünleşme olarak açıklar. Bireyin kişiliğini onun davranışları, duygu ve düşünceleri belirlemektedir. Kişi yaşadığı toplumun inançlarını, ilke ve kurallarını zaman içerisinde benimsemektedir. Bu nedenle kişilik yalnızca doğuştan değil, bireyin içinde bulunduğu toplumdan öğrendiği davranışları da kapsamaktadır. Kişilik psikoloji içerisinde en önemli ve çeşitli tanımlamalara sahip kavramlardan biridir (Kültür, 2006). Kişilik kavramı, süreklilik gösteren özellikler ve eğilimler olarak tanımlanabilir. Bu anlamda aslında kişilik insanlar üzerindeki kalıcı yönlerini ifade eder. Kişilik birçok insan davranışı ile ilgilenmekte ve bir kişi hakkında hemen hemen her olguyu içermektedir (Ewen, 2010: 5). Kişiliğin tüm özelliklerinin dışarıdan gözlenemeyeceği, bunların bireyin iç dünyası örneğin rüya gibi faktörler olması varsayımsal bir kavram olduğunu ve kişilerarası inceleme gerektirdiğini ortaya koymuştur.

Kişilik; insanı çevresindeki diğer bireylerden ayıran, yapılaşmış ve tutarlı ilişki biçimidir (Çetin ve Beceren, 2007: 110-132).

Kişilik özellikleriyle ilgili literatürde farklı tanımlar yapılmıştır. Kretshmer'e göre bireylerdeki kişilik tipleri, bireylerin fiziksel özellikleri ile birlikte oluşmakta ve karşılıklı etkileşim içinde bulunmaktadır. Kretshmer, kişilik tiplerini dört gruba ayırmıştır: piknik tipi, astenik tip, atletik tip, displastik tip.

William Sheldon'un Sınıflandırması Sheldon Kretscher'in kurduğu sistemi geliştirmiştir (Baymur, 2017:277). Sheldon insanları bedenlerinin dokularına göre sınıflandırmış ve üç tip olarak kategorize etmiştir. Bunlar; endomorflar, mesomorflar, ektomorflardır.

Spranger'in yapmış olduğu sınıflandırmada altı tip bulunmaktadır. Bu tiplerin ayrıştırılması sosyal ve ahlaki değerlere dayandırılarak yapılmıştır. Tipolojideki bu altı tip şöyledir: teorik tip, estetik tip: ekonomik tip, sosyal tip, politik tip, dindar tip.

Cattel kişiliğin kaç ana özelliği olduğuna dair araştırmalarda bulunmuş ve çok sayıda özelliğin olduğunu tespit etmiştir. Bu özelliklerden birbirine yakın olanları gruplandırarak toplam onaltı farklı temel kişilik özelliği bulmuştur. Bu özellikler, sıcaklık, mantıklı düşünme, duygusal kararlılık, üstünlük, neşelilik, kural bilinci, sosyal cesaret, hassaslık, tedbirlilik, dalgınlık, hususiyet, endişe duygusu, değişikliğe açıklık, kendine yetme, mükemmeliyetçilik, gerginliktir (Burger, 2006: 248-253).

Peabody ve Goldberg'in Beş Büyük Kişilik Boyutu Modeli Cattell'den sonra araştırmalara devam edilmiş ve Peabody ve Goldberg yaptıkları çalışmalar sonucunda kişilerin beş temel kişilik tipinin olduğunu ileri sürmüşlerdir. Bu özellikler dışa dönüklük/içe dönük, uyumluluk/kuşkulu, özdisiplinli/özdisiplinsiz, nevrotiklik/ duygusal denge, yeniliklere açıklık/ geleneksellik olarak ifade edilen kişilik tipleridir.

Jung'a göre; bireylerin kişilikleri içe dönük ve dışa dönük olarak ikiye ayrılır (Türk ve Helvacı, 2005: 109). Dışa dönük olan kişiler dünyaya yoğunlaşırken, içe dönük olan kişiler kendi iç dünyasına oluşan fikirlere yoğunlaşırlar (Zel, 2001: 39). İçe dönük tipler, diğer kişilerle zor ve olumsuz ilişkiler kurarlar (Köknel, 1995: 39). Bu tip kişiler neşelerini ve üzüntülerini diğer bireylerle paylaşmak istemezler. Duygusal tepkileri kendilerinedir. Duygularını diğer insanlara yansıtmazlar. Bu kişiler sosyal ilişki kurmaktan kaçarlar ve yalnız kalmayı isterler ve hayal kurmayı severler (Karamustafa, 2000). Bu tip bireyler endişeli, katı, içine kapanık, asosyal, aşırı kontrollü ve başkası ile ilgili olan sorunları kendisiyle ilgiliymiş gibi sanırlar. Bu tip kişiler genellikle stresli olurlar (Ercan ve Şar, 2004: 217-242). Dışa dönük özellikler gösteren bireyler ise, dış dünyayla kolay ve uyumlu ilişkilerde bulunur. Diğer bireylere ve nesnelere değer verir ve onları düşünür. Yapacaklarını dış dünyaya göre düzenler. Yaşadığı toplumun kurallarına ve değerlerine kolayca ve çabuk adapte olur (Köknel, 1995: 90). Diğer yandan bu tip 20 özelliklere sahip bireylerin stres düzeyleri daha düşüktür ve bu yüzden bu bireyler strese karşı daha dirençlidirler (Soysal, 2008: 4-19) .

Kişilik tipolojisinde bireylerin ruhsal işlevlerini Jung dört bölümde toplamıştır. Bunlar; düşünme, hissetme, duyu ve sezgidir.

- Düşünme: Düşünceler arasında ilişki kurarak genel kavrama ulaşmayı ya da bir soruna çözüm üretmeyi sağlar.
- Hissetme: Düşüncenin ortaya çıkarttığı duyguya göre düşünceyi kabul ya da reddeder.
- Duyu: Bireylerin duyu organlarının uyarılması sonucu algılanan duyuları içerir.
- Sezgi: Yargılama ve mantık kullanılmaksızın o andaki yaşantının duygu ve düşüncenin herhangi bir katkısı olmadan insanda oluşturduğu izlenimlerdir. Jung'a göre, herkesin kişisel bilinçaltı dışında birde ilksel imgelerden oluşan ortak bilinçaltı bulunmaktadır (Burger, 2006:156-157). Jung'un bu kuramı dışında kişilik tipolojileri hakkında bilgiler verdiği kuramıda bulunmaktadır. Dört işlev, yani düşünme, hissetme, duyu ve sezgi, Jung'a göre bireylerin bilinçli varlıklarına ve kişilik yapılarına anlam verebilmek üzere sekiz kişilik tipine ana kaynak olmaktadırlar. Bu tipler; Dışadönük düşünen tip, duygusal yönlerini bir tarafa itmiş nesnel düşünen bireylerdir. Tüm çabası nesnel dünya hakkında bilgi toplamaktır.

İçedönük düşünen tip, Düşünceleri kendine dönüktür. Duygularını bilinçdışına itmiştir. Kendi benliğinin gerçekliğini araştırır.

Dışadönük duygusal tip, düşüncelerden çok duygular rol oynar ve küçük bile olsa değişiklikler duygularda hızlı değişime yol açar.

İçedönük duygusal tip, duygularını dış dünyadan saklayan, gerçekte yoğun duygularla dolu bireylerdir.

Dışadönük duyusal tip, Dış dünya gerçekleriyle ilgilidirler, gerçekçi pratik ve aklına koyduğunu yapan kişilerdir. Zevk ve heyecan veren şeyleri sever fakat duyguları yüzeysel bireylerdir. İçedönük duyusal tip, bu kişiler, dış dünyadan uzak durur ve kendi duyularına yönelirler.

İçedönük sezgisel tip, Dünyadaki yenilikleri izlemeye çaba harcarlar, tüm dikkatleri bu yöndedir. Fazla düşünmeden hareket ettikleri için bir şeyi uzun süre devam ettiremezler.

İçe dönük sezgisel tip, dış gerçeklerle ilgisi olmayan kişilerdir. Kendinin de bilmediği bir imgeler dünyasında yaşar, ama bu imgelere ilgileri de uzun sürmez ve sürekli değişiklik gösterir (Geçtan, 1998, s. 198-201). Jung, yukarıda tanımlanmış olan karakter tiplerinin, fazla gelişmiş bilinçli tutumları ve bastırılmış bilinçdışı tutumları içerdiklerini, bundan dolayı en uç örnekler olduğunu ifade etmektedir (Yılmaz, 2018)

Farklı kişilik özelliğine sahip gezginlerin farklı destinasyon tercihlerine yönelik çalışmada destinayon kavramı da incelenmiştir.

Destinasyon Türk Dil Kurumu tarafından "varılacak olan yer" şeklinde tanımlanmaktadır. Hem soyut hem de somut unsurları temel alan bu kavram, Fransızca "la destination" sözcüğünden gelmektedir (Eker, 2022: 5).

Bir destinasyonun turizm kapsamında değerlendirilebilmesi için bazı özelliklere sahip olması gerekmektedir. Turistik amaçla seyahat eden bireyler, bu özelliklerin oluşturduğu motivasyonla hareket etme eğiliminde olmaktadırlar (Türkay, 2014: 4).

Turizm destinasyonlarının sahip olması gereken özellikler Buhalise' e göre 6 unsurdan oluşmaktadır ve bu özellikler 6A'lar olarak tanımlanmıştır (Buhalis, 2000: 98):

- Çekicilikler (Attractions)
- Ulaşılabilirlik (Accessibility)
- Olanaklar (Amenities)
- Hazır Paketler – Paket Turlar (Available Packages)
- Aktiviteler (Activities)
- Destekleyici Hizmetler (Ancillary Services)

Destinasyonlar doğal ya da yapay şekilde çeşitli bileşenlerin bir araya gelmesiyle oluşmaktadır. Farklı destinasyon türlerinden bahs ederken onların sahip olduğu özellikleri de dikkate almak gerekmektedir.

Çekim unsurları, çekim unsurlarının gücü, mevsimler, coğrafi büyüklükleri ve faaliyet süresi vb. birçok unsur bu özelliklere örnek olarak verilebilir.

Buhalis (2000: 102-103); Güler (2019: 27)' e göre destinasyon sınıflandırması aşağıdaki gibidir:

• Kentsel Destinasyonlar: Kentsel destinasyonlar, tarihin ilk zamanlarından beri turizm kapsamı içerisinde yerini almaktadır. Geçmiş dönemlerde insanlar, büyük şehirlere siyasetçilerle görüşmek veya işleri ile ilgili toplantıya katılmak amacıyla gitmişlerdir. Ayrıca Antik Yunan dönemimde "Olimpiyat Oyunları" gibi spor etkinlikleri de turizm tüketicilerinin büyük kentlere seyahat etmelerinde önemli etkenlerden biri olmuştur. Günümüzde ise iş amaçlı seyahatlerin haricinde hacı olmak, önemli cami, kilise ve tapınakların bulunduğu kentleri ziyaret etmek son derece yaygın bir turistik faaliyet halini almıştır. Birçok kentsel destinasyon; büyük etkinliklere ev sahipliği yapmaktadır. Bunun en önemli sebepleri arasında ulaşım ve konaklama alt yapısının iyi bir seviyede olması, ziyaretçilerin alışveriş, sinema, hastane gibi imkânlara kolay ve hızlı ulaşabilmesi vb. gibi gerekçeler gösterilmektedir.

•Deniz Kıyısı Destinasyonları: Deniz kıyısı destinasyonları, ziyaretçilere tatil dönemlerinde hizmet vermektedir. Özellikle Kuzey bölgelerinden gelen turistik tüketicilere ev sahipliği yapan bu destinasyonlar, ziyaretçilere deniz sporları, güneş ışığından faydalanma ve çeşitli aktivitelere katılma fırsatı sunmaktadır. Örneğin; tipik Avrupalı turistik tüketiciler, tatillerini Akdeniz destinasyonunda geçirmeyi tercih ederken, Kuzey Amerikalılar Florida, California ve Caribbean gibi Güney bölgelerini tercih etmektedirler.

•Dağ Destinasyonları: Dağ destinasyonları her mevsim turist çekebilme özelliğine sahiptir. Kış sporları ile ilgilenen ziyaretçilerin yanı sıra doğa bilimcilere keşif olanakları vermesi, doğa sporlarıyla uğraşan misafirlere otantik tecrübeler yaşatması sebebi ile çok farklı grupların ilgisini çekebilmektedir. Kent merkezlerinden özel ulaşım araçlarıyla kolay ulaşım sağlanması, tercih edilebilirlik noktasında önemli etkenlerden biri olmaktadır.

•Kırsal Destinasyonlar: Turistlerin ekoturizm bilincinin gelişmesiyle birlikte, doğaya dönme ve bazı tarım deneyimlerini yaşama istediği, bu turizm faaliyetlerinin popülerliğini gün geçtikçe arttırmıştır. Bu durumun yarattığı ekonomik ve sosyal gelişimin avantajları hem çiftçilere hem de yerel halka olumlu bir şekilde geri dönüş sağlamaktadır.

•Otantik Destinasyonlar: Otantik üçüncü dünya destinasyonları, turistik tüketicilerin macera ve otantik deneyim isteklerini karşılamak için üçüncü dünya ülkelerinin temel alındığı destinasyonlardır. Turistik tüketiciler turizmin sınırlı bir şekilde gelişim gösterdiği yerleri ziyaret etmekten hoşlanmaktadır. Örneğin; Asya, Güney Amerika ve Afrika'daki bazı destinasyonların bozulmamış bölgeleri, yerel halkın empoze olmamış kültürleri, konforlarından vazgeçmeye hazır maceracı turistlerin ilgisini çekmektedir. Ancak bu destinasyonlarda çoğunlukla alt yapı problemleri yaşanmaktadır. Otantik kaynakların sürdürülebilir bir şekilde devam etmesi için iyi bir turizm planlama sürecine ihtiyaç duyulmaktadır.

•Eşsiz (Egzotik) Destinasyonlar: Eşsiz destinasyonlar, diğer destinasyonlardan farklı olarak turistik tüketicilere "yaşam boyunca bir kez" yaşanacak deneyimler sunmaktadır ve buna bağlı olarak yüksek fiyat

stratejisi uygulanmaktadır. Bu tip destinasyonlar, turistlerin hayallerini gerçekleştirmelerine yönelik prestijli bir yapıya sahip olmalıdır.

**2.Araştırmanın Amacı Ve Önemi**

Araştırmanın amacı gezgin rehberlerin kişilik özelliklerinin turizm destinasyon tercihlerinde etkisini analiz etmektir. Kişilik özelliğine göre destinasyon tercihleri farklılık göstermektedir. Bu farklılık turizm pazarlamacılarına turizm destinasyonlarının tanıtımı, doğru turist çekiciliğinin artırılması stratejilerinin uygulamada yardımcı olacaktır. Gezgin rehberlerin blogları etkileyici pazarlama aracı olarak günümüzde oldukça yaygın pazarlama türüdür. Turizm işletmeleri doğru gezi bloglarına hitap ederek hem pazar payını korumada, hem de kar marjını artırmada avantaj elde edebilirler. Çalışma konusunun güncelliği, gezi bloglarının gittikçe yaygın hale gelmesi araştırmanın önemini bir az daha artırmaktadır.

Bundan başka geziblogları incelemesi turizm ürünü üreticilerini olumlu etkilemesinin yanısıra, tüketicilerin (potensiyel turistlerin) de ilgisini çeke, onları seyahat eylemine teşvik edebilir.

Turizmin bir hizmet sektörü olması, turistik ürünün somut özelliğe sahip olmaması destinasyon tanıtımında gezgin rehberlerin rolünü artırmaktadır.

Bu araştırmada elde edilen veriler doğrultusunda gezgin rehberlerle destinasyon tercihi arasında bir ilişki olduğu görülmüştür. Bu da destinasyon tanıtımında doğru hedef kitleyi belirlemede, hedef kitlenin istediği içeriği sunmada ve potensiyel turistlerin ilgisini çekmede önemli role sahiptir.

**3.Araştırmanın Yöntemi**

Araştırmada nitel araştırma yönteminin en temel tekniklerden biri görüşme tekniği kullanılarak gezgin rehberlarına hem e-posta, hem instagram sosyal medya platforması üzerinden araştırma soruları yönlendirilmişdir. Çalışma erişim kolaylığının sağlanabilmesi sebebiyle dar kapsamda yapılmış, sadece Azerbaycan ve Türkiye'de yaşayan gezgin rehberları ile görüşülme yapılmıştır. Fakat konunun güncelliğini, gözönünde bulundurarak, gelecek dönemlerde çalışmanın uluslararsı çapta, dünyanın farklı ülkelerinde ikamet eden gezgin rehberleri ile de yapılması düşünülebilir.

Türkiye ve Azerbaycan'da ikamet eden gezgin rehberlarından geridönüşler alınmış ve onlara turizm destinasyon tercihlerine, kişilik özelliklerine ilişkin sorular sorulmuştur.

Görüşmeler e-posta, sosyal medya ve telefon aracılığıyla yapılmıştır. E-görüşmeler zaman ve mekansal olarak fiziki hareketlililiyi olmayan araştırmacılar açısından avantaj sağlayan bir yöntemdir. E-görüşme yöntemi ile aynı anda birçok kişiyle iletişime geçme imkanı elde edilir.

**4.Bulgular**

Görüşülen 15 gezginden 2-si *dışadönük düşünen tip* olduğunu belirtmişdir. Seyahat destinasyonu tercihine baktığımızda dışadönük düşünen tip kişiliğe sahip gezgin rehberlerinin doğa içi yerleri görmek istedikleri gözlemlenmiştir.

1 kişi hem *içedönük düşünen tip,* hem de *içedönük sezgisel tipin* özelliklerini taşıdığını, aynı zamanda sakin, kültürel ve dini turizm merkezlerini tercih ettiklerini belirtmiştir.

Araştırmanın örneklemi olan gezgin rehberlerinden 3-ü *dışadönük hisseden tip* olduğunu belirtmiştir.

Bu gezgin rehberlerinin seyahat tercihlerinde otantik, keşfedilmemiş yerleri seçtiklerini görebiliriz.

Kendini içedönük hisseden tip olarak gören 2 gezgin rehberiyle görüşme sonrasında elde edilen bilgilere göre bu grup kişiliğe sahip insanlar seyahat tercihlerinde tarihsel ve kültürel yerleri daha çok tercih etmektedirler.

Dışadönük duyumsayan tip kişiliğe sahip 3 gezgin rehberinin 2-si doğa ile iç-içe olmayı, doğanın güzelliklerini keşfetmeyi seçtiğini belirtmiştir. Bu gezgin rehberleri, diğer gezginlerin gitmediyi, ya da çok az bir kısmının gidip gördüyü doğa manzaralı yerleri tercih ederler.

Dışadönük duyumsayan tip kişilik tipine sahip 1 gezgin rehberi ise ekstrem sporlar yapabileceği, adrenalin yaşayacağı mekanları daha çok tercih etdiyini bildirmiştir. Baktığımızda bu spor faaliyetleri de doğa içinde gerçekleştiği için bu grup kişilerin doğayla ilgili destinasyonları seçtiklerini söyleyebiliriz.

Araştırmaya örneklem olan gezgin rehberleri arasından 3-ü *dışadönük sezgisel tip* kişiliğe sahip olduğunu belirtmiş, 2 gezgin rehberi farklı, benzersiz özelliğe sahip destinasyonlara öncelik verdiğini bildirmiştir.

1 gezgin rehberi ise hiking faaliyetleri için uygun, adrenalin dolu macera turizmi destinasyonlarının ilgi alanında olduğunu söylemiştir.

Görüşme yapılan gezgin rehberleri arasında *içedönük duyumsayan tip* kişiliğe sahip gezgin rehberine rastlanmamıştır. Bundan başka içedönük sezgisel tip kişilik özelliğine sahip bir gezgin rehberi ise bu tip kişiliğin tüm maddelerine sahip olmadığını da belirterek, sadece içedönük sezgisel tipin özelliklerini değil de, aynı zamanda içedönük düşünen tip kişilik özelliklerini de taşıdığını bildirmiştir.

**Sonuc**

İnternetin gelişen dünyanın bir parçası olması gerçeğini gözönünde bulundurduğumuzda, kişilerin bilgiye kolayca erişim sağlamak amacıyla kullandığı sosyal medya ve google arama motorları gittikce önem kazanmaktadır. Elde edilen bulgulara göre, seyahat destinasyonu tercihleri ile gezgin rehberlerinin kişilik özellikleri arasında bir ilişkinin olduğu söylenebilir. Ortak kişilik özelliklerine sahip gezgin rehberlerinin benzer turizm destinasyonlarını tercih ettikleri gözlemlenmiştir.

Bu bilgi turizm destinasyonu işletmecilerine doğru hedef kitleye yönelmede, etkileyici pazarlamanı doğru kullanmada yardım edecektir. Gezgin rehberleri seyahat alanında etkileyici pazarlamanın en iyi örnekleri olduğunu gözönünde bulundurarak, turistlerin ilgi alanına hitap eden doğru gezgin rehberiyle işbirliği yapmak  turizm işletmeleri için daha doğru karar olabilir.

Araştırma sonucu elde edilen bulgura esasen, Jung'ın sınıflandırılmasına göre, kişilik özelliklerinden dışadönük hisseden tip kişilerin otantik destinasyonları tercih ettiği söylenebilir. Araştırmanın örneklemini oluşturan gezgin rehberlerinden dışadönük düşünen tip gezgin rehberlerin kırsal destinayon türünü tercih ettiği gözlemlenmiştir. İçedönük düşünen, sezgisel ve hisseden tipin özelliğini taşıdığını belirten gezgin rehberlerin kentsel destinasyonları tercih ettiği de araştırma sonucunda elde edilmiştir. Dışadönük duyumsayan tip kişilik özelliğine sahip gezgin rehberlerin doğa, kentsel destinasyonları tercih ettiği, fakat aynı kişilik özelliğine sahip (dışadönük duyumsayan tip) gezgin rehberi ise egzotik destinasyonu tercih ettiği görülmüştür. Dışadönük sezgisel tip kişilik özelliği olan gezgin rehberleri de otantik destinasyon tercihlerine üstünlük verdiklerini belirtmişler.

Araştırmanın zaman ve mekan açısından kısıtlılığını gözönünde bulundurursak, ilerleyen zamanda araştırmanın daha fazla kişiye ve daha fazla veriye ulaşılması sağlanabilir

Çalışmanın sonucu olarak elde edilen verilere göre kişilik tipleri gezgin rehberlerinin seyahat alışkanlıklarını, tercihlerini, blog yazı ve paylaşımlarını etkilemektedir.  Çalışmanın devamı olarak farklı ülkelerdeki gezgin rehberlerini araştırmaya dahil ederek gezgin rehbelerin kişilik özelliklerinden kaynaklanan destinasyon seçimini dikkate almanın turizm işletmeleri açısından önemi araştırılabilir.

**KAYNAKÇA**

1.Aras, S. (2019). Seyahatin Toplumsal İzdüşümü: Ahmet Mithat Efendi'nin "Avrupa'da Bir Cevelan" Seyahatnamesine Sosyolojik Bir Bakış. Yüksek Lisans Tezi. Selçuk Üniversitesi. Sosyal Bilimler Enstitüsü. Konya

2.Alver, Köksal (2011). Tebdil-i Mekân: Seyahatin Anlamı Üzerine. Hece Dergisi, (Gezi Özel Sayısı), 74-76

3.İpek, Selahattin (2011). Osmanlı Padişahları ve Seyahat. Hece Dergisi, (Gezi Özel Sayısı), 117-121

4.Akar, E. (2006). Pazarlamanın Yeni Silahı Blogla Pazarlama, İstanbul: Tiem Yayınları.

5.HypeAuditor (2021). Top travel influencers on instagram. [URL: https://hypeauditor.com/topinstagram-travel/] (Erişim 30 Nisan 2022)

6.BAYMUR, F. B.: Genel Psikoloji, İstanbul: İnkilap Kitapevi. 2017

7.BURGER, J. M.: Kişilik, (Çev: İ. D. Sarıoğlu), İstanbul: Kaknüs Yayınları. 2006

8.Erben, Ş., E., Balaban-Salı, J., (2015), "Blogalanda Blog Yazarlarının Etkileşim Biçimleri Ve Görsel Ögelerin Kullanımı".  , Global Media Journal TR Edition, Vol.10, No.5, S.176- 207

9.Eker, S. (2022). Sosyal Medyanin Destinasyon Tercihine Etkisi: Kapadokya Örneği. Yüksek Lisans Tezi. Nevşehir Haci Bektaş Veli Üniversitesi Sosyal Bilimler Enstitüsü

10.Gözler, Ö. (2006). "Blog Pazarlama" Nasıl Paraya Dönüşür? http://www.capital.com.tr/yonetim/pazarlama/blogpazarlama-nasil-paraya-donusur-haberdetay-3827

11.Kozak, N. (2014). Turizm Pazarlaması. Ankara: Detay Yayıncılık

12.Litvin, S. W., Goldsmith, R. E., & Pan, B. (2008). Electronic word-of-mouth in hospitality and tourism management. Tourism Management, 29(3), 458-468

13.Queensland, Australia (2014). What is an instameet?. [URL: https://www.youtube.com/watch?v=aC0dESsMquk] (Erişim 29 Nisan 2022).

14.Guinn, Lindsey. Global Influencer Advisory Board Brings Insights to California. https://industry.visitcalifornia.com/more/newsroom/globalinfluencer-advisory-board-2019

15.Cook, R.A. Hsu, C.H.C. ve Marqua, J.J. (2016). Turizm Konaklama ve Seyahat İşletmeciliği. (çev. M. Tuna). Ankara: Nobel Yayıncılık.

16.Memiş, S. (2016). Tatil Yeri Seçiminde Etkili Olan Faktörler: Yerli Turistler Üzerine Bir Araştırma. Kesit Akademi Dergisi, 2(4), 212-226.

17.Buluk, B. (2019). Destinasyonlarda Tüketici Davranışları. İçinde B. Suna (Editör), Destinasyon Yönetimi ve Pazarlaması, (s.207-227).Ankara: Detay Yayıncılık.

18.Parasuraman, Anantharanthan, Valarie A. Zeithaml, and Leonard L. Berry. 1985. A conceptual model of service quality and its implications for future research. Journal of Marketing. c.49 s.4: 41-50.

19.Kunt, S., Hassan, A. (2021). Seyahat ve Turizmde Yeni Bir Pazarlama Yaklaşımı: Etkileyici Pazarlama. AHBVÜ Turizm Fakültesi Dergisi, 24 (2), 216-240

20.Barbe, D., Neuburger, L., & Pennington-Gray, L. (2019) "Follow us on Instagram! Understanding the driving force behind following travel accounts on instagram", e-Review of Tourism Research, 17(4): 592-609.

21.Cholprasertsuk, A. Lawanwisut, C., & Thongrin, S. (2020). Social media influencers and Thai tourism industry: tourists' behavior, travel motivation, and influencing factors, Journal of Liberal Arts, Thammasat University, 20(2): 234-263

22.Han, J., & Chen, H. (2021, In press). Millennial social media users' intention to travel: the moderating role of social media influencer following behavior, International Hospitality Review, https://doi.org/10.1108/IHR-11-2020-0069

23.Gretzel, U. (2018). Influencer marketing in travel and tourism. In M. Sigala, & U. Gretzel, (Eds.), Advances in Social Media for Travel, Tourism and Hospitality: New Perspectives, Practice and Cases New York: Routledge.

24.Chen, Yu-Chen, Rong-An Shang, and Ming-Jin Li. 2014. The effects of perceived relevance of travel blogs' content on the behavioral intention to visit a tourist destination. Computers in Human Behavior. c.30: 787-799.

24.Ewen, Robert B. (2014). An Introduction To Theories Of Personality, New York and London, Psychology Press.

25.Ong Y.X., & Ito N. (2019) "I Want to Go There Too!" Evaluating Social Media Influencer Marketing Effectiveness: A Case Study of Hokkaido's DMO. In J. Pesonen, & J. Neidhardt (Eds.), Information and Communication Technologies in Tourism 2019 Springer: Cham. https://doi.org/10.1007/978-3-030-05940-8_11

# FƏLSƏFƏNİN TƏDRİSİ VƏ YENİ STANDARTLAR

**Dosent Zeynəddin ŞABANOV** [44]


## Xülasə

Müasir dövrdə fəlsəfənin cəmiyyətdəki rolu nəinki azalmış, əksinə artmışdır. Təəssüf ki, bəzi ali məktəblərdə fəlsəfi fənlər ixtisar edilir, saatlar azaldılır. Bu onunla əlaqədardır ki, bəzi elm-təhsil müəssisələrinin rəhbərləri ya bu elmin gücünü, əhəmiyyətini, onun təbiət-cəmiyyət-insan münasibətlərindəki əhəmiyyətli rolunu dərindən dərk edə bilmirlər, ya da bunu nəzərə almaq iqtidarında deyillər. Bəlkə də bu onların təhsil alarkən fəlsəfəni tədris edən müəllimin mürəkkəb və çətin ifadələrdən istifadə edərək hadisə və proseslərin baş vermə səbəbini, əsl həqiqətin əldə olunması yollarını düzgün göstərə bilməməsi ilə bağlıdır. Belə ki, fəlsəfənin tədrisinin əhəmiyyətinin düzgün başa düşülməsi və tədrisin faydalılığı işində müəllimlərin rolu inkarolunmaz faktdır. Bu mənada ali məktəblərdə fəlsəfənin lazımlılığı və gərəkliliyi xeyli dərəcədə dərsi tədris edən müəllimlərdən asılıdır.

Azərbaycanda fəlsəfənin tədrisində məhz Azərbaycan xalqının tarixini, mədəniyyətini, düşüncə tərzini, mentalitetini, onun bugünki həyatını, nailiyyətlərini və qarşıda duran problemlərini, vəzifələrini özündə əks etdirən xüsusi cəhətləri olmalıdır. Burada ümumbəşəri, ümumelmi, ümumfəlsəfi prinsiplərlə məhz Azərbaycan cəmiyyətinin inkişafına kömək ola biləcək başlıca prinsiplər vəhdət halında birləşməlidir. Bunun üçün dünya fəlsəfi fikri ilə yanaşı Azərbaycan fəlsəfi fikrinin inkişaf tarixi, onun ayrı-ayrı mərhələləri, hər bir mərhələnin özünəməxsus xüsusiyyətləri mümkün olduğu qədər dəqiqləşdirilməlidir və burada həmin dövrün dünya elmi və fəlsəfi fikrinin əsas məzmun və istiqamətləri də nəzərə alınmalıdır.

Müasir dövrdə Azərbaycanda fəlsəfi fənlər həm professional kadr hazırlığı istiqamətində Bakı Dövlət Universiteti, Qərbi Kaspi Universiteti, Azərbaycan Universitetində və həm də ali məktəblərdə ümumi fənlər blokunda tədris edilir. Fəlsəfənin tədrisi, tədqiqi və təbliği üzrə məlumatlar bu vaxta qədər müxtəlif Beynəlxalq və respublika səviyyəli konfrans, seminarlar və KİV vasitəsilə cəmiyyətimizdə öz əksini tapıb.

Son illərdə Azərbaycan ali məktəblərinin tədris planlarında fəlsəfəyə və ictimai-siyasi fənlərə ayrılan saatların azaldılması, bu fənlərin bir çoxunun ixtisar edilməsi, kütləvi informasiya vasitələrində fəlsəfi fikir tariximizə və ümumiyyətlə, mənəvi təkamülə, dünyagörüşünün genişlənməsinə xidmət edən verilişlərə çox az yer ayrılması, habelə, mədəniyyətşünaslıq və maarifçilik yönlü verilişlərin azlığı, mədəni-mənəvi dəyərlərin yetərincə təbliğ olunmaması böyük narahatlıq doğurur.


***Açar sözlər:*** *fəlsəfə, düşüncə, tədris, müəllim, dəyərlər, yeni standartlar*

## Teaching Philosophy And New Standards


## Summary

In modern times, the role of philosophy in society has not only decreased, but on the contrary, it has increased. Unfortunately, in some universities, philosophical subjects are reduced, hours are reduced. This is related to the fact that the leaders of some scientific and educational institutions either cannot deeply understand the power and importance of this science, its important role in nature-society-human relations, or they are unable to take it into account. Perhaps this is due to the fact that the teacher who teaches philosophy during their education, using complex and difficult expressions, cannot correctly show the reason for the occurrence of events and processes, and the ways of obtaining the real truth. Thus, the role of teachers in the correct understanding of the importance of teaching philosophy and the usefulness of teaching is an undeniable fact. In this sense, the relevance and necessity of philosophy in higher schools largely depends on the teachers who teach the lesson.

The teaching of philosophy in Azerbaijan should have special features that reflect the history, culture, way of thinking, mentality of the Azerbaijani people, their current life, achievements and future problems and tasks. Here, universal, universal, universal philosophical principles and the main principles that can help the development of Azerbaijan society should be united. For this, along with the world philosophical thought, the history of the development of the Azerbaijani philosophical thought, its separate stages, the unique characteristics of each stage should be specified as much as possible, and here the main content and directions of the world scientific and philosophical thought of that period should also be taken into account.

Philosophical subjects are taught in modern Azerbaijan in the direction of professional staff training at Baku State University, Western Caspian University, Azerbaijan University, and also in the block of general subjects in higher schools. Until now, information on the teaching, research and promotion of philosophy has been reflected in our society through various international and national level conferences, seminars and mass media.

In recent years, the number of hours allocated to philosophy and socio-political subjects in the curricula of Azerbaijani higher schools has been reduced, many of these subjects have been shortened, and the mass media have focused on the history of philosophical thought and, in general, spiritual evolution, the world. It is a great concern that


[44] Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, şöbə müdiri

there is very little space allocated to programs that serve to expand the vision, for example, the lack of cultural studies and educational programs, and the insufficient promotion of cultural and spiritual values.

***Keywords:*** *philosophy, thinking, teaching, teacher, values, new standards*

*UOT 316*

## Giriş

Hazırda elmlər-elmi olan fəlsəfə öz problemlərinin həlli istiqamətində bir sıra çətinliklərlə, süni yaradılmış və heç bir məntiqə sığmayan problemlərlə üzləşir. Müxtəlif tipli və fərqli mahiyyətli hadisə və proseslərin cərəyan etdiyi müasir qloballaşan və dinamik inkişaf edən cəmiyyətdə problemlərin mənasını dərk etmək, düzgün qərar vermək, ilk səbəbi öyrənmək üçün dərin fəlsəfi biliklərin olması zərurətini əksəriyyət qəbul edir. Məhz buna görə də müxtəlif elm sahələrində problemlərin fəlsəfi izahına cəhd edirlər (riyaziyyatın fəlsəfəsi, fizikanın fəlsəfəsi, biologiyanın fəlsəfəsi, siyasətin fəlsəfəsi, idarəetmənin fəlsəfəsi, dövlətçilik fəlsəfəsi, tarixin fəlsəfəsi, iqtisadiyyatın fəlsəfəsi və s.). Fəlsəfi biliklərin köməyi ilə bütün sahələrdə uğurlar əldə etmək, həqiqəti üzə çıxarmaq mümkündür. Fəlsəfənin belə rolu haqqında qədim dövrdən bu günə kimi mütəfəkkirlər maraqlı fikirlər irəli sürüblər.

Hazırda, dünyada fəlsəfənin tədrisi yeni məlumat texnologiyalarının tədris prosesinə aktiv daxil olması sayəsində xeyli genişlənmişdir. Bu da tələbələrin ənənəvi metod və formalarla (mühazirələr və məşğələlər) bilik əldə etməklə bərabər, yeniliklərin fəal şəkildə tətbiq olunmasına imkan verir: müxtəlif növ işgüzar oyunlar, beyin həmləsi, təlimlər, problemli müzakirələr, diskussiyalar, sərbəst mövzular, yazılı və elektron oçerklər, esselər, referatlar, kuizlər, debatlar və s.

Müasir həyat cəmiyyətin hər bir üzvündən təbiətin, ətraf aləmin və sosial reallığın sirrlərinə dərindən bələd olmağı, əsl mahiyyəti öyrənməyi tələb edir. İnsanın dünyada yeri, onun dünyagörüşü, həyatın mənası, daxili mənəvi aləmi ilə bağlı nəzəri məsələlərə nüfuz etmək də eyni dərəcədə zəruridir. Həmin vəzifələrin həlli məhz fəlsəfi biliklərin dərinliyi ilə bağlıdır. Yalnız fəlsəfi dünyagörünüşünə yiyələnməklə dünyanın quruluşu haqqında, sosial inkişaf, onun qanunauyğunluqları və təfəkkür prosesləri haqqında həqiqi biliklər əldə etmək mümkündür.

Tədris prosesində mövcud çatışmamazlıqlar imkan daxilində bu sahədə olan problemlərin araşdırılması və həllini tələb edir. Hazırda dünya və ilk növbədə postsovet mədəni bölgə ədəbiyyatında fəlsəfə və fəlsəfə tarixinin təqdimi və dəyərləndirilməsində fərqli və ziddiyyətli mövqelərin qanunauyğun surətdə Azərbaycanda da fəlsəfə və fəlsəfə tarixinin həm tədqiqat, həm tədris sahəsində təqdim və şərhində təzahürünü və fəlsəfi təhsilin xalqın, xüsusən gənc nəslin özünü şəxsiyyət və millət kimi dərk və təsdiq etməsi üçün böyük əhəmiyyət daşıyır.

## 1. Fəlsəfə Ona Sahib Çıxanındır

Cəmiyyətdə elmin, dinin, mədəniyyətin - hər birinin öz missiyası, yeri, funksiyası var. Fəlsəfənin missiyası düşüncəli, özünü dərk etməyə qadir İnsan yetişdirməkdir. Şübhəsiz ki, bu gün fəlsəfə bütün dünyada böhran keçirir. Əslində, bu gün insan özü də bir böhran halı yaşayır. Böhrandan çıxmaq üçün məhz insanın özü, təfəkkürü, şüuru böhrandan çıxmalıdır. Bu isə fəlsəfənin missiyasıdır. Fəlsəfə öz əzəməti ilə bu böhrandan çıxma yollarını göstərə bilər. Çünki belə hallar olub və dünya təcrübəsində böhranda çıxış yollarını göstərmək üçün fəlsəfəyə müraciət olunub.

Akademik R.Mehtiyev diqqəti bütün müasir elmlərin fəlsəfədən qaynaqlandığına, fəlsəfənin cəmiyyətdəki roluna çəkərək yazır: “Uzun müddət fəlsəfəni praktikadan uzaq, ifrat mücərrəd və metaelmi bir sahə kimi başa düşənlər ictimai hadisələrin gedişinə daha böyük tarixi zaman intervalında baxsalar, fəlsəfi təlimlərin də gec-tez praktik nəticələrə gətirdiyinə əmin ola bilərlər. Həm də bu nəticələr bütövlükdə dövrün ab-havasını müəyyən edir, tarixin gedişatına, strateji inkişaf istiqamətlərinə təsir göstərir. Məlum olduğuna görə, tarixən fəlsəfi fikir, ümumiyyətlə, insan düşüncəsinin, nəzəri idrakın sinkretik ifadəsi olmuşdur. Bütün elmlər zaman-zaman fəlsəfədən ayrılmışdır. Dəqiq elmlərin, təbiətşünaslığın müstəqil tədqiqat sahəsi kimi formalaşması, sosial müstəvidə institutlaşması və ictimai tərəqqinin strukturunda müstəqil yer tutması əslində Qərb sivilizasiyasının formalaşmasına gətirib çıxarmışdır. Bütün müasir elmi-texniki nailiyyətlərin, innovasiyaların, nou-xauların təməlində məhz bu böyük ayrılma, bəlkə də daha dəqiq demiş olsaq, doğuluş prosesi dayanır. Qərb dünyasında bu doğuluşun tarixi XVII-XVIII əsrlər göstərilir. Məhz həmin dövrdə – Avropada elm dinin təsirindən azad olmaqla yanaşı, fəlsəfədən də ayrılmışdır. Orta əsrlərdən başlayaraq ilahiyyatın təsiri altına düşmüş fəlsəfənin özü də bundan sonra dinə nəzərən müstəqillik əldə etmiş, daha çox dünyəviləşmişdir. Sonrakı mərhələdə dinşünaslığın da nisbi müstəqil elm

sahəsi kimi ayrılması fəlsəfəni xeyli yüngülləşdirmiş və o, öz inkişafının daha azad bir mərhələsinə qədəm qoymuşdur (Mehtiyev, №4, 2009:9)

AMEA-nın müxbir üzvü, professor S.Xəlilov filosof və fəlsəfə anlayışlarına və bu anlayışlara münasibət haqqında fikirlərini irəli sürərərək yazır ki, biz hələ özümüz üçün həqiqi fəlsəfə ilə Azərbaycanda formalaşmış "fəlsəfə" anlayışı arasında fərqi aydınlaşdırmalıyıq. Çünki çağdaş ictimai şüurda və KİV-də fəlsəfə dünyada qəbul olunduğundan xeyli fərqli mənada işlədilir. El dilində fəlsəfə az qala müdrikliyin, hazırcavablığın ekvivalenti kimi başa düşülür. Aşıq, dərviş, ağsaqqal müdrikliyi... "Fəlsəfə" - nədir; bunu bilmədikdə onun bir bəzək kimi, epitet kimi, tərifli söz kimi istifadə edilməsi təbii haldır. Azərbaycanda, nə yazıq ki, "fəlsəfə" sözü uzun illərdən bəri məhz bu mənada işlədilir. Fəlsəfənin yoxluğu və ya "fəlsəfə yoxsulluğu" istər-istəməz onun quru adının bəzəkli əşya kimi bazara çıxarılmasına və gələnə-gedənə çox ucuz qiymətə satılmasına səbəb olur (Xəlilov,2009:4).

Müasir universitet təhsilinin bütün aspektlərinə təsir edən yenilikçi proseslər, gələcək məzunların kompetensiyaları olan konkret nəticələrin əldə edilməsinə yönəldilməsi kontekstində təhsil prosesinin yenidən qurulmasını əhatə edir. Ədəbiyyatda istənilən səviyyədə müasir mütəxəssis üçün lazım olan iki növ kompetensiyalar, yəni səriştələr mövcuddur: “xalis mövzu” və “mövzuya xas olan” (ümummədəni və peşəkar səriştələr kimi də müəyyən etmək olar). Peşəkar kompetensiyalara konkret bir peşəyə yiyələnmək üçün zəruri olan bilik və bacarıqlar daxildir; ümummədəni səriştələrə bir mütəxəssisin yaradıcı düşünmə qabiliyyəti, fərdi inkişaf, qərar qəbuletmə müstəqilliyi və s. kimi fərdi xüsusiyyətləri aiddir.Beləliklə, səriştəyə əsaslanan yanaşmaya görə, müasir bir universitetdə təhsil prosesi yalnız peşə hazırlığı ilə məhdudlaşa bilməz, ona görə ki, müasir təhsil tədqiqatçılarına görə bu hal "peşəkarlıq xəstəliyi"nə aparır. Bu termin bir mütəxəssisin öz peşəsindən başqa heç nə bilməməsini, dünyaya tam, əhatəli bir baxışının olmamasını, cəmiyyətdəki sosial dəyişiklikləri tənqidi təhlil edə bilməməsini ehtiva edir.

Müasir gerçəkliklər həm yeni fəlsəfəni (dünyagörüşü), həm də yeni metodologiyanı tələb edir, bütövlükdə isə onlar tarixi prosesin fəlsəfəsini yenidən nəzərdən keçirməyə aparır, çünki mövcud inkişaf prosesi gələcək üçün «açıq», gələcək isə keçmiş və indinin çərçivələri ilə sərt determinasiyalaşmış olmuşdur. Dünyanın yeni mənzərəsində sosial nizam və produktiv xaos bir-birinə qarşı durmayıb biri digərini qarşılıqlı tamamlayır, bu iki vəziyyət sosial sistemlərin dayanıqlığına yardımçı olan sintezə can atır. İqtisadi, siyasi və sosiomədəni qloballaşma proseslərinin inteqrasiya sferasında fəlsəfənin köhnə binasının təməlinin transformasiyasını tələb edən yeni ontoloji, qnoseoloji və aksioloji problemlər yaranır. Müasir vəziyyətin qısa icmalı onu göstərir ki, fəlsəfənin yeni cərəyanlarının sonrakı inkişafı və adekvat düşünülməsi, insanın ən köhnə fəaliyyətinə təkan verərək və metafəlsəfə adlandırılan hansısa yeni refleksiya layihəsinə ehtiyac duyur (Abasov, 2010:34).

AMEA-nın müxbir üzvü, fəlsəfə elmləri doktoru K.Bünyadzadə cəmiyyətdə fəlsəfənin aparıcı roluna diqqəti çəkərək yazır: “2009-cu ildə akademik R. Mehdiyev "Fəlsəfə və onun ictimai həyatda yeri" adlı məqaləsində yazırdı ki, "Son illərdə Azərbaycan ali məktəblərinin tədris planlarında fəlsəfəyə və ictimai-siyasi fənlərə ayrılan saatların azaldılması, bu fənlərin bir çoxunun ixtisar edilməsi, orta məktəblərdə "İnsan və cəmiyyət" fənninin tədrisi üçün hələ də müəllim kadrlarının hazırlanmaması, kütləvi informasiya vasitələrində fəlsəfi fikir tariximizə və ümumiyyətlə, mənəvi təkamülə, dünyagörüşünün genişlənməsinə xidmət edən verilişlərə çox az yer ayrılması, habelə, mədəniyyətşünaslıq və maarifçilik yönlü verilişlərin azlığı, mədəni-mənəvi dəyərlərin yetərincə təbliğ olunmaması - bütün bunlar bizi narahat edir". Bir cümlədə problemin mahiyyəti üç istiqamətdə açılır: a) kadr hazırlığının olmaması, b) tədris proqramında lazımi materialların diqqətdən kənar qalması və c) fəlsəfənin kifayət qədər təbliğ olunmaması. O vaxt məsələ İTV-də "Açıq dərs" verilişində geniş müzakirəyə çıxarıldı və Səlahəddin Xəlilov öz mövqeyini "525-ci qəzet"də "Fəlsəfə bizə lazımdırmı?" məqaləsi ilə bildirdi: "Bu gün fəlsəfə mənim deyil, bizim deyil, çünki fəlsəfə onu yaradanın, ona sahib çıxanındır. "Fəlsəfə heç kimin deyil" fikri ilə də razılaşmaq olmaz. Çünki fəlsəfənin sükanı hələ də Qərbin əlindədir. Bəli, dünya onu anlayanındır. Fəlsəfə kimindirsə, dünya da onundur" (Bünyadzadə, 21.06.21)

**2. Sağlam Məntiq Fəlsəfənin Rolunun Artdığını Bildirir**

Fəlsəfə, onun zamanın müasir adlandırdığımız kəsiyində mövqeyi, statusu haqqında fikirlər, yanaşmalar rəngarəng olsa da, 2500 ildən çox yaşı olan bu müdriklik elmi əsrlərin sınaqlarından uğurla çıxıb, öz predmetinə daxil olan dünya, varlıq və təfəkkürün ümumi prinsipləri, insanın dünyada yeri, həyatının mənası kimi məsələləri nəinki qoruyub saxlayıb, həm də xeyli dərəcədə genişləndirib.

Bu genişlənmə qloballaşan bəşəriyyətin elmi-texniki tərəqqidən doğan nailiyyətləri və yaranan problemlərlə üzvi surətdə bağlıdır. Sülhə nail olma, aclıq, yoxsulluq, ekoloji problemlər, narkomaniya, terrorizm, milli-etnik münaqişələr, intiharların artması, pandemiya problemi və s. dövrümüzün reallıqlarıdır.

Professor Ə.Kərimov fəlsəfənin dünyada baş verənlərə tənqidi yanaşmaq, ümumbəşəri dəyər və prinsipləri qiymətləndirə bilmək bacarığı aşılamaqla özünü həm də azadlıq məktəbi kimi təqdim etməsinə münasibət bidirərək yazır ki, istər təbiətdə, istərsə də cəmiyyətdə mövcud olan problemlərin optimal həlli fəlsəfi təfəkkürə, müdriklik nuruna möhtacdır. İnsan təfəkkürü bu problemlərin ciddi təzyiqinə məruz qalıb, onun emosional-psixoloji durumu gərginləşib ki, bu da maddi nemətlər istehsalının əsasını təşkil edən praktiki fəaliyyətə öz təsirini göstərməyə bilməz. Müdriklik isə, Sokratın təbirincə desək, mühakimə yürütməyin, seçmə qabiliyyətinin və fəaliyyət göstərməyin düzgün prinsiplərinə, son nəticədə xeyirxahlığa nail olmaqdır. Xeyirxah insan isə adətən səbrli, qeyrətli və ədalətli olur. Beləliklə, sağlam məntiq fəlsəfənin rolunun azaldığını deyil, artdığını irəli sürür (**Kərimov,** 02.07.2021)

Hələ 1946-cı ildə BMT-nin Təhsil, Elm və Mədəniyyət məsələləri üzrə təşkilatının (YUNESKO) ilk konfransının yaratdığı komissiya tərəfindən hazırlanmış təkliflərdə göstərilirdi ki, insan şəxsiyyətinə hörmət, sülhə məhəbbət, dar, məhdud millətçiliyə və zorakılığa əsaslanan idarəetməyə nifrət, mədəniyyət ideallarına sədaqət və həmrəyliyin formalaşması üçün ictimai şüurda bir sıra fəlsəfi və etik kateqoriyaların qərarlaşması zəruridir. Bu konteksdə fəlsəfəyə insanların birlik və həmrəylik məktəbi kimi baxmaq olar. Hadisə və proseslərə fəlsəfi yanaşma, onların fəlsəfi təfəkkür süzgəcindən keçirilməsi dünyada sülhün bərqərar olmasında və qorunmasında mühüm rol oynayır. Fəlsəfə "ədalət", "azadlıq", "xeyirxahlıq", "yaxşılıq və pislik", "həqiqət" və s. kimi cəmiyyət üçün xüsusi əhəmiyyətə malik anlayışları müstəqil şəkildə dərk etmək və təhlil etmək qabiliyyəti formalaşdırır. İnsanların maddidən mənəviyə doğru yüksəlməsində, mənəvi cəhətdən zəngin, düşüncə cəhətdən azad formalaşmasında da fəlsəfənin rolu danılmazdır. O, insanların yalnız hazır nəticələrdən istifadəsinə deyil, özlərinin düşünüb nəticə çıxarmasına, hər hansı qeyri-insani, bəşəriyyət üçün zərərli arqumentlərə qarşı dayana bilməsinə, opponentlərin fikrinə hörmət və dözümlülüklə yanaşmasına, yalnız zəkanın gücünə tabe olmasına, cəmiyyətdəki vəziyyətləri barədə mühakimə yürüdə bilmək qabiliyyətlərinin inkişafına kömək edir. (**Kərimov,** 02.07.2021)

Fəlsəfə dünyagörüşü olmaqla insanlarda dəyərlər kompleksi formalaşdırır ki, bu dəyərlər də bu və ya digər hadisə və ya prosesi qiymətləndirməkdə, müxtəlif vəziyyətlərdə fəaliyyət və ya fəaliyyətsizlik mövqeyi seçməkdə həlledici amil olur. Ona görə də ictimai şüurda fəlsəfənin rolu məqsədyönlü şəkildə artırılmalıdır ki, insanlar destruktiv qüvvələrin çaşdırıcı ideya və çağırışlarına qarşı müqavimətli olsunlar.

Milli birlik, ümumbəşəri həmrəylik də hər şeydən əvvəli fəlsəfi təfəkkür səviyyəsində, dayanıqlı ideya əsasında əldə oluna bilər.

Fəlsəfənin seçmə fənn kimi tədrisinə münasibət bildirən filosof K.Bünyadzadə yazır ki,fəlsəfəni seçən tələbə düşünməyi bacaran tələbədir. Çünki fəlsəfə düşünməyi tələb edir. Düşünə bilməyən tələbəyə zorən fəlsəfə tədris etməyin mənası varmı? "Əslində, cavab Ramiz müəllimin məqaləsində var idi: hələ orta məktəbdə gəncə düşünməyi öyrətmək lazımdır ki, sonra da universitetdə onun davamını axtarmaq istəsin. Təəssüf ki, o vaxt qoyulan problemlər həllini tapmadı, nəticədə fəlsəfə daha dərin bir böhrana girməkdə davam elədi və bu gün onun ümumiyyətlə, tədrisdən yığışdırılması söhbəti aktuallaşıb. Hətta bu sadəcə söz-söhbət olsa belə, fəlsəfənin "yiyəsiz yetim" kimi hər yerdən sıxışdırılması, haqqında artıq-əskik ifadələrin işlədilməsi heç xoş mənzərə deyil. Haradan gəldik bu vəziyyətə? Hara gedirik? "Elmlərin anasını" niyə ağlar günə qoyurlar?! Ali məktəblərdə fəlsəfənin tədrisinin sıxışdırılmasına bəzən siyasi rəng verib, "düşünmək qabiliyyətinin qarşısını almaq" kimi təqdim edirlər. Fəlsəfə inanmağı, öz inancın üçün hər təhlükəyə cəsarətlə sinə gərməyi, öz düşüncəni əsaslandırmaq üçün durmadan, davamlı şəkildə savadlanmağı, bilik toplamağı, ən vacibi isə özünün, öz düşüncənin, deməli, öz şəxsiyyətinin sahibi olmağı öyrədir. Qısa desək, fəlsəfə azad təfəkkürün bələdçisidir. Dövlət bunun əleyhinədirmi? Sanmıram. Avropa ölkələri artıq Boloniya prinsiplərinə "köhnə" kimi baxırlar. İndi ABŞ təhsil sisteminə meyllik artmış, İngiltərə isə Sovet təhsil sisteminə keçməyi hədəfləyib. İkincisi Avropa ölkələrində həm də orta məktəbin yuxarı siniflərində fəlsəfə əsaslı şəkildə (əsasən də milli fəlsəfə) öyrədilir. İnkişafına görə dünyanın bütün ölkələrini üstələyən Çində isə fəlsəfə bütün ali məktəblərdə nüfuz sahibidir. Postsovet məkanı ölkələrində də fəlsəfənin nüfuzuna elə bir xələl gətirilməyib.

Alimin fikrincə, dünyanın güclü dövlətləri, onların birlikləri inkişaf etməkdə olan ölkələrdə vətənpərvərliyin, milli-mənəvi dəyərlərin, milli özünüdərkin, milli mentalitetin qorunub saxlanılması və

inkişaf etdirilməsini qloballaşma üçün, özlərinin həmin ölkələrdə maddi və digər maraqları üçün təhlükə görürlər. Bu mərkəzlərə mükəmməl dünyagörüşə malik vətənpərvər insanlar deyil, müəyyən qədər "çox" məvacib müqabilində istənilən əmri yerinə yetirməyə hazır olan "kosmopolit"lər lazımdır. Təhsilə ayrılan xarici qrantların əsas hədəflərindən biri də məhz budur.

Fəlsəfənin saatlarını azaldıb, seçmə fənn qrupuna daxil edilməsi bugünkü fəlsəfə ictimaiyyətinin gözü qarşısında baş verir. Ayrı-ayrı istisnaları çıxsaq demək olar ki, elə bir ciddi reaksiya da yoxdur. Praqmatizmə meyilli olan indiki gənclər bu vəziyyəti (hamının gözü qarşısında fəlsəfənin qürub etdirilməsini) görür və istedadlarını başqa sahəyə yönəldirlər.

Aydındır ki, bu gün fəlsəfə dünənki halında qala bilməz. Bunu o fakt da təsdiqləyir ki, artıq XX əsrin ortalarına doğru bir çoxları "fəlsəfə" anlayışının özündən belə yan keçməyə, onu nəiləsə əvəz etməyə çalışırdılar. Beləcə, məşhur filosof J.Derrida ənənəvi fəlsəfəni tənqid edərək onu "qrammatologiya" ilə öz obyektinin axtarışlarında öz köklərinə, elmiliyin mənbəyinə müraciət etməli olacaq yeganə elm ilə əvəz etməyi təklif edirdi (Деррида Ж. О грамматологии / М.: Ad Marginem, 2000,173). Akademik anqlo-amerikan analitik fəlsəfənin tənqidi ilə məhşurlaşan XX əsrin digər böyük filosofu R.Rorti hesab edirdi ki, fəlsəfə və fəlsəfə tarixi "doksoqrafiya" – etibarsız mühakiməyə çevrilmişdir (Рорти, 1998:433). Professor İ.Məmmədzadənin fikrincə, dəyişikliklərin zərurəti ilə yanaşı fəlsəfə dəyərlər və maraqların, cəmiyyət və insanın dərki üçün əvəzolunmaz vasitə olaraq qalacaq və bununla da mədəniyyətin və şüurun transformasiyasına xidmət edəcəkdir. O, yenə əvvəlki kimi elmlə, mədəniyyətlə və dinlə qarşılıqlı əlaqələri barədə düşünəcək, fəlsəfi fənlərlə qarşılıqlı əlaqə yollarını arayacaqdır. İddia etmək olar ki, onun bu rolları əvvəlkilərindən daha əhəmiyyətli olacaqdır. Fəlsəfənin bu anlamının başlanğıcının XIX əsrin sonunda neokantçılar tərəfindən qoyulduğunu hesab etmək olar. Fikrimizcə, Q. Kogen – Marburq məktəbinin nümayəndəsi və Q.Rikkertlə V.Vindelband – Baden məktəbinin nümayəndələri fəlsəfə və təbii elmlərin fərqlərinin və bütün elmləri birləşdirən cəhətlərin mənalandırılması mövzusuna müraciət etdilər. Onların fikrincə, fəlsəfənin vəzifələri mədəniyyət yaratmaq istiqamətində yaradıcı işə, bu işin dərkinə və onun bu keyfiyyətdə təsbit olunmasına müncər edilməlidir. Bu konteksdə E.Kassirerin (Kogenin tələbəsi) və Vindelbandın mədəniyyətin fenomenologiyası konsepsiyası maraq kəsb edir. Burada fəlsəfə ümuməhəmiyyət kəsb edən dəyərlər haqqında təlim kimi təqdim olunur (Məmməmzadə, 2019:5).

Fuko hesab edir ki, fəlsəfə əbədi olana keçidin əsaslandırılmasından imtina etdiyi anda müasir oldu. Fəlsəfə "indi və hazırda" olana müraciət etməlidir. Onun fikrincə, "indi" – bizim tarixi aktuallığımız haqqındakı suala cavab vermə cəhdimizdir. V.Dekomb hesab edir ki, Fukodan sonra aydın olur ki, fəlsəfə qəzetdə tapa biləcəyimiz suallara cavab verməlidir. Müasirliyə maraq bütün filosofları birləşdirir, əsərlərini hansı dildə yazmalarından asılı olmayaraq. Qəribədir ki, indi müasirlik barədə hətta fəlsəfə tarixçiləri belə mühakimə yürüdürlər. Beləcə, R.Rorti "Tarixdə fəlsəfə" kitabının ön sözündə yazır ki, fəlsəfə tarixçisi həmişə özü barədə, içində yaşadığı zaman, onun üçün əhəmiyyətli olanlar, həmkarlarının rəyləri barədə refleksiya edir. Fəlsəfə subyektiv meyllər prizmasından qurulur (Рорти, 1998:435).

Professor İ.Məmmədzadə yazır ki, filosoflar üçün fəlsəfə ilk növbədə ona görə aktualdır ki, o, özünün tarixinə malik bir elm kimi qavranılır və ondan digər elmlər ayrılaraq yayılmışdır. Elmi ictimayyətdə müşahidələrimiz göstərir ki, fəlsəfənin zəruriliyi barədə dayanıqlı bir rəy formalaşmışdır. Təbii olaraq belə bir ifadə səslənməkdədir ki, əgər o, "elmlərin şahı"dırsa deməli, öz statusunda da qalmalıdır. Əgər elmlər ondan ayrılmışlarsa deməli, elmin fəlsəfəsi kimiona ehtiyac vardır. Lakin bununla yanaşı, o necədir və necə olmalıdır məsələsi ilə bağlı hər şey qulaq ardına vurulur (Məmməmzadə, 2019:7).

Fəlsəfənin elmlərlə mütənasibliyi məsələsi, onun qoyuluşu, elm dünyasında fəlsəfənin aktuallığından xəbər verir, fəlsəfənin elmlərlə qarşılıqlı münasibətləri məsələsi isə həm digər elm nümayəndələrinə, həm də filosoflara düşüncə üçün yeni üfüqlər açır. Eyni zamanda, unutmaq olmaz ki, elmlərin fəlsəfəsi ilə ən müxtəlif sahələrin alimləri məşğul ola bilərlər – fiziklər, kimyaçılar və s. Müasir dövrdə fəlsəfənin gücü ilk növbədə onda görünür ki, bir ictimai fənn kimi onsuz nə tarix, nə sosiologiya, nə də mədəniyyətşünaslıq inkişaf etməyəcəkdir. Onun müəyyən hissəsi humanitar xarakter daşıyır və özündə fəlsəfə tarixi, sosial fəlsəfə və s. bu kimi fəlsəfi fənləri ehtiva edir. Bəzən bu ona gətirib çıxarır ki, fəlsəfəni fənlər toplusu kimi təsəvvür edir və bu zaman fəlsəfi biliyin spesifikasını, fəlsəfi fənlərarası əlaqələrin əhəmiyyətini, onun humanitar-ictimai fənlərin inkişafındakı rolunu nəzərdən qaçırırlar. İndi təxminən belə bir vəziyyət yaranmışdır.Odur ki, fəlsəfənin ictimai elm kimi aktuallığı məsələsini aydınlaşdırmaq və onun fəlsəfədaxili əlaqələrini mənalandırmaq olduqca zəruridir. Azərbaycan fəlsəfəsinin inkişafı baxımından bu gün fəlsəfənin fəlsəfi fənlərlə, ictimai və humanitar elmlərlə mütənasibliyi məsələsi, fikrimizcə, daha önəmlidir.

Gənc filosof E.Hüseynovun fikrincə, yunan fəlsəfəsində insan iki deyil, üç substansiyanın kombinasiyası kimi nəzərdən keçirilir:

1. Soma (body-vücud)
2. Pneuma (Spirit- ruh)
3. Psyche (Soul - ruh)

Göründüyü kimi, ingilis dilindən fərqli olaraq Azərbaycan dilində həm pneuma, həm də psyche analyışlarının qarşılığı kimi adətən ruh anlayışı işlədilir. Eyni şəkildə həm spirit, həm də soul anlayışları adətən eyni ruh anlayışı olaraq tərcümə edilir. Amma pneuma (spirit) və psyche (soul) anlayışları məzmun etibarilə eyni deyillər. Pneuma anlayışının məzmunu bizim dini konteksdə işlətdiyimiz ruh anlayışının məzmunu ilə daha çox uzlaşır və öz məzmununda (gizli və qeyri-müəyyən olanları) ruhən qavraya bilmə, tanrı(lar)dan vəhy ala bilmə, tanrı(lar) ilə bağlantı qura bilmə, ruhən rahatlıq tapa bilmə və bu qəbildən olan digər fenomenləri ehtiva edir. Psyche anlayışı isə öz məzmununda əsas etibarilə psixologiya elmi tərəfindən tədqiq oluna bilən fenomenləri (məsələn, zehin, şəxsiyyət, şüur, azad iradə və s.) ehtiva edir. Yeri gəlmişkən, psixologiya anlayışının etimologiyası elə "psyche" anlayışından yaranıb. Bu anlayışların fərqləndirilməsi zəruridir, çünki bizim dildə bu bəzən ruh ilə zehin anlayışlarının eyniləşdirilməsinə gətirib çıxarır: məsələn, bizə mühazirələr oxuyan ateist professor bu anlayışları eyniləşdirir, nəticə etibarilə insan təfəkküründə bir "məzmun labirinti" yaradırdı; o zaman nəyinsə düzgün olmadığını intuitiv olaraq hiss edirdim, amma səbəbini təbii ki, aydınlaşdırmaq qeyri-mümkün idi. İslam fəlsəfəsində bu kontekstdə "könül", "qəlb" və s. anlayışlar da mövcuddur, amma onları məsələn, psyche anlayışının ekvivalenti kimi qəbul etməyin nə qədər məqsədəuyğun olub olmadığını bilmirəm, çünki bu anlayışlar həm də məsələn, qismən poetik məzmun kəsb edirlər (Hüseynov,2022).

Tanınmış filosof Umberto Eko yazır ki, hər gün qəzetlərin ilk səhifələrində yer almasa da, lisey islahatı ilə bağlı müzakirələr aktuallığını hələ də qoruyur və bu müzakirələrin əsas mövzusu fəlsəfənin tədrisi ilə bağlı islahatdır. Söhbət fəlsəfə dərsinin reform olunmasından, ya da tamamilə ortadan qaldırılmasından gedir. Deyirlər ki, onsuz da digər sosial elmlər barədə dərslər tədris olunur. Bir neçə həftə əvvəl Bolonyada Fəlsəfə Dərnəyinin bir iclasına qatıldım və Gentile islahatını, təkcə Gentile (Giovanni Gentile: İtalyan filosof və siyasətçi. Mussolini hakimiyyəti dövründə iki il ərzində milli təhsil naziri olmuşdur) həyata keçirib deyə, ortadan qaldırmağımıza gərək olmadığını ifadə etməyə məcbur qaldım. Ən azından bu məsələ ilə bağlı irəli sürülən tənqidlər, fəlsəfənin bizim ölkəmizdə bu günədək davam edən tədris forması üzərinə fokuslanmamalıdır. Qənaətimə görə, İtaliya liseylərindəki fəlsəfə dərsləri, fəlsəfənin tədrisinə yer verən digər ölkələrdəki vəziyyətlə müqayisədə xeyli yüksək səviyyədədir. Əgər İtaliyadakı hadisələr fərqli formada inkişaf etsəydi və tutalım, Qremşinin islahatları cəmiyyətə tətbiq olunsaydı, elə sanıram ki, məktəblərimizdə yenə də fəlsəfə tarixi oxudulacaqdı. Fərqli formadamı tədris olunacaqdı? Mütləq: Abstrakt düşüncənin təkamülü ilə kultura və ictimai hadisələr tarixi arasındakı əlaqələri daha geniş şəkildə aydınlığa çıxararaq və tarix boyunca aparılan fəlsəfi müzakirələrin, demək olar həmişə gəlib çağdaş problemlər ətrafında fırlanmasının hansı yollarla baş tutduğunu göstərməyə çalışaraq. Sokratı bir yana qoysaq, görəsən, örnəyi, Parmenid haqqında müasir problemlərimiz baxımından söhbət etmək mümkündürmü? Qənaətimə görə, hə, mümkündür. Humanitar elmlər sferasında çalışmaq üçün detektiv romanlarını Parmenidi oxuyurmuşuq kimi mütaliə etmək kifayət deyil, gərək Parmenidi də detektiv romanını oxuduğumuz kimi oxuyaq. Nəyə görə gələcəyin tələbələrini bu cür aktual mövzulardan, mədəniyyət tarixi içində həyat qazandırıb yaşadacağımız fəlsəfə tarixindən məhrum etmək istəyirik ki? (Umberto,2020).

Yaşadığımız dövr, xüsusən onun son onillikləri və onların da son illərinin hədsiz mürəkkəbliyi, müasir cəmiyyətin, istər Şərq, istər Qərb olsun maarifə artan böyük ehtiyacından xəbər verir. Öz mədəni keçmişlərini bilmək və qlobal mədəniyyət tarixindən xəbərdarlıq, bu tarixdən nəticələr çıxararaq ayrı-ayrı xalqların həm özünüdərk və özünü bir xalq kimi təsdiqinə, həm də digər xalqlara tolerant yanaşmalarına kömək edə bilər.

**3.Fəlsəfi Elmlərin Tədrisi Problemləri**

Hazırda Azərbaycan Respublikasında dünyanın müxtəlif ölkələrində olduğu kimi, fəlsəfənin tədqiq, tədris və geniş təbliği dövlətin təhsil siyasətinin diqqət mərkəzindədir. Respublikada AMEA, Təhsil və Mədəniyyət nazirlikləri, universitetlərin fəaliyyət strategiyası bu siyasətlə vəhdət təşkil edir.

Müasir dövrdə respublikada fəlsəfi təhsilə mane olan obyektiv və subyektiv səbəbləri araşdırmaq olduqca əhəmiyyətlidir. Bu səbəblərin bəzisi qlobal və regional səciyyə daşıyır. Yeni dövrün elmi inkişafı

və bütövlükdə sosial mədəni şəraitində fəlsəfənin və fəlsəfə tarixi elminin qlobal miqyasda tədrisində mövcud əsas çətinlik fəlsəfənin bir təlim kimi predmeti, onun fundamental kateqorial anlamlarının məzmunu, əsas təsəvvürlər və dəyər meyarlarına yanaşmada müəyyən hərcmərcliyi Azərbaycanda da mövcuddur. Tədqiqat və tədris sahələrində fəaliyyət göstərən mütəxəssislərin arasında qarşılıqlı əlaqələr də kafi dərəcədə deyil. Halbuki hazırda tədrislə məşğul olan müəllimlərin qarşısında fəlsəfə ilə bağlı mürəkkəb və ziddiyyətli məqamlara münasibət bildirmək, dinləyicilərini isə bu sahədə gedən mübahisələrlə tanış edərək düşündürməyə, mövqe seçiminə və seçdiklərini elmi-məntiqi dəlillərlə əsaslandırmağa sövq etmək kimi mürəkkəb vəzifələr durur.

Filosoflar hazırda fəlsəfənin nəinki metodologiyasına, eynilə onun əsas kateqorial anlamlarına da münasibətlərini müəyyən etməlidirlər ki, bu da müasir konkret elmin yeni ixtira və fərziyyələri ilə bağlı olmalıdır. Hələ tədqiqat sahəsində çözülməkdə olan bu anlamların tədrisə, dərsliklərə keçirilməsi, sözsüz ki, mürəkkəblik təşkil edir. Başqa sözlə, marksist fəlsəfənin sabitləşmiş təsəvvürlərindən radikal imtina, digər tərəfdən, yeni metodologiyanın müəyyən edilməməsi və fəlsəfənin əsas anlamlarının məzmununun hazırki dövrdə konkret elmi nailiyyətlərlə ciddi əsaslanmaması fəlsəfənin tədrisi qarşısında bir sıra çətin problemlər yaradır ki, onların həlli konkret və təcili addımlar tələb edir. İlk addım konkret elmlər və fəlsəfə üzrə mütəxəssislərin müştərək seminarlarında informasiya ilə bölüşməsi və bu informasiyanın müvafiq şəkildə tələbələrə çatdırılması ola bilər.

Fəlsəfənin ixtisas kimi tədrisində daha bir çətinlik yaradan səbəb orta məktəbdən ali fəlsəfə təhsili almağa gələn abituriyentlərin fəlsəfədən xəbərsizliyidir.

Son vaxtlar AMEA Fəlsəfə və Sosiologiya İnstitutu Azərbaycan fəlsəfə tarixi dörd cildliyinin I və II cildini çapdan çıxararaq oxuculara təqdim etmişdir. Azərbaycan fəlsəfə tarixi Azərbaycan xalqı üçün əlamətdar bir dövrdə, Respublika müstəqil sosial-mədəni inkişaf yoluna çıxdığı dövrdə nəşr edilmişdir. Bu səbəbdən çap edilən əsərin aktuallığı elmi əhəmiyyəti ilə bərabər III minilliyin ərəfəsində Azərbaycan xalqının milli özünüdərkinin təşəkkülündə oynayacaq rolu ilə də bağlıdır.

Azərbaycanda fəlsəfənin tədrisində məhz Azərbaycan xalqının tarixini, mədəniyyətini, düşüncə tərzini, mentalitetini, onun bugünki həyatını, nailiyyətlərini və qarşıda duran problemlərini, vəzifələrini özündə əks etdirən xüsusi cəhətləri olmalıdır. Yəni burada zaman və məkan xaricində duran ümumbəşəri, ümumelmi, ümumfəlsəfi prinsiplərlə məhz Azərbaycan cəmiyyətinin inkişafına köməkçi ola biləcək başlıca prinsiplər vəhdət halında birləşməlidir. Bunun üçün dünya fəlsəfi fikri ilə yanaşı Azərbaycan fəlsəfi fikrinin inkişaf tarixi, onun ayrı-ayrı mərhələləri, hər bir mərhələnin özünəməxsus xüsusiyyətləri mümkün olduğu qədər dəqiqləşdirilməlidir və bu dəqiqləşdirilmələrdə həmin dövrün dünya elmi və fəlsəfi fikrinin əsas məzmun və istiqamətləri də nəzərə alınmalıdır. Burada tədqiqat obyektinə aludə olaraq həmin obyektin hüdudlarından kənara çıxmaq istəməmək, bu və ya digər dərəcədə emosiyaya qapılmaq, salnaməçilik, narrativlik, eləcə də tarixi dövrün real gerçəkliyindən uzaq olan mücərrədçilik heç də arzu olunan, gözlənilən nəticəyə gətirib çıxarmır. Hər bir fəlsəfi, elmi axtarış dövrün real tarixi və düşüncə kontekstində tədqiq olunmalı və dəyərləndirilməlidir.

AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun əməkdaşı, dos. F.Ələkbərov 3 cildlik "Azərbaycan Türk fəlsəfəsi" (XIX- XX əsrlər) kitabında Azərbaycan fəlsəfəsinin problemləri, mövcud vəziyyət, yol verilmiş qüsurlar haqqında ətraflı məlumat verir, yeni fikir və ideyalarını irəli sürərək onları elmi cəhətdən əsaslandırır.

Fəlsəfənin öyrənilməsi mövcud elmi biliklərə tənqidi baxış formalaşdırmağa və eyni zamanda inkişaf perspektivlərinə diqqət yetirməyə imkan verir. Fəlsəfi biliklərdə müzakirə olunan problemlərin həlli düşüncənin hərəkət amili kimi Dekartın "Hər şeyə şübhə et!" şüarına uyğun olan bir vərdişin meydana gəlməsi üçün əsas rolunu oynayır.

Lakin bu gün ali təhsil ənənəvi ixtisas təhsilindən tamamilə uzaqlaşmayaraq təbiətşünaslığın, xüsusi fənlərin və fəlsəfi biliklərin, zəmanəmizin tələblərinə cavab verən yüksək keyfiyyətli fəlsəfi hazırlığı çətinləşdirir. Fəlsəfi təlimin zəifliyi gələcək bir mütəxəssis üçün təhsil standartları tərəfindən təlimin bütün sahələrində tələb olunan yaradıcı düşünmək qabiliyyəti kimi əsas səriştənin formalaşmasına mane olur.

Beləliklə, yuxarıda göstərilənlərə əsaslanaraq mütəxəssisin şəxsiyyətinin dəyər aspektləri sırf peşəkar biliklərdən az əhəmiyyət kəsb etmədiyi qənaətinə gələ bilərik. Ancaq səriştəlilik dedikdə, mütəxəssislər arasında bir fikir birliyi olmadığı üçün yeni bir təhsil keyfiyyətinə aparacaq novator fikirlərdə vəhdət yoxdur. Buradakı problem keyfiyyətcə yeni təhsilin nəticəsinin əldə edilməsinin tədris metodlarının tətbiqi ilə əlaqəli olmasıdır.

Ali təhsil müəssisələrində fəlsəfənin tədrisi Aristotelin "ilk fəlsəfə" adlandırdığı bilik sisteminin tələbələr tərəfindən dərindən öyrənilməsini, yəni ümumdünya prinsiplərini, dünyanı dərk etməyin əsaslarını ortaya qoymağı, lazımi əsas səriştələrin formalaşmasına yönəldilməsini nəzərdə tutur. Universitet məzunu, ilk növbədə - yaradıcı düşünmək bacarığı, həll yolları, müzakirə bacarıqlarına sahib olmalıdır. Müasir şəraitdə universitetlərdə fəlsəfənin tədrisinin spesifikliyi tələbələrin dərk etməsi çətin olan mücərrəd fikirlərdən çəkinmə zərurəti ilə əlaqədardır.

Bunun üçün nəticələrin konkretliyi tələb olunur. Müəllim tədris etdiyi fənnin məzmununu formalaşdırarkən onun tam açıqlanmasına imkan yaradan, stereotip standart düşüncədən kənara çıxaraq yaradıcı axtarış üçün şərait yaratmalı olan bir təhsil texnologiyası sistemi qurmalıdır. Bu kontekstdə qeyd edək ki, bütün yaradıcı yönümlü vəzifələrin həlli bu istiqamətdə irəliləməni nəzərdə tutur. Uzun müddətdir ki, fəlsəfə, insanın həqiqi elm sahəsinə qalxmasına imkan verən bir pilləkənlə müqayisə olunur.

İnformasiya texnologiyalarının istifadəsi müxtəlif formalarda həyata keçirilə bilər (portallarda və internet saytlarında məlumat axtarışı; kompyuter testləri; mühazirələrin elektron təqdimatı, elektron referatların hazırlanması və s.).

İT tədris vasitələrinə əsaslanan fəlsəfənin öyrənilməsi prosesində yaradıcı təfəkkürün formalaşmasına töhfə verən yenilikçi nümunələr verilməli və bu vasitələrin tətbiqi və istifadəsi zamanı mövzularda ortaya çıxan problemlər müəyyən edilməlidir.

Bu gün ali təhsildə kifayət qədər geniş yayılmış metodlardan biri situasiyalı öyrənmə metodu və ya keys-analiz metodudur. Keys-analiz metodologiyasını hazırlayan və istifadə edən müəllimin işi iki mərhələdən ibarətdir. Birinci mərhələdə keysin tərtibi və onun analizi üçün kifayət qədər mürəkkəb yaradıcılıq işləri aparılır. Bu iş dərsdən kənar vaxt aparılır və müəllimin tədqiqat, metodiki və konstruktiv fəaliyyətlərini əhatə edir. İkinci mərhələdə keysin ilkin təhlili aparılır və auditoriyada bu təhlilin effektiv təqdimat forması araşdırılır.

Əslində müəllim, müxtəlif informasiya texnologiyalarından istifadə edərək, müəyyən bir keys üçün problemləri tərtib edir və onların həllində dəyişikliklər axtarır. Auditoriyada və ya onlayn təhsildə tələbələr keysi təhlil etmək və yaradılan ümumiləşdirmələrin sonrakı müzakirəsində iştirak etmək üçün müəllim tərəfindən hazırlanan strategiyaya uyğun olaraq lazımi məlumatları axtarmağa başlayırlar. İnteraktiv tədris metodu olmaqla keys-təhlili onu yaradıcı oyun kimi qəbul edən, nəzəri mövqeləri mənimsəyən və məlumatla işləməkdə praktik vərdişlərə yiyələnən tələbələr arasında məşhurdur. Fəlsəfi materialları öyrənmək üçün bu metodun həm auditoriya iş, həm auditoriyadan xaric hazırlıq, həm dərsə hazırlaşmaq və ya bir mövzunu mənimsəmək üçün müstəqil iş üçün istifadə edilməsi vacibdir. Yeni metodlar tapşırıqları, fəlsəfi biliklərin əsaslarını düzgün təkmilləşdirmək üçün vacibdir. İnnovativ tədris matrisindəki fəlsəfə yeni biliklər və istiqamətlər yaratmaq üçün bir alətə çevrilir.

İnformasiya texnologiyalarının tədris prosesində istifadəsi genişləndikcə diskussiya (debatlar) kimi metodlar yeni bir nəfəs alır. Orta əsr universitetləri təhsil tarixinə tələbələrə mühazirələrin oxunduğu təhsil müəssisələri kimi daxil olmuşdu ki, (hərfi mənada, "mühazirə" sözü "kitab" deməkdir) burada müvafiq mətn müəllimlər tərəfindən şərh edilirdi. Maraqlıdır ki, Orta əsr tələbələri mətnə vərdiş etmək və müəllimlə mətni şərh etmək üçün oxunan kitabları daşımalı idilər. Ancaq tələbələr üçün daha populyar və sevimli təhsil forması həm müəyyən mövzular üzrə təşkil edilmiş, həm də sərbəst formada aparılan disputlar idi. Tələbələrə mübahisə sənətini öyrətmək, öz fikirlərini əsaslandırmaq və məntiqi təfəkkürünü formalaşdırmaq üçün disputlar xüsusi əhəmiyyət daşıyırdı. Bu gün disskussiya ictimai-humanitar fənn müəllimlərinin metodik arsenalında daha tez-tez istifadə olunur və yanaşmanın yeniliyi yalnız diskussiyanın təşkilində informasiya texnologiyalarından istifadə imkanından ibarətdir.

Tələbə və magistrantlarla iş təcrübəsi onların fəlsəfi fənlər üzrə fəal təhsil formalarına cəlb olunmalarını, müzakirələrdə iştirak etmək istəklərini, bəzilərinin elektron esse yazmağı sevdiyini göstərdi. Ancaq, təəssüf ki, bu işdə hələ də müsbət nəticələrdən daha çox problemlərlə üzləşirik, belə ki, bütün tələbə və magistrantların bilik səviyyəsi və bacarıqları eyni deyildir.

İnteraktiv yaradıcı təlimə yönəlmiş və müasir informasiya texnologiyalarına əsaslanan fəlsəfənin tədrisi prosesində yenilikçi texnikaların tətbiqi təcrübəsinin ümumiləşdirilməsi bir neçə problem qrupunu müəyyənləşdirməyə imkan verdi. Onları icmal şəkildə belə müəyyən etmək olar:

1.Təhsil və təşkilati problemlər:

- İT vasitələrindən istifadə etməklə konkret tapşırıqların icrası tələbələrin hazırlaşması üçün tədris planına daxil edilmədiyindən müvafiq olaraq bu tapşırıqlar müəllimin təşəbbüsü ilə hazırlanır və yerinə yetirilir;

- elektron formada yerinə yetirilmiş tapşırıqların yoxlanılması müddəti müəllimin dərs yükünə daxil deyil;

- yeni metodlardan aktiv istifadə edən müəllimlərin və bu kimi metodları inkişaf etdirməyən və istifadə etməyən müəllimlərin işi, fəaliyəti eyni şəkildə qiymətləndirilir, onların əmək haqqı arasında fərq qoyulmur.

2. Tədris və metodiki problemlər:

- məlumat almağın əsas mənbəyi internetdir, lakin bəzi auditoriyalar xüsusi avadanlıqla təchiz olunmadığı üçün hər dərsdə internet resurslarından onlayn istifadə imkanları məhduddur;

- müəllimin ayrı-ayrı tələbələrlə işləmək üçün elektron tapşırıqları düzəltmək (məzmunu sadələşdirmək və ya çətinləşdirmək) imkanının olmaması, bunun nəticəsində fərdi məsləhətlərin rolu artır;

- təlbələrin dərs qrafiki ilə əlaqədar olaraq dərs saatlarında onlayn seminarlar təşkil etməyin çətinliyi.

3. Təhsil səriştəsi problemləri:

- tələbələr internet mənbələri ilə işləməyi, materialın açar sözlərlə axtarışı və ümumiləşdirilməsi ilə bağlı yaradıcılıq işlərini yerinə yetirə bilmirlər;

- tələbələr müəyyən bir mövzuda yazılmış referat və elektron esse arasındakı fərqi başa düşmüşlər;

- elektron işlər hazırlanarkən əksər hallarda köçürmələrə yol verilir ki, bu da tədris prosesinə mənfi təsir edir.

Şübhəsiz ki, burada bütün problemlər əks olunmur. Tədris prosesinin aktiv informasiyalaşdırılması zamanı həmin problemlər aradan qaldırılacaq, müəllimə tədris prosesində daha çox müstəqillik veriləcək (onlayn tədris daxil olmaqla) tələbələrə bilik verən bir insana inamı gücləndirəcək. Bununla belə unutmamalıyıq ki, hər müəllimin məlumat, multimedia texnologiyalarından aktiv şəkildə istifadə edə bilməsi, vebinarlar təşkil etməsi və göndərilən esselərin onlayn fərqli versiyalarını müqayisə etməsi imkanları və yaxud səriştəsi yoxdur. Müasir təhsil tələbələrin fəlsəfi hazırlığı üçün tədris informasiya texnologiyalarına yaxşı bələd olan, tələbələrlə yalnız auditoriyada deyil, həm də onlayn əməkdaşlıq edən yeni hazırlıqlı müəllim tələb edir. Universitet auditoriyalarından təbaşir çıxarmaq və adi yazı lövhələrini mövcud təsvirləri və ya mətnləri artırmaq üçün deyil, həm də tələbələrin yaradıcı təfəkkürünün formalaşmasına töhfə verən dərsin yeni metodoloji təşkili üçün istifadə olunan interaktiv lövhələrlə əvəz etmək vaxtı çatmışdır.

Fəlsəfənin tədrisi üçün hər şeydən əvvəl, mükəmməl proqram tərtib olunmalı, geniş və ətrafı müzakirə olunaraq təsdiq edilməlidir. Əvvəlcə, fəlsəfə kursuna hansı mövzuları daxil edilməsini müəyyən edık. Sonra bu proqram əsasında mükəmməl dərslik və dərs vəsaitləri hazırlanmalıdır. Düzdür, son 20 il ərzində müxtəlif ali təhsil müəssisələri tərəfindən xeyli proqramlar hazırlanaraq nəşr olunmuş, dərslik və dərs vəsaitləri də yazılmışdır və bunların içərisində diqqətəlayiq olanları da vardır. Lakin bu dərslik və dərs vəsaitlərində xüsusilə dil baxımından çətinliklər vardır. Fəlsəfə kursu bakalavr səviyyəsində keçildiyi üçün və tələbələr əsasən 18-20 yaşlı gənclər olduğu və elmləri yenicə öyrənməyə başladığından onlar hələ mürəkkəb cümlələrlə, mücərrəd fəlsəfi keçidlərlə yazılan fəlsəfi dərslik və dərs vəsaitlərini oxuyub başa düşməkdə çətinliklərlə qarşılaşırlar. Belə dərslik və dərs vəsaitlərini yazan müəlliflər bəzən bunu tələbələr üçün yazdıqlarını yaddan çıxarırlar. Tələbələr üçün yazılan dərsliyə nümunə olaraq amerikalı professor P.Volfun «Fəlsəfə haqqında» kitabını nümunə göstərmək olar. Bu dərslik özünü dolğunluğu, həyatiliyi və sadəliyi baxımından rahatlıqla başa düşülür. İstər yazılan dərslik və dərs vəsaitləri, istərsə də müəllimlər tərəfindən oxunan mühazirələr anlaşıqlı və mümkün qədər asandilli olmalıdır. Fəlsəfi fikrin zərifliyi və məntiqi ona uyğun ifadələrin, anlayışların seçilməsini tələb edir. Fəlsəfə fikrin məntiq, düşüncə və daha çox müstəqil düşüncə vasitəsi ilə ötürülməsidir. Fikrin məntiqiliyi və incəliyidir. Əlbəttə, yeri gəldikdə müxtəlif hissi idrak vasitələrindən də istifadə etmək olar. Lakin bunlar mühakimənin idraki-məntiqi nizamını pozmamalı, məzmun və mahiyyətin açılmasına mane olmamalıdır. Bu gün Azərbaycanda Ramiz Mehtiyevin, Səlahəddin Xəlilovun, Ağayar Şükürovun, Fərrux Ramazanovun,Yusif Rüstəmovun, Zeynəddin Hacıyevin və başqalarının fəlsəfəyə aid dərslik və dərs vəsaitləri tələbələr və gənc tədqiqatçılar tərəfindən oxunur. Bu dərsliklərdə müxtəlif istiqamətli fəlsəfi məsələlər haqqınfa məlumat verilir, yeni biliklər öz əksini tapır.

**Nəticə**

Aparılan tədqiqata əsasən demək olar ki, müasir dövrdə fəlsəfənin rolu nəinki azalmış, əksinə artmışdır. Təəssüf ki, bəzi ali məktəblərdə fəlsəfi fənlər ixtisar edilir, saatlar azaldılır. Bu onunla əlaqədardır ki, bəzi rəhbərlər bu elmin gücünü,əhəmiyyətini, onun təbiət-cəmiyyət-insan münasibətlərindəki rolunu dərk

edə bilmirlər.Bu bəlkə də onlar təhsil alarkən fəlsəfi tədris edən müəllimin mürəkkəb və çətin ifadələrdən istifadə edərək hadisə və proseslərin baş vermə səbəbini, əsl həqiqətin əldə olunması yollarını düzgün göstərə bilməməsi ilə bağlıdır. Belə ki, fəlsəfənin tədrisinin əhəmiyyətinin düzgün başa düşülməsi və tədrisin faydalılığı işində müəllimlərin rolu inkarolunmaz faktdır. Fəlsəfə öz spesifikliyi ilə digər fənlərdən xeyli dərəcədə fərqlənir. Burada müəllimin özünün intellektual və mədəni səviyyəsi, onun işlətdiyi hər bir söz, hər bir ifadə düşüncəyə, dərketməyə doğru aparan vasitə olmalıdır. Auditoriyaya girən müəllim mühazirə oxuyacağı mövzunun bütün strukturunu, aparıcı ideyaları, bu mövzunun oxunmasından çıxarıla biləcək əqli nəticələri tamlığı ilə təsəvvür etməlidir. Bu mənada ali məktəblərdə fəlsəfə elminin də lazımlılığı və gərəkliliyi xeyli dərəcədə dərs deyən müəllimlərdən asılıdır. Yadda saxlamaq lazımdır ki, fəlsəfə informasiya predmetindən daha çox düşüncə perdemtidir. Onun vəzifə və funksiyası düşünməyi, müxtəlif sahələr arasındakı əlaqə və asılılığı öyrənməkdir. Belə halda dinləyicilər, yaxud oxucular başa düşərlər ki, fəlsəfəyə qarşı olan biganəlik düşüncə azadlığından və düşüncə mədəniyyətindən qaçma, varlığın, gerçəkliyin sirrlərini öyrənməkdən imtina etməkdir.

Zəmanəsinin elmi bilikləri ilə vəhdətdə varlıq haqqında ümumnəzəri təlim olan fəlsəfənin tarixən cəmiyyətin dünyagörüşünün təşəkkülü və istiqamətlənməsində özünəməxsus yeri və rolu olub, məhz buna görə qədim dövrlərdən bu günədək şəxsiyyət və millətlərin özünüdərk və özünütəsdiqində əhəmiyyətli dəstək olan fəlsəfi təhsil müxtəlif coğrafi və mədəni bölgələrdə yüksək dəyərləndirilmiş və dəyərləndirilməkdədir. Deyilənlərə fəlsəfi ideya və təlimlərin ümumdünya mədəni irsinin ayrılmaz üzvi hissəsi kimi tarixən mövcud olması və cəmiyyətin mədəni və dövlət qurumlarının fəlsəfi təhsilə fəal münasibəti sübutdur.

Bu gün bir çox fəlsəfə müəllimləri fəlsəfə dərslərini ateizm təlimi üzərində qururlar. Bu ilk növbədə milli-mənəvi fəlsəfi irsimizə, dövlətçilik ideyalarımıza zidd olduğu kimi, eyni zamanda da əksər tələbələr tərəfindən fəlsəfəyə ikrah hissinin artmasına, fəlsəfənin ateizm ilə eyniləşdirilməsinə şərait yaradır. Belə bir şəraitdə fəlsəfi təfəkkürün inkişafından söhbət gedə bilməz. Buna görə də, fəlsəfi tədqiqatların nəticələri uyğunlaşdırılmış, sadələşdirilmiş, ümumiləşdirilmiş formada orta məktəb dərsliklərinə salınmalıdır. Şagirdlərdə fəlsəfi bilikləri öyrətmək deyil, fəlsəfi düşüncə tərzini inkişaf etdirmək lazımdır. Bunun üçün ilk növbədə, fəlsəfə dili xalqın dilinə enməlidir. Fəlsəfə üçün əsas məsələ, ideyanın olduğu kimi çatdırılmasıdır. Bunun üçün xalq müdrikliyinin və milli dilin imkanların geniş istifadə etmək lazımdır.

Azərbaycanın inkişafı, onun təhlükəsizliyinin qorunması üçün əsas ideya azərbaycançılıq ideyasıdır. Bu ideyanın sistemli elmi konsepsiya şəklində hazırlanması isə fəlsəfə sahəsində mümkündür. Bütün ideolioji məsələlərin təməlində fəlsəfi biliklər dayanır. Fəlsəfənin tədrisi, fəlsəfi biliklərin geniş yayılması zamanın tələbi, inkişafın əsası və cəmiyyətin sifarişidir.

**ƏDƏBİYYAT**


1.Abasov Ə. Müasir Azərbaycana hansı fəlsəfə lazımdır/Müasir fəlsəfə və Azərbaycan: tarix, nəzəriyyə, tədris. AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. Müasir fəlsəfə problemləri şöbəsi. Bakı, Avropa, 2010

2.Abbasov Ə. Fəlsəfə və müasirlik. Müasir Azərbaycana hansı fəlsəfə lazımdır/Müasir fəlsəfə və Azərbaycan:tarix, nəzəriyyə, tədris. AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. Müasir fəlsəfə problemləri şöbəsi. Bakı, Avropa, 2010

3.Bünyadzadə K. https://525.az/news/170480-felsefenin-imtahani-esse?fN7JUihY 21.06.21

4.Hacıyev Z. Fəlsəfə. Bakı, "Turan evi" nəşriyyatı, Bakı, 2012

5. Hüseynov E. elmar.husseyn. 07.01.2020

6.Xəlilov S. Fəlsəfə bizə lazımdırmı? 525-ci qəzet. – 2009,- 22 may

**7.Kərimov Ə.** https://525.az/news/171164-ali-mekteblerde-felsefenin-tedrisi-zeruri-fenler-qrupuna-daxil-edilsin 02.07.2021

8.Quluzadə Z. İslam bölgəsi fəlsəfəsinin tədrisi və təbliği məsələləri/ Müasir Azərbaycana hansı fəlsəfə lazımdır/Müasir fəlsəfə və Azərbaycan:tarix, nəzəriyyə, tədris. AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. Müasir fəlsəfə problemləri şöbəsi. Bakı, Avropa,2010

9.Mehtiyev R. Ön söz. "Fəlsəfə və sosial-siyasi elmlər" jurnalı, №4, 2009

10.Mehdiyev R. İctimai və humanitar elmlər: zaman kontekstində baxış. Bakı, 2010.

11.Məmməmzadə İ. Bir daha fəlsəfə haqqında. Müasir yanaşmalar. Təmayüllər.Perspektivlər. Tamamlanmış və yenidən işlənmiş ikinci nəşri. Bakı, Elm və təhsil, 2019

12.Məmmədov R. Azərbaycan fəlsəfəsinin inkişafı ilə bağlı düşüncələr. / Müasir Azərbaycana hansı fəlsəfə lazımdır/Müasir fəlsəfə və Azərbaycan:tarix, nəzəriyyə, tədris. AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. Müasir fəlsəfə problemləri şöbəsi. Bakı, Avropa,2010

13.Şirinov A. Fəlsəfənin və onun tədrisinin əhəmiyyəti haqqında/ Müasir Azərbaycana hansı fəlsəfə lazımdır/Müasir fəlsəfə və Azərbaycan:tarix, nəzəriyyə, tədris. AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. Müasir fəlsəfə problemləri şöbəsi. Bakı, Avropa,2010

14.Umberto Eko. Fəlsəfənin təsəllisi.http://www.bilge.az/article/76

15.Деррида Ж. О грамматологии / М.: Ad Marginem, 2000.

16.Гейдар Гусейнов – 100. Сборник трудов Института философии, социологии и права НАНА, посвященный юбилею выдающегося азербайджанского философа. Баку: Текнур, 2009; Кулизаде З. Концептуальные проблемы исследования социокультурного развития (конец XX – начало XXI вв.). В 2 тт. Баку: Текнур, 2009.

17.Рорти Р. Американская философия сегодня //Аналитическая философия: становление и развитие. Антология. М.: Дом интеллектуальной книги: Прогресс – Традиция, 1998, с.433-453.

# OSMANLI İMPERİYASININ CƏNUB SLAVYAN ÖLKƏLƏRİNDƏ DAXİLİ SİYASƏTİ (XV-XVI ƏSRLƏRDƏ)

**Əhmədli LEYLA**[45]

**Xülasə**

Osmanlı İmperatorluğu 5 əsrdən çox cənub slavyan ölkələrində hakim olmuşdur. Osmanlı hökmranlığı müxtəlif sahələrə (siyasət, iqtisadiyyat, mədəniyyət, din, cəmiyyət və s.) dərin təsir göstərdi. Bu təsirlər, qaçılmaz olaraq müxtəlif sahələrdə fərqli səviyyələrdə mirasa çevrildi: siyasi, iqtisadi, mədəni, demoqrafik miraslar...Sosial,iqtisadi, mədəni və hərbi cəhətdən Balkanlara təsir edən Osmanlı dövlətinin bu ərazilərdə qoyduğu maddi və mənəvi miras bu günə qədər qalmaqdadır. Osmanlı İmperiyası, cənub slavyanı ölkələrində özünüidarə qabiliyyəti baxımından da əhəmiyyətli bir dövlət ənənəsinin inkişafına böyük töhfə vermişdi. Cənub slavyanlarının Osmanlı imperatorluğundan asılı olduğu dövrün araşdırılması, bu dövrdə müsəlmanlar və xristianlar arasındakı sosial, mədəni və etnik əlaqələrin öyrənilməsi baxımından əhəmiyyətli bir yer tutur. Məqalə Osmanlı imperiyasının Cənub slavyan ölkələrini fəthindən sonra bu ərazilərdə həyata keçirdiyi siyasətdən bəhs edir. Həyata keçirilən siyasətlərin əsas məqsədi Osmanlının bu ərazilərdə özünə dayaq yaratmaq, baş verə biləcək çıxışları qarşısını almaq idi. Köçürülmə siyasəti nəticəsində Cənub slavyan ölkələrində türk nüfusu artmış, türk mədəniyyəti yayılmışdır.

***Açar sözlər**: "İskan" siyasəti, Rumeli əyaləti, hərbi len, "rum" milləti, millət sistemi*

## Internal Polıcy Of The Ottoman Empıre In The South Slavıc Countrıes (XV-XVI Centurıes)

**Summary**

The Ottoman Empire dominated the South Slavic countries for more than 5 centuries. Ottoman rule had a profound impact on various fields (politics, economy, culture, religion, society, etc.). These effects inevitably became legacies at different levels in different areas: political, economic, cultural, demographic legacies... The material and moral legacies of the Ottoman state, which influenced the Balkans socially, economically, culturally and militarily, remain to this day. The Ottoman Empire made a great contribution to the development of an important state tradition in the South Slavic countries in terms of self-governance. The study of the period in which the South Slavs depended on the Ottoman Empire is important in terms of studying the social, cultural and ethnic relations between Muslims and Christians. The article talks about the policy implemented by the Ottoman Empire in these territories after the conquest of the South Slavic countries. The main goal of the implemented policies was to create a support for the Ottomans in these areas and to prevent possible exits. As a result of the resettlement policy, the Turkish population has increased in the South Slavic countries, and Turkish culture has spread.

***Keywords:** "Iskan" politician, Rumelia, military land, "Rum" nation, nation system*

## Giriş

XIV əsrin sonlarından başlayaraq Osmanlı imperiyası cənubi slavyan ölkələrini öz təsir dairəsinə almağa başladı. Osmanlı imperiyasının 1396-cı ildə Bolqarıstanı, 1459-cu ildə Serbiyanı, 1463-cü ildə Bosniya və Hersoqovinyanı, 1526-cı ildə isə Sloveniya və Dalmasiyanı fəth etməsi ilə cənub slavyanları yüzilliklər boyunca Osmanlı imperiyasından asılı vəziyyətə düşdülər. Cənub slavyanlarının Osmanlı hakimiyyəti altında olduğu dövrün araşdırılması, bu dövrdə müsəlmanlar və xristianlar arasındakı sosial, mədəni və etnik əlaqələrin öyrənilməsi baxımından əhəmiyyətli bir yer tutur. Osmanlı imperiyası cənubi slavyanlar ölkələrini fəth etdikdən sonra burada Osmanlıya qədərki inzibati və maliyyə sistemində olan elementlər qismən saxlanıldı. XV əsrdə Balkanlarda edilən bütün Osmanlı fəthləri I Murad (1362-1389) adı altında qurulan və II Mehmed (1451-1481) dövründə müxtəlif ölçülü səkkiz sancağa bölünən Rumeliya bəylərbəyliyinə əlavə edilmişdi. Sancaqların hər birinin ərazisinə Osmanlıların Balkan ekspedisiyaları nəticəsində fəth edilmiş ərazilər daxil idi və əksəriyyətinin ana xətləri türklərin gəlişindən əvvəl Balkanlarda mövcud olan feodal mülklərinin sərhədlərinə uyğun idi. XV əsrin ortalarında Sultan II Mehmetin hakimiyyəti dövründə Rumeli əyaləti 8 sancağa bölündü. Əyalətə hərbi və inzibati hakimiyyətə sahib olan türk feodalı başçılıq edirdi. Bu ərazilər Osmanlı qanunları və İslam hüququna görə idarə edilirdi. Türk dövlət aparatı əsasən şəhərlərdə cəmlənmişdi. Kənd icmasına isə vergi yığılmasına nəzarət edən və xristian icma üzvləri arasındakı mübahisələrdə hakim kimi çıxış edən- kmets tərəfindən idarə olunurdu. (Stavrıanos,1958:63-65)

[45] **305 nömrəli tam orta məktəbin tarix müəllimi**

Osmanlı imperiyasının fəth etdikləri bu ərazilərdə möhkəmlənmək üçün istifadə etdikləri siyasət: “istilamət” və “iskan” siyasəti adlanırdı. “İstilamət” sözünün hərfi mənası “meyl etdirmə, cəzb etdirmə, könül alma” kimi tərcümə olunur. Osmanlı imperiyasının hakimiyyəti altında olan qeyri-müsəlman əhalinin dinlərinə və adət ənənələrinə hörmət etmək mənasına gəlir. Osmanlı bu ərazilərdə özünə etibarlı dayaq yaratmaq və burada hakimiyyətini möhkəmləndirmək üçün isə xristian əhalinin müsəlmanlaşdırılması və türkləşməsi siyasətini həyata keçiridi. Osmanlının Balkan yarımadasında həyata keçirdiyi bu siyasət ”İskan” siyasəti adlanırdı (Stavrıanos,1958 :659-662).

“İskan” sözünün hərfi mənası “yerləşdirmə”, “məskunlaşdırma” kimi tərcümə olunur. Osmanlıların Rumelinə iskan etdirdikləri köçərilər Naldöken, Tanrı dağı, Selanik, Vize, Kocacık və Ofçabolu köçəriləri olaraq adlandırılmışdılar. Köçürülənlərin ən çox yerləşdirildikləri yerlər Makedoniyada Kavala, Drama, Dəmir Xisar və Bolqarıstanda Ruscuk (rusa), Tırnova və Nikopol tərəfləri idi. Rumelinə köçürülənlər içərisində ən geniş əraziyə yayılmış olanı Selanik köçəriləri olmuşdur. XVI əsr Osmanlı dövlətinin irəlilədiyi və fəthlərinin davam etdiyi bir dönəm idi. Bu dönəm əvvəlki qədər çox olmasa da Osmanlılar yeni fəth etdikləri ərazilərə iskan siyasətini davam etdirirdilər. Anadoludan bu ərazilərə köçəri türk tayfaları köçürüldü. Köçürülən türklər həm şəhərlərdə, həm də kəndlərdə məskunlaşdırılmışdı. Həmçinin buradakı slavyanlar da Kiçik Asiyaya köçürüldü. Bu köçürülmələr Balkanların türkləşməsi, türk mədəniyyətinin və islamın bu ərazilərdə yayılmasında xüsusi əhəmiyyəti olmuşdur. Bugün Bolgaristanda, Serbiyada, Makedoniyada, Bosniya ve Hersoqoviniyada yaşayan türklər “iskan” siyasəti ilə köçürülmüş türklərin nəsillərindəndir.(Kalaycı, Kızılkaya, 2012:364)

Türk fəthindən sonra cənub slavyan ölkələrinin torpaqlarının sosial-iqtisadi vəziyyyətindəki əhəmiyyətli dəyişikliklər Balkanlarda Osmanlı fəthindən əvvəl mövcud olan torpaq mülkiyyət sistemindən tamamilə fərqli bir torpaq mülkiyyət sisteminin qurulması ilə əlaqələndirilir. Türklər tərəfindən fəth edilən bütün ərazilərdəki torpaqlar əvvəlcə qeydiyyata alındı və dövlət mülkiyyəti statusu aldı. Bu ərazilərdə yeni feodal sistemi yarandı. Bu sistemin əsasını dövlət torpaqları təşkil edirdi. Torpaqların böyük hissəsi hərbi torpaqlara çevrildi, bu torpaqlar da lenlərə bölündü. Lenlər vəzifələrinə görə xass, ziyamət və timar olaraq üç kateqoriyaya bölünürdü.

Xass - bu torpaqlar sultan, sülalə üzvləri və vəzir kimi yüksək vəzifəli dövlət adamlarına verilirdi və illik gəliri 100 min akçədən çox idi.

Ziyamət - bu torpaqlar xəzinə və timar dəftərdarlarına, orduda çavuş və alaybəylərinə və s. verilirdi. Bu torpaqların illik gəliri 20 min akçə ilə 100 min akçə arasındadır.

Timar - bu torpaqlar Osmanlıya xidmət edən bəzi əsgər və məmurlara verilirdi. ən kiçik len növüdür. İllik gəliri 3 min ilə 20 min akçə arasındadır.

Len torpaqları müsəlman feodallarına Sipahilərə (Balkan dillərində Spahia) hərbi xidmət müqabilində verilirdi. Len torpaqlarının ən irisi isə xassə adlanırdı və bu torpaqlar sultan və ailəsinə, həmçinin yüksək vəzifəli əyanlara məxsus idi.

Hərbi len sistemi sultana istənilən zaman böyük bir ordu toplamağa imkan verirdi. Çünki lenlərdən gələn gəlir, siravi və atlı döyüşçülərə verilən maaşın əsasını təşkil edirdi. Öz vəzifəsini yerinə gətirməyən sipahi ciddi cəzaya məruz qalırdı və lenləri əllərindən alınıb başqasına verilirdi. Sipahilərin əsas gəlir mənbəyi, öz kəndlilərindən aldığı torpaq rentası və digər vergilər idi. Len torpaq sahibliyindən əlavə burada irsi olan torpaq mülkiyyət formaları var idi ki, bunlar da mülk torpaq sahibliyi və dini idarələrə məxsus vəqf torpaq sahibliyi idi.

Osmanlı fəthindən əvvəl Balkanlarda torpaqların böyük bir hissəsi xristian kilsəsinə aid idi. Fəthdən sonra xristian kilsələri ərazilərini tədricən itirdi və torpaqların çoxu müsəlman dini qurumlarının (vəqf), türk feodalları və vətəndaşlarını şəxsi mülkünə çevrildi. Keçmiş xristian feodallarının (xristian sipahilər olaraq da adlanırdılar) bəziləri də islamı qəbul etməklə torpaqlarını əldə saxlaya bilirdilər. Sipahi xristianlara daha kiçik və gəliri az olan timar verilirdi. Onların sayı az idi və XVI əsrdə xristian sipahilər müsəlman feodallar tərəfindən sıxışdırılıb aradan çıxarılır.

Hərbi len sistemi XVI əsrin sonlarında zəifləməyə başladı. Beləliklə, dövlətin qurulmasında və imperatorluğa çevrilməsində mühüm rol oynayan timar sistem XVII əsrdən bəri əhəmiyyətini itirdi, XIX əsrin birinci rübündə tamamilə ləğv edildi. Bunun nəticəsində böyük torpaq sahibkarları gücləndi, xırda və orta feodallar isə müflisləşməyə başladı. Bu sistemin zəifləməsi orduya ciddi zərbə vurdu. Bunun əsas

səbəblərindən biri XVI əsrdə Avropada odlu silahların istifadəsinin artması oldu. Ordunun əsasını xırda və orta len sahibləri təşkil etdiyi üçün odlu silahdan istifadənin artması ilə atlı suvarilərin və sipahilərin rolu azaldı. Bu vəziyyət əvvəldən odlu silahlardan istifadə edən yeniçərilərin rolunu daha da artırdı. Yeniçərilərin maaşları birbaşa xəzinədən ödənilirdi. Yeniçəri korpusu xristian uşaqlarının toplanaraq müsəlmanlaşdırılması və təlim keçməsi ilə yaranırdı. Cənub slavyan ölkələrində bu proses XV əsrdən XVIII əsrə qədər davam edən "qan vergisi" adı ilə aparılırdı. Slavyan ailələrində sağlam, 8-18 yaşlarında uşaqlar götürülərək İstanbul (Konstantinapol), İzmir (Smirna) və Ədirnədəki ( Adrianapol) hərbi məktəblərə göndərilirdi, onlara islam dinini qəbul etdirirdilər. Burada onlar təlim aldıqdan sonra yeniçəri korpusunda xidmətə başlayırdılar. Bunun sayəsində sultan yeniçəri korpusunun sayını artırmışdı. Osmanlı mənbələrində bu siyasət "devşirme" adlanırdı və toplanan uşaqların bacarıqlarına görə: güclü və döyüşə uyğundursa yeniçəri, dövlət işlərinə uyğundursa saraya göndərilirdi. Cənub slavyan ölkələrindən, məsələn əslən serb olan Sokullu Mehmet paşa, Veli Mahmud paşa, bosniyalı Kuyucu Mehmet paşa Osmanlı tarixində mühüm yer tutmuş nüfuslu dövlət adamlarından idi.(Hacısalihoğlu, 2017:133)

Bosniya və Hersoqovinyada türklər fərqli siyasət yürüdürdülər. Burada yerli feodallara güzəştlər edilirdi. Bunun birinci səbəbi Bosniyanın Osmanlı imperiyasından kənarda, xristian əyalətləri ilə sərhəddə yerləşməsi idi. Osmanlı hakimiyyəti burada daha diqqətlə hərəkət edirdi. Digər bir səbəb isə Bosniya əhalisin (xüsusən də əyanların) əksəriyyətinin islam dinini könüllü qəbul etməsi idi. Onlar bu yolla öz adlarını və əmlaklarını qoruyurdular.(Симакова,2007:131)

Ümumiyətlə Osmanlı hakimiyyəti altında olan Cənubi slavyan ölkələrində əhalinin əksəriyyəti heç bir təzyiq altında qalmadan islamı qəbul edirdilər. Müsəlmanlara bir çox sahələrdə güzəştlər verilməsi bunun əsas səbəblərindən idi.

Osmanlı qeydlərində kəndlilərin dövlət xəzinəsinin xeyrinə ödəməli olduğu vergilər və mükəlləfiyyətlər qeyd olunmuşdu. Asılı kəndlilər və vergi verən bütün şəhər əhalisi ümumi adla rəiyyət adlanırdı. Dövlət kəndlilərindən fərqli olaraq sipahi torpaqlarında çalışan sahibkar kəndliləri dövlət vergilərindən əlavə sipahilərə vergi ödəməli və onların xeyrinə mükəlləfiyyətlər yerinə yetirməli idilər. Müsəlmanlar xristianlardan alınan bir çox vergi və mükəlləfiyyətlərdən azad idi. 15 yaşından 75 yaşına çatmış qeyri müsəlman kişilər pulla ödənən can vergisi ödəməli idilər. Bu həm də hərbi xidmətə getməmək üçün ödənilirdi. Hərbi xidmətə yalnız müsəlmanlar aparılırdı, xristianlara silah gəzdirmək qadağan edilmişdi.(Матвеев və b., 2001:51)

XVI əsrdə Osmanlı İmperatorluğunun Avropa ərazilərində pravoslav xristianlar çoxluq təşkil edirdi. Bu vəziyyət "millət" sisteminin tətbiq olunmasını zəruri etdi. Osmanlı İmperiyasında millət "əxlaqi və dini əsaslara söykənən, ancaq imperatorluq qanunlarına zidd olmayan iyerarxiq liderlərinin məsuliyyəti altında özünü idarə edən dini bir cəmiyyətdir." (Tanıl, 1994:120). Hər millətə məktəblər, xəstəxanalar, məhkəmələr, yataqxanalar, fondlar yaratmaq və istismar etmək hüququ verilmişdir ki, özlərini idarə edə bilsinlər və problemlərini həll etsinlər. Osmanlı imperiyasının "Millət sistemi" daxilində qeyri-müsəlmanlara geniş azadlıqlar və hüquqlar verdiyini görürük. Bir çox görkəmli tarixçilər də belə düşünürlər: "Həqiqətən, Osmanlı İmperiyası tarixdə Roma İmperiyasından sonra dini tolerantlığın ən çox görüldüyü və tolerantlığın hökmdarın zamanından və şəxsiyyətindən asılı olmayaraq institusallaşdırıldığı bir dövlət idi. Yalnız dini deyil, cəmiyyətlərin iqtisadi, məhkəmə və təhsil işləri də onların öhdəsinə buraxıldı, hətta ruhani liderlərə və qurumlara rütbə və imtiyazlar verildi. ( Kihtir, 2015:175) "Osmanlı İmperiyası misilsiz dini tolerantlıq səviyyəsində bənzərsiz idi. Katoliklərin və protestantların bir-birləri ilə savaşdığı və yəhudilərin bir xristian dövlətindən digərinə sürülsüyü dövrdə, sultanın təbəələri nisbətən az çatışmazlıqlarla istədikləri kimi ibadət etməkdə sərbəst idilər. " ( Stavrianos, 1958: 89) Bununla yanaşı, qeyri-müsəlmanlarla müsəlmanlar arasında tam bir bərabərliyin olmadığını da qeyd etməliyik.

Əhali baxımından ən böyük millət; serblərin, bolqarların və qaradağlıların da daxil olduğu "Rum Milləti" idi. Ancaq burada "Rum" sözü etnik olaraq "Yunanlar (Yunanlar)" deyil, "Xristian Pravoslav" mənasını verirdi. İndiki Bosniya və Herseqovina torpaqları fəth edildikdə, Osmanlı İmperiyası üç böyük etno-dini icma ilə qarşılaşdı: Pravoslav slavyanlar (Serblər), Katolik slavyanlar (Xorvatlar) və Xristian slavyan boqomillər. İndiki Sancak bölgəsində, əsasən iki Pravoslav Slav bir icma var idi: Serblər və Monteneqrolar. (Stavrianos, 1958: 235-236) Pravoslav və katoliklərin və kilsələrin böyük təzyiqinə məruz qalan Bosniya və Herseqovinanın və Bulqarıstanın boqomilləri Osmanlı hakimiyyəti altında müsəlman oldular. Boqomilizm və İslam arasında mövcud olan oxşarlıqlar (bir ruhaninin olmaması, "günah çıxarmanın" tətbiqinin olmaması, "təslis" inancının rədd edilməsi, tanrı ilə qul arasında bir vasitəçi qurumun olmaması və s.) boqomillərin islamı könüllü qəbul etməsini asanlaşdırdı və sürətləndirdi.

Boqomillərin İslamı qəbul etməsində təhlükəsizlik amili də rol oynadı. Boqomillər üçün "İslamlaşma" Osmanlı İmperiyasının himayəsində olmaq və bununla da katolik və pravoslav hücumlarından və zülmlərindən qurtulmaq demək idi. 1453-ci ildə xristian pravoslavlara millət statusu İstanbulun fəthi ilə verildi. II. Mehmet İstanbulu fəth etdikdə, Fener Rum Patriarxlığının başındakı Patriarxı vəzifəsindən azad etdi və yerinə qatı bir anti-Katolik Gennadius gətirdi. Rum Millətinin mərkəzi Fener Yunan Patriarxlığı idi və onun başçısı (millət başı) Fener Yunan Patriarxı oldu. Osmanlı İmperiyasındakı Rum (Pravoslav) Millətinin ilk patriarxı Gennadius, birbaşa II. Mehmet tərəfindən təyin edildi. Növbəti patriarxlar kahinlərdən və tanınmışlardan ibarət olan dini işlər heyəti tərəfindən seçildi. Seçilən patriarx sultan sertifikatı ilə təsdiqləndi. Patriarx bütün vergilərdən azad idi və vəzifəsindən kənarlaşdırıla bilməzdi. Patriarxın səlahiyyətləri dini sahə ilə məhdudlaşmırdı, vergi və mühakimə kimi bəzi dünyəvi sahələri əhatə edirdi: dini məsələlərin həlli, kilsə üzvlərinə nəzarət və intizam, kilsə mülkiyyətinin idarə edilməsi, vergi toplamaq, evlilik, boşanma və miras qaydaları, məhkəmə işləri ilə məşğul olmaq kimi... Buna görə patriarx, pravoslavlar və pravoslav din adamları üzərində bir "Rum valisi" kimiydi. Bu "Roma valisi" Osmanlı dövlətinin rəsmi məmuru olaraq qəbul edildi. Patriarx, bir dövlət məmuru olaraq, Pravoslav Milləti ilə dövlət rəhbərliyi arasında vasitəçilik edirdi. Patriarxın geniş səlahiyyətləri və funksiyaları istər-istəməz geniş patriarx bürokratiyasına səbəb oldu. Bu, Fener Rum Patriarxlığının Pravoslav subyektləri üzərindəki hökmranlığını və təsirini gücləndirdi. (Stavrianos; 1958; 104) Çar Simon (893-927) dövründə qurulan Bolqar Patriarxlığı və Çar Duşan (1308-1355) dövründə yüksələn Peç Serb Patriarxlığı, 1393 və 1459-cu illərdə fəthdən sonra ləğv edildi. Osmanlı İmperiyası bu iki ölkəni fəth etdi. Bolqar və Serbiya Pravoslavları 1453-cü ildən etibarən Fener Rum Patriarxlığı və Patriarxı altında yaşamağa başladılar. Sonrakı əsrlərdə Balkan Slavyanlarının dini mərkəzi müəyyən bir muxtariyyətə sahib olan və Bolqarıstan Patriarxlığının bir növ davamı olan Ohrid (Oxrid) Başyepiskoposluğu oldu. Ancaq muxtar bir statusa sahib olmasına baxmayaraq, Ohrid Baş i yepiskopu Fener Rum Patriarxlığına və Ohrid Baş yepiskopu Rum Patriarxına tabe idi. Zamanla, ən böyük ruhanilər (metropoliten və yepiskoplar) arasındakı Serbiya və Bolqar ruhanilərinin sayı Yunan ruhanilərinin lehinə azaldı. Dini ayinlərdə bolqar, serb dillərini yunan əvəz etdi. Beləliklə, "Yunanlaşma" Balkan Pravoslavları arasında yaşandı. Bu vəziyyət, Bolqar, Serbiya və Rumıniya din xadimlərini son dərəcə narahat edirdi. Serbiya Pravoslav ruhanilərinə və subyektlərinə məmnun etmək üçün 1557-ci ildə Peç (İpek) də Serbiya Patriarxlığı quruldu. Serbiya Patriarxlığı, Böyük Vəzir Sokollu'nun (Sokoloviç) Bosniyada anadan olmuş bir serb Mehmet Paşanın təklifi ilə Qanuni Süleyman tərəfindən qurulmuşdur. Peç Serb Patriarxlığının başçısı Sokollu Mehmed Paşanın rahib qardaşı təyin edildi. Serbiya Patriarxlığının Osmanlı Suverenliyi və Siyasi İrsinin Balkanlardakı nüfuzu Serbiya, Bosniya və Macarıstan bölgələrini əhatə edirdi. Balkan yarımadasının Osmanlı türkləri tərəfindən işğalı Bolqarıstan, Serbiya, Bosniya və digər slavyan ölkələrində kilsənin müstəqilliyinin itirilməsinə səbəb oldu. Fəthlərdən sonra provaslav əhali Fənər Rum patrikliyinə tabe edildi.

Osmanlı işğalları zamanı zərərçəkən şəhərlər XVI əsrdən başlyaraq tədricən özünə gəlməyə başladı. Türk feodal və məmurlarının, islamı qəbul edən slavyanların və Kiçik Asiyadan köçürülənlərin şəhərdə məskunlaşması şəhərlərin demoqrafik vəziyyətinin kəskin dəyişməsinə səbəb oldu. Sənətkarlıq və ticarətdə müsəlmanlara bir çox güzəştlər verilirdi. Buna görə də, şəhər əhalisinin əksəriyyəti islam dinini qəbul etmişdi. Şəhərlər daxilində dinə görə məhəllərlərə bölünürdü: xristian məhəlləsi, müsəlman məhəlləsi və s. (Симакова; 2007; s.35-38)

Şəhərlərin görünüşündə də nəzərəçarpacaq dərəcədə dəyişikliklər vardı. Xüsusəndə Sarayevo, Sofiya, Vidin kimi şəhərlərdə şərq üslübu daha çox hakim idi. Şəhərlər türk ordusunda əsas dayaq nöqtəsi idi. Orduya lazım olan təchizatlar burada hazırlanırdı. İstehsal və ticarətin mərkəzi türklərində əsas dayaq nöqtəsi olan şəhərlərdən biridə Dunay ətrafındakı Belqrad şəhəri idi. Eyni zamanda, Osmanlı hakimiyyəti altında olan ərazilərdə Avropa və Asiya ölkələri ilə sənətkarlıq istehsalı və ticarət əlaqələri də inkişaf edirdi. Beş əsrdən çox davam edən Osmanlı hakimiyyəti Balkanlarda siyasət, iqtisadiyyat, mədəniyyət və din sahələrində dərin izlər buraxdı. Osmanlı İmperiyası dövründə tikilən və əsrlər boyu sağ qalan məscidlər, mədrəsələr, saat qüllələri, hamamlar və körpülər Osmanlı hakimiyyəti mədəniyyətinin qoyduğu izlərin ən gözəl nümunələrindən biridir. Araşdırmalar Osmanlı İmperatorluğunun Balkanlarda 15.787 memarlıq quruluşu qurduğunu ortaya qoydu. Bu gün bu əsərlərin əksəriyyəti qalmamış və orijinal formasını qoruyan əsərlərin sayı çox azdır. Osmanlı memarlığının ilk dövrlərində ortaya çıxan bir anlayış olan "yerli ənənələrə açıqlıq" diqqət çəkir. Bu, fərqli coğrafi bölgələrdə tapılan türk memarlığının fərqli bir xüsusiyyətidir. Bu işəgötürənlər inşa etdikləri binaların inşasında, xarici, xristian və ya müsəlman memarlar, ustalar və

sənətkarlar işlədirlər. Nəticədə, bu praktikantların fərqli sənət üslubları mədəni bir qaynaşma əsəri olaraq bütün Balkan coğrafiyasına səpələnmişdir. Ekrem Hakkı Ayverdi, uzun araşdırmalar nəticəsində yayımlanan "Avropada Osmanlı Memarlığı" adlı əsərində Osmanlı İmperatorluğunun yalnız Balkanlarda 15.787 memarlıq quruluşu inşa etdiyini ortaya qoydu. Yalnız Bolqarıstanda Memarlıq əsərlərinin sayı 3399-dur. Osmanlı Dövləti Balkan torpaqlarındakı ənənələri ilə əlaqəli şəkildə sosial ehtiyaclarını ödəmək üçün karvansaralar, hamamlar və evlər tikərkən, iqtisadi ehtiyacları üçün örtülü körpülər və körpülər də tikdirirdilər. Osmanlı İmperatorluğunun Balkanlardakı ən əhəmiyyətli hərəkətlərindən biri də körpünün inşası idi. Osmanlı İmperatorluğunun Balkanlarda inşa etdiyi və on illərin əməyini daşıyan körpülər birlikdə yaşamaq mədəniyyətinin inkişafına əhəmiyyətli töhfələr verdi. Bu körpülər bu gün bir çox şəhərin simvoludur. Ayrıca ədəbi cəhətini nəzərə alsaq, roman, şeir və mahnılarla ictimai yaddaşa həkk olunmuş bir “Köprü ədəbiyyatı” bu şəkildə mövcud ola bilər. 1961-ci ildə Nobel Ədəbiyyat Mükafatına layiq görülən Ivo Andriçin bu mükafatı Sokullu Mehmet Paşanın inşa etdirdiyi Drina Köprüsü ilə eyni adda verilən romanına düşünməsi əlamətdardır. Sokullu Mehmet Paşa Körpüsü və ya Drina Körpüsü Memar Sinan tərəfindən 1577-ci ildə Drina Çayı üzərində Sokullu Mehmet Paşa adına inşa edilmiş 11 gözlü bir körpüdür. Körpü bu gün Bosniya-Herseqovinanın şərqindəki Vişeqraddadır və şimal-cənub istiqamətində Drina çayını keçir. 7 metrdən bir qədər artıq və uzunluğu 180 metrə yaxın olan Drina körpüsü böyük kəsikli daş bloklardan hazırlanıb. Xüsusilə 20-ci əsrin sonunda, Bosniya və Herseqovinadakı vətəndaş müharibəsi zamanı körpü ciddi şəkildə ziyan gördü.

**Nəticə**

Osmanlı İmperatorluğu əsrlər boyu cənub slavyan ölkələrində hakim olmuşdur. Osmanlı hökmranlığı müxtəlif sahələrə (siyasət, iqtisadiyyat, mədəniyyət, din, cəmiyyət və s.) dərin təsir göstərmişdi. Bu təsirlər, qaçılmaz olaraq müxtəlif sahələrdə fərqli səviyyələrdə mirasa çevrildi: siyasi, iqtisadi, mədəni, demoqrafik miraslar... Osmanlı İmperatorluğunun Balkanlardakı siyasi irsi müstəqillik qazandıqdan sonra Balkan ölkələrində siyasi qurumların formalaşmasında zəif olsa da, Balkan dövlətləri arasındakı sərhədlərin qurulmasında və Balkan Provaslav kilsələrinin nüfuzlarının qorunmasında bir o qədər güclü olmuşdur. Həmçinin Osmanlı İmperiyası, cənub slavyanı ölkələrində özünüidarə qabiliyyəti baxımından əhəmiyyətli bir dövlət ənənəsinin inkişafına böyük töhfə vermişdi.

## ƏDƏBİYYAT


**1. Bora Tanıl, Bosna-Hersek: Yeni Dünya Düzeni’nin av sahası. İstanbul, 1994 341s**

**2. Матвеев Г.Ф. И Ненашевой З.С. История южных и западных славян. Том 1. Средние века и новое время**

3.Mustafa Kemal Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi 2012 Cilt9 Sayı 18, İsa Kalaycı, Oktay Kızılkaya “Osmanlı devletinin iskan siyaseti ve yerleşim birimleri üzerine bir değerlendirme”

**4. Stavrıanos, L. S. The Balkans since 1453, New York, Holt, Rinehart and Winston 1958 222p**

**5.Симакова О.А. История южных славян древнеших времен до 1914 г Минск БГУ 2007; 164с**

6. TDV İslam Ansiklopedisi EK-1 cild İstanbul 2016

*7.Российская историческая энциклопедия. Т. 3. Москва., 2016*

***8.*Tuğrul Kihtir. “Balkanlar'ın Osmanlı Tarihi 1352-1913.İstanbul. İnkılap Yayınevi, 2015) 504s**

*9.Tarih dergisi sayı 66. Neriman Ersoy Hacısalihoğlu “ Bulgarıstan tarihi algısında ve tarih ders kitablarında devşirme sistemi ve yeniçerilik” İstanbul 2017*

10. https://tr.wikipedia.org/wiki/Rumeli_Eyaleti

11.https://tr.wikipedia.org/wiki/T%C4%B1mar_(arazi)

**12.http://historic.ru/books/item/f00/s00/z0000210/st027.shtml )**

# MÜASİR DÜNYADA İNSAN HÜQUQLARI

**Doktorant Fəridə MÖVSÜMOVA**[46]

**Xülasə**

İctimai münasibətlərin inkişafı ilə insan hüquqları tədricən ideal kateqoriyadan reallığa çevrildi, dövlət hüquqi və beynəlxalq hüquqi sənədlərdə təsbit olundu, konkret hüquq və dövlət quruluşu sisteminin demokratik mahiyyətinin meyarı kimi çıxış etdi. İnsan hüquqları fərdin təbii imkanlarıdır, onun həyatını, insan ləyaqətini və ictimai həyatın bütün sahələrində fəaliyyət azadlığını təmin edir. İnsan hüquqları təbii xarakter daşıyır və şəxsiyyətdən ayrılmazdır, qeyri-ərazi və qeyri-milli xarakter daşıyır, dövlətin qanunvericilik aktlarında təsbit olunmasından asılı olmayaraq mövcuddur, beynəlxalq hüquqi tənzimləmə və müdafiə obyektidir. Onlar insanı bəşər övladının nümayəndəsi kimi səciyyələndirir və bu mənada onun normal yaşaması üçün zəruri olan ən ümumi və eyni zamanda yalnız əsas (radikal) səlahiyyətlər kimi çıxış edir. Müəyyən bir dövlətin qanunvericilik aktlarında insan hüquqları təsbit olunduqda, onlar həm də bu dövlətin vətəndaşının hüquqlarına çevrilir.Əsas insan hüquq və azadlıqları - insanın və vətəndaşın əsas hüquq və azadlıqları beynəlxalq hüquqi aktlarda və konkret dövlətlərin konstitusiyalarında təsbit edilmişdir. Ümumi qəbul edilmiş meyar və təsnifatlardan biri də cəmiyyətin həyatının müəyyən maraq və ehtiyacların həyata keçirildiyi sahələrdir.

***Açar sözlər:*** *insan hüquqları, sosial münasibətlər, müasir ideologiyalar, hüquqi doktrina, cəmiyyətin mənəvi vəziyyəti.*

## Human Rights in the Modern World

**Summary**

With the development of social relations, human rights gradually turned from an ideal category into a reality, were fixed in state legal and international legal documents, acted as a criterion for the democratic nature of a particular system of legal and state structure. Human rights are the natural capabilities of the individual, ensuring his life, human dignity and freedom of action in all spheres of public life. Human rights are of a natural nature and inalienable from the individual, they non-territorial and non-national, exist regardless of the consolidation in legislative acts of the state, are the object of international legal regulation and protection. They characterize a person as a representative of the genus human and in this sense are the most general and at the same time only basic (radical) powers necessary for its normal existence. When human rights are established in the legislative acts of a certain state, they also become the rights of the citizen of this state. Basic human rights and freedoms - the basic rights and freedoms of a person and a citizen are established in international legal acts and the constitutions of specific states. One of the generally accepted criteria and classifications is the spheres of society's life in which certain interests and needs are realized.

*Keywords:human rights, social relations, modern ideologies, legal doctrine, the moral state of society.*

*JEL 341.2; 341.231.14*

İnsan hüquqları siyasətçilərin, ictimai xadimlərin, sosioloqların, filosofların və ictimai quruluşu və onun içindəki insanın yerini düşünən hər kəsin müraciət etdiyi ən ümumi kateqoriyalardan birinə çevrilib. Başqa sözlə, insan hüquqları kateqoriyası bütün sosial təbəqələrə nüfuz edib və sadəcə bir anlayış və ya siyasi prinsip olmaqdan çıxıb. Bu kateqoriyanın həddindən artıq yayılması və populyarlığı qaçılmaz idi və əslində onun çoxsaylı metamorfozalarının səbəbi idi. Bütün məşhur ideyaların taleyi belədir. Və ümumiyyətlə, insanların onları başa düşməyə və ya öz tərzlərində istifadə etməyə başlaması bu fikirlərin günahı deyil. Populyarlığına görə bir çox nəşrlər və versiyalar əldə edən, çox vaxt onun əsasında duran orijinal ideyalardan əhəmiyyətli dərəcədə yayınan insan hüquqları kateqoriyası ilə də məhz belə oldu. Fikrimcə və insan hüquqları kateqoriyasının tarixinə dair bir çox araşdırmalar bu fikri təsdiqləyir, bu kateqoriya doğulmasa da, heç olmasa İslamın özü ilə gətirdiyi yeni şəxsiyyətlərarası və ictimai münasibətlər modeli kontekstində özünü büruzə verirdi.

İslam köhnə insan obrazına daha bir mühüm yenilik gətirdi. Simasız insan kütləsini önə çıxaran, insan şəxsiyyətinin dəyərini göstərən də o idi. Beləliklə, İslam dini sayəsində insan antropoloji baxışlarda mərkəzi yer tutur. Buna görə də insan hüquqları nəzəriyyəsinin fərdi insan varlığının dəyəri, vicdan

[46] Azərbaycan Respublikasının Prezidenti yanında Dövlətİdarəçilik Akademiyası, movsumova.farida94@gmail.com

azadlığı, öz əqidəsi hüququ kimi fundamental cəhətləri nəinki İslam tərəfindən boğulmadı, əksinə, İslam sayəsində özünü aşkar dəyərlərə çevirdi.

Şübhəsiz ki, bu dəyərlərin yalnız İslam tərəfindən yaradıldığını sadələşdirmək yolverilməz olardı - biz onların fərdi elementlərinə antik dövrdə də rast gəlirik. Amma İslam qədim fəlsəfə və hüququn yalnız planlaşdırdığını gücləndirdi. Qeyd etmək istərdim ki, müasir insan hüquqları nəzəriyyələrinin təməlində yatan intuisiya İslam mənşəlidir və bu nəzəriyyələrin nə qızğın tərəfdarları, nə də daha az qızğın əleyhdarları tərəfindən çox vaxt diqqətdən kənarda qalmır. Bu gün insan haqlarından təkcə ideoloji münasibətləri aydınlaşdırmaq vasitəsi kimi deyil, həm də siyasi qarşıdurmada büdrəmə kimi istifadə olunur.

Bir ölkə insan hüquqlarını siyasi şüara çevirərək ondan istifadə edərək dünyada nüfuzunu yaymağa və gücləndirməyə çalışırdı, bu təsirə müqavimət göstərməyə çalışan başqa bir ölkə və ya ölkələr insan hüquqlarına hücum etməyə, onları az qala yad bir modelin elementi kimi rədd etməyə başladılar. Nəticədə bəziləri insan haqlarını fetişə, bəziləri isə cəhənnəmə çeviriblər. Məncə, biz bu və ya digər formada ictimai-siyasi sistemin müxtəlif ölkələrə sırımaq üçün istifadə olunan insan hüquqlarının şərhinə görə apoloq ola bilmərik. Bu, səhv olardı, çünki insan hüquqlarının özü artıq böyük ölçüdə mənadan məhrum olub, başqa məqsədlərə çatmaq üçün alətə çevrilib.

Digər tərəfdən, sadəcə olaraq, siyasi məqsədlərinə çatmaq üçün kimsə onlardan sui-istifadə etdiyini əsas gətirərək, insan hüquqlarını rədd etməməli, qiymətləndirməməliyik. İnsan şəxsiyyətinin və insan həyatının özünün əhəmiyyətini qiymətləndirməmək üçün tarixi tendensiyanın mövcud olduğu yerdə bunu etmək xüsusilə təhlükəlidir.

Müasir ideologiyaların elementi kimi insan hüquqlarına gəlincə, mən hesab edirəm ki, bu, bizim dövrümüzdə öz islami kimliyini böyük ölçüdə itirmiş xüsusi dünyagörüşü sahəsidir. Bizim vəzifəmiz bu nəzəriyyə ilə mübarizə aparmaq deyil, onun ilkin İslami xarakterini bərpa etməkdir. İnsan hüquqlarının hər hansı təsnifatı müəyyən dərəcədə şərtidir, çünki bəzi hüquqlar təxminən eyni səbəblərlə müxtəlif növlərə təsnif edilə bilər və hətta bir-birini əhatə edə bilər. İnsan və vətəndaş hüquq və azadlıqlarını əsas (təxribatsız), əsas (konstitusiya) və hamılıqla tanınan (beynəlxalq hüquqi sənədlərdə təsbit olunmuş) bölmək olar. İctimai münasibətlər sferasının əsas təzahürləri haqqında hüquqi doktrinada insan hüquqları adətən şəxsi, siyasi, sosial-iqtisadi və mədəni hüquqlara bölünsə də, bu bölgü həm də əsasən simvolik xarakter daşıyır. Onların bəziləri üçün yalnız insan hüquqları ilə vətəndaş hüquqlarını ayırd etmək vacibdir.

Şəxsi hüquqlar hər bir insanın hüququdur və onlar çox vaxt vətəndaş hüquqları adlandırılsa da, onlar birbaşa vətəndaşlıqla əlaqəli deyil və ya ondan irəli gəlmir. Onlar milliyyətindən, cinsindən, yaşından, irqindən, etnik mənsubiyyətindən və dinindən asılı olmayaraq hər kəs üçün təbii və ayrılmaz hesab olunur. İnsan həyatının, ləyaqətinin və azadlığının qorunması üçün zəruridir. Vətəndaşların hüquq və qanuni mənafelərinə etinasız yanaşma cəmiyyətin sosial-psixoloji və mənəvi durumuna son dərəcə mənfi təsir göstərir, əhalidə hakimiyyətə və onun məmurlarına inamsızlıq yaradır, əlverişsiz hüquqi vəziyyət yaradır. **(Əliyev, 2009:18)**

Bərabərsizliklərin aradan qaldırılması ən aydın milli məqsədlərdən birinə və fərdi və ailə təhlükəsizliyinin gücləndirilməsində əsas amil ola bilər. İnsan hüquq və azadlıqları çox böyük ümumbəşəri dəyərə malikdir. İnsan hüquqlarına hörmət xalqlar arasında etimadın möhkəmlənməsinə töhfə verir, müxtəlif insan təmasları və əməkdaşlığı üçün əlverişli atmosfer yaradır, beynəlxalq münasibətlərə mənəvi miqyas verir.

Müəyyən bir dövlətin qanunvericilik aktlarında insan hüquqları təsbit olunduqda, onlar həm də bu dövlətin vətəndaşının hüquqlarına çevrilir.Əsas insan hüquq və azadlıqları - insanın və vətəndaşın əsas hüquq və azadlıqları beynəlxalq hüquqi aktlarda və konkret dövlətlərin konstitusiyalarında təsbit edilmişdir. Ümumi qəbul edilmiş meyar və təsnifatlardan biri də cəmiyyətin həyatının müəyyən maraq və ehtiyacların həyata keçirildiyi sahələrdir**. (Əliyev, 2008: 261)**

Çox vaxt elmdə ən ümumi sistemləşdirmə nə zaman istifadə olunur əsasların öyrənilməsi, yəni. konstitusiya hüquqları. Orijinaldan kənar insan hüquqları ilə vətəndaş hüquqlarının ümumən tanınmış ayrılması təklif edilir sistemləşdirmənin digər növləri. İnsan Hüquqları üzrə Beynəlxalq Pakt 1966 əsas hüquqları təsbit edən iki sənəddən (paktlardan) ibarətdir, Paktın qəbulundan əvvəl dövlətlərin bəzi konstitusiyalarında yer alan və sonra ona uyğun olaraq digər ölkələrə daxil edilir. Birinci sənəd həsr olunub "mülki və siyasi" hüquqlar. ilə bağlı hüquqları birləşdirir şəxsiyyət kimi (məsələn, şəxsiyyətin toxunulmazlığı, azadlıq hərəkat) və vətəndaşın dövlət üzvü kimi siyasi hüquqları mütəşəkkil siyasi icma (birləşmə azadlığı, səsvermə hüququ və s.), ikincisi isə "iqtisadi, sosial və mədəni" hüquqlar (işləmək, təhsil almaq hüququ və s.). **(Berejnov, 2019: 124)**

İnsan hüquqları şəxsin dövlət və digər hakimiyyət nümayəndələri ilə münasibətlərində ləyaqətini qoruyan əxlaqi və hüquqi normaların məcmusudur. İnsan hüquqları dövlətlə münasibətdə hər bir şəxsə məxsus olan fundamental xarakterli ümumbəşəri mənəvi hüquqlardır. İnsan hüquqları insan ləyaqətini və fərdi azadlığı dövlət qurumlarının və onların nümayəndələrinin özbaşınalığından qorumaq üçün nəzərdə tutulmuş əxlaqi və hüquqi normaların məcmusudur.

İnsan hüquqları hüquq, əxlaq, ideologiya, siyasət və din elementlərini özündə birləşdirən, insan və hökumət, vətəndaş və dövlət münasibətlərində insan ləyaqətini qorumaq üçün nəzərdə tutulmuş bir növ humanitar nəzəriyyə və praktikadır.

İnsan hüquqları yalnız insan və hakimiyyət münasibətlərinə aiddir və insanı hakimiyyətin özbaşınalığından qorumaq üçün nəzərdə tutulub. İnsan hüquqlarının mərkəzi anlayışı insan ləyaqətidir və insan hüquqlarının müdafiəsi məhz budur. **(Korelski, 2014: 46)**

İnsan ləyaqəti bütün insanlara eyni dərəcədə xasdır və ləyaqətdən, sosial statusdan, inancdan, milliyyətdən və s. Anlamaq lazımdır ki, yeni doğulmuş körpə də, qatı cinayətkar da, adi vətəndaş da, respublika prezidenti də eyni dərəcədə insan ləyaqətinə malikdir. Bu o deməkdir ki, heç kəsə işgəncə verilə, əsarət altına alına, özbaşına söz azadlığından məhrum edilə, şəxsi həyata müdaxilə edilə bilməz, yəni. insan ləyaqətini alçaltmaq. İnsan hüquqları adətən qanunlarda təsbit olunmuş mənəvi hüquqlardır.

İnsan hüquqları:

universal - bütün hallarda bütün insanlara aiddir;

təbii - yalnız insan olduqları üçün anadangəlmə insanlara aiddir;

ayrılmaz - bu hüquqlardan özbaşına məhrum edilə bilməz.

İnsan hüquqları yalnız qanunla və yalnız cəmiyyətin təhlükəsizliyini təmin etmək, mənəviyyatını, sağlamlığını və başqa insanların hüquqlarını qorumaq üçün lazım olan həddə məhdudlaşdırıla bilər. Mütləq ayrılmaz hüquqlar var: işgəncədən, qəddar və ləyaqəti alçaldan rəftar və cəzadan azad olmaq, köləlikdən azad olmaq, inanc azadlığı, Avropada da yaşamaq hüququ.

Hüquqi dövlət quruculuğu şəraitində insan hüquqlarının öyrənilməsi, onlara ciddi riayət edilməsi və inkişaf etdirilməsi, şəxsiyyətin və dövlətin maraqlarının daha da yaxınlaşması xüsusi əhəmiyyət kəsb edir.

İqtisadi, sosial və mədəni hüquq və azadlıqlar insan həyatı üçün vacibdir. Bu hüquqlar qrupu öz məcmusunda insanın iqtisadi, sosial və mədəni sferalarda azadlığını təmin edir və ona həyati ehtiyaclarını müdafiə etmək imkanı verir.

İnsan hüquqları insan şəxsiyyətinin və insan varlığının ayrılmaz elementidir. Bütün insanların bərabərliyi ideyalarına erkən xristianlıqda rast gəlmək olar. Qeyd etmək lazımdır ki, qədim Yunanıstanda və Roma dövlətində sinfi cəmiyyətdə qanunvericilikdə fəlsəfi fikirlər adekvat şəkildə əksini tapmamışdır. İnsanların bərabərliyi, doğulduğu gündən onlara bəxş edilmiş yaşamaq, azadlıq və təhlükəsizlik kimi hüquqların ayrılmazlığı haqqında fikirləri burjua inqilabları və burjua dövlətinin formalaşması dövrünün konstitusiya və digər qanunvericilik aktlarında öz əksini tapmışdır. dövlətlər. **(Grevtsov, 2018: 6)**

BMT Nizamnaməsi dövlətlərin üzərinə "BMT ilə əməkdaşlıqda insan hüquq və azadlıqlarına ümumbəşəri hörmət və riayət olunmasını təşviq etmək" vəzifələri qoyur. Hüquq və azadlıqların vahid sənəddə təsbit edilməsi insan hüquqları sahəsində təhsilə və təhsilə şərait yaradacaq, bununla da onlara hörmətlə yanaşılmasına, onların "ümumbəşəri və səmərəli şəkildə tanınması və həyata keçirilməsi" üçün milli və beynəlxalq tədbirlərin qəbul edilməsinə töhfə verəcək.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2016.
2. Əliyev Ə.İ. İnsan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi. Bakı: Bakı Avrasiya hüquqşünaslar Assosiasiyası, 2009, 4909.
3. Əliyev Ş.İ. İnsan hüquqları sistemində sosial hüquqlar. Bakı: BDU, 2008, 368 s
4. Berejnov G.A. Siyasət və insan hüquqları. - Omsk, 2019.
5. Korelski V.M. Hökumət və Hüquqlar nəzəriyyəsi. - M.: NORMA-İNFRAM, 2014.
6. Grevtsov Y.I. Hüquq nəzəriyyəsi və sosiologiyası üzrə esselər. Sankt-Peterburq, 2018.

## MÜHARİBƏDƏN ZƏRƏR ÇƏKƏN ŞƏXSLƏRİN EMOSİONAL VƏ PSİXİ SAĞLAMLIĞI

**Doktorant Günay AĞAYEVA**[47]

**Xülasə**

Tədqiqatda müharibənin insanların psixi və emosional sağlamlığına nə dərəcədə müsbət və mənfi təsirləri araşdırılır.Burada qeyd olunur ki,müharibə,ölüm,çətin hislər yaşamaq,yaxınlarını itirmək qorxusu,müharibə ilə bağlı xəbərlərin daima içində olmaq,yaralanma,xəstəlik,aclıq insanlarda fiziki və psixoloji problemlərin ortaya çıxmasına səbəb olur və zamanla bu insan sağlamlığına bərpa olunmaz və çətin travmatik izlər qoyur.Cəmiyyətin hər bir üzvünün emosional və psixi sağlamlığı ümumən cəmiyyət haqqında müəyyən qənaətə gəlməyə imkan verir. Cəmiyyətdə baş verən proseslərin proqnozlaşdırılması,sosial sabitliyin mühüm şərti onun hər bir üzvünün emosional və psixi sağlamlığından asılıdır.İnsanın psixi durumu,onun davranışlarının tənzimlənməsi,eyni zamanda sosial və bioloji amillərin təsiri ilə xarakterinin düzgün formalaşması psixi sağlamlıq ilə xarakterizə olunur. Psixi sağlamlıq insanın özünə və ətrafdakı insanlara olan münasibətində,ümumilikdə bütün həyatı boyu müxtəlif hadisələrə,sosial və iqtisadi çətinliklərə qarşı münasibətində özünü biruzə verir. Psixi sağlamlıq tək psixi pozuntuların olmaması demək deyil.Belə pozuntuları olmayan bir çox insanlarında psixi problemləri var. Psixi sağlamlıq insanın öz qabiliyyətlərini reallaşdıra bildiyi,adi həyat streslərinin öhdəsindən gəldiyi əmin-amanlıq vəziyyətidir.Bu mənada psixi sağlamlıq həm insanın firavanlığının,həm də cəmiyyətin effektiv fəaliyyətinin əsasıdır.

***Açar sözlər:*** *psixi və emosional sağlamlıq, sağlam şəxsiyyət, müsbət və mənfi emosiyalar*

### Emotional And Mental Health of War-Damaged Persons

**Summary**

The study examines the positive and negative effects of war on people's mental and emotional health. It is noted here that in life, war, death, experiencing difficult feelings, fear of losing loved ones, being constantly in the news about war, injury, illness, hunger cause the appearance of physical and psychological problems in people, and over time this causes irreparable and difficult traumatic effects on human health. leaves traces. The emotional and mental health of each member of society allows us to draw certain conclusions about society as a whole. Predicting the processes taking place in society, an important condition of social stability depends on the emotional and mental health of each of its members. Mental health is characterized by the mental state of a person, the regulation of his behavior, as well as the correct formation of his character under the influence of social and biological factors. Mental health manifests itself in a person's attitude towards himself and the people around him, in general, in his attitude towards various events, social and economic difficulties throughout his life. Mental health does not mean the absence of mental disorders alone. Many people without such disorders also have mental problems. Mental health is a state of peace in which a person can realize his abilities and cope with the stresses of ordinary life. In this sense, mental health is the basis of both human well-being and the effective functioning of society.

***Keywords:*** *mental and emotional health, healthy personality, positive and negative emotions*

*UOT: 159*

### Giriş

Sağlamlıq insan həyatı üçün ən böyük və dəyərli sərvətlərdən biri hesab olunur. Sağlamlığın əsasını isə insanın ruhi,emosional və psixoloji sağlamlığı təşkil edir.Fransız dilində həyəcan mənasını verən emosiya gündəlik həyatımızda rast gəldiyimiz bir amil olaraq,həyat tərzimizə öz təsirini göstərir. Qəzetdən, radiodan, televiziyadan, eləcə də digər informasiya mənbələrindən alınan məlumatlar insanda həm mənfi, həm də müsbət emosiyalar yaradır. Həyatımızı bunlarsız təsəvvür etmək olmaz. Müsbət emosiyalar sağlamlıq üçün faydalı, mənfi emosiyalar isə təhlükəlidir.Müsbət emosiyalar qələbə, sevinc, şad xəbər, uğur və s. kimi hadisələr nəticəsində yaranır. Yəqin ki, hər birimiz üçün sakit, rahat və estetik zövqü oxşayan bir mühit olduqca vacibdir. Mebelin üzərindəki naxışlar, xüsusi zövqlə açılmış süfrə, maraqlı bədii əsər, konsert, klassik bir musiqi, insanı nağıllar aləminə aparan bir film, həyətdə yağan qar əhval-ruhiyyəni yaxşılaşdırır, müsbət emosiyaların yaranmasına səbəb olur.Mənfi emosiyalar orqanizmin fəaliyyətinə zərərli təsir göstərir. Belə emosiyalar bəd xəbər, qorxu, uğursuzluq, münaqişə, ümidsizlik və digər hallarda yaranır. Bu zaman yaranan ruh düşkünlüyü, həyəcan, əsəb gərginliyi, taqətsizlik gələcəkdə müxtəlif xəstəliklərə səbəb ola bilər. Sağlamlıq üçün mənfi emosiyalardan uzaq olmaq olduqca vacibdir.Bəzən həm mənfi, həm də müsbət emosiyalar stressə səbəb ola bilir. Psixoloqların fikrincə stresin əsasını çox vaxt onu

[47]Azərbaycan Əmək və Soisal Münasibətlər Akademiyası

doğuran hadisəyə münasibət təşkil edir.(Bayramov,2003:102).Təhlükənin obyektivliyinin necəliyi o qədər vacib deyil, başlıcası, onun necə qiymətləndirilməsidir. Ziqmund Freyd apardığı tədqiqatlara əsasən qeyd etmişdir ki,"sevmək və çalışmaq " sağlam ruhun təməl xüsusiyyətləridir. Məhz bizimdə bu haqq ədalət yolunda sevgimiz torpaq,çalışmağımızın məqsədi isə onu bütöv görmək arzusu idi. İnsan bir şeyi həyatda qəlbən sevi,diləyirsə onun öhdəsindən gəlməməsi mümkünsüzdür, gec və ya tez öz arzusuna çatacaqdır. Bu həyatda müharibə, ölüm, çətin hissləri yaşamaq,yaxınlarının yaşantılarını eşitmək, yaxınlarını itirmək, müharibə ilə bağlı xəbərlərin daima içində olmaq , yaralanma, xəstəlik, aclıq, itki,qorxu insanlarda fiziki və psixoloji problemlərin ortaya çıxmasına səbəb olur ki,zamanla bu insan sağlamlığına bərpa olunmaz və çətin travmatik izlər qoyur.

İnsanın yaradılışı onun vətəni ilə başlayır.Zamanla ailə və təlim tədris,ətraf mühitin əsasında torpağımıza,vətənimizə bağlılıq formalaşaraq qəlbimizin,ruhumuzun əsas sevgisinə çevrilir. Çünki bir insanın mənəvi dəyərlərinə,milli kimliyinə olan hörməti ailəsinə,böyüklərinə olan dəyəri ilk olaraq onun vətəni və torpağına olan sevgisindən başlayır. Vicdanı məsuliyyət kimi, müqəddəs olan vətən torpağını lazım gələrsə canın bahasına belə olursa olsun qorumaqdan çəkinməmək isə bu yolda bir ürək,şücaət,qəhrəmanlıq istəyir. Müharibə bizə illərin sevincini yaşatsada,xain düşmənin hiylə dolu planları qəhrəmanlarımıza, itki ilə üz-üzə qalan şəhid ailələrinə,xalqımıza sağlamlığın əsas sütununu təşkil edən ruhi, psixi və emosional halına təsirsiz ötüşmədi. Müharibə itki,göz yaşı və zorakılıq olaraq insanın bu gününə deyil, eyni zamanda gələcəyinədə ziyansız,təsirsiz ötüşməyən ən ağır bir travlamalardan hesab olunur. Bu çətinliyin uzaqdan şahidi olmaq bir başqadır,lakin onu yaşayaraq şahidi olan insanların keçirdiyi o mənəvi, emosional halları, travmaları yalnız yaşayanlar,onların acılarını duyanlar bilər. Bu dönəm ərzində hər an pis bir xəbər almaq qorxusu əsasən güvən hissini zədələyir və insanın təşviş,obsessiv kompulsiv pozuntu, depressiya, asılılıq, həyəcan pozuntusu yaşamağına səbəb olur. Əgər bu problemlərin dərinliklərinə varmış olsaq,o zaman bir müharibənin bizə ziyanlı tərəflərinin nə dərəcə yüksək olduğunu anlamış olarıq. Həssas kateqoriyadan olan qruplar var ki, məsələn yaşlılar, uşaqlar,qadınlar və psixi narahatlığı olan insanların sağlamlığı üçün müharibənin riskli təsirləri daha yüksəkdir. Bu riskli təsirlər gələcəkdə sağlam nəslin formalaşmasına mane olaraq,şiddət davranışlarının artması və insani dəyərlərin itirilməsinə gətirib çıxara bilər. Qarabağ zəfəri və bu ağır savaşda döyüş meydanında soyuq bilmədən əzmlə əli silahlı qəhramanlarımızla bərabər narahatçılıq, stress,travmatik hallarla üz-üzə qalan,sözlərlə ifadə olunmayacaq dərəcədə gərginlik yaşayan analar,bacılar,doğmalar və övladlar oldu.Qadınlar müharibə, terror hadisələri və cəmiyyətdə narahatlıq yaradan buna bənzər bütün mənfi situasiyalardan kişilərlə müqayisədə daha çox təsirlənirlər. Müharibə bitdikdən sonra isə çətin psixoloji vəziyyət şəhid ailələrinin bu itkini qəbul etməsidir. Şəhid ailələrinin üzvlərində fəsadlaşmış hüzn reaksiyaları baş verir. Onlar hüznün şok və inkar, güclü emosiyalar, depressiya və itkinin qəbul edilməsi mərhələlərini yaşayırlar. Şəhid ailələrinin üzvlərində itkinin qayıtmayacağının dərk olunması çıxılmazlıq, emosional boşluq, kəskin tənhalıq hissləri doğurur. Ana olaraq övlad itkisi,həyat yoldaşı olaraq bir ömür gün yoldaşı itkisi,qız olaraq bir ata itkisi bir xanım üçün olduqca çətin bir hissdir. Artıq qadının ailədə ,cəmiyyətdə, uşaqlarının həyatında məsuliyyət və öhdəlikləri iki qat artır.Bir göz qırpımında ailədə olan dəyişim,itki və uşaqlara bu durumların izahı olduqca çətin prosesdir.Qadınlara nisbətdə kişilər emosional reaksiyalarını daha yaxşı nəzarət altında saxlaya bilir.Bununla əlaqədar olaraq məhz kişilər müharibə zamanı mübarizəni daha güclü formada yaşanılan hər emosional,psixoloji gərginliyə baxmayaraq idarə edə bilirlər. Bunun əsas səbəbi kişilərin uşaqlıqda möhkəm struktur əsasında böyüməsi ilə bağlıdır. Cəmiyyət daxilində evini, həyat yoldaşını və ailəsini qoruyan, lazım olanda vətəni üçün canını verəcək bir gücə sahib olurlar. Müharibə zamanı kişilərin ən həssas cəhətlərindən biri onların emosiyalarını gizlətməsi ilə öz psixoloji,ruh halını sağlam formada əlində saxlamasıdır. Lakin bu o demək deyil ki,müharibə kişilərə ziyansız ötüşür.Müharibədə iştirak edən kişilərdə müharibə sindromu adı verilən və posttravmatik stress pozuntusuna səbəb olan psixoloji narahatlıq müşahidə olunur.( İsmayılov,2008:87)

Posttravmatik stress pozuntusu diaqnozu təyin edilmiş hərbçilərə və əsgərlərə həm klinik psixoloqlar tərəfindən, həm də psixiatrlar tərəfindən müxtəlif yardım növləri və dərman müalicəsi təyin olunur. Psixoloji yardımın növü və dərman müalicəsi psixi problemin ağırlıq dərəcəsinə əsasən təklif edilir. Bu özünü həm psixoloji, həm davranış dəyişikliyində göstərir. Psixoloji baxımdan başqasını günahlandırma, düşüncənin pozulması, çaşqınlıq, yüksək oyanıqlıq, ağla gələn neqativ və xoşagəlməyən fikirlər, yaddaş problemləri, diqqətin zəifləməsi, kabuslu yuxular, qərar qəbul etmədə çətinlik, davranış dəyişikliyi isə alkoqoldan istifadənin çoxalması, antisosial hərəkətlər, aktivliyin dəyişməsi, ünsiyyətdə dəyişiklik, nitqin dəyişməsi, güclü affektlər, iştahanın dəyişməsi, yerişin dəyişməsi, intensivləşmiş ritual hərəkətlər,

şübhəlilik ,sosial təcrid olunma və s. misal göstərmək olar.Müharibədən ən çox zərər görən digər bir qrup uşaqlardır. Müharibədən zərər görmüş uşaqlarda əsəb, kəkələmək,yuxu pozğunluğu, iştah pozğunluğu, inkişaf geriliyi, kabus görmə, günahkarlıq duyğusu, özünə qapılma, qaranlıqdan və ya xəyali varlıqlardan qorxma, səbəbsiz ağlama, ağrılar, səslərə qarşı həddindən artıq həssaslıq, məktəbə getməyi və dərs öyrənməyi rədd etmə, yoldaşları ilə əlaqələrdə pozulmalar müşahidə olunur. Yeniyetmələrdə isə asosial davranışlar artır və özünə güvən duyğusu azalır. Gələcəyə aid plan qura bilmirlər. Uşaqlar xüsusilə bu dövrdə nə baş verdiyini anlamadıqları üçün daha çox təsirlənirlər. Bütövlükdə güvən hissi zədələndiyi üçün uşaqların mümkün qədər bu xəbərlərə az məruz qalması, qorxuducu və yaşlarına uyğun olmayan şəkil və videoların göstərilməməsi, gördükləri vaxt isə ən azından mütləq hisslərini ifadə etmələrinə icazə verilməsi gərəklidir. Bir çox ailələrdə valideynlər bu dönəmdə gərgin olurlar.Çalışmaq lazımdır ki, bu gərginlik uşaqlara hiss olundurmasın. Bu halda nə qədər çətin belə olsa,uşaqlar sual verdiyi halda uşaqlara cavab verilməli, səmimi formada yaşa uyğun izahlar verilməlidir. Bunun üçün uşağın müharibə ilə bağlı düşüncələrini ilk öncə dinləmək, xətalı olanları düzəltmək və sonda təhlükədə olmadığını və onu qoruduğunuzu bildirmək faydalı olar. Əgər uşaq bu haqda danışmaq istəmirsə onu məcbur etmək və ya informasiya ilə yükləmək yerinə, istədiyi vaxt danışa biləcəyini bildirməyiniz yetərlidir. Müharibə uşaqların psixologiyasında ciddi travma izləri qoyur.

Psixoloqların tədqiqalarına əsasən qorunma instinki bu tip uşaqlarda çox olduğu üçün kriminal aləmə bağlılıq onlarda daha çox özünü biruzə verir.(Никифоров, 2002:56) Ona görə də hər bir mütəxəssis bilməlidir ki,digər uşaqlarla müqayisədə bu uşaqlarla işləmək peşakarlıq tələb edir. Valideynini itirmiş uşaqlarda yaş terapiyası və psixosomatik terapiyalar tətbiq olunur. Daha sonra normal uşaqlara tətbiq olunan artterapiya edilir ki, şüuraltı təmizlənə bilsin. İlk 6 ay ərzində həmin uşaqlar psixoloji dəstək alarlarsa, keçirdikləri travmanı atlada bilərlər. Bizim üçün daha həssas olan kateqoriyalardan biri silahı ürəyi ilə tutmağı bacaran şəhidlərimizin övladlarıdır. Heç bir Azərbaycan vətəndaşı unutmamalıdır ki,bu gün torpaqlarımızın bütövlüyünü şəhidlərimizə borcluyuq. Yardımın əsas istiqamətlərindən birini də psixoloji dəstək təşkil edir. Hərbiçilərə, əsgərlərə, onların ailələrinə və müharibədən xəsarət almış vətəndaşlara psixoloji problemlərin xüsusiyyətlərindən asılı olaraq psixoloji yardım müxtəlif müddətlərdə göstərilir. Müddətindən asılı olaraq şəxslərə təcili, qısamüddətli və uzunmüddətli psixoloji yardım növləri göstərilir. Təcili psixoloji yardım – böhran vəziyyəti, neqativ psixoloji gərginliyin aradan qaldırılmasına istiqamətlənmiş ilkin psixoloji yardımın təxirəsalınmadan göstərilməsidir. Qısamüddətli psixoloji yardım psixoloji yardım alan şəxsin fərdi xüsusiyyətləri nəzərə alınmaqla 3 ay müddətində ardıcıl şəkildə həyata keçirilir. Uzunmüddətli psixoloji yardım 12 məşğələdən çox müddət tələb edən psixoloji yardımın, o cümlədən psixoterapiya və ya psixoloji reabilitasiyanın həyata keçirilməsidir. Hər bir sosioloq və psixoloqun bu gün əsas vəzifəsidir ki, heç bir təmanna güdmədən belə istər TV-lərdə, istərsə də hər hansı toplantı zallarında bu mövzularda seminarlar,təlimlər,qrup terapiyaları verməli, insanlarda dözümlülüyü aşılamalı,onlara travmatik problemlərin öhdəsindən gəlmək yollarını öyrətməli,müharibə iştirakçılarının işə düzəlməsi ilə bağlı təlimlər verilməsində yaxından iştirak etsin. Əgər psixoloji yardımla psixoprafilaktika işini düzgün təşkil etsək, konkret psixoloji yardıma ehtiyacı olan vətəndaşların sayı bir o qədər azalar. Ona görə də bu gün görə biləcəyimiz vacib məqamlardan biri psixoloji maariflənmə və psixoprafilaktikaya daha geniş yer ayrılmasına şərait yaratmaqdır.

**Nəticə**

Mübarizəmizin qəhrəmanlarının yeni mühitə alışması,yaşananların unudulması,yenidən irəlləmək yolunda mütləq qabaqlayıcı tədbirlər görülməlidir. Sağlam ruh sağlam bədən formalaşdırır. Sağlam ruhun formalaşmasının əsasında bir sıra mühüm faktlar dayanır.Psixoloji nöqteyi nəzərdəm insanlar həm müsbət, həm də mənfi emosiyalara məruz qalırlar.Onlardan hansının bir şəxsdə üstünlük təşkil etməsi daha çox insanın həyat tərzindən, mühitindən və həyata münasibətindən asılıdır.Unutmaq olmaz ki, sağlam bir nəsil yetişdirə bilmək üçün həm müharibəylə qarşılaşan fərdlərimizə, həm də bilavasitə müharibədən təsirlənən hər kəsə, nizamlı bir şəkildə, psixososial dəstəklərin zamanında verilməsi mütləqdir. Çünki yaşananları, sarsıntı yaradacaq hadisələri qısa zaman ərzində atlatmaq, qavramaq asan bir şey deyil.

## ƏDƏBİYYAT

1.Bayramov Ə.S. Əlizadə Ə.Ə. Psixologiya. Bakı: 2003
2.İsmayılov N.V.,İsmayılov F.N. Tibbi psixologiya və psixoterapiya (dərslik) 2-ci nəşr, Bakı, 2008
3.Никифоров Г.С. Психология здоровья: Учебное пособие. – СПб., 2002.

# ƏLİLLİKLƏ BAĞLI HƏYATA KEÇİRİLƏN SOSİAL SİYASƏTLƏR

**i.f.d. Jalə ƏLİYEVA**[48]


## Xülasə

Əlillik insanlığın var olması ilə bərabər mövcud olsada, fərqli zamanlarda əlilliyi olan insanlara münasibət fərqli olub. Əlillərin şəxsi və sosial aspektdən bir çox problemləri var. Müasir dövrümüzdə əlilliyi olan insanların hüquqları tanınsada, onların sosial rifahının yaxşılaşdırılması ilə bağlı tədbirlər görülsədə, yetərli deyil. Əlilliyi olan şəxslər hər bir cəmiyyətdə ən təcrid olunan şəxslər olaraq qalmaqdadır.

Məqalədə əlilliyi olan şəxslərlə bağlı həyata keçirilən sosial siyasətlərin inkişaf dinamikasından, o cümlədən qədim dövrlərdə, orta əsrlərdə məhdud sağlamlıq imkanlarına malik olan insanlara qarşı dözümsüzlük və aqressiv münasibətlərdən bəhs edilir. Əlilliyin tibbi və sosial modellərindən söhbət açılır. Qeyd edilir ki, sosial modeldə cəmiyyətdə əlilliyi olan şəxslərin qarşılaşdıqları maneələrin aradan qaldırılmasına, ayrı-seçkiliyin aradan qaldırılmasına diqqət yetirilsə də onlara yanaşmada sağlamlıq vəziyyəti amilləri ilə yanaşı həm də ətraf mühit amilləri nəzərə alınmalı, daha balanslaşdırılmış yanaşmaya üstünlük verilməlidir. Məqalədə həmçinin, müxtəlif beynəlxalq təşkilatların o cümlədən, Birləşmiş Millətlər Təşkilatının, Ümumdünya Səhiyyə Təşkilatının, Avropa İttifaqının əlillyi olan şəxlərlə bağlı həyata keçirdikləri sosial siyasətlərdən, qəbul etdikləri sənədlərdən və onların əlilliyi olan insanlar üçün sağlamlıq, rifah və insan hüquqlarına nail olunması istiqamətində əhəmiyyətindən söhbət açılır.


***Açar sözlər:*** *əlilliyi olan şəxslər, sosial siyasət, tibbi və sosial model, Avropa Birliyi, BMT*

**Socıal Polıcıes Related To Dısabılıty**


## Summary

Although disability has existed since humanity existed, people with disabilities have been treated differently at different times. Disabled people have many personal and social problems. In the modern age, even if the rights of the disabled are recognized and measures are taken to improve their social welfare, this is not enough. Disabled people continue to be the most isolated people in any society.

The article talks about the dynamics of development of social policies implemented in relation to the disabled, including intolerance and aggressive attitudes towards people with limited health opportunities in ancient times and the Middle Ages. Medical and social models of disability are discussed. Although care is taken to eliminate the barriers and discrimination faced by the disabled in society in the social model, a more balanced approach should be preferred in which environmental factors should be taken into account as well as health factors in approaching them. The article also mentions the social policies implemented by various international organizations such as the United Nations, the World Health Organization and the European Union and the documents they have adopted regarding the disabled and their importance in ensuring health. human rights for people with disabilities.


***Keywords:*** *persons with disabilities, social policy, medical and social model, European Union, UN*

*UOT: 316*

## Giriş

Cəmiyyətdə elə qrup insanlar var ki, onlara münasibət daha böyük diqqət və həssaslıq tələb edir. Bunlardan biri daim sosial və mənəvi qayğıya ehtiyacı olan əlillərdir. “Dünya əhalisinin təxminən 15%-i, yəni bir milyarddan çox insan əlilliklə yaşayır. Bu insanların 2-3%-i (təxminən 200 milyon) öz funksiyalarını yerinə yetirməkdə ciddi çətinliklər yaşayır” (Ümumdünya Səhiyyə Təşkilatı). Əlilliyi olan şəxslərin baxıma möhtac olmalarını və bu ehtiyacı qarşılayan ailələri də nəzərə alsaq dünyada ən azı 2 milyard insanın əlilliklə bağlı çətinliklərlə üzləşdiyini demək mümkündür.

Hazırda əlillərə qarşı hər cür ayrı-seçkiliyin aradan qaldırılması, onların sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması dünya ölkələrinin diqqətindədir. Əlilliyi olan şəxslərə lazımi imkanların yaradılması, qayğı və dəstək göstərilməsi, maddi rifahının yaxşılaşdırılması, onların cəmiyyətə inteqrasiya olunmaları istiqamətində işlər görülməkdədir.

[48] Azərbaycan Universiteti jale-2015@rambler.ru

**1. Əlillik anlayışı**

Əlillik irqindən, dilindən və dinindən asılı olmayaraq bütün dünyada müşahidə olunan bir vəziyyətdir. “Əlilik” anlayışının universal tərifi yoxdur. Ümumdünya Səhiyyə Təşkilatı “Funksionallıq, əlillik və sağlamlığın beynəlxalq təsnifatı”nda əlilliyin sosial aspektlərini nəzərə alır və onu yalnız "tibbi" və ya "bioloji" disfunksiya kimi qiymətləndirmir. ÜST “pozuntu” və “əlillik” kimi iki əsas konsepsiyanı fərqləndirir. Pozuntu bədən strukturunun və ya funksiyasının normasının əqli və fiziki itirilməsi və ya anormallığı (iflic və ya korluq kimi) kimi izah olunur. Əlillik insan üçün normal hesab edilən şəkildə və ya tezlikdə fəaliyyət göstərmək qabiliyyətinin məhdudlaşdırılması və ya olmamasıdır. O, pozuntu səbəbindən yaranan funksional məhdudiyyəti və ya fəaliyyəti təsvir edir” (WHO, International Classification of Functioning, Disability and Health).

Türkiyənin Əlillər haqqında qanununda əlillik “döğuşdan və ya sonradan hər hansı bir səbəblə fiziki, əqli, ruhi, duyğusal və sosial bacarıqları müxtəlif dərəcələrdə itirmə səbəbindən cəmiyyətə uyğunlaşma və gündəlik ehtiyaclarını qarşılamaqda çətinlikləri olan, qorunmaya, baxıma, reabilitasiya, psixoloji və dəstək xidmətlərinə ehtiyacı olan insan” kimi şərh olunur (Engelliler hakkında kanun, Türkiye).

BMT-nin "Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiya"sında "əlilliyin" inkişaf edən bir anlayış olduğu qeyd edilir. "Əlillik" zamanla və müxtəlif sosial-iqtisadi şəraitə uyğunlaşmaya imkan verən dinamik bir yanaşma kimi qəbul edilir. Başqa sözlə əlilliyin cəmiyyət tərəfindən yaradılan problem olduğu vurğulanır. Həm sözü gedən konvensiyada, həm də “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli qanununda "Əlilliyi olan şəxs" anlayışı - müxtəlif maneələrlə qarşılaşdığı zaman cəmiyyət həyatında tam iştirakına mane olan sabit fiziki, psixi, əqli və ya hissiyyat pozuntuları olan şəxslər” kimi müəyyən edilir (“Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının qanunu,).

Müxtəlif elmi ədəbiyyatlarda iqtisadçı alimlərin və beynəlxalq təşkilatların “əlillik” anlayışına verdikləri təriflərə əsaslanaraq demək olar ki, əlillik-fiziki və sosial maneələr səbəbilə ictimai həyatda digər fərdlərlə bərabər səviyyədə iştirak imkanları əskikliyinin olmasıdır. Bu kateqoriyadan olan şəxsin özünü təmin etmək qabiliyyəti və ehtiyaclarını təkbaşına qarşılamaqda çətinlikləri vardır. Buna görə də psixoloji və reabilitasiya xidmətlərinə və qayğıya ehtiyac duyurlar.

**2. Əlilliyi olan şəxslərlə bağlı həyata keçirilən sosial siyasətlərin inkişaf dinamikası**

Tarixən əlilliyi olan şəxslərə qarşı cəmiyyət və dövlət tərəfindən münasibət həmişə ürəkaçan olmayıb. Qədim dövrlərdə bu münasibət daha çox qadağalar, cəmiyyətdən təcrid olunma, baxımsızlıq, ağır yoxsulluq şərtləri və çətinliklərlə müşaiyət olunub. Əlilliyi olan şəxslərə daha çox aqressiv münasibət bəslənilirdi.

Qədim Yunan ve Romada xəstəliklərlə və zədələrlə doğulan uşaqlar günahlara görə tanrının insanlara göndərdiyi cəza və ya sınaq kimi qiymətləndirilirdi. *“Likurq və Spartanın qanunlarına əsasən,* əlilliklə doğulan uşaqlar təcrid və ya, ümumiyyətlə, fiziki məhv olunmalı idi. Antik dünyada əlilliyi olan şəxslər vətəndaş kimi deyil, hüquqi stastusuna görə kölələrə bərabər tutulurdu” (Əlillik məsələləri üzrə terminlərin izahli lüğəti. Azərbaycan respublikası əmək və əhalinin sosial müdafiəsi Nazirliyi). Qanunvericilikdə ali təbəqənin nümayəndələri əlilliyinə görə fərqləndirilir, dəyərli və ya dəyərsiz kimi kateqoriyalara ayrılırdı. Bu cür münasibət cəmiyyətdə əlilliyi olan şəxslərin təcridinin təməlinin qoyulmasına səbəb olmuşdur. Aristotel əlilliyi olan uşağın yaşamasını qadağan edən qanunun qəbul edilməsinin tərəfdarı idi (Yoair Blog, The world's anthropology blog).

Orta əsrlərdə əlilliyin səbəblərini daha çox xurafatla əlaqələndirirdilər. Əlilləri daha çox cadugərliklə ittiham edirdilər. Buna görə onlar ciddi təqiblərə məruz qalır bəzən isə ölümə məhkum edilirdilər. Əqli qüsurlu insanlar davranışlarına, fiziki qüsurlular isə görünüşlərinə görə qınağa məruz qalırdılar. Bəzi mənbələrdə qeyd edilir ki, 18-ci əsrə qədər Avropada təxminən 9 milyon əlil cadugər olmaqda günahlandırılıb və edam cəzasına məhkum edilib.

Cəmiyyətin inkişafının sonrakı mərhələlərində əlilliyə yanaşmalarda bəzi dəyişikliklər baş verdi. Xristianlığın və İslamın bərqərar olunması ilə bu insanlara qarşı münasibət aqressiya və dözümsüzlükdən şəfqətə doğru dəyişildi. Qərbi Avropada ilk sığınacaqlar yaradılmağa başlanıldı. Artıq əlilliyi olan şəxslər öldürülmür, əksinə onlara qida və tibbi müayinə və müalicə xidmətləri göstərilirdi. Əlilliyi olan şəxslər üçün fəaliyyət göstərən himayədar təsisatlar adətən dini qurumların nəzdində çalışırdı. Onlara qarşı müsbət

münasibət dəyişikliklərinin olmasına baxmayaraq, bu kateqoriyaya aid olan insanlar ictimai proseslərdə iştirak etmir, qərar qəbul etmək hüququna malik deyildilər,

Əlillik vəziyyəti adi vəziyyət kimi qarşılandıqdan sonra ölkələr özlərinin sosial-iqtisadi vəziyyətlərinə uyğun olaraq əlillərin hüquqlarının qorunması, onların rifahının yaxşılaşdırılması istiqamətində tədbirlər həyata keçirməyə başladılar. Xüsusilə son 20-30 ildə əlilliyə fərqli yanaşılır, əlilliyə qarşı ayrı-seçkiliyin qarşısının alınmasına cəhd göstərilməkdədir. Bu kontekstdə onların cəmiyyətə inteqrasiyasının vacibliyi fikri müdafiə olunmaqdadır.

**3. Əlilliyin Tibbi və Sosial modelləri**

Cəmiyyətdə əlilliyi olan şəxslərə yönəlik sosial siyasətin formalaşmasında nəzərə alınan əlillik modelləri tibbi və sosial olaraq iki yerə ayrılır. 1970-ci illərə qədər əlillik yalnız tibbi səbəblərlə məhdudlaşdırılırdı Bu isə məsələnin sosial ölçüsünün və məsuliyyətlərinin diqqətdən kənarda qalmasına səbəb olurdu. Tibbi modelə görə, əlillik fərdi qüsur növüdür və onun qarşısının alınması və ya həlli tibbi müdaxilələr, müalicələr və ya reabilitasiya üsulları ilə məhdudlaşır. “Tibbi model əlilliyi daha çox şəxsi “faciə” kimi görür və qiymətləndirir” (Barnes and others, 2004).

Beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş ən son yanaşmaya görə əlilliyi olmaq bir tərəfdən, şəxsin sağlamlığı ilə əlaqəlidirsə, digər tərəfdən, onları əhatə edən sosial və fiziki mühit arasında dinamik əlaqənin nəticəsidir. Bu yanaşma "əlilliyin sosial modeli" adlanır. Əlilliyin sosial modelinə əsasən şəxsi əlil edən onu digər fərdlərdən fərqləndirən bioloji quruluşa malik olması, sağlamlıq məhdudiyyəti deyil cəmiyyətin əliledici xarakteridir. Əlilliyi olan şəxslər qarşılarına qoyulmuş sosial, mədəni, iqtisadi və ətraf mühit maneələri ilə əlverişsiz vəziyyətə salınırlar. Cəmiyyətin bu cür tərzi sağlamlıq məhdudiyyəti olan şəxsləri diskriminasiya edir.

“Sosial model demək olar ki, tibbi modelin əksidir. Sosial model tibbi modeldəki qeyri-kafiliklər nəticəsində ortaya çıxan bir modeldir. Tibbi modelə reaksiya olaraq yaranan sosial model, əlilləri damğalanmaqdan xilas edən bir modeldir” (Atatürk Universitesi. Engelliliği ele alan modeller).

“Əlillik sağlamlıq məhdudiyyətinə düçar olmağın sosial nəticəsidir. Sağlamlıq məhdudiyyəti olan insanlar sosial münasibətlərdən, rəylərdən doğan maneələrlə; qanun və siyasətdən irəli gələn təşkilati maneələrlə; kənarlaşdıran və narahatlıq yaradan iqtisadi maneələrlə; fiziki əlçatımlılıq, məlumat və kommunikasiyanın təmin olunma tərzi, təşkilat və sistemlərin fəaliyyət göstərmə tərzi kimi ətraf mühit maneələri ilə cəmiyyət tərəfindən ikiqat “əlil edilirlər” (Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi).

Tibbi model bu gün də bir çox ölkələrdə üstünlük təşkil edir. Sosial modelin lazım olduğu qədər tətbiq edilmədiyi ölkələrin sayı az deyil. Sosial modeldə maneələrin aradan qaldırılmasına, müsbət münasibətin təşviqinə və ayrı-seçkiliyin aradan qaldırılmasının dəstəklənməsinə diqqət yetirilsə də əlil insanların tez-tez hər hansı bir sağlamlıq vəziyyətinə görə problemlər yaşayırlar. Onlara yanşmada sağlamlıq vəziyyəti həm də ətraf mühitin amilləri nəzərə alınmalı, daha balanslaşdırılmış yanaşmaya üstünlük verilməlidir.

**4. Avropa Birliyinin sosial siyasətində əlillərin yeri**

Avropa Birliyi bir təşkilat kimi insan haqlarına böyük əhəmiyyət verir. 1993-cü ildən etibarən tətbiq edilən “Kopenhagen meyarları”* nın da ilk addımı məhz insan haqlarının əsasında əlillərin haqlarıdır. Qeyd edək ki, bu meyarlar namizəd ölkələrin ittifaqın bir hissəsi ola bilməsi üçün yerinə yetirməli olduqları şərtlərə istinad edir. İttifaq ayrı-seçkiliyə yol verməmək, öz müqəddəratını təyinetmə və digərləri ilə bərabər münasibətlərin təmin olunması kimi əsas prinsiplərə hörmət etməklə, əlilliyi olan şəxslərin cəmiyyətə səmərəli daxil edilməsinə çalışır.

2021-ci ilin mart ayında Avropa Komissiyası 2021-2030-cu illər üçün əlilliyi olan şəxslərin hüquqlarına dair yeni strategiya qəbul edib. 2010-2020-ci illərdə həyata keçirilmiş strategiyasının nəticələrinə əsaslanan sənəddə son illərdə əldə edilmiş irəliləyişlərə baxmayaraq, əlilliyi olan insanların hələ də əhəmiyyətli maneələrlə üzləşdiyi, yoxsulluq və sosial təcrid riskinin yüksək olduğu vurğulanır.

Avropa əhalisinin 25%-ni əlilliyi olan şəxslər təşkil edir. Strategiya bu kateqoriya insanların həyatını yaxşılaşdırmaq, cəmiyyətdə və iqtisadiyyatda bərabər iştirak etmək imkanına malik olmaq, harada, necə və kiminlə yaşayacaqlarına qərar verə bilmək və dəstəksiz Aİ-də sərbəst hərəkət edə bilmələrini təmin etmək məqsədi daşıyır.

Komissiyasının həyata keçirdiyi “Avropa Əlillik Forumu”nda Avropada əlillərin gündəlik həyatlarında hələ də əhəmiyyətli maneələrlə üzləşdiklərindən bəhs edilmiş və bəzi faktlar gətirilmişdir:

- əlilliyi olan şəxslər, əlilliyi olmayanlara nisbətən 4 dəfə daha çox tibbi xidmətə ehtiyac olduğunu bildirir;
- əlilliyi olan şəxslərin yalnız 64%-nin evdə internet bağlantısı var, əlilliyi olmayanların isə 88%-nin;
- əlilliyi olan hər 5 gəncdən 1-dən çoxu məktəbi erkən tərk edir, əlilliyi olmayanların isə 10-dan 1-i" (15)

**5. BMT-nin "Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiya"sı**

2006-cı ildə qəbul edilmiş konvensiya məhdud sağlamlıq imkanları olan insanlar üçün ilk beynəlxalq müqavilədir. Konvensiya əlillərin hüquqlarının təsdiqi və ayrı-seçkiliyin aradan qaldırılmasında son dərəcə əhəmiyyətlidir. Konvensiya əlillərin hüquqları sahəsində ümumdünya standartlarını müəyyən edir. Sözü gedən sənəd milli qanunvericilik və dövlət siyasəti üçün dayaq rolunu oynayır. Konvensiyanı ratifikasiya edən ölkələr əlillərə təkcə zərər çəkmiş ictimai azlıq kimi yox, dəqiq müəyyənləşdirilmiş hüquqlara malik olan hüquq subyektləri kimi davranmağa hüquqi məsuliyyət daşıyırlar.

Konvensiyanın 28-ci maddəsi qənaətbəxş həyat səviyyəsi və sosial müdafiə ilə bağlıdır və qeyd olunr ki: "Əlil insanlar, qidalanma, su, geyim və mənzil də daxil olmaqla, qənaətbəxş həyat səviyyəsi və yoxsulluğun azaldılması ilə əlaqədar proqramları daxil olmaqla səmərəli sosial müdafiə hüququna malikdir" .

2 oktyabr 2008-ci ildə "Əlillərin hüquqları haqqında" Konvensiyaya qoşulmaq barəsində Azərbaycan respublikasının qanunu qəbul edilib. Konvensiyanı ratifikasiya edən ölkəmiz üzərinə "ayrı-seçkiliyə yol verilməməsi, şəxsi seçim etmək azadlığı və müstəqillik, insan ləyaqətinə hörmət olunması, cəmiyyətə tam və səmərəli cəlb olunma və daxil olma, əlilliyi olan şəxslərin xüsusiyyətlərinə hörmət olunması və onların insan müxtəlifliyinin komponenti və bəşəriyyətin bir hissəsi kimi qəbul olunması və s. kimi" prinsiplərin həyata keçirilməsi öhdəliyi götürmüşdür. (How to Design Disability-Inclusive Social Protection. Economic and Social Commission for Asia and the Pacific. United Nations)

**6. BMT-nin Asiya və Sakit okean regionu üzrə İqtisadi və Sosial Komissiyası** 2021-ci ildə "Əlilliyi əhatə edən sosial müdafiəni necə tərtib etmək olar" adlı sosial inkişaf siyasətinin təlimatlarını hazırlamışdır. Siyasət təlimatı sosial müdafiənin əlillər üçün nə üçün vacib olduğunu izah edir və əlilliyi əhatə edən sosial müdafiə üçün zəruri olan əsas anlayışları və təlimatları təqdim edir.

Təlimatda qeyd edilir ki, "Asiya və Sakit Okean regionunda 690 milyondan çox insan, o cümlədən əlilliyi olan qadınlar, kişilər və uşaqlar yaşayır. "Əlilliyi olan şəxslərin sosial müdafiəsi onların cəmiyyətə səmərəli daxil edilməsinə və fəal iştirakına nail olmaq üçün əsasdır. Asiya və Sakit Okean regionunda ağır əlilliyi olan şəxslərin yalnız dörddə birinin sosial müdafiəyə çıxışı var. Əksər ölkələrdə əsas sosial müdafiə sistemi əlilliyi olan insanlar üçün yetərsiz və əlçatmazdır" (How to Design Disability-Inclusive Social Protection. Economic and Social Commission for Asia and the Pacific. United Nations).

Təlimatda sosial müdafiə proqramlarının əlilliyi olan şəxslər üçün əlçatan olmasını təmin etmək üçün xüsusi tədbirlərin görülməsi tövsiyə olunur: Bu tövsiyələrə İnformasiyanın görmə, eşitmə və koqnitiv qüsurları olan insanlar üçün əlçatan formatlarda olması; dövlət idarələrində müraciət və qeydiyyat prosedurlarının əlavə ödənişlər tələb etməməsi və qeydiyyatların fiziki olaraq əlçatan olması və s. aiddir.

**7. ÜST əlillərin ÜST-ün "2014-2021-ci illər üçün əlillik üzrə qlobal fəaliyyət planı"** əlilliyi olan insanlar üçün sağlamlıq və rifah və insan hüquqlarına nail olmaq istiqamətində mühüm addımdır.

Fəaliyyət planının məqsədlərinə nail olmaq əlilliyi olan insanlara həyatın bütün sahələrində öz istəklərini yerinə yetirmək imkanı verir. Fəaliyyət planı 3 əsas məqsədi daşıyır:

- səhiyyə xidmətləri və proqramlarına əlçatanlığın təmin edilməsi və maneələrin aradan qaldırılması;
- reabilitasiya, abilitasiya, köməkçi texnologiyalar, yardım və dəstək xidmətlərini, həmçinin icma əsaslı reabilitasiyanı gücləndirmək və genişləndirmək;
- əlilliyə dair müvafiq və beynəlxalq səviyyədə müqayisə oluna bilən məlumatların toplanması, əlilliklə və əlaqəli xidmətlər üzrə tədqiqatların gücləndirilməsi (WHO global action plan on disability).

ÜST-ə görə əlillərin qarşılaşdıqları maneələri aradan qaldırmaq olar. Bunun üçün dövlətlər:

- əlilliyi öz sağlamlıq planlarına daxil etməli;
- əlilliyi olan insanlar üçün xüsusi proqramlara investisiya qoymaq;
- milli strategiya və fəaliyyət planını qəbul etmək;

- kadrların təhsilini, təlimini və işə qəbulunu yaxşılaşdırmaq;
- adekvat maliyyələşdirməni təmin etmək;
- əlillik haqqında ictimaiyyətin məlumatlılığını və anlayışını artırmaq;
- əlilliyi olan insanların siyasət və proqramların həyata keçirilməsinə cəlb olunmasını təmin etməlidirlər.

ÜST vaxtaşırı olaraq Asambleyalar keçirir. 2021-ci ilin may ayında 74-cü Ümumdünya Səhiyyə Assambleyasında əlilliyə dair yeni mühüm qətnamə qəbul edilib. Qətnamə bir çox əlilliyi olan şəxslərin səhiyyə xidmətlərindən istifadə etməyə çalışarkən qarşılaşdıqları əhəmiyyətli maneələri aradan qaldırmaqla səhiyyə sektorunu daha inklüziv etmək məqsədi daşıyır.

Bunlara daxildir: "effektiv səhiyyə xidmətlərinə çıxış, səhiyyə sahəsində fövqəladə hallar zamanı qorunma, müxtəlif sektorlar üzrə ictimai səhiyyə müdaxilələrinə çıxış" (Ümumdünya Səhiyyə Təşkilatı ). Qətnamə həmçinin sağlamlıq siyasəti və proqramlarını məlumatlandırmaq üçün əlilliyə dair etibarlı məlumatların toplanması və ayrışmasını təkmilləşdirmək məqsədi daşıyır.

## Nəticə

Hazırda cəmiyyətlər əlilliyi faciə və ya qüsur kimi deyil daha çox insan müxtəlifliyinin bir hissəsi kimi görməyin daha uyğun olduğu fikrini müdafiə etməkdədirlər. Əlilliyi olan insanların vəziyyətlərinə görə məruz qaldıqları çətinlikləri insan hüquqlarının pozulması kimi dəyərləndirməyə çalışılır. Bu istiqamətdə işlər görülməkdədir. Beynəlxalq təşkilatlar, dövlətlər inkişaf planlarına əlilliyi olan insanların cəmiyyətə və əmək fəaliyyətinə uyğunlaşmasına, özlərini şəxsiyyət kimi təsdiqləməsinə, rifah vəziyyətlərinin yaxşılaşmasına, özlərini cəmiyyətin tam hüquqlu üzvü kimi hiss etməsinə səbəb olacaq məsələləri daxil edirlər. Hər bir sivil cəmiyyət əlillərə digərləri kimi bərabər iş, təhsil və digər hüquqların verilməsinə can atır.

## ƏDƏBİYYAT


1. Atatürk Universitesi. Engelliliği ele alan modeller. Unite 2. file:///C:/Users/User/Downloads/Documents/334-3055371221867393172-Unite_02.pdf;
2. British Council və Avropa İttifaqının "Hökumətin qərar qəbulu prosesində vətəndaş cəmiyyətinin əlilliyi olan şəxslərin hüquqlarının təşviqatçısı kimi iştirakı" layihəsi çərçivəsində hazırladığı "Bizim üçün bizsiz heç nə" İnklüziv Qərar Qəbulu üzrə IDEAS Vasitələr Toplusu. Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi. British Council, 2015 https://www.britishcouncil.az/sites/default/files/ideas_toolkit_for_policymakers.pdf;
3. Engelliler hakkında kanun, Türkiye, 2005 https://www.mevzuat.gov.tr/mevzuatmetin/1.5.5378.pdf;
4. "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının qanunu, 31 may 2018-ci il, https://e-qanun.az/framework/39591;
5. Əlillik məsələləri üzrə terminlərin izahli lüğəti. Azərbaycan respublikası əmək və əhalinin sosial müdafiəsi Nazirliyi. Əmək və sosial problemlər üzrə elmi tədqiqat və tədris mərkəzi. Baki-2016;
6. Ümumdünya Səhiyyə Təşkilatı, https://www.who.int/news-room/fact-sheets/detail/disability-and-health;
7. Ümumdünya Səhiyyə Təşkilatı, https://www.who.int/news/item/27-05-2021-a-new-landmark-resolution-on-disability-adopted-at-the-74th-world-health-assembly;
8. Convention on the Rights of Persons with Disabilities and Optional Protocol. Unıted Natıons.https://www.un.org/disabilities/documents/convention/convoptprot-e.pdf;
9. How to Design Disability-Inclusive Social Protection. Economic and Social Commission for Asia and the Pacific. United Nations, 2021. https://www.unescap.org/sites/default/d8files/knowledge-products/Social_Protection_module_5_E.pdf;
10. Implementing the Social Model of Disability: Theory and Research. Colin Barnes and Geof Mercer, 2004, file:///C:/Users/User/Downloads/Documents/Barnes-implementing-the-social-model-chapter-1.pdf;
11. WHO, International Classification of Functioning, Disability and Health. Geneva, 2001. 311 page. http://apps.who.int/iris/bitstream/handle/10665/42407/9241545429.pdf;jsessionid=34FFF7F64CA5796B0E225407F33374E0?sequence=1;
12. WHO global action plan on disability 2014-2021. Better health for all people with disabilities. file:///C:/Users/User/Downloads/9789241509619_eng%20(2).pdf;
13. Yoair Blog, The world's anthropology blog, https://www.yoair.com/az/blog/the-history-of-disability-and-its-representation-in-popular-culture/;
14. http://www.e-qanun.az/framework/15641;
15. European dısabılıty forum. https://www.edf-feph.org.

# AZƏRBAYCAN MULTİKULTURALİZMİNDƏ MÖVCUD DİNİ MÜXTƏLİFLİK

**t.ü.f.d. Məmmədova Aygün KAMANDARİ**[49]

**Xülasə**

Əsrlər boyu Azərbaycanda yaşayan müxtəlif xalqlar ölkənin ictimai siyasi həyatında mühüm rol oynamaqla yanaşı özlərinin etnik xüsusiyyətlərini, dinlərini, adət ənənələrini və dillərini qoruyub saxlayaraq bugünümüzədək yaşatmışlar. Azərbaycanın multikultural cəmiyyəti dini müxtəlifliyə malikdir. Belə ki, cəmiyyətimizdə çoxsaylı etnik, irqi, mədəni müxtəliflik mövcuddur. Cəmiyyətdəki etnik mədəni müxtəlifliyin qorunması çox vacibdir. Multikulturalizm siyasti də öz növbəsində cəmiyyətdə mövcud olan etniklərin mədəniyyətlərinin, hüquq və azdlıqlarının inkişafına yönəlmişdir. Çünki dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, belə halda onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir.

Din Allah tərəfindən insanları dünya və axirət səadətinə qovuşduran ilahi inanc sistemidir. Din dedikdə mənbəyi yaradana dayanan inanc sistemi nəzərdə tutulur. Dinləri səmavi və qeyri-səmavi olmaqla iki qrupa ayırırlar. Səmavi dinlər, adından bəlli olduğu kimi Allah tərəfindən mələklər vasitəsilə peyğəmbərlərə göndərilən inanc mənbəyidir. Bunlara haqq dinləri də deyilir. Bir sözlə, xristianlıq, yəhudilik və islam dini haqq dinləridir. İslam dininə görə ilk insan Həzrəti Adəm eyni zamanda ilk peyğəmbərdir. Həzrəti Adəmdən Həzrəti İsaya qədər bütün peyğəmbərlər insanlara Allahın birliyini və ona necə ibadət ediləcəyini təbliğ etmişlər.

***Açar sözlər:*** *multikultural cəmiyyət, dünya dinləri, islam, xristianlıq, milli dinlər*

## Religious Diversity in Azerbaijan Multiculturalism

**Summary**

Various peoples living in Azerbaijan for centuries have played an important role in the social and political life of the country and have preserved their ethnic characteristics, religions, customs and languages until today. Azerbaijan's multicultural society has religious diversity. So, there is a lot of ethnic, racial and cultural diversity in our society. It is very important to preserve ethnic cultural diversity in society. The policy of multiculturalism, in turn, is aimed at the development of the cultures, rights and minorities of the ethnicities existing in the society. Because the state, the country unites more people, the richer it becomes, and in this case, each of them contributes to the world culture and civilization.

Religion is a system of divine belief that God brings people to the happiness of this world and the hereafter. Religion refers to a belief system based on the Creator. Religions are divided into two groups, heavenly and non-heavenly. Heavenly religions, as the name suggests, are sources of faith sent by God through angels to prophets. These are also called true religions. In short, Christianity, Judaism and Islam are true religions. According to Islam, Adam, the first man, is also the first prophet. From Hazrat Adam to Hazrat Jesus, all the prophets preached to people the oneness of God and how to worship him.

***Keywords:*** *multicultural society, world religions, Islam, Christianity, national religions*

***UOT: 94***

"Sivilizasiyalar toqquşmasının" hökm sürdüyü müasir dövrümüzdə ayrı-ayrı dinlərin mənsublarına tolerantlıq (dözümlülük) nümayiş etdirmək nəinki çox yüksək mənəvi dəyər, eləcə də demokratik rejimin zəruri göstəricisi kimi qəbul edilməkdədir. Dünya birliyi tərəfindən hər bir dinə hörmət bəsləmək kimi önəmli bir dəyər cəmiyyətin bütövlüyünün əsas şərtlərindən biri olaraq qəbul edilməklə yanaşı, praktikada bu dəyərin heç də hər zaman nəzərə alınmadığı görünməkdədir. Amma mövcud şəraiti düzəltmək, insanlara dini dözümlülük xüsusiyyətlərini aşılamaq nəinki ayrı-ayrı dövlətlərin, eləcə də beynəlxalq təşkilatların vəzifələrindən birinə çevrilmişdir.

Əlverişli iqlimə, münbit torpaqlara və gözəl təbiətə malik Azərbaycan bütün dövrlərdə cəlbedici və diqqət mərkəzində olub. Şübhəsiz ki, Azərbaycan ərazilərində müxtəlif tarixi dövrlərdə çoxsaylı etnik və dini qrupların məskunlaşmasında bu amil böyük rol oynayıb. Amma inkaredilməz faktdır ki, bu məsələdə

[49]Bakı Avrasiya Universiteti,kamandari_a@mail.ru

coğrafi şərait yeganə amil deyil. Müxtəlif xalqlara və dinlərə mənsub insanların Azərbaycana pənah gətirməsinin əsas səbəbi bu ölkədə yaşayan insanların mədəniyyəti və onların xarakterik keyfiyyətinə çevrilmiş tolerantlıq xüsusiyyətidir. Bu, elə bir sərvətdir ki, min illər boyu heç bir qüvvə onu Azərbaycan xalqından ala bilməyib, əksinə, əsrlər keçdikcə daha da zənginləşib və möhkəmlənib.

Səmavi dinlərə qədər Azərbaycan ərazilərində bütpərəstlik, atəşpərəstlik hökm sürmüşdür. Amma bu dövrdə bəzi inanclara, xüsusilə, oda, suya, ağaca və səma cisimlərinə inam daha güclü olmuşdur. Min illərin keçməsinə baxmayaraq, bu inamın əlamətləri insanların yaddaşında qalmış və bu gün də onların həyat tərzində özünü büruzə verir. Məsələn, ilk insandan üzü bəri oda bütün dövrlərdə qoruyucu, müqəddəs təmizləyici qüvvə kimi baxılmışdır. Odun hər cür çirkinliyi yox etdiyinə və insanlara təmizlik gətirdiyinə inam bəslənmişdir. Ümumiyyətlə, həyatın mövcudluğunu şərtləndirən əsas komponentlər kimi od, su, torpaq və hava İslamın yayılmasına qədər Azərbaycan ərazilərində yaşayan insanların etiqadında önəmli yer tutmuşdur. Atəşpərəstlik də bu təsəvvürlərlə bağlı inanclar zəminində meydana çıxmışdır. Azərbaycan ərazisində məskunlaşan əhalinin böyük bir qismi odu müqəddəsləşdirmiş, ona sitayiş etmişdir.

Novruz bayramı ilə günümüzədək gəlib çatan od ayin və mərasimləri Azərbaycanda atəşpərəstliyin güclü ənənələri olduğunu göstərir. Azərbaycan ərazisində Atropatenanın dini mərkəzi Qazakada, Bakı, Şamaxı, Salyan və Lənkəranda atəşgədələr olmuşdur. Suraxanıdakı atəşgah Hindistandan gələn atəşpərəstlərə xidmət üçün XVIII əsrdə tikilmişdir.

Çoxallahlılıqla bağlı inancların məcmusu kimi bütpərəstlik ibtidai dinlərin zəminində yaranmışdır. Azərbaycan əhalisinin bütpərəstlik təsəvvürlərinin kökləri çox qədimlərə gedib çıxır.

Bütpərəstliklə bağlı ayinçilik çox vaxt sintez halında təmsil olunmuşdur, yəni inanclar bir-birindən az fərqlənmiş, biri digərindən təsirlənmiş, bir-birini tamamlayaraq bölgə əhalisinin mənəvi dəyərlər sisteminin təşəkkülündə birgə iştirak etmişdir. Qədim Azərbaycan ərazisində ölmüş əcdadların ruhlarına, qayalara və ağaclara (qayın, palıd və s.), müxtəlif təbiət hadisələrinə və səma cisimlərinə pərəstiş güclü olmuşdur. Tanrı xan adı ilə tanınan palıd ağacına da pərəstiş edilir, at qurban kəsilirdi. Movses Kalankatvasi Alban hökmdarlarının xristianlığı yaymaq üçün bütpərəstliyə qarşı çağırışları, ağac bütləri kəsib atmaları barədə məlumat vermişdir.

Zərdüştilik tarixən Azərbaycan ərazilərində yaranaraq digər ərazilərə yayılmışdır. Adətən, atəşpərəstliyi zərdüştilik dini ilə eyniləşdirirlər. Əslində zərdüştilik atəşpərəstliyin içindən çıxsa da, müstəqil din kimi meydana gəlmişdir. Halbuki, hər iki inam müstəqil din sahələri kimi meydana gəlib və onların yaranması bilavasitə Azərbaycan əraziləri və xalqı ilə bağlıdır.

Zərdüştiliyə qədər dünyada müxtəlif dinlər və inanclar olub, amma onların hamısı məhəlli xarakter daşıyıb və demək olar ki, yarandığı bölgənin sərhədlərini aşa bilməyib. Üç böyük imperiyanın dövlət dini olmuş zərdüştilik nəinki məhəlli din anlayışının sərhədlərini aşmış, hətta ilk dəfə qədim dünyada mükəmməl din, dünyagörüşü, əxlaq və məişət, mənəviyyat prinsipləri toplusu yaratmışdır. Bu dinin özəlliyi ondadır ki, onun yaradıcısı sayılan Zərdüşt özünə qədər mövcud olan ilahların hamısını rədd edərək yeganə Allah - Hörmüzü kainatın və bütün canlı varlıqların yaradıcısı kimi irəli sürüb. Bu baxımdan, bütpərəstlikdən fərqlənən Zərdüştilik bütpərəst dinlərlə səmavi dinlər arasında ayrıca bir mərhələ təşkil edir.

Bu dinin əhatə dairəsi yalnız Azərbaycanın tarixi əraziləri və Yaxın Şərqlə məhdudlaşmamış, Qərbə, xüsusilə qədim yunan və Hind mədəniyyətinə ciddi təsir göstərmişdir. Tarixi faktlar, eləcə də bizə gəlib çatmış yunan tarixçi və filosoflarının əsərləri sübut edir ki, zərdüştiliyin müqəddəs kitabı olan Avesta, xüsusilə, bu kitabı yaradan maqlar, onların təlimində və atəşpərəstlik dinində islahat aparmış Zərdüşt yunan mədəniyyətinin inkişafında böyük rol oynayıb. Bəlkə, elə buna görədir ki, ingilis tədqiqatçısı Meri Boys Zərdüştiliyin bəşəriyyətə bütün digər etiqad növlərindən daha artıq dərəcədə təsir göstərdiyini iddia edir.

Azərbaycan xalqının bu zənginliyini təsdiqləyən və min illər ərzində ondan faydalanan xalqlardan biri də yəhudilərdir. Azərbaycanda məskunlaşmalarının tarixi 2600 il öncəyə gedib çıxan yəhudilərin bu böyük tarixi dövr ərzində azərbaycanlılar tərəfindən nə vaxtsa dini ayrı-seçkiliyə məruz qalmalarına dair heç bir fakt yoxdur.

Yəhudilər Azərbaycana gəlməmişdən əvvəl bu ərazilərdə müxtəlif dinlər və inanclar olub, lakin onların heç biri kənardan gəlməyib, burada formalaşıb. Bu baxımdan, Azərbaycana kənardan gəlmiş ilk din olan yəhudilik həm də bu ərazilərdə yayılan ilk səmavi dindir. Azərbaycanda ən qədim yəhudi icması sayılan dağ yəhudiləri bizim eradan əvvəl VI əsrdə Yerusəlimdə birinci xram adlanan məbədin sökülməsi nəticəsində vətənlərini tərk etmiş qədim yəhudi qəbilələrinin nəslindəndirlər.

Azərbaycanda üç yəhudi icması - dağ, əşkinazi və gürcü yəhudiləri icmaları mövcuddur. Bütövlükdə ölkədə yəhudilərin sayı təxminən 16.000-dir. Bunlardan 11.000-i dağ yəhudiləridir ki, təxminən 6.000-i Bakıda, 4.000-i Qubada, min nəfəri isə digər şəhərlərdə yaşayır. Dağ yəhudiləri hazırda ölkədəki bütün yəhudi diasporu arasında çoxluq təşkil edir. Əşkinazi yəhudilər 4,3 min nəfərdir. Onların əksəriyyəti Bakıda və Sumqayıtda yaşayır. Gürcü yəhudiləri təxminən 700 nəfərdir. Onların ölkəmizə gəlişi əsasən XIX əsrin sonuna, sənaye bumu dövrünə təsadüf edir.

Bir fikrə görə, ən qədim yəhudi icmalarından olan dağ yəhudiləri mənşəcə bir vaxtlar Assuriya və Babil şahları tərəfindən Fələstindən çıxarılmış və Midiyada məskunlaşdırılmış İsrail oğulları nəslindəndirlər.

Hər halda deyə bilərik ki, dağ yəhudiləri Azərbaycana sasanilərin siyasəti ilə bağlı olaraq 15 əsr bundan qabaq gəlmiş, imperiyanın təhlükəsizliyini təmin etmək məqsədilə sərhəd məntəqələrində yerləşdirilmiş, yerli əhali ilə sıx təmasda olsalar da, dinlərini, adət-ənənələrini, həyat və düşüncə tərzlərini qoruyub saxlamışlar. Dağ yəhudiləri əqidə məsələlərində əşkinazi yəhudilərlə müqayisədə daha ortodoksaldırlar.

Hazırda Bakıda, Oğuzda, Qubada dağ yəhudilərinin bir neçə sinaqoqu fəaliyyət göstərir. Qubadakı Krasnaya Slobada qəsəbəsi bütün postsovet məkanında dağ yəhudilərinin kompakt yaşadıqları yeganə yerdir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra buradakı yəhudi icmaları daha da fəallaşmış, beynəlxalq yəhudi təşkilatları ilə əlaqələrini möhkəmlətmiş, öz dini məktəblərini, mədəniyyət mərkəzlərini, cəmiyyətlərini, klublarını və qəzetlərini yaratmışlar. 2003-cü il martın 9-da Bakıda Avropada ən böyük yəhudi sinaqoq açılmışdır.

Xristianlıq Azərbaycan ərazisinə yeni eranın ilk əsrlərində, hələ İsa Məsihin həvariləri dövründə Qafqaz Albaniyası vasitəsilə nüfuz etmişdir.313-cü ildə Roma imperatoru Konstantin xristianlığa etiqad üzərindən qadağanı götürəndə Alban hökmdarı Urnayr xristianlığı dövlət dini elan edir. Bu vaxtdan etibarən Azərbaycanda xristianlığın yayılmasının *qrekofil dövrü* adlanan yeni dövrü başlanır. Akademik Z.Bünyadov göstərir ki, Urnayr, II Vaçe və III Vaçaqan ölkədə xristianlığı yaymaq üçün mübarizə aparmışlar. IV-V əsrlərdə ruhanilik və kilsə iyerarxiyası təşəkkül tapır. Katolikosun göstərişi ilə feodallar öz ərazilərində kilsə üçün xüsusi yerlər ayırırdılar. Bölgədə kilsələr tikilir, dini kitablar siryani, arami və yunan dillərindən Alban dilinə tərcümə edilirdi.

Azərbaycan tarixinin xristianlıqla bağlı məqamları təkcə İslamdan öncəki dövrə aid deyil, əksinə, İslam Azərbaycanda aparıcı dinə çevrildikdən sonra da bu ərazilərdə xristianlar yaşayıb və ümumi mədəniyyətimizin formalaşmasında yaxından iştirak ediblər. Üstəlik müəyyən tarixi dövrlərdən başlayaraq bu dinin müxtəlif qolları - pravoslavlıq, katoliklik və protestantlıq, eləcə də lüteranlıq ölkəmizdə yayılıb və yaşamaq hüququ qazanıb.

Tarixi faktlar təsdiqləyir ki, İslamın Azərbaycanda yayıldığı dövrdə xalqın narazılığını əks etdirən etirazlar və qiyamlar baş verib, amma bu etirazlar dinə yox, siyasi hakimiyyətə qarşı yönəlib. Digər tərəfdən, əgər İslam qılınc gücünə yayılsaydı, onun Azərbaycanda ömrü bu qədər uzun olmaz və ümumxalq dininə çevrilməzdi. Dini birlik şüuru etnik və ya milli birlik şüurundan daha güclü və əhatəli olduğundan İslam yeni müsəlman sivilizasiyasının təməlində durdu və türk xalqları bu dini qəbul etməklə nəinki daha əhatəli və zəngin bir sivilizasiyaya qoşuldular, həm də bu sivilizasiyanın təşəkkülündə, inkişafında, zənginləşməsində mühüm rol oynadılar.

Çünki on beş əsr boyunca bu coğrafiyada yaşamış və yaratmış insanlar İslam mədəniyyətinin çiçəklənməsi üçün əllərindən gələni əsirgəməmiş və bu mədəniyyətin layiqli və görkəmli nümayəndələrinə çevrilmişlər. İslam mədəniyyətini azərbaycanlılarsız təsəvvür etmək mümkün olmadığı kimi, Azərbaycan mədəniyyətini də İslamsız təsəvvür etmək qeyri-mümkündür. Əgər mədəniyyətimizdən bir anlığa İslamı və onun izlərini silsək, bu zaman Azərbaycan tarixini və mədəniyyətini inkar etmiş olarıq. Azərbaycanda İslamla bağlı önəmli məqamlardan biri də odur ki, bu din Qafqazda ölkəmiz vasitəsilə yayılmışdır. Bunun məntiqi nəticəsidir ki, hazırda Azərbaycan Qafqaz regionunda yaşayan bütün müsəlmanlar üçün dini mərkəz rolunu oynayır və bu fakt istər elmi, istərsə də dini dairələr tərəfindən qəbul edilir.

## ƏDƏBİYYAT


1. Aydın M. Dinler tarihine giriş. Konya: Din bilimleri yayınları. s. 203-204; 211-215.
2. Azərbaycan Respublikasında dövlət-din münasibətlərini tənzimləyən rəsmi sənədlər. Bakı: “Elm və Təhsil”, 2015.
3. Azərbaycan multikulturalizmi. Ali məktəblər üçün dərslik. (AMEA-nın həqiqi üzvü K.M.Abdullayevin və prof. E.Ə.Nəcəfovun redaktəsi ilə), Bakı, 2017

4. Əlizadə A. Azərbaycanda xristianlıq keçmişdən bu günə. Bakı: "Elm və təhsil", 2018. s.270-282.
5. Nəcəfov E.Ə. Multikulturalizmin mahiyyətinə dair. Dövlət İdarəçiliyi. Nəzəriyyə və təcrübə, Jurnal, N3 (51), 2015, s.103-112
6. İsmayılov G. Azərbaycanda dini məsələ: təhdidlər və hədəflər. İdeoloji, milli, ictimai təhlükəsizlik müstəvisində. Bakı: "Nəşriyyat XXI" MMC, 2016. s. 58-65; 273-274.
7. Barry B. Culture and Equality: An Egalitarian Critique of Multiculturalism, 2001

# ARİSTOTELİ FƏRQLİ OXU

fəl.f.d, Mahrux **ABBAS**[50]

*«Son» sözünün əski mənası elə yerini dəyişmək*
*kimidir: "bir sondan başqa sona": bir yerdən başqasına. Fəlsəfənin*
*sonu elə bir yerdir ki, orda bütöv fəlsəfə tarixi mümkün ən sıx şəkildə toplaşmışdır. Son tamamlanma kimi bu toplaşmağa işarədir(Haydegger)*

**Xülasə**

Biliyin, informasiyanın sürətlə artdığı günümüzdə ən aktual məsələlərdən biri özünü bilməkdir. Süni intellekt və Biometrik data köməyi ilə insanlar bir bank, internet hesabı kimi hakerlər tərəfindən istilaya uğraya bilər. Kompyuterlər (alqoritmlər) texnologiyalar və biometrik data köməyi ilə adamları tanıya və özlərindən daha yaxşı bilə bilərlər. Texnologiyanın inkişafı ilə milyonlarla iş yeri və bir çox peşə gələcəkdə olmayacaq.

Bu səbəbdən tələbələr öz perspektivlərini genişlətməli və rəqəmsal eraya kritik münasibət bəsləməyi bacarmalıdırlar. "Aristoteli fərqli oxu" müasir elm və texnologiyanın kritik refleksiyası ehtiyacından xəbər verir. Haydeggerin təklif etdiyi bu variant günümüzdə fəlsəfənin nə qədər önəmli olmasından xəbər verir.

***Açar sözlər**: fenomenoloji interpretasiya, Aristoteli Haydegger oxusu, fəlsəfə təhsili*

**Distinctive Reading of Aristotle**

***Summary***

Self-knowing becomes more important issue due to growth of knowledge and information. Humans will become hack-able animals as bank or internet accounts with the help of technology, artificial intelligent and biometric data, computers (algorithms) will be able to recognize and know humans better than they know themselves.

With this perspective in mind millions of jobs and professions will no longer exist in the future. So students need to broaden their perspectives and be able to think critically about the digital era.

|"Distinctive reading of Aristotle" refers to need of critical reflection on contemporary science and technology. Heidegger's version of this new reading notes relevance of philosophy nowadays.

***Keywords:** phenomenological interpretation, Heidegger reading of Aristotle, philosophical education*

*UOT 130.2*

## *1.*Fəlsəfə təhsili nəyə lazımdır?

Pozitivist maraqların ön plana çıxdığı günümüzdə bu sual hər yerdə səsləndirilir. Azərbaycanda ali məktəblərdə fəlsəfənin tədrisinə ayrılan saatlar ilbəil azaldılır, fəlsəfə seçmə fənnə çevrilib, yerini multikulturalizm nəzəriyyəsi kimi yeni sosial elmlərə verir. Fəlsəfəyə bu münasibət, əslində yeni deyil. Fəlsəfənin populyar olduğu ikinci dünya müharibəsi sonrası Haydegger fəlsəfəyə münasibətdən gileylənirdi: "Fəlsəfənin sonu elmi-texnoloji dünyanın manipulyativ razılaşması və sosial nizamın buna uymasıdır. Fəlsəfənin sonu bu deməkdir: Qərbi Avropa düşüncəsinə əsaslanan dünya sivilizsiyasının başlanğıcındayıq " **(**Heidegger, 1972:55)

Bəs günümüzdə Qərbdə fəlsəfə təhsili verən universitetlər fəlsəfə təhsilinin aktuallığını nəylə əlaqələndirir?

Geniş yayılmış fikrə görə, uğurlu karyera yolu biznes və ya STEM (Elm, Texnologiya, Mühəndislik və Riyaziyyat)-lə bağlı sahələrdən keçir. Amma araşdırmalar göstərir ki, iş verənlər getdikcə daha çox potensial işçilərdə geniş qabiliyyətlər, kreativlik və kritik mühakimə qabiliyyəti axtarışındadırlar.

Azərbaycanada fəlsəfə ali və orta ixtisas təhsili məktəblərində tədris olunub və son illər onun tədrisi ali məktəb rəhbərliyinin ixtiyarına buraxılıb. Fəlsəfə bizim tələbələrə lazımdırmı və ya hansı fəlsəfə lazımdır sualının cavabını Qərb məktəbi nümunəsində nəzərdən keçirək.

ABŞ, Dreksel universitetində Fəlsəfə proqramları üzrə direktor və fəlsəfə professoru Peter Amatonun fikrincə, universitetlərdə fəlsəfə öyrənmək üçün 10 əsas səbəb sıralaması belədir (Drexel University, College of Arts and Sciences. Top 10 Reasons to study Philosophy):

[50] **AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, Müasir fəlsəfə problemləri şöbəsinin böyük elmi işçisi, mahru.abbas@gmail.com**

1.Geniş sahədə karyera uğurları üçün hazırlayır. Fəlsəfə təhsili yazı, oxuma, əsaslandırma, təkrar analiz, uyğunlaşma, öyrənmə, dialoq qurma kimi qabiliyyətləri inkişaf etdirir. Tez dəyişən biznes və texnoloji mühitdə bu qabiliyyətlərin böyük praktik əhəmiyyəti var.
2.Standartlaşdırılmış imtahanlarda başqa sahələri geridə qoyur. GRE, GMAT, MCAT, LSAT kimi standartlaşdırılmış imtahanlarda (xaricdə karyera qurmaq istəyən azərbaycanlı gənclər də bu imtahanlardan keçir- M.A.) analitik, məntiqi əsaslandırma və kritik düşüncə qabiliyyətləri yüksək qiymətləndirilir.
3.Daha yaxşı gəlir əldə etmə potensialına sahib olurlar. Karyeralarının əvvəlində daha çox qazanan sahələrdən arxada başlamalı olsalar da, zamanla, məslək həyatının ortalarında onları qabaqlayırlar.
4.Ciddi diskussiya partnyoru olmaq imkanı verir. Fəlsəfə bizim ideyalarımızın nəyə əsaslandığını, ideyalararası münasıbətləri aşkara çıxararaq kompleks problemlərin həllində yardımçı olur.
5.Hüquq sahəsində karyera qurmaq üçün hazırlayır. Fəlsəfə arqumentlər tapmaq, tənqid etmək, qarmaşıq mətnləri diqqətli oxumaq, aydın, tutarlı dəlillərlə yazmaq kimi qabiliyyətləri inkişaf etdirir.
6.Karyerada perspektiv vəd edir. Əsl yaxşı həkim, mühəndis, alim öz fəaliyyətinin başqa adamlara və bütövlükdə dünyaya təsiri haqda dərin düşünməyi bacarır. Fəlsəfə insanın düşünmə, yazma, müzakirə sahəsini genişlədər. “ Necə etməli?” sualıyla yanaşı, “niyə?”, “niyə yox?” suallarına da cavab axtarır.
7.Etik prinsipləri və onlardan necə yararlanmağı öyrədir. Fəlsəfə ailə, sosial və işlə bağlı anlayışlara aydınlıq gətirərək real dünyada etik məsələləri anlayıb, etik prinsiplərə görə davranmamıza kömək edir.
8.Daha məlumatlı vətəndaş olmamıza yardım edir. Günümüzdə media və başqa informasiya kanallarıyla ölçüyəgəlməz informasiya axınıyla üzbəüzük. Fəlsəfə reklamların təsiri, siyasi propoqanda və sosial diskurslardan baş açmağa vasitəçi olur.
9.Uğurun öz şəxsi tərifini verir. Fəlsəfə tələbələri öz-özünü sorğulamağa, dəyər və öz dünyalarından baş açmağa kömək edərək, uğurlu olmaq nədir, nə üçündür kimi suallara cavab verir.
10. Müti olmağın qarşısını alır. Fəlsəfə təhsili kritik fikirləşməyə ruhlandırır. Bu isə kreativlik və innovasiyanın vacib aspektidir. (https://drexel.edu>news>october/ Top 10 reasons to study Philosophy/ CoAS/ Drexel University)

**2.Haydeggerin Aristotel marağı**

Haydegger XX əsr fəlsəfəsində kilid fiqurdur. Hələ karyerasının ilk illərindən Aristotel fəlsəfəsi üzərində refleksiyalara dayanan məqalələr yazıb. Haydeggerin özünəməxsus, fenomenologiyanı unikal yozumu da Aristoteli interpretasiyadan qaynaqlanır. Elə bu əsasda fenomenologiyanın vəzifəsini də müəllimi Hüsserldən fərqli müəyyənləşdirir. “Mənim fenomenologiyaya yolum” essesində özü bu haqda yazır.

Bir məsələni xüsusi qeyd etmək lazımdır ki, XX əsrin əvvəllərində Almaniyada Aristotelçilərin araşdırmalarında, eləcə də bütövlükdə kontinental fəlsəfədə yunan fəlsəfəsinə yanaşma və yozumda Haydeggerin təsiri qaçılmazdır. Hətta ingilis-amerikan metodoloji yanaşmanın daha qabarıq olduğu ABŞ fəlsəfəsində belə Haydeggerin təsiri açıq-aşkardır. Əlbəttə, bu təsir birbaşa Haydeggerlə deyil, Leo Strausun fəaliyyəti ilə bağlıdır. Sonuncu zamanında Freyburqda Haydeggerin tələbəsi olmuşdu. Haydeggerin *Aristotel nahar klubu* səhər saatlarında fəaliyyət göstərirdi. Bu seminar və leksiyalarda Hans-Georq Qadamer, Hanna Arendt və Haydeggerin başqa tanınmış tələbələri də iştirak edirdilər.

Haydegger Marburqa getməzdən öncə Freyburqda Aristotel fəlsəfəsindən bir neçə kurs keçmişdi və onun tələbələri də bu yolda irəliləyərək Aristotelçiliyə ciddi töhfələr vermişlər. Onların öz etiraflarına görə, bu araşdırmalar birbaşa Haydeggerin təsiri və hətta başçılığı altında davam etdirilmişdir. Helen Veis, Volter Broker, Ernst Tuqendhat, Karl Ülmer, Fridolin Viplinger Haydeggerin Aristoteli revolyusion yozumundan açıq-aşkar təsirlənmişlər.

Haydegger özü də Aristotel fəlsəfəsindən ciddi şəkildə təsirlənmişdir və bunu “Mənim fenomenologiyaya yolum” essesində etiraf edir: “Fenomenoloji yanaşmayla tanışlıq artdıqcqa, bu, Aristotelin əsərlərini yozumda səmərəli alətə çevrilir və ən azı bu əsasda mən özümü Aristotel və digər antik yunan mütəfəkkirlərdən ayırd edə bilirəm. Əlbəttə, mən Aristotel üzərində araşdırmalarımın önəmli nəticələrini dərhal sezə bilməmişdim. ”(Хайдеггер, 2003:74)

Belə bir fikir geniş yayılıb ki, Haydegger fəlsəfəsi ilkin yunan fəlsəfəsində Aristoteldən başlayan varlığı unutma meylinin öhdəsindən gəlir. Bu fikrin yaranmasında «Varlıq və zaman»ın sonunda Aristotelin zaman anlayışı haqda söylədiklərinin də böyük rolu olub. Başqa səbəb Haydeggerin Platonun həqiqət anlayışı ilə bağlı essesindən qynaqlanır. Platona qarşı bu qədər kritik mövqedə duran Haydeggerin Aristotelə qarşı eyni mövqe sərgiləyəcəyi zənn edilib. Amma Haydegger Aristoteli ilk metafizik olaraq

tənqid əvəzinə, Aristotel əsərlərini inandırıcı və revolyusion şəkildə yenidən düşünməyə sövq edir və hətta iddialarında xeyli uzağa gedir: "Aristotelin əlində heç vaxt daha sonra "metafizika" anlayışı ilə ifadə ediləcək bir şey olmayıb. İllərlə ona aid edilən "metafizika" nı o axtarmayıb belə". Əslində, Haydegger öz fenomenologiya anlayışını birbaşa Aristotel fəlsəfəsi ilə assosiasiya edir. "Zaman anlayışının tarixi"ndə yazır: "fenomenologiya ən böyük ehtimalla Platon və Aristoteli geri həyata qaytarmağı sorğulayır: bizim elmi fəlsəfəmizin başlanğıcını təkrarlama və yenidən qaytarmağı."**(** Хайдеггер, 2003:25)

Haydeggerin Aistotelə həsr olunmuş başlıca esselərinin çoxu əslində Aristotelin genişləndirilmiş tərcümələridir. Bu, interpretativ fəlsəfi tərcümələr və şərhlər Aristoteli oxumaqda yeni cığır açmış, standart, daha yayğın tərcümələrə qarşı fəlsəfə nöqteyi-nəzərindən çağırış kimi səslənmişdi. Əslində fəlsəfənin bir çox mərkəzi anlayışı və sözləri Aristotelin latınlaşdırılmış versiyasından götürülmüşdü. Haydeggerin bu terminləri yeni tərcümələri Aristotel anlayışlarının metafizik köklərinə deyinirdi. O, Aristotel əsərlərindən kilid parçaları çevirməklə Qərb düşüncəsinin atası ilə bağlı ənənəvi fikirləri sorğulayan radikal yanaşma inkişaf etdirir. Haydeggeri qədim yunan fəlsəfəsinə münasibətdə "spekulyativ yanaşma"da günahlandıranlara qarşı da bu tərcümə-şərhlər tutarlı cavab olur. Haydeggerin Aristotel əsərlərindən kilid parçaları fenomenoloji oxusu yunan fəlsəfəsini anlama və yanaşmalarımızda radikal dəyişmələrə səbəb ola bilər. Bu interpretasiyalar Aristotel düşüncələrini açıq sərgiləməklə bərabər, gücünü də elə bu əsərlərdən alır. Bu yozumlar bizə nüfuzedici fəlsəfi oxu üsulunu da öyrədir. Aristotel metafizikasından kursda Haydegger bənzər sözlər istifadə edir: "Aristoteli ötmək zəruridir- amma irəli, proqres istiqamətdə yox, onun söylədiklərinin üstünü ən orijinal şəkildə açmaq istiqamətdə" **.**

Aristotel və Haydegger arasında dialoq Qərb mədəniyyəti üfüqləri boyunca davam edir və özü zəngin fəlsəfə cəhdiddir.

Haydeggerin bəzi Aristotel anlayışlarını fenomenoloji şərhindən əvvəl onun filosof kimliyinə- metafizikaya və fəlsəfəyə münasibətinə nəzər salmaqda fayda var.

## 2. Haydegger-metafizik

"Varlıq və zaman" Haydeggerin əsas, başlıca əsəridir və 1927-ci ildə nəşr olunub. Çap olunmuş əsər birinci hissədir, Haydegger ikinci hissəni çap etdirməyib. Amma ayrı-ayrı başlıqlar hələ o vaxt məlumdu və oxunurdu. Haydegger bu əsəri I Dünya müharibəsindən sonra- Avropa ruhu və varlığının böhranından sonra refleksiya edib yazmağa başlayır. O, sadəcə dövrün başlıca siyasi məsələlərinə səs verib, mənəvi situasiyanı dərindən dərk etməklə yetinmir, metafizika tarixini mərcək altına alır. Yəni Fəlsəfəni metafizika tarixi olaraq qədim yunan fəlsəfəsindən başlayaraq dilləndirir. Mövcudatın varlığının bu refleksiyası XX əsr fəlsəfə və mədəniyyətinin başlıca yeniliklərindən biridir. Haydegger Platon, Aristotel, Dekart, Kant, Şellinq, Hegel, Şopenhauer, Niitsşe yolunu davam etdirən böyük metafizikdir. Amma Haydeggerin bir fərqini xüsusi qeyd etməliyik: filosofların çoxu ideya tarixini qədim dövrdən başlayıb, müasir dövrə doğru irəliləyir. Haydegger fərqli yol tutur: müasirlikdən başlayıb mənbələrə, hətta fəlsəfədənəvvəlki mənbələrə qədər enir və nəticə çıxarır- Qədim yunanların fəlsəfəsi, düşüncəsi fəlsəfi mənada müasir düşüncə və fəlsəfədən daha dərindir! Haydegger özü üçün qədim metafizikanın dərinliyi və zənginliyini açdıqca, müasir metafizika ilə arasındakı uçurumun miqyasını da aşkar edir. Geriyə- şeylərə və mənbələrə dönmək qədim yunan fəlsəfə və mədəniyyətinin prinsiplərinə qayıtmaq anlamındadır. Müasir fəlsəfəyə belə bir korrektiv mümkündürmü?

Haydegger tarixi-fəlsəfi və metafizika ənənələrini öyrənərək nəticə çıxarır ki, köhnə fəlsəfə və mədəniyyətlərin intibahı və hətta müasir fəlsəfəyə hansısa korrektiv mümkün deyil. Problemin həlli yeni metod, yeni fəlsəfə və ya metafizika yaratmaqdan keçəcək. Bu məqsədlə qədim yunan fəlsəfəsinə müasir fəlsəfə "zirvəsindən" baxmaq yetərsizdir. Qədim fəlsəfəni elə qədim xalqlar, qədim yunanlar nöqteyi-nəzərindən başa düşmək lazımdır. Haydegger bu səbəbdən varlıq məsələsini öyrənməkdən başlayır və dərhal problemlə üzləşir: "Varlıq özünü bizə hansısa çoxşəkilli əksliklərlə bəlli edir ki, bu, təsadüfi ola bilməz, elə bu əksliklərin sadə sadlanması onların daxili əlaqəsinə işarət edir: varlıq eyni zamanda boş və zəngin, eyni zamanda universal və unikal olan, eyni zamanada ən aydın və hər cür anlayışa əks olan, eyni zamanda tətbiqdən yayınan və bununla belə ilk hücuma keçən, həm ən etibarlı və sonu bəlli olmayan, həm unudulan və ən çox yadda qalan, həm ən çox anılan və susulandır"**(** Хайдеггер, 2003:11). Haydeggerə görə, varlığın bu ziddiyyətliliyi "varlıq və mövcudatın fərqliliyi"ndən qaynaqlanır.

Filosof nə dünyanı ənənəvi xristian izah modeli, nə ideya və dəyərlərə dayalı izahla, nə də dünyanı, həyatı şərh üçün sadə alətlər və anlayışlarla qane olmur. "Varlığa münasibətdə bu biganəlik mövcud olana qarşı bu həddən ziyadə ehtiras fonunda bütövlükdə dövrün metafizik xarakterinə işarədir. Bu vəziyyətin

əsas təzahürü tarixi qərarların əvvəlki mədəniyyət sahələrindən- siyasət, elm, incəsənət və cəmiyyətdən- “dünyagörüşü” sahəsinə köçürülməsi şəklində üzə çıxır”.

“Dünyagörüşü” yeni avropa metafizikasının yeni simasıdır və onun başa çatdığı siyuasiyada qaçılmazdır. Bu vaxtadək fərqli Qərbi Avropa tarixlərinin vahid şəklə salınmasının nəticəsidir. “İdeya” və “dəyər”in dünyanı dünyagörüşü şəklində şərhin başlıca alətlərinə çevrilməsi bu vahid şəkləsalma istəyinin nəticəsidir. İdeya və dəyər ikilisinin qoşalaşması nəticəsində ideyanın mahiyyətindən varlığın xarakteri və onun mövcudatdan fərqləndirilməsi itir. Belə bir vəziyyətdə varlıqdan, “ontologiya”dan və metafizikadan danışmaq yersizdir, onlar tarixi formalaşdırmaq qabiliyyətlərini itirmişlər. Dünyagörüşü metafizikanı öz hakimiyyəti altına almışdır. Metafizikanın indiki xüsusiyyəti- varlıq və mövcudluğu fərqləndirə bilməmək və bu məsələyə münasibətdə biganəlik metafizikanın “dünyagörüşü” kimi fərqləndirən xüsusiyyətidir.

Martin Haydeggerin fundamental məsələsi də burda meydana çıxır. Metafizikanın başa çatması ilə ilk dəfə mövcudat üzərində tam, qeyd-şərtsiz, heçnəylə pozulmayacaq hakimiyyət bərqərar olur. “Metafizikanın ...başa çatması dövrü bizi vadar edir ki, varlıq tarixinə ən yaxın yolu necə tapaq, niyə biz bu tarixi öncə varlığı düzənləməyə (qaydaya salma- M.A.) buraxma (Machenschaft) kimi hiss etməliyik, varlıq özü necə bir buraxılışa rəvac verir ki, onun həqiqəti insanın varlığa aidliyi vasitəsilə insan üçün əhəmiyyətli olsun ”**(** Хайдеггер, 2003: 24).

Haydeggerin “Varlıq və zaman”, eləcə də bütövlükdə yaradıcılığında cavab axtardığı əsas sual budur.

**4.Haydegger fəlsəfənin spesifikliyi haqda**

1. Bu spesifiklik fəlsəfənin anlayış və kateqoriyalarının metafizik xüsusiyyətləri ilə bağlıdır. Onlar ancaq bir-biri ilə əlaqəli izah oluna bilər və bu qapalı çevrədən çıxmaq mümkün deyil. Varlıq məsələsinin ontoloji ilkinliyi fəlsəfəni həm təbii-elmi, həm də humanitar elmlərdən fərqləndirən əsas məsələdir. Sonuncularda yeni anlayışların meydana çıxması köhnələri elmi dövriyyədən kənarda qoya və hətta sürətli şəkildə yeni məzmun qazanmasına səbəb ola bilər. Fəlsəfədə vəziyyət başqa cürdür: anlayış və kateqoriyalar tarixi məna və əhəmiyyət qazanır. “Fəlsəfi ilkinlik tarix anlayışını yaratma nəzəriyyəsində, eləcə də tarixin obyekti kimi tarixi idrak nəzəriyyəsində deyil, gerçəkdən tarixi mövcud olanın öz tarixiliyində interpretasiyasında üzə çıxır” **(**Хайдеггер,2003:10). Burda Haydegger Kantın “Saf əqlin tənqidi”ndə şərh etdiyi təlimə əsaslanır. Haydegger ontologiyanı ən geniş planda- əsas məsələsi varlığı şərh olan istiqamət və ya meyl kimi qiymətləndirir. “Ontoloji məsələ köklü pozitiv elmin optik sualına qarşı durur... İstnilən ontologiya, hətta zəngin və tamamlanmış kateqoriyalar sisteminə əsaslansa da, əvvəlcədən kifayət qədər aydın şəkildə varlığın mənasını izah etmədiyi və bu izahı fundamental məsələ olaraq qəbul etmədiyi təqdirdə yetərsiz və öz əsl niyyətindən uzaq düşmüş olacaq.”(yenə orda)

2. Haydegger varlığın həm ontoloji, həm də ontik ilkinliyi məsələsini əsaslandırır. Mövcudluq kateqoriyasını da bu əsasda müəyyənləşdirir. “Elm təklif əlaqələrinin tam əsaslandırılması kimi başa düşülə bilər... Elm bu mövcud olanın (insanın) varlıq üsulunu insanın münasibəti kimi görür. Biz terminoloji olaraq bu movcud olanı mövcudluq kimi anlayırıq... Mövcudluq mövcud olandır... Mövcudluq nəsə bir şəkildə başa düşülür və öz varlığında müəyyənləşir... Varlığın başa düşülməsi mövcudluğun varlığının müəyyənliyinin özüdür. Varlığın optik mövcudluğu onda ifadə olunur ki, o, ontolojidir. Varlıq özü, hansına ki mövcudluq həmişə aiddir və ya hansısa şəkildə aid ola bilər, biz ekzistensiya adlandırırıq... Mövcudluq hər zaman özünü ekzistensiya kimi, öz-özünün imkanı , öz-özü olmaq və ya belə olmamaq kimi anlayır” **(**Хайдеггер, 2003:11-12)

3. Yuxarıda deyilənlərdən göründüyü kimi Haydegger mövcudluq deyəndə, ontoloji əsası nəzərdə tutur. Amma ontoloji olan optik olanla sıx bağlı olduğu üçün ekzistensiya ilə təyin olunn mövcudluq ontoloji-optik səciyyəlidir. Burda optik ekzistensial olana bərabərdir. Elə bu səbəbdən Haydeggerə görə, “fundamental ontologiyanı mövcudluğun ekzistensial analitikasında”**(**Хайдеггер, 2003:13) və ya ümumiyyətlə varlığın mənasını interpretasiya üfüqlərini açan mövcudluğun ontoloji analitikasında axtarmaq lazımdır. Təbii ki, Haydegger varlıq və zamanın əlaqəsinə işarə edir. Bu əlaqə dərindir, ilkindir, məntiqəqədərki və analyışaqədərkidir. “Zamanca olmaq mövcud olanın varlığının mənası kimi təzahür edir ki, biz onu mövcudluq adlandırırıq” **(**Хайдеггер,2003:17).

Zamanı ilkin eksplikasiya, varlığı anlamanın üfüqü kimi mövcudluğun varlığına çevrilmiş varlığın ötəriliyindən çıxarılır. “Zaman fenomeni hər cür ontologiyanın mərkəzi mövzusu kimi dərinliklərdədir” **(**Хайдеггер, 2003:18)

Haydegger hər şeydə məğzi və mənbələri axtarır. Onun üçün fenomenologiya hadisə və şeylərin dərinliyinə enməyə imkan verən sahədir. Məsələn, fenomenologiya mövcudluğun tarixiliyini başa düşməyə kömək edir.

**5.Aristotelin fenomenoloji interpretasiyası və ya hermenevtik situasiyanın ekspozisiyası**

1922-ci ildə fəlsəfə professoru vəzifəsinə iddiaçı olan Haydegger bu adda məruzə hazırlayır. Uzun müddət itmiş hesab olunan əlyazmalar aşkar edilərək çap olunub. "İnterpretasiyalar" "Varlıq və zaman"a gedən yolda mühüm addım olduğu kimi, Haydeggerin fəlsəfə proyektini aydın sərgiləyir. Hələ bu məruzədə Haydegger, fundamental ontologiyanın reallaşma yolunun ontologiya tarixini destruksiyadan keçməsi fikrini əsaslandırır.

Hər şeydən əvvəl qeyd edək ki, "İnterpretasiyalar"da və ya qısa adı ilə "Natorp-Bericht"-də tam bir elmi fəlsəfi anlayış aparatı təqdim olunur.

«Varlıq və zaman»ın girişində olduğu kimi bu essedə də Haydegger istənilən ontoloji fundamental yanaşmanın fəlsəfə tarixini destruksiyadan başlanmasından söz açır. Haydeggerin dekonstruktiv oxusu, keçmişə qeyri-müəyyən münasibətdən qaynaqlanan stereotip və önyarğıları aradan qaldırmaqdan çox, dekonstruksiya və zamanı geri alma arasında hərəkatdır. Hermenevtika sadəcə ənənəni dağıtmır, ənənələri qeyri-kritik münasibətlə ötürmənin üstündən pərdəni qaldırmaqla autentik fəlsəfə ölçülərini də geri qaytarır. İkili destruksiya və geriyə dönmə hərəkatı fəlsəfi tədqiqatın ayrı-ayrı mərhələləri kimi başa düşülməməlidir. Bunlar iki ayrı vəzifə deyil və hər hansı biri o birindən öncə gəlmir. Bu iki vəzifə bir-birinə aiddir və Haydeggerin Aristotelə qayıdış yolu da onlar arasında qarşılıqlı əlaqədən keçir.

Bu da taleyin ironiyasıdır ki, Aristotel özü də Fizika və Metafizilanın I kitabında öz xələfləri ilə əlaqəsini sorğulamaqla öz fəlsəfə yapma yolunu müəyyənləşdirmişdi. Aristotel üçün bu sadəcə ilkin tədqiqat yox, onun öz proyektinə motivasiya verən sualları aşkar etmək və tapmaq demək idi.

Haydeggerin hermenevtikayla bağlı ilkin diskussiyalarının bütövlükdə məqsədi onun öz dövründə orijinal fəlsəfənin Aristotelə dönüşü tələb etməsini açıb göstərmək idi. "Biz üzümüzü Aristotelə dönməklə fəlsəfi sorğulamanı konstitutiv yapan xüsusiyyətləri bulmuş olarıq".

Haydegger özünün "Hegel və yunanlar" essesində Hegeldən sitat gətirir: "Nə vaxt ki Hegel deyir ki, əgər fəlsəfədə ciddi nəsə axtarırıqsa, Aristotellə bağlı leksiyalardan daha dəyərli bir şey ola bilməz."

Amma Aristotelə bu münasibət onun Varlığa çatmaqda hansısa üstünlükləri ilə yox, məhz müasir fəlsəfi vəziyyəti hermenevtik qiymətləndirmə ilə bağlıdır.

Bəs niyə *fəlsəfə hər zaman ikili dağıtma və qurtarma hərəkatıdır*? Haydeggerə görə, bu, fəlsəfənin ontologiya kimi fundamental şəkildə tarixi olması ilə bağlıdır. Fəlsəfədə varlıq məsələsini həqiqi izləmə varlıq anlayışına tarixən verilən mənaları izləməkdir. Varlığın mənasını geri qaytarmaq ənənənin hansı qaynağının davam etməsini axtarıb tapmaqdır. Haydegger hələ 1922-ci ildən əmindi ki, Aristotelə qayıdış zaman məsələsini daha radikal araşdırmalara rəvac verəcək.

Haydeggerə görə, ontoloji araşdırmalar əsasən tarixi xarakterlidir. Anlama situasiyası isə hermenevtikdir, tarixin dərinliklərində gömülüdür. Varlıq kateqoriyalarının hansısa sistemli, fəlsəfi vurğulanması tarixi olaraq qalmalıdır.

Haydegger fəlsəfəni orijinal düşüncə sahəsi kimi yenidən aşkar etmək, radikal suallar öhdəsinə buraxmaq istəyir. O iddia edir ki, Qərb metafizikası bu cür orijinallığa, radikal sorğulara rəğmən, bu sualları çox vaxt depoda saxlayır. O, "Fəlsəfənin sonu"nda yazır ki, "metafizika heç vaxt varlıq tarixinin özünü, əslini, mahiyyət işığını gətirə bilməmişdir " **(**Heidegger, 1972:25) .Ənənə doktrinalar saxlambacı kimidir, onlar özlüyündə inkişaf edir və varlıq anlayışının mənasından uzaq fəaliyyət göstərir. Aristotel və yunan fəlsəfəsi primitiv həqiqət ifadələrinə daxil edilir, və ya yüksək səviyyəli inkişaf sistemləşdirmənin arxasında qalır.

**6.Bir daha Aristoteli fenomenoloji oxu haqda**

Haydeggerin fenomenoloji oxusu Aristotel fələsfəsinin bütününü əhatə edir. Xüsusi vurğu Fizika, Metafizika, Etika və Metafizika üzərinə düşür. Əslində Haydeggerin Aristotel oxusunun məqsədi varlıq haqda öz düşüncələrini çatdırmaqdır. Xüsusən Fizika və Metafizikaya yazdığı yozumlar Aristotelin metafizikanı fizika olaraq anlaması yönündədir. Haydegger Aristotelin *physis* anlayışına yanaşmasında yunanlar üçün bu sözün ümumilikdə varlıq anlayışına işarət olmasını zənn edir. Aristotelin təbiət anlayışının hərəkət və dəyişmə ilə bağlı olmasını vurğulayaraq, Haydegger oxusu bir çox ənənəvi Aristotel oxusundan fərqli olaraq məhrumiyyəti Aristotelin *ousia* (Aristotelin varlıq anlayışı) sözünə yaxın yozur.

Haydegger Aristoteldə *dunamis*, güc anlayışlarını varlığı çoxyönlü hissetmənin təzahürü kimi təqdim edir. Haydeggerin *dunamis* və *energeia* –nı oxusu, varlığı substansiya kateqoriyasınadək kiçildən ənənəvi Aristotel Metafizika-sını oxusu qarşısında bir çox suallar qoyur.

Haydegger Aristotelin praktik fəlsəfəsini də fenomenoloji interpretasiya obyektinə çevirir, etika və ritorikaya ayrıca diqqət yetirir. Haydegger oxusunda Aristotelin etika anlayışı əvvəlcədən normativ suallara yox, belə demək mümkünsə, insan varlığı ontologiyasına yönəlidir. Haydeggerin Varlıq və Zamanda özünə aid orijinal insan mövcudluğu anlayışını təhlili göstərir ki, Aristotelin etika və ritorikasından nə dərəcədə çox təsirlənmişdir. Haydeggerin Aristotel oxusu dualistik paltonizmi aşaraq, Aristotellə dialoqa girir. Bu dialoqlardan görünür ki, Haydegger Aristoteli fenomenologiyaya yatqın mütəfəkkir görməklə yanaşı, öz unikal fenomenologiya anlayışını da bu dialoqlardan çıxarır.

Qeyd etmək lazçmdır ki, Haydeggerin Aristotel terminlərini spesifik yozumu xüsusən Metafizika və Fizika-dan xüsusi bölmələri tərcüməyə dayanır. Bu oxu revolyusion xarakterlidir və bütövlükdə Aristotel fəlsəfəsini anlamağı əhatə edir. Aristoteli ənənəvi yozumdan fərq hələ tərcümə səviyyəsində üzə çıxır. Əslində bunu bir çağırış olaraq qəbul etmək olar. Aristoteli Azərbaycan türkcəsinə alternativ tərcümə cəhdlərində bulunmaq olar. Standart tərcümələri sorğulamaq fəlsəfi fikrin özünü inkişaf etdirir. Haydeggerin xidmətlərindən biri də yunan sözlərinin özünə fəlsəfi nöqteyi-nəzərdən yanaşma və Aristoteli yozuma latıncadan gələn təsir, yozumlardan azad etməsidir. *Subtance* kimi sözlər latıncadan alınma *substantia* anlayışına qarşı yunan sözü *oisa*-nı tərcümədən çox yozumdur və bu yanaşma üstündən keçiləcək məsələ deyil.

Haydegger Aristotel kimi fəlsəfədə metodun önəmini başa düşən filosofdur və metodoloji dəyərləndirmə Aristotel oxusunun xüsusiyyətlərindən biridir. Hələ 1922-ci ildə yazdığı "Aristoteli fenomenoloji oxu: Hermenevtik situasiyanın göstəriciləri" essesində Aristotelə giriş yazmağa niyyətlənmiş, amma belə bir kitab çap etdirməmişdir. Bununla belə aydındır ki, onu hələ gəncliyindən Aristotelə cəlb edən onun fenomenoloji interpretasiyaya yatqın olmasıdır. Əlbəttə, bu mübahisəli məsələdir ki, Haydeggerin Hüsserl fenomenologiyasını özününkünə transformasiyası, eləcə də varlıq anlayışı tarixinə marağı və bu tarixi destruksiya cəhdi elə Aristotel oxusundan qaynaqlanır. Haydegger Aristoteldə elə bir mütəfəkkir tapır ki, o, varlıq anlayışını varlıqlar əsasında izah etməyə çalışan xələflərini kəskin tənqid edir, ontoloji fərqliliyə meyl edir. Yunan fəlsəfəsində Aristotelin aporiyaları həll üsulu, xüsusən çətin anlaşılan mövzuları ontoloji səviyyəyə qaldırması, bu fərqliliyi bəyənməsi Aristoteli Haydeggerin diqqət nöqtəsinə çevirib. Digər tərəfdən, Haydeggirin fikrincə, Aristotelin metodoloji yanaşması yunanlar üçün varlığın əsas mənasından yan ötür, Aristotel ontoloji fərqlilik zəminində fikir yürütsə də, fərqin özünün fərqində deyil. Haydeggerin özünün məxsusi fəlsəfi məsələsi Aristotel düşüncəsinin limitlərini aşmaqdır.

Haydeggerin Aristoteldə tapdığı əsas məsələlərdən biri varlığın ikililiyi ideyasıdır. Aristotel fəlsəfəni varlığı öyrənmə sahəsi kimi müəyyənləşdirir. "Aristotel varlığın iki müxtəlif yolunu fərqləndirir və onlar varlıqların üzə çıxma yollarıdır. Varlıqlar birlikdə varlıq olmalarından fərqli varlığa malikdirlər. Sintez bu varlıqların birgə üzə çıxma yoludur" **(**Хайдеггер, 2012:199). Aristotel xələflərinin *arche*-nin ikiliyi ideyasına qarşı çıxır. Aristotelin ziddiyyətləri müzakirəsi, onun varlığın maddə və forması , potensiallıq və aktuallıq kimi konstitutiv prinsiplərə malik olmasını iddia etməsi ikili *arche* anlayışına işarətdir. Bu məsələlərin aşkarlığına rəğmən, Haydeggerin firincə, varlığın ikiliyi məsələsi ya danılmış, ya da yanlış anlaşılmışdır. Aristotel fəlsəfəsi *phusis*-in ikiliyini varlığı xarakterizə edən təkliyi danmadan refleksiya etməyə cəhd edir. İnsan varlıqları bu ikiliyi öz loqoslarının varlıq və varlıqların ikiliyi fəzası arasında dayanmış qavraya bilər. Haydeggerin Aristotel loqosunun ikili mövqeyini izahı xüsusən *epagoge*-nin şərhində üzə çıxır. Sonuncu adətən induksiya kimi tərcümə olunub, loqos və eydos arasında münasibət kimi təhlil olunub. Fəlsəfi dərk üçün varlığın ikiliyinin anlaşılması Aristotelə görə vacibdir. Haydegger bundan nəzəriyyə və praktikanı bir araya gətirmək üçün *sophia* və *phrones* anlayışlarının yozumu vasitəsilə istifadə edir.

**Nəticə**

Haydeggerin Aristoteli interpretasiyası bir neçə aspektdə önəmlidir. Əvvəla, fəlsəfə tarixində sxolastika ənənələrindən qaynaqlanan latın tərcüməsi əsasında yunan fəlsəfəsinə yeni, alternativ yanaşma təklif edir. Anlayışları yeni şərhlə bütövlükdə yunan fəlsəfəsini təzədən nəzərdən keçirmək məsələsi qaldırır.

Aristoteli interpretasiya Haydeggerin fəlsəfi baxışlarının formalaşmasında xüsusi əhəmiyyət daşıyır. Araşdırmaçıların çoxu Varlıq və Zamanın əsas ideyalarının bu interpretasiyalar əsasında formalaşması

qənaətindədirlər. Digər tərəfdən, Haydegger Aristotelin praktik fəlsəfəsində insan Dasein-in ontologiyasını görür.

Aristotel fəlsəfəsindəki terminlərin yenidən şərhi qədim yunan fəlsəfəsinin bir çox çətin anlaşılan mövzularına işıq tutur. Digər tərəfdən, Haydegger bu yolla öz dövrünün fəlsəfi müzakirələrinə töhfə vermiş oldu.

Haydeggerin Aristotel interpretasiyaları "fəlsəfənin sonu"nun elan olunduğu növbəti dəfə fəlsəfədə yeni başlanğıclara səsləyir.

## ƏDƏBİYYAT


1. Heidegger M. The End of Philosophy and the Task of Thinking //On Time and Being. Martin Heidegger, translated by Joan Stambaugh, 1972 by Harper &Row, Inc
2. (https://drexel.edu>news>october/ Top 10 reasons to study Philosophy/ CoAS/ Drexel University)
3. Хайдеггер М. Бытие и Время. Пер. с нем. В.В. Бибихина- Харьков: Фолио, 2003- 503 с. (philosophy)
4. Heidegger M. My Way to Phenomenology //On Time and Being. Martin Heidegger, translated by Joan Stambaugh, 1972 by Harper &Row, Inc
5. Heidegger M. The history of Time concept //On Time and Being. Martin Heidegger, translated by Joan Stambaugh, 1972 by Harper &Row, Inc
6. Хайдеггер М. Феноменологические интерпретации Аристотеля, перевод Артеменко Н.А., из. Гуманитарная академия, 2012
7. Phenomenological Interpretations of Aristotle: Initation into Phenomenological Research (1921-22), trans. Richard Rojcewicz, Indiana UP, 2008
8. Walter A. Brogan. Heidegger and Aristotle. The twofoldness of Being- SUNY series in contemporary continental philosophy, 2005 State University of New York

# MƏDƏNİYYƏTDƏ ÜNSİYYƏT AMİLİ VƏ MİLLİ ÖZÜNÜDƏRKƏ SOSİAL İŞÇİ MÜNASİBƏTİ

**Məhsəti CƏFƏROVA**[51]

***Xülasə***

Müasir dövrdə digər sahələrlə yanaşı sosial işdə də yeni fəaliyyət proqramlarının, layihələrinin, modellərin hazırlanması və yerinə yetirilməsi zərurəti yaranmışdır. Bu isə sosial işçilərdən yeni, hərtərəfi biliklər, bacarıqlar, vərdişlərin foramalaşdırılmasını tələb edir. Sosial iş prosesinin elmi ardıcıllıqla, müvafiq mərhələlərlə, eyni zamanda yüksək keyfiyyətlə həyata keçirilməsi üçün həmçinin milli mədəniyyətimizin keçdiyi tarixi mərhələlər, qədim və zəngin çalarlara malik olması, ayrı-ayrı tarixi dövrlərdə dünya mədəniyyətinə təkan verməsi, onu zənginləşdirməsi kimi məsələlər sosial işçilər tərəfindən dərindən öyrənilməli, müqayisələr, təhlillər aparılmalı, müvafiq elmi nəticələr əldə olunmalıdır. Bütün bu proseslərdə ünsiyyət amilinin milli özünüdərkin əhəmiyyəti mühümdür. Əlbəttə, təqdim olunan materialda bu baxımdan ayrı-ayrı alim-tədqiqatçıların fikirlərinə də istinad edilmişdir, lakin gələcək tədqiqatçılıqda bu sahə daha dərindən araşdırılmalıdır.

Azərbaycan mədəniyyəti qədim və çox zəngin mədəniyyətdir. Milli mədə-niyyətimizin sürətli inkişaf prosesində olmasında ünsiyyətin səmərəli qurulması xüsusi əhəmiyyət kəsb edir. Çünki, ünsiyyətsiz mədəniyyət ya mövcud olmaz, yaxud inteqrasiya etməz, sevilməz, təbliğ edilməz və s.

Bütün bu proseslərdə məqsədyönlü ünsiyyətin qurulması üçün ən vacib vasitə insandır. Məhz insan vasitəsilə əlaqələr, yaradıcı münasibətlər, bədii, elmi müqayisələr, dəyərləndirmələr, tətbiqlər və s. yerinə yetirilir. Bütün kommunika-siya vasitələrinin, texnologiyaların, internetin, radionun, televiziyanın, digər kom-munikativ texniki vasitələrin yaradıcısı da insandır. Buna görə də sosial işçilər də bütün bu proseslərdə öz münasib ünsiyyətləri ilə mədəniyyətimizin daha da inkişafına, onun tarixiliyinin və zənginliyinin öyrənilməsi, yayılması, bəşər mədə-niyyətinə inteqrasiyasında fəal iştirak etməkdədirlər.

***Açar sözlər:*** *mədəniyyət, ünsiyyət, milli özünüdərk, yaradıcılıq, maddi və mənəvi dəyərlər, akkulturasiya,*

## Communication Factor in the Cultural Complex and Social Worker Attitude in the Process of National Self-Awareness

**Summary**

In modern times, as in other fields, there is a need to develop and implement new activity programs, projects, and models in the social field. This, in turn, requires social workers to form new, all-round potential knowledge, skills, and habits. The implementation of the process of social activity in a scientific sequence, with relevant stages, and at the same time with high quality is extremely important, in principle, against the background of the historical stages of our national culture, especially when it is taken into account that it has ancient and rich shades.

Especially in this context, issues such as the promotion of national culture in different historical periods and its enrichment should be deeply studied by social workers, comparisons and analyzes should be made, and appropriate scientific results should be obtained. The importance of national self-awareness in this whole communication factor process is an extremely important reality. Of course, the presented material also referred to the opinions of individual scientists-researchers in this regard, but in the future research process, this area should be explored more deeply.

Azerbaijani culture is a very rich and ancient culture. Against the background of the current requirements of our national culture, in the process of interactive development, it is the effective establishment of communication that is of particular importance. Because the existence of culture without communication is impossible, and in this context, culture does not integrate, is not loved, is not propagated, etc.

In all these processes, the most important tool for building purposeful communication is the human factor. It is through human relations, creative relations, artistic, scientific comparisons, evaluations, applications, etc. the process of formation and transformation takes place. The creator of all means of communication, technologies, Internet, radio, television, and other communication technical means is a human being. Therefore, in all these processes, social workers actively participate in the further development of our culture, in the study, dissemination and integration of its history and richness into human culture with their appropriate communication.

***Keywords:*** *culture, communication, national self-awareness, creativity, material and spiritual values,*

*UOT-101.1:316*

[51]**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının müəllimi** mehseti.ceferova@inbox.ru

**Giriş**

Bütün tarixi dövrlərdə mədəniyyətlərin təşəkkülündə və inkişaf etməsində ünsiyyətin rolu olmuşdur. Məhz ünsiyyət vasitəsilə insanlar arasında məlumatlar ötürülür, ötürülən həmin informasiyalar bəşəriyyətin inkişafını təmin edir. Beləliklə, ünsiyyət bəşəriyyət üçün əvəzolunmaz bir əhəmiyyət kəsb etməklə ictimai həyatın bütün sferalarında insanların, cəmiyyətin digər üzvləri ilə münasibətlərini tənzimləməkdə və mədəni əlaqələrin yaradılmasında mühüm təsirə malikdir. Bu baxımdan sosial işçilərin ünsiyyətdən maksimum yararlanmaları, bu prosesin keyfiyyətli qurulmasında vacib prinsiplərə əməl etmələri danılmazdır.

Ümumiyyətlə, insanların məqsədyönlü qarşılıqlı əlaqəsi üçün bilavasitə sağlam ünsiyyətin vacibliyi özünü göstərir. "Hazırki dövrdə ictimaiyyətdə sağlam ünsiyyətin bərqərar edilməsi əsas prioritet istiqamətlərdən biri hesab olunur. Xüsusilə də, milli özünüdərk prosesində sağlam ünsiyyətin rolu əvəzsizdir. O, eyni zamanda ətrafında olan insanları da qavrayaraq onlarla qarşılıqlı əlaqəyə, sağlam insani münasibətlərə girməyə çalışır" (*İmanov,2008:*145).

Məlum olduğu kimi, ünsiyyət şifahi və yazılı formada mövcud ola bilər. Sosial işçi tərəfindən mədəniyyət prosesində ünsiyyətin etiket qaydaları arasında önəmli fərqlər mövcuddur. Adətən sosial işçilər etiket qaydalarına düzgün riayət etməyə çalışırlar. Mədəni fəaliyyətdə ünsiyyətin qurulmasında əsas məqsəd informasiyanın uzaq məsafələrə ötürülməsi və əhali qruplarına çatdırılmasıdır. Bu prosesdə sosial işçilər müxtəlif istiqamətli yaradıcılıq tələbatlarını ödəyir, ünsiyyət vasitəsilə əlaqə saxlayır, mədəniyyət və incəsənət xadimləri arasında əlaqə reallaşır. Sosial işçilərin özlərinin də mənəvi-psixoloji keyfiyyətlərinin dəyişilməsində də ünsiyyət mühüm əhəmiyyət kəsb edir və sosial işçilər getdikcə formalaşırlar.

Qeyd edək ki, əgər sosial işçi mədəni əlaqələrin qurulmasında, yaradıcılığın daha da yayılmasında ünsiyyətdən istifadə etməlidirsə, bu zaman o, xalqın, mühitin tarix və mədəniyyətinə dərindən bələd olmalıdır.

Mədəniyyətdə, incəsənətdə, yaradıcılıqla bağlı ünsiyyətin qurulması ayrı-ayrı istedadlı fərdlərin qabiliyyəti və bacarıqlarının əlaqələndirilməsi nəticəsində olur. "Yaradıcılıq insanın ətraf dünyadakı real əlaqələrindən təcrid olunmuş halda deyil, onlarla sıx əlaqədə baş verir. Yaradıcılığın subyektinin tapdığı yenilik bir müddətdən sonra cəmiyyətin ümumi mədəniyyətinə və ideyalarına qovuşur" (*Xəlilov,2006 :*267).

Sosial işçi bilməlidir ki, yaradıcılıq şəxsi və intellektual mədəni bacarıqlar, eyni zamanda özü-özünə tənqidi yanaşma halları prosesində mövcud olur. "Yaradıcılıq prosesində bir çox sosial və şəxsi amillər, o cümlədən də şəxsiyyətin psixoloji keyfiyyətləri, onun xarakteri, iradəsi, təcrübəsi, ehtirasları, intellekti və sair mühüm əhəmiyyətə malikdir. Yeni ideyalara münasibətdə həssas olmaq, müstəqil problemlər irəli sürmək və həll etmək qabiliyyəti zəruridir. Öz əvvəlki baxışlarına tənqidi yanaşa bilmək, cəsarət və səbirlilik yaradıcılığın mühüm şərtidir" (*Xəlilov, 2006:26*7).

Hazırda kütləvi kommunikasiya vasitələri ilə xüsusi mədəni bacarıq və qabiliyyətə malik ünsiyyət qurulmaqdadır. Zaman etibarilə rabitə və ünsiyyət əvvəlcə dövri mətbuat, radio və televiziya, sonralar isə elektron kommunikasiya vasitəsilə yerinə yetirilmişdir. Müasir dövrdə bilavasitə sosial işçilərin də köməyi sayəsində kütləvi kommunikasiya vasitələrindən istifadə olunmaqla yayılan mədəniyyət nümunələri yaradıcı şüurun meydana gəlməsi və formalaşmasında aparıcı rola malikdir. "Müasir insanlar arasındakı ünsiyyət, səciyyəvi cizgilərin formalaşması şərtlərini ön plana çıxarır. İndi informasiya mübadiləsi kütləvi kommunikasiya vasitələri, xüsusilə mətbuat, radio, kino, televiziyanın köməyi ilə aparılır. Bunun özü də sosial-siyasi idarəçiliyin mühüm alətinə çevrilir. Kütləvi kommunikasiya vasitələri sosiomədəni informasiyaların yayılmasına deyil, eyni zamanda mövcud rəylərin sabitləşməsinə kömək edir və insanın sosiallaşması prosesinə mühüm təsir göstərir" (Abdullayeva,2006:119).

Hazırda internetin meydana gəlməsi isə kütləvi kommunikasiyanın imkanlarını kökündən dəyişdi. Müasir dövrdə qlobal fenomen kimi internetin fəaliyyəti və inkişafı sayəsində internet mədəniyyəti anlayışı yaranmışdır. Buna görə də hər bir sosial işçi yaranmaqda və sürətli inkişafda olan texniki vəsaiti dərindən öyrənməli, internet resurslarından tam istifadə etməlidir. Mədəni inkişaf və internet texnologiyası paralellik təşkil etməlidir.

1.**Mədəniyyətin Funksiyalılığının Dərkində Sosial İşçi Ünsiyyətinin Əhəmiyyəti**

Mədəni ünsiyyətdə sosial işçi qərəzsiz olmalı və digər insanlarla ünsiyyətdə obyektivlik sərgiləməlidir. Sosial işçi mədəniyyətdə etiket qaydalarına, yüksək davranış mədəniyyətinə xüsusi önəm verməli, həssaslıq göstərməlidir. Belə prosesdə sosial işçi özü də mədəniyyətin subyekti qismində çıxış edə bilər. Bu mənada

mənəvi dəyərlərin üstünlüyü ilə seçilən sosial işçi mədəniyyətin təmsilçisidir. Beləliklə, ünsiyyət vasitəsi ilə ifadə edilən məqsədyönlü fəaliyyətin kommunikasiya adlandırılması zəruri sayılır (Hacıyev, 2012:26).

Ayrı-ayrı xalqların, mədəniyyətlərin, müxtəlif mədəni, zəngin sərvətlərin yaranması və yayılması üsulları mahiyyət və kəmiyyət etibarilə fərqli xarakterə malikdir. Kütləvi mədəniyyətdə mədəniyyət nümunələrinin təşəkkülü və yayılması baxımından bu mədəniyyət formasında ünsiyyət də kütləvi şəkil alır.

Hər hansı mədəni proseslə bağlı informasiyanın ünsiyyətlə ötürülməsi üçün məlumatın əldə edilməsində yaradıcı mühit, cavab və göndərmə tərzi kimi mənbədən istifadə edilir. Ünsiyyət yalnız insanlar arasında deyil, həmçinin kompüterlə yaradıcı insan və yaradıcılıq nümunəsi ilə insan arasında da həyata keçirilə bilər. Beləliklə, ünsiyyət də maarifçilik xüsusiyyəti kəsb etməlidir. Mədəni tərəqqisi sayəsində ünsiyyət də zaman keçdikcə müvafiq təsir gücünə malik olur. Elmin inkişafı sayəsində yeni elmi anlayışlar ünsiyyət sferasına daxil oldu. Qeyd edək ki, bütün bu qəbildən olan proseslər elitar təbəqənin ünsiyyəti sayəsində zənginliyin yaranmasına səbəb oldu. Bütün bunlar da öz növbəsində yeni elmi, mədəni, dünyagörüşlü sosial işçi şüurunun formalaşmasını zəruri etmişdir.

Sosial işçinin davranış mədəniyyəti tələb edir ki, yaradıcı insanlara, onların zövqünə qayğıkeş və həssas olasan, başqalarına obyektiv münasibətinlə diqqəti cəlb edəsən. Sosial işçi insanın mədəni inkişafına "düşünülmüş" nəsihətçilik mövqeyindən yanaşmır, adamlara xeyirxahlığını, köməyini "nəzəri gücü" ilə yox, əməli işi ilə, vicdanlı fəaliyyəti ilə təsdiqləyir. Sosial işçinin danışıq mədəniyyəti ən əvvəl, öz fikrini dəqiq, aydın və yüksək mədəniyyətlə ifadə etməkdə özünü büruzə verir. Ümumiyyətlə, nəzakətli, mərifətli danışmaq qabiliyyəti insanın ümumi mədəniyyətinin göstəricisidir (Əmirxanov,2002: 25).

1832-ci ildə rəsmi bülleten xarakterli "Tiflis əxbarı" və 1845-ci ildə "Zaqafqazskiy vestnik" qəzetləri, "Qafqazın bu tərəfin xəbəri" adlı nəşrlər çap edilmişdir. 1875-ci il iyulun 22-də "Əkinçi" qəzetinin ilk nömrəsi nəşr edilmişdir.

XX-ci əsrin əvvəllərindən "Molla Nəsrəddin", "Dəvət – Qoç", "Dəbistan", "Bakinski raboçi", "Tuti", "Kəlniyyət", "Hilal", "Tərəqqi", "Babayi-Əmir", "Məzəli" və sair qəzetlər, jurnallar çap edildi. Daha sonralar "Həyat", "Şəlalə", "Təzə həyat", "Füyuzat" kimi qəzet və jurnallar işıq üzü gördü. Cümhuriyyət dövründə dahi Üzeyir bəy Hacıbəyov tərəfindən "Azərbaycan" qəzeti nəşr edildi.

Mətbuatın sovet dövründə Azərbaycanda nəşr edilən "Kommunist", "Bakinskiy raboçiy", "Vışka", "Azərbaycan gəncləri", "Bakı", "Baku", "Ədəbiyyat və incəsənət", "Şərq qadını", "Azərbaycan qadını", "Pioner", "Azərbaycan müəllimi", "İdman", "Kirpi" kimi qəzet və jurnallar vasitəsilə ittifaq dövrü olsa da, milli vətənpərvərliyimiz daha da yüksəlmiş, ziyalı kütlələri arasında sıx qarşılıqlı ünsiyyət yaranmış, adət-ənənələrimizin, ədəbiyyatımızın, mədəniyyətimizin, incəsənətimizin qorunub saxlanılması və bəşər mədəniyyətində tanınması istiqamətində mühüm addımlar atılmışdır.

### 2.**Sosial Sferada Ünsiyyət Mədəniyyətinin İnkişafında Heydər Əliyev Mərhələsi**

Müstəqilliyimizin bərpasından sonrakı dövrdə digər sahələrlə bərabər milli mətbuatımızın dirçəliş dövrü başlamış, 1980-2000-ci illərdə "Azərbaycan", "Səhər", "Zerkalo", "Səs", "İki sahil", "525-ci qəzet", "Yeni Azərbaycan", "Respublika", "Xalq qəzeti" və sair qəzetlərin nəşrinə başlanılmışdır.

Ulu Öndər Heydər Əliyev tərəfindən 1988-ci ildə imzalanan xüsusi sərəncamla mətbuatdan senzura ləğv edilmiş, 1999-cu ildə isə "Kütləvi İnformasiya Vasitələri haqqında Azərbaycan Respublikasının Qanunu"nun, eləcə də bu istiqamətdə başqa normativ-hüquqi sənədlərin qəbulu ölkədə mətbuatın inkişaf əhatəsini daha da genişləndirmişdir. Hazırda Azərbaycanda 4500-ə qədər mətbu orqanı Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir.

Beləliklə, milli mətbuatımızın təşəkkülündən bu günə qədərki fəaliyyəti nəticəsində:

- milli mədəniyyətdə də elmi-bədii və yaradıcı ünsiyyət əlaqələri qurulmuş, maarifləndirmə işi ilə bərabər yeni yaradıcılıq imkanları əldə olunmuşdur;
- mədəniyyət nümayəndələrinin, ziyalılarımızın, alimlərimizin, şair-yazıçılarımızın, rəssamlarımızın, bəstəkarlarımızın, mədəniyyət və incəsənət xadimlərimizin və digər sənətkarlarımızın xalq arasında tanınması baş vermiş, onların elmi-yaradıcılıq nümunələri yayılmış, tətbiq edilmişdir. Niyazi, Fikrət Əmirov, Səid Rüstəmov, Cahangir Cahangirov, Süleyman Ələsgərov kimi bəstəkarlar yetişmiş, C.Cabbarlının, M.F.Axundovun, Ə.Haqverdiyevin, N.Nərimanovun, Ü.Hacıbəyovun, N.Hikmətin, S.Vurğunun və digər ustad yazıçı-mütəfəkkirlərimizin əsərlərinin səhnələşdirilmiş radio versiyaları efirdə səsləndirilmiş, 1941-1945-ci illərdə redaksiya əməkdaşlarının fədakarlığı, 1988-ci ildən I Qarabağ müharibəsi hadisələri, II Qarabağ müharibəsindəki möhtəşəm qələbəmiz Azərbaycan cəmiyyətinə sənədli və bədii formada təqdim edilmişdir.

Mədəniyyətdə ünsiyyət eyni zamanda Azərbayan milli televiziyası kanalları vasitəsilə yayımlanan müxtəlif səpkili elmi, bədii verilişlərlə də mühüm əhəmiyyətini göstərməkdədir.

Azərbaycan Dövlət Televiziyası vasitəsilə müxtəlif verilişlərlə yanaşı, yüzlərlə televiziya filmləri hazırlanır, çox sayda dublyajlar edilərək geniş tamaşaçı kütləsinə təqdim edilir.

Televiziya vasitəsilə operativ ünsiyyət qurulur və orta məktəb yaşlı təbəqədən tutmuş, ahıllar da daxil olmaqla mənən zənginləşmə baş verir. Təbii ki, canlı verlişlər vasitəsilə öz fikir və mülahizələri ilə qoşulmaq üçün də şərait yaradılır.

Azərbaycanda mövcud televiziya kanalları – AzTV, İTV, İdman TV, Mədəniyyət TV, Space TV, ATV, Xəzər TV və digər kanallar vasitəsilə əhali kütləsi ilə elmi-bədii yaradıcı, idman, ailə-məişət, səhiyyə, xəbərlər, mədəniyyət və incəsənətin ayrı-ayrı istiqamətləri üzrə sıx ünsiyyət yaradılmaqdadır. Məlum olmuşdur ki, televiziya kanalları vasitəsilə təkcə 2000-2011-ci illərdə 788 elm, tarix, mədəniyyət, incəsənət, idman, səhiyyə, tarixi-mədəni günlər, ailə-məişət mərasimləri, yubileylər, iqtisadiyyatın ayrı-ayrı sahələri, yaradıcılıq tədbirləri və digər sahələri əhatə edən uzun metrajlı, qısa metrajlı sənədli və bədii filmlər nümayiş etdirilmişdir.

Sosial işçilər mədəniyyətimizin inkişafında milli kino sənətkarlığımızın ünsiyyət xarakterini zəruri hesab etməli, bu sənət sahəsinin dünya xalqları ilə qarşılıqlı yaradıcı əlaqə yaratmasını qiymətləndirməlidirlər. Ulu Öndər Heydər Əliyev ölkəmizə birinci rəhbərliyi dövründə digər sahələrlə yanaşı, milli kino sənətimizin də inkişafına diqqət və qayğı göstərmişdir. Bu dövrdə parlaq ekran nümunələri yaradılmış, sahə üzrə yeni nəsil yetişmişdir. Məhz həmin dövrdə, yəni 1970-1980-ci illərdə ölkəmizdə 110 bədii, 500 sənədli və elmi-kütləvi, 44 cizgi filmi, “Mozalan” satirik jurnalının 96 nömrəsi çəkilmişdir.

Müstəqilliyimizin bərpasından sonra da Ümummilli lider Heydər Əliyevin milli kino sənətimizin daha da inkişafında böyük əməyi olmuşdur. Ulu Öndərin 1998-ci il 19 avqust tarixli Fərmanı ilə ölkəmizdə “Kinomatoqrafiya haqqında” Qanun qəbul olunmuşdur. Ulu Öndərimizin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən milli kinonun inkişafı uğurla davam etdirilmişdir. Ölkə prezidenti tərəfindən 2007-ci il fevralın 23-də “Kino sənətinin inkişafı haqqında”, 2008-ci il avqustun 4-də “Azərbaycan kinosunun 2008-2018-ci illər üçün inkişafına dair Dövlət Proqramı” haqqında sərəncamlar imzalanmışdır. Bu illərdə gənc kino sənətkarlarımız tərəfindən çəkilmiş qısametrajlı filmlərimiz Danimarka, ABŞ, Rusiya Federasiyası, Ukrayna, Hindistan, Almaniya, Türkiyə və digər ölkələrdə təşkil edilən festivallarda uğurla nümayiş etdirilmişdir.

Bu illərdə Rusiya Federasiyası, Hindistan, ABŞ və başqa ölkələrdə çəkilmiş bədii və cizgi filmləri Azərbaycan dilinə dublyaj edilmişdir. Beləliklə, milli kinofilmlərimizin dünya ekranlarında, eləcə də dünya kinosu nümunələrinin ölkəmizdə nümayişi bədii yaradıcılıq əhəmiyyətli ünsiyyətin yaranması və inkişafına şərait yaratmışdır.Belə sürətli inkişaf sosial işçilər tərəfindən müvafiq fəaliyyət mühitində təbliğ, təşviq olunmalı, milli kino sənətkarlığımızın ünsiyyət əhəmiyyətli və yaradıcılığa həvəs və maraqlarının artırılmasında mühüm yeri vurğulanmalıdır. Milli adət-ənənələrimiz, tariximiz, bədii yaradıcılığımız bədii və sənədli filmlərimiz vasitəsilə dünya kinosuna inteqrasiya olunmuş və sevə-sevə izlənilmişdir.

Sosial işçilər teatrımızın keçdiyi yaradıcılıq yolunu dərindən bilməlidirlər. Apadığımız tədqiqatlar göstərmişdir ki, teatr sənəti vasitəsilə də mədəniyyətdə ünsiyyət yaradılmış, milli teatrımızın sürətli inkişafı və dünya teatr sənətkarlığının inteqrasiya prosesində yaradıcılıq, zənginləşdiricilik ünsiyyətinin əhəmiyyəti böyük olmuşdur. Əsası 1873-cü ildə M.F.Axundovun Bakıda səhnəyə qoyulan “Lənkəran xanının vəziri” və “Hacı Qara” tamaşaları ilə milli teatr inkişafını davam etdirmişdir (Təbriz Azərbaycan Teatrı, İstanbul Azərbaycan Teatrı, Tifis Azərbaycan Teatrı, İrəvan Azərbaycan Teatrı, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı, Bakı şəhərində və bölgələrində fəaliyyət göstərən dövlət teatrları, dövlət kukla teatrları vasitəsilə bu günə qədərki dövr ərzində geniş tamaşaçı kütləsi ilə teatrlar, aktyorlar, tamaşalar, obrazlarla təmas, ünsiyyət yaranmış, tamaşalarda əks etdirilən müxtəlif tarixi dövr hadisələri, qəhrəmanlar haqqında təsəvvürlər yaradılmışdır). Məhz ünsiyyət vasitəsilə belə zənginliyin ötürülməsi canlı olduğundan inandırıcılıq daha səmərəli şəkildə təsirini göstərmişdir.

Təsviri sənət vasitəsilə ünsiyyətlə yaradıcı maraqların təşəkkülü, ayrı-ayrı dövrlərin bədii sənətkarlıq nümunələri üzərindəki təsvirlər, yazılar, tarixlər, müəllif adları, portretlər, avtoportretlər, təbiət mənzərələri, natürmortlar, eskizlər, hadisə təsvirləri və sair əsərlər sənətkarlıq nümunələri və onların müəllifləri sosial işçidə müvafiq münasibət yaradır, dünyagörüşləri genişləndirir, milli mədəniyyətlə bəşər mədəniyyəti yaradıcı qarşılıqlı əlaqələri daha da genişləndirir. Məlum olmuşdur ki, qədim antik, Orta əsrlər dövrü, XIX-XX və XXI əsrlərin təsviri sənətkarlığı hər dövrə öz təsirini göstərməklə yanaşı, sonrakı

dövrlərə tarixi hadisələrin mənəvi formada ötürülməsinə nail olmuşdur. Eramızdan əvvəl VIII-V əsrlərə aid Qobustan, Kəlbəcər və Ordubadın Gəmiqaya dağlarındakı qayaüstü təsvirlər, həkkaklıq, heykəltəraşlıq, dəzgah boyakarlığı, nəqqaşlıq, satirik qrafika, rəngkarlıq, səhnə tərtibatı eskizləri və digər təsviri sənət növləri üzrə yaradıcılıq işləri nəinki Azərbaycanda sərgi salonlarında, muzeylərdə, həmçinin beynəlxalq sərgilərdə və dünya muzeylərində uğurlar qazanmaqdadır.

Milli dekorativ-tətbiqi sənətimizin dünya mədəniyyətini zənginləşdirməsi sosial işçilər tərəfindən bu istiqamətli müvafiq elmi müqayisələrin aparılmasına səbəb olur. Bu sənətə "xalq sənəti" də deyirlər. Bu sənətin xalçaçılıq, batik (kəlağayı), qobelen, dulusçuluq (keramika), toxuma və bədii tikmə, zərgərlik, bədii şüşə, bədii oyma (ağac, metal, daş, sümük üzərində oyma) və digər növləri vardır. Azərbaycanda Qarabağ, Qazax, Gəncə, Şirvan, Təbriz, Abşeron, Quba kimi xalçaçılıq məktəbləri və xalça nümunələri, Şəki və Basqal kəlağayıları, süjetli xalçalar, Mingəçevir və Şamaxıdan tapılmış müxtəlif formalı və tipli bədii şüşə məmulatları, qayaüstü oyma təsvirləri qədim mədəniyyətimizin nümunələridir. Tədqiqatlar göstərir ki, məhz xalçaçılığın, dekorativ tətbiqi sənətkarlığın sosial işçilər tərəfindən mədəni ünsiyyət əhəmiyyətli olması hazırki şəraitdə ətraflı izah edilir, gəncləri bu sənətə həvəsləndirir.

3.**Müasir Dövrdə Ünsiyyətdə Sosial İşçilərin Vacib Metod Və Vasitələrdən İstifadə İmkanları**

Hazırda sosial işçilərə yaxşı bəllidir ki, mədəniyyətdə musiqi vasitəsilə də ünsiyyətin əhəmiyyəti mühümdür. Azərbaycan mədəniyyətinin bir qolu olan milli musiqimiz Azərbaycan milli folklorunu təmsil edən, xalq və ya ayrı-ayrı azərbaycanlı bəstəkarlar tərəfindən yaradılmışdır. Azərbaycan klassik musiqisi, milli opera, milli balet, xalq musiqisi, Azərbaycan musiqi alətləri, milli aşıq sənəti, meyxana, muğam, populyar musiqi, Azərbaycan sazı, milli rok, Azərbaycan hip-hopu, elektronik rəqs musiqisi, hərbi musiqimiz və dini musiqimiz vasitəsilə fərdlər, qruplar, kollektivlər, həmçinin kütlələrdə böyük zövqlər yaradır, bədii yaradıcılığa maraqlar oyadır, vətənpərvərliyi artırır, yeni-yeni musiqi növlərinin, janrlarının yaranmasına səbəb olur.

Ünsiyyət prosesində 2012-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə yaradılmış Azərbaycan Dövlət Tərcümə Mərkəzinin əhəmiyyəti böyükdür. Mərkəz öz fəaliyyətində həmçinin tərcümə olunan materiallarda dövlət dilindən düzgün istifadə, sahələr üzrə tərcümə olunan materiallarda dövlət dilindən düzgün istifadə, sahələr üzrə tərcümə işinin səmərəli təşkili və təkmilləşdirilməsi üzrə nəzarəti yerinə yetirir.

Muzeylər vasitəsilə həyata keçirilən tədbirlərdə ünsiyyət mühüm rola malikdir. Bu baxımdan sosial işçilər hazırda milli muzey fəaliyyətini dəyərləndirməli, milli maddi və mənəvi dəyərlərimizin tarixi-estetik zənginliyini həmişə təşviq etməlidirlər. Muzeylər vasitəsilə təşkil edilən sərgilərdə (muzeylərdə və muzeydənkənar səyyar) eksponat tamaşaçılar arasında yaranan ünsiyyət prosesində tamaşaçıda eksponatın aid olduğu tarixi dövr, mühit, əgər bədii sənətkarlıq nümunəsidirsə və yaxud əsərdirsə, onda onun müəllifi, aid olduğu xalq, ölkə və sair haqqında geniş biliklər əldə edilir. Yəni, nümunə kütləvi təsir gücünə malik olur. Erməni vandalları tərəfindən maddi və mənəvi xəzinəmiz olan muzeylərimiz, tarixi mədəniyyət abidələrimiz qarət edilmiş, dağıdılmış, məhv edilmişdir. İşğal olunmuş ərazilərdə 762 mədəniyyət abidəsi və 1431 mədəniyyət müəssisəsi qalıb. Erməni faşistləri tərəfindən 22 muzey, 4 rəsm qalereyası yoxa çıxarılmışdır. Lakin artıq Ali Baş Komandanımızın rəhbərliyi ilə müzəffər ordumuz tərəfindən muzeylərimiz, abidələrimiz, mədəniyyət müəssisələrimiz də azad edilmişdir.

Hazırda bütün sahələrin inkişafında rəqəmsallaşma mühüm əhəmiyyətə malikdir.

İnternet digər sahələrlə bərabər, mədəniyyətin inkişafında ünsiyyət mənbəyi kimi əhəmiyyət kəsb edir. Elektron muzeylər, elektron ekskursiyalar, onlayn tədris, onlayn elmi konfranslar, tədbirlər, görüşlər, elmi simpoziumlar, müqavilə, məktublaşmalar və s. geniş yayılmışdır. Mədəniyyətlərin inteqrasiyası prosesində də rəqəmsallıqdan geniş istifadə olunur. Buna görə də hər bir sosial işçi tərəfindən hazırda yeni texnologiyadan istifadə etmək bacarığı, proqramlaşdırmaların həyata keçirilməsi vacibdir.

Sosial işçi nitq mədəniyyəti qaydalarına riayət etməli və ədəbi dilin bütün funksional üslublarına (rəsmi-işgüzar, elmi, publisistik, danışıq) sahib olmalıdır. Ünsiyyət mədəniyyətinin bütün vacib prinsiplərinə əməl olunmalıdır.

Mədəniyyətdə ünsiyyətin bədən dili vasitəsilə həyata keçirilməsinin əhəmiyyəti böyükdür. Bir neçə bədən dilinin mənaları vasitəsilə - barmaqlarla işarə etmək, qolları bağlamaq, qaşları qaldırmaq, səs tonunu dəyişmək, göz təması, ayaqların titrəməsi kimi jestlər vasitəsilə ünsiyyət yaradılır. Buna görə də sosial işçilər bədən dilindən səmərəli istifadəyə malik olmalıdır.

Təəssüflər olsun ki, müasir dövrdə bir sıra insanlar öz doğma dilində danışa bilmirlər. Öz doğma dilində ünsiyyət yarada bilməyən insanın bir neçə xarici dil bilməsi heç də sevindirici bir hal deyildir. Öz dilimizə laqeyd münasibət bəsləmək dilimizin unudulması məsələsini gündəmə gətirir. Müasir dövrdə televiziya və internet vasitəsilə yayımlanan əcnəbi seriallar tamaşaçıların ünsiyyətinə də təsir edir, dilimizə daxil olan sözlər nəticəsində dilimiz də erroziyaya məruz qalır. Bu hal əsasən kütləvi mədəniyyətin təmsilçiləri arasında özünü daha çox büruzə verir. Bu məsələ sosial işçilərin müasir üsul və vasitələrdən istifadəsini zəruri edir ki, belə üsul və vasitələr doğma dilimizin zənginliyinin qorunmasına xidmət etməlidi

Müasir dövrdə ünsiyyət mədəniyyətinə riayət etmək nəinki sosial işçilər, eləcə də hər birimizin mənəvi borcudur. Çünki, ünsiyyət mədəniyyəti əxlaqın mühüm bir hissəsini təşkil edir. Biz ünsiyyət zamanı kütləvi mədəniyyətdə ehtiva olunmuş kobud və bayağı ifadələr işlətməkdən çəkinməliyik. Ünsiyyət kütlədən və elitar təbəqədən asılı olmayaraq bütün insanların gündəlik və zəruri ehtiyacıdır. İnsan digər canlılardan həm də nitq və yazı vasitəsilə ünsiyyət qurması ilə seçilir. Ünsiyyət qurarkən doğma dilimizin zənginliyindən qaynaqlanmaqla yanaşı, etiket normalarına da düzgün riayət etmək lazımdır.

Hazırda ölkəmizdə mədəniyyətimizin milli özünüdərk mərhələsinin sürətli inkişafı dövrünü yaşadığı vaxtda bəstəkar, yazıçı, şair, rəssam, dramaturq, rejissor, aktyor, müğənni və digər mədəniyyət xadimlərinin bir qisminin nümunəsində bu məsələyə aydınlıq gətirə bilərik. Məsələn, bəstəkar Üzeyir Hacıbəyov tərəfindən bəstələnmiş musiqi əsərləri kütləviləşərək populyar olur, illərlə yaşayır. Bu əsərlər milli musiqinin dünya musiqisinə inteqrasiyasını həyata keçirməklə dünyəvi xarakter alır, eyni zamanda dünya musiqisini və mədəniyyətini məhz kütləvilik vasitəsi ilə zənginləşdirir. Digər tərəfdən isə, Azərbaycan mədəniyyətinin dünya mədəniyyətindəki mövqeyinin dəyərləndirilməsinə imkan yaradır. Beləliklə, Üzeyir Hacıbəyovun yaradıcılığı vasitəsi ilə həm Azərbaycanda, həm də beynəlxalq aləmdə “kütləvilik estetikası” öz inkişaf xəttini tutur və formalaşır. Digər bəstəkarlardan Tofiq Quliyevin, Şəfiqə Axundovanın, yazıçı və şairlərdən Anarın, Bəxtiyar Vahabzadənin, Qabilin, rəssamlardan Lətif Kərimovun, Kazım Kazımzadənin, Mikayıl Abdullayevin və digər yüzlərlə heykəltəraş, dramaturq, rejissor, müğənni və s. yaradıcıların tanınması, populyarlaşması zəminində Azərbaycan xalqının əsərlərinin kütləviləşməsi, bununla da fərdin yaradıcılığının həmin xalq tərəfindən kütləviləşməsi, sonuncunun isə dünyəviləşməsi baş verir. “Beləliklə, fərddən xalqa, xalqdan dünyaya “təsir” prosesi baş verir və tarixiləşir” (Əlibəyli, 2014:73). Əlbəttə bütün bu mərhələlətdə ünsiyyət amilinin də əhəmiyyəti mühümdür.

## 4.Mədəniyyətdə Milli Özünüdərkə Sosial İşçinin Yaradıcı Münasibəti

Mədəniyyətin fəaliyyət dairəsi geniş olduğundan kütlənin şüuruna təsir etmək məsələsində mühüm rol oynayır və önəmli amil kimi çıxış edir. Mədəniyyət nümunələri milli məzmunda təzahür edə bilər. Bəşəri çalarlarla yüklənmiş milli mədəniyyət milli məzmunlu olmaqla yanaşı, dünya mədəniyyətinin də mühüm elementlərini özündə ehtiva edir. Bütün belə proseslərin dinamikasına sosial işçilər yaradıcı yanaşmalıdırlar.

Beləliklə, apardığımız müqayisələrdən məlum olur ki, sosial işçinin mədəniyyətindəki mövqeyi, onun yaradıcı kimi təsiri üçün aşağıdakı məsələlərə əməl edilməsi vacibdir:

1. Mövcud təbii imkanlardan və məlumatlardan, nümunələrdən, materiallardan vaxtında və səmərəli istifadə etmək bacarığına malik olmaq;
2. Müxtəlif baxışları, əqidələri, həyat tərzlərini elmi və yaradıcı müqayisə etməyi, ümumi nəticə çıxarmağı, qiymətləndirməyi, ümumiləşdirmələr aparmağı bacarmaq;
3. Dövrün üzləşdiyi ən aktual problemləri dərk edərək onları elmi-yaradıcı dəyərləndirmək, qiymətləndirmək, bir sözlə, obyektiv yanaşma qabiliyyətinə malik olmaq;
4. Zamanın, dövrün ritmini tuta bilmək, baş verəcək hadisələri qabaqcadan sezmək üçün müvafiq informasiya və məlumatları əldə etmək bacarığına nail olmaq;
5. İnkişafda olan fərdi şüurla kütləvi şüurun fərqli cəhətlərini müəyyən etməyi bacarmaq;
6. İntellektual şəxsiyyətin yetişməsi üçün lazımi mühiti yaratma mexanizminə nail olmağın yollarını və vasitələrini bilmək;
7. Mövcud milli adət-ənənə, mənəvi və maddi dəyərlər zəminində fərdin inkişafı istiqamətlərinin təyini.

Sosial işçilərin nəzər-diqqətindən yayınmamalıdır ki, müasir qloballaşma dövründə elmi-texniki tərəqqinin sürətli inkişafı real həyatda yüksək nailiyyətlərə, mütərəqqi dəyişikliklərə yol açsa da, bu prosesin tarixi-mədəni irsə, əxlaqi-mədəni dəyərlərə müəyyən təhlükə meyilləri özünü qabarıq göstərir. Xalqın tarixən formalaşmış yüksək əxlaqi-mənəvi meyarlarını pak və sağlam niyyətlərlə qoruyaraq bütövlükdə cəmiyyətin pozitiv ruhda inkişafına təsir göstərmək, onun genetik yaddaşını, tarixi kimliyini,

milli irs və özünəməxsusluğunu gələcək nəsillərə ötürmək kimi çətin missiyanın həyata keçirilməsi zərurəti bizim hər birimizin, həmçinin sosial işçilərin də üzərində böyük məsuliyyət qoyur (Heydər Əliyev mədəni irsimizin keşiyində, *2001:*54).

Yaşadığımız müasir dövr mədəniyyətlərin eyniləşdirilməsinə, milli köklər və qaynaqlarından ayrılmasına qarşı çıxaraq onun gələcəyini mədəniyyətlərin dialoqunda, əməkdaşlığında, ünsiyyətində, bədii yaradıcılıq əlaqələrinin möhkəmlənməsində və qarşılıqlı fəaliyyətinin mütərəqqi prosesində görür (İmanov,2005:79).

Məlum olmuşdur ki, "bütün tarixi mərhələlərdə mədəniyyətlərin bu və ya digər səviyyədə qarşılıqlı əlaqələri nəticəsində onların bir-birinə nüfuzu baş vermişdir. Mədəniyyətlərin qarşılıqlı nüfuzu isə akkulturasiyadır və bu halda əvvəlki forma və məzmunda dəyişiklik baş verir. Ancaq akkulturasiya ilə assimilyasiya bir-birindən fərqləndirilməlidir. Akkulturasiya assimilyasiyanın birinci pilləsi hesab oluna bilər. Assimilyasiya, ümumiyyətlə, bir etnik əlamətin digər əlamətə bənzəməsi, oxşaması və həm də uyğunlaşması prosesidir. Hazırda akkulturasiya geniş mənada ayrı-ayrı mədəniyyətlərin yaxınlaşması sayəsində prinsipcə yeni mədəniyyətlərarası sintezlərin formalaşmasına səbəb olan mədəniyyətlərin əlaqəsidir" Sosial işçi tərəfindən mədəniyyətlərdəki belə əlaqəlilik elmi əsasla da dərindən öyrənilməlidir.

"İnkişaf prosesində şəxsiyyətdaxili ya da mədəniyyətlərarası ziddiyyətlər mütləqdir. Belə ziddiyyətlər həll edilmədikdə "mədəniyyətlərin toqquşması" və ya "qarşıdurma" yaranır. Mədəniyyətə daxil olma tədricən sosializasiya, enkulturasiya, inkulturasiya, assimilyasiya proseslərinə səbəb olur. Cəmiyyətdə baş verən belə proseslərə çevik münasibət isə ümumi mədəniyyətin tərkib hissəsi olan siyasi mədəniyyətdən asılıdır" (Abbasov, 2009:56). Çünki siyasi mədəniyyət şəxsiyyətin siyasi şüurunun inkişafının əsasında durur. Şəxsiyyətin davranışı, siyasi şüuru yeni yaradılan mədəniyyət dəyərlərindən əhəmiyyətli dərəcədə asılıdır. Məlumdur ki, hər bir ictimai-siyasi sistemə xas olan siyasi şüur tipi və siyasi mədəniyyət mövcuddur. Bunu milli mədəniyyət abidələrimizin timsalında da görmək olar. "Kitabi-Dədə Qorqud" dastanından tutmuş Şah İsmayıl Xətai dövlətçilik ənənələri də daxil olmaqla bu günə qədərki milli dəyərlərə söykənmiş siyasi düşüncə və davranış tərzi bunun bariz nümunəsidir.

Siyasi şüurun formalaşmasında əsas məsələlərdən biri də fərd tərəfindən davranışın mədəniyyət nümunələrinin necə mənimsənilməsidir. Burada enkulturasiya prosesi mühüm əhəmiyyətə malikdir.

Enkulturasiya prosesi zamanı ideal şəxsiyyət – elit nümayəndə konkret mədəni dəyər daşıyıcısı olduğu üçün sosializasiyadan fərqli olaraq, enkulturasiya yalnız konkret-tarixi mədəni mühit dəyərlərinin mənimsənilməsi prosesidir. Beləliklə, enkulturasiya nəticəsində fərd konkret tarixi şəraitdəki mədəniyyət nümunələrini mənimsəyərək inkişaf edir.

İnkulturasiya isə enkulturasiyadan fərqli olaraq daha uzunmüddətli bir proses olmaqla, insanın həyat və fəaliyyətində mədəniyyətə daxil olur. Bu baxımdan ayrı-ayrı mədəniyyətlərdə müxtəlif şəxsiyyət növləri və onlara müvafiq düşüncə tərzləri yaranır ki, Şərq-Qərb mədəniyyət tipi və bunlara uyğun olaraq şəxsiyyət və təfəkkür növləri fərqləndirilir.

Xalqımızda milli özünüdərkin formalaşması üçün hər şeydən əvvəl milli xarakterin formalaşmasına diqqət yetirməliyik. Çünki, milli özünüdərk prosesi milli xarakterlə bilavasitə olaraq əlaqədardır.

Milli xarakter xalqın milli şüuru, özünümühafizəsi, özünütəsdiqi, milli adət-ənənələri, ideologiyası, mentaliteti, milli psixologiyası, milli özünüdərki ilə sıx bağlıdır. Həmçinin milli xarakterdə maddi və mənəvi mədəniyyət ünsürləri xalqın tarixi keçmişini və bu günə qədərki təcrübəsini əks etdirir. Milli xarakter vasitəsilə milliliklə ümumbəşərilik arasında qarşılıqlı əlaqəli şəkildə dialektik vəhdət yaradılır. Müstəqilliyimizin bərpasından sonra ölkəmizdə milli xarakter və milli mentalitetin təsirilə milli ideologiya və millətçilik psixologiyası milli şüurun daha da inkişafına, milli dirçəlişə xidmət edir. Milli xarakterin Vətən amalı ilə sıx bağlılığı nəticəsində 2020-ci ilin sentyabr ayının 27-dən başlayan və 44 gün davam edən İkinci Qarabağ – Vətən müharibəsində Ali Baş Komandanımızın – möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının rəhbərliyi altında rəşadətli ordumuzun misilsiz və qəhrəmancasına əldə etdiyi qürurverici tarixi qələbə nəticəsində 30 illik dövrdə işğal altında qalan torpaqlarımız azad edilmiş, xalqımızın bu torpaqlarda "tarixi keçmişi", əsrlər ərzində bütün istiqamətlər, sahələr üzrə qazandıqları və erməni vandalları tərəfindən məhv edilən iqtisadiyyatının, sənayesinin, təsərrüfatının, həmçinin mədəniyyətinin – maddi və mənəvi mədəniyyət nümunələrinin, tarixi abidələrinin yenidən qurulması, bərpası üçün şərait yaradılmışdır. Milli və bəşər mədəniyyətinin inkişafında mühüm əhəmiyyətə malik 927 kitabxana, 808 mədəniyyət sarayı, klub və mədəniyyət evi, 85 musiqi və rəssamlıq məktəbi, 22 muzey və onların filialları, 4 rəsm qalereyası, 13 dünya əhəmiyyətli, 242 ölkə əhəmiyyətli, 434 yerli əhəmiyyətli tarix və mədəniyyət abidələri (Abbasov, 2009:163) yerlə yeksan edilmiş, onlardan əsər-əlamət qalmamışdır. Həmin abidələrin

bərpası və yenidən qurulmasına böyük ehtiyac vardır. Həmçinin “11 və 15 aşırımlı Xudafərin körpüləri (VII-XII əsrlər), Kəlbəcər rayonundakı Gəncəsar və Xudavənd məbədləri (hər ikisi XIII əsr), Ağdam rayonunun Xaçın Türbətli kəndindəki məqbərə (XIV əsr) kimi ümumdünya əhəmiyyətli 6 memarlıq və 7 arxeoloji abidə, eyni zamanda qədim Şuşa şəhər qoruğunun həm yenidən bərpası və dünya mədəniyyətinin inkişafındakı mühüm yerinin elmi təbliği və təsdiqinə nail olunmalıdır” (İmanov, 2005:163-164). Belə möhtəşəm qələbə məhz xalqımızın yüksək keyfiyyətli milli xarakterinin mübarizliyi nəticəsində əldə edilmişdir.

**Nəticə**

Beləliklə, mədəniyyətdə milli özünüdərkin əhəmiyyəti böyükdür və hər bir sosial işçi bu əhəmiyyətliliyi düzgün dəyərləndirməyi bacarmalıdır. Belə ki:
qədim və zəngin mədəniyyətə malik Azərbaycan xalqı öz maddi-mənəvi dəyərləri vasitəsilə dünya mədəniyyətini illərlə, əsrlərlə zənginləşdirmiş, milli özünüdərkin təsiri ilə bu gün də bu prosesi uğurla davam etdirməkdədir. Milli özünüdərkin müsbət nəticəsi olaraq 2000-2020-ci illər ərzində məhz Azərbaycanda təşkil edilən Beynəlxalq Humanitar Forumlar, Ümumdünya mədəniyyətlərarası dialoq forumları, dünya dini liderlərinin zirvə görüşləri, Qlobal Açıq Cəmiyyət, Cənubi Qafqaz, Qlobal Bakı forumları və digər tədbirlərdə mədəniyyətlərin qarşılıqlı mübadiləsinə nail olunmuş, dünyada baş verən münaqişələrin həlli, o cümlədən Dağlıq Qarabağdakı və bölgədəki münaqişələrin nizama salınması, təhsil, mədəniyyət, ekologiya, enerji təhlükəsizliyi ilə bağlı ölkə əhəmiyyətli vacib qərarlar qəbul olunmuşdur.

Beləliklə, apardığımız araşdırmalarda aşağıdakı nəticələrə gəlmək olar:

1. Yaradıcı inkişaf prosesində şəxsiyyətin milli və bəşər mədəniyyətinə bəxş etdiyi töhfələr daha elmi şəkildə sosial işçilər tərəfindən dərindən araşdırılmalı, qiymətləndirilməlidir. Elm, mədəniyyət və incəsənətdə də tərəqqiyə nail olmaq yeniliyin inteqrasiyasına, təbliğinə daha ciddi diqqət, qayğı göstərilməsi istiqamətində ölkə və beynəlxalq əhəmiyyətli tədbirlərdə sosial işçilərin fəallığı zəruridir.
2. Əsrlər ərzində milli elitar şüurun məhsulu olan maddi mədəniyyət nümunələrinin, milli-mənəvi dəyərlərimizin mühafizəsi, bərpası, o cümlədən işğaldan azad edilmiş ərazilərimizdəki qədim tarixi dövrlər fəaliyyətimizin, inkişafımızın daşıyıcısı, ötürücüsü sayılan tarixi-memarlıq abidələrimizin, digər maddi və mənəvi mədəniyyət nümunələrimizin yenidən bərpası, kütləviləşdirilməsi, bəşər mədəniyyətinə inteqrasiyasına nail olunması məqsədilə müasir texnologiyanın gücündən, rəqəmsallaşmadan, ayrı-ayrı tədqiqat metodlarından, diaqnostik qiymətləndirmədən istifadəyə sosial işçilər tərəfindən önəm verilməlidir.
3. Hər bir sosial işçi elmi əsaslara istinad sayəsində bilməlidir ki, dövr üçün aktual elmi-mədəni məlumatların əldə edilməsi tələbatının ödənilməsi, informasiya mübadiləsinin yaradılması, elmi yeniliklər, bədii yaradıcılıq vərdişləri texnologiya və rəqəmsallığın köməyi ilə ünsiyyət vasitəsilə həyata keçirilmiş, geniş yayılmaya səbəb olmuşdur ki, bunun da sayəsində mədəniyyətin informasiyalılığı ilə kommunikativlik arasında yaranan qarşılıqlı əlaqəlilik milli mədəniyyətin inkişafında mühüm əhəmiyyət kəsb etmişdir.
4. Milli mətbuatın, radio və televiziya kanalları ilə bu günə qədər yayımlanan müxtəlif səpkili elmi-bədii, yaradıcı verilişlərin, xəbərlərin, sənədli və bədii filmlərin, kino sənətkarlığının, teatr sənətinin, təsviri sənətin, dekotariv tətbiqi sənətkarlığın, musiqinin, muzey fəaliyyətinin, ayrı-ayrı elmi-tədqiqat müəssisələrinin, o cümlədən Azərbaycan Dövlət Tərcümə Mərkəzinin fəaliyyətində ünsiyyət amilinin mühüm rolu olmuş, dinləyici, tamaşaçı, oxucu, ümumiyyətlə xalqla səmərəli elmi, yaradıcı əlaqələr yaranmış, inkişaf etmişdir. Belə inkişafın daha dərindən detallı şəkildə sosial işçilər tərəfindən tədqiqinə, dəyər verilməsinə zərurət yaranmışdır.
5. Ölkəmizdə internetdən istifadə yolu ilə də ünsiyyətin səmərəli təşkilinə xüsusi diqqət yetirilir və bu sahənin dünya standartları səviyyəsində qurulmasına daim qayğı göstərilməkdədir ki, bunun nəticəsində milli mədəniyyətin inkişafında ünsiyyət ötürücü əhəmiyyətə malikdir. Bununla əlaqədar hazırda sosial işçi fikirlərinin müqayisəli təhlilinə ehtiyac duyulur.
6. Müstəqilliyimizin əldə edilməsi Sovet İttifaqı dövründə, xüsusilə də XX əsrin 80-ci illərindən başlamış müstəqilliyimizin bərpasından sonrakı illərdə, əsas etibarilə də 1993-cü ildən sonra digər sahələrlə bərabər milli mədəniyyətimizin inkişafına qayğı göstərilmişdir. Təkcə 2000-2020-ci illərdə ölkə mədəniyyətinin inkişafı və inteqrasiyası naminə beynəlxalq forumların, Ümumdünya mədəniyyətlərarası dialoqların təşkili, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması, mədəniyyət fondlarının fəaliyyətə başlaması

və digər beynəlxalq tədbirlər milli şüurun, milli özünüdərkin məzmun, mahiyyət keyfiyyətinin səmərəliliyinə xidmətinin bariz nümunəsidir.

## ƏDƏBİYYAT

1. Abbasov N. "Mədəniyyət siyasəti və mənəvi dəyərlər". Bakı: "Təknur MMC", 2009, 444 səh.
2. Abdullayeva S.M. "Şəxsiyyət, mədəniyyət və sivilizasiya sistemində" mövzusunda fəlsəfə elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyası. Bakı, 2006, 155 səh.
3. Əfəndiyev M. "Siyasi elmin əsasları". Bakı: "Siyasət", 2004, 604 səh.
4. Əlibəyli E. "Teatr tamaşalarının televiziya yayımının yaradıcı xüsusiyyətləri". Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Əsərləri - №18. Bakı: "ADMİU-nun nəşriyyatı", 2014.
5. Əmirxanov S. "Muzeyşünaslıq". Bakı: "Mars-Print", 2002, 448 səh.
6. Əmirxanov s. "Muzeyşünaslıq". Tədris-metodik vəsait. Bakı: "Bakı Biznes Universiteti", 2012, 112 səh.
7. Hacıyev Z. "Fəlsəfə". Ali məktəblər üçün dərslik. Bakı: "Turan evi", 2012, 488 səh.
8. "Heydər Əliyev mədəni irsimizin keşiyində". II kitab. Bakı, 2001, 547 səh.
9. Xəlilov S. "Fəlsəfə: tarix və müasirlik (fəlsəfə komparovistika)". Bakı: "Azərbaycan Universiteti", 2006, 420 s.
10. İmanov H. "Fəlsəfə". Bakı: "Turan evi", 2005, 420 səh.
11. İmanov H., Əhədov A. "Orta əsrlərdə ərəb-müsəlman fəlsəfi fikri". Bakı: "Ülvi-Həyat", 2008, 209 səh.

# İDARƏETMƏ PROSESİNDƏ QƏBUL EDİLMİŞ QƏRARLARIN İCRASININ SOSİAL-PSİXOLOJİ ASPEKTLƏRİ

**p. f. d., Nəzakət SƏLİMOVA[52]**

**Xülasə**

İdarəetmə qərarlarının qəbul edilməsinin və icrasının sosial-psixoloji xüsusiyyətlərinə həsr olunmuş məqalədə müasir idarəetmə nəzəriyyəsinin bir qolu kimi idarəetmə qərarlarının hazırlanması, qəbulu və icrasının sosial-psixoloji aspektləri, onların səmərəliliyinin artırılması və çevikliyinin təmin olunması məsələləri araşdırılır. Bunlar idarəetmə subyektinin fəaliyyətinin təzahürü, yaradıcı təfəkkürünün, mürəkkəb zehni prossesinin məhsulu olub, psixoloji cəhətdən idrak, fantaziya, bilik və təcrübə tələb edir.

Qeyd olunur ki, idarəetmənin mühüm elementi kimi sosil-psixoloji mühit, idarəetmə qərarlarının hazırlanması zamanı əldə edilmiş məlumatların obyektivliyi, zənginliyi ilə yanaşı, onlardan istifadə zamanı rəhbərin informasiya mədəniyyəti, onun yaradıcı təfəkkürünün səviyyəsi, qərarların verilməsi vaxtı da onun səmərəliliyinə təsir göstərən amillərdəndir. Qərarların qəbulunda insan amilinin rolu da göstərilir.

Sosial-psixoloji mühit işçilərin emosional-psixolji münasibətlərinin təzahür forması olmaqla, kollektivdə təşkilati-sərəncam və inzibati-təsərrüfat fəaliyyətinin düzgün həyata keçirilməsində xüsusi əhəmiyyət kəsb edir.

Müasir şəraitdə idarəetmədə keyfiyyət dəyişiklikərinə, qəbul olunmuş qərarların icrası posesində əsas amillərdən biri olan işçi-rəhbər münasibətlərinə, adaptasiya proseslərinə, onlarin qanunvericilikdə tənzimlənməsi məsələlərinə diqqət yetirilir.

***Açar sözlər:*** *idarəetmə, sosial-psixoloji, qərarların hazırlanması, qərarların qəbulu, sosial-psixoloji mühit, qərarların icrası.*

## Social-Psychological Aspects of İmplementation of Decisions Made in the Administrative Process

**Summary**

In the article dedicated to the socio-psychological features of management decision-making and implementation, the socio-psychological aspects of the preparation, adoption and implementation of management decisions as a branch of modern management theory, as well as issues of increasing their efficiency and ensuring their flexibility, are investigated. These are the manifestation of the activity of the management subject, the product of creative thinking, complex mental process, psychologically they require cognition, fantasy, knowledge and experience.

It is noted that in addition to the socio-psychological environment as an important element of management, the objectivity and richness of the information obtained during the preparation of management decisions, the information culture of the leader during their use, the level of his creative thinking, and the time of making decisions are also factors that affect his efficiency. The role of the human factor in decision-making is also shown.

The socio-psychological environment is a form of manifestation of the emotional-psychological relations of employees, and it is especially important in the correct implementation of organizational-management and administrative-economic activities in the collective.

In modern conditions, attention is paid to quality changes in management, employee-manager relations, adaptation processes, and issues of their regulation in legislation, which are one of the main factors in the implementation of the adopted decisions.

***Keywords****: management, socio-psychological, decision-making, decision-making, socio-psychological environment, implementation of decisions*

*UOT (JEL): 159*

## Giriş

Ölkəmizin müasir inkişaf mərhələsində dövlət orqanlarında idarəetmə fəaliyyətinin təkmilləşdirilməsi və müasir standartlara uyğunlaşdırılması məsələlərinin müxtəlif aspektlərinin tədqiqi zəruriəti ilə əlaqədar idarəetmə prossesində qərarların hazırlanması, qəbulu və icrasının sosial-psixoloji xüsusiyyətlərinin araşdırılması daim diqqət mərkəzində olmuş və bu gün də öz aktuallığını saxlayır.

Qeyd etmək lazımdır ki, respublikamızda idarəçiliyin təkmilləşdirilməsi məqsədi ilə dövlət orqanlarında və digər qurumlarda qabaqcıl informasiya və kommunikasiya texnologiyalarından istifadə olunması və rəqəmsal idarəçiliyin tətbiq edilməsi dövlət siyasətinin prioritetlərindən biridir və bu sahədə

[52] **Bakı Biznes Universiteti, e-mail:nezaketsalimova1@gmail.com**

mühüm nailiyyətlər əldə edilmişdir. Bununla belə, həyata keçirilən tədbirlərin daha yüksək səviyyədə davam etdirilməsi və rəqəmsal hökumətə keçid prosesinin sürətləndirilməsi zərurəti ilə əlaqədar idarəetmə prosesində qərarların hazırlanması, qəbulu və icrasının sosial-psixoloji aspektlərinin araşdırılması xüsusi aktuallıq kəsb edir. Bu mühüm amili nəzərə alaraq idarəetmə qərarlarının hazırlanması, qəbulu və icrasının hüquq, sosial-psixoloji və digər aspektlərinin elmi-nəzəri cəhətdən araşdırılması bu sahələrdə tədqiqat aparan alimlərin prioritet vəzifələrindən biri kimi daim diqqət mərkəzindədir. Bu məsələlərin praktiki aspektləri isə müasir idarəetmə təcrübəsinin təkmilləşdirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin qəbul etdiyi bir sıra fərman və sərəncamların, habelə onların icrası məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti, digər mərkəzi və yerli icra hakimiyyəti orqanlarının müvafiq idarəetmə qərarlarının hazırlanması, qəbulu və icrası prosesində özünü əyani şəkildə göstərir.

Qeyd etmək lazımdır ki, bu məqsədlə son dövrlərdə Azərbaycan Respublikasının Prezidenti tərəfindən bir sıra mühüm fərman və sərəncamlar qəbul edilmişdir. Dövlət orqanlarında (qurumlarında) rəqəmsal idarəçiliyin inkişafı, daxili idarəetmə proseslərinin (kargüzarlığın aparılması, sənədlərin icrasına nəzarət, arxiv, kadrların idarə olunması, maliyyə-uçot və mühasibat, təchizat və təminat) optimallaşdırılması və elektronlaşdırılması, bu sahədə çevik və effektiv idarəetmənin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidentinin "Dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması tədbirləri haqqında" 27 oktyabr 2018-ci il tarixli Fərmanı, habelə Təhsil Nazirliyinin strukturunda dəyişiklik edilməsi, Bakı Dövlət Universiteti, İqtisad Universiteti və digər qurumların publik hüquqi şəxsə çevrilməsi haqqında fərmanları idarəetmənin təkmilləşdirilməsinə yönəlmişdir.

Müasir idarəetmə nəzəriyyəsində sosial psixologiyanın bir qolu kimi idarəetmə qərarlarının qəbul olunmasının sosial-psixoloji aspektləri kompleks şəkildə tədqiq edilir ki, bu da idarəetmədə qərarların hazırlanması, qəbulu və icrasının bütün istiqamətlərdə səmərəliliyinin artırılmasına və onun çevikliyinin təmin olunmasına əlverişli şərait yaradır. Bütün sahələrdə, o cümlədən idarəetmə sahəsində qərarların hazırlanması, qəbulu və icrası idarəetmə subyektinin fəaliyyətinin təzahürü, yaradıcı təfəkkürünün, mürəkkəb zehni prossesinin məhsulu olub, psixoloji cəhətdən idrak, fantaziya, bilik və təcrübə tələb edir.

Qeyd olunanlar idarəetmə subyektinin şüurlu həyatının mühüm elementi olmaqla, onun sosial-psixoloji inkişaf səviyyəsini, idarəetmə bacarığını, qarşısına qoyduğu məqsədi özündə əks etdirir.

İdarəetmə zamanı qərarların hazırlanması, qəbulu və icrası proseslərinin təkmilləşdirilməsi bu fəaliyyəti həyata keçirən orqanların işinin səmərəliliyinin artırılmasına və çevikliyinin təmin olunmasına xidmət etməlidir. Psixoloji nöqteyi-nəzərdən bütün bu proseslər insanın yaradıcı təfəkkürünün məhsulu kimi qiymətləndirilir.

Psixoloji və sosioloji sədəbiyyatda qərarın qəbulu, bu fəaliyyəti həyata keçirən şubyektin yaradıcılq prossesi kimi qəbul edilir. Bu prosesdə əsas amil kimi yetərincə informasiyanın olması qarşıya çıxan problemlərin həllində, idarəetmə vəzifələrinin səmərəlliliyinin təmin olunmasında mühüm vasitə kimi göstərilir. Bu mərhələdə ilk növbədə məlumatların toplanması, ümumiləşdirilməsi və nəql olunması vacib məsələlərdən biri kimi ön plana çəkilməlidir.

Qeyd etmək lazımdır ki, düzgün qərarların qəbul olunmasının əsasını təşkil edən amillərdən biri də idarəetmə subyekti tərəfindən toıplanmış məlumatların obyektiv reallığı əks etdirməsi, həqiqi və qərəzsiz olmasıdır. Belə məlumatlar idarəetmənin real vəziyyətini dəqiq qiymtləndirməyə və düzgün qərarlar qəbul etməyə əlverişli şərait yaradır. Ona görə də qərarların qəbulu üçün zəruri olan informasiyaları qəbul edərkən onlar ciddi təhlil edilməklə dəqiqliyi bir daha yoxlanmalıdır ki, gələcəkdə qəbul olunmuş qərarların məzmununda qeyri-müəyyənlik və ziddiyyətlər yaranmasın.

Ümumiyyətlə, qərar qəbul etmək şəxsiyyətin şüurlu həyatının mühüm və vacib elementi olub, onun sosial-psixoloji inkişaf səviyyəsini, idarəetmə bacarığını, qarşısına qoyduğu məqsəd və vəzifələri özündə əks etdirir. İdarəçilik prosesində qəbul olunmuş qərarları optimal və qeyri optimal olmaqla iki yerə bölmək olar. Optimal qərarlar idarəetmə subyektlərinin səmərəliliyini artırır, kollektivdə sağlam qarşılıqlı münasibətlərin və sağlam işgüzar mühitin formalaşmasina əlverişli şərait yaradır. Qeyri-optimal qərarlar isə onu qəbul edən şəxsin nüfuzuna mənfi təsir göstərməklə iş şəraitinin daha da çətinləşməsinə, işin səmərəliliyinin və keyfiyyətinin azamasına və kollektivdə anlaşılmazlıqlara gətirib çıxarır.

İdarəetmə qərarları qəbul etmək zərurəti adətən kollektivdə problem yaradan halların həlli yollarının araşdırılması zamanı yaranır. Belə vəziyyət qərarı qəbul edəcək şəxsi həmin problemin tam, hərtərəfli və dərindən öyrənməyə, onun yaranması səbəblərini aydınlaşdırmağa və həlli zamanı qəbul ediləcək qərarın

kollektivin fəaliyyətinə nə dərəcədə müsbət təsir edəcəyini öyrənməyə sövq edir. Bu zaman qərarı qəbul edən şəxs öz fərdi üslubundan istifadə etməklə yanaşı, həm də idarəetmə bacarığını, idarəetmə mədəniyyətini ortaya qoyur.

Psixoloji ədəbiyyatda qeyd olunduğu kimi qərar qəbul edən zaman şəxsiyyətin fərdi təfəkkür üslubü, onun istifadə etdiyi metodlar, şəxsi təcrübəsi, verdiyi qərarların mövcud vəziyyətə uyğunluğu, təcrübəli mütəxəssislərlə məsləhətləşmələr, həmin qərarın düzgünlüyünün zəruri şərtləri kimi qiymətləndirilməlidir. Hətta qərar layihəsi hazırlanmazdan əvvəl həmin layihədə öz əksini tapacaq məsələlərlə bağlı əmək kollektivi və ya ayrı-ayrı fərdlərlə təmasların yaradılması, geniş diskussiya və müzakirələrin aparılması da düzgün qərar layihəsinin hazılanması və qəbulunda müstəsna əhəmiyyətə malik ola bilər. Qeyd olunanlar idarəetmə qərarınının qəbul olunacağı təqdirdə onun icra mexanizminin düzgün müəyyən edilməsində mühüm təminat yaradar.

İdarəçiliyin səmərəli həyata keçirilməsinin hüquqi təminatı olan düzgün qərarların layihəsinin hazırlanması, müzakirəsi və qəbulunun sosial-psixoloji əsaslarının, xüsusilə də, onun metodlararının düzgün seçilməsi, qiymətləndirilməsi və tətbiqi də qarşıya qoyulan məqsədə nail olunması üçün vacib şərtlərdəndir.

İdarəetmədə qərarların qəbulu mahiyyətcə ictimai xarakter daşıyır və bütöv bir kollektivin məqsəd və maraqlarının təmin edilməsinə xidmət edir. İdarəetmə qərarlarının xarakteri qərar verən subyektin təfəkkürünün məhsulu olmaqla, həm də təşkilatın fəaliyyətində yaranan problemlərin həllini nəzərdə tutur. İdarəetmə qərarları fəaliyyət prosesində qəbul olunur və kollektivin idarəetmə subyekti kimi iştirakını nəzərdə tutur. Həmin qərarlarda təşkilatın mənafeyi ilə yanaşı, kollektivin hər bir üzvünün mənafeyi də qorunmalıdır. Ona görə də qərar layihələri hazırlanarkən aşağıdakı proseslərin nəzərə alınması məqsədəuyğun hesab olunur:

-fəaliyyətin təhlil edilməsi, problemlərin aşkar olunması və bu poblemlərlə bağlı geniş infomasiyaların toplanması;

-əldə edilmiş informasiyalar əsasında kollektivdə vəziyyətin öyrənilməsi və qəbul olunacaq qərarların səmərəlilik dərəcəsinin müəyyən edilməsi ;

-optimal qərarların hazırlanmısı prosesində ixtisaslı və təcrübəli mütəxəssislərlə məsləhətləşmələrin aparılması;

-idarəetmə qərarlarının kollekiv tərəfindən qəbul olunması ;

-qərarlarının icrası prosesində ortaya çıxa bilən poblemlərin həlli məqsədi ilə alternativ layihələrin hazırlanması;

Qeyd etmək lazımdır ki, qərar layihəsi hazırlanarkən kollektivin təklifəri öyrənilməklə, icra prosesində ona müəyyən korrektələr də edilə bilər. Çünki problemli situasiyalar müxtəlif idarəetmə vəzifələri meydana çıxarır kı, bunların bir qismi fəaliyyət prosesində yaranır, digər qismi isə rəhbərlik tərəfindən verilir. İdarəetmə vəzifələri özlüyündə idarəetmə məqsədlərinin həyata keçirlməsinə kömək edir.

İdarəetmə vəzifələrini həyata keçirərkən yenilənmiş metodlar və üsullardan istifadə olunmaqla bərabər, rəhbər tərəfindən konkret strategiya seçilməlidir. Bu zaman idarəetmənin statistik quruluşu bir daha nəzərdən keçirilməli, idarəetmə posesinə uyğunlaşdırmaqla, kollektivin fəaliyyəti məqsədyönlü şəkildə idarə olunmalı, onların xüsusuyyətləri dəqiqləşdirilməli, bu xüsusiyyətlərdən irəli gələn tələblər nəzərə alınmalıdır. İdarəetmə funksiyaları yerinə yetirilərkən aşağıdakılar nəzərə alınmalıdır:

-idarəetmə vəzifələri düzgün qiymətləndirilməli, bu vəzifələrdən irəli gələn posesləri tənzimləmək üçün situasiyaya uyğun qərarlar verilməlidir;

-kollektivə öz fəaliyyətini həyata keçirmək üçün əlverişli şərait yaradılmalı, səmərəli fəaliyyəti həyata keçirmək üçün ixtisaslı və bacarıqlı kadrlar seçilməli, fəaliyyətin düzgün istiqamətdə olduğu daim nəzarətdə saxlanılmalıdır;

-qərarların icrası prosesində icraçılara onların fəaliyyəti posesində məsuliyyətləri izah olunmalı, müxtəlif həvəsləndirmə üsullarından istifadə olunmalıdır .

Qəbul olunmuş qərarların səmərəliliyinin artırılması üçün rərbər tərəfindən yenilənmiş idarəetmə üsullarından istifdə edilməklə, kollektivin qarşısında qoyulmuş konkret məqsədlərə çatmaq üçün təsiretmə vasitələrindən istifadə olunmalıdır. Bu üsullar idarəetmədə yaranan qeyri-müəyyənliyi aradan qaldırmaqla yanaşı, həm də kollektivin fəaliyyətini istiqamətləndirməklə, əməyin səmərəliliyini artırmalıdır. İdarəetmə üsulu məzmun, istiqamət və təşkilatçılıq formalarına uyğun olaraq qarşılıqlı əlaqələndirmə prosesidir. İdarəetmədə, bir qayda olaraq, aşağıdakı üsullardan istifadə olunur:

-direktiv göstərişlərlə əsaslandırılmaqla kollektiv maraqların iqtisadi həvəsləndirilməsinə istiqamətlənən və əməkdaşların sosial aktivliyinə arxalanan idarəetmə;
-müəssisədə sosial-psixoloji mühitə əsalanan idarəetmə fəaliyyətinin aparılması üçün işçi heyətinin yaradılması və s.

Təşkilatın gündəlik fəaliyyətinin idarə olunmasının forma və üsullarından obyektiv əsaslarla istifadə olunması təşkilatçılıq münasibətlərinə və idarəolunma mexanizminə hərtərəfli təsir edir. Bu zaman heyət üzvlərinin daxili əlaqələri vasitəsi ilə idarəetmənin funksiyalarından biri reallaşdırılır.(Yahudov, 2007:154)

Qərarların səmərəliliyini müəyyən etmək üçün onun həll olunma ehtimalını elmi cəhətdən araşdırmaq lazımdır. İdarəetmə orqanlarlarında qəbul olunmuş qərarların səmərəliliyi qərarların hazırlanması zamanı əldə edilmiş məlumatların obyektivliyi, zənginliyi ilə yanaşı, onlardan istifadə zamanı rəhbərin informasiya mədəniyyəti, onun yaradıcı təfəkkürünün səviyyəsindən də asılıdır. Qərarlarınn nə zaman verilməsi də onun səmərəliliyinə təsir göstərən amillərdəndir.Vaxtında verilməmiş qərar idarəetmə mexanizminə mənfi təsir göstərir. Düzgün və vaxtında verilmiş qərarlar o qərarlar hesab olunur ki, onlar həm rəhbərliyin, həm də kollektivin maraqlarına cavab veməklə qarşıya qoyulmuş problemin həllinə kömək etsin.

Qəbul olunmuş qərarların səmərəlililiyinin əsas amillərindən biri də insan amilidir. Bu proseslərdə insan amili dedikdə konkret kollektiv və kollektivin maraqları nəzərdə tutulur. Ona görə də kollektiv və fərdi maraqlar rərbərlik tərəfindən qəbul olunan qərarların hazırlanması prosesində daim diqqət mərkəzində olmalıdır.

Müasir idarəetmə prosesində qərarların hazırlanması və icrası posesi fərdi və kollektiv şəkildə həyata keşirilir. Kollektiv qərarlar analitik təfəkkürə və təcrübəyə əsalanır. Çünki bu qərarlar bir nəfərin deyil, bir neçə nəfərin təfəkkürünün məhsuludur. Qərarların hazırlanması zamanı müxtəlif metodlardan istifadə edilməli, problemli məsələlər kollektivin müzakirəsinə verilməli, problem barədə kollektiv davamlı məlumatlndırılmalı, problemin mahiyyəti onlar tərəfindən dərk olunmalıdır. Kolllektiv tərəfindən irəli sürülən təkliflər müzakirə olunduqdan sonra, konkret qərar layihəsi hazırlanmalıdır. Müzakirələr zamanı müxtəlif məzmunlu yanaşmalar meydana çıxa bilər. Bunlar qəbul ediləcək qərarı əsas məqsədindən uzaqlaşdırmamalıdır. Elə bu məqsədlə də işgüzar müzakirələr zamanı ixtisaslı və təcrübəli mütəxəssislərin iştirakı təmin olunmalı, onların arqumentləri ilə kollektiv də tanış olmalıdır. Aparılan müzakirələr ümumi məqsədə çatmağa xidmət etməli, kollektiv üzvlərinin bu istiqamətdə əməkdaşlığına xidmət etməlidir. İdarəetmə fəaliyyətində işin səmərəliliyini artırmaq üçün aparılmış müzakirələr zamanı altenativ qərar layihələri də hazırlanmalıdır.

İdarəetmə qərarlarının hazırlanması və icrası zamanı idarəetmə fəaliyyətində insanlar arasında yaranan münasibətlər, kollektivdə mövcud olan psixoloji mühit, rəhbər və işçilər arasında mənəvi-psixoloji münasibətlər, əmək kollektivi üzvlərinin maraq və meylləri, xarakterlərinin uyğunluğu mühüm rol oynayır. İdarəetmə fəaliyyətinin obyekti olan hər bir əmək kollektivinin üzvü və rəhbər müvafiq struktur elementləridir.

İdarə etmə prosesində qərarların icrası prosesinə əmək kollektivi də psixoloji cəhətdən hazır olmalıdır. Belə ki, qərarların icrası prosesində kollektiv üzvlərinin məsuliyyət hissinin artırılması, onlar tərəfindən qərarların mahiyyətinin dərk olunması, qəbul olunmuş qərarların yerinə yetirilməsində müsbət motivasiyanın yaradılması vacibdir. Kollektivdə yaradılan müsbət motivasiya idarəetmədə uğurların qazanılması üçün lazım olan əsas amillərdən sayılır. Kollektivdə yaradılan müsbət motivasiya məqsədə çatmaq üçün faydalı fəaliyətə yönəltmə prosesidir. Müsbət motivasiyanın yaradılması kollektivi daha əzmlə fəaliyyət göstərməyə sövq edir ki, bu da yüksək nəticələrə nail olmağa kömək edir. İdarəetmədə motivləşmə fizioloji tələbatdan irəli gəlir. Tələbatdan müvafiq davranışa sövq edir, şəxsdə bu istiqamətdə pozitiv hərəkətlər etmək qətiyyəti yaradır.

Ümumiyyətlə, motivasiya insanın daxili emosional hissləri ilə müşayət olunan motiv anlayışı ilə sıx bağlıdır. Motiv dedikdə, şəxsi konkret hərəkət və ya hərəkətsizliyi törətməyə vadar edən, onda bu hərəkətləri törətmək qətiyyəti yaradan, dərk olunan daxili emosional hisslər başa düşülür.Yüksək intellektual səviyyəyə malik olan təcrübəli rəhbər işçi öz tabeliyində olan şəxslər barəsində qərar qəbul edərkən onun daxilində pozitiv və ya neqativ hisslərin mübarizəsi gedir. İşçinin əmək fəaliyyətindən, davranışından, kollektivlə münasibətindən və bir sıra digər fərdi keyfiyyətlərindən asılı olaraq o, müsbət xarakterizə olunursa, onun barəsində həvəsləndirici, əks halda isə intizam tənbeh tədbirləri tətbiq edilir. Bu qərarın qəbul edilməsi sonda rəhbərin daxili emosional hisslərində yaranan motivlərdən hansının üstünlük

təşkil etməsindən asılı olur. Məsələn, işçinin fərdi keyfiyyətləri rəhbərdə rəğbət hisslərini artırırsa pozitiv, digər halda isə neqtiv qərar qəbul edilir. Son nəticədə qəbul edilmiş düzgün və ədalətli qərar işçidə də müsbət emosiyalar yaratmaqla əməyin məhsudarlığına səmərəli təsir göstərərir. Qəbul olunmuş qərarların icraçıların istəkləri ilə uyğunluğu da icra olunacaq işin keyfiyyətinə, fəaliyyətin səmərəliliyinə birbaşa təsir göstərir.

İdarəetmə psixologiyasında idarəetmə qərarları yuxarıda göstərilən amilləri nəzərə alınaraq üç qrupa bölünür :

-qadağan edən qərarlar;
-icazə verən qərarlar;
-konstruktiv qərarlar.

Müasir elmi-texniki tərəqqi şəraitində cəmiyyətin inkişaf səviyyəsi artdıqca idarəetmədə daha yüksək təşkiatçılıq qabiliyyətinə malik, təcrübəli rəhbər işçilərə tələbat da artır. Belə bir rərbər qarşıya qoyduğu məqsədə çatmaq üçün əzmkarlıq göstərməli, kollekyivin əməyinin effektivliyini artırmaq üçün idarəetmə strategiyası seçməlidir. Düzgün seçilmiş strategiya sonradan qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsində və bunun üçün taktiki üsul və vasitələrin seçilməsində əhəmiyyətli rol oynayır. Səriştəli rəhbər bu məqsədlərə nail olmaq üçün fəaliyyət istiqamətlərini müəyyən edən idarəetmə modeli quraraq təşkilati-sərəncamverici və inzibati-təsərüfat funksiyalarını müəyyən edir.

Rəhbər üçün mühüm keyfiyyətlərdən biri də kollektivin fəaliyyətinə müntəzəm nəzarət etməkdir. Lakin bu nəzarət avtoritar xarakterli olmamalı, avtoritarizmə və süni əngəllərin yaradılmasına gətirib çıxarmamalıdır.

Özünün idarəetmə strategiyasını düzgün seçmiş rəhbər düzgün qərarların qəbul edilməsi və icrasında da çətinlik çəkmir. Bəzən qərarların icra modelləri ilə kolektivin fəaliyyəti üst-üstə düşmür. Təcrübəli rəhbər başçılıq etdiyi əmək kollektivinin idarə olunmasında qarşıya qoyulmuş məqsədə çatmaq üçün qətiyyət göstərməli, təşkilatın potensialını nəzərə alaraq, öz idarəetmə mədəniyyətini nümayiş və təlqin edərək təfəkküründə qurduğu fəaliyyət mexanizminə idarə etdiyi kollektivi inandırmaqla məqsədini həyata keçirməlidir.

Qəbul olunmuş qərarların icrası prosesində əsas amillərdən biri də bu qərarlar haqqında düzgün informasiyaların çatdırılmasıdır. Düzgün çatdırılmış infomasiya qəbul olunmuş qərarların düzgün qavranılmasına xidmət edir. Qərarların düzgün çatdırılması qrup və fərdi tapşırıqlara bölünür. Qəbul olunmuş qərarlar icraçılara çatdırılarkən kollektivin hər bir üzvünün funksiyası, məsuliyyəti, səlahiyyətləri müəyyənləşdirilir.

Onu da qeyd etmək lazımdır ki,verilən tapşırıqların icrası prosesində onun düzgün qavranılması üçün müxtəlif işgüzar müzakirələr aparılmalıdır. Bu zaman rəhbər çalışmalıdır ki, müzakirələrdə qeyri-inzibati xarakterli metodlardan istifadə etməklə (inandırma, şəxsi nümunə və s.) diqqəti əsas məsələyə yönəltsin, kollektivin bütün psixofizioloji keyfiyyətlərini nəzərə alaraq öz fəaliyyət strategiyasını həyata keçirsin.

Qərarların düzgün icrası üçün düzgün rəhbərlik üslubunun seçilməsi də önəmlidir. Rəhbər tərəfindən seçilən iş üslubu yalnız onun deyil, həmin təşkilatın fəliyyəti zamanı ortaya çıxan bütün sosial-psixoloji münasibətlərə də təsir edir. Rəhbər tərəfindən seçilən üsulu daim kollektiv tərəfindən izlənilir, kollektivdə müsbət və ya mənfi motivasiya yaradılmasına gətirib çıxarır.Verilən tapşırıqların icrası üçün nəticələrin obyektiv qiymətləndirilməsi vacibdir.

Nəticələri qiymətləndirərkən rəhbər işçilərdə müsbət motivasiya yaratmaq üçün aşağıdakı həvəsləndiririci tədbirlərdən istifadə edə bilər:

-əmək haqqının artırlması;
-xüsusi mükafatlandırma;
-iş şəraitinin yaxşılaşdırılması;
-daha yüksək səlahiyyətlərin verilməsi;
-karyerasının yüksəldilməsi ;

Rəhbərlik üslubunu xarakterizə edən amillər aşağıdakılar hesab olunur:

-peşəkarlığa, təcrübəyə, yaradıcılığa, məsuliyyətliliyə, şəxsi keyfiyyətliliyə, əxlaqiliyə, tempramentliliyə və sairə olan münasibət;

-sistemin spesifikliyi, onun məqsədləri və vəzifələri, idarəetmə strukturları və idarəetmənin texnikası, rəhbərin fəaliyyətinin funksional məzmunu;

-idarə edilən kollektivin xüsusiyyətləri, onun strukturu və hazırlıq dərəcəsi, daxili xüsusiyyətləri, kollektivdə olan formal və qeyri-formal qarşılıqlı münasibətlərin xarakteri.

İdarəetmə obyektlərində sosial-psixoloji mühit də qərarların düzgün icrasına birbaşa təsir göstərir. Xüsusilə də sosial-psixoloji birlik və həmrəylik, yekdillik, kollektivdə ayrı-ayrı fərdlər arasında qarşılıqlı işgüzar münasibətlərin xarakteri, psixoloji uyğunluq, qarşılıqlı anlaşma, birgə işə pozitiv münasibət və sair də qərarların icrası prosesində mühüm rol oynayır. Ona görə də, hər bir əmək kollektivinin sosial-psixolji keyfiyyətlərinin, inkişaf istiqamətlərinin və səviyyəsinin, sosial münasibətlər sistemindəki yeri və rolunu düzgün qiymətləndirməyin başlıca meyarı olan sosial-psixoloji mühitin əsas elementlərinin qərarların icra prosesinə təsiri xüsusi aktuallıq kəsb edərək, psixoloqlar tərəfindən daim araşdırılır.

İdarəetmənin mühüm elementi olan sosil-psixoloji mühit işçilərin emosional-psixolji münasibətlərinin təzahür forması olmaqla, kollektivdə təşkilati-sərəncam və inzibati-təsərrüfat fəaliyyətinin düzgün həyata keçirilməsində xüsüsi əhəmiyyətə malik olur.

Mahiyyəti işçilərin kollektiv fəaliyyətə və kollektivdə baş verən proseslərə, hadisələrə, idarəetməyə emosional-psixoloji reaksiyasından ibarət olan sosial-psixoloji mühit idarə və təşkilatın funksiyalarına uyğun tənzimlənməlidir. Bunun üçün onun tərkib elementlərini təşkil edən ünsürlərin hər birinin bu mühitin yaranmasında iştirakını və xarakterini ətraflı öyrənmək və təhlil etmək lazımdır.

Psixoloji ədəbiyyatda sosial-psixoloji mühitin aşağıdakı parametrləri müəyyən olunmuşdur:

-qrupun sosial- psixoloji xarakteristikası;
-kollektivdə üstünlük təşkil edən davamlı psixoloji əhval-rühiyyə;
-kollektivdə şaquli münasibətlərin xarakteristikası;
-kollektivin mənəvi-psixoloji vəziyyətinin interaktiv xarakteristikası.(Haqvediyev, 2008:58)

Təşkilatda əlverişli mənəvi-psixoloji mühit, özünü aşağıdakı əlamətlərdə göstərir:

-kollektivdə optimist əhval-ruhiyyə, işindən kollektivdən işin xarakterindən, rəhbərliklə qarşılıqlı münasibətlərdən razılıq hissinin olması,

-yeniliklərə səy etmək və öz yaradıcı potensialını, peşəkarlığını daima təkmilləşdirmək, işinə yaradıcı yanaşmaq, məsuliyyət hissi, kollektiv və rəhbərlik tərəfindən layiqincə qiymətləndirilmək, ədalətlilik, humanizm, kollektivə bağlılıq hissi və sair.(Haqvediyev,2008:14)

Kollektivdə yaranmış qeyri-sağlam mühit işin səmərililiyinə, keyfiyyətinə mənfi təsir etməklə, insanların sağlamlığına da zərər vurur. Belə bir mühit rəhbərliklə işçilər arasında inamsızlığa, konfiliktlərin yaranmasına, streslərə səbəb olur. Nəticədə işçiləri kollektivə bağlayan əlaqələr zəifləyir ki, bu da öz növbəsində kadr axınına səbəb olur. Şübrəsiz ki, təcrübəli və ixtisaslı kadrların kollektivi tərk etməsi fəaliyyətin səmərəliliiyinə və keyfiyyətinə mənfi təsir göstərərək, təşkilatın nüfuzunun aşağı düşməsinə səbəb olur.

Qəbul olunmuş qərarların icrası posesində əsas amillərdən biri də adaptasiya prosesidir. İşə daxil olan işçi adaptasiya prosesində kollektivdə mövcud olan sosial münasibətləri öyrənir və bu münasibətlərə uyğun olaraq öz mövqelərini də ortaya qoyur. Kollektivə yeni daxil olan işçi təşkilatdaxili münasibətlər sisteminə qoşulmaqla idarəedən və yaxud da tabeçilikdə olan funksiyasını daşıyır. Bu funksiyanı daşıyan hər bir şəxsdən fəaliyyətinə uyğun davranış gözlənilir. Kollektivin üzvünə çevrildikdən sonra onun kollektivə psixoloji cəhətdən uyğunluğu, kollektivə işgüzar adaptasiyası rəhbərlik tərəfindən verilmiş qərarların müsbət yönümdə yerinə yetirilməsinə təsir göstərir. Bu proses qanunvericilikdə də tənzimlənərək sınaq müddətinin müəyyən edilməsi yolu ilə həyata keçirilir.

İşçinin fərdi keyfiyyətini, onun adaptasiya imkanlarını və sair halları nəzərə alaraq əmək qanunvericiliyində üç aylıq sınaq müddəti müəyyən olunur. Həmin müddət ərzində işçinin təhsil və ixtisası, əmək vərdişləri, peşəkar iş qabiliyyəti, tutduğu vəzifəyə uyğun olub-olmaması, onun kollektivlə qarşılqlı əlaqələrənin xarakteri nəzərə alınmaqla müvafiq qərar qəbul edilir. Məhz göstərilən şəxsi keyfiyyətlər və digər hallar qarşılıqlı əlaqədə qiymətləndirilərək işçi ilə əmək münasibətlərinin davam etdirilməsi və ya ondan imtina edilməsi barədə qərar qəbul edilir.

Müasir şəraitdə idarəetmə heyətinin tərkibində keyfiyyət dəyişiklikəri özünü göstərməkdədir. Bu da idarəetmə prosesinin səviyyəsində öz təzahürünü tapır. İdarəetmə sisteminin işinin səmərəliliyini artırmaq üçün idarəetmə quruluşu da düzgün formalaşdırılmalı, müasir elmi tərəqqinin nailiyyətlərindən, o cümlədən informasiya texnikasından yüksək səviyyədə istifadə olunmalıdır. Kollektivə yüksək ixtisaslı kadrlar cəlb edilməklə bərabər, həm də fəaliyyət göstərən təcrübəli işçilərin iş təcrübəsindən istifadə edilməli, əsas məqsədə çatmaq üçün bütün imkanlardan istifadə edilərək rəhbərin özünün və yaxud yuxarı təşkilatların qəbul etdiyi qərarların icrasını təmin olunmalıdır.

Ümumiyyətlə, kollektivdə sağlam işgüzar mühit yaratmaqla təşkilatın rəhbərliyi qəbul olunmuş qərarların uğurlu icrasına nail olur ki, bu da öz növbəsində idarəçilik proseslərinin sürətləndirilməsini, idarə etmənin daha səmərəli surətdə həyata keçməsini təmin edir.

**Nəticə**

Beləliklə, idarəetmə qırarlarının hazırlanması, qəbulu və icrası ilə bağlı qeyd olunanlar aşağıdakı nəticələrə gəlməyə imkan verir. Respublikamızda idarəçiliyin təkmilləşdirilməsi məqsədi ilə dövlət orqanlarında və digər qurumlarda qabaqcıl informasiya və kommunikasiya texnologiyalarından istifadə olunması və rəqəmsal idarəçiliyin tətbiq edilməsi dövlət siyasətinin prioritetlərindən biridir və bu sahədə həyata keçirilən tədbirlərin daha yüksək səviyyədə davam etdirilməsi və rəqəmsal hökumətə keçid prosesinin sürətləndirilməsi zəruridir.

Bu mühüm amili nəzərə alaraq idarəetmə qərarlarının hazırlanması, qəbulu və icrasının hüquq, sosial-psixoloji və digər aspektlərinin elmi-nəzəri cəhətdən araşdırılması və onun praktika ilə əlaqələndirilməsi daim diqqət mərkəzində saxlanılmalıdır.

Psixoloji və sosioloji sədəbiyyatda qərarın qəbulu, bu fəaliyyəti həyata keçirən subyektin yaradıcılq prossesi kimi qəbul edildiyindən, bu prosesdə əsas amil olan məlumatların toplanması, ümumiləşdirilməsi və nəql olunması vacib məsələlərdən biri kimi ön plana çəkilməlidir.

Düzgün qərarların qəbul olunmasının əsasını təşkil edən digər bir amil idarəetmə subyekti tərəfindən toıplanmış məlumatların obyektiv reallığı əks etdirməsi, həqiqi və qərəzsiz olmasıdır ki, bunlar da qərar qəbul edən zaman şəxsiyyətin fərdi təfəkkür üslubü, onun istifadə etdiyi metodlar, şəxsi təcrübəsi, verdiyi qərarların mövcud vəziyyətə uyğunluğu, təcrübəli mütəxəssislərlə məsləhətləşmələr, həmin qərarın düzgünlüyünün zəruri şərtləri kimi qiymətləndirilməlidir.

Qeyd olunanlardan həmçinin belə bir nəticə hasil olur ki, qərar layihəsi hazırlanmazdan əvvəl həmin layihədə öz əksini tapacaq məsələlərlə bağlı əmək kollektivi və ya ayrı-ayrı fərdlərlə təmasların yaradılması, geniş diskussiya və müzakirələrin aparılması da düzgün qərar layihəsinin hazılanması və qəbulunda müstəsna əhəmiyyətə malik olmaqla, idarəetmə qərarınının qəbul olunacağı təqdirdə onun icra mexanizminin düzgün müəyyən edilməsində mühüm təminat yaradar.

İdarəetmə qərarlarının hazırlanması və icrası zamanı kollektivdə mövcud olan psixoloji mühit, rəhbər və işçilər arasında mənəvi-psixoloji münasibətlər, əmək kollektivi üzvlərinin maraq və meylləri, xarakterlərinin uyğunluğu da mühüm amillər kimi nəzərə alınmalıdır.

Qəbul olunmuş qərarların icrası prosesində əsas amillərdən biri də bu qərarlar haqqında düzgün informasiyaların çatdırılmasıdır. Düzgün çatdırılmış infomasiya qəbul olunmuş qərarların düzgün qavranılmasına xidmət edir. Qəbul olunmuş qərarlar icraçılara çatdırılarkən kollektivin hər bir üzvünün funksiyası, məsuliyyəti, səlahiyyətləri müəyyənləşdirilmılı, verilən tapşırıqların icrası prosesində onun düzgün qavranılması üçün müxtəlif işgüzar müzakirələr aparılmalıdır.

Qərarların düzgün icrası üçün təşkilatın fəliyyəti zamanı ortaya çıxan bütün sosial-psixoloji münasibətlərə təsir göstərən və peşəkarlığa, təcrübəyə, yaradıcılığa, məsuliyyətliliyə, əxlaqiliyə, məqsəd və vəzifələrə, idarəetmə strukturları və texnikasına, rəhbərin fəaliyyətinin funksional məzmununa, habelə kollektivin xüsusiyyətlərinə, formal və qeyri-formal qarşılıqlı münasibətlərin xarakterinə əsaslanan düzgün rəhbərlik üslubunun seçilməsi də önəmlidir.

Rəhbərlik üslubunu xarakterizə edən amillər aşağıdakılar hesab olunur:

İşçilərin emosional-psixolji münasibətlərinin təzahür forması kimi, birlik, həmrəylik, psixoloji uyğunluq, qarşılıqlı anlaşmada ifadə olunan, mahiyyəti işçilərin kollektiv fəaliyyətə və kollektivdə baş verən proseslərə, hadisələrə emosional-psixoloji reaksiyasından ibarət olan sosial-psixoloji mühit də qərarların icrası prosesində mühüm rol oynayır və kollektivdə təşkilati-sərəncam və inzibati-təsərrüfat fəaliyyətinin düzgün həyata keçirilməsində xüsüsi əhəmiyyətə malik olur.

Qəbul olunmuş qərarların icrası posesində əsas amillərdən biri də adaptasiya prosesidir. İşə daxil olan işçi adaptasiya prosesində kollektivdə mövcud olan sosial münasibətləri öyrənir və bu münasibətlərə uyğun olaraq öz mövqelərini də ortaya qoyur.

## ƏDƏBİYYAT

1.Yahudov H.M. Menecmentin əsasları. Bakı.Təhsil, 2007, 154 s.
2.Haqvediyev İ. İdarəetmə psixologiyası. Bakı. Elm, 2008, 247 s.
3.Bayramov Ə, Əlizadə Ə.Sosial psixologiya. Bakı. 2004, 324 s.
4.Əliyev R.Psixologiya. Bakı, 2007, 128 s.

# ARİF ABDULLAZADƏNİN ŞUŞA MÖVZULU ƏSƏRLƏRİ

**Pakizə ƏLİYEVA**[53]

**Xülasə**

Məqalədə 60-cı illər Azərbaycan ədəbiyyatının tanınmış nümayəndəsi Arif Abdullazdənin mövzusu mərdlik və alınmazlıq rəmzi Şuşa şəhəri ilə bağlı əsərləri araşdırılmışdır. Sözügedən dövrün əksər sənət adamları kimi A.Abdullazadənin yaradıcılığında da milli mənlik şüurunun ifadəsi əsas mövzulardan birini təşkil etmişdir. Sovet dönəmində Qarabağda bilərəkdən, sistemli şəkildə həyata keçirilən demoqrafik proseslər, qədim yaşayış məskənlərimizdə milliliyimizin sübutlarının, tariximizin təhrif olunması və s. ədibin istər poeziyası, istərsə nəsrində öz əksini tapmışdır. Onun poeziyasında bu mövzuyla bağlı xeyli nümunəyə rast gəlmək mümkündür ki, “Bu Şuşada” şeiri özünəməxsusluğu və problematikasının dərinliyi ilə seçilir. Bunlarla bərabər, A.Abdullazadənin “Qanlı yaddaş” romanında da Qarabağda başlanan hərəkat, Şuşanın təbiəti, tarixi və s. mövzular diqqəti çəkir. Romanda yaradılmış Adil obrazı xalqımızın tarixinin saxtalaşdırılmasına dözməyən təəssübkeş bir ziyalı kimi çox dəqiq işlənmişdir. Ümumilikdə tədqiqat prosesi A.Abdullazadənin Şuşa ilə bağlı orijinal rəmzləndirmə və obrazlar yaratdığını söyləməyimizə əsas verir. Göstərilən məsələlər əsərlərdən gətirilmə parçalarla əsaslandırılmış, yeri gəldikcə nəzəri ədəbiyyata müraciət olunmuşdur.

***Açar sözlər**: Arif Abdullazadə, Şuşa, milli kimlik, nağıl, tarix*

**Arif Abdullazade's Works On Theme Shusha**

**Summary**

The works of Arif Abdullazadeh, a well-known representative of Azerbaijani literature of the 60s, about Shusha, a symbol of courage and invincibility are studied in the article. Like most artists of the period, the expression of national self-consciousness was one of the main themes in the works of A.Abdullazadeh. The deliberate and systematic demographic processes in Karabakh during the Soviet period, the evidence of our nationality in our ancient settlements, the distortion of our history and other topics are reflected in both poetry and prose of the writer. In his poetry, one can find many examples on this topic, such as the poem "Bu Şuşada" is distinguished by its originality and depth of problem. At the same time, in A. Abdullazadeh's novel "Qanlı Yaddaş" the movement started in Karabakh, the nature, history and other topics of Shusha attract attention. The character of Adil created in the novel is very precisely developed as a fanatical intellectual who does not tolerate the falsification of the history of our people. In general, the research process gives us reason to say that A. Abdullazadeh created original symbols and characters related to Shusha. The mentioned issues are substantiated with excerpts from the works, and, if necessary, applied to the theoretical literature.

***Keywords:** Arif Abdullazadeh, Shusha, national identity, fairy tale, history*

## Giriş

XX əsr Azərvaycan ədəbiyyatının tanınmış simalarından olan Arif Abdullazadənin (1940-2002) istər elmi, istər bədii irsi Azərbaycan ədəbiyyatşünaslığında yetərincə tədqiq olunmamışdır. “Arzular”, “Könüllərin dünyası”, “Sevin Azərbaycanı!”, “Səninlə sənsiz”, “Bəxtimizin kitabı”, “Ulu Qorqud” və s. şeir kitablarının, “Şair Cəfər Cabbarlı”, “Şairlər və yollar”, “Od nə çəkdi...”, “Novatorluq və üslub” kimi monoqrafiyaların müəllifi kimi daha çox tanınan A.Abdullazdə həmçinin beş romanın müəllifidir. Ədəbi arenaya 60-cı illərdə qədəm basan Arif Abdullazadə poeziyasının əsasında həm çoxəsrlik Azərbaycan folkloru, həm klassik ədəbiyyat, həm də yeni dövrün sərbəst şeir ənənələri dayanır. Dövrün bir çox müəllifləri kimi onun poeziyası da mövzu rəngarəngliyi ilə seçilir. İnsan və cəmiyyət, həyat və ölüm, arzular, insan və Yaradan və digər mövzularla bərabər şair bütün yaradıcılığı boyu Vətən və onun taleyi məsələsini diqqətdə saxlayır. Təqdim olunan məruzədə müəllifin yaradıcılığında xalqımızın tarixində əhəmiyyətli yerlərdən birini tutan, qədim mədəniyyət beşiyi Şuşa ilə bağlı əsərləri tədqiqata cəlb olunmuşdur. Bu seçim Arif Abdullazadənin irsinin öyrənilməsinə töhfə verməklə bərabər, bütün ölkədə qeyd olunan “Şuşa ili” ilə də birbaşa bağlıdır.

## 1.Arif Abdullazadənin Yaradıcılığında Vətənpərvərliyin Əksi

XX əsr Azərbaycan xalqının taleyində bir əsrdə qismətinə iki dəfə müstəqil cümhuriyyət qurmaq, əsrin yarısından çoxunu əsarət altında yaşamaq, bir neçə soyqırıma məruz qalmaq, əzəli torpaqlarının böyük

**[53] ADPU-nun Şəki filialı,;aliyeva.pakize.filolog@mail.ru**

bir qismini itirmək, öz yurdunda qaçqınlıq həyatı yaşamaq kimi çoxsaylı mürəkkəb hadisələrlə yadda qalır. Bu qədər mürəkkəb hadisələr heç şübhəsiz, ədəbiyyatda yeni mövzulara müraciət etmək üçün şərait yaradırdı. 60-80-ci illər Azərbaycan poeziyasında milli oyanışın bünövrəsi qoyulur. 90-cı illərin əvvəllərində Qarabağ hadisələri və mənfur qonşuların torpaq iddiaları, eləcə də azadlıq hərəkatı baş qaldırdıqda əksər şairlərin əsərlərində artıq açıq şəkildə vətənpərvərlik çağırışları ön plana keçir.

A.Abdullazadənin poeziyasında vətənpərvərliyin əks olunduğu nümunələr janr və tematika baxımından da bir-birindən fərqlənir. Onlarda vətən təbiətinin vəsfi, milli-mənəvi dəyərlərin təbliği, bütöv Azərbaycan ideologiyası, vətənin taleyi, Qarabağ hadisələri və s. məsələlər ön plana çəkilir. Sadalanan məsələlər ədibin "Layla", "Son kişilər", "Dilsiz nə Vətən?!", "Sevin Azərbaycanı", "Ömrüm mənim – Vətənim!", "Odla su arasında", "Bənzərsiz bir hekayət", "Adım, soyum", "Şəhidlik andımız", "Daş yağışı", "Zamanın boyu", "Hələ ki...", "Çeçen olmaq istəyirəm", "Sevgilər" və başqa şeirlərində daha qabarıq şəkildə öz ifadəsini tapmışdır.

Mübaliğəsiz söyləyə bilərik ki, vətənpərvər ruhlu nümunələr şairin istər ilkin dövr yaradıcılığı, istərsə də qələminin artıq yetkinləşdiyi dövr üçün xarakterikdir. Arif Abdullazadənin ilk şeirlər kitabı "Arzular"a (1964) Bu kitaba daxil olan nümunələr daha çox kosmopolit düşüncəni və insan varlığının mahiyyətini açamağa istiqamətlənsə də, kitabdakı "Layla" (1962) şeiri başdan-başa Vətənin vəsfidir. Və o vətən o zamanlar üçün qəbul olunduğu kimi heç də 15 "müttəfiq" – "qardaş" respublikanın birləşdiyi SSRİ deyil, məhz doğma Vətən, əsil Vətən – Azərbaycandır. Ən vacibi isə budur ki, şair vətənə qayıtmağın, onu unutmamağın yolunu milli varlığımızın şah nəğməsi olan müqəddəs ana laylası ilə mümkünlüyünü vurğulayır [Abdullazadə, 1964:28].

Arif Abdullazadənin şeirlərində bütöv Vətən var - "kəsərsiz bir qılıncla yarıya bölünmüş" Vətən. Həmin şeirlərdə kənardan həsrətlə baxdığımız, adını ehtiyatla dilə gətirdiyimiz əldən getmiş torpaqlarla çağırışla bərabər, tamamillə eyni təəssübkeşliklə yerlibazlıq, məhəlliçilik, vətəni mahallara, bölgələrə bölməyə də qarşı çağırış da səslənir. "Sevin Azərbaycanı" (1970) və "Bənzərsiz bir hekayət" (1987), "Adım, soyum" (1989) kimi şeirləri məhz həmin çağırışların ifadə olunduğu nümunələrdəndir:

...Harda, nə vaxt soruşsalar haralısan,
cavabım bir, sözüm birdir:
Qarabağın dar günündə qarabağlı –
şuşalıyam,
ağdamlıyam,
xankəndliyəm,
bərdəliyəm,
yeri gəlsə bu torpağın hər parçası,
qarışıçün
əl-ayağı zəncirlərə can verməyən
bir dəliyəm.

...... Boy yaşımı, il yaşımı soruşsalar,
dünən, bu gün, sabah adlı
zamanların çaylarından
damla-damla axıb gedən,
tükənməyən bir anam mən,
milləti türk,
doğma yurdu Azərbaycan,
İnsan oğlu İnsanam mən. [ Abdullazadə,2020:26]

Yaradıcılığının fərqli dövrlərində milli kimlik və vətən duyğusunu şair nəinki şeirlərində, həmçinin sonrakı müxtəlif janrlı əsərlərində dəfələrlə dilə gətirir. Şairin müxtəlif illərdə qələmə aldığı "Sevin Azərbaycanı", "Ömrüm mənim – Vətənim!", "Vətən", "Odla su arasında", "Bənzərsiz bir hekayət", "Adım, soyum", "Şəhidlik andımız", "Daş yağışı", "Qürbətdə darıxırıq", "Zamanın boyu", "Hələ ki...", "Çeçen olmaq istəyirəm", "Sevgilər" və başqa şeirlərində də şüarçılıqdan qaçmaq, pafoslu danışmaq tənqid olunur, Vətənə sevginin sığallı, ütülü sözlərdə yox, vətəndaş qəlbinin döyüntüsündə olmağın vacibliyi dönə-dönə dilə gətirilir. Azadlıq və müstəqillik çağırışları ədibin beynəlxalq mövzulu "Baham adaları", "Qaraçılar", "Azadlıq (Havanaya)", "Havanalı bir ana", "Bir qitə balladası (Amerika)" şeirlərində də qırmızı xətt kimi

keçir. O, eyni zamanda yaxşı başa düşür ki, vətən beynəlmiləlçilik və şüarçılıqla xilas ola bilməz, məhz damarlarda axan qanı coşduran ana laylası, öz nəğməmiz, milliliyimizdədir xilas.

**2.A.Abdullazadənin Yaradıclığında Qarabağ Hadisələrin Əksi**

90-cı illərin hadisələri, milli azadlıq hərəkatı, soydaşlarımızın doğma ata-baba torpaqlarından qovulması, Qarabağ hadisələri Arif Abdullazadənin şeirlərindəki vətənpərvərlik çağırışlarına yeni çalarlar gətirir. Gün keçdikcə torpaq itkisi, şəhid xəbərləri və didərginlik azalmır və şair yazır:

Torpağımız həmsərhəddi torpağımıza,
Torpağımız həm də səddi torpağımıza,
Torpağımız hələ dərddi torpağımıza,
Qoca dünya özbaşına fırlanır hələ. [Abdullazadə, 2003:46].

Arif Abdullazadənin vətənpərvərlik mövzusunda şeirlərindən söz düşərkən demək olar ki, bütün tədiqatçıların yada saldığı daha bir nümunə var. Bu, 1995-ci ildə qələmə alınmış "Çeçen olmaq istəyirəm" adlı şeirdir ki, ədib özündən qat-qat güclü Rusiyaya qarşı mübarizə aparan çeçenlərin cəsarətinə hardasa həsəd apararaq yazır:

..gözüm paxıl, sözüm nağıl,
bu şeytanlar dövrəsində,
bu nağıllar ölkəsində
nağıllardan düşüb qalan
bir qara div, bir əjdaha,
bir cin olmaq istəyirəm,
sən dövranın işinə bax...
Türk oğlu Türk ola-ola
Çeçen olmaq istəyirəm.

"Dilsiz nə Vətən?!", "Odla su arasında", "Şəhidlik andımız", "Sevgilər", "Oğul istəyir Vətən", "Belə olur", "Anamın kitabı", "Daş yağışı", "Ömürdən uzun ümid", "Hələ ki...", "Yad nəfəslər", "Zamanın boyu", "Yaxın üfüqlər", "Dərd bir olsa", "Şəhid ürəkləri", "Bu torpağın mayası" kimi əksəriyyəti 90-cı illərdə yazılmış nümunələr də tematikası baxımından vətənpərvərliyə dayanır. Həmin şeirlərin təhlilindən gəldiyimiz qənaət bundan ibarətdir ki, onlarda 60-80-ci illərdə yazdığı əsərlərdə olduğu kimi şair çağırışa və milli oyanışa yer ayrılsa da, əvvəlki mübarizlik hiss olunmur, onun yerini məğlub ölkənin vətəndaşının küskünlüyü və təəssüfü tutmuşdur. "Ulduzların karvan yolu" (1999) lirik-psixoloji poemasında (silsilə üslubunda yazılmış şeirlərdən ibarətdir) uzun yollardan sonra yorulmuş şair həyatın ziddiyyət dolu acı həqiqətlərini dilə gətirilmişdir. Həmin silsiləyə dünyada insanın yeri, insanlararası münasibətlər, dostluq, Yaradan və insan, tale və alınyazısı, şairlik və s. məsələlər kimi doğma yurdun taleyi məsələsinə də yer ayırmışdır. Həmin poemada Abdullazadə belə yazır:

Kiçilə-kiçilə "böyük" olmuşuq,
Hələ bizdə qalan torpağımıza
Çəkilməz, dözülməz bir yük olmuşuq,-
Yükləyən də bizik, daşıyan da biz.
Dağların köksünə qürbət əkən də ,
Daralan yollara daşlar tökən də,
Böyük sarayları qoyub qaçan da,
Mağara yolunda daş oyan da biz.
"Vətən, vətən" deyə nalə çəkdikcə,
Vətən çiçəkləri hər gün yumulur,
Kəndlər kiçildikcə,
                    şəhərlərimiz
Qürbət quşlarına yağlı yem olur.
Qıfıllı qapılar, quruyan evlər
Tüstüsüz-ocaqsız sıralandıqca
Çadırlar karvanı baş alıb gedir,
Ölən yurd yerindən aralandıqca
Zaman öz içində boşalıb gedir. [Abdullazadə, 2003:235]

Bu parçanı oxuduqca şairin ittihamını açıqca görmək mümkündür, şair "biz" deyərkən yaşanmış məğlubiyyətdə hamının payını görür, "dağların köksünə qürbət əkən", yurd yerlərini "qürbət quşlarına yem edən"lərin elə hamımız olduğunu dilə gətirir. 2002-ci ildə dünyasını dəyişən şairin son dövr şeirlərində bu və buna bənzər nümunələr yetərincədir. Bəlkə də yaşasaydı, xalqımızın mübarizə ruhunda baş verən dönüş, torpaqlarımızın böyük bir qisminin mübariz vətən oğulları tərəfindən azad olunması onun şeirindəki əvvəlki mübariz ruhu yenidən qaytara bilərdi.

### 3.Arif Abdullazadənin Bədii İrsində Şuşa

Sovet dönəmində Qarabağda bilərəkdən, sistemli şəkildə həyata keçirilən demoqrafik proseslər, qədim yaşayış məskənlərimizdə milliliyimizin sübutlarının, tariximizin təhrif olunması və s. mütərəqqi baxışlı vətənpərvər ziyalılarımızdan biri olan Arif Abdullazadəni də narahat edirdi. Həmin mövzular ədibin istər poeziyası, istərsə nəsrində müxtəlif janrlı ədəbi nümunələrdə mövzu olaraq seçilmiş, şair hələ Qarabağda məlum hadisələr – mənfur qonşuların ərazi iddiaları baş verməmişdən öncə bir neçə əsərində nigarançılığını üstüörtülü şəkildə qələmə almışdır. Onun poeziyasında bu mövzuyla bağlı xeyli nümunəyə rast gəlmək mümkündür ki, "Bu Şuşada" şeiri özünəməxsusluğu və problematikasının dərinliyi ilə seçilir. Şeirin yazılma tarixi Abdullazadənin "Səninlə sənsiz"(1983) kitabında 1981-ci il kimi qeyd olunur. [Abdullazadə,1983]. Bu kitabdan başqa şeir elə həmin ildə "Ədəbiyyat və incəsənət" qəzetində və "Azərbaycan" jurnalında da ("Şuşada" adı ilə) çap olunmuş [Abdullazadə,1983:8], sonrakı illərdə bir neçə başqa kitaba da daxil edilmişdir.

Şeir iki hissədən ibarətdir. Birinci hissədə Şuşanın təbiəti, tarixi abidə və şəxsiyyətləri və s. haqqında məlumat verilir, şair incə poetik bir dillə mükəmməl bir peyzaj yaradır:

Bu Şuşada hava da bol, duman da,
bu Şuşada dünənlərə həvəs də bol,
                    sabahlara güman da,
dərələrdə sular da bol,
təpələrdə muğam üstə dodaqları
                    cadar-cadar yanan da.
Bu Şuşanın küçələri sarmaşıq,
qapılara sarmaşıb,
tarixlərə sarmaşıb.
Düzlər zirvədən başlar,
dağlar düzlərdən keçib
                    yollara aşıb-daşar.
Uçurumlar
başaşağı dayanan dağa bənzər,
ömürlər zamanlara,
günlər bir çağa bənzər. [Abdullazadə,1983:14]

Misraları oxuduqca insanın gözü qarşısında gözəl təbiət mənzərəsi içində qədimlik simvolu Şuşa canlanır. O Şuşa ki, əzəmətlə dağların sinəsindən baş qaldırır, təmiz, saf havası kimi insanların ümidləri, gümanları da safdır. Lakin elə ilk misralardan diqqətimizi bir məqam çəkir, şair bu saflıq, bol hava içərisində bol duman da görür. Məlumdur ki, klassik poeziyada duman, çən bir yerin, bir məkanın və ya insanın başının üstünü alırsa bu qeylü-qaldan, cəncəldən xəbər verir. Şair "bu Şuşanın" rəmzi, bəlkə də əsrlər uzunu özündə nisgil daşıyan Xarı bülbülü yada salır:

Bu Şuşanın yağışı sel, doğuşu gül,
güllər içrə bir gü yaşar – "Xarı bülbül",
gül üstündə donub qalar,
gül üstündə coşub-çağlar,
səsi fəğan, eşqi tufan,
"köksü altı sarı bülbül". [Abdullazadə,1983:14]

Folklordan – məlum xalq mahnısından məqamında ustalıqla istifadə edən ədib uzaqdan-uzağa oxunan bu həsrət nəğməsini əbəs yerə mətnə daxil etmir. Mahnı xanlığın tarixindəki hadisələrin xatirə yaddaşı kimi səslənir. Daha sonra müəllif İbrahim xan, Natəvan, Ağaməhhəmməd şah Qacar, Üzüyir bəy, Qasım bəy Zakir, Molla Pənah Vaqif kimi Şuşanı yadımıza salan şəxsiyyətlərin adlarını çəkir, muğam, sənət beşiyi olan Şuşanı, doğma Qarabağımızı uzun illər boyunca yadımıza salan "Qarabağ bülbülləri"nə işarə ilə yazır:

Bu Şuşada İbrahim xan qalası da,
Natəvanın yarası da,
Qacarın son gecəsi də,
Üzeyirin ilk nəvası da,
Zakirin qübarı da,
Vaqifin məzarı da
yan-yana axıb gedər
zamanın sinəsindən.
Qayalar səf-səf durar,
uçurumlar titrəşər
əli sağ qulağında
“aman” deyib çağlayan
bir uşağın səsindən. [Abdullazadə, 1983:15]

Şeirin birinci hissəsi bununla tamamlanır. İkinci hissədə (qeyd edək ki, hissələr I və II şəklində müəllifin özü tərəfindən ayrılmışdır) artıq şairin Şuşada olarkən yaşadıqları və məlum proseslərdən öncəki nigarançılığını əks etdirir. Abdullazadənin bioqrafiyasından məlumdur ki, şair bir neçə dəfə istirahət məqsədi ilə Şuşada sanatoriyada olmuş, eyni zamanda ədəbiyyatşünas alim və Azərbaycan Yazıçılar İttifaqının (o zamanın təbirincə) üzvü kimi Şuşada keçirilən mədəni-kütləvi tədbirlərin iştirakçısı olmuşdur (Vaqif poeziya günləri, Y.V.Çəmənzəminlinin yubileyi və s.). Onu da qeyd etməyi lazım bilirik ki, Arif Abdullazadə bir neçə il ardı-ardına vaxtı ilə Azərbaycan Pedaqoji İnstitunun filialı kimi Xankəndində fəaliyyət göstərən (1969-cu ildən) Pedaqoji İnstitutda Dövlət Buraxılış İmtahanlarında komissiya sədri olmuşdur (A.Abdullazadə 1966-cı ildən Filologiya üzrə eləmlər namizədi, 1977-ci ildən elmlər doktoru dərəcələrini almışdı). Həmin zamanlarda o çox vaxt Şuşadakı sanatoriyada qalmışdı. Ədibin xatirələrində bu günlərlə bağlı xeyli maraqlı müşahidələr, qeydlər yer almaqdadır. 1981-ci ildə yazılmış “Bu Şuşada” şeirində müəllif həmin xatirələrə isnad edir, gözəllik, mərhəmlik içində asanlıqla deyilməsi, dilə gətirilməsi mümkün olmayan sirlərlə dolu olan Şuşanı vəsf edir:

Bu Şuşada ömrümün
otuz doqquz günü qaldı,
yenə çarpaz duyğularım
nağıllara, dastanlara
                    yön aldı –
otuz doqquz qapı açdım
                    bu şəhərdə,
bu da qırxıncı qapı,
əl atdım,
                    donub qaldım,
sonra səssiz-sorğusuz
maraq dolu vahiməylə
geri qaçdım, [Abdullazadə,1983:15]

Bəs görəsən, şairi qorxuya, vahiməyə salan nədir? Bəlkə sirli keçmiş, bəlkə möhtəşəm təbiət, bəlkə zəngin mədəniyyət və mənəviyyat?...Şair təsadüfən bu qədim şəhəri sirli-sehirli nağıllardakı qırxıncı qapının simvolikası ilə yada salmır. Əlbəttə, folklor poetikasına və rəmzlər dünyasına dərindən bələd olan ədəbiyyatşünas alim yazdığı, dilə gətirdiyi fikirlərin fərqinə varır və arxasında həmişə ən əsas sirr olan, çox vaxt keçilməsi ən müşkül olan qapını yada salır:

Qorxdum,
qaçdım bu qapının
sirli-səsli arxasından,
bu balaca şəhərdəki
ömürlərdən keçib gedən
neçə nağıl dünyasından.
Bu Şuşanın son sirləri
dərələşən, qayalaşan, dağlaşan
                    neçə-neçə möcüzəsi,
bulaqlaşan, çeşmələşən, çaylaşan

neçə-neçə gur nəfəsi
bu qapının arxasında
düşüb qaldı,
həvəslərin dağ karvanı
bu qapının lal önündə
nəyəsə ilişib qaldı –
qorxdum onu açmağa.
Qorxdum Şuşa bu qapıyla
dünənlərin, bugünlərin, sabahların
sirlərini
başdan-başa aça bilər önümdə,
açılar, adiləşər,
marağım ürəyimdə
çalxalanıb ötüşər,
bu günəşli, dumanlı,
bu dünənli şəhərin
son sirləri önündə
son sözüm yerə düşər... [Abdullazadə,983:16]

Misralarda yer alan "son sirlər", "qapıların arxasında düşüb qalan gur nəfəslər" əslində bu qədim diyarın, mədəniyyət yurdunun tarixinin çox da uzaq olmayan qatlarından xəbər verir, şair deyir ki, çox şeyi bilir, amma ehtiyatlanır, bildiklərini dilə gətirməkdənsə, susmağı və sonuncu qapını açmamamğı lazım bilir. A.Abdullazadənin 1990-92-ci illərdə yazdığı son romanı "Qanlı yaddaş" ilk variantda "Azərbaycan" jurnalında hissələrlə çap olunmuş [Abdullazadə, 1992, № 5-6, səh.6-67], müəllifin vəfatından sonra ayrıca kitab halında yenidən oxucuların ixtiyarına verilmişdir. Romanın yazıldığı vaxtda faciə hələ yeni idi və Azərbaycanın müstəqillik mübarizəsi hələ sözün birbaşa mənasında tamamlanmamışdı. Ümumiyyətlə,"Qanlı yaddaş" bu mövzulara Azərbaycan nəsrində ilk müraciət olunmuş əsərlərdən biridir.

Roman özlüyündə müəllifin əvvəlki romanlarında ötəri, epizodik halda müraciət etdiyi bütün mövzuların küll halında əks olunduğu əsərdir. Əsərdə Qarbağ hadisələri, həmvətənlərimizin dədə-baba yurdları olan Qərbi Azərbaycan torpaqlarından qovulması, Meydan hərəkatı, müstəqillik uğrunda mübarizə, qanlı 20 Yanvar hadisəsilərinə yer verilmişdir. Məlumdur ki, ədəbiyyatımızda sonuncu hadisələrin əks olunduğu xeyli sayda bədii əsər yazılmışdır, A.Abdullazadənin romanını həmin əsərlərdən fərqləndirən burada hadisələrin birbaşa təsvirindən daha çox, həmin qanlı hadisələr üçün zəmin olan tarixi hadisələr, tarixin saxtalaşdırılması və s. məsələlərə önəm verilməsidir. Romanın qəhrəmanı Adilə (bəlkə də yazıçının özünə) elə gəlir ki, baş verən hər bir bəla və müsibətin kökündə illərlə düşünülmüş şəkildə tarixin saxtalaşdırılması durur, milli kimliyin təsdiqi meydanlara çıxmaqla bərabər, gerçək tarixin yazılması ilə mümkün ola bilər. Çünki əsərdəki Adil obrazı əsil ziyalı kimi faciəni çox-çox əvvəlcədən duya bilən, lakin ətrafdakıların nadanlığı ucbatından səsini kimsələrə çatdıran bilməyən tənha qəhrəmandır.

Tədqiqatımızın əsas mövzusuna uyğun olaraq romanda Şuşa ilə bağlı olan məqamlara diqqət yetirək. Abdullazadənin digər romanlarında da qəhrəmanların Şuşada keçirdikləri tətil və ya turist səfərləri barədə qeydlərə rast gəlirik. Maraqlıdır ki, müəllif Vətənimizin digər gəzməli-görməli yerlərinin adını çəkmir. Deməli, Şuşa ədib üçün ekzotik, sirli bir aləm, insanların ruhunun dincliyə ehtiyacı olduqda üz tutduqları Cənnət guşəsidir. Sonuncu romanın aparıcı surəti Adil bir neçə dəfə Şuşada olmuşdur. Adilin xatirələri içərisində ona heç cür dinclik verməyən bir məqam var. Hardasa Qarabağ hadisələri başlamamışdan bir az öncə Şuşada ezamiyyədə olarkən Şuşaya sonuncu səfər edir. Bu sonuncu səfər əslən Şuşadan olan Dəmirin dili ilə belə təsvir olunur: "Qarabağ səfəri düz otuz doqquz gün çəkdi – özü hesablamışdı bunu. Ancaq bu səfərdən daha da yorğun və əsəbi qayıtdı. Gətirdiyi xatirələrlə məni sarmaşıq kimi evlərə sarmaşan uşaqlıq cığırlarımı dolaşmaq imkanı verməməsi bir yana qalsın, heç əməlli-başlı bir söz də qoparmaq olmadı ondan. Bildiyim təkcə o oldu ki, həqiqətən də Şuşada turbazada qalırmış, həftədə iki dəfə onu Stepanakertə aparırlarmış və Qarabağın dünənindən sabahına gedən yolları əməlli-başlı duman bürüməyə başlayıbmış. Elə belə də dedi". [Abdullazadə,1992:18] Bu sətirlərin daha əvvəl adını çəkdiyimiz "Bu Şuşada" şeiri və müəllifin bioqrafiyası ilə necə səsləşdiyini əlavə şərh etməyə düşünürük ki, ehtiyac yoxdur.

Romanda müasir polifonik romanların üslubuna uyğun olaraq eyni hadisələr müxtəlif surətlərin dili ilə ayrı-ayrılıqda təqdim olunur. Yuxarıda misal gətirdiyimiz hadisə - Adilin Şuşaya son səfəri də belə parçalardandır. Adil güclü müşahidəsi ilə doğma torpaqlarda ayrı küləklərin əsdiyini, kimlərinsə dədə-

baba yurdumuz Şuşaya qədərindən çox sahiblənmə hallarını hiss edir: "...sən bir işə bax ki, heç Cıdır düzünə də qalxmadım, İsa bulağına da getmədim. Bəlkə şəhərə girər-girməz birbaşa üz tutduğum turbazada qarşımı kəsən ilk qadağan, ordenli qapıçının üzümə bağladığı qapı? Bəlkə də Adillə Rüstəmin turbazada (bəlkə də elə bütün Şuşada – Dağlıq Qarabağda) müdirdən də böyük sayılan sestra-xozyayka adı ilə əsil xozeyinlik eləyən Asyanın murdar sifəti, mənə öz doğma yurdumda bir-iki gecəlik yer verməyən acı dili, mənə qapını göstərən dəmir əlləri!" [Abdullazadə, 1992: 21] Alim, Azərbaycan ziyalısı Adil bir erməni - "sestra-xozyayka adı ilə əsil xozeyinlik eləyən Asya" kimilərin qarşısında acizdir. Burada ona qapını göstərən, turbazanın qapılarını üzünə bağlayan, öz doğma yurdunda "yersiz gəldi, yerli qaç" üsulu ilə davranan "Asyanın murdar sifəti" düşmənin ümumiləşmiş obrazıdır.

Adil (hardasa müəllifin özü) vətənini, millətini, onun tarixini sözün həqiqi mənasında sevən bir alimdir. Hamıya öz rəftarı ilə qəribə görünən bu "əhlikef" adam çiyinlərində bir millətin dərdini gəzdirən bir ziyalıdır. Onun ətrafında olan Səfər, Dəmir, Qorxmaz, Əsgər və başqaları isə böyük bir elmi müəssisədə çalışsalar da, əsil ziyalı keyfiyyətlərindən məhrumdurlar. Onlar nə millət dərdi, nə xalq dərdi çəkirlər, əksinə Adilin tariximizlə bağlı üzə çıxarmaq istədiyi faktlara nəinki inanmır, hətta ona "başını salamat saxlamaq üçün dərinə getməməyi" məsləhət bilirlər. Buna Adilin cavabı belə olur: "Bəs kim getsin dərinə? Mən getməyim, sən getmə, o getməsin, kim getsin, kim? Kənardan gəlib yazacaqlar sənin tarixini? Odeyy, yazırlar da. Ağızlarına gələni deyirlər haqqımızda, vururlar, söyürlər, üzümüzə tüpürürlər. Sənsə susursan. Buna görə də gündən-günə qudururlar, həyasızlaşırlar. Fikirləşirlər ki, balam, bunlar susursa, bizə cavab vermirsə, deməli, sözləri yoxdur da, deməli, biz düz deyirik..." [Abdullazadə, № 7-8:14] Özünə həmfikir tapmayan Adil tənhalıqdan əziyyət çəkir. Onu dünyanın ən qayğısız adamı hesab edənlərdən fərqli olaraq, Adilin dilindən verilmiş hissələrdə necə tənha olduğu göstərilir, şəxsi planda olan uğursuzluqlar isə əsla onu yolundan döndərmir, amalı, əqidəsi yolunda inamı və əzmini sarsıtmır.

Qeyd etdiyimiz kimi, Adil əsər boyunca kitabın çap olunması üçün qarşısına çıxan maneələri yıxmağa çalışır. Lakin vətənpərvərlikdən uzaq vəzifəpərəstlər öz havadarlarına sədaqətlərini göstərmək üçün kitabın çapına imkan vermir. Gerçək tarixin əks olunduğu həmin kitab çap olunana qədər düşmən tərəf öz saxta tarixini yazmağa imkan tapır və orada Azərbaycan torpaqlarına olan iddialarını səsləndirir. Və gerçək tarix qanlı tarixə - qanlı yaddaşa çevrilir. Müəllif müxtəlif məqamlarda qanlı faciənin qalan vaxtı qeyd etməklə oxucuya sanki xəbərdarlıq edir, millətin ziyalısının faciəni əvvəlcədən necə duyduğunu göstərməyə çalışır. Adil üçün düşmən anlayışı bir deyil. Təbii ki, həmin anlayış daxilində sadəcə torpaqlarımıza soxulan, meydandakı əliyalın insanlara atəş açan, onları tanklar altında əzən sovet əsgəri və onun komandanı ilə bərabər öz içimizdən olan xain və ruhunu satmış, mənəviyyatını itirmiş kəslər də var. Başının salamat olmasından, qarnının tox, əyninin qalın olmasından başqa dərdi olmayan bu "ziyalılar" Adilin (yəqin elə müəllifin də) gözündə düşmənin ən pisidir. Arif Abdullazadənin "Qanlı yaddaş" romanı bir ziyalının simasında bütövlükdə xalqın milli oyanışının, gizlədilən tarixin üzə çıxarılması uğrunda çarpışmanın tarixçəsidir.

Şuşa mövzusuna müraciət olunan ən xarakterik əsərlərdən olan "Bu Şuşada" şeiri və "Qanlı yaddaş" romanları ümümi ruhu baxımından olduqca yaxındır, baxmayaraq ki, onların qələmə alındığı zamanlar çox fərqlidir. Əgər adından da göründüyü kmi, "Bu Şuşada" şeirinin mövzusu birbaşa Şuşa ilə bağlıdırsa, "Qanlı yaddaş" romanın mövzu dairəsi daha genişdir, şeirdə bəhs olunan əsas məsələ - milli müstəqilliyin bərpasıdır.

**Nəticə**

Beləliklə, "Arif Abdullazadənin Şuşa mövzulu əsərləri" adlı araşdırmanın nəticəsi olaraq fikirlərimizi ümumiləşmiş şəkildə aşağıdakı kimi ifadə edə bilərik:

- Vətənpərvərlik Arif Abdullazadə yaradıcılığının bütün dövrləri üçün xarakterikdir;
- Onun vətənpərvər ruhlu əsərləri xarakteri etibarilə çağırışçı pafoslu nümunələrdən olduqca uzaqdır;
- Vətənpərvərlik ədibin həm nəsri, həm də poeziyası üçün xarakterikdir;
- Vətənpərvərlik duyğularının əks olunduğu bir sıra əsərlərində Şuşa alınmazlıq rəmzi kimi təsvir olunur;
- Ədibin yaradıcılığında Şuşa rəmzi olaraq milliliyin təmsilçisidir və müəllif daim ona can atır;
- Şuşa mövzusuna müraciət olunan ən xarakterik əsərlərdən olan "Bu Şuşada" şeiri və "Qanlı yaddaş" romanları ümümi ruhu baxımından olduqca yaxındır;
- Ədib əsərlərində həm Şuşanın təbiətini, həm tarixi keçmişini, həm mədəni həyatını təsvir edir;

- Şuşanın taleyi (Vətənin taleyi) bədnam qonşuların ələ keçirməyə ilk başladığı yurd yerimiz kimi şairi narahat edir və s.

## ƏDƏBİYYAT


1. Abdullazadə A. Arzular. Abdullazadə A. Arzular. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı,1964, 45 səh.
2. Abdullazadə A. Bu Şuşada. “Ədəbiyyat və İncəsənət” qəzeti, 12 avqust 1983-cü il, səh.4
3. Abdullazadə A. Qanlı yaddaş: roman. “Azərbaycan” jurnalı, 1992, № 5-6, səh.6-67
4. Abdullazadə A. Qanlı yaddaş: roman. “Azərbaycan” jurnalı, 1992, № 7-8, səh.3-71
5. Abdullazadə A. Qanlı yaddaş: roman. Bakı, “Elm və təhsil” nəş. 2010. 398 səh.
6. Abdullazadə A. Qatarla uçmaqdan yorulan durna. Bakı, “Mücrü” nəşriyyatı, 2020,164 səh.
7. Abdullazadə A. Səninlə sənsiz: şeirlər və poema. Bakı, Yazıçı, 1983, 134 səh.
8. Abdullazadə A. Şuşada. “Azərbaycan” jurnalı, 1983, № 8, səh.123-124
9. Abdullazadə A. Tövbə duaları: şeirlər. Bakı, Çaşıoğlu, 2003, 357 səh.

# SAXURLARDA NİŞAN MƏRASİMİNİN SPESİFİK XÜSUSİYYƏTLƏRİ

**Doktorant Sahibə MUSAYEVA**[54]

**Xülasə**

Etnoqrafik müşahidələrə əsaslanan məqalə saxurların toyqabağı mərasimlərindən olan nişan adətindən bəhs edir. Məlum olur ki, nişan mərasimi sözkəsmədən iki-üç həftə sonra keçirilir, bəy evindən gəlin evinə nümayəndələr - kişi və qadınlar müəyyən hədiyyələr, pul, nişan üzüyü ilə göndərilir. Adətə görə,bundan qabaq isə bəyin yaxın qohumları - kişilər və qadınlar ailə məclisinə dəvət olunur və onların gəlişi şərəfinə təntənəli şam yeməyi verilir, daha sonra gəlinin evinə böyük nimçə plov, ipək dəsmal və bahalı zinət əşyaları, pul göndərilir. Saxurlar arasında bu adət "hyadin kyab" və ya "böyük örtük" adlanır. Etnoqrafik müşahidələr göstərir ki, saxurlar bayram günlərində nişanlı qızın evinə hədiyyələrlə dolu xonçalar göndərirlər. Saxur ənənəsinə görə, nişan mərasimindən sonra gəlin artıq üzük qaytara bilməz, əks halda gəlinin valideynləri nişan mərasiminə bəy tərəfindən xərclənən maddi xərclər üçün ikiqat pul ödəməli idilər. Azərbaycanlılar, digər türk xalqlarında olduğu kimikimi saxurlar da nişan mərasimindən sonra bəyi gəlin evinə dəvət edirlər. Bu adət "ayaq açma" adlanır və toy gününə kimi bu davam edir. Nişan mərasiminin ilk günlərindən bəylə gəlinə rəsmi olaraq "deyikli" deyirlər.

***Açar sözlər:*** *saxurlar, nişan, gəlin, bəy, saxurların adətləri*

## Specific Features Of The Engagement Ceremony Of The Tsakhurs

**Summary.**The article, which is based on ethnographic observations, is about the custom of pre-wedding ceremony of the Tsakhurs. It turns out that the engagement ceremony is held after two or three weeks after the matchmaking, representatives - men and women with certain gifts, money, and an engagement ring are sent from the groom's house to the bride's house. By tradition, close relatives of the groom – men and women - are invited to the family council and a solemn dinner is served in honor of their arrival, after which a large plate of pilaf, a silk handkerchief and expensive jewelry, money are sent to the bride. Among the Tsakhurs, this custom is called "hyadin kyab" or "boyuk ortyuk". Ethnographic observations show that Tsakhurs send khonchas to the betrothed girl's house on holidays. According to the Tsakhur tradition, after the engagement ceremony, the bride cannot refuse the groom, otherwise the bride's parents pay double for the material expenses that were spent on the engagement ceremony on the part of the groom. Azerbaijanis, like other Turkic peoples, Tsakhurs also invite the groom to the bride's house after the engagement ceremony. This custom is called "ayag achma" and it continues until the wedding day. From the first days of the engagement ceremony, the bride and groom are officially called "dayikli".

***Keywords:*** *tsakhurs, engagement, bride, bridegroom, customs of the Tsakhurs*

*UOT :39*

Azərbaycanın bütün bölgələrində olduğu kimi, saxurlar arasında da elçilikdən sonra nişan mərasimi icra edilərdi. Topladığımız məlumata əsasən, nişan mərasimi oğlanın ailə və tayfası üçün uğurlu, düşərli saydıqları bir gündə, "həm də elçilikdən bir-iki həftə sonra həyata keçirilərdi*"* (Соловьева , 1986: 105). Deyilənə və ədəbiyyat materialının sorağına görə, hətta bir çox saxur kəndlərində nişandan əvvəl cavanlar "nişanlanması  şərəfinə  kürəkənin evinə toplaşar və şənlik edərdilər. Həmin şənlik "Cil qibkara", daha doğrusu, "döşəmə örtmək" adlanırdı. Bu təntənəli mərasimlərdə saxurlar  evinin döşəməsinə xüsusi gil sürtər, kosmetik təmir edər, yəni, evlərini qaydasına salardılar. Günorta saatlarında bəyin anası rəsmi olaraq gəlingilə gələr və üç çörək, üç dairəvi qoyun pendiri, bir nimçə halva və şirniyyat gətirərdi. Həmin gün axşam tərəfi isə bəyin böyük bacısı və ya  bibisi nimçədə plov, ədviyyat, ipək və gəlin üçün şal aparardı"( Мусаев, 2009: 253).

Apardığımız tədqiqatlarda yaşlı adamların dediyinə görə, "döşəmə örtmək" şənliyindən sonra bəyin kişi və qadın qohumları ailə şurasına  dəvət olunar və onların gəlişi münasibətilə süfrə açılardı. Adətə görə, dəvət olunanlar yeməkdən sonra pul və ya digər qiymətli əşyalar verərdilər. Yığılan pul və qiymətli əşyalar

[54] **Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun dissertantı, aliyarbeyova.s@mail.ru**

bir böyük məcməyi plov və bahalı ipək yaylıqla bərabər gəlin evinə göndərilərdi. Saxurlar arasında bu mərasimə “hədin kyab”, yəni “böyük örtük” deyilərdi.

Əlaqələri genişləndirmək, bir-birinin ailəsinə uyğunlaşmaq naminə bəy adamları yaxın müddət ərzində gəlin evini bir dəfə də ziyarət edərdilər. Bu gedişdə “5-6 kişi və 10-12 qadından ibarət nümayəndə heyəti gəlinə nişan  üzüyü ("tucva"), Gəncə istehsalı olan ipək şal (kəlağayı), bir pud yun və müəyyən məbləğdə pul, həmçinin qohumlar tərəfindən hədiyyə olaraq alınan paltar aparardılar”( Мусаев, 2009: 254).

Saxurlar arasından topladığımız etnoqrafik materiallar göstərir ki, nişan mərasimi zamanı üzüyü gəlinin barmağına başıbütöv, oğullu-qızlı, el arasında deyildiyi kimi, bəxtindən yarımış bir qadın taxardı. O qadın, əsasən, bəyin qohumlarından olurdu. Özü də “paltarbiçdi” mərasimi elə həmin gün keçirilərdi və qızın paltarını həmin o qadın biçərdi. Bu barədə etnoqrafik ədəbiyyatda da məlumat verilir (Paşayeva, 2008: 125).

Etnoqrafik ədəbiyyatda qeyd olunur ki, “nişanda qız üçün gətirilən ən vacib əşya üzük, baş örtüyü və şirniyyat şeyləri olardı. Üzüyün rəmzi mənası əbədilikdir, baş örtüyü isə qızın başının məhz nişanlandığı adama bağlandığına işarədir. Şirniyyat da münasibətlərin şirin olması diləyidir.... Bundan sonra qız nişanlı hesab edilir və başqa bir ailənin onun adını tutmağa ixtiyarı olmurdu”( Bünyadova , 2012: səh.45). Özü də artıq nişanlı olduğunu bildirmək üçün nişan gününün səhərisi qız evdən kənara çıxdıqda başını örtməli və yaşınmalı idi (Qeybullayev ,1994: 167). Onu da deyək ki, Azərbaycan türklərində olduğu kimi, nişan zamanı saxurlarda qıza “darlıq” əlamətidir deyə, ayaqqabı, çəkmə aparılmazdı.

Yeri gəlmişkən deyək ki, qıza aparılan üzüklər içərisində nişan üzüyü öz formasına görə seçilirdi. Belə ki, “nişan üzüyünün altı düz, üstü isə qabarıq formada, həm də nisbətən qalın və ağır olurdu. Nişan üzüyü sol əlin “gəlin barmağı”na taxılırdı (Mustafayev, 1977: 98). Buna bəzən “nişan”, yaxud “xəzinə barmağı” da deyilərdi. Əvvəlki zamanların çətinliyindən danışan məlumatçı əlavə edir ki, “o vaxtı üzük də almağa imkan olmazdı üzük əvəsinə baş yaylığı, yüngül pal-paltar aparardılar” (16).

Materiallar göstərir ki, Suvagil kəndində yaşayan saxurlar nişan mərasimi zamanı qızın barmağına sadə və qaşsız üzük taxardılar. İnama görə, qaş və halqa bəzəklər gələcək ailə arasında söz-söhbət, dedi-qodu yaradardı. Bəzi kəndlərdəki saxurlar isə ümumiyyətlə nişan mərasiminin keçirilməsinə pis baxardılar. Məsələn, Qax bölgəsinin Ləkit kəndində yaşayan saxurlar bu qəbildən idi. Onlar qızın “hə”sini aldıqdan sonra nişan əvəzinə üç gün, üç gecə toy çaldırardılar (Musayeva, 2022).

Verilən məlumata görə, nişan mərasimi zamanı təkcə üzük deyil, gümüş kəmər, gümüş bilərzik, tana və digər qızıl əşyaları da gətirilərdi. Etnoqraflar yazır ki, “bölgənin hər yerində qıza kəmər aparılması zəruri idi. Görünür, bu adət də qızın nişanlanmasını təsdiq etmək (arxayın olmaq) baxımından özünəməxsus rəmzi məna daşıyırdı”( Paşayeva,2008:73). Yaşılıların dediyinə əsasən, XX əsrin 40-50-ci illərinə qədər Muxax və Yeni Suvagil kəndlərində nişan əşyalarının tərkibində əsas yeri qızıl sikkə tuturdu.

Azərbaycan türklərində olduğu kimi, saxurların adətinə görə də qızın barmağına üzük taxılan gündən o, oğlan ailəsinin üzvü hesab edilirdi. Bütün qohumlar, xüsusilə də oğlanın qadın qohumları onu qoruyurdular.

Suvagil kənd sakininin verdiyi məlumata görə, nişandan sonra bəyin kişi və qadın qohumları müxtəlif hədiyyələrlə (örpək, şal, parça, şirniyyat və s.) gəlingilə gələrdilər. Bu, “gəlingörmə” (saxurca “izdağ (istağ)qoyces”) adlanardı (17).

Etnoqrafik materiallardan bəlli olur ki, hər ay və bayramlarda nişanlı qızgilə oğlan evindən müxtəlif hədiyyələr göndərilərdi. Məsələn, adi vaxtlarda hədiyyə üç çörək, bir nimçə plov, bir dairə (baş) pendir və şirniyyatdan, “Novruz bayramında - 3 kq şirniyyat, 5-6 kq qoz, 5 kq qızardılmış buğda, bir şərf, donluq üçün parça və digər şeylərdən” ibarət olurdu (Мусаев , 2009: 254). Məlumat üçün deyək ki, hədiyyə məsələsində gəlinin valideynləri də unudulmurdu. Onlar üçün də paltarlıq parçalar, çörəklər, halva, pendir və şirniyyat təqdim olunurdu.

Onu da deyək ki, təkcə saxurlarda deyil, Azərbaycanın bütün bölgələrində qızın nişanlı vaxtı ona bayramlarda müxtəlif hədiyyələr və bayram payı aparardılar. Etnoqraf H.Q.Qədirzadə Naxçıvan materialları əsasında qələmə aldığı tədqiqat əsərində yazır ki, “...Novruz bayramında oğlanın qohumları qıza “bayram payı” aparırlar. Bunun üçün oğlan evi əvvəlcədən qohumlara xəbər verir ki, filan vaxt gəlin

evinə pay aparılacaq. İştirak etmək istəyən qohumlar müəyyən hədiyyələrlə deyilən vaxt oğlan evində toplaşırdılar... 20-30, bəzən daha çox xonça hazırlanırdı. Xonçalarda qız tərəfinin ailə üzvlərinə ayrıca paylar, eyni zamanda, bayram şirniyyatı, bir qab plov qoyulardı. ... "Gəlin tabağı" xüsusi bəzədilməklə, oğlanın bacısı və ya yaxın qız qohumlarından biri tərəfindən götürülərdi" (Qədirzadə, 2003: 58). Nişanlı qıza pay aparılması barədə H.Sarabski də məlumat vermişdir. O yazırdı ki, bahar, yay, payız dönüşü, Novruz bayramında qız üçün bayram xələti, nübar meyvə, yemiş, habelə, Qurban bayramında qoyun alıb göndərərdilər. Oğlan evinin borcu idi ki, qız nə qədər atası evindədir, onun paltarlarını alıb göndərsin (Sarabski, 1958: 93).

Azərbaycan türklərində olduğu kimi, saxurlar arasında da Qurban bayramı zamanı nişanlı qız üçün qoyun aparılmışdır. Lakin qıza aparılan qurbanlıq qoyunu xınalamaq adətinə onların içərisində rast gəlinməmişdir.

Topladığımız etnoqrafik və ədəbiyyat materiallarından bəlli olur ki, "saxurların adətlərinə görə, nişan mərasimindən sonra nışanlanan qızın artıq ondan imtina etmək hüququ yox idi. Əks halda, onun qohumları kürəkənin nişan üçün çəkdiyi bütün xərcləri ikiqat ödəməyə borclu idilər. Yox, əgər kürəkən imtina edərdisə,onda o, nişan üçün çəkilən xərcləri və gəlin üçün verilən hədiyyələri tələb etməməli idi"(Ихилов, 1967:186). Onu da deyək ki, saxurlar arasındakı bu adət Azərbaycan türkləri arasında da mövcud olmuşdur.

Saxur qocalarının dediyinə və tarixi – etnoqrafik araşdırmaya görə, "nişanlanmanın ilk günündən gəlinə "istəx" ("istəkli"), bəyə isə "yeznə" deyilərdi. Əhali içərisində bu dövr "qaçma" dövrü adlanırdı. Həmin dövrdə gənclər, valideynlər, eləcə də hər iki tərəfin qohumları arasında görüşlər məhdudlaşırdı. İstəkli, bəyin qohumlarının icazəsi ilə bir paltar dəsti geyinməliydi. Kürəkən isə (yazna) ev və təsərrüfat işlərində istəklisinin ata-anasına (əgər bunu tələb etsələr) kömək etməli idi"( Мусаев, 2009: 255).

Məlumatlara əsasən, nişandan sonra gəlinin "qaçma" dövrü başlayardı. Belə ki, o, "evdəki qonaqlarla, qohumlarla təsadüfi görüşdən "qaçmağa" çalışar və ümumiyyətlə, ictimaiyyətə az görünərdi. Nişandan sonra gəlinin saxlanması xərcləri Azərbaycanın əksər zonalarında olduğu kimi, saxurlarda da bəyin üzərinə düşərdi" (Константинов ,1847: 217).

Azərbaycan türklərində olduğu kimi, saxurlar arasında da nişandan sonra bəyi qonaq çağırmaq adəti mövcud olmuşdur (15). Buna xalq arasında bəyin nişanlısıgilə "ayaq açması" deyilərdi. Burada məqsəd böyüklərin razılığı ilə kürəkənin qayınatası evinə gediş-gəlişinə imkan yaratmaq idi. Yaşlı adamların dediyinə görə, kürəkən gələndə qayınatasıgildə çox oturmaz və digərilərinin yanında nişanlısı ilə danışmazdı. O, hər gəlişində nişanlısı üçün hədiyyələr də gətirərdi.

Saxurların qədim ənənəsinə görə nişanlılıq müddətində nəinki təkcə bəyin özü, eləcə də oğlan evinin digər üzvləri qız ailəsinin təsərrüfatında işləməli, ot çalımında, ev tikintisində və s. iştirak etməli idi. Azərbaycanlılardan fərqli olaraq saxurlarda nişanlı oğlanın özü deyil, onun yaxın dostları qız evinin təsərrüfatında müəyyən işlərin görülməsində yardımçı olardılar. Qızın atası və ya böyük qardaşı köməyə gələnlərin şərəfinə bir heyvan kəsərdilər. Nişanlı qız bəyin köməyə gələn dostlarına yemək hazırlanmasında iştirak etsə də, onların qarşısına çıxmazdı.

Nişanlılıq müddətində bəyin qız evinə müəyyən işlərdə köməklik göstərməsi Quba bölgəsində də qeydə alınmışdır. Bu xüsusda etnoqraf M.Paşayeva yazır ki, "nişanlılıq müddətində oğlanın qohumluq naminə qız evinin təsərrüfat işlərinə köməkliyi "qız əvrəzi" adlanırdı. Belə əvrəzdə nişanlı oğlan yaxın dostları, həmyaşıd qohumları ilə birgə işləyərdi və digər iştirakçılardan seçilmək üçün adətə görə biçin zamanı qoluna nişanlısı tərəfindən göndərilmiş qırmızı parça bağlayardı"( Paşayeva, 2008: 76).

Nişanlı olarkən oğlanın qızgilin ailəsinə kömək etməsi talışlar içərisində də yayılmışdır. Bu barədə bizi etnoqrafik ədəbiyyat da məlumatlandırır: "Qayınata nişanlı oğlanı evinə qonaq çağırdıqdan sonra, ona görülməsi vacib olan hər hansı bir iş üçün filan gün müəyyən qədər adamla işləməyə gəlməsi haqqında xəbər göndərərdi. Adət naminə təşkil edilmiş köməkliyin iştirakçılarına kürəkən özü yemək verərdi"(Cavadov , 1993: 62).

Məlumdur ki, nişan mərasimindən sonra oğlan və qız adamları arasında qohumluq əlaqəsi yaranırdı. Qız alış-verişindən sonra yaranmış qohumluq əlaqəsinin birləşdirdiyi şəxslər əhali arasında xüsusi terminlərlə ifadə edilirdi. Məsələn,"Oğlanın qohumları qıza "gəlin" deyirdilər. Qızın və oğlanın valideynləri bir-birini "quda" deyə çağırırdılar. Qız, oğlanın atasına "qayınata", anasına "qayınana",

qardaşına“qayın”, bacısına “baldız”, qardaşı arvadına isə “elti” deyirdi. Qızın valideynləri oğlana “kürəkən”, qardaşı isə “yeznə” deyə müraciət edirdi”( Əliyev ,2012: 46).

Azərbaycanın türk ailələrində olduğu kimi, saxurlarda da cehizlərin hazırlanmasında nişanlı qızların özləri də iştirak edirdi. Uzun əsrlər boyu qadınlar digər məişət işləri ilə yanaşı, xalça toxumaq və tikmə sənəti ilə də məşğul olurdular. Analar, nənələr bu sənət sahələrini qızlarına, nəvələrinə lap uşaq yaşlarından aşılayırdılar. Ona görə də qızların cehizlə bağlı əsas işləri əvvəlcədən görülürdü. Nişan qoyulduqdan sonra isə, bəzi çatışmayan toxuculuq məmulatlarını hazırlayırdılar. Bu işdə qızın qohumları və rəfiqələri də köməklik göstərərdilər. Gəlin “özü anasının köməkliyi ilə bir neçə xalça, kilim və palaz, 50-60 cüt corab toxumalı, şalvar üçün qaytan və iki dəst döşək, ədyal və yastıq düzəltməli idi (Константинов, 1847: 382). Yaşlı adamların dediyinə görə, toxuculuq bacarığı, məharəti olan qızlara oğlanın ailəsi xüsusi qiymət verirdi.

**Nəticə**

Beləliklə, saxurların nişan mərasimi ilə bağlı aparılan araşdırma göstərdi ki, bu şənliklə bağlı icra edilən adətlər Azərbaycan türkləri arasında olduğu kimi idi. Buna baxmayaraq, sözügedən mərasimlə əlaqədar bəzi spesifik xüsusiyyətlər (məs: “döşəmə örtmək”, “böyük örtük” adətləri, nişan günü “paltarbiçdi” olması və qayınata evinə bəyin özü deyil, dostlarının kömək etməsi və s.) də özünü göstərirdi.

## ƏDƏBİYYAT


1. Azərbaycan folkloru antologiyası.VI kitab. (Şəki folkloru.II cild) // Redaktoru AMEA müxbir üzvü Yaşar Qarayev.Bakı:Səda, 2002, 562 s.
2. Bünyadova Ş.Orta əsrlərdə ailə.//Ş.Bünyadova.Redaktoru tarix elmləri doktoru, professor Nərgiz Quliyeva. -Bakı: “Elm” nəşriyyatı, -2012, -384 s.
3. Cavadov Q.Azərbaycanda el köməyi adətləri.Bakı: Azərnəşr, 1993, 101 s.
4. Əliyev Ə.XIX-XX əsrin əvvəllərində Gürcüstan azərbaycanlılarının ailə məişəti (tarixi-etnoqrafik tədqiqat).// Ə. Əliyev. -Bakı: “Elm vətəhsil”, -2012,-156 s.
5. Qeybullayev Q. Azərbaycanlılarda ailə və nikah (XIX əsr və XX əsrin əvvəlləri).Tarixi-etnoqrafik tədqiqat.2 hissədə. I hissə./Q. Qeybullayev.-Bakı:Elm, 1994, - 274 s.
6. Qədirzadə Q. Ailə və məişətlə bağlı adətlər inamlar,etnoqenetik əlaqələr. B. “Elm”,2003,375 s
7. Musayeva T. Saxur etnik qrupunun folklor nümunələri Azərbaycan milli mədəniyyətinin tərkib hissəsi kimi | Konservatoriya//http:// konservatoriya.az/ ?p=34420 25.12.2017
8. Mustafayev A.Şirvanın maddi mədəniyyəti.Bakı: Elm,1977, 158 s.
9. Paşayeva M. Azərbaycanlıların ailə mərasimlərində etnik ənənələr (XIX-XX əsrin əvvəlləri. Şəki-Zaqatala bölgəsinin materialarlı üzrə)./ M.Paşayeva. Redaktoru Redaktoru tarix elmləri doktoru, professor Nərgiz Quliyeva.Baki: Azərnəşr, -2008, -308 s.
10. Sarabski H. Köhnə Bakı. Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1958, 272
11. Ихилов М.М. Народности лезгинской группы. –Этнографическое исследование прошлого и настоящего лезгин, табасаранцев, рутулов, цахуров, агулов. Махачкала,1967,262 с.
12. Константинов О.И. Джаро-Белоканы до XIX столетия. Кавказ, 1847, 398 с.
13. Мусаев Г.М**.** Цахуры в XVIII–XIX вв.: историко-этнографическое исследование XVIII–XIX вв./ Г.М. Мусаев. Ответственный редактор: С.А. Лугуев, доктор исторических наук, заслуженный деятель РД. /–Махачкала: ИД “Эпоха”, 2009, -320 с.
14. Соловьева Л.Т. Современная свадьба цахуров Азербайджана / Полевые исследования Института этнографии 1982 г. М., 1986. С. 104–113.

*Məlumatçılar:*

15. İsmayılov Nüsrət Adil oğlu-Zaqatala rayonunun Suvagil kənd sakini, təvəllüdü-1949, milliyəti saxur
16. Təhməzov Xanməhəmməd Rəsul oğlu-Qax rayonunun Kötüklü kənd sakini,təvəllüd-1937, milliyəti saxur
17. Turacov Turac Musa oğlu-Zaqatala rayonunun Suvagil kənd sakini, təvəllüdü - 1961, milliyyəti saxur

# FRANSADA GENDER SİYASƏTİNİN TARİXİ VƏ HÜQUQİ ƏSASLARI

**Şəfa ƏBDÜRRƏHİMOVA**[55]

**Xülasə**

Fransa qadınların öz hüquqları uğrunda mübarizə apardıqları ən əhəmiyyətli ölkələrdən biri hesab olunur. Təsadüfi deyil ki, ilk feminist hərəkatların başladığı ölkə Fransa və onların pionerləri arasında tarixə öz adını yazmağı bacarmış kifayət qədər fransız qadınlar olmuşdur.

Tarix boyu bütün cəmiyyətlərdə qadınlar ictimai həyatdan kənarlaşdırılmış, yalnız ailələri, habelə ev işləri ilə məşğul olmaları arzu olunan hesab olunmuş, bu azmış kimi, onlar cəmiyyətdə müstəqil bir fərd olaraq deyil, nəsil artırma və zövq aləti olaraq qəbul edilmişlər. Lakin qadınların maariflənmələri və ictimai mövqelərə qarşı çıxmaları ilə bu vəziyyət zamanla yaxşılaşmağa başlamışdır.

Məqalədə qadın hərəkatlarının ən aktiv olduğu ölkə sayılan Fransada tarixən qadınların geniş kütləvi aksiyalara qoşularaq öz sosial mövqelərini yaxşılaşdırmaları üçün apardıqları mübarizə yollarından bəhs olunur. Həmçinin müəllif oxucuların diqqətini Fransada tarixən mövcud olmuş ilk kütləvi qadın hərəkatlarına çəkir və qadınların bu dövrdə öz hüquqları uğrunda şüurlu şəkildə mübarizə aparmalarını xüsusi vurğulayır.

Məqalədə o dövrün inqilabçı qadınlarının qadın hüquqları uğrunda mübarizələri, qadınların ictimai həyatda iştirak haqqına sahib ola bilmələri üçün bir sıra çətinliklərə sinə gərmələri və zaman keçdikcə onların əldə etdikləri bir sıra azadlıq və məsuliyyətlərdən bəhs olunur.

Sonda müəllif bugünki qadın hüquqlarının qorunduğu demokratik Fransada hazırkı qadınların sosial həyatın müxtəlif sahələrindəki mövqelərini, o cümlədən siyasi arenada gender paritetinin ümumi vəziyyətini araşdıraraq təqdim edir.

***Açar sözlər:*** *Fransa, gender, qadın hərəkatı, feminizm, gender pariteti*

## Historical And Legal Foundations Of Gender Politics In France

**Summary**

France is considered one of the most important countries where women have fought for their rights. It is no coincidence that France, the country where the first feminist movements started, and among their pioneers, there were quite a few French women who managed to write their name in history.

Throughout history, in all societies, women have been excluded from public life, and it is considered desirable to deal only with their families, as well as household chores. However, with women's education and opposition to social positions, this situation has started to improve over time.

In France, which is considered the most active country of women's movements, the article talks about the ways in which women have historically fought to improve their social position by participating in large-scale mass actions. Also, the author draws readers' attention to the first mass women's movements that historically existed in France, and emphasizes women's conscious struggle for their rights during this period.

The article talks about the struggle of the revolutionary women of that time for women's rights, how they faced a number of difficulties in order for women to have the right to participate in public life, and the freedom and responsibilities they gained over time.

In the end, the author examines the current positions of women in various areas of social life in democratic France, where women's rights are protected, including the general situation of gender parity in the political arena.

***Keywords:*** *France, gender, women's movement, feminism, gender parity*

*UOT: 390 (JEL: J16)*

## Giriş

Fransa qadınların öz hüquqlarını əldə etmələri uğrunda mübarizə apardıqları əhəmiyyətli ölkələrdən biridir. Feminizm qadınların sosial hüquq və funksiyalarının inkişafına çalışan bir düşüncə cərəyanı olaraq xarakterizə edilə bilər. Qadın hərəkatlarında və feminizm dalğalarında müşahidə olunan inkişaflar, qadınların cəmiyyətdə üzərlərinə götürdükləri ənənəvi funksiyaların yenidən nəzərdən keçirilməsinə səbəb olmuşdur.

Fransada qadın hərəkatları həmişə siyasətlə üz-üzə gəlib. Siyasətçilərin bir çoxu qadınların səsini qazanmaq üçün yuxarıda qeyd etdiyimiz əsas mövzularla bağlı vədlər vermiş, lakin çox vaxt bu vədləri yerinə yetirməmişlər. Bu səbəbdən də qadınlar öz aralarında belə ortaq fikrə gəliblər ki, onlar öz problemlərini elə özləri həll etməlidirlər.

[55] **Azərbaycan Dillər Universiteti, chafouniya85@yahoo.fr**

Tarix boyu bütün cəmiyyətlərdə qadınların ictimai həyatdan kənarlaşdırılması və ailələrinə bağlanması, evlə məşğul olması arzu olunan hesab olunmuş, onlar yalnız nəsil artırma və zövq aləti olaraq qəbul edilmiş, din pərdəsi altında sıxışdırılaraq bir çox hüquq və azadlıqlardan məhrum edilmişlər. Məsələn, vərəsəlik hüququ verilməmiş, alınıb satıla bilən bir varlıq hesab olunmuşdur. ...

Ancaq qadınların maariflənmələri və ictimai mövqelərinə qarşı çıxmaları ilə bu vəziyyət zamanla yaxşılaşmağa başladı. Yuxarıda da qeyd etdiyim kimi, qadın hərəkatlarının ən aktiv olduğu ölkələrdən biri də Fransa idi. Fransa inqilabı ilə Fransada qadınların geniş kütləvi aksiyalar həyata keçirdikləri və öz sosial mövqelərini yaxşılaşdırmaq üçün mübarizə apardıqları müşahidə olunur.

Feminizm adlandırılan qadın hüquq və azadlıqları uğrunda mübarizə, fransızca 'femme' (qadın) sözündən götürülmüşdür. Türk lüğətində "qadınların cəmiyyətdəki hüquqlarını artırmağı və onları kişilərlə bərabər etməyi hədəfləyən düşüncə cərəyanı" (Türkcə Sözlük, 1992: 493) olaraq təyin olunan feminizm sözü, fransız lüğətində "Qadınların sosial hüquq və funksiyalarının inkişafına çalışan düşüncə cərəyanı" (Petit Robert, 1990: 768) kimi təsvir olunur.

Bir çox ölkələrdə olduğu kimi Fransada da qadın araşdırmaları əhəmiyyətli bir elm sahəsi olaraq ali təhsil sisteminə daxil edilmişdir. Bu ölkədə qadın tədqiqatları üçün xüsusi bir şöbənin açılması ilə bağlı müzakirələr 1968-ci ildə başladı. Nəticədə, yaradılan ilk Qadın Araşdırmaları Şöbəsi Cənubi Fransadakı Provans Universiteti nəzdində fəaliyyətə başlayan Qadın Araşdırmaları Mərkəzi (Centre d'Etudes Féminines-CEFUP) oldu (Gönenç, 2012: 66).

## 1. Fransız İnqilabı

1789-cu ildə başlayan Fransa burjua inqilabı genişmiqyaslı siyasi təlatümlərə səbəb oldu. İnqilabın ilk mərhələsində 1789-cu il "İnsan və Vətəndaş Hüquqları Bəyannaməsi" qəbul olundu. Ancaq bu sənəddə elan edilən hüquqlar yalnız fəal kişi vətəndaşlara şamil edilirdi: 25 yaşdan yuxarı və müəyyən məbləğ vergi ödəyən fransız kişiləri (Elysée). Qadınlar, kölələr, əcnəbilər və başqaları bərabərlikdən kənarda qalırdı.

Bu, inqilabda fəal rol oynayan qadın əhalinin böyük qəzəbinə səbəb oldu. 1789-cu ilin oktyabrında bir neçə min qadın çörək qıtlığı və artan qiymətlərlə bağlı kral XVI Lüdoviki görmək üçün Parisə toplaşdı. İzdiham artdıqca siyasi islahat tələbləri və konstitusiyalı monarxiya çağırışları geniş vüsət alırdı . Mühasirə və şiddətli qarşıdurmadan sonra kral etirazçılarla birlikdə Parisə qayıtdı. Bu hadisəni islahatlar üçün əhəmiyyətli bir hadisə kimi qeyd etmək olar.

Oləmp dö Quj 1791-ci ildə "Qadın və Vətəndaş Qadın Hüquqları Bəyannaməsi"ni yazaraq etirazını rəsmi şəkildə bildirməyi öz öhdəsinə götürmüş oldu. Bu sənədlə o, Russonun qadınların həyatda yalnız ana və həyat yoldaşı rolunu oynaya bilməsi ilə bağlı fikrinə qarşı çıxmış oldu. Oləmp dö Quj qadın psixologiyası və anatomiyasını əsassız elan edən, qadınları siyasi qərarların qəbulunda iştirak edə bilməyən kütlə kimi sayan alimlərlə qarşı-qarşıya qaldı. Bundan əlavə, çox adam qadınların siyasətdə fikirlərinin kişilərlə eyni olacağını düşündüklərindən onların siyasətə girişini lazımsız hesab edirdi.

Bu fəallıq Napoleon dövründə əhəmiyyətli dərəcədə zəiflədi. 1804-cü ildə qəbul olunan fransızların Vətəndaş Kodeksi qadınları bacarıqsız kimi qələmə verirdi.

Protofeminist əhval-ruhiyyə 1830 və 1848-ci illərin üsyanları zamanı və qadın qəzetlərinin ("La Fronde" məşhur nümunəsidir) və klubların yaradılması ilə paralel olaraq canlandı.

## 2. Fransada Tarixən Mövcud Olmuş Qadın Hərəkatları

Tarixdən bildiyimiz kimi qadınların ilk kütləvi hərəkatları Fransada meydana çıxmışdır. 1789-cu il fransız inqilabının əsas hərəkətverici qüvvələri arasında qadınlar xüsusi rola malik idilər. Bu dövrdə onlar ilk dəfə olaraq öz hüquqları uğrunda şüurlu şəkildə mübarizə aparmağa başlamışdılar və inqilabla birlikdə ölkədə geniş yayılan bərabərlik, qardaşlıq və azadlıq anlayışlarından da faydalanmaq istəyirdilər. Lakin onlara istəklərini həyata keçirmə imkanı verilmədi. Belə ki, qadınların yığıncaq keçirməsi və dərnəklər qurması qadağan edildi və fəal qadın klubları bağlandı.

Beləliklə, 'vətəndaş' olaraq xarakterizə olunan seqmentin kişilərdən ibarət olduğu bir daha müşahidə olundu. Halbuki inqilabın qalib gəlməsində qadınlar da kişilər qədər fəal rol oynamışdılar.

O dövrün inqilabçı qadınlarından olan Oləmp dö Quj 1791-ci ildə qadın hüquqları mövzusunda hazırladığı tezisdə bunları söyləmişdir:

“Qadınlar azad doğulur və kişilərlə bərabər hüquqlara malikdir. Əslində bu gün suverenlik prinsipi kişi və qadın birliyindən başqa bir şey olmayan millətdən ibarətdir. Qanun qarşısında bərabər olan bütün vətəndaşlar, kişilər və qadınlar, bütün yüksək mükafatlarda, yerlərdə və ictimai vəzifələrdə, məziyyət və qabiliyyətlərindən başqa heç bir fərq qoyulmadan bərabər tanınmalıdırlar. Qadın həm dar ağacına çıxmaq hüququna, həm də eyni zamanda hakimlər şurasında iştirak haqqına da sahib olmalıdır. Qadınlar, oyanın!” (Gönenç, 2012: 67).

Oləmp dö Quj "Qadınların və Vətəndaş Qadınların Hüquqları Bəyannaməsi" adlandırdığı bu mətni dövrün kraliçası Maria-Antuanetə həsr etmişdi. Lakin Oləmp dö Qujun bu cəhdi uğursuz oldu. Buna baxmayaraq, fransız qadınları təşkilatlanmanın vacibliyinin fərqinə vardılar.

Lakin kilsənin təsiri altında qadın hərəkatları məqsədlərinə çata bilmədi. Bir çox ölkələrdə olduğu kimi Fransada da qadınların arxa planda qalmasının əsas səbəbi din idi. Əslində isə xristianların müqəddəs kitabı olan İncildə kişi və qadın bərabərliyi müdafiə olunur. Bununla belə, göründüyü kimi, fransız qadınları daim sıxışdırılırdı.

Bu vəziyyət məşhur fransız mütəfəkkirlərinin əsərlərində təsirli şəkildə öz əksini tapmışdır. Məsələn, Bossüeyə görə:

“O (qadın) bədəninə görə Adəmin yalnız bir hissəsidir, onun kiçik bir hissəsindən meydana gəlmişdir. Ruh məsələsində də vəziyyət az-çox eyni nisbətləri əks etdirir. Çünki, yaratdığı əsərdə Allah hər şeyi öz yerində - müəyyən bir harmoniyada - yerləşdirmişdir (...) Bu yerləşdirmədə kişiyə həmişə üstünlük vermişdir. Təbiət qadının kişidən asılı olmasını istəyirdi” (Gönenç, 2012: 67).

"Sosial Müqavilə", "İnsanlar arasında bərabərsizliyin mənşəyi və əsasları" kimi əsərlərin müəllifi olan məşhur mütəfəkkir Jan-Jak Russo bu bərabərsizliyi daha da irəli apararaq bunları demişdir: "Bu bərabərsizlik ağılın bir zərurətidir. Asılılıq qadınlar üçün təbii bir vəziyyətdir" (Gönenç, 2012: 67).

Maarifçilik dövrü olaraq qəbul edilən XVIII əsrdə bu fikirlər kişilər arasında hakim olsa da, dövrün gətirdiyi sərbəst düşüncə mühiti evlilik və məhəbbət hüquqlarının bərabərliyi, qadınların təhsili və siyasi hüquqlarının müzakirəsinə səbəb oldu.

Ancaq qadınların ictimai həyatda iştirak edə biləcəyi dövr dünya müharibələri dövrünə təsadüf edir. Belə ki, kişilər döyüş meydanında olduqları üçün qadınlar iş sahələrində yerləşməyə başladılar. Müharibə qadınlara görünməmiş bir azadlıq və məsuliyyət verdi. Daha əvvəl alçatmaz peşələrdə ölkələrinə xidmət edən bir çox qadın, yeni alətlər və texnologiyalarla işləməkdən zövq alırdı. Müharibə qədim divarları yıxdı və bir çox nüfuzlu peşənin qapısını qadınlara açdı.

Bu vəziyyət İkinci dünya müharibəsi dövründə də davam etdi və qadınların bir çox hüquqları əldə edə bildikləri dövr məhz İkinci dünya müharibəsi dövrü olmuşdur. Müharibə illərində Fransa, İngiltərə və ABŞ-da qadınlar əvvəllər yalnız kişilərin çalışdığı iş sahələrində işləməyə başladılar. Qadınların iş həyatında iştirak etmə məcburiyyətində qalmaları, nəticə etibarilə, iqtisadiyyat sahəsində söz sahibi olmalarını mümkün etdi və bu da onların sosial hüquq və azadlıqlar əldə etmələrini asanlaşdırdı.

Beləliklə, 19-20-ci əsrlər Fransa başda olmaqla bütün Avropa ölkələrində qadınların fəal mübarizə apardığı bir dövr oldu. Bu dövrdə qadınlar bərabər təhsil, mülkiyyət, istədikləri işdə işləmək hüququna malik oldular, lakin səsvermə və seçilmə hüququndan hələ də məhrum idilər.

"1946-cı il Fransa konstitusiyasında qadınlara kişilərlə bərabər bütün sahələrdə bərabər hüquqlar verildiyi bildirilir" (Conseil Constitutionnel). Ancaq uzun illər davam edən mübarizədən sonra fransız qadınları 1947-ci ildə, Dördüncü Respublika dövründə seçmək və seçilmək hüququnu əldə etdilər.

Siyasi həyatda məqsədinə çatan fransız qadınları, nəticədə, parlamentdə problemlərini dilə gətirmək hüququnu qazandılar.

Qadınların səsvermə və seçilmə hüquqlarından başqa bütün digər hüquqlarını əldə edə bilmələrinin əsasında sənaye, ticarət və xidmət sahələrinin tədricən inkişafı və bunun təbii nəticəsi olaraq qadınların iş həyatına daxil olmasının zəruriliyi durur. Beləliklə, qadınlar öz çörək pullarını özləri qazandıqları bir mövqeyə gəlib çıxmışdılar. İnsan və Vətəndaş Hüquqları Bəyannaməsinin əsas təməlini liberalizm nəzəriyyəsi təşkil edirdi. Bu bəyannaməyə görə: “İnsan hörmət edilməli olan təbii hüquqlara malikdir. Bu

hüquqlar arasından hər zaman toxunulmaz və ayrılmaz olan azadlıq və bərabərlik hüquqlarını tapdı" (Elysée). Başqa sözlə, qadınların azad və bərabər olmaları fikri açıq şəkildə ifadə edilməsə belə, bütün hüquqi və nəzəri mətnlərə daxil edilmişdir. Ancaq ictimai həyatda tətbiq edilməsi uzun müddət çəkmişdir.

### 3. Fransada Feminizm Dalğaları

19-cu əsrin ikinci yarısı müasir dünyamızda fransız feminizminin birinci dalğasının başlanğıcı hesab olunur. 1871-ci ildə fəaliyyət göstərən Paris Kommunası qadınlara müəyyən haqlar vermişdir. Qadınlar əmək haqqı bərabərliyi, boşanma və təhsil hüququ, habelə qanuni və nikahdan kənar uşaqlar arasındakı fərqi aradan qaldırmaq kimi müxtəlif mövzularda mübarizə aparmaq üçün ittifaqlar və komitələr qurdular. Həmin dövrün görkəmli şəxsləri arasında Milli Qvardiyaya qoşulmuş müəllim Luis Mişel və jurnalist Andre Leo var idi (Krall, 2020).

Fransada qadınlara səsvermə hüququ verilməsi ilə bağlı cəhdlər 1944-cü ilə qədər uğursuz oldu. Buna görə də, Fransanı Avropanın qadın hüquqlarının tanındığı son ölkələrindən biri hesab edə bilərik. Fransız Əlcəzairinin "yerli müsəlman" qadınlarına yalnız 1958-ci ildə səsvermə hüququ verildi.

1960-cı illərdən başlayaraq bir sıra ölkələrdə feminizmin ikinci dalğası yarandı. Bu, Fransada 1968-ci il nümayişlərində özünü göstərməyə başladı. 1949-cu ildə məşhur "İkinci Cins" əsərini nəşr etdirən ekzistensialist filosof Simon dö Bovuar tanınmış feministlərdən idi. Evli qadınlara 1965-ci ildə ərinin icazəsi olmadan işləməyə icazə verildi və doğuma nəzarət 1967-ci ildə qanuniləşdirildi. Qadın Azadlıq Hərəkatı 1968-ci il etirazlarından sonra yaradıldı (Ağayeva, 2018: 43)

1970-ci ildə kişilərin ailələri üzərində səlahiyyətləri ləğv edildi, yəni uşaqlarla bağlı qanuni qərarlar artıq yalnız ata tərəfindən verilmirdi. 1985-ci ildəki islahat atanın uşaqların mülklərini idarə etmək səlahiyyətinə son qoydu.

Digər diqqətəlayiq hadisə, Jizel Halimi və Simon dö Bovuar tərəfindən birgə yazılan və 1971-ci ildə nəşr olunan abort etdirdiklərini iddia etməyə cəsarət göstərmiş 343 qadının Manifestidir. Veyl Aktı (o vaxtkı Səhiyyə Naziri Simon Veylin şərəfinə adlandırılıb) nəhayət, 1975-ci ildə kontrasepsiya və abortu qanuniləşdirdi (Krall, 2020).

Diqqətəlayiq başqa bir fenomen, fransız feminizminin başqa feminizm qollarından ayrılması idi. Fransız feminizmində artıq siyasi azadlıqlar yox, şəxsi azadlıqlar önə çıxırdı.

1990-cı illərdən başlayaraq feminizmin üçüncü dalğası hesab edilən dövr ərzində bir sıra hüquqi sıçrayışlar baş verdi. 1994-cü ildə nikahda təcavüz halı kriminallaşdırıldı. Son dəyişikliklərə Fransada 2012-ci ildə rəsmi sənədlərdə "Mademoiselle" müraciət formasının çıxarılmasını göstərmək olar (13e législature).

Siyasi təmsilçiliyə gəldikdə, 1944-cü ildə namizədliyinə icazə verildikdən sonra Fransada çox az sayda qadın nümayəndə var idi. 1946-cı ildə Milli Məclis 5% qadınlardan ibarət idi, təxminən 50 il sonra, 1993-cü ildə qadınlar 6 faiz təşkil edirdi (INSEE).

Lakin kişilərin üstünlük təşkil etdiyi bu hal 2017-ci ildə keçirilən parlament seçkilərində seçicilərin rekord sayda qadın seçməsi ilə dəyişdi. Hazırda Milli Assambleyanın 38,6%-ni qadınlar təşkil edir. Bu da Fransanı gender bərabərliyi statistikasında Aİ daxilində 6-cı yerə yüksəldib. Dünya qadın təmsilçiliyi reytinqində isə Fransa 64-cü yerdən 17-ci yerə yüksəlib (INSEE).

### 4. Müasir Fransada Qadın Hərəkatları

20-ci əsrdə Simon dö Bovuar Fransada qadın hüquqları mövzusunda ən təsirli ad idi. Qadınların qanuni olaraq bir çox hüquqları əldə etsələr də, kifayət qədər azad olmadıqlarını iddia edən feminist yazıçı "qadınlar öz talelərini özləri həll etməlidirlər" fikrini müdafiə edirdi. Əsərlərində qadın problemlərini araşdıran müəllif, qadın və kişiyə verdiyi təriflərlə bir çox müzakirələrə səbəb olmuşdur.

Simon dö Bovuarın "Qadın nədir" əsərindəki giriş bütün əsərlərinin əsas ideyasını ümumiləşdirir:

"İndiki qadınlar qadınlıq mifini qırmaq üzrədir. Müstəqilliklərini konkret ifadələrlə təsdiq etməyə başlayırlar. Ancaq insanlıqlarını bütöv yaşamaq onlar üçün o qədər də asan olmadı. Yalnız qadınların

dünyasında evlilik, onları gündəlik həyatda qadınlar tərəfindən tərbiyə edilmiş kişilərə tabe edir. Kişinin üstünlüyü davam etməkdədir; hələ də möhkəm iqtisadi və sosial əsaslara söykənir. Beləliklə, qadının ənənəvi taleyini diqqətlə araşdırmalıyıq ...” (Gönenç, 2012: 69).

Kişilər tərəfindən əzilən qadınların azadlıq əldə edə bilmələri üçün iş həyatına atılmaları, yəni ilk növbədə iqtisadi azadlıqlarını əldə etmələri vacibdir. Müəllif bu fikrini başqa bir əsərində bu sözlərlə ifadə etmişdir: “Qadınlar istehsalda daha çox iştirak etdikdə və daha az ev işləri ilə məşğul olduqda azadlıq qazanacaqlar” (Gönenç, 2012: 69).

Bovuarın düşüncələri cinsi sahədə də inqilaba səbəb oldu. Müəllif qadınları araşdırarkən 'Mən' və 'Digər' anlayışlarına diqqət yetirir. Kişi qadını digər varlıq kimi xarakterizə etməyə meyllidir:

“Bəşəriyyət yarandığı gündən bəri bioloji imtiyazlar kişilərə özünü ali varlıq kimi göstərməyə imkan vermişdir. O biri varlıq, başqa bir varlıq olmağa məhkum olan qadın, yalnız müvəqqəti bir gücə sahib olmağa məhkum edilmişidi. İstər qul, istər tanrıça, taleyini seçən o deyildi. "Kişilər tanrı yaradır, qadınlar ibadət edir" deyirdi Frazer, yaratdıqları tanrıların kişi və ya qadın olmasına belə kişilər qərar verirdi. Cəmiyyətdə qadınlar üçün ayrılmış yeri onlar müəyyən edərdi, qadınların heç vaxt öz şəxsi qanunları tətbiq edilməmişdir” (Gönenç, 2012: 69).

Başqa sözlə, kişilər tarixin ilk çağlarından bəri qadınları özləri üçün bir təhlükə olaraq görmüş və hər zaman onları idarə etməyə çalışmışlar. 1968-ci il Fransa üçün tələbə hadisələri və bir çox nümayişlərin baş verdiyi, siyasi baxımdan qarışıq bir dövr idi. Bu dövrdə qadınların tələbləri ən yüksək səviyyəyə çatdı.

1970-ci ildə qadınlar müəyyən hüquq və azadlıqlar əldə etmək üçün böyük müqavimət göstərdilər. “Elle” jurnalı da bu müqavimətə böyük töhfə verdi. Bu jurnal bir çox qadının iştirak etdiyi “Etats Généraux” (“Baş Ştatlar”) adlı görüşlər təşkil etdi. Bu görüşlər nəticəsində qadınların tələbləri belə ifadə edildi:

- Bədənimiz bizimdir.
- Kontrasepsiya və abort hüququ;
- Bərabər iş üçün bərabər əmək haqqı;
- Cinsə görə ayrı-seçkiliyə son;
- Ev işlərini bölüşmək üçün atanın birgə himayəsi (Gönenç, 2012: 69)

Fransada qadın hərəkatları həmişə siyasətlə bir-birinə qarışıb. Siyasətçilərin bir çoxu qadınların səslərini əldə etmək üçün yuxarıda qeyd etdiyimiz əsas mövzularda vədlər vermiş, lakin çox vaxt bu vədləri yerinə yetirməmişlər. Bu səbəbdən qadınlar arasında ortaq düşüncə budur ki, öz problemlərini özləri həll etməlidirlər.

Bu gün Fransada qadınlar bir çox hüquqlarını əldə etmiş və hər sahədə azadlıq qazanmışlar. 1999-cu ilin məlumatlarına görə, Fransada işləyən qadınların sayı 11,5 milyon civarında olmuşdur, halbuki 1960-cı ildə bu göstərici 6,5 milyon idi. Mütəxəssislər 2040-cı ilə qədər işləyən qadınların nisbətinin 90%-ə çatacağını düşünürlər (Krall, 2020).

Bu da, bir vaxtlar yalnız ev işləri görən və ya fabriklərdə işləmək imkanı olan qadınların iqtisadi sahədə nə qədər gücə malik olduğunun göstəricisidir. Bununla belə, hətta Fransa kimi müasir bir ölkədə ictimai sahədə əhəmiyyətli bir nisbətə (59 %) malik olan qadınların yalnız 10%-nin yüksək vəzifələrə qalxa biləcəyi təxmin edilir. 109 validən yalnız 5-i və 150 səfirdən yalnız 11-i qadındır. 2004 -cü ilə qədər Fransada işləyən qadınların nisbəti 45,3% idi (INSEE).

| Peşə | Qadın nisbəti |
|---|---|
| Bütün peşələr | 45,3%<br>(10,8 milyon) |
| Dövlət idarəçisi (bütün sahələr)<br>35 yaşdan aşağı | 39,6%<br>45% |
| Uşaq baxıcısı | 99% |
| Katibə | 97% |
| Xəstə baxıcısı | 91% |

| | |
|---|---|
| Tibb bacısı, mamaça | 87% |
| Texnik | 74% |
| Təlimatçı | 64% |
| Hesablama mütəxəssisi (mühasib) | 20% |

**Cədvəl 1:** Fransada işləyən qadınların peşəyə görə bölgüsü (INSEE)

| | Qadın | Kişi | Ümumi | Qadınların nisbəti | İşləyən qadınların əhaliyə nisbəti |
|---|---|---|---|---|---|
| Kənd təsərrüfatı və balıqçılıq | 276 | 674 | 950 | 29,1 | 2,4 |
| Kənd Təsərrüfatı Sənayesi | 262 | 416 | 678 | 38,7 | 2,3 |
| İstehlak Malları Sənayesi | 320 | 371 | 691 | 46,3 | 2,8 |
| Avtomobil Sənayesi | 52 | 281 | 333 | 15,6 | 0,5 |
| Avadanlıq Sənayesi | 163 | 657 | 820 | 19,9 | 1,4 |
| Enerji | 44 | 190 | 234 | 18,9 | 0,4 |
| Tikinti | 142 | 1 455 | 1 597 | 8,9 | 1,2 |
| Ticarət | 1 545 | 1 747 | 3 292 | 46,9 | 13,5 |
| Nəqliyyat | 251 | 825 | 1 076 | 23,3 | 2,2 |
| Maliyyə işləri | 409 | 325 | 734 | 55,7 | 3,6 |
| Daşınmaz əmlak | 195 | 152 | 347 | 56,1 | 1,7 |
| Şirkət Xidmətləri | 1 292 | 1 923 | 3 215 | 40,2 | 11,3 |
| Xüsusi Xidmətlər | 1 298 | 829 | 2 127 | 61,0 | 11,4 |
| Təhsil, Səhiyyə, Sosial Xidmətlər | 3 475 | 1 227 | 4 702 | 73,9 | 30,4 |
| İdarəetmə | 1 335 | 1 328 | 2 663 | 50,1 | 11,7 |
| Ümumi | 11 425 | 13 496 | 24 921 | 45,8 | 100,0 |

**Cədvəl 2:** Peşə sahəsində qadın və kişilərin bölgüsü (milyon nəfərlə) (INSEE)

| | Qadın | Kişi |
|---|---|---|
| 1946 | 21 007 | 19 128 |
| 1954 | 22 236 | 20 664 |
| 1962 | 23 899 | 22 560 |
| 1968 | 25 458 | 24 197 |
| 1975 | 26 855 | 25 744 |
| 1982 | 27 808 | 26 488 |
| 1990 | 29 087 | 27 565 |
| 1999 | 30 101 | 28 419 |
| 2000 | 30 270 | 28 579 |
| 2001 | 30 473 | 28 776 |
| 2002 | 30 681 | 28 978 |
| 2003 | 30 886 | 29 180 |
| 2004 | 31 083 | 29 379 |
| 2005 | 31 270 | 29 555 |

| | | |
|---|---|---|
| 2006 | 31 444 | 29 722 |
| 2007 | 31 631 | 29 907 |

**Cədvəl 3:** Fransada qadın əhalinin say göstəricisinin illərə görə bölünməsi (milyon nəfərlə) (INSEE)

Göründüyü kimi, Fransada qadın əhali həmişə kişi əhalidən çox olsa da, qadınların işləmə nisbəti kişilərdən xeyli aşağıdır. Həmçinin siyasi həyatda qadınların cəmi 5%-nin iştirak etdiyi görünür. Bu vəziyyətin siyasi arenada getdikcə genişlənən kilsənin təsirindən qaynaqlandığı deyilir.

**Nəticə**

Sonda belə nəticəyə gəlirik ki, Fransada kişi və qadın bərabərliyinin siyasi prioritetə çevrilməsinə baxmayaraq bu sahədə irəliləyiş hələ də ürəkaçan deyil. Hətta qadınlar kişilərlə eyni hüquqlara malik olsalar da, kişilərə təklif olunan imkanlar qadınlar üçün eyni dərəcədə əlçatan deyil və onların hüquqlarını tələb etmələri çox vaxt uğursuzluqla nəticələnir. Fransada müəyyən sahələrdə bu cür problemlər hələ də qalmaqdadır. Məsələn; daha mühüm göstəricilər qadınların seçkili siyasi vəzifəyə namizədliklərini vermək imkanlarına aiddir: qadınların belə hüququ var, amma bəzi istisnaları saymasaq, onların siyasi həyatdakı iştirakı hələ də cüzidir.

Son onilliklərdə ayrı-seçkilik xarakterli xeyli qanun və qanun qüvvəli aktlar dəyişdirilib və ya ləğv olunub. Bir çox siyasətlərə (qadınların xeyrinə olan pozitiv tədbirlər də daxil edilməklə) start verilib. Bununla belə, qadınlar hələ də struktur xarakterli və ictimai problemlər ucbatından, məsələn, zorakılıq və peşə həyatı ilə şəxsi həyatın uzlaşdırılmasında çətinlikər səbəbindən heç də həmişə kişilərlə eyni imkanlara malik olmurlar. Real gender bərabərliyi təkcə qanundakı bərabərliyi nəzərdə tutmur, bu həm də o deməkdir ki, ictimai və siyasi həyatın bütün sahələrində qadınlarla kişilər bərabər mövqeyə, bərabər səlahiyyətlərə və vəzifələrə və eyni dərəcədə iştiraka malikdirlər. Bərabərlik cinslər arasında eyni cür davranmanın hökmən olmasını nəzərdə tutmur, əksinə, məsələyə fərqli yanaşma başa düşülməlidir. Əslində kişilərlə qadınlar arasında bərabərsizlik problemi fərqləndirmə siyasətindən istifadə etməklə həll olunmalıdır. Son illərdə Fransada bu istiqamətdə bir çox siyasi islahatlar (kvotalar, qadınların konkret tələbatlarının ödənilməsinə dəstək proqramları, qadınların təhsilinin və qadınların idarə etdiyi biznes layihələrinin təşviq olunması) həyata keçirilib.

## ƏDƏBİYYAT

1. 13e législature, 08/05/2012 Réponse publiée au JO le : 08/05/2012 page : 3633 https://questions.assemblee-nationale.fr/q13/13-121388QE.htm
2. Ağayeva K. C. Azərbaycanda gender məsələləri. Bakı: Qərb Universiteti, 2014.
3. Ağayeva K.C. ABŞ-da gender. Bakı: Elm və Təhsil, 2018.
4. Conseil Constitutionnel. Constitution de 1946, IVe République, https://www.conseil-constitutionnel.fr/les-constitutions-dans-l-histoire/constitution-de-1946-ive-republique
5. Elysée. Archives nationales (France), 30 septembre 1789, AE/II/1129, Déclaration des droits de l'homme et du citoyen https://www.elysee.fr/la-presidence/la-declaration-des-droits-de-l-homme-et-du-citoyen
6. Əliyev Ə. Fransa və fransızlar. Bakı: Elm və təhsil, 2010.
7. Gönenç A. Y. Fransada ve Türkiyede kadın hareketleri, İletişim Fakültesi Dergisi https://dergipark.org.tr/tr/pub/iuifd/issue/22862/244118, 16.01.2012.
8. Institut National de la Statistique et des Etudes Economiques https://www.insee.fr/fr/accueil
9. Krall K. A brief history of French feminism. 21 avqust 2020 https://www.feministsinthecity.com/blog/a-brief-history-of-french-feminism
10. Mossuz-Lavau J. Femmes/Hommes pour la parité. Presses de Sciences PO, 1998.
11. Petit Robert Dictionnaire de la Langue Française. Paris: Robert yayınları, 1990.
12. Réglementation invitant à ne pas utiliser les appellations différenciées madame et mademoiselle. publiée dans le JO Sénat du 12/07/2007 - page 1251 https://www.senat.fr/questions/base/2007/qSEQ070700638.html
13. Türkçe sözlük. İstanbul:Milliyet yayınları, Cilt 1, 1992.

# TƏHSİL VƏ HUMANİTAR ELMLƏR/ EĞİTİM VE BEŞERİ BİLİMLER

## SÖMÜRGE MANTIĞINDA "DİL"İN ARAÇ OLARAK KULLANILMASI: FRANSA ÖRNEĞİ

**Dr. Öğr. Üyesi Osman TEKİR**[56]

### Özet

Onbeş ve Onaltıncı yüzyıllarda Osmanlıların Anadolu topraklarını ve Akdeniz havzasını ele geçirip ticaret yollarına hakim olmasıyla birlikte, başta İspanyollar, İngilizler ve Fransızlar olmak üzere Batılı ülkeler farklı ticaret yollarını keşfetme arayışı içine girdiler. Farklı yolların keşfedilmesi farklı bölgelere ve kıtalara erişimi de beraberinde getirmiştir. Keşfedilen topraklardaki yeraltı ve yerüstü zenginliklerin farklı ekonomik ve ticari sistemlerle ülkeye getirilmesi ve bunun sürekliliğinin sağlanması yönündeki anlayış ve rekabet sömürgeciliğin de ortaya çıkmasına neden olmuştur. Bu sömürgeci güçlerden biri şüphesiz Fransa'ydı. Amerika'dan Doğu Asya'ya, Çin Hindinden Afrika'ya kadar geniş bir alanda İkinci Dünya Savaşı sonlarına kadar devam eden bir sömürge imparatorluğu kurdu. İmparatorluğunu devam ettirmek için de terörizmden lrkçılığa, "din"den "dil"e kadar birçok sömürgeleştirme aracı kullandı.

Sömürgecilik, dünyanın siyasi ve kültürel coğrafyasını sonsuza kadar değiştirmiş ve bunun en görünür olduğu alanlardan biri de "dil" olmuştur. Bu çalışma Fransızca temelinde, "dil"in bir sömürge aracı olarak nasıl kullanıldığını ve sömürge ülkeleri üzerindeki etkilerini ortaya koymayı amaçlamıştır.

***Anahtar Kelimeler:*** *Sömürgecilik, Sömürü araçları, Fransa, Fransızca, Dil ve Asimilasyon*

**Usıng "Language" as a Tool in Colonial Logic: The Case of France**

### Abstract

In the fifteenth and sixteenth centuries, with the Ottomans taking over the Anatolian lands and the Mediterranean basin and dominating the trade routes, so Western countries, especially the Spaniards, the English and the French, sought to explore different trade routes. The discovery of different roads has brought access to different regions and continents. The understanding and competition to bring the underground and aboveground goods in the discovered lands to the country through different economic and commercial systems and to ensure the continuity of this has also led to the emergence of colonialism. One of these colonial powers was undoubtedly France. He established a colonial empire that lasted until the end of the Second World War in a wide area from America to East Asia, from Indochina to Africa. It used many means of colonization to maintain his empire, such as terrorism and racism, and such as "religion" and "language".

Colonialism has forever changed the world's political and cultural geography, and one of the areas where this is most visible has been "language". This study aimed to reveal how "language" was used as a colonial tool on the basis of French and its effects on colonial countries.

***Keywords:*** *Colonialism, Colonial tools, France, French, Language and Assimilation*

### Giriş

Sömürgecilik hareketleri ilk defa onbeşinci yüzyılda keşifler çağı ile başladı. Bu süre içinde İngiltere, İspanya, Portekiz gibi Avrupa ülkeleri Kuzey ve Güney Amerika'daki toprakları kolonileştirdiler. Daha sonra başta İngiltere, Fransa ve Portekiz olmak üzere diğer Batı ülkeleri Afrika'nın büyük bir kesimini kolonileştirdi. Kolonyal genişlemenin ilk motivasyonları Hristiyanlığın yayılması, ekonomi (altın ve gümüş) ve şan şöhret olarak özetlenebilir.

Yaklaşık beşyüz yıl boyunca Batılı ülkeler, kolonileştirdikleri topraklarda, özellikle Afrika'da insan mülkiyeti, keşif, Evangelizmin yayılması yoluyla para kazanmak için farklı stratejiler ve yöntemler kullandılar. Bazı Afrikalıların ticaretini yapma, ticarete hakim olma ve kontrol etme, Afrika kültürlerini ve

**[56] İzmir Katip Çelebi Üniversitesi İ.İ.B.F. Siyaset Bilimi ve Kamu Yönetimi Bölümü Öğretim Üyesi, e-mail: osmantekir1@gmail.com, Orcid No: 0000-0002-0471-0013.**

dinlerini tahrip etme, Hristiyanlığı dayatma, sömürge hükümetleri kurarak Afrika egemenliğini ve liderliğini yok etme, toprakları ve diğer ekonomik kaynakları mülksüzleştirme ve Afrikalıları zorla işçilere dönüştürme süreçlerinde, başta şiddet ve terörizm olmak üzere ırkçılık, asimilasyon gibi yöntemlerin uygulanmasını yöntem olarak benimsediler.

Uygulanan bu yöntemler, sömürgeci ülkeler olarak kendilerinin ve işbirlikçilerinin Afrika nezdinde zenginleşmelerini beraberinde getirdi. Bunun sonucunda, ülke olarak güçlendiler ve büyük imparatorluklar kurdular, ırksal üstünlük iddia ettiler ve kültürlerini ve Hristiyan dinini Afrikalılara empoze ettiler. Öyle ki, sömürge dönemindeki ve daha sonraki dönemdeki post-kolonyal dönemde zenginliklerinin kaynağı sömürgeleştirdikleri ülkelerden gelen yerüstü ve yeraltı kaynaklarına borçluydular.

Şüphesiz sömürgeci ülkelerin modern dünya üzerinde, özellikle de sonsuza kadar değişmiş olan "dil" alanında uzun süreli bir etkisi olmuştur. Yerli halkların dilleri üzerinde uygulanan politikalar: sömürgecilik dilleri nasıl değiştirdi ve sildi? Sömürgeciliğin dil üzerindeki etkisi hangi tür çatışmalara yol açtı ve hangi sorunlara yol açtı? Sömürgecilik, dildeki değişiklikler yoluyla sömürgeleştirilmiş halkların eğitimini ve kültürünü nasıl etkiledi? Sorularının da sorulmasını gerektirmiştir. Bu çalışma yukarıdaki sorular çerçevesinde Fransa'nın Afrika'daki sömürgeleştirme politikaları ekseninde Fransız dilinin sömürge ülkelerinde nasıl uygulandığını ve yarattığı etkiler analiz edilmeye çalışılacaktır.

### 1-Fransız Sömürge İmparatorluğu

Sömürgecilik bir halkın diğerine boyun eğdirilmesini içeren bir tahakküm pratiğidir. Sömürgeciliği tanımlamanın zorluklarından biri onu emperyalizmden ayırmanın zor olmasıdır. Bu nedenle her iki kavram sıklıkla birbirine karıştırılır. Sömürgecilik gibi, emperyalizm de bağımlı bir bölge üzerinde siyasi ve ekonomik kontrolü içerir. Bununla birlikte, her iki terimin etimolojisi, anlamları arasındaki farklılıklar konusunda bazı ipuçları vermektedir. Koloni terimi, çiftçi anlamına gelen Latince "colonus" kelimesinden gelir. Bu bize, sömürgecilik pratiğinin genellikle nüfusun yeni bir bölgeye transferini içerdiğini, gelenlerin daimi yerleşimciler olarak yaşadıkları ve menşe ülkelerine siyasi bağlılıklarını koruduklarını anlatır. Emperyalizm ise komuta etmek anlamına gelen Latince "imperium" teriminden gelir. Bu nedenle emperyalizm terimi, bir ülkenin yerleşim, egemenlik veya dolaylı kontrol mekanizmaları yoluyla bir başka ülke üzerinde güç kullanma biçimine dikkat çeker (Kohn & O'Neill, 2017).

Emperyalizm, büyük, güçlü bir ulusun sömürge olarak bilinen daha küçük uluslara hükmettiği ve sömürdüğü bir sistemdir. Bununla birlikte, emperyal güç ve kolonileri bir imparatorluk olarak bilinir. Çoğu durumda, emperyal ülke, kukla hükümet ya da yerel işbirlikçiler tarafından yönetilir. Düzeni korumak, muhalefeti ve olası ayaklanmaları bastırmak ve emperyal rakipleri caydırmak için kolonilerde genellikle askeri bir varlık bulundurulur. Emperyalizmin askeri veya jeopolitik avantajları bulunmasına rağmen, asıl cazibesi ekonomiktir. Koloniler esas olarak emperyal gücü zenginleştirmek için vardırlar (Llewellyn & Thompson, 2020). Bir başka yaklaşım da emperyalizm teriminin, illa doğrudan otoritenin uygulanması yoluyla değil, zengin ve güçlüler tarafından zayıfların kontrol edilmesi anlamına gelmesidir(Stone, 1987:57).

Britanya'nın Amerika, Asya, Avustralya ve Afrika'ya yayılan küresel bir imparatorluğu vardı. 1920 ve 1930'larda dünya nüfusunun beşte birini ve dünya topraklarının dörtte birini kapsıyordu ve oran Amerika'daki kolonileri içermiyordu. Ölçeği modern zamanlarda benzersizdi ve küresel olarak İspanya ve Portekiz imparatorluklarından daha geniş bir alana yayılmıştı. Fransız emperyalizmi Asya ve Afrika'da etkili olmasına rağmen İngilizler kadar yaygın değildi (Martell, 2008). Fransa'nın ondokuzuncu yüzyılda Afrika ve Asya'ya yayılması, dünyanın uzak köşelerinde daha az medeni olan insanları eğitmeyi amaçlayan "uygarlaştırma misyonu" temelinde meşrulaştırıldı. Uygarlaştırma misyonunu destekleyen sömürgeci söylem, ulusal gurura, Fransız uygarlığının görkemine ve Hristiyanlığın İslam üzerindeki üstünlüğüne hitap ediyordu (Ware, 2015:189). Fransa, bu anlayışla modern tarihin en önemli sömürgeci güçlerinden biri olarak, 1960'larda ulusal kurtuluş hareketlerinin oluşumuna kadar Sahra Altı Afrika'nın geniş bir alanını ele geçirdi ve hükmetti (Kristina Krupova & Cech, 2020:291).

Avrupa, Afrika'yı sömürgeleştirmesini, Afrikalıları ilkel durumlarından "kurtarmanın" ahlaki görevi olduğu gerekçesiyle bir meşruiyet oluşturdu. Fransızlar Afrikalılara ve Afrika kültürüne tepeden baktılar. "Asimilasyon politikası" olarak bilinen, Afrika'daki sömürge yönetimlerini desteklemek için sosyal politikaları vardı. Bu politika, Fransız egemenliği altında yürütülüyordu. Afrikalılar tarihi olmayan, adına

yakışır hiçbir medeniyet geçmişi olmayan, sürekli birbirleriyle savaş halinde olan ve Fransız medeniyetinin meyveleri ile temasa geçtiği için şanslı bir halk olarak kabul edildi (Kapoya, 2012:108).

İkinci Dünya Savaşının ardından, İngiltere ve Fransa'nın geniş Afrika imparatorlukları, sömürgecilerin siyasi iradesine meydan okur gibi görünen şekillerde parçalanmaya başladı. 1966 yılına gelindiğinde Afrika kıtasının çoğu bağımsızlığını kazanmıştı ve yeni ulus devletler kuruluş standartlarını yükselttiler. Bu dönemin siyasal olarak yeniden yapılanmalarına bakıldığında, 1950'lerin sonlarında ve 1960'ların başlarında Afrika kıtasını durdurulamaz bir fırtınanın kasıp kavurduğu görülebilir (Smith & Jeppesen, 2017: 1).

Her ne kadar Afrika ülkeleri İkinci Dünya Savaşı sonrası bağımsızlıklarına kavuşmuş olsalar da sömürge sonrası yapbozun önemli bir parçası, Fransa'nın önemli askeri varlığıydı. Bu, Afrika devletlerinin neredeyse yarısıyla savunma antlaşmaları yoluyla müdahale etme yetkisine ek olarak, hepsi Fransa'nın Afrika'daki jandarması olarak tanınmasına yardımcı oldu. Aslen Senegal, Fildişi Sahili, Çad, Cibuti, Gabon, Kamerun ve Orta Afrika Cumhuriyeti'nde bulunan kalıcı askeri üsler ile Soğuk Savaş sırasında Afrika'yı "Komünizmden koruma" sorumluluğu, bölgesel hegemonyayı sürdürmede Fransız çıkarlarıyla örtüşüyordu (Benneyworth, 2011).

1960'lı yıllardan sonraki bağımsızlık hareketleri sonucunda bağımsızlıklarını kazanan eski sömürge ülkeleri Fransa ile bağlarını hemen koparamadılar. Bir taraftan işbirliği antlaşmaları, Fransız ürünleri için açık bir tercihi ima ediyordu. Örneğin, ekonomik işbirliği anlaşmaları, Fransa ile eski sömürgeleri arasındaki ticari tercihleri sürdürdü. "Antlaşmalar" olarak adlandırılan diğer antlaşmalar, özellikle hammadde ve stratejik ürünlerin ticaretiyle ilgiliydi. Fransa, eski sömürgelerinin ürünlerine ve pazarlarına ayrıcalıklı erişim sağladı (Lavallée & Lochard, 2018:393).

Məqalədə post-konflikt ərazilərin yenidən qurulmasının və onun iqtisadi əhəmiyyəti dünya təcrübəsində araşdırılmış, Marşal Planının yaranma zəruriliyi, siyasi, sosial-iqtisadi tərəfləri tədqiq edilmiş, tətbiq imkanları müəyyənləşdirilmişdir. Eyni zamanda məqalədə inkişaf etmiş ölkələrin inkişaf etməkdə olan ölkələrə humanitar yardım və kreditləşmə mexanizmləri, Dünya Bankı və Avropa Yenidən Qurma və İnkişaf Bankının post-münaqişə ərazilərə etdiyi yardımlara diqqət yetirilmişdir. Məqalədə post-konflikt ərazilərin necə qurulmasında Marşal Planının zəruriliyi və tətbiqi xüsusiyyətləri ayrı-ayrı ölkələrin təcrübəsində araşdırılmış və Azərbaycanda tətbiqi imkanları müəyyən edilmişdir.

Azərbaycanda mövcud olan siyasi, iqtisadi və sosial sabitlik, dövlətdə iradəli və cəsarətli idarəçilik bacarığının təşəkkül tapması xarici dövlətlərin diqqət mərkəzindədir və dünyanın bir çox dövləti Qarabağa investisiya yatırtmaq marağındadır. Xüsusilə 30 il davam edən Qarabağ münaqişəsi öz həllini tapdıqdan sonra regional inkişaf, regional əməkdaşlıq üçün yeni imkanların yaranması və Azərbaycanın buna hərtərəfli hazırlığı xüsusi vurğulanmışdır.

***Acar sözlər:*** *post-konflikt ərazilər, Qarabağ, Marşal Planı, investisiya imkanları*

**Possibilities Of İmplementing The Marshall Plan İn The Reconstruction Of Karabakh**

**Summary**

In the article, the reconstruction of post-conflict territories and its economic importance are examined in the world experience, the necessity of the Marshall Plan, its political, socio-economic aspects are studied, and the possibilities of application are determined. At the same time, the article focuses on humanitarian aid and lending mechanisms of developed countries to developing countries, World Bank and European Bank for Reconstruction and Development assistance to post-conflict areas. In the article, the necessity and application features of the Marshall Plan in the construction of post-conflict territories were examined in the experience of individual countries, and the possibilities of its application in Azerbaijan were determined.

The political, economic and social stability that exists in Azerbaijan, the formation of a willful and courageous management skill in the state is the focus of attention of foreign countries, and many countries of the world are interested in investing in Karabakh. Especially after the settlement of the 30-year-long Karabakh conflict, the creation of new opportunities for regional development, regional cooperation, and Azerbaijan's comprehensive preparation for this were specially emphasized.

***Keywords***: *post-conflict territories, Karabakh, Marshall Plan, investment opportunities*

*UOT(JEL):327;33;338*

## Giriş

İkinci Dünya Müharibəsi dünyanın ən dağıdıcı hadisələrindən biri kimi dünya tarixinə düşdü. 27 milyondan artıq hərbi qulluqcu və 25 milyondan artıq dinc əhalinin həyatına son qoyan bu müharibə özündən sonraya xarabalığa çevrilmiş şəhərlər, iqtisadi cəhətdən tamamilə zəifləmiş ölkələri miras qoydu. Müharibədən əvvəl mövcud olan bir çox xarici holdinqlər Avropa ölkələri tərəfindən müharibə zamanı xərcləri ödəmək üçün satıldı. Avropanın idxal qabiliyyəti müharibədən əvvəlki səviyyələrin 40%-nə qədər azaldı. Problemlərin ciddiliyinə varan Birləşmiş Millətlər Təşkilatı ərzaq çatdırmaq üçün xidmət edən Yardım və Reabilitasiya İdarəsini (UNRRA) yaratdı və geyim, tibbi ləvazimatlar və digər ehtiyacların qismən qarşılanmasına nail olundu. Lakin bütün cəhdlərə baxmayaraq yardım və yenidənqurma üçün bu çoxtərəfli yanaşma tez bir zamanda dağıldı. Lakin cəhdlər davam edirdi. Avropa ökləlchanged ərinin, xüsusilə də Almaniyanın yenidən qurulması və problemləri həll etmək üçün Birləşmiş Millətlər Təşkilatı Beynəlxalq Bank yaratdı. Yardımın məbləği, onun şərtləri və çatdırılma sürəti kritik dərəcədə uğursuz idi. Dünyanın siyasi xəritəsi dəyişmiş, müharibə illərində sovetlərlə müttəfiq olan Amerika Birləşmiş Ştatları birdən-birə dönüb onun düşməninə çevrilmişdir. Həmin dövrdən başlayaraq ABŞ və Rusiya arasında Söyuq Müharibə çövlan eləməyə başladı. Amerika Birləşmiş Ştatları "İxrac-İdxal" Bankını yaradaraq qısa müddətdə kapitalı 750 milyon dollardan 3,75 milyard dollara qədər qaldırdı. Eyni zamanda ABŞ artıq birbaşa olaraq

**[58]Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, kafedra müdiri**
**[58]Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, şöbə müdiri**

birtərəfli yardım göstərirdi. 1945-ci ilin iyulundan 1947-ci ilə qədər işğal olunmuş ərazilərdə hökumət yardımı 13 milyard ABŞ dollar civarında idi. Müharibə nəticəsində ölənlərin hamısı hesaba alındıqdan sonra belə Avropa ərzaq ehtiyatının yalnız 80%-nə sahib idi. Avropanın, xüsusilə də Almaniyanin iri sənaye müəssisələri tamamilə iflasa ugramış, əhalinin gündəlik tələbat mallarına olan ehtiyacları kəskin şəkildə artmışdır. Kəndli-fermer təsərrüfatlarında istehsal olunan məhsullar fermerlər tərəfindən satıla bilinmədiyindən (şəhər əhalisinin alıcılıq qabiliyyəti minimuma enmişdi) bu fəaliyyət növünə maraq azalmışdır. Əkin sahələri otlaq sahələrinə çevrilir, xüsusilə də şəhər əhalisinin ərzağa olan tələbatı kəskin artırdı. Yanacaq və maliyyə azlığı sənayenin inkişafina ciddi əngəllər yaradırdı.

Sovet İttifaqının rəqibi olan dövlətlər, xüsusilə də ABŞ onun nüfuz dairəsini məhdudlaşdırmaq məqsədilə Harri Trumən tərəfindən düşünülmuş "cilovlama" siyasətinə söykənərək Sovet İttifaqını Şərqi Avropadan irəli buraxmaq istəmirdilər və hətta bu dairəni daha da daraltmağı düşünürdülər. (https://www.britannica.com/event/Marshall-Plan) Hətta müharibə zamanı ölüm və dəyən zərər baxımından Sovetlər də Birinci Dünya Müharibəsindən sonra olduğu kimi təzminat tələb edirdilər. Avstriya, Finlandiya, Macarıstan, Rumıniya və xüsusən də Şərqi Almaniya böyük məbləğdə pul ödəməli və SSRİ-yə böyük həcmdə kompensasiya göndərməli oldular. Bu təzminat ödənişləri Sovet İttifaqının özünün Marşal Planı yardımından ümumilikdə 16 Avropa ölkəsinin aldığı ilə eyni olduğunu nəzərdə tuturdu ( Zwass, Adam, 1989:44).

## 1. Marşal Planı Və İcra Mexanizmləri

1947-ci ilin iyununda ABŞ dövlət katibi Corc Marşal Avropanın, xüsusilə Almaniyanın iqtisadi çətinliklər səbəbindən Sovetlər Birliyinin təsiri altına düşəcəyini qey edərək deyirdi: "Həqiqət burasındadır ki, son illər Avropanin əcnəbi mallarına, xüsusilə də Amerika məhsullarına tələbatı o dərəcədə artıb ki, tələbat Avropanın bugünkü ödəmə qabiliyyətini qat-qat üstələyir. Bu minvalla Avropanın əməlli-başlı əlavə yardıma ehtiyacı var, yoxsa çox dərin iqtisadi, sosial və siyasi böhrandan yan keçə bilməyəcək. Biz bu əlverişsiz dairəni sındırmalı, Avropa xalqlarının öz ölkələrində, eləcə də, bütövlükdə qitədə iqtisadi yüksəlişə nail olmaq ümidini yenidən dogrultmalıyıq. ...Birləşmiş Ştatalar bütün planetin iqtisadi saglamlığını bərpa etmək üçün əlindən gələni əsirgəməməlidir. Çünki bunsuz dünyanın əmin-amanlığı, eləcə də siyasi sabitliyi mümkün sayılmaz". (Frankenfeld 2012).

İşin əsli budur ki, Avropa növbəti üç-dörd il tamamilə idxaldan asılı olacaqdır. Xarici ərzaq və digər zəruri məhsullar əsasən Amerikadan idxal olunması zərurəti meydana çıxırdı. Daha önəmlisi isə Avropanın inamını bərpa etmək, insanların öz ölkələrinin iqtisadi gələcəyinə inandırmaq idi. İqtisadi sabitliyə nail olmadan siyasi sabitlik əldə olmadığını bilən ABŞ digər kapitalist ölkələrini də Marşal planına cəlb etməyə çalışırdı.

Beləliklə, Marşal Planı ("Avropanın Bərpası Proqramı") 1948-ci ilin aprelindən qüvvəyə mindi. Planın həyata keçirilməsində 17 Avropa ölkəsi, o cümlədən Qərbi Almaniya iştirak edirdi. Marşal planı Qərbi Avropada müharibədən sonra sülhün bərqərar olmasına töhfə verdi. ABŞ-ın elan etdiyi planın məqsədi Avropanın müharibə nəticəsində dağılmış iqtisadiyyatını bərpa etmək, ticarət maneələrini aradan qaldırmaq, Avropa ölkələrinin sənayesini modernləşdirmək, kommunistləri güc strukturlarından sıxışdırıb çıxarmaq və bütövlükdə Avropanı inkişaf etdirmək idi.

Qeyd etmək lazımdır ki, Marşal planı SSRİ iqtisadiyyatının müharibədən sonrakı yenidən qurulmasına yardımı da əhatə edirdi, lakin Sovet İttifaqının rəhbərliyi Plan çərçivəsində hər hansı formada yardımdan imtina etdi. 1946-cı ilin martında SSRİ Ali Soveti 1946-1950-ci illər üçün xalq təsərrüfatının bərpası və inkişafı planını təsdiq etdi. İqtisadiyyatın dirçəliş və daha da inkişaf etdirilməsi yollarını müəyyənləşdirdi. Beşillik planın əsas vəzifəsi ölkənin işğal olunmuş ərazilərini bərpa etmək, sənayenin və kənd təsərrüfatının müharibədən əvvəlki inkişaf səviyyəsinə çatmaq ötmək idi. Plan ağır və müdafiə sənayesinin prioritet inkişafını nəzərdə tuturdu. Buraya xeyli maliyyə resursları, maddi və əmək resursları yönəldildi. Yeni kömür rayonlarının inkişafı, ölkənin şərqində metallurgiya bazasının genişləndirilməsi nəzərdə tutulurdu. Plan tapşırıqlarının yerinə yetirilməsinin şərtlərindən biri elmi-texniki tərəqqinin nailiyyətlərindən maksimum istifadə etmək idi.

Marşal Planın məqsədlərindən biri də Avropanın "birləşdirilməsini", yəni həm Avropanın özündə, həm də Avropa ilə ABŞ arasında bütün valyuta və gömrük maneələrinin məhv edilməsini öz üzərinə götürərək vahid Avropa bazarının yaradılması ehtiva edirdi.

1950-ci ilin mayında bu plan konkret formada - Avropa Kömür və Polad Birliyində (Şuman Planı adlanır) təcəssüm olundu. Belə assosiasiyaya üzv olmaq istəyən ölkələr bir sıra tədbirlər görməli oldular:

1) Bu ölkələr 1949-cu ilin dekabrında gömrük tariflərinin azaldılmasına və “çoxtərəfli” ticarət haqqında Cenevrə və Havana konvensiyalarını imzaladıqdan sonra idxal sistemini qismən ləğv etməli oldular.

2) İngiltərə və Fransanın üçüncü dəfə valyuta məzənnələrini aşağı salmasından sonra 1949-cu ilin sentyabrında daha 28 ölkə öz valyutalarını yenidən devalvasiya etmək məcburiyyətində qaldı. Bütün bu tədbirlər Amerika kapitalına bu ölkələrdə aşağı qiymətə xammal almaq və Avropanın müxtəlif müəssisələrinə daha sərfəli şərtlərlə sərmayə qoymağa imkan vermək məqsədi daşıyırdı.

Post-konflikt ərazilərin yenidən qurulmasında beynəlxalq təcrübəni arasdırdıqda məlum olur ki, Qərbi Avropa və Yaponiyada Marşal planından istifadə edilərək ərzaq və başqa ehtiyacların ödənilməsində əhəmiyyətli nəaliyyətlər əldə olmuşdur. 1948-ci ildə Böyük Britaniya, Belçika, Fransa, İtaliya kimi ölkələrin dağılmış sənaye və infrastrukturunu bərpa etmək üçün Marşal planını qəbul etdi və ümumilikdə 16 Avropa dövlətinə 15 milyarddan çox vəsait ayrıldı və paylanıldı. Dağıdıcı müharibədən çıxmış ölkələr iqtisadi böhrandan çıxmaq üçün çıxış yolları axtararaq iqtisadi inkişafa dəstək verə biləcək maliyyə, xammal, logistika, əsas istehsal fondlarının alınması üçün ABŞ-dan yardım almaga məcbur oldular. Bu yardımlar kredit, qrant və ərzaq yardımı formasında həyata keçirilirdi. O zaman ən böyük yardımlar Almaniyaya (8.135 milyard) və Yaponiyaya (4.401 milyard) edildi.

Marşal planı ABŞ tərəfindın ortalığa gətirilsə də sonradan Yunanıstan, İspaniya, Böyük Britaniya, Misir, Fransa kimi ölkələr də sazişlər bağlayaraq yenidənqurma prosesində kredit verərək iştiraka daxil oldular. Bu proseslərə ən böyük dəstək verən Dünya Bankı oldu. Dünya Bankı kapital layihələrini həyata keçirmək məqsədilə aşağı və orta gəlirli ölkələrin hökumətlərinə kreditlər və qrantlar verən beynəlxalq maliyyə institutu olaraq yaradılmışdır. 1944-cü ildə Bretton Woods Konfransında Beynəlxalq Valyuta Fondu ilə birlikdə yaradılmış, ilk krediti 1947-ci ildə Fransaya verilmişdir. Kredit tələb olunan məbləğin yarısı olmaqla 250 milyon ABŞ dolları idi və ciddi şərtlərlə verilmişdi (https://history.state.gov/milestones/1945-1952/marshall-plan). Fransa balanslaşdırılmış büdcə hazırlamağa və borcun ödənilməsinə digər hökumətlərə nisbətən Dünya Bankına üstünlük verməyə razı olmalı idi. Dünya Bankının əməkdaşları Fransa hökumətinin şərtləri yerinə yetirməsini təmin etmək üçün vəsaitlərin istifadəsini diqqətlə incələdilər. Bundan əlavə, kredit təsdiqlənməmişdən əvvəl ABŞ Dövlət Departamenti Fransa hökumətinə bildirib ki, onun Kommunist Partiyası ilə əlaqəsi olan üzvləri ilk növbədə idarəetmədən kənarlaşdırılmalıdır. Fransa hökuməti bu tələbi yerinə yetirdikdən sonra kredit təsdiq olundu.




Şəkil1: 1947-1951-ci illər arasında Qərbi Avropa Ölkələrində sənaye məhsulu istehsalı
Mənbə: Şəkil https://www.statista.com/statistics/524305/industria əsasında müəlliflər tərəfindən hazırlanmışdır.

Həm ölkələrin ciddi səyi, həm də Marşal Planının nəticəsi olaraq, 1947-51-ci illərdə Qərbi Avropa ölkələrində sənaye istehsalı sürətlə artmış, sənayenin inkişafı ümumdaxili məhsulun artımına, yeni iş yerlərinin açılmasına və əhalinin həyat səviyyəsinin artmasına səbəb oldu.

1947-ci ildə Marşal Planı qüvvəyə minəndə bir çox Avropa ölkələri başqa mənbələrdən yardım almağa başladı. Bu rəqabətlə üzləşən Dünya Bankı diqqətini avropalı olmayan müttəfiqlərə yönəltdi. Bundan ən çox qazanan Yaponiya oldu. 1953-1964-cü illərdə 34 inkişaf layihəsini maliyyələşdirmək üçün 860 milyon məbləğində vəsait ayrılmışdır. Bu vəsaitdən istifadə edən Yaponiya logistika kimi infrastruktur layihələrini uğurla icra etdi.

XX əsrin sonlarına dögru kommunist rejimi dağılmaga başladı və bu işi sürətləndirmək və planlı təsərrüfat sistemini tamamilə ləğv etmək məqsədilə yenə Marşal Planı içə düşdü. Bütün possovet dövlətlərinə yardım edilməsi, hərbi münaqişələrə məruz qalmış ərazilərə daha çox yardımlar edilməsi məqsədilə 61 ölkə və 2 beynəlxalq təşkilatın dəstəyi ilə Avropa Yenidənqurma və İnkişaf Bankı yaradıldı.

Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) termini 1991-ci ildə yaradılmış maliyyə institutuna aiddir. Təşkilat kommunizmin süqutundan sonra azad bazar iqtisadiyyatlarını inkişaf etdirməklə Şərqi Avropa və keçmiş Sovet ölkələrinə demokratiyaya keçidə kömək etmək üçün hazırlanmışdır.

Hazırda mənzil-qərargahı Londonda yerləşən AYİB Mərkəzi Avropadan Mərkəzi Asiyaya kimi iyirmidən çox ölkədə öz işini davam etdirir, əsasən özəl banklara və bizneslərə, o cümlədən yeni müəssisələrə və mövcud şirkətlərə sərmayə qoyur. Avropa Yenidənqurma və İnkişaf Bankı Cənubi və Şərqi Aralıq dənizi, Mərkəzi və Şərqi Avropa və Mərkəzi Asiyada 38 müxtəlif ölkədə fəaliyyət göstərir.

70 ildən çox keçməsinə baxmayaraq post-konflikt ərazilərin bərbasında Marşal planı yenə də aktual olaraq qalır. Dünya Bankının 2011-ci ilin hesabatında qeyd olmuşdur ki, XX əsrin sonunda müharibəyə və dağıntıya məruz qalan ölkələrin yenidən qurulmasına vəsait ayrılmış (ümümi ayrilan vəsaitin 29 % civarında), eyni zamanda ərzaq yardımları da edilmişdir, yəni maliyyələşdirmə aşağıdakı kimi qurulmuşdur:

- kapitalın maliyyələşdirilməsi və kreditlər
- lizinq obyektləri
- ticarətin maliyyələşdirilməsi
- peşəkar inkişaf və digər dəstək proqramları.

2018-ci ilə olan məlumata görə, bank 1991-ci ildən bəri ümumi iş həcmi 119,6 milyard avro olan 5035 layihəni maliyyələşdirib. Avropa Yenidənqurma və İnkişaf Bankı keçmiş Şərq Bloku ölkələrinə diqqət yetirərək Mərkəzi Avropadan Mərkəzi Asiyaya qədər 30-dan çox ölkədə inkişafı dəstəkləmək üçün genişlənərək fəaliyyət göstərdiyi ölkələrdə regional kreditlər verir. Bu gün AYİB-in də dünyanın hər yerindən üzvləri var (Şimali Amerika, Afrika, Asiya və Avstraliya), ən böyük səhmdarı isə ABŞ-dır. 2021-ci ilin oktyabrından son səhmdar Əlcəzairdir.

AYİB keçmiş kommunist və Şərq Bloku ölkələrinin özəl sektorlarının yaradılması və inkişafını dəstəkləmək üçün nəzərdə tutulan maliyyələşdirmə təklif edir, o cümlədən əvvəllər dövlətə məxsus olan şirkətlərin özəlləşdirilməsinə kömək edir.

İkinci Dünya Müharibəsi illərində Türkiyənin neytral siyasəti onu beynəlxalq münasibətlərdə təcrid etdi. Sovet İttifaqının Şərqdə və Turkiyəyə məxsus boğazlarda israrlı torpaq tələbləri ilə üzləşdiyi bir dövrdə Türkiyə özünü qorumaq üçün Qərb dünyasına çevrdi və həm iqtisadi, həm də siyasi müttəfiqlər axtarışına çıxdı. Turkiyənin Sovetlərin təsir və təzyiqindən qorumaq məqsədilə Türkiyəyə kömək qərarı verildi. Türkiyə hökuməti ilə ABŞ arasında 4 iyul 1948-ci ildə iqtisadi əməkdaşlığa (Marşal Planı) təkan verildi. Müvafiq olaraq, 1949-cu Turkiyəyə ərzaq və digər texniki xidmətlər göstərilməyə başlanıldı. Burada əsas məqsəd həm Marşalın əhatə dairəsini, metodunu və təcrübələrini tanıtmaq, həm iqtisadi gücləri birləşdirmək və siyasi motivlər təşkil edirdi. Türkiyəyə humanitar yardımlar edilir və kənd təsərrüfatı sektoruna investisiyalar yatırılırdı. Sürətlə kənd təsərrüfatı inkişaf edir, adambaşına düşən gəlir, ticarət kimi bəzi makroiqtisadi göstəricilər artırdı.

Turkiyədə Marşal Planı tərəfindən təmin edilən yardımlar, ümumiyyətlə, iki səviyyədə işləyirdi - birbaşa və dolayı. Birbaşa olanlar qrant və kredit formasında olanlardır. Qrant kimi alınan yardımlar Mərkəzi Bankın nəzarətində olan 95% (xərclənəsi) və 5% (ECA-nın sabit xərcləri) üçün adlı iki hesabda türk lirəsi olaraq nağd pul idi. Kredit kimi yardımlar isə uzunmüddətli və 2,5% faizli borc kimi idi. Digər tərəfdən, dolayı yardımlar "tədavül hüququ" adlanan, təminatlı yardımlar idi.

Türkiyə, Marşal Yardımları çərçivəsində cəmi 184,5 milyon dollar aldı. Təəssüf ki, bu, planın ümumi yardımlarının cəmi 1,4%-ni qrantlar təşkil edirdi. Digər ölkələrin aldığı qrant məbləğləri ilə müqayisə edildikdə, bu məbləğin Türkiyədə çox aşağı olduğu görünür.

| Ölkələr | Cəmi | % | Qrant | % |
|---|---|---|---|---|
| Cəmi | 12.992.5 | 100 | 9.290.2 | 100 |
| İngiltərə | 3.165.8 | 24.4 | 1.956.9 | 21 |
| Fransa | 2.629.80 | 20.2 | 2.21211 | 32.8 |
| İtaliya | 1.434.60 | 11 | 1.174.40 | 12.6 |
| Qərbi Almaniya | 1.317.3 | 10.1 | 1.07870 | 11.6 |
| Hollandiya | 1.07870 | 8.3 | 796.40 | 8.6 |
| Avstriya | 653.80 | 5 | 556.10 | 6 |
| Yunanıstan | 628.00 | 4.8 | 34.40 | 5.5 |
| Belçika | 546.60 | 4.2 | 217.30 | 03. |
| Danimarka | 266.40 | 2.1 | 196.00 | 2.3 |
| Norvec | 241.90 | 1.9 | 62.40 | 2.1 |
| **Turkiyə** | **184.50** | **1.4** | **18.00** | **0.7** |
| Irlandiya | 146.20 | 1.1 | - | 0.2 |
| Isvec | 107.10 | 0.8 | 5.50 | - |
| Portuqaliya | 50.50 | 0.4 | 15.90 | 0.1 |
| İspaniya | 26.8 | 0.2 | - | 0.2 |

**Cədvəl**: Müxtəlif ölkələrdə birbaşa və dolayı yardımların məbləği

Mənbə: istinad Erhan, Ç. (1996), Ortaya Çıkışı ve Uygulanışıyla Marshall Planı, Ankara Üniversitesi Siyasal Bilgiler Fakültesi Dergisi

Marşal Planı əsasən kənd təssərüfatının inkişafina yönəlmişdir. Lakin kənd təsərrüfatı ilə yanaşı ağır və yüngül sənayeni inkişaf etdirmək Türkiyənin strateji planına daxil edilmişdir. 1947-ci ildə kənd təsərrüfatı sektorunun Türkiyənin ümumi milli məhsulunda payı 38,4%, 1953-cü ildə 45%-ə qədər yüksəlmişdir. 1950-1951-ci illər arasında Türkiyə iqtisadiyyatı orta hesabla 11% inkişaf etmişdir. Eyni zamanda kənd təsərrüfatı sektorunda baş verən inkişaflar sayəsində adambaşına düşən gəlir 28% artdı.

Yaxın keçmişdə Afrika və Şərq ölkələrində baş verən münaqişə və müharibələr zamanı və müharibələrdən sonra yardım göstərən qurum və dövlətlərin sayı artmaqdadır. 2011-ci ildə "Ərəb Baharı"nın başlamasından sonra Səudiyyə Ərəbistanı və digərləri tərəfindən bölgədə, xüsusən də Misir və Tunisdə yayılan iğtişaşlar, qeyri-sabitlik və inamsızlığı aradan qaldırmaq üçün Yaxın Şərqdə Marşal Planı çağırışları oldu. Lakin bu o qədər də effektli natıcə vermədi. Çünki, qərbdəki bir çox potensial donorlar 2008-ci ilin qlobal iqtisadi böhranından yalnız tədricən çıxırdı buna görə onlar bu çağırışlara o qədər də müsbət reaksiya vermədilər. ABŞ-ın keçmiş dövlət katibi Henri Kissincerin 2012-ci ildə dediyi kimi, "humanitar narahatlıqlar milli maraqların dünya nizamı konsepsiyası ilə əlaqələndirilməsi ehtiyacını aradan qaldırmır. ABŞ üçün Yaxın Şərq inqilablarına ümumi humanitar müdaxilə doktrinası ABŞ-ın milli təhlükəsizlik konsepsiyası ilə əlaqələndirilmədikcə dayanıqsız olacaq" (https://www.loc. gov/marshall). Beləliklə, terrorla mübarizə sahəsində əməkdaşlıq Misir kimi dövlətlərlə güclü hərbi əlaqələri davam etdirməklə təmin oluna bildiyi müddətcə, Yaxın Şərq Marşal Planının siyasətçilər tərəfindən zəruri sayılmayacağı ehtimalı azdır.

Körfəz dövlətlərinin əksəriyyəti mərkəzi bankları dəstəkləmək, iş yerləri yaratmaq və regionda enerji tələbatını həll etmək üçün lazım olan iqtisadi resurslara və siyasi iradəyə malikdir. Bu, xüsusilə Səudiyyə Ərəbistanı və BƏƏ-nin Misirə verdiyi dəstəkdə özünü büruzə verdi. 2014-cü ilin iyununda Misirdə Səudiyyə hökuməti Misir və Tunis üçün donor konfransı çağırmağa qədər irəlilədı. Dünya Bankı kimi beynəlxalq qurumlar da onilliklər boyu həyata keçirilən dünya miqyasında həyata keçirilən inkişaf layihələri vasitəsilə dəyərli dərslər öyrənmişlər və buna görə də yoxsulluğun azaldılmasına, Yaxın Şərqdə iş proqramlarının artırılmasına kömək etmək üçün hərəkətə keçdilər (https://www.dictionary.com/browse/marshall-plan). Çoxmillətli korporasiyalar tərəfindən həyata keçirilən korporativ sosial məsuliyyət layihələrin dəstəklənməsində özəl sahibkarlığın da rolu nəzərə çarpırdı. Lakin bu kimi humanitar və iqtisadi təşəbbüslər o qədər də əhəmiyyət kəsb eləmirdi. Belə ki, təkcə

Misirdə 2011-ci ildə əhalinin 25%-i yoxsulluq həddində idi, əhalinin 17%-i də qida çatışmazlığından əziyyət çəkirdı.

**2. Azərbaycanda Post-Konflikt Ərazilərin Yenidən Qurulması Problemləri**

Müasir dövrdə münaqişəli regionlar qalmaqdadır. Suriya, Ukrayna kimi dövlətlərdə hələ də döyüşlər gedir, millərlə insan həyatını itirir, ölkələrə milyon dollarla maddi ziyan vurulur, infrastruktur dağılır. Bu kimi hallar bizim Azərbaycandan da yan keçməmişdir. Sovet rejiminin dagılması ölkədə idarəetmə sistemini iflic vəziyyətinə saldı. Hərbi infrastrukturun olmaması, maliyyə azlığı, aclıq, qitlıq, işsizlik və müharibə... Erməni və Rusiya hərbi birləşmələri sosial, iqtisadi və siyası zəifliklərdən istifadə edərək Azərbaycana işğalçılıq siyasəti irəli sürdü. Azərbaycan dövləti və xalq 6 il mübarizə aparsa da nəticədə ölkə ərazinin 20%-i işğal olundu. 30 ilə yaxın erməni işğalçılarının əsarətində qalan torpaqlarımız 2020-ci ildə 44 günlük müharibə sayəsində azad oldu. Azərbycan xalqının xəyallarında olan abad, güllü-çiçəkli Qarabağın yerində tamamilə dağıdılmış, talan edilmiş, təbiəti məhv edilmiş, bir sözlə, xarabalığa çevrilmiş bir mənzərə açıldı: uzsuz- bucaqsız talan edilmiş meşələr, daşı-daş üstündə qalmayan kəndlər, şəhərlər, yüzlərlə dağılmış məktəb, kitabxana, məscid, zavod-fabriklər, kol-kos basmış minlərlə hektar əkin sahələri və minalanmış Qarabağ.

Nəhayət, müharibə başa çatdı, münaqişə tarixdə qaldı. Yeni imkanlar yarandı: "Artıq tam əminliklə demək olar ki, Dağlıq Qarabağ məsələsi, Dağlıq Qarabağ münaqişəsi öz həllini tapmışdır. Dağlıq Qarabağ adında hazırda hər hansı bir ərazi vahidi yoxdur. Azərbaycan bu məsələni həll edib, tarixi Zəfər əldə edib və dağıdılmış ərazilərdə bərpa işləri başlayıb" (videokonfrans, https://ikisahil.az).

Azərbaycan Respublikası ərazilərinin işğalı nəticəsində itki və tələfatların qiymətləndirilməsi üzrə İşçi Qrupunun indiyə qədər apardığı hesablamalara əsasən, bu işğal nəticəsində əhaliyə 147,8 milyard, dövlətə isə 126,46 milyard dollar ziyan dəyib. Təbii sərvətlərə, maddi irsə və digər sahələrə dəyən ziyan da əlavə edilərsə, Ermənistanın Azərbaycan torpaqlarını işğalı nəticəsində ölkəmizə ümumilikdə 818,88 milyard dollar ziyan vurulub (https://baku.ws/politics/4112).

Dövlət büdcəsindən Qarabağın yenidən qurulması məqsədilə 2021 və 2022- ci illərdə hər il ayrılıqda 2,2 milyard manat vəsait ayrılmışdır. Digər daxili mənbələrdən də vəsaitin cəlb edilməsi istiqamətində işlər görülür. Bütövlükdə, bu gün Qarabağda, eləcə də Şərqi Zəngəzurda reallaşdırılan işlər ancaq daxili mənbələr hesabına həyata keçirilir. Azərbaycan xaricdən hər hansı bir borc almadan, heç bir asılılıq olmadan öz daxili imkanları hesabına Şərqi Zəngəzuru və Qarabağı yenidən qurur və müasir, beynəlxalq standartlara uyğun infrastruktur formalaşdırır. "Biz Qarabağı, Zəngəzuru yenidən qururuq, yenidən qurmalıyıq. Buna nə qədər vəsait lazımdır. Hamısını öz hesabımıza edirik, 1 il 8 ay ərzində hələ bir dənə də kömək görməmişik. Heç bir yerdən heç kim bizə bir manat yardım etməyib, hamısını özümüz edirik" (https://sputnik).Qarabağda əlverişli investisiya mühiti mövcuddur. Artıq İqtisadiyyat Nazirliyində yaradılan "Front Office" vasitəsilə işğaldan azad edilmiş ərazilərə sərmayə qoyuluşu ilə bağlı 1200-ə yaxın müraciət daxil olub. "Əlbəttə biz bu rəqəmlərin daha çox olmasını istəyirik" ( https://azertag.az).

Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi Türkiyə və Azərbaycan arasında iqtisadi əməkdaşlıq və investisiyalar üçün çoxlu imkanlar yaratdı. Torpaqların məhsuldarlığını, eləcə də xammal və təbii sərvətlərin zənginliyini nəzərə alsaq, yaxın gələcəkdə bu rayonlarda məhsul istehsalı dəfələrlə artması gözlənilir. Bundan əlavə, bu bölgə turizm baxımından çox önəmlidir. Azərbaycan bu ərazilərin yenidən yaşayış mühitinə çevrilməsi üçün qoyulacaq investisiyalarla bağlı dost ölkələrlə danışıqlar mərhələsindədir. Hələlik bu ölkələr müvafiq olaraq Türkiyə və İtaliyadır. İlk müqavilələr türk şirkətləri ilə imzalanıb. Bu da çox təbiidir; Çünki Türkiyə qardaş ölkədir. Azərbaycanla "Bir millət bir araya gələcək" devizi ilə hərəkət edən Türkiyə işğaldan azad olmuş Qarabağ bölgəsinin də bərpasına böyük dəstək verməyə başlayıb. Belə ki, bölgədə 27 milyard dollarlıq sərmayə ilə 1,5 milyon insanın evinə qaytarılması planlaşdırılır.

Yaxın vaxtlarda bu bölgələr üçün təşviq və dəstək proqramlarının elan olunmasını gözlənilir. Bütövlükdə Azərbaycanın bərpa olunan enerji sektoruna, xüsusən də Qarabağ və Şərqi Zəngəzur bölgələrinə artan xarici sərmayələr Azərbaycanın yeni yaranan regional nizamda mövqeyinə ciddi təsir göstərir. Bu, ilk növbədə, Bakının erməni işğalı zamanı geniş miqyaslı dağıntılara və infrastruktura ziyan vurmuş işğaldan azad edilmiş ərazilərin bərpasına xarici investisiyaların cəlb edilməsində uğurunu göstərir. İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan hökuməti bərpa layihələri üçün ümumilikdə 2,5 milyard

ABŞ dolları ayırdı və dost ölkələri prosesdə fəal iştiraka dəvət etdi. İndiyədək İtaliya, Türkiyə, İsrail, Çin və digər tərəfdaş ölkələrin şirkətləri yenidənqurma işlərinə öz töhfələrini verirlər.

Bu gün Azərbaycanın haqq işinə dəstək olan ölkələr bu prosesdə iştirak edirlər. Təbii ki, Azərbaycan şirkətləri də bu prosesdə fəallıq nümayiş etdirirlər, infrastruktur layihələrinin formalaşmasında və icrasında yaxından iştirak edirlər. Qardaş Türkiyəni təmsil edən şirkətlər bu prosesin fəal üzvüdür. İtaliya şirkətləri isə enerji şəbəkəsinin formalaşmasında iştirak edirlər. Bu baxımdan Azərbaycan elan etdiyi kimi, məhz birmənalı şəkildə savaş zamanı haqq işinə dəstək olan ölkələrin bərpa və yenidənqurma prosesinin daha fəal şəkildə iştirakında maraqlıdır və bu istiqamətdə intensiv işlər həyata keçirilir.

İqtisadi baxımdan da Qarabağda kifayət qədər investisiya qoymaq üçün səbəblər var. Belə ki, burada bol miqdarda enerji mənbələri, yeraltı qiymətli dəmir filizləri, tikinti materialları üçün xammal yataqlar və sair mövcuddur. Elə bu və digər sadalanmayan üstünlüklər səbəbindəndir ki, artıq bir neçə xarici ölkə- Türkiyə, İran, Pakistan və sair kimi ölkələrlə yanaşı, yerli şirkətlər, nəhəng korporasiyalar Qarabağa investisiya qoymaqda maraqlıdır.

Bu gün əsas məqsəd işğaldan azad edilmiş ərazilərin bərpasıdır. Artıq böyük tikinti-quruculuq işlərinə start verilib. Hazırda Qarabağda beynəlxalq hava limanı, avtomagistrallar tikilir, dəmir yolu xətləri inşa edilir. Bu ilin sonuna kimi bütün Qarabağ ərazisi üçün enerji təchizatı 100 faiz tamamlanması gözlənilir. Digər əhəmiyyətli layihələr də gerçəkləşdiriləcək. Azərbaycan bu məsələlərdə də Avropa Yenidənqurma və İnkişaf Bankı ilə əməkdaşlığa güvənir. "Bərpaolunan enerji mənbələri baxımından orada böyük potensial var. Başqa sözlə, bu, Azərbaycanın və regionun inkişafında yeni bir dövr və ya hətta yeni bir eradır. Demək olar ki, 30 il davam edən Dağlıq Qarabağ münaqişəsi öz həllini tapdıqdan sonra regional inkişaf, regional əməkdaşlıq, bağlılıq üçün yeni imkanlar var və Azərbaycan bunlara hazırdır" (Prezident.az).

Özəl sahibkarlığın inkişafı, o cümlədən azad edilmiş torpaqlarda bütün işlərin planlı şəkildə aparılması, investisiyalar üçün imtiyazların müəyyən edilməsi təlimatı da verilib. Tezliklə xarici investorlar azad edilmiş torpaqlara böyük həvəslə gəlib yeni-yeni layihələrə sərmayə yatıracaqlar. Bu da əlbəttə ki, Azərbaycan iqtisadiyyatının yüksəlişini və saxələnməsini şərtləndirəcək.

1995-2018-ci illər ərzində Azərbaycana ortalama olaraq 140 milyard ABŞ dolları həcmində xarici investisiya cəlb olunmuşdur. Bu sərmayələrin 30%-i Azərbaycan hökumətinin və eləcə də, ölkə sərhədləri içərisində fəaliyyət göstərən müxtəlif özəl qurumların beynəlxalq maliyyə təşkilatlarından aldığı kreditlərin payına düşür. İnvestisiyaların digər qismi isə birbaşa xarici sərmayələr olaraq qeydə alınmışdır. Belə qənaətə gəlmək mümkündür ki, Qarabağ münaqişəsinin həll olunması ölkəyə olan investisiya marağını daha da artıracaq, yaxın bir neçə il ərzində regiona yatırılması planlanan sərmayələrin həcmi bir neçə dəfə böyüyəcəkdir. Onu da qeyd edim ki, regionun siyasi, coğrafi mövqeyi və eyni zamanda potensial resursları da həm yerli, həm də xarici investorların marağını çəkməkdədir. Bu gün bir çox beynəlxalq təşkilatlar və bizneslər, öz fəaliyyət sahəsinə uyğun olaraq, azad edilmiş ərazilərə sərmayə yatırmağa hazırdır. İlkin mərhələdə, kiçik və orta biznes səviyyəsində ediləcək sərmayələr növbəti mərhələdə böyük həcmli investisiyalar üçün xüsusi təşviq rolunu oynayacaqdır. Lakin bir məsələ də var ki, investisiyaların cəlb edilməsindən öncə region üzrə prioritet yatırım planı və sahələri çərçivəsində xüsusi strategiyaların hazırlanması lazımdır. Belə ki, regionun potensial resursları yenidən araşdırılmalı, rayonların mövcud istehsal faktorları diqqətə alınmalı, investisiyalar üçün dövlət və özəl qurumlar tərəfindən təkliflər paketi formalaşdırılmalı və investorlara təqdim olunmalıdır.

Qarabağda külək və günəş elektrik stansiyalarının qurulması məsələləri bu gün daha aktual problemlərdən birinə çevrilib. Azərbaycan hökuməti bu istiqamətdə əməli addımlar atmaqdadır. Birləşmiş Ərəb Əmirlikl "Masdar" şirkətinin bu sahədə çox böyük təcrübəsi var, bir çox ölkələrdə uzun illər uğurla fəaliyyət göstərir. Əlbəttə ki, bu şirkətin Azərbaycana sərmayə qoyması çox təqdiredici bir haldır. Bu, bir daha onu göstərir ki, Azərbaycan xarici sərmayə üçün çox cəlbedici ölkədir, açıq ölkədir. Azərbaycanda çox gözəl investisiya iqlimi vardır və eyni zamanda, Azərbaycan xarici tərəfdaşlar qarşısında üzərinə düşən bütün öhdəliklərini yerinə yetirir. Xarici sərmayənin Azərbaycana böyük həcmdə qeyri-neft sektoruna qoyulması bizim əsas prioritetlərimizdən biridir" ( https://president).

2021-ci ildə 230 meqavat gücündə Qaradağ Günəş Elektrik Stansiyasına 225 milyon dollar investisiya qoyulduqdan sonra Masdarın Qarabağın yaşıl enerji potensialının inkişaf etdirilməsində iştirakı Azərbaycanın ümumi enerji siyasəti üçün mühüm inkişafdır.

Azərbaycan Respublikası ərazilərinin Ermənistan silahlı qüvvələrinin işğalı nəticəsində itki və tələfatların qiymətləndirilməsi üzrə İşçi Qrupunun indiyə qədər apardığı hesablamalara əsasən, bu işğal

nəticəsində əhaliyə 147,8 milyard, dövlətə isə 126,46 milyard dollar ziyan dəyib. Təbii sərvətlərə, maddi irsə və digər sahələrə dəyən ziyan da əlavə edilərsə, Ermənistanın Azərbaycan torpaqlarını işğalı nəticəsində ölkəmizə ümumilikdə 818,88 milyard dollar ziyan vurulub. İşçi qrup dəymiş ziyanın hesablanması istiqamətində işi davam etdirir (https://baku.ws).

**Nəticə**

Marşal Planının nəticəsi olaraq bütün Avropada investisiya tələb edən sənaye sahələri qısa müddətdə yenidən quruldu. Amerika aktivlərinin payı kifayət qədər yüksək olduğundan, bu, ölkələrin milli iqtisadi siyasətlərinin dəyişməsinə səbəb oldu və həm iqtisadi, həm də siyasi qloballaşmanın inkişafı üçün ilkin şərtlər yaratdı. Avropa iqtisadiyyatları müharibənin təsirindən gözlənildiyindən daha tez - cəmi 20 il ərzində tam bərpa olsa da, siyasi və iqtisadi cəhətdən ABŞ-ın təsirinə düşdü. Sovet İttifaqi bu təsirdən müharibənin vurduğu ziyanın kompensasiya edilməsi, çətin şəraitdə yaşasalar da kommunist rejiminin "uğurlu" təbliğatı nəticəsində "canı" hesabına qurtula bildi. İqtisadiyyatı zəif inkişaf etsə belə, siyasi cəhətdən öz bütövlüyünü qoruyub saxlaya bildi.

Azərbaycan torpaqları 30 il erməni işğalçılarının təsiri altında qaldı və bu işğal nəticəsində əhaliyə 147,8 milyard, dövlətə isə 126,46 milyard dollar ziyanın dıydiyi müəyyənləşdirildi. Təbii sərvətlərə, maddi irsə və digər sahələrə dəyən ziyan da əlavə edilərsə, Ermənistanın Azərbaycan torpaqlarını işğalı nəticəsində ölkəmizə ümumilikdə 818,88 milyard dollar ziyan vurulub. Qarabağa vurulan zərərə görə Ermənistan hökumətindən təzminat ödənilməsi tələbi prioritet olmalı, alınmış təzminat bütünlüklə Qarabağın bərpasına yönəldilməlidir.

Azərbaycanın 2022-ci il yanvarın 1-i vəziyyətinə Azərbaycanın xarici dövlət borcu 8 milyard 135,7 milyon ABŞ dolları (13 milyard 830,7 milyon manat) və ya 2021-ci il üzrə Ümumi Daxili Məhsulun (ÜDM) 14,9 %-ini təşkil edib. Xarici borcun olmasına baxmayaraq bu gün Azərbaycan hökuməti sərfəli şərtlətlə dünyanın donor banklarından kreditlər almağı planlaşdırır. Lakin bu günə kimi hələ hec bir dövlətdən yardım, yaxud kredit alınmamış, görülən işlər daxili maliyyə mənbələri hesabına edilmişdir.

Bu gün Türkiyənin Azərbaycanın işğaldan azad olunmuş ərazilərində 30 şirkəti fəaliyyət göstərir. Bundan əlavə İtaliya, İzrail və Çin dövlətləri ilə danışıqlar aparılmaqdadır. Marşal Planına bənzər təşkilatlar və onların yardımları milli və regional sabitliyə töhfə verə bilər. Yardımlar iqtisadi və siyasi sahəyə əhəmiyyətli təsir göstərdiyindən bunun mənfi təsirlərindən maksimum yayınmaq, gələcək nəsilləri borclarla "yükləməmək" daim dövlətin diqqət mərkəzində olmalıdır.

İlkin mərhələdə, kiçik və orta biznes səviyyəsində ediləcək sərmayələr növbəti mərhələdə böyük həcmli investisiyalar üçün xüsusi təşviq rolunu oynamalı, investisiyaların cəlb edilməsindən öncə region üzrə prioritet yatırım planı və sahələri çərçivəsində xüsusi strategiyaların hazırlanması həyata keçirilməlidir. Belə ki, regionun potensial resursları yenidən araşdırılmalı, rayonların mövcud istehsal faktorları diqqətə alınmalı, investisiyalar üçün dövlət və özəl qurumlar tərəfindən təkliflər paketi formalaşdırılmalı və investorlara təqdim olunmalıdır.

## ƏDƏBİYYAT


1. Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti Odil Reno-Bassonu və bankın rəhbərliyinin digər nümayəndələrinin videoformatda görüşü. president.az
2. De Long & Eichengreen, The Marshall Plan: History's Most Successful Structural Adjustment Program, 1991
3. Erhan, Ç. Ortaya Çıkışı ve Uygulanışıyla Marshall Planı, Ankara Üniversitesi Siyasal Bilgiler Fakültesi Dergisi, (1996)
4. Frankenfeld, Peter (2012). "A Marshall Plan for Greece? The European Union and the Financial Crisis in Greece. .Prace i Materiały Instytutu Handlu Zagranicznego Uniwersytetu Gdańskiego (31/1): 69. ISSN 2300-
5. İlham Əliyev "Qaradağ Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimində" cıxışı, https://president.az/az/articles/view/55623İlham
6. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans formatında keçirilən qeyri-formal Zirvə görüşü, https://ikisahil.az/post/208308-muharibe-basha-chatdi-munaqishe-tarixde-qaldi
7. Zwass, Adam The Council for Mutual Economic Assistance: the thorny path from political to economic integration. M.E. Sharpe., (1989).
8. https://www.statista.com/statistics/524305/industria
9. https://baku.ws/politics/4112

10. https://sputnik.az/20220715/qarabagi-zengezuru-oz-vesaitimiz-hesabina-yeniden-qururuq---prezident-444048601.html
11. https://azertag.az/xeber/Qarabaga
12. https://president.az/az/articles/view/55623
13. https://baku.ws/politics/4112
14. (https://www.britannica.com/event/Marshall-Plan
15. https://history.state.gov/milestones/1945-1952/marshall-plan

# AZƏRBAYCAN NEFTİNİN MÜXTƏLİF İSTİQAMƏTDƏ İXRAC EDİLMƏSİNİN MÜHÜM XƏTTİ

**Gülşən XALIQOVA**[59]

**Xülasə**

Bakı – Tibilisi - Ceyhan boru kəmərinin müəyyənləşdirən Ankara "Bəyannaməsi" dünyaya bəyan etdi ki, Azərbaycan neftinin müxtəlif istiqamətdə ixrac edilməsinin mühüm xəttinin təməli qoyulur "Tikintisi 2,4 milyard dollar qiymətləndirilən Bakı-Tibilisi-Ceyhan boru xətti ölkənin bölgədə neft hasilatının artması beynəlxalq iqtisadi əməkdaşlığın inkişafını, enerji resurslarının dünya bazarlarına nəqlinin təmin edilməsi demək idi.. Xəzər dəniz hövzəsində böyük həcmli enerji layihələrinin reallaşması yalnız Azərbaycanın deyil, Güney Qafqaz bölgəsinin, ümumilikdə Avrasiya dünyasının enerji təhlükəsizliyinə müsbət təsir etmiş, neft-qaz nəqli sahəsində səmərəli beynəlxalq əməkdaşlıq münasibətlərinin yaradılmasına geniş imkanlar açmışdır.

Ümumiyyətlə, Azərbaycanın həyata keçirdiyi enerji siyasəti nəticəsində aparıcı mövqeyə sahib olan TANAP, TAP və "Şahdəniz-2" enerji layihələrinin əsasının qoyulması Azərbaycan və Türkiyənin sosial-mədəni inteqrasiyasını gücləndirməklə bərabər, Azərbaycanın Avropa ölkələri arasında nüfuzunun artmasına və Avropa İttifaqına inteqrasiya prosesinin sürətlənməsinə mühüm zəmin yaradır. Beynəlxaq elkspertlər dəfələrlə qeyd etmişlər ki, Xəzər regionunda aparıcı enerji şirkətləri ilə yüksək səviyyəli əməkdaşlıq münasibətləri aparan ölkə Azərbaycandır və Qərb ölkələrinin enerji daşıyıcılarının istismar edilməsində Azərbaycanla əməkdaşlıq olduqca önəmlidir.

***Açar sözlər**: BTC, TAP, TANAP, ARDNŞ, enerji bazarları.*

**An Important Line For The Export Of Azerbaijani Oil In Various Directions.**

**Summary**

The Ankara "Declaration" defining the Baku-Tbilisi-Ceyhan pipeline clearly declared to the world that the foundation of an important line for the export of Azerbaijani oil in various directions is being laid. the realization of large-scale energy projects in the Caspian Sea basin had a positive effect on the energy security not only of Azerbaijan, but also of the South Caucasus region and the Eurasian world in general, and opened wide opportunities for the creation of effective international cooperation relations in the field of oil and gas transportation.

n general, the foundation of TANAP, TAP and "Shah Deniz-2" energy projects, which have a leading position as a result of Azerbaijan's energy policy, strengthens the socio-cultural integration of Azerbaijan and Turkey, and creates an important basis for increasing Azerbaijan's reputation among European countries and accelerating the process of integration into the European Union. . International experts have repeatedly noted that Azerbaijan is a country that maintains high-level cooperative relations with leading energy companies in the Caspian region, and cooperation with Azerbaijan is very important in exploiting the energy carriers of Western countries.

***Key words**: important pipeline, different direction, foreign companies, international energy markets.*

*UOT(JEL):33, 339.5, 553.9*

## Giriş

90-cı illərin əvvəllərində regionda baş verən geosiyasi proseslər gündəmdə olan iqtisadi əhəmiyyətli enerji layihələrinin reallaşmasına ciddi problemlər törədirdi. Belə bir mürəkkəb geosiyasi vəziyyətdə Azərbaycan hökumətinin mövqeyinin və siyasi iradəsinin əhəmiyyəti böyük idi. Ümummilli lider Heydər Əliyev müdrik siyasəti ilə neft ixracının çoxşaxəlik variantları üzərində dayanaraq boru kəmərlərinin marşurut istiqamətlərində yeni reallıqlara zəmin yaratdı. [1, 168]

Bakı - Tbilisi - Ceyhan neft marşurutunun çəkilməsi haqqında ilkin fikirlərin meydana gəlməsi Azərbaycan neftinin müxtəlif istiqamətdə ixrac edilməsi istəyindən doğmuşdu. Bu enerji layihəsində təmsil olunan dövlətlərin böyük əksəriyyəti bu məsələdə Azərbaycana öz dəstəklərini ifadə etmişlər. Belə ki, Xəzər dənizinin enerji qaynaqlarının istismar edilməsinin həyata keçirilməsində Azərbaycan nə qədər maraqlı tərəf idisə, layihələrdə iştirak payına sahib olan dövlətlər də bir o qədər maraqlı idi

1998 - ci il 29 oktyabr tarixində Türkiyə prezidenti Süleyman Dəmirəl, Azərbaycanın dövlət başçısı Heydər Əliyev, Gürcüstan Prezidenti Eduard Şevardnadze, Qazaxıstanın dövlət başçısı Nursultan Nazarbayev, Tacikistan Prezidenti İslam Kərimov, həmçinin ABŞ - ın Energetika Naziri Riçardson Xəzər

[59] **Azərbaycan Dövlət Pedaqoji Universiteti, xaliqova.gulshen@mail.ru**

dənizinin karbohidrogen ehtiyatlarının beynəlxalq enerji bazarlarına nəql edilməsi üçün Bakı – Tbilisi - Ceyhan boru kəmərinin müəyyənləşdirilməsini təsbit edilməsini nəzərdə tutan Ankara "Bəyannaməsi"ni imzaladılar. Bu "Bəyannamə" ilə iştirakçı dövlətlər və şirkətlər Bakı – Tbilisi - Ceyhan neft boru xəttini çəkmək istəklərini açıq şəkildə dünyaya bəyan etmiş oldular

Xüsusilə vurğulamaq lazımdır ki, bu tarixi sənədin imzalanması ilə bir tərəfdən BTC enerji magistral layihəsinin reallaşmasının hüquqi əsasları təşkil edildi, digər tərəfdən isə bölgədə yeni geosiyasi və geoiqtisadi reallıqlar yaranmağa başladı. [2,704]

Bakı-Tbilisi-Ceyhan neft boru xəttinin tikintisinin iştirakçıları "BP [30%], ARDNŞ [25%], UNOCAL [8,9%], Statoil [8,7%], TKAO [6,5%], EN [5%], , İtochu [13,4%], Conocofilliphs [2,5%], İnpex [2,5%], Total [5%], Amerikada Hess [2,36%], payla layihədə iştirak edirdilər

Regionun geosiyasi vəziyyətində yeni bir mərhələ olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan enerji layihəsinin, 2005-ci ilin 25 may tarixində Azərbaycan hissəsi 12 oktyabr 2005-ci ildə isə ixrac boru kəmərinin Gürcüstana aid olan hissəsi istifadəyə verildi. 2006-cı ilin may ayının 28 – də isə Azərbaycan nefti Türkiyənin Ceyhan terminalına çatdırıldı [3]

BTC boru xəttinin ststistik göstəricilərinə görə, "1768 km. uzunluğa malik olan Bakı – Tbilisi - Ceyhan boru xətti başlanğıcını Bakının Səngəçal limanından götürərək Gürcüstanın paytaxtı Tbilisi üzərindən keçərək Türkiyəyə hüdudlarına daxil olur. Boru kəmərinin 443 km – lik hissəsi Azərbaycan, 249 km - i Gürcüstan, və 1076 km - isə Türkiyə ərazisindən keçməklə Ərdəhan, Ərzurum, Sivas, Kayseri, Osmaniyə və Adana üzərindən Ceyhanda inşa edilmiş neft terminala bağlanır"

Təməlini Ulu Heydər Əliyevin qoyduğu Azərbaycanda yeni neft strategiyasının uğurla həyata keçirilməsi nəticəsində, xarici şirkətlər tərəfindən ölkəmizin neft sənayesinə böyük həcimdə sərmayə qoyulmuş neft əməliyyatlarında müasir texnika və texnologiyanın tətbiqi nəticəsində isə 1999-cu ildə nəhəng "Şahdəniz" qaz -kondensat yatağı kəşf edilmişdir. Bunun nəticəsində XXI əsrdə ölkəmiz "Neft səltənəti " olmaqla yanaşı, qaz ixrac edən öıkə status da əldə etmişdir. [4]

Azərbaycanın neft strategiyasının tərkib hissəsi olan təbii qaz ixrac siyasətinin uğurla həyata keçirilməsi və bu istiqamətdə konkret strateji məqsədlər istiqamətində addımlar atması, Avropa İttifaqı ilə münasibətlərində müsbət dinamika yaratmış və Azərbaycanın təkcə strateji baxımdan deyil, enerji ehtiyyatlarının mənbəyi və nəqli mərkəzi kimi Avropa qarşısında cəlbediciliyini ön plana çıxarmışdır. Bu baxımdan Azərbaycan bölgədə beynəlxalq enerji bazarlarına (Türkiyə, Rusiya, Gürcüstan) qaz ixrac edən yeganə ölkədir. Azərbaycanın Aİ tərəfindən Cənub qaz dəhlizinin "təchizatçısı və iştirakçısı" olaraq qəbul edilməkdədir. Məlumdur ki, Azərbaycanın enerji ehtiyyatlarının Avropa bazarına çıxarılması ilə bağlı məsələlər öz müsbət həllini tapdıqdan və 2006-cı ildən etibarən Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri istifadəyə verildikdən sonra Azərbaycan qazının Avropa qitəsinə çatdırılması ciddi müzakirə mövzusuna çevrilmişdi. [5, 426]

Azərbaycan qazının Avropa bazarlarına çatdırılmasında və ölkəmizin enerji xətlərinin şaxələndirilməsi və nəqli siyasətinin tərkib hissəsi olaraq Trans Adriatik Boru xəttinin əhəmiyyəti böyükdür.

TANAP boru xəttinin davamı olaraq Azərbaycan qazının Avropaya çatdırılmasında TAP qaz boru xəttinin böyük rolu vardır. Trans Adriatik Boru Xətti (TAP) adlanan bu kəmər Türkiyə - Yunanıstan sərhəddində TANAP boru xətti ilə birləşərək Yunanıstan və Albaniya ərazilərindən keçməklə Adriatik dənizi üzərindən təbii qazı İtaliyaya çatdıracaqdır. Azərbaycan qazının Avropanın enerji bazarlarına birbaşa nəqlini həyata keçirdiyi üçün TAP boru xəttinin AB-nin enerji təhlükəsizliyi və enerji mənbələrinin şaxələndirilməsi siyasətində əsas rol oynayacağı şübhəsizdir. [5]

XXI əsrin əvvəllərində Azərbaycanın enerji nəqlinin genişlənməsi ümumilikdə ölkənin ixracının və xarıcı ticarət dövriyyəsinin yüksələn dinamika ilə artmasına səbəb olmuşdur.

Məlumdur ki, Azərbaycanın sosial-iqtisadi həyatının dinamik inkişafında, böyük iqtisadi layihələrin həyata keçirilməsində enerji sazişləri nəticəsində əldə olunan gəlirlərin böyük əhəmiyyəti vardır. Bu gəlirlər nəticəsində ölkəmiz bir tərəfdən özünün iqtisadi yüksəlişini təmin edir, digər tərəfdən isə siyasi sabitliyin təmin edərək bölgədə geosiyasi dvidentlər qazanır. [6]

Azərbaycan Güney Qafqazın yeganə dövlətidir ki, zəngin enerji qaynaqlarına, inkişaf etmiş energetika sisteminə və müasir avadanlıqlarla təmin edilmiş enerji infrastrukturuna malikdir. Ölkəmizin bir tərəfdən regional səviyyədə aparıcı dövlətə çevrilməsi, digər tərəfdən beynəlxalq enerji sistemində həlledici rola malik olması, həmçinin Avropa qitəsinin enerji təhlükəsizliyi sistemində oynadığı rol, onun bölgədə

və beynəlxalq aləmdə geosiyasi və iqtisadi mövqeyinin güclənməsinə əhəmiyyətli dərəcədə təsir etməkdədir. Azərbaycanın enerji ehtiyatları eyni zamanda iqtisadiyyatın müxtəlif sektorlarının davamlı inkişafının, ümumi daxili məhsulunun, maliyyə - iqtisadi göstəricilərinin formalaşmasında əsas rola malikdir. Bu baxımdan mövcud və perspektiv vəd edən təbii enerji ehtiyatlardan səmərəli şəkildə istifadə edilməsi siyasəti ölkəmizin davamlı iqtisadi inkişafının və iqtisadi təhlükəsizliyinin əsas təminatlarından birini yaradır [7]

Azərbaycan Respublikasının enerji təhlükəsizliyi siyasətinin hüquqi və iqtisadi təməlləri özünü "Əsrin müqaviləsi" ilə başlanan yeni neft strategiyasında tapmışdır.

Xüsusilə vurğulamaq lazımdır ki, Xəzər dənizində Azərbaycana aid olan zəngin enerji ehtiyatlarının çoxşaxəli ixrac boru xətləri ilə beynəlxalq arenaya çıxarılması ölkəmizin enerji təhlükəsizliyi sisteminə dəstəyi artırmış, beynəlxalq enerji sferasında rolunu daha da yüksəltmişdir. Bakı – Tbilisi - Ceyhan neft bou xətti və Bakı - Tbilisi - Ərzurum qaz kəməri, həmçinin TANAP, TAP qaz boru kəməri marşrutları beynəlxalq aləmlə ölkəmiz arasında müxtəlif sahələrdə strateji əməkdaşlıq münasibətlərinin yaranmasına və iqtisadi cəhətdən inkişaf etməsinə ciddi təkan vermişdir. Xəzər dənizi hövzəsində qlobal xarakterli neft-qaz layihələrinin həyata keçirilməsi Azərbaycanla yanaşı, Güney Qafqaz bölgəsinin, ümumilikdə Avrasiya dünyasının enerji təhlükəsizliyi sisteminə müsbət təsir göstərmiş, bütövlükdə enerji nəqli sahəsində səmərəli beynəlxalq əməkdaşlıq münasibətlərinin yaradılmasına geniş imkanlar açmışdır. [8]

**Nəticə**

Azərbaycanın həyata keçirdiyi uğurlu enerji ixracı siyasəti, bölgəyə istər region ölkələrinin, istərsə də beynəlxalq müstəvidə marağı artırmışdır. Ölkəmizin çoxşaxəli enerji ixracı siyasəti Cənubi Qafqaz regionunda yeni geoiqtisadi maraqlar yaratmış, böyük siyasi və iqtisadi güclərin bölgədə fəallaşmasına səbəb olmuşdur.

Geosiyasi baxımdan Rusiya ilə əlaqələrin qurulması və bu əlaqələrin formalaşması şimaldan Rusiya ilə qonşu olan Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edir. Həmçinin Rusiyanın Azərbaycan üçün əhəmiyyəti eyni coğrafi müstəvidə yerləşməsi, yüz illər boyu ortaq tarixi keçmişə malik olması ilə xarakterizə olunur.

## ƏDƏBİYYAT


1. Алиев Н.А. ОЭТ Баку-Тбилиси-Джейхан: от видения к реальности. Баку: Азербайджан, 2001. – 168 с.
2. Султанов Ч.А. Нефтегазовые стратегии и политика в XXI веке. Баку: Нурлан, 2008 – 704 с.
3. Vəliyev D. Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası. Bakı: Adiloğlu, 2008, - 426 s.
4. Həsənov Ə. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları. Bakı, "Zərdabi LTD", 2016, 700 s. s.133].
5. Azərbaycan sənayesi -2001. Statistik məcmüə. Bakı, DSK, 2002.
6. Respublika qəzeti №118( 856 ) 28 may 2000-ci il s.1.
7. Respublika qəzeti 13 iyul 2006-cı il № 153 (2698) s.1,5,7.
8. Xalq qəzeti № 269 (22665)26 noyabr 1997-ci il. S.1.
9. Azərbaycan qəzeti № 54 (2767 ) 8 mart 2001-ci il s.1.
10. Зерколо № 127 ( 3571 ) 16 июль 2011- стр. 16.

# YAXIN VƏ ORTA ŞƏRQİN GEOSTRATEJİ VƏ GEOİQTİSADİ ÖNƏMİ

**Doktorant Leyla NAĞIYEVA**[60]

**Xülasə**

Müasir dövrdə Yaxın Şərqin geosiyasətində əsas diqqət bu əsrin əvvəllərindən region dövlətlərinin bir-biri ilə və bütün dünya ilə münasibətlərinin təsviri və təhlilinə verilir. Bu təsvir onlara təsir edən siyasi, coğrafi, iqtisadi, demoqrafik və mədəni amilləri nəzərə alır. Geostrategiya termini də geosiyasiyə yaxın mənada işlədilir.

Yaxın Şərq Avropa, Asiya və Afrika arasında mərkəzi mövqe tutur. Ərəbistan yarımadası onun dəqiq müəyyən edilmiş sərhədləri olan coğrafi mərkəzi olmaqla yanaşı, həm də regionun və dünyanın tarixini, mədəniyyətini və geosiyasətini dərindən qeyd edən ərəb xalqının və İslamın beşiyidir. Qədim dövrlərdən Yaxın Şərqdən quru və dəniz yolları keçib, Avropa ilə Asiya arasında ticarət yolları keçib; Bu strateji vəziyyəti hazırda iqtisadiyyatın qloballaşması nəticəsində dəniz ticarətinin artması daha da təsdiq edir. Onun fövqəladə karbohidrogen sərvəti də 20-ci əsrin ortalarından bəri Yaxın Şərqi dünyanın bütün əsas iqtisadiyyatları üçün ən mühüm strateji məsələyə çevirmişdir.

2022-2026 yılları arasında Azerbaycan ekonomisinin yıllık ortalama yüzde 34, ülkenin petrol ve gaz dışı sektörünün GSYİH'sinin yıllık ortalama yüzde 5 ve özel sektörün ekonomideki payının artması bekleniyor. yüzde 88'e çıkması bekleniyor.

## 2.Kurtarılmış Alanların Doğal Kaynakları

Dağlık Karabağ bölgesi ve ona bitişik bir dizi bölge, Azerbaycan'ın zengin doğal kaynaklarına sahiptir ve geliştirilmektedir. Bu, Azerbaycan'ın ekonomisini güçlendirmesine ve halkının refahını iyileştirmesine yardımcı olacaktır. İşgal sonucunda 647.9 bin hektar tarım arazisi tahrip olmuştur [57]. Bu toprakların çoğu, çeşitli tarım ürünleri yetiştirmek için idealdir. Savaştan önce 199.000 hektar arazi tarıma elverişliydi.[4] Toplamda 1,7 milyon hektar arazi işgal edildi. Halihazırda bu devasa alan Azerbaycan tarımı için inşa edilebilir ve mahsul ekiminden işleme, ticaret ve bahçecilik üretimine kadar tüm üretim zinciri yeniden inşa edilebilir. Azerbaycan'ın ülke içinde yerinden edilmiş insanlar için evlerine döndükten sonra yeni işler anlamına geliyor **.** Örneğin Sovyet döneminde Cebrayil ve Fuzuli yörelerinde yerel halk bağcılık, hayvancılık, yem, ipekçilik, sebze ve meyvecilikle uğraşmaktaydı. Unutulmamalıdır ki, işgal sırasında Ermenistan, tarım ve ekonomik potansiyeli olan alanlarımızı yasadışı olarak kullandı. Aralık 2020'de Azerbaycan Cumhuriyeti Cumhurbaşkanı İlham Aliyev yaptığı konuşmada Ermenistan'ın Ağdam'ın Fuzuli, Cebrail ve Zengilan ilçelerinde yüzlerce hektarlık arazide buğday yetiştirdiğini duyurdu. Ermenistan, daha önce işgal edilen topraklarda 12 ayda 90.000 tona kadar buğday topluyor, Ermenistan'da sadece biraz daha fazla buğday üretiliyor, 12 ayda sadece 100.000 ton.Ayrıca birçok bağın zarar görmesine rağmen üzüm yetiştiriciliğine devam edildi. önceden işgal edilmiş bölgelerin bazı bölgelerinde [5].

Ek olarak, Küçük Kafkas sıradağlarının işgal altındaki bölgesi, 13-14.197 hektarlık değerli ormanlar dahil olmak üzere yaklaşık 246.7 yüz hektar geniş ormanlık alana sahiptir. Bu faktör Azerbaycan için inanılmaz derecede önemlidir, çünkü ülke topraklarının sadece %12'si ormanlarla kaplıdır. Zengilan ve Laçın (sırasıyla Basitchay ve Laçın) işgalden arındırılmış bölgelerin topraklarındaki kutsal alanları keşfedeceksiniz. Basitçay rezervimizde (Azerbaycan'ın Mor Kitabında listelenmiştir) 500 yıldan eski birkaç ağaçtan oluşan bir çınar ormanı bulunmaktadır. Ne yazık ki Ermenistan, mobilya üretimi için asırlık ağaçları yok etti ve büyük bir kesim işlemi gerçekleştirdi. Ayrıca , kurtarılmış topraklar minerallerle doludur. 155 maden yatağı büyük önem taşımaktadır. Maden yatakları beş altın yatağını içermektedir (işgal öncesi tahminlere göre bu yatakların tamamında 132 ton altın bulunmaktadır). Zod-Soyudlu, Azerbaycan'ın Ermenistan sınırına yakın, Kelbecer ilçesinde önemli bir altın yatağıdır (%74 ve 219 hektarlık tarlalar

Ermeni tarafında, %26'sı Ermeni sınırının içindedir).[9] Kelbecer bölgesindeki Zod Soyudlu sahasındaki toplam ticari rezerv seviyesinin 112 ton olduğu tahmin ediliyor. Ayrıca, mayınlı yataktan minimum cevher ekstraksiyonunun gram başına 0,8 ton olduğu tahmin edilmektedir. Ayrıca, Kelbecer bölgesi iade edilmeden önce Ermeni işgalcilerin çeşitli yabancı şirketlerle altın kaynaklarımızla ilgili yasadışı sözleşmeler imzaladığını ve ülkemiz kaynaklarına tecavüz ederek yasadışı bir finans kaynağı elde ettiğini de göz önünde bulundurmak gerekir. Rusya'nın GeoPro Mining Limited şirketinin bir yan kuruluşu olan GPMGold, cevher madenciliği veya ihracatı ile uğraşmaktadır. 2007'den beri, Kanada'nın First Dynasty Madenleri, Soyudlu'da yasa dışı olarak benzer faaliyetler yürütüyor. Ermeni Ararat Sarı Metal Geri Kazanım Şirketi'nde %50 hisse, böylece hisse bloğu %100'e ulaştı. GPMGold'un bu yatırımdan elde ettiği toplam nadir metal üretimi 145.000 ons oldu.[6] Ermeniler, servetlerinin 13 tondan fazla olduğu Kelbecer bölgesinde bulunan Ağduzdağ ve Tuthun'daki altın birikiminden de yararlandı. Ayrıca kurtarılmış bölgelerde çok miktarda cıva yatağı var. Burada Bakır (1.000 ton), kurşun (40.000 ton) ve çinko. Geçmiş yılların hesaplamalarına göre sadece Kelbecer ilçesindeki Ağyataq, Levçay ve Çorbulak'taki mevcut cıva yataklarının tam toplam oranları 850 ton idi. Gamişli ve Ağak'tan 200 tondan fazla yük var. Laçın bölgesinde Çılgazçay ve Narzanlı'da büyük cıva rezervleri bulunmaktadır. Ermeniler bu kaynakların birçoğunu yasadışı olarak kullandılar. Azerbaycan hükümetinin Ermenistan'dan tazminat talepleri için uluslararası mahkemelere sunabileceği toplam kullanım ve zararları hesaplamaya uluslararası denetim şirketlerini davet etmek için uygun çalışmalar yapılıyor.

| İşgalden kurtarılan bölgelerin adı | Minerallerin sınıflandırılması |
|---|---|
| Ağdam | Kil, kum, çakıl, testere taşı, kesme taşı ve ham çimento |
| Ağdara | Kurşun, çinko, bakır, testere taşı, altın, kurşun, kil ve alçı |
| Kelbecer | Yapı taşları, kesme taşlar, renkli taşlar (obsidiyen, listvenit, pefritoid, oniks), altın, cıva, testere taşı, kil, perlit, kum ve çakıl |
| Laçin | Kil, kumtaşı, pomza, vermikülit, volkanik kül, akik, yeşim, cıva, testere taşı, kesme taşı, yapı taşı, |
| Cebrail | Kil, kum, yapı taşı, çimento, kil sıva, anhidrit, pomza, volkanik kül ve renkli taşlar (yeşim, kalsedon) |
| Fuzuli | Kum, çakıl, kil ve testere taşı |
| Aranan | Gümüş, altın, kum, çakıl, kil, yapı taşı, kalker ve kesme taşı |
| Kubadlı | Kil, renkli taş, yapı taşı, kaplama taşı ve testere taşı |
| Hocalı | Yüzey taşı, kum, çakıl ve kil |
| Şuşa | Kil, kaplama ve yapı taşı |
| Hocavend | Bina ve cephe taşı |

**Cədvəl 1. Karabağ ve Doğu Zengezur ekonomik bölgelerindeki maden kaynakları**

**Mənbə: https://interfax.az/print/817974/ru**

Azerbaycan'ın kurtarılmış topraklarında inşaat malzemesi yatakları var. Örneğin, Cebrail ilçesinde urbisitlere maruz kalan inşaat malzemeleri rezervi var ve rezervlerinin 2.296 milyon olduğu tahmin ediliyor $m^3$. Toulouse sahasında küp taş rezervleri mevcuttur. Garajali'de 4.672 milyon kil $m^3$ve Gayarchyn-Veysalli'de 6.644 $m^3$milyon kil ile en az dört çimento hammadde rezervi bulunmaktadır.[7] Cebrail bölgesinde kum, çakıl, alçı ve diğer inşaat malzemelerinin bulunabileceği belirtilmelidir. Bütün bunlar, işgalden kurtarılan bölgelerin tamamen restorasyonu döneminde özellikle önemlidir. Yapı malzemelerinin imar projelerinde yaygın olarak kullanılması bölgede üretilen yapı malzemelerinin maliyetini düşürecek ve ihraç edilebilecektir. Sanayilerin ve yeni işlerin yaratılması için gerekli yapı malzemeleri kaynaklarının çıkarılması, kurtarılmış bölgelerin ekonomik potansiyelini ortaya koymaktadır.Yerel yapı malzemelerinin kullanılmasının, kurtarılmış topraklarımızın eşsiz mimari tarzının yeniden inşasına izin vereceği dikkate alınmalıdır. Ermenistan, kuvvetlerini Hocalı ve diğer yakın bölgelerdeki Hankendi'nden çekecek ve bu yerlerde üç renkli ulusal bayrak dalgalanacak. Bu şehirlere barış geldiğinde, ANAS Bölgesel Bilim Merkezi

faaliyetlerine yeniden başlayabilecek. Sanayi firmalarının bilim ve eğitim kurumlarının kaynaklarını tam olarak kullanabilmek için Hankendi'de modern bir sanayi parkının geliştirilmesi gerekmektedir.

Yürütülen sistem analizine dayanarak, işgal altındaki topraklarda yeni, modern ticari kuruluşların oluşturulmasıyla aşağıdaki örgütsel, teknolojik ve sosyo-ekonomik faydaların kolaylaştırılacağına inanıyorum:

- ❖ Uzun vadeli rekabet gücü bağlamında konular ve ortak çıkarlar üzerinde işbirliği;
- ❖ Özel yenilikçi girişimlerin ortak uygulaması;
- ❖ Mülkün doğru kullanımı;
- ❖ Belediyelerin bu alanlara, üretime ve hizmetlere daha fazla katılımı;
- ❖ Yeni araçların, teknolojilerin ve BİT'in asimilasyonunu kolaylaştıracak koşulların yaratılması;
- ❖ Yenilik yönetimi yöntemlerinin geniş uygulaması;
- ❖ Üretim, enerji ve nakliye maliyetlerinin azaltılması;
- ❖ Ekonomi, üretim yöntemi ve lojistik ilkesinin uygulanması;
- ❖ Finansal fırsatların ve ihracat kapasitesinin artırılması;
- ❖ Tarım teknolojileri, sıhhi hizmetler ve bitki sağlığı hizmetlerinin tek bir alanda uygulanması;
- ❖ Ürün üretimi, işlenmesi ve satışının nihai sonucunu dikkate alarak işgücünü harekete geçirmek;

Uluslararası ve ortak girişimlerin, bölgesel iş birliklerinin, finansal ve endüstriyel grupların, bölgesel kümelenmelerin, iş kuluçka merkezlerinin, yeni başlayanların ve diğerlerinin yanı sıra kadın girişimciliğinin geliştirilmesi, çok çeşitli markalı ürünlerin üretimini artırma fırsatları ve sivil toplum kuruluşlarının oluşturulması bölgelerde ticaret alışverişi yapılabilir.

Açıkçası, yeni ekonomik bölgelerin alanlarının ekonomik potansiyeline ulaşmak için sürdürülebilir ulaşım altyapısı gereklidir. Sonuç olarak, meslek sonrası rehabilitasyon programının temel hedeflerinden biri entegre bir ulaşım altyapısı oluşturmaktır. Karabağ Fuzuli Uluslararası Havalimanı'nın ilk hava durumu tamamlandı ve test uçuşları yapıldı. Bu havaalanından ayrıl. Şerit 3000 metre uzunluğunda ve 60 metre genişliğindedir. Ayrıca Zengilan ve Laçın bölgelerinde iki yeni uluslararası havalimanının temeli atıldı. Bu havalimanlarına ek olarak, yerel araç ve tren ağının rehabilitasyonu ve genişletilmesine başlandı ve şu anda birçok karayolu hizmete açıldı.

Büyük finans kurumlarının tahminlerine göre, işgalden kurtarılan toprakların restorasyonu, özellikle 2020-2021 yıllarında Azerbaycan'ın ekonomik büyümesi üzerinde önemli bir etkiye sahiptir. İşgalden kurtarılan topraklarda tarımı geliştirmek için önemli çalışmalar yapılıyor. Bu bölgeler tatlı su kaynaklarımızın %20'sini içermektedir. Savaştan önce bu bölgelerde tahılın yüzde 14,3'ü, pamuğun yüzde 3,3'ü, üzümün yüzde 31,5'i, patatesin yüzde 6,3'ü, sığır etinin yüzde 14,5'i, sütün yüzde 17,1'i, yumurtanın yüzde 3,6'sı ve yününün yüzde 19'u üretiliyordu. %3 [8]. "Akıllı Köy" kavramının, arazinin stratejik kullanımı ve elde edilen ürünlerin işlenmesi için gerekli altyapının geliştirilmesini de içermesi tesadüf değildir. Örnek olarak, Azerbaycan Cumhuriyeti Cumhurbaşkanı İlham Aliyev ve Ulu Önder'in değerli takipçisi First Lady Mehriban Aliyeva tarafından "Akıllı Köy" projesinin 27 Mayıs 2022'de Zengilan ilçesine bağlı Ağali köyünde açılışı , modern ileri teknolojilere dayalı projenin temeli olarak gösterilebilir. Bana bu bölgelere dönme ve memleketim Şuşam'ı inceleme, kurtarılan bölgelerin ekonomik güvenlik üzerindeki etkisini belirleme ve ampirik araştırmalar yapmak için elimizden gelenin en iyisini yapma fırsatı verdiği için Başkomutan'a ve ordumuza minnettarım. Biz muzaffer bir ulusun vatandaşlarıyız. Her Azerbaycanlı bu önemli zaferi görmekten mutludur. Artık Karabağ hakkında çok şey konuşabiliriz. "Zafer her zaman Azerbaycan'a nasip olsun!", "Karabağ Azerbaycan'dır!" diye büyük bir sevinçle ilan ediyorum.

## Referans listesi


1. İşğaldan azad edilmiş rayonların iqtisadi potensialı və inkişaf perspektivləri.Xalq qəzeti. 09.12.2020.
2. Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın milli prioritetləri" Bakı "Azərbaycan" qəzeti, 2022-ci il.
3. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycanın regionları. Statistik məcmuə. Bakı. 2020. 828 s.
4. Azərbaycan Milli İqtisadiyyatı Perspektivinin Strateji Yol Xəritəsi Respublika. Bakı, 2016.125 s.
5. Preslib.az, Armyano-Azerbaycanskiy Nagorno-Karabaxskiy Konflikt, ibid, p.57.

6 Report.az, 27 years passed since occupation of Fuzuli and Jabrayil, August 23, 2020, Available at: https://report.az/en/karabakh/27-years-passed-since-occupation-of-fuzuli-and-jabrayil/, (Accessed: December 17, 2020).

7 Youtube.com, President Ilham Aliyev addresses the people, (translation from Azerbaijani), December 1, 2020, Available at: https://www.youtube.com/watch?v=ZGiynYxJXvs&t=1492s, (Accessed: December 18, 2020).

8. Ecoreform.az, Chto Predveshaet Osvobojdeniye Okkupirovannix Territoriy dlya Ekonomiki Azerbaycana, Available at: http://www.ecoreform.az/contact-us, (Accessed: December 18, 2020).

9.Omarov V., “Cruel exploitation of Karabakh and adjacent regions occupied by Armenia,” Sia.az, August 24, 2020, available at: https://sia.az/az/news/social/822274.html (accessed: December 22, 2020).

10. Nuriyev Q., “Azerbaijanskiy Klondayk: Armyane Doljni Vozmestit Usherb ot Ekspluatasii Mestorojdeniy v Karabakhe,” Report.az, October 10, 2020, available at: https://report.az/ru/energetika/azerbajdzhanskij-

# BÖYÜK QAFQAZ TƏBİİ VİLAYƏTİNİN LANDŞAFT DİFFERENSİYASI

**Dosent Sirac Məmmədov**[67]
**c.ü.f.d Cahan MƏMMƏDOVA**[68]

**Xülasə**

Ərazinin müasir landşaftlarının diferensiasiya xüsusiyyətlərinin dəqiq tədqiqi üçün ilk növbədə onun sel ocaqlarının qidasını təşkil edən ovuntu materiallarının əmələ gəlməsində rolu olan geoloji-coğrafi şərait ilə torpaq əmələgəlmə şəraitinin qarşılıqlı əlaqəsinin müəyyənləşdirilməsi zəruridir.

Tədqiqat işini ümumiləşdirərək belə nəticəyə gəlmək mümkündür ki, Böyük Qafqazın cənub yamacında müasir landşaftların diferensiasiyasında təbii amillə yanaşı antropogen amil də böyük əhəmiyyət kəsb edir. Ümumiyyətlə, yuxarıda şərh etdiyimiz bütün məlumatlara əsaslanaraq qeyd edə bilərik ki, tərəfimizdən Böyük Qafqazın cənub yamacı ərazilərinin relyef xüsusiyyətləri, geoloji, geomorfoloji quruluşu, ərazinin müasir relyefi, tektonik strukturları və landşaftlarının formalaşmasında neotektonik hərəkətlərin rolu, mövcud morfometrik göstəricilər tədqiq olunmuş, eləcə də selli çay hövzələrinin yüksəklik qurşaqları üzrə paylanması qanunauyğunluqları müəyyənləşdirilmiş, ekzogen relyef əmələgətirici proseslər qiymətləndirilmişdir.Cənub – şərqi Qafqaz landşaft differensasiyası tektonik hərəkətlərin intensivliyindən asılıdır.Ərazi pliosen – dördüncü dövrdə olan hərəkətlər nəticəsində çay və dəniz terrasların əmələ gəlməsinə imkan yaratmışdır.

Çay terralarının aşağı səviyyəsində akkumulyativ, orta və yuxarı səviyyələrdə erozion-akkumulyativ və erozion mənşəlidirlər.Xəzərin pliosen-dördüncü terrasları əsasən Böyük Qafqazın şimal-şərq yamaclarında geniş yayılmışdır.İqlim şəraiti temperaturun, yağıntıların paylanması relyef parçalanmasından qeyri-bərabər paylanır.Eyni en dairəsində, eyni yüksəklikdə, lakin müxtəlif ekspozisiyada fərqli təbii-ərazi komplekslər formalaşır.Çay terraslarında xüsusi torpaq-bitki örtüyü yayılmışdır və bu cəhətdən ayrı-ayrı landşaft kompleksləri inkişaf etmişdir.

***Açar sözlər*** *: Landşaft diferensiyasiyası, antropogen təsir, potensial.*

**Landscape Differentiation of the Greater Caucasus Natural Region**

**Summary**

In order to accurately study the features of differentiation of modern landscapes of the territory, first of all, it is necessary to determine the interaction of geological-geographical conditions and soil formation conditions, which play a role in the formation of the ground materials that make up the food of the floodplains.Summarizing the research work, it is possible to conclude that along with the natural factor, the anthropogenic factor is of great importance in the differentiation of modern landscapes on the southern slope of the Greater Caucasus.

In general, based on all the above information, we can note that the relief features of the southern slope of the Greater Caucasus, the geological, geomorphological structure, the modern relief of the territory, the role of neotectonic movements in the formation of tectonic structures and landscapes, existing morphometric indicators have been studied, as well as the regularities of distribution of floodplain river basinsSouth – East Caucasian landscape differentiation depends on the intensity of tectonic movements.

The Pliocene – as a result of the movements in the fourth period, the river and sea allowed the formation of terraces.They have accumulative origin at the lower level of river terraces, erosion-accumulative and erosion origin at the middle and upper levels.The Pliocene-quaternary terraces of the Caspian Sea are widespread mainly on the northeastern slopes of the Greater Caucasus.Climatic conditions the distribution of temperature, precipitation is unevenly distributed from the relief decomposition.At the same latitude, at the same altitude, however, different natural-territorial complexes are formed in different expositions.Special soil-vegetation is spread on the river terraces, and in this respect, separate landscape complexes have developed.

***Key words*** *: Landscape differentiation, ecological potential of the landscape, potential.*

*UOT(JEL):553, 504.062*

Tədqiq olunan ərazi Cənub-Şərqi Qafqaz, Alp-Himalay qırışıqlığının geomorfoloji cəhətdən ən maraqlı sahələrindən biridir. Mövzunun seçilməsində məqsəd və qarşıya qoyulan tələb ondan ibarət olmuşdur ki, geniş ədəbiyyat materialına əsaslanaraq ərazidə çay və dəniz terraslarının müqayisəli səciyyəsi

[67] **Əmək və Sosial Münasibətlər Akademiyası, sirac.memmedov54@mail.ru**
[68] **Azərbaycan Pedaqoji Universiteti**

verilsin. Çay və dəniz terraslarının müqayisəli səciyyəsi bu rayonda öz əksini daha çox göstərir. Bu onunla əlaqədardır ki, Cənub – Şərqi Qafqazın alçaq dağlıq hissəsinə də çay və dəniz terrasları bir – birilə kəsilmişlər. Dəniz terraslarında fauna qalıqlarının tapılması onların yaşlarının dəqiq təyin olunması çay terraslarının yaşlarının dəqiq təyin olunmasına imkan yaratmışdır. Belə bir hal respublikanın başqa dağlıq bölgələrində az rast gəlinir ki, bu da çay terraslarının yaşlarının təyin edilməsi işində böyük çətinliklər əmələ gətirir.( İsmayılova A.A.,2015:26s)

Azərbaycanın dağlıq vilayətləri arasında sahəsinin böyüklüyü və geomorfoloji müxtəlifliyinə görə Böyük Qafqaz cənub-şərq hissəsi xüsusi yer tutur. Sahəsi 4415 km2.dir. Bu dağlar Azərbaycan ərazisinə Tinov-Rosso zirvəsindən (3385 m daxil olur və 350 km məsafədə) Xəzər dənizi sahillərinə qədər uzanır. onun tektonik davamı isə Abşeron yarımadası ilə Krasnovadsk arasında yüksək sualtı silsilə şəklində uzanır və Cənubi Xəzər çökəkliyini Orta Xəzər çökəkliyindən ayırır.

Böyük Qafqaz dağları cənubda Alazan - Əyriçay vadisi, cənub-şərqdə Şamaxı yaylası və Qobustan alçaq dağlığı, şimal-şərqdə Qusar maili düzənliyi və ensiz Boğaz düzənliyi ilə həmsərhəddir. Lakin ərazi vahidliyini nəzərə alaraq bəzi tədqiqatçılar bu adları çəkilən geomorfoloji sahələri də Böyük Qafqaza aid edirlər. Biz də Alazan - Əyriçay vadisi müstəsna olmaqla sadalanan sahələri Böyük Qafqaz geomorfoloji vilayəti ilə birlikdə nəzərdən keçirəcəyik.

Baş Qafqazın cənub-şərq künbəzvari qalxması hələ neotektonik mərhələdən xeyli əvvəllər, alp qırışıqlığı zamanı yaranmış strukturların mürəkkəb kompleksindən ibarətdir. Neotektonik mərhələdən əvvəl yaranmış uzununa və bir neçə eninə tektonik qırılmalar sahənin strukturunu çox mürəkkəbləşdirir.




**Şəkil 1:**Tədqiqat ərazisinin coğrafi mövqeyi

Neotektonik mərhələnin başlanğıcında (Sarmat əsrinin sonunda) hələ Baş Qafqazın suayırıcı, yəni ən yüksək sahəsi dəniz səviyyəsindən cəmi 500-600 m yüksəklikdə yerləşirdi. Qalan ərazi Sarmat dənizi suları altında idi. Həmin dənizin çöküntüləri Şahdağda 3500 m yüksəkdə (B.Ə.Budaqov1969:177s.), cənub yamacın sıldırımlıqlarından isə 1000 m yüksəkdə (Dlamı kəndi yaxınlığında, tapılmışdır.( .R.M.Məmmədov 2009:142s)

Sarmat əsrindən sonra Baş Qafqaz dağları çox güclü tektonik qalxmaya məruz qalır, alt və orta pliosendə qısamüddətli fasilələrlə akçaqıl əsrinin başlanğıcına qədər davam edir. Bu müddət ərzində Baş Qafqazın ox hissəsi 1500-2000 m yüksəyə qalxır, ərazidə tipik orta dağlıq suayırıcı silsilə zonasında isə yüksək dağlığın aşağı pilləsi yaranır. Dağlarda eroziya prosesləri şiddətlənir, çayların eroziya fəaliyyəti güclənir, dağlardan yuyulan qırıntı məhsullar Baş Qafqazdan şimalda, şərqdə və cənubda əyilməkdə davam edən tektonik depressiyalarda və dəniz hövzələrində çöküntü qatlarını yaradır. Bu müddətdə Baş Qafqaz

terrigen çöküntülərlə orta Kür çökəyində qalınlığı 2000 m-ə çatan şirək qatını, cənub-şərq periklinal əyilmələrdə (Abşeron, Qobustan və s.) və eləcə də şimal-şərqdə Qusar sinklinoriumunda neotis, kont məhsuldar qat hövzələrini məhsullarla təmin edir. Balaxanı hövzəsi səviyyəsinin dəniz səviyyəsindən 600-700 m-ə qədər aşağıda olması relyefin kontrastını daha da artırır, eroziya və denudasiyanı xeyli gücləndirir.(Müseyibov M.A;1998:399s)

Ağcaqıl əsrinin əvvəllərində Baş Qafqazda tektonik zəifləmə baş verir, dağları eroziya və denudasiya xeyli alçaldır. Dağətəyi sahələr böyük akçaqıl transqressiyası suları ilə örtülür. Lakin akçaqılın axırından etibarən və xüsusilə Abşeron əsrinin ikinci yarısından Baş Qafqazda və onu əhatə edən tektonik zonalarda tektonik qalxa özünü yenidən böyük  bir güclə göstərir. Dağların şimal yamacında akçaqıl çöküntüləri həmin hərəkətlər nəticəsində 1600-1800 m, cənub ətəyində 1000m yüksəyə qalxmışdır, cənub-şərq yamacda akcaqıl əsrində sahil zonasında yaranmış hamar səthlər isə ciddi diferensiasiaya məruz qalmış və 800-1000 m-dən 1500-1600 m-ə qədər yüksəyə qalxmışdır. Cənub yamac çox dik olduğundan burada cavan dövrlərin çöküntüləri və hamar səthləri yaxşı saxlanmamışdır. Bu məlumatların təhlili göstərir ki, Baş Qafqazın suayrıcı zonasında tektonik qalxmanın böyüklüyü yuxarı pliosen və dördüncü dövrdə 2000m-dən artıq olmuşdur. Bu rəqəm şimal yamacda orta dağlıqda 1800-1900 m-ə qədər, cənub-şərq  yamacda 1400-1600 m- qədər azalır və dağlıq zonanın ətəklərində əyilmə ilə əvəz olunur. Beləliklə, Baş Qafqazın Azərbaycan ərazisində yerləşən cənub-şərq  hissəsi geotektonik mərhələdə özünü iki əsas fəallaşma dövrü ilə göstərən güclü tektonik qalxmaya məruz qalmış və qalxmanın ümumi maksimal böyüklüyü suayırıcı zonada 3500-4500 m olmuşdur. Bu göstərir ki, Baş Qafqaz dağlarının böyük bir dağlıq morfostruktur kimi yaranması əsasən pliosen və dördüncü dövrü əhatə edən neotektonik mərhələdə olmuş güclü qalxmalarla bağlıdır. Dağların yamaclarını kəsən dərin çay dərələri, qədim dərələri çayların ”atıb getməsi”, hamar səthlərin yaranması və deformasiyası, müasir relyefin başqa xüsusiyyətləri də bu dövrdən yaranmağa başlamış və müasir formasını almışdır.

Baş Qafqaz cənub-şərq pereklinalında Qobustan-Abşeron geotektonik sahəsi yerləşir. Neotektonik mərhələdən əvvəl sahə intensiv çökməyə məruz qalmışdır. Ayrı-ayrı sinklinal zonalarda tək məhsuldar qat çöküntülərin qalınlığı 2000-3000 m-ə çatır. Yuxarı pliosen və dördüncü dövrdə Qobustan-Abşeron sahəsində diferensial qırışıqlı tektonik hərəkətlər güclənir. Sinklinal zonalarda çöküntü toplanır, antiklinal zonalar isə qalxmaya, abraziya və denudasiyaya məruz qalır. Qalxma sahənin qərbində daha üstün olur, tektonik çökmə isə şərqində üstün olur. Yuxarı pliosen-dördüncü dövrdə əyilmənin böyüklüyü cənub-şərqi Qobustanda və Bakı arxipelağında 1000-3000 m arasında, qalxmanın böyüklüyü cənubi və mərkəzi Qobustanda 200-500 m, qərbdə isə 600-800 m-ə qədərdir. Qobustan və Abşeronun müasir strukturları və relyefi bilavasitə neotektonik hərəkətlərlə bağlıdır. Ərazinin ən əlamətdar cəhətlərindən biri burada yuxarı pliosendə və dördüncü dövrdə palçıq vulkanlarının fəaliyyətinin güclənməsidir. Bununla əlaqədar morfoloji cəhətdən özünü aydın göstərən palçıq vulkanı relyef formaları yaranmışdır. Palçıq vulkanlarının əksəriyyəti neotektonik dövrdə fəal olan, yaxud bu dövrdə yaranmış tektonik qırılmalar zonasında yerləşir.

Baş Qafqaz dağları ilə Xəzər dənizi arasında yerləşən Qusar-Dəvəçi tektonik əyilməsi neotektonikasına görə 2 əsas hissəyə ayrılır:

1. Şimal-şərq (Xəzəryanı)
2. Cənub – qərb.

Əsasən Samur-Dəvəçi ovalığını tutan şimal-şərq sahə bütün neotektonik mərhələ ərzində müxtəlif sürətlə əyilməyə məruz qalmışdır və burada 2000-3000 m-dən artıq qalınlığı olan dəniz və kontinental çöküntü qatı toplanmışdır.

Akkumulyasiya prosesinin sürəti tektonik əyilmənin sürətindən geri qalmadığı üçün əyilmə relyefdə özünü yalnız birtərəfli, ümumiyyətlə ərazinin ovalıq relyefi olması və şimal-şərq kənarının dəniz suları ilə örtülməsində göstərmiş, səthdə aydın seçilən tektonik çökəklik yarada bilməmişdir. Lakin bu çökəklik, ikinci dərəcəli gömülmüş qırışıqlarla mürəkkəbləşmişdir. Çökəklik yuxarı pliosendə, yaxud ümumiyyətlə pliosen çöküntülərinin dabanı vəziyyətində özünü yaxşı göstərir. Akçaqılın əvvəlindən etibarən ərazidə əyilmə 1000 m-ə çatır.

**1.Relyefi**

Baş Qafqaz sıra dağları Azərbaycan ərazisinə Gürcüstanla sərhəddə yerləşən Tinov Rossa zirvəsindən (3385 m) daxil olur və cənub-şərqdə yelpikvari şaxələnərək Abşeron yarımadasına və

Qobustana uzanır. Bu dağlar bir neçə böyük və bir-birindən fərqlənən oroqrafik vahidlərdən, dağ silsilələrindən, dağarası çökəklərdən, dağətəyi yayla və maili düzənlikdən ibarətdir.

Baş Qafqaz dağları Azərbaycan ərazisində iki əsas silsilə yaradır: Baş Suayırıcı silsilə və Yan silsilə. Baş Suayırıcı silsilə əsasən yüksək dağlıq olub alp tipli relyefə malikdir. Ən yüksək zirvələri Bazardüzü (4480 m), Tufan (4191 m), Məlkəmüd (3875 m), Babadağ (3632 m) və s.-dir. O, heç yerdə çaylarla kəsilmir. Yüksək zirvələrində kiçik buzlaqlar var. Pirsaatçay və Qozluçayın mənbəyindən cənub-şərqə Baş Suayırıcı silsilə şaxələnir və alçalaraq Abşerona keçir. Burada Baş Suayırıcının birbaşa şərqə davamında Dübrar (2206 m) və Gədi (1223 m) dağları, bunlardan bir qədər cənubda Aladaş tirəsi və İlxıdağ (336 m) yerləşir. Baş Suayırıcı silsilədən cənubs dağlar Alazan – Əyriçay vadisinə çox dik enir. Burada çay dərələri çox dərin kəsilmişdir (1000-1900 m-ə qədər). Çay dərələri dağların istiqamətinə əsasən perpendikulyar uzandığına görə bir çox köndələn erozion tirələr yaranmışdır. B.Ə.Budaqovun (1969) verdiyi məlumata görə burada 20-yə qədər iri köndələn tirə uzanır (Murovdağ, Qonzaqar, Qumbaşı, Qaflan yaylaq, Qızıl qaya və s.). Köndələn tirələrin yüksəkliyi 20-30 km məsafədə 3500-3600 m-dən 600-800 m-ə qədər alçalır. Səthin alçalma qradiyenti cənub yamacda 100-150 m/km-ə çatır. Baş Suayırıcıya paralel uzanan tirələr qısa olub, cənub yamac çaylarının qollarının erozion fəaliyyəti nəticəsində yaranmışdır. Bunların əksəriyyəti möhkəm süxur qatlarına uyğun gəlir. Cənub yamacda tektonik mənşəli qısa, asimmetrik quruluşlu tirələr də müşahidə edilir.

Göyçay çayının yuxarı axınından şərqə cənub yamacın oroqrafik xüsusiyyətləri xeyli dəyişir. Beləliklə, burada əvvəllər olduğu kimi Baş Suayırıcı silsilə birdən-birə alçalmır. Ondan cənubda bir neçə görkəmli oroqrafik vahidlər meydana çıxır, köndələn tirələrsə artıq aradan çıxır. Burada Baş Suayırıcı silsilənin sıldırımlı dik cənub yamacına paralel Göyçayın və Girdimançayın mənsəblərinin dərələri, ondan cənubda asimmetrik quruluşlu Qovdağ (2435 m) və Matur (2300 m) tirələri uzanır. Bu dağlar öz növbəsində cənubdan Müdrü və Lahıc (1400-1700 m) orta dağlıq çökəkləri ilə əhatələnir. Bu sahənin ən görkəmli oroqrafik elementi Niyaldağ silsiləsidir (2310 m). Girdimançay bu silsiləni dərin (1000-1200 m) andesedent dərə ilə 2 hissəyə bölür. Ağsu çayının mənsəbində dağlar artıq gömülür və ondan şərqdə hamar səthlərin geniş yayıldığı platoya keçir.




**Şəkil 2**: Böyük Qafqazın cənub yamacının hipsometrik xəritəsi

Böyük Qafqaz sıra dağlarının şimal (şimal-şərq) yamacı oroqrafiyası xüsusiyyətlərinə görə cənub (cənub-qərb) yamacdan çox fərqlənir. Burada cənub yamacdan fərqli olaraq Baş Suayırıcı silsiləyə paralel bir neçə yan silsilə və dağ tirələri uzanır. Bunlardan ən böyüyü Yan silsilədir. Bu, şimal-qərbdə Şahdağ massivindən (4250 m) başlayıb cənub-şərqdə Beşbarmaq dağına qədər (549 m) uzanır və bu istiqamətdə alçalır. Şahdağ və ondan şərqdə yerləşən Qızılqaya massivləri dik yamaclı olub, səthi hamardır. Baş Suayırıcı ilə Yan silsilə arasında Qoytar-Qoca sıra dağı və Yerfi monoklinal tirəsi, Yan silsilədən şimalda Şuduq, Şimal-şərqdə isə Qaynarça tirəsi uzanır. Sadalanan sıra dağlarla köndələn erozion dağların kəsişməsi ərazinin oroqrafik quruluşunu xeyli mürəkkəbləşdirir. (İsmaılova L.A;2012:46,52s)

Sıra dağlar arasında bir çox çökəkliklər yerləşir. Bunlardan ən görkəmlisi Xalton, Gilgilçay, Yerfi, Tuğçay çökəklikləridir. Baş Qafqaz dağlarının cənub-şərq vilayəti oroqrafiyasının əsas elementləri geniş sahə tutan hamar səthlər (yaylalar), antiklinal, monoklinal tirələr (şimal və qərbi Qobustanda) terraslı çay

dərələri, çökəklər, sinklinal quruluşlu yaylalar (cənub-şərqi Qobustanda) və palçıq vulkanı dağlarından ibarətdir. Ərazinin dəniz sahili rayonlarında sol çökəkləri, dəniz terrasları düzənlikləri də geniş yer tutur.

Baş Qafqaz dağlarının şimal ətəyində geniş Qusar maili düzənliyi və Xəzəryanı (Samur-Dəvəçi) ovalığı yerləşir. Qusar maili düzənliyi dəniz səviyyəsindən 2000 m-ə qədər yüksəlir və qutuvari terraslı çay dərələri ilə kəsilmişdir. Xəzəryanı ovalıqda çaylar əksərən ensiz yarğanvari dərələrə axır.

**2.İqlimi**

Azərbaycan ərazisi mürəkkəb təbii şəraitə malikdir. Əsas iqlimyaradıcı amillərin – günəş radiasiyası, atmosfer dövranı və səth örtüyü xarakterinin mürəkkəb qarşılıqlı təsiri respublikamızın kiçik ərazisində müxtəlif iqlim növlərinin əmələ gəlməsində səbəb olur. Ərazinin çox hissəsi dağlıq olan Azərbaycan şəraitində oroqrafik quruluşun iqlimə təsiri böyükdür. Məsələn, Qafqaz dağları şimal rayonlarından gələn soyuq hava kütlələrinin qarşısını bir "divar" kimi alaraq soyuq havaların respublika ərazisinə maneəsiz daxil olmasının qarşısını alır.

Nəticədə Azərbaycanın iqlimi ondan bir neçə dərəcə şimalda yerləşən və soyuq hava kütlələrinə açıq olan Şimali Qafqazın iqlimindən kəskin surətdə fərqlənir.

Şimaldan gələn soyuq hava kütlələrindən müdafiə olunma dərəcəsinə, ayrı-ayrı rayonların Xəzər dənizindən uzaqlığına, mürəkkəb relyef quruluşuna və dəniz səviyyəsindən olan müxtəlif hündürlüyünə görə Azərbaycan ərazisində havanın temperaturu qeyri-bərabər paylanır.

Eyni en dairəsində, eyni yüksəklikdə, lakin müxtəlif ekspazisiyaya malik olan iki məntəqənin temperatur şəraitində böyük fərq vardır. Məsələn, Böyük Qafqazın cənub yamacında yerləşən Şəkidə (634 m) yanvar ayının orta temperaturu onunla təxminən eyni en dairəsi və eyni hündürlükdə şimal-şərq yamaclarında yerləşən və şimaldan gələn soyuq hava kütlələrinin bilavasitə təsirinə məruz qalan Qubadakından (615 m)  yüksəkdir. Şəki-Zaqatala massivində istiqaməti az bir meyilliklə cənuba doğru yenilənmiş amfiteatra bənzər relyef formaları vardır ki, burada günəşli ilin fəsillərindən asılı olmayaraq havanın temperaturu ətrafındakından bir neçə dərəcə yüksək olur. Xəzər dənizindən müxtəlif uzaqlıqda yerləşən məntəqələrin də temperaturu fərqlidir. Yüksəkliyin iqlimə olan təsiri havanın temperaturunun gedişində daha aydın nəzərə çarpır. Düzən rayonlardan dağlara qalxdıqca hər 100 m-də havanın temperaturu orta hesabla 0,6° düşür.

Yanvarın orta temperaturu orta dağlıq zonada -2 və -3, yüksək dağlıq zonada isə -4 və -5 və daha aşağı olur. Birinci şaxta oktyabrda, yüksək dağlıq zonada isə sentyabrın axırlarından başlayır. Şaxtalı günlərin sayı Qırızda (Quba-Xaçmaz massivində) 250-300 arasında tərəddüd edir.(Müseyibov M.A;1998:399s)

Atmosfer dövranı prosesləri qış tipindən yay tipinə keçid şəraitində olduğuna görə martda havalar çox dəyişkən keçir. Martın axırında dağətəyi və dağlıq zonada qar örtüyü əriməyə başlayır. Apreldə havalar istiləşir, dağətəyi zonada 11-14, yüksəyə qalxdıqca bu kəmiyyət azalır.

Dağətəyi rayonlar temperatur rejiminə görə Kür-Araz ovalığında az fərqlənir. Belə ki, bu rayonlar ilin isti dövründə isti Kür-Araz ovalığın təsirinə məruz qalır. Orta və yüksək dağ zonasında isə hündürlüyün temperaturaya təsiri nəticəsində yay mülayim və sərin keçir.

Orta aylıq temperaturun ən yüksək kəmiyyəti dağətəyi və orta dağlıqda iyulda, yüksək dağ zonasında isə qar örtüyünün gec əriməsi ilə əlaqədar olaraq, avqustda düşür.

Temperaturun sutkalıq gedişi belədir: səhər tezdən günəş torpağı qızdırması ilə bərabər havanın temperaturu qalxır və saat 14-15-də maksimuma çatır. Saat 15-dən başlayaraq hava tədricən soyuyur və havanın sutkalıq minimumu səhər tezdən günəş çıxmamışdan qabaq müşahidə edilir.

Müxtəlif fiziki-coğrafi şəraitə malik olduğuna görə Azərbaycan ərazisinə düşən yağıntıların miqdarı və rejimi müxtəlifdir.

İl ərzində yağıntıların miqdarı Abşeron yarımadası rayonunda 102 mm-dən (Puta) Lənkəran təbii vilayətində 1700 mm-ə qədər (Astara rayonu) tərəddüd edir.

Kür – Araz ovalığında düşən yağıntıların miqdarı 150 - 400 mm-dir. Buradan dağlara doğru getdikcə bir qayda olaraq yağıntı çoxalır. Dağlıq rayonlarda bu artım müəyyən hündürlüyə qədər davam edir və sonra azalır. Respublika ərazisində illik yağıntıların miqdarı aşağıdakı kimi paylanır. Böyük Qafqazın cənub yamaclarında 400-1300 mm, şimal-şərq yamaclarında (Quba-Xaçmaz massivi) 300-700 mm,

Qobustanda 200-400 mm, Kiçik Qafqazın şimal rayonlarında 400-700 mm, cənub rayonlarında isə 400-800 mm, Naxçıvan MR-da 200-700 mm olur.

Böyük Qafqazın cənub-şərq hissəsində yağıntıların rejimi dənizsahili və düzənlik rayonlarda fərqlidir. Burada maksimum ildə bir dəfə olur. Hündürlükdən asılı olaraq yazın axırı, yay aylarına düşür. Məsələn, dağətəyi zonada yerləşən Qutqaşen yağıntılarının rejimi Kür-Araz ovalığındakına yaxındır, yəni maksimum yazın axırında (may) müşahidə edilir. Yüksəyə qalxdıqca maksimum yağıntıların düşmə vaxtı dəyişilir. 2000 m yüksəklikdə yerləşən Qrızda bu iyuna düşür. İlin soyuq yarısında ərazinin dağlıq rayonlarında yağıntılar sülb halında düşür. Düzənlik və dənizsahili rayonlarında isə qar seyrək hallarda yağır. Birinci qar adətən düzənlik və dağətəyi rayonlarda noyabrın axırı və dekabrın əvvəllərində, axırıncı qar isə martın birinci yarısında müşahidə edilir. Dağlıq rayonlarda yüksəyə qalxdıqca ilk qar daha tez (sentyabr-oktyabr), axırıncı qar isə daha gec (aprel-may) yağır.

Düzənlik rayonlarda isə qar örtüyü seyrək hallarda əmələ gəlir və qısa müddətli olur. Dağlıq rayonlarda isə bu davamlı olub, bütün qış uzunu qalır. Qar örtüyünün orta qalınlığı adətən dağətəyi zonada 5-7 sm, dağlarda isə hündürlükdən asılı olaraq 10-50 sm arasında tərəddüd edir. Güclü soyuq hava axınlarının respublika ərazisinə daxil olması ilə əlaqədar olaraq Azərbaycanın bəzi rayonlarına bol qar yağır. Belə hallarda qar örütüyünün maksimal qalınlığı 75 sm və daha çox olur. .(Müseyibov M.A;1998:399s)

*Çay şəbəkəsi.* Cənub-şərqi Qafqaz dağlarından öz başlanğıcını götürən çaylar tipik dağ çaylarıdır. Bu çaylar öz başlanğıclarını 1500-4000 m-ə qədər yüksəkliyi olan sahələrdən götürür və səviyyəsi -28 m olan Xəzər dənizinə tökülür.

Ərazinin çay şəbəkəsi müxtəlif sıxlığa malikdir. Belə ki, çay şəbəkə sıxlığı Xəzərsahili ovalığından dağlıq zonaya doğru çoxları 0,10-0,30 km$^2$-dən 0,80-0,90 km$^2$-ə qədər dəyişir. Bütün ərazinin orta çay şəbəkə sıxlığı isə 0,54 km$^2$-dir.

Dağlıq zonaya tərəf çay şəbəkə sıxlığının artması, həmin istiqamətdə kiçik çayların sayının çoxalması ilə izah edilir. Şimal-şərqi Azərbaycan çaylarının bəziləri öz başlanğıcını Baş suayırıcıdan, bəziləri isə Yan silsilədən götürür. Baş Suayırıcıdan başlayan çayların mənbələri 2500 m-dən yüksəkdə, Yan silsilədən başlayan çayların mənbələri isə əksəri 2000 m-dən alçaqdadır.

Baş Suayırıcıdan başlayan çaylar öz yollarında Yan silsiləni kəsərək kanyonvari dərələr əmələ gətirmişlər. Bunlardan Qusarçayda Ləzə, Qudyalçayda Qrız, Qaraçayda Buduq və Vəlvələçayda Təngə kanyonlarını göstərmək olar. Ərazinin çayları yuxarı axanda böyük meyilliyə malik olduğundan çox sürətlə axır və öz yataqlarını qüvvətli yuyaraq dərin dərələr əmələ gətirirlər. Ümumiyyətlə, ərazi çaylarının orta meyillikləri 0,0234-0,0324 arasında dəyişir.

Orta dağlıq zonada və Qusar maili düzənliyində çayların sürəti azalır və onların dərələri təknəvari şəkil alır. Düzənlik zonaya çıxdıqda çaylar öz sularını gətirmə konuslarına yayırlar. Xəzərsahili ovalığında çaylar bir neçə qola ayrılaraq dayaz dərələrdə axırlar.

Şimal-şərqi Azərbaycan çaylarında sel hadisələri də müşahidə edilir. Qusarçaydan Şabrana qədər olan sahədəki çaylarda selin əsas kütləsini iri qırıntılı materiallar təşkil edir, çünki bu sahədə süxurlar nisbətən möhkəmdir və eyni zamanda yer səthi bitki örtüyü ilə mühafizə olunur. Şabrançaydan cənuba olan çaylarda isə sel palçıq axını şəklində olur. Bu sahə əsasən yumşaq gilli süxurlardan ibarət olub, bitki örtüyü ilə zəif mühafizə olunur. Dəvəçiçay və Şobrançayda tez-tez qüvvətli sellər baş verir.

Sahənin kiçik olmasına baxmayaraq, buradakı çaylar su rejiminə görə bir-birindən fərqlənir. Vəlvələçaydan şimalda olan çayların qidasını əsasən qar suları təşkil edir. Buna görə də aprel ayından başlayaraq qarların əriməsi nəticəsində həmin çaylarda su çoxalır və bu vəziyyət mayın axırına qədər davam edir. Mayın axırında alçaq zonada çayların əriyib qurtardığı zaman bu çaylarda suyun artması, buzlaqların və daimi qarların əriməsi hesabına əmələ gəlir. Bu daşqınlar iyundan sentyabra qədər davam etməklə, ən yüksək qiymətinə iyun-iyul aylarında çatır. Qusarçay və Qudyalçayda illik axımın 35- 45 % qədəri iyun-iyul aylarına düşür. Noyabrdan başlayaraq temperaturun düşməsi ilə əlaqədar olaraq, daimi qarların və buzların əriməsi zəifləyir və bu daşqınlar payız yağışlarından əmələ gələn kiçik qaşqınlarla əvəz olunur. Çayların azsulu dövrü qışda olur, bu zaman çayın qidasının əsas hissəsini yeraltı sular təşkil edir.

Vəlvələçaydan cənub-şərqdə olan çayların qidasının əsas hissəsini yağış suları təşkil edir. Bu çayların qidalanmasında yeraltı suların və əriyən qarların rolu azdır. Həmin çaylarda daşqınlar əsasən mart-aprel aylarında düşən yağışlar nəticəsində əmələ gəlir.

Cənub-Şərqi Qafqazdan baş götürən əsas çaylar Samur, Qusarçay, Qudyalçay, Vəlvələçay, Qaraçay, Şabrançay, Gilgilçay, Ataçay, Tuğçay, Sulaq, Arqun, Rubas və başqalarını göstərmək olar.

Abşeron – Qobustan sahəsinin çayları yağış suyu ilə qidalanmaqla öz mənbələrini Cənub-Şərqi Qafqazın qurtaracağından alıb, şərq və cənub-şərq istiqamətində axaraq Xəzər dənizinə tökülür. Yağmurlar az düşdüyündən (400 mm-ə qədər) burada çay şəbəkəsi çox zəif inkişaf etmişdir (0,18 km$^2$-dən 0,47 km$^2$ arasında dəyişir).

Yay daşqınları mart ayından başlayaraq may və iyunda maksimum dərəcəsinə çatır. Ən az su sərfi iyul-avqust və yanvar-fevral aylarında olur. Əsas çayları Sumqayıt, Pirsaat və Ceyrankeçməz hesab olunur.

### 3. Torpaq örtüyü

Böyük Qafqazın cənub-şərq hissəsinin özünəməxsus müxtəlif torpaq örtüyü vardır. Burada çəmən, dağ-meşə, qonur, dağ-meşə qəhvəyi, dağ qara torpaq, şabalıdı, açıq və boz şabalıdı, səhra, yarımsəhra qonur və boz-qonur, boz aran-meşə, çəmən, şoran torpaq tiplərinə rast gəlmək mümkündür. Əsas torpaq tipləri də ayrı-ayrı yarımtip və növlərdən ibarətdir.

Dağ-çəmən torflu torpaqlar alp zonası üçün xarakterikdir. Bu torpaqlarda yarımparçalanmış üzvi qalıqlar toplanır, torflu qatın qalınlığı 3-5 sm, humusun miqdarı 16-18%-ə qədər olur. Cənub yamaclarda torflu qat 15-20 sm, nisbətən düz yerlərdə isə 50-60 sm-dir. Bu torpaqlara Bazardüzü, Babadağın şimal yamaclarında çox təsadüf edilir. Dağ-çəmən çimli torpaqlar ən çox subalp zona üçün xarakterikdir. Bu torpaqların üst qatı çimli olmaqla humus 11,0-15,0%-dir. Dağ-çəmən torpaqlarından otlaq yerləri kimi istifadə edilir.

Dağ-meşə qonur torpaqlarının açıq və tünd növləri vardır. Bu növlər alp və subalp qurşaqlarından aşağıda yayılaraq, dağların şimal və cənub yamaclarında inkişaf etmişdir. Dağ-meşə qəhvəyi torpaqları Böyük Qafqazda nisbətən azdır. Bu torpaqlar ən çox dağların cənub-şərq və qismən də şimal-şərq hissəsində yayılmışdır. Humusun miqdarı 12-14 %-dir. Bu torpaqlara Quba, Şamaxı, Qonaqkənd, Xızı, Qusar rayonlarında daha çox təsadüf edilir.

Dağ-qara torpaqları dağ-meşə torpaqları qurşağından aşağıda yayılaraq, az humuslu dağ-qara torpaqlara və yuyulmuş dağ-qara torpaqlarına bölünür. Humusun miqdarı 5-10%-dir. Dağ-qara torpaqlarından aşağıda şabalıdı torpaqlar geniş yayılmışdır. Bu torpaqların tünd, adi və açıq şabalıdı növləri vardır və onlar bir-birindən fərqlənir. Şabalıdı torpaqlar şərqdə Mərəzə, Xızı, Şamaxı, Quba, Qusar rayonlarına qədər, qərbdə Alazan, Qabırrı çaylarına qədər uzanır.

Boz-şabalıdı torpaqlara ən çox Quba-Qusar rayonları meşələrinin ən aşağı kənarlarında təsadüf edilir. Səhra, yarımsəhra qonur və boz-qonur torpaqlar şabalıdı torpaqlarla boz torpaqlar arasında Bozdağın bütün yamaclarında yayılmışdır. Boz torpaqlara Abşeronda, Qobustanda təsadüf edilir. Şəki-Zaqatala massivində, torpaqlar şərq hissəsinə nisbətən daha çox rütubətlənməyə məruz qalır .

Alazan-Həftəran vadisi üçün aran boz meşə torpaqları xarakterikdir. Bu torpaqların rəngi göyümtül-boz olub, yura şistlərinin aşınma məhsulları və təbaşir yığınları üzərində əmələ gəlmişdir.

### 4.Bitki Örtüyü Və Heyvanlar Aləmi

Azərbaycanın bitki örtüyü 4000-dən artıq növü birləşdirən bir çox müxtəlif bitki qruplaşmalarından ibarətdir. Buranın heyvanlar aləmi də çox zəngindir. Bitki örtüyünün və heyvanlar aləminin zənginliyinə səbəb fiziki-coğrafi şəraitin müxtəlif olmasıdır.

Ovalıqdan başlamış yüksək dağ zirvələrinə qədər müxtəlif bitki qurşaqları bir-birini əvəz edir. Heyvanlar aləmi də buna uyğun olaraq dəyişir. Abşeron yarımadasında boz torpaqlar üzərində yarımsəhra sünbüllü ot bitkiləri yayılmışdır. Bu torpaqlarda həmçinin üzüm, əncir, nar və başqa meyvələr də yetişir. Abşeronda geniş zeytun plantasiyaları salınmışdır. Respublikada zəfəran yalnız burada yetişir.

Samur-Dəvəçi ovalığının bitki örtüyü əsasən yovşanlı yarımsəhra bitkilərindən çox az sahədə isə bataqlıq bitkilərindən ibarətdir. Qobustan ilk baxışda çılpaq görünsə də, bitki növünün miqdarına görə çox zəngindir. Burada 1470 növ bitkidən 600 növü çiçəkli bitki olması müəyyən edilmişdir. Yarımsəhra və şoranlıq tipinə aid olan yovşan, kəngiz, tupil, xoruzgülü, qayıqçiçək, qanqal, öldürkən və s. daha çox yayılmışdır. Qobustanda quraqlığa davam gətirən kollardan nar, iydə, əncir, murdarça kolları vardır.

Heyvanlar aləmi yoxsuldur. Ceyran, canavar, tülkü, çaqqal, dovşan, porsuq və sürünənlər vardır.

Dağ meşələri zonasının (500-700 m-dən 2000-2200 m-ə kimi) aşağı hissəsində seyrək və xırda ağaclar vardır. Yuxarı qalxdıqca meşə sıxlaşır və quraqlığa davamlı ağac növləri bir qədər rütubət sevən ağac növləri ilə əvəz olunur. Bu meşələrin aşağı hissəsində palıd vardır. Yuxarı hissədə buna vələs, daha yuxarıda buna fıstıq qarışır. Burada yemişan, əzgil, yərməşov, zoğal, alça, cıralma, fındıq, dəmirqara vardır. Orta dağ yamacları (1000-1900 m) qurşağında fıstıq meşələri üçün səciyyəvi olan Qafqaz maralı, cüyür və dağ keçiləri eynilə burada da vardır. Orta dağ yamacında qaban, porsuq, dələ, boz ayı, vaşaq, quşlardan Qafqaz sertisi, ağacdələn, adi sitta, ardıc quşu, şərq bülbülü, qırğı vardır.

Seyrək meşəli yüksək dağ qurşağında (1700-1800 m-dən2000-2200 m-ə qədər) palıd ağacları yayılıbdır. Çəmənli, hündür otlu yerlər qurşaqda xeyli sahə tutur. Qabarıq və dik yamacda isə alçaq boylu toz ağacları bitir.

Subalp qurşağında olan heyvanların çoxuna burada təsadüf etmək olar. Orta dağ meşələri üçün səciyyəvi olan heyvanlar da vardır.

Subalp çəmənlikləri qurşağında (2000-2200 m-dən 2400-2600 m arasında) taxıl, paxlalı və başqa bitkilər, biçənəklər, dərman bitkiləri mövcuddur. Çəmənliklər arasında bir neçə yerdə həmişə yaşıl Qafqaz rodo-dendronu cəngəlliklərinə təsadüf edilir. Burada Dağıstan turları və bir çox quşlar vardır.

2400-3200 m yüksəkliyinə alp çəmənlikləri və yüksək qayalıqlar qurşağı yerləşir. Burada "alp xanıları" çəmənlikləri vardır. Hündürlüyü 1-4 sm arasında olur. Bəzi bitki növləri 7-10 sm-ə çatır. Burada daşlıq və qayalıq bitkiləri də çox yayılmışdır.

Alp çəmənliklərində Dağıstan turları (dağ keçisi), quşlardan keçəl kərpəz, subalp qurşağında olan bəzi qum və heyvan növləri vardır.

Subnival və nival sahələr (3100-3200 m-dək qar xəttinə kimi) əsasən bitkisiz çılpaq qayalıqlardan ibarətdir.

**ƏDƏBİYYAT**


1. İsmayılova A.A. Böyük Qafqazın cənub-şərq əyilmə zonasının cənub yamacının landşaft-ekoliji sistemlərinin ərazi differensiasiyası və antropogen transformasiyası / Coğ. üzrə fəlsəfə dok... dis. avtoreferat. Bakı, 2015, 26 s.
2. İsmayılova L.A. Böyük Qafqazın cənub yamacının müasir landşaftlarının differensiasiyası və landşaft-ekoloji xüsusiyyətləri // Müasir geosistemlərin regional-coğrafi problemləri, ACCƏ, Bakı 2012, s.46-52.
3. Məmmədov R.M. Azərbaycanda landşaft planlaşdırılması (ilk təcrübə və tətbiq), Bakı 2009, 142 s.
4. Müseyibov M.A. Azərbaycanın fiziki coğrafiyası. Bakı 1998, 399 s.
5. Алиев Г.А. Почвы Большого Кавказа. Баку, «Элм». 1994.
6. Будагов Б.А. Геоморфология южного склона Большого Кавказа. // Баку 1969, 177 с.
7. Будагов Б.А., Мусеибов М.А. Особенности горизонтальной и высотной дифференциации ландшафтов Азербайджана и их использование / Комплексное географическое изучение и освоение горных территорий. Л. 1980, с. 120-130.

# SOSYAL-MEDENI ALANDA İNSAN İLIŞKILERININ PSIKOLOJIDE ROLU VE KÜLTÜREL FAKTÖRLER

**Güldeniz METİN HASANOV**[69]

**Özet**

Ülkemizde de yaygın olarak kabul gören Batı kültürü kaynaklı psikolojik kuramlar ve uygulamaları doğal olarak içinde geliştiği toplumun tarihsel gelişim sureciyle degismis ve Batılı kuramcılar, kanitlanmis ve dogrulanmis dusuncelerini ister istemez kendi kültürlerinin değer yargılarını ve düşünüş tarzlarını yansıtmışlardır. Bu çalışmada Psikoloji alanının dayandığı kuramsal temeller, psikolojik danışma uygulamaları, terapötik ilişki konuları Kültürel ve sosyal Psikoloji alanındaki gelişmelerin ışığında gözden geçirilerek ülkemizdeki uygulamalar için bazı öneriler sunulmaya çalışılmıştır.

***Anahtar sözcükler***: *kültür, psikolojik danışma, toplum*

**The Role Of Human Relatıons In Psychology And Cultural Factors In The Socıal-Cıvılıan Area**

**Abstract**

Psychological theories and practices originating from Western culture, which are widely accepted in our country, have naturally changed with the historical development of the society in which they developed, and Western theorists have reflected their proven and verified thoughts, inevitably, the value judgments and ways of thinking of their own cultures. In this study, the theoretical foundations on which the field of Psychology is based, psychological counseling practices, therapeutic relationship issues were reviewed in the light of the developments in the field of Cultural and Social Psychology, and some suggestions were tried to be presented for the practices in our country

***Key words***: *culture, counseling, society*

*JEL:Z00*

## Giriş

Feminist psikolojik yaklaşımlar ile beraber bu alanda psikodinamik, davranışcı ve humanistik yaklaşımlardan sonra gelen etken olarak anlatilan (Ponterotto, Casas, Suzuki ve Alexander, 1995; Cheung, 2000) kültüre duyarlı psikolojik yaklaşımlar yogunlukla Batı kültürü odaklı psikolojik kuram ve uygulamalara tepki olarak doğmuştur. Fakat kültüre duyarlı psikolojik yaklaşımların dogmasinda ilginçtirki bu yaklaşımların yine çoğunlukla Batılı bilim insanlarınca yaratilmis ve geliştirilmiş olmasıdır.

Şu an tum dunyada kültüre yonelik hassas psikolojik yaklaşımlar ile ilgili dersler, özellikle Amerika Birleşik Devletleri'nde psikoterapist ve psikologlarin cesitli kulturlere ozverili olmasi ve farklı etnik kültürlerden gelen danışanlar ile çalışabilmeleri için yeterli becerilere sahip olarak yetişmeleri hedefi ile zorunlu olarak ders olarak gecilmekte ve psikolojik yardım hizmeti sunan profesyonellerin bu alanda bilgiye ve donanima sahip olmaları etiksel bir zorunluluk olarak kabul edilmektedir (APA, 2002).

Bu makalenin savundugu fikir , ülkemizde de Batı modelini savunan psikologlar , kültürel psikoloji alanındaki gelişmelerin ışığında kuramsal temeller, psikolojik terapi uygulamaları, danışan ve psikolog arasındaki terapötik ilişki başlıkları altında gözden geçirerek ülkemizdeki uygulamalar için bazı öneriler sunmaktir.

Bu makalenin amacı, ülkemizde de kabul gören Batı modeline dayalı psikolojik danışma alanını, kültürel psikoloji alanındaki gelişmelerin ışığında kuramsal temeller, psikolojik danışma uygulamaları, danışan ve psikolojik danışman arasındaki terapötik ilişki başlıkları altında gözden geçirerek ülkemizdeki uygulamalar için bazı öneriler sunmaktır.

Toplum icerisinde cikacak sorunlarin dogru belirlenmesi baska bir deyisle dogru teshis surecin basarisi olarak cokca etkilidir.

Kültürel ortamın bu süreç içerisindeki öneminin yanı sıra, olumlu terapötik ilişkinin oluşmasında ve gelişmesinde psikolojik danışman ve danışanın ortak kültürel değerleri, inançları, değer yargıları ve yaşantısal geçmişlerinin büyük rolü vardır. Aşağıda Psikolojik danışma sürecinin bu aşamalarındaki kültürel faktörlerin etkisi incelenmeye çalışılmıştır.

[69] **AƏSMA, psixoloq, guldenizmetin@outlook.com**

## 2.Psikolojik Fonksiyonellik ve Kultur

etmək insan təvəkkürünü inkişaf etdirir. Hazırda İKT-dən kütləvi şəkildə istifadə olunması qlobal informasiya mühitinin yaradılmasına, intellektual texnologiyalara əsaslanan biliklər bazasının inkişafına, bulud (Cloud) texnologiyasının inkişaf etdirilməsinə və informasiya iqtisadiyyatının (keşən əsrin 60-cı illərində yaranan bu sahə İKT tətbiqinin təzahürüdür) yaranmasına səbəb olmuşdur. Ümumiyyətlə, İKT sistemləri və onun əlaqə vasitələrindən istifadə insanların intellektual səviyyəsini artırmaqla bərabər, eyni zamanda dünyada baş verən inteqrasiya proseslərinin aktivliyində də əvəzedilməz rola malikdir. Hazırda bütün sahələrdə İKT məhsullarının tətbiqi ilə istənilən məsələləri həll etmək, məlumat axtarmaq, əlaqələr yaratmaq və s. mümkündür. İnformasiya emalı texnologiyalarının tətbiq olunduğu sahələrə misal olaraq aşagıdakıları göstərə bilərik:

- *Bank sistemləri* (məsələn, BankONet, Macrobank4, PowerCard, Cash@Will, FinnOne, CHIPS, R-Stvle Softlab, RS-Bank V.6,FedWire, Swift və s.);
- Nəşriyyat sistemləri (burada adətən mətn və qrafiki redaktorların imkanlarından birlikdə istifadə olunur, bu proqramlara misal olaraq Page Maker, Ventura Publisher, QuarkXPress və s. göstərmək olar);
- Turizm (məsələn, *MASTER TUR, CAMO-TYP, TURWIN MULTIPRO AMADEUS, GALILEO, SABRE, WORLDSPAN* və s.);
- Mühasibat məsələrinin həlli (məsələn, SAP/R3paketi, Oracle Appalications, Baan IV paketi, Renaissance CS sistemi, “Project Expert 5” sistemi, “1С:Предприятие 8.” sistemi, “MS BackOffice” və s);
- Kompyuter qrafikası (məsələn, Adobe Photoshop, Picture Publisher, Photostiller, Corel Draw, , Macromedia DreamWeaver, Ulead Gif Animator Autodesk 3D Studio Max, Maya, 3D, Wing3D, AutoCAD, ArchiCAD, OrCAD, MathCAD, Fractal Explorer, Amtemu və s).
- Bazaların yaradılması (məsələn, FoxBase+, dBase, Clipper, Dbase for Windows, FoxPro, Database, Sybase, Ms Access, Progress, Paradox, Vizual Foxpro Oracle, SQL Server; Delphi; SQL İnterbase; ADABAS və s.);
- İnformasiya mühafizə sistemləri (məsələn, Dr. Solomon’s Anti-Virus Toolkit, Norton AntiVirus, Doctor Web, Aidstest, AVP, AntiViral Toolkit Pro Scaner; AIDSTEST, MsAfee VirusScan, Avira, Avast İnternet Security, Nod 32, Trend-Mikro, Kav-Personal Pro, Antivirus Plus, Panda Antivirus Pro, G Data AntiVirus, BullGuard AntiVirus və s.);
- İnternet axtarış sistemləri (məsələn, Google, Yahoo, Oingo, MSN Search (BING), Altavista, Toema, Deja, Fast, Snap, Eurosee, Infoseek, Opentext, Aport, Yandex, Rambler, Ask.com, AOL.com**,** Blekko**.**com, Wolframalpha.com (archive.org**),** DuckDuckGo.com, ChaCha.com (Alexan ) və s.);
- Veb proqramları (məsələn, HTML, SQL, CSS, C++, PHP, Ruby, Python, Java, JavaScript və s.).

Hazırda GPS peyk naviqasiya sistemlərindəki elektron ötürücülər vasitəsilə nəqliyyat vasitələrinin işinə nəzarət etmək, yollarin istiqaməti haqqında məlumat almaq və s. mümkündür.

Elektron texnologiyaların istifadəsindən danışarkən sosial şəbəkələr və onların təsir gücünü xüsusilə qeyd etmək lazımdır. Məsafədən asılı olmayaraq sosial şəbəkələr vasitəsilə qarşılıqlı ünsiyyət yaratmaq, səmərəli və maraqlı vaxt keçirmək, istənilən mövzular barədə müzakirələr aparmaq, lazım olan sorğulara cavab tapmaq kimi müxtəlif əməliyyatları isra etmək mümkündür. Fərqlı maraq dairələri olan insanlar bu sistemlər vasitəsilə birləşirlər. Hazırda dünya ölkələri tərəfindən müxtəlif sosial şəbəkələrdən, virtual foto və video paylaşma əlaqələrindən istifadə olunur, məsələn, WhatsApp, Facebook**,** TikTok, YouTube, Twitter, İnstagram**,** “Facebook Messenger” (Facebook tərəfindən xəbər və videoların sürətli mübadiləsi üçün yaradılmışdır), MySpace, Reddit, Sina Weibo, WeChat**,** Nexopia, Tagged, Friendster, Multiply, Orkut və s.

Covid19 pandemiyası dövdündə vəziyyətlə əlaqədar yaranan təhlükələrin azalması üçün sərt karantin rejiminin tətbiqinə keçirildı. Əlaqələrin real müstəvidən virtual onlayn (online) əlaqəsinə keçməsi cəmiyyətdə informasiya emalı texnologiyalarına xüsusi maraq yaratdı. Həmin dövrdə dünyada İKT sahəsində informasiya emalı texnologiyalarının tətbiqinin təzahüründən yaranan qlobal telesağlamlıq (ing.-telehealth) marketi daha da sürətlə inkişaf etməyə başladı. Hazırda isə bu bazarın böyüməsi və inkişafının artması planlaşdırılır. İKT telesağlamlığa aid bazarın 2024-2025-ci illər ərzində inkişafının 24,1% artması və gəlirin 17,2 milyarda qədər çatması nəzərdə tutulur.

## 2. Azərbaycan Respublikasında İKT

İnkişaf etmiş ölkələrdə olduğu kimi Azərbaycan Respublikasında İKT sənayesinin formalaşdırılması, informasiya emalı texnologiyalarının yeniləşən versiyalarının öyrənilməsi və ona uyğun olaraq həmin sahənin kadr patensialının inkişafı, İT modernləşdirilməsi, rəqəmsal iqtisadiyyatın inkişafı, mobil əlaqələrin əlçatan olması və s. istiqamətində bir çox layihələr qəbul edilərək, tətbiq olunur.

Daim aktiv fəaliyyət göstərən elektron hökumət (Prezidentin 23.05.2011-ci il tarixli 429 nömrəli Fərmanına əsasən 2012-ci ilin aprelində Elektron hökumət portalı istifadəyə verilmişdir) yüzlərlə portalları özündə birləşdirir. "Mobil hökumət - mobil imza" layihəsində mobil telefonlar vasitəsilə elektron imzanı mobil imza əvəz edəcək. Azərbaycan brendi adını almış "Asan xidmət"-in (13.07.2012-ci ildə yaradılıb. ASAN - ing. "Azerbaijan Service and Assesment Network"dir - Azərbaycan Xidmət və Qiymətləndirmə Şəbəkəsi) iş təcrübəsindən, onun vaxta qənaət etməyə imkan verən əlverişli proqramlardan, mobil notariat əlaqələrinin iş sistemindən bir çox dünya ölkələri istifadə edir. 09.08.2018-də yaradılmış DOST (Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi) mərkəzlərinin fəaliyyətindən aktiv şəkildə istifadə olunur. Hazırda "ASAN Login"ə "Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi" (e-Agro), Dövlət Satınalmalarının Vahid İnternet portalı (e-Satınalma), "ASAN ödəniş", e-sosial, "myGov" şəxsi kabinet əsaslı elektron hökumət platforması, Dövlət Gömrük Komitəsi və digərləri olmaqla 28 qurum və 60-a yaxın sistem inteqrasiya edilib.

Azərbaycanın "Azərspace-1″ (08.02.2013), "Azerspace-2" (26.09.2018) süni peykləri müxtəlif xidmətlər göstərir. Onun xidmətlərinə - telelviziya və radio kanallarının yayımlanması, rabitə platformalarının təmini, internet şəbəkəsinə daxil olma, rəqəmsal teleradioyayım sistemi, məlumatlar bazasının yaranması və ötürülməsi və s.aiddir.

Ölkədə fəaliyyət göstərən və İT xidmətləri üzrə istismar xərclərini 40 % azaltmağa imkan yaradan Data Mərkəzi TİER III sertifikatına layiq görülüb. Hazırda optik texnologiyalar bazası dünya inkişaf səviyyəsinə uyğun olaraq inkişaf edir. TASİM layihəsi BMT-nin Baş Assambleyası tərəfindən yüksək qiymətləndirilib. "Genişzolaqlı İnternetin İnkişafı üzrə Dövlət" proqramı qəbul edilərək, tətbiq olunur. Ölkə Prezidentinin 14.03.2018-ci il tarixli Fərmanı ilə AR Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində "Elektron Hökumətin İnkişafı Mərkəzi" yaradılıb. 2017-ci ildən E-hökumət portalında "Elektron ipoteka" sistemindən istifadə olunur (Umarova, 2021: 67). Hazırda elektron imza və e-Aqro aktiv fəaliyyət göstərir (buradakı imzalama transaksiyasının sayı milyonlarladır), "Asan xidmət"in tərkibində mobil əlçatanlığa lazımi şərait yaradılıb və mobil notariat fəaliyyət göstərir. Alıcılara qarşı pul tələbi hüququnun banka güzəşt etməsi ilə əlaqədar olaraq banklar kiçik və orta sahibkarlar üçün *FAKTORİNQ xidməti* təklif edir. Ölkədə nəqliyyatda "İntellektual idarəetmə mərkəzi" sistemi, nəqliyyat kartlarının tətbiqi, on-layn (online) bilet satışı, virtual pul mübadiləsi sistemi, xəstəxanalarda vətəndaşların elektron sağlamlıq kartı, banklarda plastik kartların tətbiqi, banklararası sistemlərin sürətli virtual əlaqəsinin qurulması, "elektron imza"dan istifadə, e-müsabiqələr, vergi hesab-fakturasının elektron formada təqdim etmə imkanı və s. uğurlu şəkildə fəaliyət göstərir. İKT-nin tətbiqi ilə təhsil sistemində distant təhsildən istifadə etmək imkanı yaranmışdır, e-kitabxanalar, Mobil kitabxana "Bookmate" və s. aktiv fəaliyyətdədir. "Hökumət buludu"nun yaradılması və "Bulud xidmətlərinin göstərilməsi sahəsində tədbirlər haqqında" Fərman 03.06.2019-cu il tarixində imzalanmışdır.

Hazırda e-ticarət bütün dünyada ən aktiv fəaliyyət göstərən sahələrdən biridir. Son illər Azərbacanda e-ticarət yüksək səviyyədə inkişaf edir. "Azexport" portalı "Made in Azerbaijan" adı altında daxili mallarımızı (yerli mənşəli mallar, bunlara misal olaraq, pambıq mahlıcı, toyuq əti, tütün, pambıq toxumu, noxud, meyvə tamlı süd, tikinti materialı, toyuq yumurtası, çay, şərab, nar şirəsi, bitki yağı, biyan kökü, şirniyyat, tibbi zəli və s.) dünyaya tanıtdırır. Azərbaycanda səhm almaq üçün elektron mağaza yaradılıb. 2017-ci ilin yanvar ayından 2021-ci ilin 31 may tarixinədək (53 ay ərzində) *Azexport.az* portalına dünyanın 145 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri 2,390 mlrd. dollar təşkil edib. 2021-ci ilin yanvar-may aylarında e-ticarət ümumi nağdsız ödənişlərin əsas payını təşkil edib 52,9% (həmin aylarda əhali tərəfindən bank kartları vasitəsilə e-ticarətdə 1,846 mlrd. manatlıq ödəniş edilib) 01.01.2021-ci il tarixindən etibarən "Sadələşdirilmiş Bəyannamə - Elektron Ticarət" (Smart Customs) layihəsi tətbiq olunur. (https://www.rabitabank.com/pos-terminallar), Visa payWave kartları ilə toxunmadan ödəniş imkanını həyata keçirmək mümkünləşir.

2021-ci ildə Azərbaycan Respublikasında "İnformasiya və rabitə xidmətləri"ndən əldə olunan gəlir 2391079 milyon manat (*Cədvəl 1*):




**Şəkil 3. "İnformasiya və rabitə xidmətləri"ndən əldə olunan gəlir**

İKT sektorunda məhsul (xidmətlər) buraxılışı 2 249,7 milyon manat (Cədvəl 2), İKT sektorunda yaradılmış əlavə dəyərin həcmi 1 663,8 milyon manat, İKT məhsullarının idxalı 1 083,2 milyon manat məbləğində olmuşdur (https://stat.gov.az/source/communication/.)

**Cədvəl 2**




**Şəkil 4. İKT sektorunda məhsul (xidmətlər) buraxılışı**

Ölkəmizdə və dünyanın bir çox ölkələrində keçirilən Ekspo sərgilərində (məsələn, Milan, Antalya və Astana, Dubay  və s.) Azərbaycan "Made in Azerbaijan" brend malları ilə uğurla çıxış edir. Bu cür beynəlxalq sərgilərdə təqribən 190-a yaxın ölkə öz məhsullarını təmsil edir. Belə sərgilərdə iştirak edən ölkələr öz məhsullarını dünyaya tanıtdırır.

Türkiyənin "Teknofest" (AEROKOSMİK VƏ TEXNOLOGİYA FESTİVALI ) festivalında 2021-ci ildə iştirak edən ölkəmiz pilotsuz uçuş aparatlarını, 11 yerli şirkət və startapın məhsullarını nümayiş etmişdir (https://www.teknofest.az/az/corporate/about/). 26.05.2022 - 29.05.2022-ci il tarixlərində "Bakı Kristal Zalı" və dənizkənarı bulvar ərazisində "Teknofest Azərbaycan" festivalnin keçirilməsi ölkəmizin İKT sahəsinin inkişafına və tətbiqinə olan marağını bir daha sübut edir.

Ölkəmizdə bəzi mütəsəssislər tərəfindən internetin qızılı adlandırılan ilk kriptovalyuta birjası 24.04.2020-ci il tarixindən etibarən azərbaycan yaradıldı və manatla bitkoin satılması planlaşdırıldı *https://fed.az/az/bir* Kriptovalyuta birjasında - Bitcoin (BTC), Ethereum (ETH) və Ripple (X manatla alıb satmaq mümkündür. Azərbaycanda "*PulExchange" –*



platforması ilk kriptovalyuta alışına və satışına imkanı yaradır (*https://azport.info/473/bitcoin-ndir;* AzCoin-http://www.azcoin.az/). Azərbaycanda kriptovalyuta əməliyyatlarının vergiyə cəlb edilməsi istiqamətində mexanizm hazırlanır.

Ölkə Prezidentinin 02.02.2021-ci il tarixli Sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" layihəsi qəbul edilmişdir (https://nk.gov.az). Bu layihədə 5 strateji hədəf və hər hədəfə uyğun prioritetlər müəyyən edilib. İKT sahəsinin inkişafı Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı" bölməsində daha ətraflı əks olunur.

"Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətlərinin təsdiq edilməsi" haqqında AR Prezidentinin Fərmanı (16.03.2016-cı il, Sərəncam №1897) ilə qəbul edilən Sərəncamda ümumilkdə aşağıdakılar nəzərdə tutulur:

I. 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyasını və tədbirlər planı

II. 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış

III. 2025-ci ildən sonrakı dövrə aid hədəf baxışını özündə əks edir (burada - 1.11. "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi" – əlavə olunur. (https://mida.gov.az/documents/Telekommunikasiya.pdf).

Burada əsas məqsəd AR-nı regionun aparıcı texnologiya əsaslı ölkəsinə çevrilməkdir, çünki, İKT özü ilə digər sahələridə paralel inkişaf etdirir. Ölkəmizin ümumdünya elektron məkanına sürətli inteqrasiyası üçün son texnologiyaya əsaslanan biliklər bazası yaradılır, telekommunikasiya sahəsinin və informasiya iqtisadiyyatının inkişafına dəstək məqsədilə xüsusi maliyyə vəsaiti ayrılır, bu yönümlü dünya təcrübələrindən istifadə olunur (Umarova, 2021: 146). İqtisadi proqnozlara görə Azərbaycanda 2024-cü ildə isə 2,4 % iqtisadi inkişaf olacaq və fiber-optik və LTE texnologiyaları ilə genişzolaqlı internet şəbəkələrinin və xidmətlərin əhatə dairəsi 80%-dək genişləndiriləcək.

### 3. "Ağıllı" layihələr

İKT sahəsinin daim inkişaf etməsi bu texnologiyanın bütün sahələrdə tətbiqini artırır. Məsələn, 5G texnologiyasının yaranması (5G 10 Gbps sürəti ilə işləyir, onun tətbiqi isə "ağıllı" elektron layihələrin tətbiqini sürətləndirir. Finlandiyadakı Ar-Ge mərkəzində 6G texnologiyasının tətbiqi ilə bağlı araşdırmalar aparılır) yalnız sənaye sahələrində deyil, eyni zamanda aqrar sahələrdə də onun tətbiqinə xüsusi maraq yaratdı. Ümumiyyətlə, müxtəlif sahələrdə tətbiq olunan yeni innovativ texnologiyalardan istifadə bu bazarı müxtəlif bölmələrə ayırır (Şəkil 3), məsələn:




**Şəkil 3. Yeni innovativ texnologiyalar**

"Ağıllı" layihələrdən istifadənin özünə xas üstünlükləri var. Məsələn, yeniləşən İKT-dən, robotlaşmış texnikadan istifadə cəmiyyətdə aşağıdakı üstünlükləri yaradır:

- rəqəmsal iqtisadiyyatı daha da inkişaf etdirir;
- təhlükəsizliyə təminat yaradır və göstərilən xidmətlərin keyfiyyəti artır;
- az işçi qüvvə ilə çox iş görmək mümkün olur;
- elekrton təhsilə imkan yaradır;
- elekrton tibb tətbiq olunur;
- elekrton ticarətlə kommersiya həyata keçirilir;
- sistemlərin təhlükəsizliyinin təmini artır;

- kommunal xidmətlərə fasiləsiz çıxış yaranır;
- mərkəzdən “ağıllı” idarəetmə təmin olunur;
- nəqliyyatla elekrton əlaqə yaradılır;
- Virtual məkanda dünyaya çıxışı sürətləndirir və s.

İşğaldan azad olunmuş Qarabağ bölgəsinin təbiəti də ermənilər tərəfindən qətlyama uğramışdır. Bu torpaqlardakı vəziyyəti stabilləşdirmək, orada yaşayacaq əhali üçün müasir inkişaf səviyyəsinə uyğun olaraq lazımi şəraitin yaradılması istiqamətində müxtəlif layihələr qəbul edilir, planlı işlər həyata keçirilir (Umarova, 2021: 96) Məsələn:

- Ölkə prezidentinin 04.01.2021-ci il tarixli fərmanı ilə Qarabağ Dirçəliş Fondunun yaradılması;
- “Ağıllı şəhər” (Smart City) və “Ağıllı kənd” (Smart Village) konsepsiyasının hazırlanması haqqında Prezidentin 19.04.2021-ci il tarixində imzaladığı Sərəncam;
- Bölgədə yeni hava beynəlxalq hava limanlarının yaranması;
- Rəqəmsal iqtisadi regionların yaranması və inkişafı;
- Yeni yolların salınması;
- Alternativ enerji mənbələrinin yaradılması və s.

5G texnologiyası və süni intellekt əsasında yaradılan “Ağıllı kənd”, “Ağıllı şəhər” layihələrin innovativ tətbiqi dayanıqlı inkişafında çox böyük təsirə malikdir. Qarabağ ərazisində yenidənqurma prosesləri bu konsepsiyalar əsasında bərpa olunur. Qarabağda təqdim edilən "Ağıllı" intellektual layihələrin tətbiqi ardıcıllığı müxtəlif bölmələrinindən, bir neçə alt hissədən (çünki, hazırlanan layihələr müəyyən addımlar əsasında proqramda nəzərdə tutulan ardıcılıqla həyata keçirilir) ibarətdir. Görüləcək işlər üçün ilkin olaraq 2021-ci ildə dövlət büdcəsindən 2,2 milyard manat pul ayrılıb. Məsələn (Şəkil 4):




**Şəkil 4. “Ağıllı” layihələr**

Mütəxəssislərin araşdırmasına görə “ağıllı” istehsal və “ağıllı” kənd təsərrüfati sahələri, müvafiq qaydada 70 milyard və 55 milyard avro ilə ən yüksək xalis mənfəət gətirir. 5G mobil texnologiyasının “açıq innovasiyalar platforması” kimi istifadə olunması nəticəsində 2025-ci ilə qədər 2.600.000.000 avro maliyyə mənfəəti əldə edə bilər (https://www.azerbaijan-news.az).

**Nəticə**

İKT sənayesinin daim inkişaf edərək tətbiq olunması rəqəmsal iqtisadiyyatı gücləndirməklə bərabər, eyni zamanda intellektual informasiya bazalarının yaranmasına və formalaşmasına səbəb olur. Cəmiyyətin demokratikləşdirilməsi prosesində çox böyük rol oynayan bu texnologiyaların yaratdıqları imkanlar sayəsində dünya üzərindən sürətli internet-şəbəkə əlaqələri təmin olunur. Lakin İKT sahəsi inkişafda olduğuna görə daim həmin sahəyə investisiya yatırımları qoyulur. Müstəqil Azərbaycan Respublikasında bu sahəyə xüsusi maraq göstərilir, azad olmuş Qarabağ torpağında “ağıllı” layihələrin tətbiq olunması bunu bir daha sübut edir. İKT sənayesinin inkişaf səviyyəsinə uyğun olaraq dünya səviyyəsində kadrların yetişdirilməsi və bu sahəyə xüsusi investisiya qoyulmasi bu günün əsas tələbatlarından biridir. Ölkəmizdə bu sahəyə aid bölmələrin daha inkişaf etdirilməsi və yüksək texnologiyalar parklarının yaradılması istiqmətində görülən işlərə əlavə olaraq aşağıdakı bölmələri də əlavə etmək olar:

1. Genişzolaqlı şəbəkənin tətbiqinin daha da artırılması üçün xüsusi vəsaitin ayrılması;
2. Rəqəmsal reseptlərin kütləvi şəkildə verilməsi və inkişafı;
3. Mərkəzi elektron tibbi uçot sisteminin daha da inkişaf etdirilməsi;
4. Kriptovalyuta proseslərini dərindən öyrənilməsi üçün xüsusi mütəxəssislərin cəlb edilməsilə yerli kadrlari yetişdirilməsi;
5. Tranzit trafik xəttinin sürətli inkişafı

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi "Azərbaycanda turizm". Statistik məcmuə. Rəsmi nəşr. Bakı-2019
2. Süleymanov E.N. "Azərbaycanda turizmin inkişafının sosial-iqtisadi rolu" BDİU. Bakı 2016.
3. Umarova N.Ə. "Turizmin inkişafında İKT" Metodiki vəsait. 2021
4. Umarova N.Ə. "İqtisadiyyatda innovativ texnologiyalar. Elektron kommersiya" Dərs vəsaiti ADNSU mətbəəsi. 2021
5. https:// azerbaijan-news.az
6. https://azertag.az/xeber
7. http://www.azcoin.az/)
8. https://az.wikipedia.org/wiki/
9. https:// yeniazerbaycan.com/SonXeber_e18540_az.html

## E- İDARƏETMƏ DÖVRÜN TƏLƏBİDİR

**Təranə VƏLİYEVA** [75]

**Xülasə**

Məqalədə dövlət orqanları tərəfindən elektron xidmətlərin geniş tətbiqi, ondan istifadənin səmərəliliyi, vətəndaşların həmin xidmətlərdən istifadə edən zaman əldə etdikləri üstünlüklər və bu istiqamətdə görülən müxtəlif işlər təsvir olunmuşdur. Bütün dünyada olduğu kimi, ölkəmizdə də dövlət və digər qurumlarında qabaqcıl informasiya və kommunikasiya texnologiyalarından (İKT) istifadə olunması nəticəsində rəqəmsal idarəçiliyin tətbiqi tədqiq edilmişdir.

***Açar sözlər:*** *elektron xidmətlər, rəqəmsal idarəçiliyik, e-sənəd dövriyyəsi*

**E-Governance Is The Need Of Tıme**

***Summary*** The article describes the widespread use of electronic services by state bodies, the efficiency of its use, the advantages citizens get when using those services, and various works done in this direction. As in the whole world, the application of digital management has been studied as a result of the use of advanced information and communication technologies (ICT) in state and other institutions in our country.

***Keywords:*** *electronic services, digital management, e-document circulation*

*UOT (JEL) -004.4*

### Giriş

XXI əsrin əvvəlindən İnformasiya Kommunikasiya Texnologiyaları (İKT) cəmiyyətin inkişafına təsir göstərən əsas amil olaraq İnformasiya Dünyasına keçid dövrünü əhatə edir. Fərdi kompüter (FK), İnternet, e- poçt, e-ticarət, e-bank, multimedia məhsulları, IP-telefon, vertual oyunlar, intellektual sistemlər, obrazların və nitqin tanınması sürətlə cəmiyyətin məişətinə daxil olaraq gündəlik fəaliyyətdə mühüm yer tutur.

İKT iqtisadi, sosioloji və digər sahələrdə yüksək nailiyyətlər yaratmaqla insanların real ehtiyaclarını ödəyir, informasiyanın işlənməsi texnologiyası birbaşa verilənlərin emalı prosesindən asılı olur. Bu proses də verilənlərin e-qeydiyyatını, verilənlərin e-toplanmasını, verilənlərin e-emalını, verilənlərin e-ötürülməsini əhatə etməklə ***e-idarəetmə*** anlamını xarakterizə edir. Bu gün e- idarəetmənin geniş miqyaslı tanınması üçün dövlət layihələri hazırlanır, ödəniş sistemlərinin inkişaf etdirilməsi və rəqəmsal sistemlərdə tətbiqinə geniş imkan yaradılması üçün təminatlar ayrılır, elektron tarazlığın inkişafına şərait yaratmaq üçün texniki hazırlığa xüsusi investisiyalar qoyulmasına diqqət edilir.

İdarəetmə- latınca *"administratio"* sözündən götürülmüş, müəyyən fəaliyyət növünü xarakterizə edir və ictimai əhəmiyyət kəsb edən, məqsədlərə nail olmaq üçün həyata keçirilən universal vasitələr kompleksidir. Daha dogrusu, *idarəetmə*- nəyinsə və ya kiminsə üzərində rəhbərliyin həyata keçirilməsidir. İdarəetmə bir çox əlamətlərlə xarakterizə edilir: Məsələn, müxtəlif təbiətli*(bioloji, texniki, sosial)* sistemləri əhatə etməsi, ünsürlərin qarşılıqlı fəaliyyət əlaqələrinin təşkilinə xidmət etməsi, müxtəlif iyerarxiyalı sistemlərin sistemdaxili və sistemlərarası funksiyalarının həyata keçirilməsi, idarəolunan elementin idarəedən elementə tabeçiliyinin reallaşdırılması, idarəetmə subyekt və obyekt kimi əsas elementlərin vəhdətinin təşkili və s.

İdarəetmənin əsas funksiyaları isə aşağıdakılardır:

- proqnozlaşdırma funksiyası;
- doğru məlumat mübadiləsi funksiyası;
- planlaşdırma funksiyası;
- təşkiletmə funksiyası;
- nizamlama və operativ sərəncamvermə funksiyası;
- koordinasiya (əlaqələndirmə) funksiyası;
- nəzarət funksiyası;
- uçot (qeydiyyat) funksiyası.

[75] **Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, e-mail:tarana 055@mail.ru**

İstənilən cəmiyyətin fəaliyyət məqsədləri konkretləşdirilərək ictimai həyata xas olan özünütənzimləmə, özünüqoruma və özünütəşkilatlandırma funksiyaları şüurlu şəkildə həyata keçirilir. İnformasiya texnologiyalarının inkişaf etdiyi müasir dövrdə də bütün fəaliyyət növləri uzlaşdırılır və reallaşdırılır.

Hazırda Dövlət orqanlarında (qurumlarında) qabaqcıl informasiya və kommunikasiya texnologiyalarından(İKT) istifadə olunması və rəqəmsal idarəçiliyin tətbiq edilməsi istiqamətində mühüm nailiyyətlər əldə edilmiş, həyata keçirilən tədbirlər yüksək səviyyədə davam etdirilərək rəqəmsal hökumətə keçid prosesi sürətləndirilmişdir. Rəqəmsal idarəçiliyin inkişafı, daxili idarəetmə proseslərinin(kargüzarlığın aparılması, sənədlərin icrasına nəzarət, arxiv, kadrların idarə olunması, maliyyə-uçot və mühasibat, təchizat və təminat) optimallaşdırılması və elektronlaşdırılması çevik və e-idarəetməni təmin edir.

“ e- idarəetmə ”nin bir neçə üstünlükləri var və bunlardır:

1. Hökumət üçün: müasir texnologiyaların geniş tətbiqi ilə dövlət orqanlarının fəaliyyətlərinin səmərəliliyinin artması, büdcə vəsaitlərinə qənaət edilməsi, dövlət xidmətlərinin göstərilməsi müddəti və xərclərinin azalması, dövlət orqanlarının vahid informasiya fəzasının formalaşması və təhlükəsizliyinin təmin olunması, effektiv, şəffaf, nəzarət oluna bilən dövlət idarəetməsinin və yerli özünüidarəetmənin bərqərar olması;
2. Vətəndaşlar üçün: vətəndaşların dövlət idarəçiliyində fəal iştirak etməsi, vətəndaşların dövlət orqanları ilə təmaslarının sadələşdirilməsi, daha münasib və çevik formada həyata keçirilməsi, informasiya tələbatının dolğun ödənilməsində rahatlıq, məhdud imkanlı insanların dövlət xidmətlərinə çıxış imkanı əldə etməsi;
3. Biznes sektoru üçün: dövlət orqanları ilə səmərəli və operativ şəkildə əlaqələrin qurulması, xərclərin azaldılması, iqtisadi aktivliyin, rəqabət qabiliyyətinin və xarici bazarlara çıxış imkanlarının artması.

Azərbaycanda da idarəetmənin elektron modeli əsasında proqramlar yerinə yetirilir. Belə ki, vətəndaşlar istədiyi məlumatı konkret hökumət qurumunun veb saytından götürə bilir, həmin idarələrə getmək, məktub yazmaq, qapılar arxasında dayanmaq, növbədə durmaq və s. kimi çox vaxt tələb edən prosedurların əvəzinə birbaşa evində oturub həmin problemlərin həlli istiqamətində müraciət edə bilir.

## 1. Azərbaycanda E-hökumət Portalının Tətbiqi

"e- hökumət" nədir? e-hökumət - dövlət qurumlarının vətəndaşlara və biznes qurumlarına İKT-dən istifadə etməklə xidmət göstərməsi olub, başlıca məqsədi dövlət orqanlarının fəaliyyətinin səmərəliliyini artırmaq, operativliyi yüksəltmək, münasibətləri daha asan, sadə və şəffaf formada həyata keçirməkdir. Bu anlayış ötən əsrin 90-cı illərində Qərbdə meydana çıxıb və idarəetmə sisteminin təkmilləşməsinin ən etibarlı üsüludur.

Hazırda, e-hökumət mexanizmi dünyanın inkişaf etmiş ölkələrində uğurla tətbiq olunaraq idarəetməni İnternet üzərindən yerinə yetirir (Umarova, 2016: 125-127)Müasir dövrdə gedən qloballaşma, modernləşmə və informasiyalaşma bir-birilə əlaqəli olub, hər bir e-hökumətin fəaliyyət keyfiyyətinin artırılmasında əsas rol oynayırlar. Cənubi Koreya, Sinqapur, ABŞ, Avropada aparıcı iqtisadiyyata malik olan Niderland, Böyük Britaniya və Danimarka "e- hökumət" texnologiyalarından istifadəyə görə lider ölkələr siyahısındadır. Bu ölkələr qısa vaxt ərzində böyük inkişaf əldə ediblər.

Azərbaycan da "e- hökumət" layihəsinə start verən ilk ölkələrdəndir.Son illər ölkəmizdə İnformasiya Cəmiyyətinin bərqərar olması və bunun tərkib hissəsi kimi İKT-nin geniş tətbiq edilməsi istiqamətində sistemli fəaliyyət aparılır. Yəni, milli irsimiz və mədəniyyətimizlə bağlı materialların virtual məkanda daha dolğun şəkildə yerləşdirilməsi, azərbaycandilli İnternet resurslarının zənginləşdirilməsi, İnternet-radio və İnternet-televiziya proqramları, elektron qəzet və jurnalların yayılması, sosial şəbəkələrin geniş yer alması və respublika əhalisinin əksər hissəsinin internet istifadəçisinə çevrilməsi daim yeniləşən İKT-nin inkişafının əyani göstəricisidir (2013-cü il Azərbaycan Respublikasında "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edilmişdir).

“e- hökumət” – olkəmizdə informasiya və e-xidmətlərin göstərilməsinə ştimul vermişdir. “e-hökumət”in formalaşdırılması beynəlxalq təcrübəyə əsaslanır və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramının (e- Azərbaycan)” təsdiq edilməsi haqqında Sərəncamı, “Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” 23 may 2011-ci il tarixli Fərmanı və digər normativ hüquqi aktlarla fəaliyyəti üçün hüquqi baza yaradılmışdır. Respublikamızın

ərazisində yaşayan bütün vətəndaşlara, hüquqi və fiziki şəxslərə, xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə e-xidmətlərin göstərilməsinə şərait yaradılmışdır.

Ölkəmizdə Beynəlxalq təcrübəyə əsasən vətəndaşların dövlət orqanları ilə təmaslarının daha münasib şəkildə təşkili üçün “bir pəncərə” prinsipi həyata keçirilir. “Bir pəncərə” prinsipi əsasında ***www.e.gov.az*** e-hökumət portalı vətəndaşların asanlıqla informasiya əldə etməsi üçün nəzərdə tutulmuşdur. Bu İnternet resursu dövlət qulluğu, məşğulluq, pensiya və sosial müavinət, əmlak və vergi münasibətləri, gömrük işi, torpaq kadastrı, hüquq mühafizə, tələbə qəbulu, turizm, nəqliyyat, rabitə, səhiyyə, ticarət, statistika, təhsil və s. xidmətlərielektron şəkildə əldə etməyə imkan verir. Bir sözlə, www.e-gov.az dövlət orqanları arasında operativ əlaqənin yaradılmasını təmin edən universal ünsiyyət vasitəsidir.





“bir pəncərə” prinsip əsasında təşkil olunan və dövlət orqanlarının göstərdiyi e-xidmətləri cəmləşdirən “e- hökumət” Portalı 2012-ci ilin aprel ayında istifadəyə verilmişdir.

“e- hökumət”in əsas fəaliyyət prinsipləri aşağıdakılardır:

- Azərbaycan Respublikasının mövcud qanunvericiliyin tələblərinə riayət edilməsi;
- İnformasiyalaşdırma sahəsində dövlət siyasətinin həyata keçirilməsi, dövlət və milli maraqların qorunması;
- İstifadəçilərə təqdim olunan məlumatların tamlığının, həqiqiliyinin, aktuallığının, təhlükəsizliyinin, mühafizəsinin sadə və operativ şəkildə əldə edilməsi imkanlarının təmin olunması;
- Dövlət qurumları arasında səlahiyyət və məsuliyyət bölgüsü;
- Dövlət idarəçiliyində müasir texnologiyaların tətbiqini genişləndirməklə həyata keçirilən fəaliyyətin səviyyəsinin yüksəldilməsi və onlardan istifadə imkanlarının sadələşdirilməsi;
- Dövlət qurumlarının və yerli özünüidarəetmə orqanlarının işinin səmərəliyinin artırılması və təqdim olunan elektron xidmətlərin keyfiyyətinin yüksəldilməsi;
- İstifadəçilərə dövlət qurumları tərəfindən təqdim olunan e-xidmətlərin optimallaşdırılması və yerinə yetirilmə prosedurlarının sadələşdirilməsi;
- Elektron xidmətlər vasitəsilə istifadəçilərə təqdim olunan məlumatların həqiqiliyinin, tamlığının, etibarlılığının təmin edilməsi;
- İstifadəçinin sorğusuna əsasən məlumatların axtarılmasına və əldə edilməsinə sərf olunan vaxtın maksimum azaldılması;
- İstifadəçinin yerləşdiyi coğrafi məkandan asılı olmayaraq ölkənin bütün ərazisində təqdim olunan elektron xidmətlərdən istifadənin mümkünlüyü. (3)

**“e- hökumət”** Portalının əsas texniki-texnoloji infrastrukturu Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi “AzInTelecom” MMC –də (*əvvəlki Rabitə və Yüksək Texnologiyalar Nazirliyində Məlumat Hesablama Mərkəzi)* quraşdırılmışdır və onun fəaliyyətinin texniki dəstəklənməsi həyata keçirilir. Ölkəmizdə "e- hökumət" işlək mexanizmə çevrilməklə Dövlət idarəçiliyində müasir texnologiyaların tətbiqini genişləndirir.

### 2. Azərbaycanda ASAN Xidmət

Aərbaycanda e-xiidmətləri əsasən dövlət orqanları ilə əlaqələndirici rol oynayan ***Azərbaycan** Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi* həyata keçirir. Agentlik - xidmət mərkəzlərinin vahid şəkildə idarə edilməsini, xidmət mərkəzlərində fəaliyyət göstərən dövlət orqanlarının əməkdaşlarının fəaliyyətinin genişləndirilməsinii, nəzarət və qiymətləndirmənin aparılmasını, dövlət orqanlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyasını, aparılan işlərin təşkili prosesinin sürətləndirilməsini, bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsini təmin edən dövlət orqanıdır.

*Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi* Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli 685 nömrəli Fərmanına əsasən yaradılıb və onun tabeliyində “*ASAN xidmət” ( "Azerbaijan Service and Assessment Network" (azərb. Azərbaycan Xidmət və Qiymətləndirmə Şəbəkəsi)* mərkəzləri fəaliyyət göstərir.

15 yanvar 2013-cü ildə Bakı şəhərində ilk "ASAN xidmət" mərkəzinin açılışı olmuş və mərkəz 9 dövlət orqanının təklif etdiyi 23 xidmətlə fəaliyyətə başlamışdır(*Bakı şəhərində 7, bölgələrlə birlikdə 24 ASAN xidmət nərkəzləri fəaliyyət göstərir).*

Azərbaycanın intellektual brendi olan “ASAN xidmət” mərkəzlərinin yaradılmasında *əsas məqsəd* vətəndaşların əlavə xərclərinin və vaxt itkisinin azalması, vətəndaşlara münasibətdə etik qaydalara, nəzakətli davranışa əməl edilməsinə nail olunması, peşəkarlıq səviyyəsinin artırılması, dövlət strukturlarına etimadın daha da gücləndirilməsi, şəffaflığın artırılması, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, e-xidmətlərdən daha geniş istifadə olunması, bu sahədə aparılan islahatların səmərəliliyinin yüksəldilməsidir.

Onu da qeyd edim ki, Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktay 16 sentyabr 2019-cu il tarixində “ASAN xidmət” mərkəzləri ilə tanış olmuşdur. Qonağa mərkəzlərin yaradılması məqsədləri, fəaliyyət istiqamətləri, innovasiyaların tətbiqi barədə məlumat verilmiş, şəffaflığın artırılması və müasir innovasiyaların tətbiqi baxımından səmərəli dövlət idarəçiliyinin təmin edilməsi sahəsində ciddi nailiyyətlərin əldə olunması çatdırılmışdır. Həmçinin. Dövlət Agentliyi ilə Türkiyə Respublikası arasında uğurlu əməkdaşlığın yaradılması və “ASAN xidmət” modelinin Türkiyədə tətbiqi ilə bağlı fikir mübadiləsi aparılmış, 2019-cu ilin iyun ayında Bakıda təşkil olunan BMT-nin Dövlət Xidmətləri Forumu çərçivəsində e-hökumət sahəsində əməkdaşlıq haqqında Niyyət Protokolunun imzalanması da qiqqətə çatdırılmışdır.






Ölkəmizdə Ümumtəhsil mərkəzlərinin 6-14 yaş arası şagirdlərinin elmə, innovasiyaya və texnologiyaya marağını və biliklərini artırmaq, elmi biliklərin təcrübədə tətbiqini təmin etmək üçün xüsusi qürumlar da fəaliyyət göstərir. Bu istiqamətdə Bakıda 28 may 2022-ci il tarixində 7 saylı “ASAN xidmət” və “Bilim Bakı” mərkəzlərinin Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakları ilə açılışları olmuşdur. Mərkəzdə perspektiv ehtiyacları nəzərə alan, gündəlik həyat problemlərinin həllinə yönələn və şagirdlərə XXI əsrin bacarıqlarına yiyələnmək imkanı verən “Deneyap Texnologiya” proqramı həyata keçiriləcək. Mərkəzin əsas məqsədi qabaqcıl ASAN təcrübəsini, innovativ və yeni təlim metodlarını tətbiq etməklə ölkəmizdə müxtəlif özəl və dövlət orqanlarında vətəndaşlara xidmət sahəsində kadrların peşəkarlıq səviyyəsinin təkmilləşdirilməsinə töhfə vermək, bilik və bacarıqların artırılması istiqamətində təlimlər həyata keçirməkdir.

Aerokosmik sahədə də e-idarəetmə prinsipi ilə innovativ texnologiyaların tətbiqi həyata keçirilir. Bu baxımdan Prezident İlham Əliyevin 2021-ci il 2 fevral tarixli Sərəncamla təsdiq etdiyi “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” strateji sənədində müasir innovasiyalar məkanının qurulması məsələsi öz əksini tapıb. 26 may 2022-ci il tarixində Bakıda start verilən “TEKNOFEST Azərbaycan” festivalında pilotsuz uçuş aparatlarının, robotatexnikanın və peyk modelləşdirilməsinin nümayişi həyata keçirilib. Nümayışin Açılış mərasimində Azərbaycan Respublikasının Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, “TEKNOFEST”in İdarə Heyətinin və T3 Fondu Qəyyumlar Şurasının sədri Selçuk Bayraktar və Türkiyənin Sənaye və Texnologiya naziri Mustafa Varank iştirak ediblər. Onların fikrincə, ölkələr müstəqilliklərini qorumaq üçün yüksək texnologiyalara sahib olmalıdırlar. Gənclər bu istiqamətdə özlərini təsdiqləməli, bilik və bacarıqlarını daim artırmalıdırlar:

Azərbaycanda e-idarəetmə prinsipi dövlət sektorunda fəaliyyət göstərən hər bir qurumun veb-resursu əsasında formalaşdığından rəqəmsal idarəçiliyin inkişafında, daxili idarəetmə proseslərinin (kargüzarlığın aparılması, sənədlərin icrasına nəzarət, arxiv, kadrların idarə olunması, maliyyə-uçot və mühasibat, təchizat və təminat) optimallaşdırılması və elektronlaşdırılmasında, çevik və effektiv idarəetmənin təmin edilməsində "e-sənəd dövriyyəsi sistemi" yaradılmışdır. Bu e-sistem informasiya sistemində elektron sənədin nizamlanmış hərəkəti ilə bağlı informasiya proseslərini nəzərdə tutur. Burada istifadə olunan proqramlar, texniki vasitələr və texnologiyalar elektron sənəd dövriyyəsi vasitələri hesab olunur.

İnformasiya sistemində istifadə üçün elektron formada təqdim və təsdiq olunan sənəd - *e- sənəddir*. Bu sənəd vasitəsilə rəsmi və qeyri-rəsmi yazışmalar, hüquqi məsuliyyət və öhdəliklər doğuran informasiya mübadilələri aparılır. Azərbaycan Respublikasının qanunvericiliyi ilə sənədin notariat qaydasında təsdiqi və dövlət qeydiyyatı tələb olunduğu hallar istisna olmaqla, elektron sənəd kağız daşıyıcıda olan sənədə bərabər tutulur və onunla eyni hüquqi qüvvəyə malikdir. e- sənəddə dəyişiklik etməyə icazə verilmir. Ümumilikdə. e-sənəd- dövlət daxilində informasiya axınını artırmaqla dövlətin idarə edilməsinin təkmilləşdirilməsi üçün informasiya texnologiyalarının istifadəsini tələb edir.Bu gün insanların bir sənəd almaq üçün günlərlə, aylarla vaxt itirmələri tarixə qovuşmuşdur. İndi hər hansı dövlət qurumuna müraciət etmək üçün həmin ünvana getməyə ehtiyac qalmır, vətəndaşa lazım olan məlumat və sənədlər hər kəs üçün açıq olan İnternet şəbəkəsində yerləşdirilir və e-sənəd formatında əldə edilir.

**3. E-xidmətlər**

Azərbaycanda "e- xidmətlər" işlək mexanizmə çevrilmişdir. Buna 2008-ci ildə ilk onlayn ödəmə sisteminin istifadəyə verilməsini, dövlət orqanlarının vahid şəbəkə infrastrukturunun formalaşdırılmasını, dövlət informasiya ehtiyatlarının və fərdi məlumatların informasiya sistemlərinin reyestrlərinin yaradılmasını, verilənlər mərkəzinin(data-center) fəaliyyət göstərməsini və s. misal göstərmək olar. Dövlət qurumlarının e- xidmətləri bir *məkanda - e-hökumət portalında* birləşərək vətəndaşların asanlıqla informasiya əldə etmələri üçün nəzərdə tutulmuşdur. Portalda göstərilən xidmətlər İnternet üzərindən həyata keçirildiyi üçün zaman və məkan anlayışları aradan qaldırılmış, e-xidmətlərdən asan, rahat, şəffaf və səmərəli şəkildə yararlandırılmasına şərait yaradılmışdır.

Azərbaycanda e-xidmətlərdən ən çox istifadə edən *qurumlar* bunlardır:

- Əmək və Əhalininm Sosial Müdafiəsi Nazirliyi
- Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi
- Mərkəzi Seçki Komissiyası
- Dövlət Gömrük Komitəsi
- Daxili İşlər Nazirliyi
- Təhsil Nazirliyi
- Ədliyyə Nazirliyi
- Baş Prokurorluq
- Fövqaladə Hallar Nazirliyi
- Səhiyyə Nazirliyi
- Dövlət Statistika Komitəsi
- İqtisadiyyat Nazirliyi
- Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi
- Dövlət Sərhəd Xidməti
- Dövlət Miqrasiya komitəsi
- Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi
- Xarici İşlər Nazirliyi
- Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Komitəsi
- Dövlət İmtahan Mərkəzi
- Azərişıq MMC
- AzərsuMMC
- Azərenergetika MMC
- Azərqaz MMC və s.

Əhalininm daha çox müraciət etdikləri ***e- xidmətlər*** isə bunlardır:

- ✓ dövlət qulluğu
- ✓ məşğulluq
- ✓ pensiya və sosial müavinət
- ✓ əmlak və vergi münasibətləri
- ✓ gömrük işi
- ✓ torpaq kadastrı
- ✓ hüquq mühafizə
- ✓ tələbə qəbulu
- ✓ turizm
- ✓ təhsil
- ✓ səhiyyə
- ✓ nəqliyyat
- ✓ rabitə
- ✓ ticarət və s.

E-dünyada şəxsiyyəti müəyyənləşdirən *"e-imza"*-dır. Onun e-hökumət quruculuğu və vətəndaşların dövlət qurumlarına müraciətini asanlaşdırması baxımından önəmi böyükdür. e-imza sadə vətəndaşlara yüzlərlə elektron dövlət xidmətindən yararlanmağa imkan verir. Məsələn, uzaq kənddə yaşayan vətəndaş *"e-imza"* kartını əldə etməklə, istənilən dövlət qurumuna elektron şəkildə müraciət edə, məktub, təklif və şikayət yaza, ərizəsinə müəyyənləşdirilmiş vaxt ərzində baxılmasına nəzarət də edə bilir. Yəni, istənilən vaxt sistemə daxil olaraq ərizəsinin hazırda hansı instansiyada baxıldığını müəyyənləşdirir.






e -imza biznes sektoru üçün də geniş imkanlar açır. Belə ki, sahibkarlar onun vasitəsilə dövlət qurumlarında qeydiyyatdan keçir, həm yerli, həm də xarici tərəfdaşları ilə ticarət əlaqələri qurur, sənədləşmə işlərini rahat və asan şəkildə həyata keçirə bilirlər. Bununla da, həm vaxtlarına, həm də maliyyə vəsaitlərinə qənaət etmiş olurlar. (Verdiyeva , 2015: 35-39)

**e-imza** dövrün tələbləri sırasında informasiya cəmiyyətinin vacib elementlərindən biri olaraq **e-kargüzarlığın açarı hesab olunur.Yəni,** kargüzarlıq prosedurlarının elektronlaşdırılması və bununla bağlı kağız əməliyyatlarının ləğv edilməsi, minimallaşdırılması işlərində əsas rol oynayır. Eyni zamanda sənədlərlə iş prosesində şəffaflıq yaradır, eyni sənədlə istənilən sayda istifadəçyə işləmə imkanı verir, sənəd arxivləri işini səmərəli təşkil edir, idarəetmə effektivliyini yüksəldir, virtual elektron sənəd mübadiləsinin təhlükəsiz və çevik icrasını təmin edir.

İnternetin həyatımıza bu qədər yaxın olduğu bir dövrdə ödəmələri həyata keçirmək üçün əlavə vaxt sərf etməyə ehtiyac yoxdur. Bu istiqamətdə e-ödəmə yardımçı rolunu oynayır.Yəni, e-informasiya mübadiləsi prosesini sürətləndirən vasitə funksiyasını icra edən mobil-ödəmə sistemindən istifadə olunur Artıq vətəndaşın üzərində pul, kredit kartları, müxtəlif sənəd və vəsiqələr gəzdirməsinə ehtiyac yoxdur. Telefona kart taxmaqla metroda, avtobusda, restoranda mobil telefonu xüsusi qurğuya yaxınlaşdırıb ödəniş etmək mümkündür. Nağdsız hesablaşmaların genişlənməsi vergidən yayınma hallarının qarşısını alır, şəffaflığın artırılmasına və korrupsiyaya qarşı effektiv mübarizə aparılmasına kömək edər.

Günümüzdə e-ödəmə sisteminin mövcudluğu e- ticarətin genişlənməsinə də geniş yol açmışdır. e-ticarət - informasiya sistemlərindən istifadə edilməklə malların alqı-satqısı, xidmətlərin göstərilməsi və işlərin görülməsi üzrə həyata keçirilən fəaliyyət növüdür. E- ticarət iqtisadi fəaliyyətin yüksək templə

dəyişdiyi bir mühit olmaqla standart şəbəkələrdən istifadə edərək informasiya texnologiyalarının tətbiqi ilə informasiyanın, məhsul və xidmətlərin alqı-satqısı və marketinqi sistemi kimi müəyyən edilərək münasibətlərin daha da təkmilləşdirilməsini təmin edir.

Dünyada e-hökümət quruculuğunun ən son mərhələsi- İnternet üzərindən e-səsvermə kimi demokratik vasitənin tətbiqidir. Müasir dövrdə elektron nəslin formalaşması artıq bütün xidmət və fəaliyyətlərin İnternet üzərindən təqdim olunmasına zərurət yaradır. Hər seçicinin səsinin əhəmiyyətli olması, seçkinin vətəndaşlara qərarvermə prosesində iştirak etmək üçün şərait yaratması, namizədlər barəsində obyektiv məlumatların çatdırılması baxımından ***e-seçkinin*** tətbiqinin rolu əvəzsiz sayılır.

Artıq, bir neçə Avropa ölkəsində e-seçki sistemi uğurla tətbiq olunaraq, səsvermə mobil telefon vasitəsilə həyata keçirilir. e-seçki sisteminin daha ucuz, asan, az bürokratik, müdaxilə oluna bilməyən, seçkisonrası verilən səsin yoxlanmasına şərait yaradan yenilik olması e-demokratiyanın bərqərar olması baxımından "e-hökumət" layihəsinin əhəmiyyətini ölçüyə gəlməz edir.

İnformasiya Cəmiyətinin tələblərinə uyğun müasir təhsil sisteminin qurulması və onun dünya təhsil standartlarına real cavab verməsində İKT avadanlıqarının, proqramların və s. sistemlərin tətbiqi ***e-təhsil*** anlamını verir. Elmi araşdırmalarda, öyrənmə proseslərində və yeniliyi mənimsəmədə əvəzsiz xidməti olan *e-təhsil* e-idrəetmənin bünövrəsini təşkil edir. E-təhsilə misal olaraq tədrisin online formatda xüsusi proqramlar vasitəsilə keçirilməsini göstərmək olar.

Pandemiya dövründə Azərbaycan Respublikasının bütün təhsil müəssisələrində koronavirus təhlükəsinin yayılmasının qarşısını almaq üçün təhsil virtual tədrisə keçirildi. AƏSMA-da da tədrisin təşkilində *MS TEAMS* proqramından istifadə olundu. Bu proqram tədrisdə əlverişli vasitə olaraq, kollektiv əməkdaşlıq, virtual dərslərin, qarşılıqlı- görüntülü əlaqələrin təşkili, elektron lövhələrdən istifadənin mümkünlüyü, yoxlama testlərinin və ya müxtəlif materialların yerləşdirilməsi, audio və çat zəngləşməsi, sistemdə təhlükəsizliyin qorunmasının maksumum dərcədə olması, lazımi informasiyaların qarşılıqlı paylanması və bir sıra funksiyaları yerinə yetirməyə imkan verdi.

İqtisadiyyatın bütün sahələrində də e-idarəetmənin tətbiqi geniş imkanlara malikdir. Məsələn,

♦ ***Mühasibat uçotu***- informasiya texnologiyasının klassik tətbiq sahələrindən biridir. Bu sahədə əməliyyatların elektron icra edilməsi prosesi bu gün daha çox reallaşdırılan məsələlərdəndir.

♦ ***Bank sistemində*** depozit hesabların və kredit əməliyyatların avtomatlaşdırılması, fiziki və hüquqi müştərilərin hesabları və kredit almaları haqqında və s. məlumatlar elektron yerinə yetirilir.

♦ ***Marketinqin idarə oluıunasında*** firmalar, onların məhsulları və qiymət siyasəti haqqında verilənlərin toplanması, təhlili, həmçinin optimal qiymət səviyyəsinin təyini, gəlirin proqnozlaşdırılması və reklam kampaniyasının planlaşdınlmasını əhatə edir.

♦ ***Vergi sistemində***- büdcə daxilolmalarının internet vasitəsilə ödənilməsi, fiziki şəxslərin vergi uçotuna alınması, kommersiya hüquqi şəxslərin onlayn qeydiyyatı, vergi ödəyicisinin təsərrüfat subyektinin (obyektinin) fəaliyyətinin onlayn dayandırılması və s. əmərityyatlar elektron idarə edilir.

**Nəticə**

Dövlət orqanları tərəfindən e- xidmətlərin geniş tətbiqi, onlardan istifadəninın sayının artırılması, vətəndaşların bu xidmətlərə yüksək səviyyədə müraciət etmələri olduqca vacibdir. e-hökumət portalından istifadə edənlərin sayını artırmaq üçün bu sahədə maarifləndirmə işləri genişləndirilməli, sosial şəbəkələrdə təmsilçilik prinsipləri həyata keçirilməli, regionlarda görüşlər aparılmalı, KİV-də məlumatlandırıcı yazıların və televiziya verilişlərinin sayı artırılmalıdır. Müasir dövrün əsas aləti olan yeni texnologiyaları bilməmək, onunla ayaqlaşmamaq mümkün deyil. Bu texnologiyalardan istifadə səviyyəsi cəmiyyətin inkişaf parametrləri olmaqla insanların hüquq və azadlıqlarının reallaşmasında mühüm bir vasitəyə çevrilmişdir. Ona görə də vətəndaşların öz hüquqlarından daha geniş istifadə etmələri üçün onların e-yenilikləri bilmələri və e-idarəçiliyi tətbiq etməyi bacarmaları danılmazdır.

**ƏDƏBİYYAT**


1. N.Umarova İKT (İnformasiya kommunikasiya texnologiyası). Dərs vəsaiti. İTİ nəşriyyatı. Bakı 2016
2. N.M.Quliyeva "İdarəetmə fəaliyyətində informasiya texnoloqiyalarmdan istifadə olunması". Bakı 2015
3. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsı"
4. G.Verdiyeva "İqtisadiyyat və idarəetmə" Bakı 2015
5. R.Hümbətəliyev, H.Tağıyev, F.Quliyeva "İqtisadi informatikanın əsasları", Dərslik, Bakı 2014
6. S.Q.Kərimov. "İdarəetmənin informasiya texnologiyaları və korporativ informasiya sistemləri". Dərslik. Bakı 2010

7. http://edu.gov.az/
8. www.microsoft.com.az
9. http://compuser.info/
10. http://kayzen.az/tag/
11. http://.ik-tex.com/
12. http://xəbərlər.az/
13. http://az.wikipedia.orq
14. www.mincom.gov.az
15. http://e-tehsil.net

# СУЩНОСТЬ МЕТОДА МАТЕМАТИЧЕСКОГО МОДЕЛИРОВАНИЯ В ЭКОНОМЕТРИКЕ

**к.ф.-м.н, доцент Махир ДЖАЛАЛОВ**[76]

**Резюме**

В статье дается подробная информация о применении математического моделирования в эконометрике, как науку, связанную с преодолением значительных трудностей. В частности, математика, развивающаяся на протяжении нескольких веков в основном в связи с потребностями физики и техники сыграла огромную роль. Но главные причины лежат в природе экономических процессов, в специфике эконометрики.

***Ключевые слова-*** *модель, математическое моделирование, объект, экономические процессы, информация, связь, процесс.*

**Ekonometrikada Riyazi Modelləşdirmə Metodunun Mahiyyəti**

**Xülasə**

Məqalədə riyaziyyatın ekonometrikada tətbiqi, əhəmiyyətli çətinliklərin aradan qaldırılması ilə bağlı ətraflı məlumat verilir. Xüsusilə bir neçə əsr ərzində, əsasən fizika və texnikanın ehtiyacları ilə əlaqəli inkişaf edən riyaziyyat çox böyük rol oynamışdır. Ancaq əsas səbəblər iqtisadi proseslərin təbiətində, ekonometrika elminin xüsusiyyətlərindədir.

***Açar sözlər***: model, riyazi modelləşdirmə, obyekt, iqtisadi proseslər, məlumat, rabitə, proses.

В некоторых научных исследованиях доказано что, моделирование применялся еще в глубокой древности. И начал постепенно захватывать все новые научные области: строительство, архитектуру, астрономию, физику, химию, биологию и, даже общественные науки. Большие успехи и признание практически во всех отраслях современной науки принес методу моделирования в XX веке. Методы моделирования долгое время развивалась независимо от других наук. Отсутствовала единая система понятий, единая терминология. Лишь постепенно стала осознаваться роль моделирования, как универсального метода научного познания.

Термин "модель" широко используется в различных отраслях человеческой деятельности и имеет множество значений. Рассмотрим только такие "модели", которые являются инструментами получения знаний.

